# QƏDR GECƏLƏRİ

Höccətül-İslam vəl-müslimin
Hacı Seyyid Əli Əkbər Ocaqnejad

Bakı - 2010

## MÜBARƏK RAMAZAN AYI RƏHMƏT, MƏĞFİRƏT VƏ BƏRƏKƏT AYIDIR

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ. وَمَا أَدْرَاكَ مَا لَيْلَةُ الْقَدْرِ. لَيْلَةُ الْقَدْرِ خَيْرٌ مِّنْ أَلْفِ شَهْرٍ. تَنَزَّلُ الْمَلَائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِم مِّن كُلِّ أَمْرٍ. سَلَامٌ هِيَ حَتَّى مَطْلَعِ الْفَجْرِ

Mübarək Ramazan ayı Allahın insanlara rəhmət və bərəkətidir. Allah-təala bu ayda öz bəndələrini bağışlayıb hidayət etmək istəyir. Allah bu mübarək ayda insanların mənəviyyatını gücləndirib hidayət edərək onların ürəklərini paklaşdırıb ruhlarını təmizləmək istəyir. Mübarək Ramazan ayında Allah-təala Öz bəndələrini azğınlıqdan çəkindirib, çirkin əməllərdən uzaqlaşdırmaqla onları düzgün yola hidayət etmək istəyir. Bir sözlə desək, Allah-təala Ramazan ayında bəndələrinin Ona ibadət edib yaxınlaşmasını istəyir. Bu, bir mütərəqqi insanın ən əsas hədəfidir. Çünki insanın yaradılmasında məqsəd Allaha ibadətdir. Mübarək olan Ramazan ayında bir gecə var ki, onun adına Qədr gecəsi deyilir. Həmin bu gecədə əziz İslam Peyğəmbərinə(s) Quran nazil olmuşdur. Quranın

ayələrinə əsasən, Qədr gecəsi Ramazan ayının günlərindən birinə təsadüf edir.

## Qədr gecəsi nədir?

İslam hədislərinə əsasən belə ehtimal edilir ki, Ramazan ayının 19-21-23-cü gecələrindən biri Qədr gecəsidir. Qədr gecəsi Quranın nazil olduğu gecədir. Belə ki, Allah-təala Qurani-Kərimdə buyurur:

إِنَّا أَنْزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ

“Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi nazil etdik!”[1] Beləliklə, bu mətləb ayrı-ayrı surələrdə müxtəlif şəkillərdə açıqlanır. Məsələn, “Bəqərə” surəsində buyurur:

شَهْرُ رَمَضَانَ الَّذِي أُنْزِلَ فِيهِ الْقُرْآنُ

“[Mübarək] Ramazan ayı elə bir aydır ki, Quran bu ayda nazil edilmişdir.”[2]

Yuxarıda qeyd etdiyimiz ayələrdən belə nəticə alırıq ki, Qədr gecəsi mübarək Ramazan ayının gecələrindən birinə təsadüf edir. Qədr gecəsinin mübarək bir gecə olduğu barədə Allah-təala Duxan surəsində belə buyurur:

إِنَّا أَنْزَلْنَاهُ فِي لَيْلَةٍ مُبَارَكَةٍ

“Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik”[3]

Qeyd olunan ayələrdən məlum olur ki, Qədr gecəsi mübarək bir gecədir və Quran bu gecə nazil olmuşdur. Burada belə bir sual ortaya çıxır. Əgər Quran Qədr gecəsi

---

[1] Qədr, 1.
[2] Bəqərə, 185.
[3] Duxan, 3.

nazil olmuşsa, bəs Peyğəmbərin(s) peyğəmbərliyi dövründə o həzrətə nazil olan ayələr hansı ayələrdir?

Cavab olaraq deyə bilərik ki, Qurani-Kərim iki dəfəyə nazil olmuşdur. Birinci dəfə Quran bütövlükdə Həzrət Peyğəmbərin(s) mübarək qəlbinə, ikinci dəfə isə 23 il ərzində tədricən, ayə-ayə və surə-surə o həzrətə nazil olmuşdur. Bu iki növ nazil olmanı Allah-təala Qurani-Kərimdə də vurğulamışdır. "Həqiqətən, biz Quranı Qədr gecəsi nazil etdik" ayəsindən və "Duxan" surəsinin 3-cü ayəsindən ("Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik") ayəsindən açıq-aydın məlum olur ki, Qurani-Kərim bütövlükdə Qədr gecəsində Həzrət Peyğəmbərin(s) mübarək qəlbinə nazil olmuşdur.

Quranın tədricən, ayə-ayə nazil olması haqda isə Allah-təala belə buyurur:

وَقُرْآناً فَرَقْنَاهُ لِتَقْرَأَهُ عَلَى النَّاسِ عَلَى مُكْثٍ وَنَزَّلْنَاهُ تَنزِيلاً

"[Ya Peyğəmbər!] İnsanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik."[1]

Beləliklə, bu ayədən də məlum olur ki, Quran bir dəfə tədricən, ayə-ayə, surə-surə nazil olmuşdur.

Burada Quranın həm bütövlükdə, həm də ayə-ayə nazil olması barədə ərəb dilinin qrammatikasına diqqət yetirək. Quranın iki dəfə nazil olması barədə olan ayələrə qrammatik cəhətdən nəzər saldıqda bir daha sübut olur ki, Quran bir dəfə bütövlükdə Peyğəmbərin(s) qəlbinə, bir dəfə də ayə-ayə, surə-surə 23 il müddətində nazil olmuşdur.

[1] İsra, 106

Qeyd etdiyimiz, Duxan surəsinin-3-cü və İsra surəsinin 106-cı ayələrində “nazil olma” kəlməsi işlənmişdir. “Nüzul” [نُزُول] nazil olmağa deyilir. İnzal [إِنْزال] və tənzil [تنْزِيل] sözü “nüzul” [نُزُول] maddəsindən alınır və ikisi də “nazil olmaq” mənalarını ifadə edir. Lakin “inzal” [إِنْزال] sözü bütövlükdə nazil olmağa, “tənzil” [تنْزِيل] sözü isə surə-surə, ayə-ayə nazil olmağa deyilir.

## Quran baxımından Qədr gecəsinin fəziləti

Qədr gecəsi fəzilətli, başqa gecələrdən üstün və böyük əhəmiyyətə malik olan bir gecədir. Allah-təala bu haqda Qurani-Kərimdə buyurur:

وَما أَدْريكَ ما لَيْلَةُ الْقَدْرِ

Sən nə bilirsən ki, nədir Qədr gecəsi. Qədr gecəsi min aydan daha xeyirlidir (bərəkətlidir, fəzilətlidir).[1]

Əgər bir şəxs Qədr gecəsi ibadətlə məşğul olarsa, onun bu gecədəki ibadəti 1000 ay (təqribən 84 il) ibadətdən üstün və fəzilətli olar.

İslam rəvayətlərində Qədr gecəsinin fəziləti haqqında çoxlu hədislər nəql olunmuşdur. Onlardan bir neçəsini oxucuların nəzərinə çatdırmağı faydalı hesab edirəm.

Burada qeyd etmək lazımdır ki, İslam Peyğəmbərindən(s) əvvəlki peyğəmbərlərin dövründə onlar üçün Qədr gecəsi təyin olunmamışdır. İslam Peyğəmbərinin(s)

---

[1] Qədr, 2

dövründə Allah-təala onun ümməti üçün bu mübarək gecəni təyin etdi.

Bir gün Həzrət Peyğəmbər(s) öz səhabələrinə keçmiş ümmətlərin uzunömürlü olmasından və onların 80 illik və daha artıq ibadətlərindən söhbət açdıqda onlar qibtə edərək dedilər: “İlahi! Nə olaydı, bizə də uzun ömür əta edəydin və biz də bütün ömrümüzü sənə ibadət etməyə sərf edərdik.” Allah-təala Həzrət Peyğəmbərə(s) bu ayəni nazil etdi:

لَيْلَةُ الْقَدْرِ خَيْرٌ مِّنْ أَلْفِ شَهْرٍ

“Qədr gecəsi min aydan daha xeyirlidir (bərəkətlidir, fəzilətlidir).”[1]

Yəni böyük Allah öz peyğəmbərinə demək istəyir ki, ey mənim peyğəmbərim, Mən sənin ümmətinə uzun ömür verməmişəm, lakin əvəzində onlar üçün gecələr arasında bir gecə təyin edirəm və adını da Qədr gecəsi qoyuram. Kim o gecəni ibadətlə məşğul olarsa, ona 1000 ayın (müstəhəb) ibadətinin savabından artıq savab verərəm.

Başqa bir hədisdə nəql olunur ki, İslam Peyğəmbəri(s) Allaha münacat edərkən belə dedi: “İlahi! Sən məndən əvvəlki peyğəmbərlərin ümmətinə uzun ömür vermişdin, onlar da sənə bütün ömrü boyu ibadət edib çoxlu savab qazanıblar. Lakin mənim ümmətimə az ömür vermisən, onlar da sənə təbii ki, o biri ümmətlərdən az ibadət edib az savab qazanırlar.” Beləcə, Peyğəmbər(s) bu kimi ifadələrlə çox münacat etdi. Allah-təala Həzrət Peyğəmbərə(s) buyurdu: “Düzdür, sənin ümmətinə az ömür vermişəm, lakin sənə və sənin ümmətinə çox dəyərli

---

[1] Qədr, 3.

bir gecə təyin etmişəm. Bu gecənin ibadəti 1000 ayın ibadətindən daha fəzilətli və daha üstündür.”

Beləliklə, Allah-təala bu ayəni nazil etdi: “Qədr gecəsi 1000 aydan daha xeyirlidir.” Bu ayənin ardınca Allah-təala buyurur:

تَنَزَّلُ الْمَلَائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِم مِّن كُلِّ أَمْرٍ

“O gecə (Qədr gecəsi) mələklər və Ruh (Cəbrayıl) Rəbbin izni ilə yerə enərlər.”[1]

O gecə mələklər yer üzünə enib Allahın bu aləmdə insanlara və cinlərə təyin etdiyi imamı, canişini ziyarət edərlər. Ümumiyyətlə, bunu da qeyd etmək lazımdır ki, hər bir zamanın bir imamı vardır. Allah-təala hər bir zamanda peyğəmbərlər göndərmişdir. İslam peyğəmbərindən sonra da Peyğəmbərin(s) yolunu davam etdirən imamlar göndərmişdir. İmam Əli(ə), İmam Həsən(ə), İmam Hüseyn(ə), İmam Səccad(ə), İmam Baqir(ə), İmam Sadiq(ə), İmam Museyi-Kazim(ə), İmam Rza(ə), İmam Cavad(ə), İmam Hadi(ə), İmam Həsən Əskəri(ə) bir-birinin ardınca imamlıq edəndən sonra Allah-təala İmam Zamanı(ə.c.) qeyb pərdəsi altında saxladı. Hazırda o həzrət yaşayır, lakin insanların gözündən qeybdədir. Allah-təala istədiyi zaman O, zühur edəcək. Bu, Allah-təalanın iradəsidir. Odur ki, hər zaman yer üzündə imam vardır.

Qeyd etdiyimiz kimi, Allah-təala Qurani-Kərimdə buyurmuşdur: “O gecə mələklər və Ruh (Cəbrayıl) Rəbbin izni ilə (həmin gündən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işi icra etmək üçün (Allah dərgahından əmrlər alaraq) yerə enərlər.”

---

[1] Qədr, 4.

Bir nəfər İmam Baqirdən(ə) soruşdu: “Ey Allahın höccəti, Qədr gecəsinin Ramazan ayının hansı gecəsi olduğunu bilirsənmi?” İmam Baqir(ə) buyurdu: “Əlbəttə, bilirəm. O gecə bütün mələklər yerə enərək bizi ziyarət edirlər.”

Deməli, məlum olur ki, yer üzü heç vaxt höccətsiz qalmayıb və qiyamət gününə qədər də höccətsiz olmayacaq. Hər il Qədr gecəsi mələklər yer üzünə enib Allahın insanlar üçün təyin etdiyi imamı ziyarət edib onu salamlayırlar. İslam Peyğəmbərinin(s) dövründə də Qədr gecəsi mələklər yerə enib o Həzrəti ziyarət edirdilər. Həzrət Peyğəmbər(s) özü buyurmuşdur: “Qədr gecəsi mələklər göydən yerə enib məni ziyarət edirlər. Məndən sonra Qədr gecəsi mələklər Əlini(ə) ziyarət edəcəklər. Əlidən(ə) sonra isə onun on bir övladını ziyarət edəcəklər. İndiki zamanda da şübhəsiz ki, mələklər yer üzünün höccəti olan İmam Zamanı(ə.c.) ziyarət edirlər.”

Allah-təala “Qədr” surəsinin 5-ci ayəsində buyurur:

سَلَامٌ هِيَ حَتَّى مَطْلَعِ الْفَجْرِ

“O gecə dan yeri sökülənə kimi salamatlıqdır. (Əmin-amanlıqdır)”

Yəni Qədr gecəsi Allah insanların dualarını qəbul edir və mələklər yerə enib insanları salamlayırlar. Qədr gecəsi gözəl bir gecədir və Allah-təala o gecədə mərhəmət, sağlamlıq və əmin-amanlıq nazil edir.

Deməli, Qədr gecəsində həm Quran nazil olub, həm də o gecənin ibadəti 1000 ayın ibadətindən üstündür. O, həm bərəkətli bir gecədir, həm Allahın mərhəməti olan bir gecədir, həm Allahın xeyir-bərəkəti, əmin-amanlığı insanlara nazil olan bir gecədir və həm də o gecə mələklər yerə nazil olaraq yer üzünün imamını ziyarət edirlər.

Hədislərdə nəql olunmuşdur ki, o gecə şeytan möminlərə yaxın düşə bilmir. Şeytan fasiq, azğın, pozğun adamlarla məşğuldur, lakin möminlər o gecəni çətinliklə də olsa ibadət edirlər. O gecə mələklər bir-birini salamlayırlar və imamı ziyarət edəndən sonra möminləri də salamlayırlar.

Burada çox yaxşı olar ki, bir hədisi nəzərinizə çatdırım. Həzrət İbrahim(ə) peyğəmbər Allahın əzəmətli və heybətli peyğəmbərlərindən biri idi. Allah-təala Quranda da onun adını bir neçə dəfə zikr etmişdir. "Bir gün Allah mələklərdən bir neçəsinə Həzrət İbrahimə(ə) övlad müjdəsi verməyi əmr etdi. Mələklər İbrahim Peyğəmbərin yanına gəlib salam verdikdən sonra onun övladı olacağını (İsmayılı(ə)) müjdə verdilər. İbrahim Peyğəmbər(ə) buyurdu: "Bütün dünya bir tərəfə, mələklərin mənə verdiyi salam bir tərəfə. Onların salamı mənə o qədər mənəvi ləzzət verdi ki, o ləzzəti heç bir şeyə dəyişmərəm və heç vaxt onların salamının ləzzəti mənim yadımdan çıxmayacaq."

Allahın mələkləri insanla danışarkən ona xüsusi bir ləzzət, mənəvi rahatlıq bəxş edir. Beş-altı mələyin salam verməsi Həzrət İbrahimə(ə) bu qədər mənəvi ləzzət bəxş edirsə, görəsən bütün mələklər insana salam verərkən nə qədər mənəvi ləzzət bəxş etmiş olar? Əgər bir şəxs mənəvi ləzzəti dərk etmirsə, deməli, o şəxsin özünün mənəvi xəstəliyi vardır. Məsələn, bir məclisdə bütün qonaqlar onlar üçün hazırlanmış gözəl və ətirli yeməkdən yedikcə ləzzətindən doymur, hey tərifləyirlər. Lakin bir nəfər o yeməyin dadını və ləzzətini hiss etmir və xörəyin dadsız və ləzzətsiz olduğunu deyir. Aydın məsələdir ki, həmin şəxs xəstədir və həkimə müraciət etməlidir. Çünki hamı

bu yeməyin dadından, ləzzətindən danışır, onu bişirənləri tərifləyir. Lakin o, bunu hiss etmir. Deməli, belə bir şəxsdə çatışmazlıq vardır. Odur ki, Qədr gecəsi insan o ləzzəti dada bilməsə, onun mənəvi xəstəlikləri olduğu məlum olar.

Həzrət İbrahimi(ə) odun içinə atanda Allah-təala atəşə İbrahimi(ə) yandırmamasını əmr etdi. Bu haqda "Ənbiya" surəsində belə buyurur:

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

"Biz də : Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol! – deyə buyurduq."[1]

Bu hadisəni hədislərdə belə nəql edirlər: Həzrət İbrahimi(ə) odun içinə atdılar, mələklər Allah tərəfindən gəlib İbrahim Peyğəmbərə(ə) salam verdilər. Mələklərin İbrahimə(ə) salam verməsi nəticəsində atəş onun üçün gülüstana çevrildi. Hətta belə nəql edirlər ki, Həzrət İbrahim(ə) od-alovun içində gül-çiçəklər arasında əyləşmişdi. Bu vaxt Nəmrud sarayın eyvanında durub edamın gedişatını izləyirdi. Nəmrud özü İbrahimin(ə) peyğəmbər olduğunu bilirdi. Lakin Nəmrudun uşaqları İbrahimin(ə) peyğəmbər olduğunu bilmirdilər. O, öz uşaqlarını aldatmışdı ki, İbrahim onların onun düşmənidir. Nəmrudun uşaqları da inanmışdılar ki, İbrahim atalarının düşməni olduğuna görə onu edam edirlər.

Nəmrudun Rəzə adlı bir qızı vardı. O qız eyvanda durub İbrahimin(ə) aqibətini gözləyir və bu hadisəyə tamaşa edirdi. Lakin gördü ki, atəş İbrahimi(ə) yandırmır. Eyvandan Həzrət İbrahimi(ə) səslədi və dedi: "Ya İbrahim! Sən nə dedin ki, od səni yandırmadı?"

---

[1] Ənbiya, 69.

Həzrət İbrahim(ə) buyurdu: “Hər kim «Bismillahir-Rəhmanir-Rəhim» deyib bu tonqalın içinə daxil olsa, alov onu yandırmaz.”

Qız eyvandan düşüb, «Bismillahir-Rəhmanir-Rəhim» deyərək tonqalın içinə daxil oldu və gedib Həzrət İbrahimin(ə) yanında əyləşdi. Hədislərdə nəql olunur ki, sonra Həzrət İbrahim(ə) o qızı öz oğlanlarının biri ilə evləndirdi, həmin ailədən bir neçə peyğəmbər dünyaya gəldi.

Odur ki, hədisdə buyurulur: “Mələklərin İbrahimə(ə) salam verməsi nəticəsində atəş onun üçün gülüstana çevrildi.”

Deməli, Qədr gecəsi göy üzünün mələkləri yerə nazil olub müsəlman və möminləri salamlayır. Hər kəs bu gecənin ləzzətini, mənəvi gözəlliyini hiss etmək və günahlarının bağışlanmasını istəyirsə, həmin gecəni ibadətlə keçirməli, mələklərin salamına cavab verməlidir.

Burada bir neçə mətləbi əziz möminlərin nəzərinə ərz edirəm:

1) Nəyə görə bu gecəni Qədr gecəsi adlandırmışlar və «qədr» sözünün mənası nədir?

a) Əvvəla, hər bir şeyin miqdarının ölçülməsinin və təyin olunmasının bir adı da «qədr» adlanır.

Qədr gecəsində insanların taleyi təyin olunur. Yəni Allah-təala öz elmi ilə kimin xoşbəxt və kimin bədbəxt olmasını gələn il Qədr gecəsinə qədər təyin edir. Bu barədə Allah-təala Qurani-Kərimdə belə buyurur:

إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةٍ مُّبَارَكَةٍ إِنَّا كُنَّا مُنذِرِينَ

فِيهَا يُفْرَقُ كُلُّ أَمْرٍ حَكِيمٍ

“Biz Quranı mübarək bir gecədə nazil etdik. Hər bir hikmətli iş o gecə hökm (ayırd) olunur.” [1]

Yəni insanların taleyi bu gecə təyin olunduğuna görə o, Qədr gecəsi adlanır. Lakin burada bir mətləbi qeyd etmək lazımdır: doğrudur, bu gecə insanın bir illik taleyi həll olunur. Ancaq insanın bir illik taleyinin həll olunmasında onun özünün böyük rolu vardır. Yəni insan ixtiyar sahibi olduğundan xoşbəxt və bədbəxt olması onun özündən asılıdır. Əlbəttə, bu mətləb fəlsəfi bir bəhsdir; bu barədə saatlarla, bəlkə də günlərlə belə danışılsa, yenə vaxtımız kifayət etməz.

b) Qədr gecəsi çox qiymətli və fəzilətli gecə olduğuna görə bu gecəni “qədr” deyə adlandırırlar.

c) Hər kim bu gecə Allaha ibadət etsə və əhya saxlayıb ibadətlə məşğul olsa, Allah onun qədr-qiymətini və dərəcəsini öz dərgahında ucaldar. Buna görə də bu gecəyə Qədr gecəsi deyilir.

2) Nəyə görə bu gecə əhya saxlayırıq?

Əhya sözü əslində «ihya» sözü kimi yazılır. «İhya» sözünün mənası isə «diri saxlamaq» deməkdir. «Həyy» sözü «diri» mənasını, «ihya» sözü isə «diriltmək» mənasını ifadə edir. Lakin istilahda Qədr gecəsində insanın səhərə qədər oyaq qalaraq ibadət etməsinə «ihya» deyilir. Qədr gecəsində təkcə oyaq qalmağın özü də ibadət sayılır. Çünki oyaq qalmanın özü bu mübarək gecəni ilin başqa günlərindən tamamilə fərqləndirir. Və hər kim Qədr gecəsində oyaq qalıb Allaha ibadət edərsə, Allah ona 1000 ay ibadətin savabından artıq savab yazar. Əgər bir kəs oyaq qalmaqla narahat olursa, yatmağın heç bir eybi

---

[1] Duxan, 3,4.

yoxdur. Çünki onun bu gecəni oyaq qalmaq və ibadət etmək niyyəti ona bu savabı qazanmağa imkan verir. Allah bütün niyyətlərdən xəbərdardır və inşallah, bu yuxusunu onun üçün ibadət hesab edər. Çünki gecə oyaq qalıb narahat və yuxulu halda ibadət etmək düzgün deyildir. Insan gərək ibadəti eşq və həvəslə yerinə yetirsin. Əgər bir şəxs məsciddə əhya saxlayıb ibadət etmirsə, başını boş-boş söhbətlərə qarışdırırsa və ibadət etməyə meyli yoxdursa, yaxşı olar ki, gedib yatsın. İnşallah, Allah ona ibadət savabını vermiş olar.

Bizim bu gecə məscidlərə gəlməkdən və evlərimizdə səhərə qədər oyaq qalıb Allaha ibadət etməkdə məqsədimiz budur ki, Allaha ibadət və dua edib günahlarımızın bağışlanmasını diləyək. Bu gecə Allah özü insanları dəvət edərək onların günahlarını bağışlayır. Hər kəs bu gecə Onun qapısına getsə, əliboş qayıtmaz. Çünki Allah özü onu dəvət etmişdir və mümkün deyil ki, kimsə onun qapısına gəldikdə əliboş qayıtsın.

Bir gün Musa Peyğəmbər(ə) Tur dağına ibadət etməyə gedirdi. Yolda bir nəfər ona dedi: "Ey Allahın peyğəmbəri, Allahla söhbət edərkən Ona de mənim də istəklərimi versin və dualarımı qəbul etsin. Əgər Allah mənim istəklərimi verməsə, mən Onu rüsvay edəcəyəm."

Musa Peyğəmbər(ə) Tur dağında ibadət etdikdən sonra Allahla söhbət əsnasında dedi: "İlahi, mən bura gələndə bir nəfər yolda mənə dedi ki, Allaha mənim də ehtiyaclarımı söylə." Lakin Musa Peyğəmbər(ə) həya edib həmin şəxsin dediyi kimi demədi. Allah-təala buyurdu: "Ya Musa! Həmin şəxs necə deyibsə, elə de." Musa Peyğəmbər(ə) dedi: "İlahi, o, mənə dedi ki, əgər Allah mənim istəklərimi yerinə yetirməsə, mən Onu rüsvay edəcəyəm." Allah-təala buyurdu: "Ya Musa! Get ondan

soruş ki, əgər mən onun istədiklərini verməsəm, o, məni necə rüsvay edə bilər?”

Musa Peyğəmbər(ə) gəlib həmin şəxsi tapdı və onda dedi ki, Allah-təala buyurur: “Əgər onun istəklərini verməsəm, Məni necə rüsvay edəcək?”

Həmin şəxs Musa Peyğəmbərin(ə) əlindən tutub küçələrin birinə sarı hərəkət etdi və həmin küçədə olan evlərdən birinin qapısını döydü. İçəridən bir nəfər çıxıb soruşdu: Sizə nə lazımdır? Həmin şəxs dedi: “Ay ev yiyəsi, sən məni çağırmışdın?” Ev yiyəsi dedi: “Xeyr”. Sən mənə demişdin ki, mən sənin qapını döysəm, açacaqsan?” Ev yiyəsi dedi: “Xeyr.” Həmin şəxs Musa Peyğəmbərə(ə) dedi: “Ya Musa(ə), bu mənə deməmişdi ki, filan vaxt gəlib qapını döyərsən, mən də açaram. Amma mən onun qapısını döydüm, o da qapını üzümə açdı. Lakin Allah özü buyurub ki, hər vaxt Mənim qapıma gəlsən, səni əliboş yola salmaram. İndi mən Allahın qapısına getmişəm. Əgər O, mənim istədiklərimi verməsə, bütün camaata elan edəcəyəm ki, Allah mənə demişdi ki, hər vaxt gəlsən, səni qəbul edəcəyəm. Lakin mən Onun qapısına getdim, O da məni əliboş qaytardı.”

Buna görə də bu gecə hər kəs Allahın qapısını döyüb Ondan öz istək və tələblərini diləsə, Allah mütləq onun dualarını qəbul edər və onu əliboş yola salmaz.

Bu bəhsdən nəticə aldıq ki, Qədr gecəsi çox fəzilətli, bərəkətli və xeyirli bir gecədir. Allah-təala bu gecə öz qapısına gələn bəndələrini bağışlayar və istəklərini verər. Burada bir neçə sualın cavabını zəruri hesab edirəm. Çünki ola bilsin ki, bəzi insanlar mübarək Ramazan ayı, Qədr gecəsi və Fitr günü ilə əlaqədar belə suallarla maraqlansın.

## Birinci sual

Mübarək Ramazan ayı bayramdırmı? Əgər bayramdırsa, biz bu bayramda nə etməliyik? Əgər bayram deyilsə, onda bizim mübarək Ramazan ayına münasibətimiz necə olmalıdır? Yəni Ramazan ayında bizim vəzifəmiz nə olmalıdır?

Bu sualın cavabını Quran ayələrindən öyrənməyimiz daha gözəl olar. Yəni görək Quran Ramazan ayının bayram olub olmaması barədə nə buyurur?

Allah-təala Quranda "Bəqərə" surəsinin 183, 184 və 185-ci ayələrində orucluq, oruc tutmağın qaydaları və mübarək Ramazan ayı barədə geniş söhbətlər açmışdır.

Biz indi bu ayələri bir-bir oxuyub onlardan Ramazan ayının bayram olub- olmaması barədə nəticə cıxaracaq və bu mübarək ayda bizim münasibətimizin necə olmasını biləcəyik. Allah-təala "Bəqərə" surəsinin 183-cü ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"

Bu ayədə orucun vasitəsilə insanın təqvalı olmasına işarə edilir. Bu ayə insanlara Ramazan ayında təqvalı olmağı (günahlardan çəkinməyi və Allahın əmrlərini yerinə yetirməyi) tövsiyə edir. "Bəqərə" surəsinin 184-cü ayəsində buyurur:

أَيَّامًا مَّعْدُودَاتٍ فَمَن كَانَ مِنكُم مَّرِيضًا أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ وَعَلَى الَّذِينَ يُطِيقُونَهُ فِدْيَةٌ طَعَامُ مِسْكِينٍ فَمَن تَطَوَّعَ خَيْرًا فَهُوَ خَيْرٌ لَّهُ وَأَن تَصُومُواْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

"(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər gün əvəzində) bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə, bu onun üçün daha yaxşı olar. Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!" [1]

Bu ayədə Allah-təala insanlara oruc tutmağın qaydasını öyrətdikdən sonra onlara xeyir işlər görməyi tövsiyə edir. Çünki bu ayda xeyir işlər görmək insan üçün cox faydalıdır. Bu ayda insan iki növ xeyirli işlər görə bilər. Biri şəxsi, biri də ictimai xeyir işdən ibarətdir.

İnsanın bu ayda gördüyü şəxsi xeyir işlər namaz qılmaq, oruc tutmaq, Quran oxumaq, Allahı zikr etmək və s. əməllərdən ibarətdir.

İnsanın bu ayda gördüyü ictimai xeyir işlər camaata qulluq etmək, yetimlərə əl tutmaq, yoxsullara imkan daxilində baş çəkmək, hər hansı bir şəxsin çətinliyini aradan qaldırmaq və bu kimi işləri görməkdən ibarətdir.

Yuxarıdakı ayədə Allah-təala insanlara xeyir işlər görməyi tövsiyə edərək bildirir ki, bu ayda gördüyünüz xeyir işlərin hamısı sizin öz xeyrinizədir. Allahın insanların oruc və namazlarına ehtiyacı yoxdur. Kim namaz qılıb, oruc tutarsa, özünə xeyir etmiş olar. Namaz

1. Bəqərə, 184.

qılmayan və bu ayda oruc tutmayan şəxslər özlərinə ziyan vurmuş olarlar. Bir sözlə desək, insanın oruc tutub-tutmamasının Allaha heç bir xeyri və ziyanı yoxdur. Bu əməllərin insanın özünə böyük xeyirləri vardır. Buna görə də Allah-təala buyurur: “Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!”

Bu ayələrdə insana Ramazan ayında xeyir işlər görmək tövsiyə edilir və burada da bayram barədə bir söz deyilmir.

Allah-təala mübarək Ramazan ayı barədə “Bəqərə” surəsində daha sonra belə buyurur:

شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى وَالْفُرْقَانِ فَمَن شَهِدَ مِنكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ وَمَن كَانَ مَرِيضًا أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللّهُ بِكُمُ الْيُسْرَ وَلاَ يُرِيدُ بِكُمُ الْعُسْرَ وَلِتُكْمِلُواْ الْعِدَّةَ وَلِتُكَبِّرُواْ اللّهَ عَلَى مَا هَدَاكُمْ وَلَعَلَّكُمْ تَشْكُرُونَ

“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar, xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə oruc tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, hədər gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona (Allahu Əkbər deməklə) təzim və bəlkə də şükür edəsiniz.”[1]

---

[1] Bəqərə, 185.

Bu ayədə də Ramazan ayının bayram olmasından bir söhbət açılmır. Allah-təala bu ayədə Ramazan ayında Ona ibadət etməyi və verdiyi nemətlər qarşısında təşəkkür etməyi tövsiyə edir.

Yuxarıda qeyd olunan ayələrdən aşagıdakı üç nəticəni əldə edirik:

1. Bu ayda Allaha ibadət, səcdə etmək lazımdır. Ümumiyyətlə, insanın yaradılmasında məqsəd ibadətdir. İbadət etmək insanın əsas hədəfidir.

2. Bu ayda Quran nazil olmuşdur və Quranın bu hidayətindən məhrum olmamaq üçün xeyirli işlər görmək, ibadət etmək, əxlaqı gözəlləşdirmək və bacardıqca Quran oxumaq lazımdır.

Bu ayda Quran oxumağın böyük savabı və xeyri vardır. Həzrət Peyğəmbər(s) bu barədə buyurur: "Ramazan ayında Quranın bir ayəsini oxuyan şəxs elə bil başqa aylarda bir dəfə Quranı tamamilə oxuyub." Yəni mübarək Ramazan ayında oxunan bir Quran ayəsinin savabı başqa aylarda oxunan bütün Quranı oxumağın savabına bərabərdir. Buna görə də bu ayda insan bacardığı qədər Quran oxusa, onun savabı və xeyri daha çoxdur.

3. Mübarək Ramazan ayı rəhmət, günahların bagışlanılması və bərəkət ayıdır. Bu ayda insan Allahdan günahlarının bağışlanmasını və dualarının qəbul olunmasını diləməlidir. Buna görə də bu ayda hər kim Allahdan günahlarının bağışlanmasını diləyərsə, Allah onu bağışlayar. Bu səbəbdən insan gərək Ramazan ayında Allaha ibadət edib, Ondan günahlarının bağışlanmasını diləməklə mənəviyyatını möhkəmlədib imanını artırsın.

## İkinci sual

Fitr günü bayram sayılırmı? Ramazan ayı bayram deyilsə, bəs Fitr günü bayramdırmı?

Fitr günü bayramdır. Mübarək Ramazan ayı tamam olduqdan sonra şəvval ayının birinci günü Fitr bayramıdır və Fitr günü oruc tutmaq haramdır. Lakin burada qarşıya belə bir sual çıxır: Fitr günü bayramdırsa, onda biz nə etməliyik? Və hansı işləri görməliyik?

Bu sualın cavabını Həzrət Peyğəmbərin(s) hədisi ilə cavablandırmağımız daha gözəl olar. Həzrət Peyğəmbər(s) şəvval ayının birinci günü belə buyurdu:

قَالَ رَسُول الله (ص): نَادَى مُنادٍ أَيُّها الْمُؤمِنُونَ أُغْدُوا إِلى جَوَائِزِكُم ...

Fitr günü (möminləri səsləyərlər): “Ey möminlər! Bu gün (Ramazan ayında gördüyümüz xeyir işlərin) mükafatını alın!”

Bu hədisdən belə bir nəticə cıxır ki, Fitr bayramında möminlər məscidlərə gedir və Ramazan ayında etdikləri ibadətlərin mükafatını Allahdan alırlar.

قَالَ الْحَسَنُ(ع): إِنَّ الله خَلَقَ شَهْرَ رَمَضَان مِضْمَاراً لِخَلْقِهِ يَسْتَبِقُونَ فِيهِ بِطاعَتِهِ إِلى رِضْوانِهِ فَسَبَقَ فِيهِ قَوْمٌ فَفازُوا آخَرُونَ فَخابُوا فَالْعَجَبُ كُلُّ الْعَجَبِ مِنَ الْضَّاحِكِ الّلاعِبِ فِي الْيَومِ الّذِى يُثابُ فِيهِ مُحْسِنُونَ وَ يَخِيْبُ فِيهِ الْمُقَصِّرُوْنَ

İmam Həsən(ə) buyurur: “Həqiqətən, Allah Ramazan ayını öz bəndələri üçün yarış qərar verdi. Bu ayda Allahın rizayəti üçün yarışarlar. Bir hissə ötər və axirətdə səadətə yetişər, bir hissə də geridə qalıb bədbəxt olar. Yaxşılar

savaba yetişən və təqsirkarlar bədbəxt olan gün boş-boş gülüb oynayan şəxsin işi çox təəccüblüdür”.

Bu hədislərdən də belə nəticəyə gəlirik ki, mübarək Ramazan ayında bayram yoxdur. Lakin Ramazan ayı qurtardıqdan sonra şəvval ayının birinci günü Fitr bayramıdır. Burada qarşıya belə bir sual çıxır. Bayramda insan nə etməlidir? Bayram olarkən möminlər bir-birini təbrik edib görüşər və bir-birinə dua edərlər. Xüsusilə, Fitr bayramında möminlər ibadət etməkdə yarış keçirərlər və bu bayramda qalib olan şəxslər Allahdan çox savab alarlar. Deməli, Fitr bayramında da insan Allahdan öz istəklərini, gələcək işlərində müvəffəq olmasını diləməlidir. Insanlardan eləələri vardır ki, bayram günlərində pozğun əməllərlə, fəsad işlər görməklə məşğul olaraq bayram keçirirlər.  İnsanın bayramı o vaxt olar ki, o özünü cəhənnəm atəşindən qorusun və Allah qarşısında günah etməsin. Ayə və hədislərə əsasən günah edən insan üçün bayram yoxdur.

قَالَ عَلِيٌّ(ع): كُلُّ يَوْمٍ لا يُعْصَى اللّٰهُ فِيهِ فَهُوَ عِيْدٌ

İmam Əli(ə) buyurur: “Hansı gün ki, insan günah etmədi, o gün onun bayramıdır.”

## Üçüncü sual

Sual oluna bilər ki, Qədr gecəsi bayram, yoxsa əza gecəsidir? Biz bu gecə bayram etməliyik, yoxsa əza saxlamalıyıq?

Quran ayələrinə əsasən bu sualın cavabı belədir ki, Qədr gecəsi nə bayram gecəsidir, nə də əza gecəsi. Qədr gecəsi mübarək olan bir gecədir. Allah-təala “Duxan” surəsində buyurur:

إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةٍ مُّبَارَكَةٍ

“Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik”[1]

Bu ayədən məlum olur ki, Qədr gecəsi mübarək bir gecədir. «Mübarək» sözünün mənasına gəldikdə isə “bərəkətli” deməkdir. Hər hansı bir işdə Allah razılığı olarsa, deməli, o iş mübarək və bərəkətlidir. Deməli, Qədr gecəsi bərəkətli və mübarək olan bir gecədir ki, insanlar bu gecə Allahın razılığını qazanırlar. İnsanlar bu gecənin bərəkətilə cənnəti qazana bilər və özlərini cəhənnəm atəşindən qoruya bilərlər. Deməli, bu gecə insan Allah rizasını əldə edə bilərsə, cənnəti qazanıb, cəhənnəm atəşindən qoruna bilərsə, onda Qədr gecəsi həmin şəxsə mübarəkdir. Əgər bir şəxs Qədr gecəsi Allahın razılığını qazana bilməsə, həmin gecə onun üçün mübarək deyildir.

Dedik ki, Qədr gecəsi Quran nazil olan gecədir. Burada qarşıya belə bir sual çıxır. Quran nazil olan gecə insan nə etməlidir? Bu sualın cavabını da Quran ayələri ilə veririk. Allah-təala “İsra” surəsində buyurur:

...إِذَا يُتْلَى عَلَيْهِمْ يَخِرُّونَ لِلأَذْقَانِ سُجَّدًا. وَيَقُولُونَ سُبْحَانَ رَبِّنَا إِن كَانَ وَعْدُ رَبِّنَا لَمَفْعُولاً. وَيَخِرُّونَ لِلأَذْقَانِ يَبْكُونَ وَيَزِيدُهُمْ خُشُوعًا.

“Şübhə yoxdur ki, yanlarında (Quran) oxunduğu zaman üzü üstə səcdəyə qapanar və deyərlər: “Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin (möminlərə mükafat, kafirlərə əzab veriləcəyi barəsindəki) əmri mütləq yerinə yetəcəkdir!” –deyərlər. Onlar üzü üstə səcdəyə qapanıb

---

[1] Duxan, 3

ağlayar, (Qurandakı öyüd-nəsihət isə) onların (Allaha) itaətini daha da artırar.”[1]

Bu ayələrdən məlum olur ki, Quran nazil olduğu gecə insanlar onu bayram və əza yox, bəlkə göz yaşı ilə və səcdə etməklə qarşılayarlar. Bununla da insanın qəlbində Allaha qarşı məhəbbəti çoxalar. İnsan Qədr gecəsi özünə məxsus müstəhəb əməlləri yerinə yetirməklə Allahın razılığını və məhəbbətini qazanmış olar. Və bu əməlləri yerinə yetirməklə insanın mənəvi kamilliyi daha da çoxalar və yüksək məqamlara ucala bilər. Bütün bu fəzilətləri və fürsətləri başa düşən insanlar heç bir zaman razı olmazlar  ki, bu gecəni boş-boşuna ötürsünlər. Çünki belə bir vaxt, belə bir inayət hələm-hələm ələ düşmür.

## Qədr gecəsinin əməlləri

Qədr gecəsinin özünəməxsus əməl və ibadətləri vardır ki, onları əziz möminlərin nəzərinə çatdırıram. Əhya saxlayan şəxsə aşağıdakı əməlləri yerinə yetirmək müstəhəbdir:

**1) Qüsl etmək**

Qüsl edərkən belə niyyət edilir: “Qədr gecəsinin qüslünü edirəm: qürbətən iləllah.” (Qürbətən iləllah, yəni Allaha yaxın olmaq üçün onun əmrini yerinə yetirmək deməkdir.) Bu qüslün böyük savabı vardır. Bu müstəhəb əməli, sübh azanına qədər etmək olar. Amma daha yaxşı olar ki, bu qüsl məğrib azanına yaxın verilsin.

**2) Əhya saxlamaq**

Yəni səhərə qədər oyaq qalıb ibadətlə məşğul olmaq. Səhərə qədər oyaq qalıb ibadətlə məşğul olmağın mənası

[1] Isra 105-109

budur ki, insan Quranı qarşılayaraq deyir: "İlahi, Sən bu gecə mənə Quran nazil edirsən və mən də bu gecə səhərə qədər oyaq qalıb onu qarşılayıram."

Qədr gecəsi çox yaxşı olar ki, insan əhya saxlayıb həmin gecəni səhərə qədər oyaq qalıb ibadətlə məşğul olsun. Çünki belə bir gecə il ərzində cəmi bir gecədir. Yəni ayə və hədislərə əsasən Qədr gecəsi Ramazan ayının gecələrindən birinə təsadüf edir. Həmçinin çox ehtimal vardır ki, bu üç gecənin biri Qədr gecəsi olsun. Bu üç gecənin hansı olduğu dəqiq bilinmir. Bəzi hədislərə əsasən daha çox 21 və 23-cü gecənin Qədr gecəsi olması ehtimal edilir. Bir nəfər İmam Sadiqin(ə) məhzərinə gəlib dedi: "Ey Allahın höccəti, çox yaxşı olardı ki, Qədr gecəsinin hansı gecə olduğunu mənə deyəsiniz. Həzrət(ə) buyurdu: Nə üçün istəmirsən ki, bu üç gecənin hər üçünü səhərə qədər əhya saxlayıb Allaha ibadət edəsən? Sən bu ibadəti hər üç gecə yerinə yetir.

Digər bir hədisdə belə nəql olunur ki, İmam Sadiqdən(ə) soruşdular: "Ey Allahın höccəti, Qədr gecəsinin bu üç gecədən hansı olduğunu bilirsinizmi? Həzrət(ə) buyurdu: Necə bilməyim ki, həmin gecə mələklər gəlib mənə salam verərək ziyarət edirlər. Mən onun hansı gecə olduğunu bilirəm. Amma məsləhət budur ki, siz bunu bilməyəsiz və  həmin üç gecənin üçünü də əhya saxlayıb Allaha ibadət edəsiniz".

Buna əsasən də biz hər üç gecəni oyaq qalmaqla əhya saxlayıb, səhərə qədər ibadət edirik.

**3) Məscidə getmək**

Məscidə getməyin mənası budur ki, insan öz məqsədini müəyyən edir. Yəni: "Ey Allahım, bu gecə mən fəsad və pozğunluq olan yerlərə gedə bilərdim. Lakin mən Sənin razılığını qazanmaq üçün Sənin evinə gəlmişəm və

gələcək xoşbəxtliyimi müəyyənləşdirirəm.” Qədr gecəsində möminlər çox yaxşı olar Allah evinə (məscidlərə) toplaşıb dua və ibadət edərək Quranı qarşılasınlar”.

**4) Tövbə etmək**

Bu gecənin xüsusi əməllərindən biri budur ki, yüz dəfə “Əstəğfirullahə rəbbi və ətubu iləyh” (Ey mənim Allahım, Səndən günahlarımın bağışlanmağını diləyir və tövbə edərək Sənə tərəf qayıdıram) demək və tövbə etməkdən ibarətdir. Bu əməlin mənası belədir: insan keçmişdə etdiyi günahlardan peşman olub gələcəyini abadlaşdırmaq üçün Allaha söz verir. Yəni: “Ey Allahım, bu günə qədər mən səhv yolda olmuşam. Lakin bu gündən Sənin bütün əmrlərinə tabe olacaq və bir daha günah etməyəcəyəm.” İnsan Allahla belə münacat edib desin: “İlahi, bu günə qədər bilməyərəkdən günahlar etmişəm, unutqanlıq üzündən Sənin sözündən çıxmışam, mənim dağ boyda olan günahlarımı bağışla. İlahi, Sənin rəhmətin mənim günahlarımdan daha böyükdür. Öz rəhmətinlə mənim günahlarımın üstündən əfv qələmi çək. Ey rəhməti hər şeydən böyük olan Allah, mənim keçmişdə etdiyim günahlarımı bağışla. Bu gündən sonra mən Sənin bütün buyurduqlarına əməl edəcəyimə söz verirəm”.

Burada bir incəliyi qeyd etməyi lazım bilirəm. Qədr gecəsi insan təmiz ürəklə Allahdan günahlarının bağışlanmasını istəsə, Allah onu bağışlayar və tövbəsini qəbul edər. Tövbəsi qəbul olan şəxsin də duaları və ya dualara amin deməsi tez qəbul olar.

İmam Səccaddan(ə) belə bir rəvayət nəql olunmuşdur: “Dəryada üzən bir gəmi batır və gəmidə olanların hamısı qərq olur. Lakin cavan bir qadın nicat taparaq sahilə çıxır. Sahildə bir cavan oğlan həmin qadını

görür və ona qarşı pis fikrə düşür. Qadına yaxınlaşmaq istəyəndə görür ki, qadının bədəni qorxudan tir-tir əsir. Oğlan ondan soruşur: "Niyə əsirsən və nədən qorxursan? Burada bizi heç kəs görmür." Qadın deyir: "Düzdür, burada heç kim yoxdur, lakin bizim bu hərəkətimizi Allah görür. Sən Allahın bəndələrindən qorxub həya etdiyin halda, mən Allahın özündən necə qorxub həya etməyim?"

Qadının bu sözləri oğlanın qəlbində dərin təsir qoyur və qadına əl vurmayıb elə oradaca tövbə edir. Sonra qadından ayrılıb öz yolu ilə gedir. Yolda qoca bir abidlə rastlaşır. Onunla abidin gedəcəkləri yer eyni olduğundan yol yoldaşı olurlar. Günəşin qızmar şüaları altında əziyyət çəkə-çəkə yol gedirlər. Abid deyir: "Sən dua et, mən də amin deyim ki, Allah bizim başımızın üstünə bir bulud göndərsin, günəşin qızmar şüalarından bizi qorusun."

Oğlan deyir: "Mən günahkar bir insanam. Mən dua etsəm, Allah mənim dualarımı qəbul etməz. Gəl, sən dua et, mən də sənin dualarına amin deyərəm. Çünki sən neçə illər Allaha ibadət etmisən və Allah yanında sənin hörmətin vardır." Abid onunla razılaşıb dua edir, təzəcə tövbə etmiş oğlan da onun dualarına amin deyir. Bir neçə dəqiqə keçməmiş Allah-təala onların başı üzərinə bir bulud göndərir. Onlar yol getdikcə bulud onları müşaət edərək, günün qızmar şüalarının istisindən qoruyur. Onlar gəlib iki yolayrıcına çatırlar və ayrılmalı olurlar. Bir-biri ilə xudahafizləşib ayrıldıqdan sonra, bulud yenicə tövbə etmiş oğlanı günəşin şüalarından qorumaq üçün onun ardınca gedir."

Sonra İmam Səccad(ə) əlavə edərək buyurdu: "Allah-təala abidin dualarına görə yox, yeni tövbə etmiş cavan oğlanın dualara amin deməsinə görə o buludu göndərdi."

Buna görə də xüsusən Qədr gecəsində tövbə etdikdən sonra Allahdan hər nə dilək istənilsə, Allah o duaları qəbul edər.

Həzrət Əli(ə) buyurur: "Dua edərkən duaların əvvəlində və axırında Peyğəmbər(s) və onun Əhli-beytinə(ə) salavat göndərdikdə Allah-təala o duaları mütləq qəbul edər. Çünki hər kim Peyğəmbər(s) və onun Əhli-beytinə(ə) salavat göndərsə, mümkün deyil ki, Allah-təala o salavatı və duaları qəbul etməsin. Buna görə də Allahın duaların əvvəlini və axırını qəbul edib, orta hissəsini qəbul etməməsi mümkün deyil."

Yaxşı olar ki, insan dua edərkən müsəlmanlar, öz ata-anası, qonşuları, qohum-əqrəbası və s. üçün də dua etsin. Çünki ola bilsin, insanın özü üçün etdiyi dualar qəbul olunmasın, lakin başqaları barədə etdiyi dualar qəbul olunsun. İnsanın ona pislik edənlər üçün də dua etməsindən Allahın xoşu gəlir. Çox yaxşı olar ki, insana pislik edənlərin hidayət olunması üçün də dua edilsin.

Malik Əştər bir gün bazardan keçərkən, bir nəfər xurmanı yeyib tumunu ona atdı. Malik ona baxıb bir söz demədi və yoluna davam etdi. Malikə xurma tumu atan şəxsə dedilər: "Sən bilirsən o kimdir?" Dedi: "Yox." Dedilər: "O, Malik Əştərdir." Həmin şəxs Malik Əştərin güclü bir pəhlivan, sözükeçən və vəzifəli bir şəxs olduğunu bilirdi. Elə ona görə də qorxudan üzr istəmək üçün onun ardınca qaçdı. Gördü ki, Malik məscidə daxil oldu. Onun dalınca məscidə girəndə gördü ki, Malik namaza başladı. Oradaca əyləşib Malikin namazı qurtarmasını gözlədi. Malik namazı qurtaran kimi onun yanına gedib üzr istədi. Malik ona dedi: "Mənim məscidə gəlmək məqsədim yox idi. Sənin o hərəkətinə görə bu məscidə gəlib, iki rükət namaz qılıb, Allahdan sənin

hidayət olunmağını və günahlarının bağışlanmasını istədim.”

Odur ki, insan ona pislik edənlər üçün də dua etsə, çox yaxşı olar və bu əmələ görə də Allah onu da bağışlayıb hidayət edər.

**5) Quranı qarşılamaq**

Qədr gecəsində bizim öhdəmizə düşən əməllərdən biri budur ki, Quranın nazil olduğu bu mübarək gecədə Onu qarşılayaq. İnsan uzaq səfərdən gəlmiş qonağını qarşılamaq üçün hətta gecənin yarısı olsa da belə onun qarşısına çıxaraq hörmətlə qarşılayır. Bəzən qonağın qarşısına çıxmaq üçün insan hava limanına gedib saatlarla onun gəlişini gözləyir. Bir qonağı qarşılamağın ədəb-ərkanı olduğu kimi Quranı qarşılamağın da ədəb-ərkanı vardır. Yuxarıda geyd etdiyimiz kimi Quranın nazil olduğu bir gecədə ibadət etməli və göz yaşı ilə onu qarşılamalıyıq.

Qədr gecəsinin Quranın nazil olduğu bir gecə olduğu üçün Onu qarşılamağın da özünəməxsus ədəb-ərkanı və əməlləri vardır. Qədr gecəsi Quranı başımızın üzərinə qoyub Allahla münacat edirik. Bu əməlin mənası budur ki, Allah bizə hörmət edib Quran nazil edir və biz də hörmət əlaməti olaraq Quranı başımızın üstündə saxlayırıq. Yəni, bütün məxluqatın içində Allah-təala öz sözlərini məktub şəklində yalnız insan üçün göndərmişdir. Biz də minnətdarlıq edərək o kitabı qəbul edib başımızın üzərinə qoymaqla onun hər bir ayəsinə əməl edəcəyimizə söz veririk. Bu əməlimizlə bildiririk ki, İlahi, Sən bizə hörmət edib Quran nazil etdiyinə görə, biz də onu hörmətlə qarşılayıb, onun hər bir ayəsinə əməl edəcəyik.

Həzrət Peyğəmbər(s) Quran barədə bizə belə buyurur: “Quran oxuyun, onun ayələrinə əməl edin və

ondan uzaqlaşmayın. Quranın ayələrini öz istədiyiniz kimi yozmayin. [1] Quranı özünüz üçün çörəkağacı etməyin. Quranın adından istifadə edib özünüzə məqam qazanmayın".

Digər bir hədisdə Həzrət (s) belə buyurur: "Hər kəs Allahın kitabına tabe olsa (Qurana əməl etsə), bu kitab həmin şəxsi azğınlıqlardan qurtarar və qiyamət günü, hesab-kitab zamanı həmin şəxsi oddan qoruyar".

Əlbəttə, bir daha qeyd etmək lazımdır ki, ayələrini oxuyub əməl edən insanı Quran hidayət edər və cəhənnəm odundan qoruyar. Quranı alıb evdə saxlamağın insana faydası olmaz. Quranı açıb oxumaq, ayələri barədə düşünmək və hər bir ayəsinə Allahın istədiyi kimi də əməl etmək lazımdır. Məsələn, Allah-təala Quranda təqribən 67 dəfə bizi namaza çağırır. Hər kim namaz qılırsa, deməli, Qurana hörmət edir. Allah-təala ildə bir ay oruc tutmağı vacib edir. Əgər bir müsəlman Ramazan ayında oruc tutursa, deməli, İslama inanır və Allahını tanıyır. Əgər bir müsəlman Ramazan ayında üzrsüz yerə oruc tutmursa, həmin şəxs Allaha və Qurana necə inanır? Allah-təala bu əməlləri vacib etməklə insanı təmizləyib hidayət edərək izzət bəxş etmək istəyir. Allah insana oruc, namaz və s. əməlləri verməklə bəndəsinin Ona yaxınlaşmasını istəyir.

Quranı baş üzərinə qoyub, Allaha və 14 məsuma and verməyin mənası elədir: "Ey Allahım, mən Sənə və Sənin ən istəkli bəndələrinə and verib tövbə edirəm və Səndən öz istək və ehtiyaclarımı diləyirəm."

---

[1] Yəni, Quranın ayələrini öz düşündüyünüz kimi təfsir etməyin. Heç kəsin buna ixtiyarı yoxdur.

Quranı baş üzərinə qoyub dua etməyin qaydası belədir:

1. Bikə ya Allah (10 dəfə)
2. Bi Məhəmmədin(s) (10 dəfə)
3. Bi Əliyyin(ə) (10 dəfə)
4. Bi Fatimətə(ə) (10 dəfə)
5. Bil Həsəni(ə) (10 dəfə)
6. Bil Hüseyni(ə) (10 dəfə)
7. Bi Əliyyibn Hüseyn(ə) (10 dəfə)
8. Bi Məhəmməd ibn Əli (10 dəfə)
9. BiCəfər ibn Məhəmməd(ə) (10 dəfə)
10. Bi Musa ibn Cəfər(ə) (10 dəfə)
11. Bi Əliyyibn Musa(ə)(10 dəfə)
12. Bi Məhəmməd ibn Əli (10 dəfə)
13. Bi Əliyyibn Məhəmməd(ə)(10 dəfə)
14. Bi Həsən ibn Əli(ə) (10 dəfə)
15. Bil Höccəti(ə) (10 dəfə).

Bu mübarək adlara and verən zaman Quran baş üzərinə qoyulur. Andlar qurtardıqdan sonra Allahdan günahların bağışlanması və başqa diləklər istənilir. Çünki bu adlara and verdikdən sonra insanın duaları mütləq qəbul olunur. Ümumiyyətlə, hər kəs Allahı sidq ürəkdən çağırırsa, Allah həmin şəxsə cavab verir. Bu barədə hədis və rəvayətlər çoxdur. Nümunə üçün birini nəzərinizə ərz edirəm:

- Həzrət İbrahim Peyğəmbəri(ə) tonqalın içinə atdıqdan sonra Nəmrudun mühasibini xəzinənin hesabı əskik gəldiyinə görə tutdular. Mühasib təqsirkar olmadığını nə qədər dedisə, bütlərə nə qədər and içdisə, xeyri olmadı. Öz canına, balalarının canına və Nəmrudun canına and içdi, yenə xeyri olmadı. Nəmrud ona inanmadı,

əmr etdi ki, onu da İbrahimin(ə) yanına , tonqala atsınlar. Mühasib gördü ki, əli hər yerdən üzülüb, çarəsiz qalmışdır. Odur ki, tonqala atılarkən fikrini cəmləyib Allahı bir dəfə ürəkdən səslədi. Allah-təala mələklərə ona nicat verməyi əmr etdi. Mələklər dedilər: “İlahi! O, kafirdir və səni inkar edir. Niyə ona nicat verirsən?”

Allah-təala buyurdu: “O, kafir də olsa, mənim adımı bir dəfə dilinə gətirdi. Elə buna görə də onun harayına yetişin!”

Görürsünüzmü, mehriban və mərhəmətli Allah öz bəndəsinə kafir olsa belə, bir dəfə səsləməklə oddan necə nicat verir? Bəs bizlərə necə, mərhəmət göstərməzmi? Ona iman gətirib müsəlman olduğumuz, hamının bu gecə evində yatarkən məscidə toplaşıb oyaq qaldığımız halda, göndərdiyi müqəddəs Quranı başımız üzərinə tutaraq, hər şeydən pak olan məsum Peyğəmbərinə(s) və imamlara ağlar gözlə əl açıb and verdiyimiz halda, bizim dualarımızı qəbul etməzmi? Əlbəttə, qəbul edər. O böyük və mehriban Allah Qədr gecəsini elə ona görə təyin etmişdir ki, bəndələri bu gecəni oyaq qalıb ibadət etsinlər, Ondan öz dünya və axirət umacaqlarını dilə gətirsinlər, Onun özünə, peyğəmbərinə və məsum imamlara and versinlər. Beləliklə, Allah-təala inşallah, hamının duasını qəbul edər.

**6) Təvəssül etmək**

Bu gecənin əməllərindən biri budur ki, Əhli-beyti(ə) Allahla öz aramızda vasitəçi qərar verək. Allah-təala Quranda buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَابْتَغُواْ إِلَيهِ الْوَسِيلَةَ

“Ey iman gətirənlər! Təqvalı olun. Ona (Onun rəhminə və lütfünə qovuşmaq üçün) vəsilə seçib yol axtarın. [1]

Bu ayə bizə bildirir ki, Allahla öz aramızda bir vasitə tapmalıyıq. İnsanın həyatında çox işlər vardır ki, yalnız vəsilə ilə qaydasına düşür. Sadəcə bir misalı nəzərinizə yetirirəm. Məsələn, ata öz uşağını hansısa nalayiq hərəkətinə görə evdən qovur. Həmin uşaq bir müddətdən sonra evə qayıtmaq istəyir. Lakin atası onun evə gəlməsi ilə razılaşmır. Həmin uşaq atasının ən yaxın dostunu və ya adamını tapıb ondan xahiş edir ki, əlindən tutub atasının yanına aparsın. Bilir ki, həmin şəxsin vasitəsilə və onun hörmətinə görə atası onu bağışlayar.

Həzrət Peyğəmbərdən(s) soruşdular: “Ya Rəsulallah, Allahla insanlar arasında ən gözəl vasitələr kimlərdir?” Həzrət Peyğəmbər(s) buyurdu: “Əli, Həsən, Hüseyn və Hüseynin nəslindən olan imamlar. Onlar qırılmayan möhkəm dəstəkdirlər (Ürvətül-vüsqadırlar). Onlar sizinlə Allah arasında vasitədirlər.”

Başqa bir hədisdə belə buyurur: “Hər kim nicat gəmisinə minmək istəyirsə və hər kəs Allahın möhkəm olan dəstəyindən və ipindən yapışmaq istəyirsə, məndən sonra Əlinin(ə) ətəyindən möhkəm tutsun. Onun düşmənini özünə düşmən bilsin. Həmçinin imamları özünə vasitəçi bilib onlara itaət etsin”.

Beləliklə, Qədr gecəsi Quranı başımızın üzərinə qoyub Peyğəmbərin(s), Xanım Fatimeyi Zəhranın(s.ə) və on iki imamın adını on dəfə çəkərək, Allaha and verməklə günahlarımızın bağışlanmasını və istəklərimizi diləyirik.

---

[1]Maidə, 35.

Bu əməlin rəmzi də odur ki, biz Peyğəmbər(s) və Əhli-beyti(ə) Allahla öz aramızda vasitəçi qərar veririk.

**7) Qədr gecəsinin namazı**

Qədr gecəsində qılınan bu namazın böyük şərafəti vardır. Bu namaz məğrib namazı ilə sübh namazı arasında qılınır. Həmin namazın qaydası belədir:

Niyyət: “Qədr gecəsinin namazını qılıram: qürbətən İləllah.” Sübh namazı kimi iki rükətlidir. Lakin hər “Həmd” surəsindən sonra yeddi dəfə “İxlas” (Qul huvəllahu) surəsi oxunmalıdır. Namazı qurtaran kimi fasiləsiz alını səcdəyə qoyaraq (səcdə halında) yetmiş dəfə “Əstəğfirullahə və ətubu iləyh” deyilir.

İmam Sadiq(ə) buyurur: “Hər kəs bu namazı qıldıqdan sonra səcdəyə gedib yetmiş dəfə “Əstəğfirullahə və ətubu iləyh” deyərsə, səcdədən qalxmamış Allah həm onun özünün, həm də ata-anasının günahlarını bağışlayar.”

Bu namazı qılandan sonra çox yaxşı olar ki, insan bacardığı qədər çox dua etsin. Həm özünü, həm də başqalarını pak niyyətlə dua etməyin böyük savabı vardır.

**8) Yüz rükət namaz**

Qədr gecəsinin məxsus 100 rükət müstəhəb namazı var. Bu namaz sübh namazı kimi iki rükət qılmaq lazımdır. (Qeyd etmək lazımdır ki, boynunda qəza namazı olan şəxs 6 günlük qəza namazlarını da qıla bilər. Bunun savabı həm 100 rükətli müstəhəb namazın savabını ödəyər, həm də 6 günlük qəza namazını qılmış olar.)

**9. Quran oxumaq**

Qədr gecəsində ən çox savabı olan əməllərdən biri Quran oxumaqdır. Hər kəs Quran oxuya bilirsə, hədis və rəvayətlərə əsasən bu gecə “Ənkəbut”, “Rum” və “Duxan” surələrini oxusa, böyük əcr və savaba nail olar.

**10) İmam Əli(ə) və İmam Hüseynin(ə) ziyarəti**

Qədr gecəsinin müstəhəb əməllərindən biri də İmam Əli(ə) və İmam Hüseynin(ə) ziyarətidir.

**11) Həzrət Əlinin(ə) qatillərinə lənət oxumaq**

Bu gecənin ibadət və əməllərindən biri də Həzrət Əlinin(ə) qatilinə lənət oxumaqdan ibarətdir. Yüz dəfə "Allahummələn qətələtə əmirəlmöminin." (Yəni: "İlahi, Əmirəlmöminin Əlinin(ə) qatillərinə lənət et.")

**12) Salavat zikr etmək**

Peyğəmbər(s) və onun Əhli-beytinə(ə) salavat göndərməyin xüsusilə Qədr gecəsində böyük savabı vardır. (Allahummə səlli əla Məhəmmədin və ali Məhəmməd.)

**13) Cövşən-kəbir duasını oxumaq**

Bu duada Allahın mübarək adları yazılmışdır. Hər kəs Allahın adlarını zikr edib çağırırsa, Allah da həmin şəxsə cavab verir. Bu duanı oxumağın çox böyük savabı vardır.

**14. "İxlas" surəsini oxumaq**

Qədr gecəsində müstəhəb əməllərdən biri də 1000 dəfə "İxlas" surəsini oxumaqdır. Hər kəs bu gecə "İxlas" surəsini oxusa, Allah-təala həmin şəxsə böyük əcr inayət edər.

## Həzrət Əlinin(ə) şəhadəti

Mübarək Ramazan ayının 19-cu gecəsi Həzrət Əli(ə) İbn Mülcəm(l) tərəfindən  zərbəsi aldi. Məlum oldugu kimi, hicrətin 40-cı ilində bəzi xəvaric Məkkədə öz aralarında qərara gəldilər ki, Ramazan ayının 19-cu gecəsi Misirdə Əmr ibn Ası, Şamda Müaviyəni, Kufədə isə İmam Əlini(ə) sübh namazında öldürsünlər. Onlar bunun üçün öz aralarından üc nəfəri secdilər. Əmr ibn Ası öldürməyi Bəkr ibn Əmr, Müaviyəni öldürməyi Abdulla ibn Həccac

və Əlini(ə) öldürməyi isə Əbdürrəhman ibn Mülcəm(l) öz öhdələrinə götürdülər.

İbn Mülcəm bu məqsədlə Kufəyə gəldi. Lakin öz gəlişinin səbəbini heç kəsə bildirmədi. O, Kufədə Quttamə adlı gözəl bir qızın evində qalaraq, onunla evlənməyi qərara aldı. İbn Mülcəm ona öz fikrini bildirdikdə Quttamə üç şərt əsasında razılaşaraq dedi: “Əgər mənimlə evlənmək istəyirsənsə, mənim mehriyyəm 3000 dirhəm pul, bir kəniz və Əlinin qanıdır.” Əli(ə) onun atasını və qardaşlarını Nəhrəvan müharibəsində öldürdüyü üçün kin-küdurəti qəlbində coşub daşmışdı. Ona görə də Əlini(ə) öldürmək istəyirdi. İbn Mülcəm onunla razılaşdı və Kufəyə gəlməsinin səbəbini də açıqlayaraq, yalnız Əlini öldürmək üçün buraya gəldiyini dedi.

Nəhayət, Ramazan ayının 19-cu gecəsi gəlib çatdı. O gecə Əli(ə) səhərə qədər Allaha ibadət və dua edirdi.

Həzrətin(ə) qızı Ümmi Gülsüm deyir: “Həmin gecə atam iftara bizə gəlmişdi. Mən onun üçün duz, çörək və süddən ibarət bir iftar süfrəsi düzəltdim. Atam süfrəyə baxıb gözləri yaşardı və buyurdu: Qızım, sən heç indiyə qədər görmüsənmi atan çörəklə iki cür yemək yesin? Bunlardan birini süfrədən götür. Mən südü götürdüm. Atam bir neçə tikə çörəyi duzla iftar etdi. Lakin həmin gecə atamın halı çox pərişan idi. O gecə atam səhərə qədər Allaha ibadət edir və belə dua edirdi: “İlahi, ölümü mənə mübarək et!” İmam o gecə tez-tez həyətə düşüb göyə baxır və bu sözləri təkrar edirdi. “And olsun Allaha ki, nə mən yalan deyirəm, nə də mənə deyilən sözlər yalandır. Bu gecə həmin vədə verilmiş gecədir.”

Nəhayət, sübh namazının vaxtı yetişdi. Həzrət(ə) namaz qılmaq üçün evdən çıxdı. Həyətdə olan ördəklər İmamın(ə) əbasının ətəyindən tutub, Həzrətin məscidə

getməsinə mane olurdular. Sanki ördəklər də İmamın(ə) ölməyini istəmirdilər. İmam(ə) qapıdan çıxarkən əbası qapının cəftəsinə ilişdi. O gecə sanki qapı da İmamın(ə) məscidə getməsini istəmirdi. Nəhayət, İmam(ə) Kufə məscidinə daxil oldu. İbn Mülcəm məsciddə üzü üstə yatmışdı. Həzrət Əli(ə) onu yuxudan oyadıb buyurdu: "İbn Mülcəm, üzü üstə yatma. Çünki bədbəxt adamlar həmişə üzü üstə yatar." Sonra İmam(ə) sübh namazını qılmaq üçün ibadət mehrabına keçdi. Namazı başlandı. İmam(ə) başını səcdədən qaldıran kimi, İbn Mülcəm zəhərli qılıncı Həzrətin(ə) mübarək başına endirdi. İmam Əli(ə) buyurdu: "And olsun Kəbənin Rəbbinə, azad oldum!" Məscidin mehrabı al qana boyandı.

*Əli şəqqül-qəmər mehrab tilitqan,*
*Qulaq ver, məscid oxşar, mənbər ağlar.*
*Yazanda Ali Taha nohəsin mən,*
*Qələm gördüm sızıldar, dəftər ağlar.*
*Əlidən Şəhriyar, sən bir işarə,*
*Qucaqlar qəbrin Malik Əştər ağlar.*

Həzrət Əli(ə) Ramazan ayının 21-ci gecəsində şəhadətə çatdı. Bu hadisə bütün müsəlmanların ürəyini kədərləndirir. Bu gecə qəm və qüssə gecəsidir. Həzrət Əlinin(ə) şəhid olub dünyadan getməsinə görə müsəlmanlar kədərli və hüznlüdürlər. Lakin bundan daha kədərli olan hadisə odur ki, düşmən müsəlmanların arasında elə bir vəziyyət yaratmışdı ki, onların öz əli ilə Peyğəmbərin(s) vəsisini məsciddə namaz qılarkən şəhadətə yetirdilər.

Bəlkə də Qədr gecəsi ilə Həzrət Əlinin(ə) şəhadəti bir-birinə baglı olan məsələlərdir. Yəni Allah-təala insanlardan istəmişdir ki, Qədr gecəsində İmam Əlinin(ə) vilayəti ilə ünsiyyət tapsınlar. Və bu gecə Allaha dua

edərkən Ona Əlinin(ə) adına and verib öz istəklərini diləsinlər. Allah-təala İmam Əlini (ə) çox sevir və biz dua edərkən Allaha Əlinin(ə) adına and verib istəklərimizi diləsək, Allah-təala Həzrətin(ə) hörmət və fəziləti xatirinə bizi bağışlayıb qəbul edər. Qeyd etmək lazımdır ki, təkcə biz yox, bəlkə bizdən əvvəlki ümmətlər və İslam Peyğəmbərindən(s) əvvəlki peyğəmbərlər belə Həzrət Əlinin(ə) Allah yanında hörmət və fəzilətli bir şəxs olduğunu dərk etmişlər. Yer üzündə birinci yaranan insan Adəm(ə) olmuşdur. Biz də onun övladlarıyıq. Allah-təala Adəmi(ə) yaratdıqdan sonra onu cənnətdə məskunlaşdırdı və bütün nemətlərdən istifadə etməsinə icazə verdi. Lakin ona buğda yeməyi qadağan etdi. Şeytan hiylə işlədib Adəmi(ə) yoldan çıxartdı və o Allahın qadağan etdiyi bu nemətdən yedi. Allah-təalanın Adəmin(ə) bu hərəkətindən xoşu gəlmədi və onu cəzalandırmaq üçün yer üzünə göndərdi. Adəmin(ə) cənnətdən qovulub yer üzünə göndərilməsi “Hübut” hadisəsi adlanır.

Hübut hadisəsindən sonra Adəm(ə) böyük səhv iş gördüyünü başa düşüb peşman oldu. O, tutduğu bu işə görə tövbə etmək istədi. Lakin tövbə etməyin yolunu bilmirdi. Bilmirdi necə tövbə etsin ki, Allah onun bu günahını bağışlasın. Allahın mələyi Həzrət Cəbrayıl(ə) onun yanına gəlib dedi: “Ey Adəm! Istəyirsənmi Allah sənin tövbəni qəbul etsin?” Adəm dedi: “Bəli.” Həzrət Cəbrayıl(ə) dedi: “Elə isə göyə bax!” Adəm(ə) göyə baxdıqda səmada beş nəfərin adının yazıldığını gördü. Bunlar Məhəmməd(s), Əli(ə), Fatimə(s.ə), Həsən(ə) və Hüseynin(ə) adları idi. O, Cəbrayıldan(ə) soruşdu: “Bunlar kimlərdir?” Cəbrayıl(ə) dedi: “Bunlar Allahın ən yaxın dostlarıdır. Onlar hələ yaranmayıblar. Lakin Allah-təala onların nurlarını yaratmışdır. Onu da bil ki, Allah-təala

səni də, bütün aləmləri də bu beş nəfərin xatirinə yaratmışdır. Əgər tövbə etmək istəyirsənsə, Allaha bir-bir bu adları and versən, Allah mütləq sənin tövbəni qəbul edər”.

Adəmin(ə) bu adlar vasitəsilə tövbə etməsini Allah-təala “Bəqərə” surəsində belə buyurur:

فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

“Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir.”[1]

Bu ayə barədə olan bir çox hədislərdə qeyd olunmuşdur ki, Allah-təalanın Adəmə(ə) öyrətdiyi həmin kəlmələr bunlar idi: Məhəmməd(s), Əli(ə), Fatimə(ə), Həsən(ə) və Hüseyn(ə). Adəm(ə) həmin beş nəfərin adını çəkib Allaha and verdi. Allah da onun tövbəsini qəbul etdi.

Yusif Peyğəmbəri(ə)qardaşları quyuya atıb getdilər. Həzrət Yusif(ə) çox çalışdı, lakin quyudan çıxış yolu tapa bilmədi. Həzrət Cəbrayıl(ə) onun yanına gəlib, eynilə Adəmə(ə) söylədiyi həmin sözləri ona da dedi. Beş nəfər müqəddəs şəxsin adını çəkməsini və quyudan nicat tapması yolunu anlatdı. Həzrət Yusif(ə) beş nəfərə and verib, quyudan nicat tapmasını Allahdan istədi. Allah-təala bir karvan vasitəsilə ona quyudan nicat verdi.

Buna görə də Allah-təala həmin beş nəfərə xatir bütün insanları bağışlayır və onların dualarını qəbul edir.

Xüsusilə bu gecə Həzrət Əlinin(ə) şəhadət gecəsidir. Bu gecə biz məscidlərə yığışır, evlərimizdə səhərə qədər

---

[1] Bəqərə, 37.

oyaq qalıb əhya saxlayır və Əlinin(ə) məzlumcasına şəhid olmasına görə əzadarlıq edirik. Bu gecə biz Əlinin(ə) adına and verib, Allahdan öz istəklərimizi diləsək, mütləq dualarımızı qəbul edər. Çünki Allah-təala Əlini(ə) çox istəyir. Ola bilməz ki, Allah onun adına and verənləri naümid geri qaytarsın.

Allah-təala Peyğəmbər(s) və onun Əhli-beytini(ə) sevir və bütün insanları da onların xatirinə bağışlayır. Allah-təala hədisi-qüdsidə Peyğəmbər (ə) (s) buyurur:

لَوْلاكَ لَما خَلَقْتُ الْأَفْلاكَ وَ لَوْلا عَلِيٌّ لَما خَلَقْتُكَ وَ لَوْلا فاطِمَةَ

لَماخَلَقْتُ عَلِياً

[“Ya Peyğəmbər!] Sən olmasaydın, fələkləri yaratmazdım. Əli olmasaydı, səni yaratmazdım. Əgər Fatimə olmasaydı, Əlini yaratmazdım.”

Məhəmməd Füzuli Allah-təalanın Peyğəmbərə(s) buyurduğu bu sözü ərəb dilində iki  beyt şeirlə qələmə almışdır:

يَا مَنْ بِكَ إِلْتِجَاءُ مَنْ كَانَ سِوَاكَ

طُوبى لِمَنْ إِهْتَدى بِما فِيهِ رِضَاكَ

بُرهانُكَ فِى الْكَمالِ يَكْفِى لَوْلاكَ

لَوْلاكَ لَما دَار مَدارالْأَفْلاكَ

*“Ey O kəs ki, Səndən qeyrisi Sənə pənah gətirər. Xoş o kəsin halına ki, Sənin rizayətinlə hidayət olub.  Kamalda Sənin dəlilin kifayətdir, əgər olmasaydın, aləm dövran etməzdi.”*

Məhəmməd Füzuli bu iki beyt şeirlə bildirmək istəyir: insanda o ləyaqət vardır ki, Allah bütün aləmləri

ona görə yaratsın. Allah-təala insana kamillik mərhələsinin ən yüksək zirvəsinə qalxmağa və Xəlifətullah olmağa qabiliyyət vermişdir. Bu sözün sübutu da Allahın Peyğəmbərə(s) buyurduğu və bir qədər öncə hədisi-qüdsidən qeyd etdiyimiz həmin hədisdir.

## İmam Əlinin(ə) fəziləti

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَرَادَ أَنْ يَنْظُرَ إِلى آدَمَ فِي عِلْمِهِ وَ إِلى نُوحٍ فِي فَهْمِهِ وَ إِلى إِبْرَاهِيمَ فِي حِلْمِهِ وَ إِلى يَحْيَى إِبْنِ زَكَرِيَّا فِي زُهْدِهِ فَلْيَنْظُرَ إِلى عَلِيِّ إِبْنِ أَبِي طالِبٍ

Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim Adəmin elmini, Nuhun düşüncəsini, İbrahimin helmini və Yəhya ibn Zəkəriyyanın zahidliyini görmək istəyirsə, onda Əli ibn Əbi Talibə baxsın."

İmam Əli(ə) elə bir insan idi ki, hansı işdə Allahın razılığı olsaydı, o işi görər və hansı işdə Allahın razılığı olmasaydı, o işi görməzdi. İmam Əli(ə) çox ədalətli bir insan idi. Onun ədalətinə heç kəsin şübhəsi belə yoxdur. Hamı İmam Əlini(ə) ədalətli bir insan kimi tanıyır.

Bədr döyüşü İslamın ən mühüm döyüşlərindən biri idi. Bu döyüşdə müsəlmanların sayı 313 nəfər, müşriklərin sayı isə 950 nəfər idi. Müşriklərə Əbu Sufyan başçılıq edirdi. Döyüş başladıqda İmam Əli(ə) böyük qəhrəmanlıqla müşriklərin qoşununu dağıtdı. Həzrət Əlinin(ə) Əqil adlı bir qardaşı vardı ki, o da müşriklərdən idi və İslam dinini qəbul etməmişdi. İmam Əli(ə) onu atdan yerə salıb, başını kəsmək üçün sinəsinə çökdü. Əqil səsləndi: "Əli, mənəm!" Əli(ə) baxmadı. Əqil ikinci dəfə səsləndi. "Əli, mənəm! Sənin qardaşın Əqiləm!" Əli(ə)

ona baxıb dedi: “Hər kim olursan ol. Kim peyğəmbərlə müharibə edərsə, qardaşım olsa belə öldürəcəyəm.” Əqil dedi: “Əgər İslam insanların Allaha iman gətirməklə bir-birinə qardaş olduqlarını və iki doğma qardaşdan biri iman gətirməsə, o birinə düşmən sayılırsa, onda mən bu gündən Allaha iman gətirdim.” Sonra Əqil kəlmeyi-şəhadəti dedi və müsəlman oldu. Həzrət Əli(ə) onu öldürmədi. Çünki artıq Əqil iman gətirmişdi.

Corc Cordak adlı xaçpərəst yazıçı beşcildlik “İnsan ədalətinin səsi” adlı kitabında İmam Əli(ə) barədə yazır: “Əli ibn Əbi Talibi ədalətinin çoxluğundan ibadət mehrabında öldürdülər.”

## Həzrət Əli(ə) Quranın danışan dilidir

Qədr gecəsi Allah-təala bizə iki Quranı təqdim edir. Onlardan biri samit Qurandır ki, bu gecə nazil olur. İkinci Quran isə Əlidir. Həzrət Əli(ə) Quranın danışan dilidir. Bu gecə onun vilayəti təyin olunur.

قَالَ رَسُولُ اللهِ(ص): يا عَلِيّ أَتَدْرِى مَا مَعنى لَيْلَةُ الْقَدْر؟ فَقُلْتُ لا يَا رَسُولَ الله فَقالَ(ص): اِنَّ اللهَ تَعالى قَدَّرَ فِيها مَا هُوَ كائِن اِلى يَومِ القِيامَة وَكانَ فِيما قَدَّرَ عَزَّوَجَلّ وِلايَتَكَ وَ وِلايَةُ الأَئِمَه مِن وُلْدِكَ اِلى يَومِ القِيامَة

Həzrət Peyğəmbər(s) Əliyə(ə) buyurdu: “Ya Əli, bilirsənmi Qədr gecəsi necə bir gecədir? Əli(ə) dedi: Xeyr, ya Rəsulallah? Həzrət Peyğəmbər(s) buyurdu: Həqiqətən, Allah-təala qiyamətə qədər hər nə baş verəcəksə, hamısını Qədr gecəsi təyin edir. Allah-təala Qədr gecəsində sənin

və sənin övladlarından olan imamların vilayətini müəyyənləşdirir.

Qədr gecəsi Allahın kitabı olan Quran nazil olur. Lakin bu Quran samitdir. Yəni nə qədər onu oxumasan, o, səninlə heç bir söz danışmaz. Onu açıb oxumaq və ayələrinə də Allah istədiyi kimi əməl etmək lazımdır. “Nəhcül-bəlağə”də Həzrət Əli(ə) buyurur: “Quranı danışdırın ki, sizinlə danışsın. (Onu danışdırmasanız, sizinlə danışmayacaq). İkinci Quran isə natiq Qurandır. Yəni bu Quran insanlarla söhbət edib danışır. İmam (ə) Quranın danışan dilidir. Quranda qaranlıq yer gördükdə həmin yeri açıqlamaq yalnız İmamın səlahiyyətindədir. İmamdan(ə) başqa kimsə Quranın adından hər nə danışarsa, hamısı cırılıb atılmalıdır. Çünki, Quranın mənasını ancaq Peyğəmbər(s), Əli(ə), xanım Zəhra(s.ə), İmam Həsən(ə), İmam Hüseyn(ə) və onun on bir ovladı olan (imamlar) açıqlaya bilərlər. Onlar Quranın danışan dilidir. Allah Quranın mənasını insanlara başa salmağı onlara həvalə etmişdir. Düşmən bilir ki, Quran insanla söhbət etməyəcək. Buna görə də əvvəl Quranın danışan dilini aradan götürür. Əhli-beyti(ə) Qurandan ayırdıqdan sonra onu istədikləri kimi şərh edirlər. Quranın danışan dilini kəsdikdən sonra Onu müdafiəsiz görüb istədikləri kimi təfsir edir, mənasını dəyişə bilirlər. Müaviyə Həzrət Əli(ə) ilə müharibə edərkən məğlub olduğunu gördükdə Quran kitablarını nizələrin ucuna taxıb hiyləyə əl atdı. O zamanın dar düşüncəli bəzi müsəlmanları bu hiyləyə aldanıb döyüşdən əl çəkərək dedilər: Biz Quranla müharibə etməyəcəyik. Həzrət Əli(ə) onları başa saldı ki, onlar Quran kitablarını nizələrə taxmaqla hiyləyə əl atırlar. Onlar bunun vasitəsilə canlarını qorumaq istəyirlər. Buna görə də Həzrət(ə) buyurdu: Mən sizə deyirəm, ilk öncə o

kitabları vurub yerə salın. Onlar sadəcə bir parça dəridir. Mən isə Quranın danışan diliyəm. Qurani natiq mənəm. Lakin həmin insanlar Həzrət Əlinin(ə) sözlərinə məhəl qoymadılar, əksinə öz qılınclarını Həzrətə(ə) sarı yönəltdilər.

## İmam Əlinin(ə) vəsiyyətləri

İmam Əli(ə) ömrünün son anlarında oğlu İmam Həsən(ə) və İmam Hüseynə(ə) belə vəsiyyət etdi.

أُوصِيْكُما بِتَقْوَى اللهِ, وَ أَنْ لا تَبْغِيَاالْدُّنْيا وَ إِنْ بَغضتْكُما, وَلا تَأْسَفا عَلى شَيءٍ مِنْهَا زُوِيَ عَنْكُمَا, وَقُوْلا بِالْحَقِّ, وَاعْمَلا لِلأَجْرِ, وَكُونا لِلْظالِمِ خَصْمًا, لِلْمَظْلُومِ عَوْنًا أُصِيْكُما وَ جَمِيْعَ وَلَدِي وَ أَهْلِي وَ مَنْ بَلَغَهُ كِتابِي, بِتَقْوَاللهِ وَ نَظْمِ أَمْرِكُمْ وَ صَلاحِ ذاتِ بَيْنِكُمْ, فَإِنِّي سَمِعْتُ جَدَّكُما صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ يَقُولُ: صَلاحُ ذاتِ الْبَيْنِ أَفْضَلُ مِنْ عآمَةِ الصَّلاةِ وَالصَّيامِ, اللهَ اللهَ فِي الْأَيْتام, فَلا تُغِبُّوا أَفْواهَهُمْ وَلا يَضِيعُوا بِحَضْرَتِكُمْ, وَ اللهَ اللهَ فِي جِيرانِكُمْ, فَإِنَّهُمْ وَصِيَّةُ نَبِيِّكُمْ ما زالَ يُوصِي بِهِمْ, حَتّى ظَنَنّا أَنَّهُ سَيُوَرِّثُهُمْ, وَ اللهَ اللهَ فِي الْقُرْآنِ, لا يَسْبَقُكُمْ بِالْعَمَلِ بِهِ غَيْرُكُمْ, وَ اللهَ اللهَ فِي الصَّلاةِ, فَإِنَّهَا عَمُودُ دِيْنِكُمْ, وَ اللهَ اللهَ فِي بَيْتِ رِبِّكُمْ, لا تُخَلُّوهُ ما بَقِيْتُمْ, فَإِنَّهُ إِنْ تُرِكَ لَمْ تُناظَرُوا وَ اللهَ اللهَ فِي الْجِهادِ بِأَمْوالِكُمْ وَ أَنْفُسِكُمْ وَ أَلْسِنَتِكُمْ فِي سَبِيلِ اللهِ وَ عَلَيْكُمْ بِالتَّواصُلِ وَ التَّباذُلِ, وَ إِيّاكُمْ وَ التَّدابُرَ وَ

الْتَّقاطُعَ لا تَتْرُكُوا الْأَمْرَ بْالْمَعْرُوفِ وَ النَّهی عَنِ الْمُنْكَرِ فَيُوَلَّی عَلَيْكُمْ أَشْرارُكُمْ  ثُمَّ تَدْعُونَ فَلا يُسْتَجابُ لَكُمْ...

- Sizi təqvalı olmağa və Allahdan qorxmağa çağırıram. Dünya sizə üz tutsa da, siz dünyapərəst olmayın. Əlinizdən çıxan dünya malı üçün təəssüflənməyin. Haqqı deyin, Allah savabına və əcrinə xatir iş görün. Zalımın qatı düşməni, məzlumun isə tərəfdarı olun. Mən sizi və bütün övladlarımı, ailəmi və bu vəsiyyətimi oxuyan hər bir kəsi təqvalı olmağa, Allahdan qorxmağa, işlərində nizamlı olmağa və insanlar arasında sülh yaratmağa çağırıram.  Çünki mən sizin cəddiniz Rəsulallahdan(s) belə eşitmişəm: “İnsanlar arasında sülh və mehribanlıq yaratmaq (bütün nafilə) namaz və orucdan üstündür.” Allah, Allah xatirinə yetimləri qoruyun. Elə etməyin ki, onlar bəzən ac, bəzən də tox qalsınlar. Elə etməyin ki, onlar sizin biganəliyiniz üzündən qarşınızda məhv olub puça çıxsınlar. Allah, Allah xatirinə qonşularınızı yaddan çıxarmayın. Çünki Peyğəmbəriniz(s) qonşulara yaxşılıq etməyi dəfələrlə tövsiyə etmişdir. O, dəfələrlə qonşular haqda elə tövsiyələr etdi ki, onların da mirasa daxil olacağını düşündük. Allah, Allah xatirinə Qurana riayət edin. Elə etməyin ki, ona əməl etməkdə başqaları sizi qabaqlasın. Allah, Allah xatirinə namazı unutmayın. Çünki namaz dininizin sütunudur. Allah, Allah xatirinə Rəbbinizin evini ziyarət etməyi unutmayın. Nə qədər ki, varsız, onu boş qoymayın. Çünki onu boş qoysanız, sizə möhlət verilməz. (Allahın bəlası sizə nazil olar.) Allah, Allah xatirinə canınızla, malınızla, dilinizlə Allah yolunda mübarizə aparın. (Çünki bütün bunları gərək bu yolda sərf edəsiniz.) Siz gərək həmişə dostluq

əlaqələrini genişləndirəsiniz. Bağışlamağı, əta etməyi unutmayın. Bir-birinizdən üz çevirməyin, bir-birinizlə əlaqələrinizi kəsməkdən çəkinin. Əmr be-məruf və nəhy əz-münkəri tərk etməyin ki, pislər sizə hakim kəsilərlər. Sonra nə qədər dua etsəniz də, müstəcab (xeyri) olmaz.

Allah-təala bizləri dünya və axirətdə Əlidən(ə) ayrı salmasın. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***1997- 2009, 19 ramazan***

## QƏDR GECƏSİ İBADƏT VƏ DUA GECƏSİDİR

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ
لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ
وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى
آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ
اِلى قِيامِ يَوْمِ الدِّينِ

Qədr gecəsinin müəyyən ibadətləri vardır ki, yuxarıda müfəssəl şəkildə qeyd olunmuşdur. Lakin bir neçə xırdalığı da nəzərinizə çatdırmaq istərdim. Qədr gecəsi Quranın nazil olduğu gecədir. Quran oxuya bilənlər çox yaxşı olar ki, “Ənkəbut”, “Rum” və “Duxan” surələrini oxusunlar. Qədr gecəsi bu üç surəni oxumaq müstəhəbdir. Həmçinin min dəfə “İxlas” (Qul-huvəllah) surəsini oxumağın çox böyük və xüsusi fəziləti vardır. Quran oxuya bilməyən kəslər bu gecə Quran oxumağı hətta əlif, ba hərflərini öyrənsə belə, yuxarıda qeyd olunan əməllərin hamısından fəzilətlidir. Əgər insan bir saat əyləşib Quran oxumağı bacaran şəxsdən öyrənərsə, Allah-təala həm öyrədənə, həm də öyrənənə böyük savab inayət edər. Çünki elm öyrədib öyrənməyin qiyməti, şərafəti və fəziləti daha çoxdur. Həmçinin çox yaxşı olar ki, bu gecənin (Həzrət Əlinin(ə), İmam Hüseynin(ə), şəhidlərin) ziyarətlərini oxuduqdan sonra ziyarət namazlarını qılsın. Qədr gecəsinin hər dəqiqəsi müstəsna dəqiqələrdir. Hər kəs bu gecəni ibadət etmək üçün hər narahatlıqla üzləşirsə Allah-təala bu narahatlıqlara görə həmin insanlara böyük əcr və savab inayət edəcək. Bu gecə duaya başlamazdan öncə çox yaxşı olar ki, insan öz haqqını bağışlayıb halal

etsin. Hər kəs əziyyət vermiş olubsa, haqqı boynunda qalmış olubsa, hətta insanın ən acığı gəldiyi və küsdüyü adam olmuş olsa belə bağışlayıb əfv etsin. Bu gecə insan öz valideynlərindən halallıq alması, onların qayğısına qalması ən ümdə əməllərdəndir. Hətta valideyn kafir olsa da belə övladın onların üzünə ağ olmağa ixtiyarı yoxdur. Əlbəttə, qeyd olunmalıdır ki, Allahın sözü onların sözündən üstündür. Yəni əgər valideyn övladına namaz qılmamağı deyirsə (vacib olan məsələləri yerinə yetirməyə qoymursa) və ya haram işlər görməyi əmr edirsə, bu məsələlərdə onlara itaət olunmamalıdır. Bunlardan başqa məsələlərdə də insan valideyninin bir sözünü iki etməməlidir. Bir neçə əməl var ki, o əməllərdə kafirlə mömin arasında fərq yoxdur. Həmin əməllərdən biri də odur ki, valideyn kafir olsa da belə övlad onların hörmətini saxlamalıdır. İkincisi əmanətdir ki, kafir də olsa, mömin də olsa, onların əmanətlərinə xəyanət etmək olmaz. Üçüncüsü isə vəd verməkdir. Əgər bir insan kafir və ya möminə vəd veribsə, mütləq verdiyi vədinə əməl etməlidir. Əgər insanın valideyni uzaqdadırsa, zəng etməklə və ya başqa cür əlaqə yaratmaqla hal-əhvalını soruşub halallıq ala bilər. Valideynin ürəyi yumşaq olar. Övlad valideyninə sadəcə bir kəlmə xoş söz deməklə onlar narazı olsalar da belə, ürəkləri yumşalır və övladlarına halallıq verirlər. Əgər valideynlərdən biri və ya ikisi də rəhmətə gedibsə, çox yaxşı olar ki, övlad onlara dua edərək salavat və rəhmət oxusun. Əgər bir insanın ata-anası boyunlarında qəza namazı qalaraq rəhmətə gedibsə, böyük oğula onların namazlarını qılması vacibdir. Digər övladlar da valideynlərinin qəza namazlarını öhdələrinə götürüb qıla bilərlər. Rəhmətə getmiş valideynlərin qəza namazlarını qılmaqdan böyük savab yoxdur. Əgər bir

övladın maddi cəhətdən imkanı yaxşıdırsa, namazı düzgün qıla bilən etibarlı şəxslərə pul verib qıldırmaq da mümkündür. Rəhmətə getmiş valideynin qəza namazlarını qılmaq, onlara ehsan etmək, xüsusilə onlara dua etmək ən böyük savablardandır. Bütün bunların insana çox böyük təsiri var. Bu əməllərin valideynə xeyrindən əlavə, insanın özünə də çox böyük faydası vardır. Bu gecə Peyğəmbərə(s), Xanım Zəhraya(s.ə) və imamlara iki rükət hədiyyə namazı qılmağın da çox böyük savabı və təsiri vardır. Həislərdə vardır ki, hər kəs Peyğəmbərə(ə) və məsum imamlara iki rükət namaz qılıb hədiyyə edərsə, dünyadan gedən zaman onlar həmin şəxsin başı üzərinə gələr.

Əlbəttə, istər əhya gecələri, istər başqa gecələr, istərsə ilin başqa günlərində insan bu namazı qıla bilər. İki rükət namaz qılmaq təqribən iki dəqiqə vaxt aparır. Insan öz vaxtını boş-boş şeylərə sərf etməkdənsə, belə namazları qılması onun xeyrinədir. Çünki bunlar insan üçün ibadətdir. Bu əməllər insanın axirəti üçün gərəklidir. Xüsusilə müsəlmanlar, valideynlər, qohum-əqrəba və qonşular üçün dua etməyin çox böyük savabı var. İnsan bu gecə Allahla raz-niyaz edib, dua edə-edə çalışmalıdır ki, Allah-təala həmin şəxsin taleyini xeyirli etsin: Allahdan istəyim budur ki, ən sevimli bəndələrinə bəxş etdiyini bizlərə də bəxş etsin. Bizləri o bəndələrdən ayırmasın.

İmam Sadiq(ə) buyurur: “Çöldə yaşayan çoban bir gün Kəbənin pərdəsindən yapışıb Allahla minacat edirdi. (Avam olmasına baxmayaraq, öz düşüncəsi qədər Allahla minacat etməsi çox gözəl idi.) Kəbənin pərdəsindən yapışıb Allaha belə deyirdi: İlahi, biz bir sürü qoyunu otaran çobanıq. Əgər sürünün içində bir heyvan xəstələnsə, ayağı sınıb əzilsə və ya zəif olsa biz o heyvanı

sürüdən ayırmarıq. Sürünü otarmağa aparanda həmin heyvanı da sürüyə qoşub apararıq. Ey mənim Allahım, Sən də məni bu yaratdığın bəndələrin içində ayağı sınıq, xəstə və zəif bir bəndə hesab et. Hər nəyəm, axırı Sənin bəndənəm. Hər nə olsam da, yalnız Sənin qapına üz tutmuşam. Məni Özün yaratmısan, mən də Sənin qapına gəlmişəm.

Alim və arif bir insan da Allahla öz düşüncəsi qədər minacat edərək deyir: İlahi, əgər məni bağışlasan, Peyğəmbərin(s) şad, şeytan narahat olar. Əgər bağışlamasan, Peyğəmbərin(s) narahat, şeytan şad olar. Ey mənim Allahım, bu gecə Peyğəmbərini narahat etmə.

Odur ki, hər kəsən öz dili və düşüncəsi ilə Allahla minacat edib dua etsin. Allah-təala hər bir qəlbdən keçənlərdən xəbərdardır. Allah insanlara vaxt verir və hər zaman qapısına gələni qəbul edir. Xüsusilə Qədr gecəsi rəhmət qapılarını bütün bəndələrinin üzünə açıq qoyur. Hər kəs bu qapıya üz tutsa, Allah həmin şəxsi qəbul edər.

Qədr gecəsi mübarək Ramazan ayının 19,21 və 23-cü gecələrindən birinə təsadüf edir. Hər bir gecənin Qədr gecəsi olması barədə hədislər mövcuddur. Lakin hansı birinin daha dəqiq Qədr gecəsi olması bizim üçün sirrdir. Ehtimala görə, bir-birindən fərqlənir. Məsələn, hədis və rəvayətlərə istinad edilərkən Ramazan ayının 23-cü gecəsinin Qədr gecəsi olmasına daha çox ehtimal verilmişdir. Bir nəfər ərəb Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mənim yolum çox uzaqdır. Üç gecə ardıcıl gəlməyə imkanım çatmır. Xahiş edirəm ki,  bu üç gecənin hansının Qədr gecəsi olduğunu mənə deyəsiniz.” Həzrət Peyğəmbər(s) onun qulağına nəsə dedi və Peyğəmbərin(s) ona dediyi sözü heç kəs

eşitmədi. Lakin hər il Ramazan ayının 23-cü gecəsi həmin ərəbin məsciddə ibadət etdiyini görürdülər.

Bu hədis və rəvayətlərdən belə məlum olur ki, mübarək Ramazan ayının 23-cü gecəsi çox güman ki, Qədr gecəsidir.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ إِخْتارَ مِنَ الْأَيّامِ الِْجُمُعَةَ وَ مِنَ الشُّهُورِ رَمَضان وَ مِنَ الْلَيالِي لَيْلَةَالْقَدْرِ

Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala günlərin içində cümə gününü, ayların arasında Ramazan ayını və gecələrin içində Qədr gecəsini özü üçün təyin etmişdir.”

Mübarək Ramazan yeganə bir aydır ki, Allah-təala Quranda yalnız onun adını zikr etmişdir.

شَهر رَمَضان الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى وَالْفُرْقَانِ

“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran (Quran) Ramazan ayında nazil olmuşdur.”

Qədr gecəsi çox qiymətli və fəzilətli bir gecədir. Bu gecə Allah-təala özü insanları dəvət edərək dualarını qəbul edir. Hər kim Qədr gecəsi tövbə edib Allahdan öz istəklərini diləyərsə, Allah onun dualarını qəbul edər və istəklərini verər. Hədislərdə deyilir ki, hər kəs Qədr gecəsi səhərə qədər oyaq qalıb Allaha ibadət etdikdən sonra dualarını və istəklərini Allahdan diləyərsə, arzusuna çatar.

İmam Sadiq(ə) buyurur: “Əgər Qədr gecəsinin əməllərindən və dualarından sonra insan tövbəsinin qəbul olunmasına şəkk etsə, böyük günah etmişdir.”

Bu gecə Allah bütün möminlərin dualarını qəbul edir. Lakin üç nəfərin duası qəbul olunmur. Qəlbində kin-

küdurət saxlayanın, içki içənin və valideynin üzünə ağ olanın.

## 1.Kin-küdurət

İnsan gərək başqalarına qarşı qəlbində kin saxlamasın. Çünki belə şəxslərin duası qəbul olunmur. Qədr gecəsi möminlər günahlarının bağışlanması üçün səhərə qədər yatmayıb Allaha dua edərək öz istəklərini diləyirlər. İnsan gərək bu gecə qonşuları, qohum-əqrəbası, ata-anası ilə halallaşsın və kiməsə pisliyi dəyibsə, gedib ondan üzr istəsin. Əgər bir nəfər ona pislik etmiş olsa da, onu da bağışlasın. Daha yaxşı olar ki, bu gecə insan Allaha dua edərkən desin: “İlahi, hər kim mənə pislik edibsə və məni incidibsə, Sənə xatir onu bağışlayıram. Sən də mənim günahlarımı bağışla.”

## 2. Şərab

Qədr gecəsi duaların qəbul olan gecəsidir. Lakin içki içən şəxslər əgər tövbə etməsələr, onların duası qəbul olunmayacaqdır. Çünki bu, haram işdir. Allah-təala onu insanlara haram etmişdir. “Bəqərə” surəsində buyurur:

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا ...

“[Ya Məhəmməd!] Səndən içki və qumar haqqında sual edənlərə söylə: “Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət (dünya mənfəəti) vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür.”

Düzdür, insan içki və qumar vasitəsilə çoxlu pul qazanıb var-dövlət əldə edə bilər. Lakin onların mənəvi

ziyanı həddindən artıq çoxdur. İçki insanın ağlını əlindən alır və insanı zəlalətə salır.

Allah-təala başqa bir ayədə içki barədə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

“Ey iman gətirənlər! Şərab da, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız!” [1]

Burada bir mətləbi qeyd etməyi lazım bilirəm. İnsanın Allaha və axirət gününə imanı olmalıdır. İnsan bir müddət nütfə formasında ata belində yaşayır. Ana bətninə düşdükdən sonra müəyyən bir vaxta qədər orada yaşayır. Onun orada nə qədər yaşaması da dəqiq məlum deyildir. Bəziləri 6 ay, bəziləri 9 ay, bəziləri isə 13 ay ana bətnində yaşayır. İnsan sonra dünyaya gəlir və bu dünyada da bir müddət yaşayır. Onun bu dünyada da nə qədər yaşayacağı məlum deyil. Bu dünyada ömrü sona yetdikdən sonra bərzəx aləminə gedərək qiyamət gününə qədər orada qalır. Qiyamət günü olanda ondan dünyada nə etdikləri barədə sorğu-sual aparılacaq. Əgər bu sorğu-sual da özünü doğrulda bilsə, əbədi olaraq cənnətdə yaşayacaq. Yox, əgər bu imtahandan kəsilsə, cəhənnəmə yönələcək.

Buna görə də insanın gərək Allaha, Peyğəmbərə(s), imamlara, axirətə imanı olsun. Bununla yanaşı, əməlləri də saleh olmalıdır. Odur ki, Həzrət Peyğəmbər(s) buyurur: “Allaha və axirətə iman gətirən şəxs içki olan süfrədə əyləşməz.”

---

[1] Maidə, 90.

### 3. Valideynin üzünə ağ olmaq

Qədr gecəsində duaları qəbul olunmayan şəxslərdən biri də ata-anasının üzünə ağ olan şəxsdir. Yəni hər kimin ata-anası ondan narazı və incik olarsa, Allah o şəxsin dualarını qəbul etməz. Yaxşı olar ki, insan bu gecə ata-anasından və nənə-babasından halallıq alıb incitdiyinə görə onlardan üzr istəsin. İnsanın valideyni pis də olsa, kafir də olsa, gərək onlardan halallıq alınsın və üzr istənilsin.

Həzrət Peyğəmbər(s) buyurur: "Üç şeydə möminlə kafir arasında fərq qoyulmur."

1. Əmanətə xəyanət etməmək. İnsan gərək əmanətə xəyanət etməsin. Əmanət tapşıran şəxsin kimliyindən asılı olmayaraq, onun əmanətinə xəyanət etmək günahdır və Allahın bu işdən xoşu gəlmir. İmam Səccad(ə) buyurur: "Atam İmam Hüseynin(ə) qatili qılıncını mənə əmanət olaraq tapşırsa, onun əmanətinə xəyanət etmərəm."

Buna görə də əmanət tapşıran şəxs kafir olsa da belə, gərək onun əmanətinə xəyanət edilməsin.

2. Əhd-peymanı pozmamaq. Müsəlman əhd-peyman bağladıqda, gərək əhdini pozmasın. Söz verdiyi şəxs kafir olsa da belə, gərək öz sözünə vəfa etsin və onunla bağladığı əhd-peymanı pozmasın.

3. Valideynə yaxşılıq. İnsanın ata-anası kafir olsa da belə, onlara yaxşılıq etmək və qayğılarına qalmaq onun borcudur.

Bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: "Ey Allahın höccəti, mənim ata-anam siz Əhli-beytin düşmənlərindəndir." İmam Sadiq(ə) ona buyurdu: "Get, onların qayğısına qal və onlara qulluq et." Həmin şəxs dedi: "Mənim ata-anam iman gətirməyiblər." İmam Sadiq(ə) buyurdu: " Valideyn kafir olsa belə, onlara

qulluq etmək və onların qayğısına qalmaq insanın borcudur.”

Yaşlı bir qadın gördü ki, oğlu son vaxtlarda ona yaman qulluq edir və qayğısına qalır. Soruşdu: “Oğlum, görürəm bu son vaxtlarda mənə yaman qulluq edirsən və mənim sözümdən çıxmırsan. Bunun səbəbi nədir belə?”

Oğlu dedi: “Ana, mən İslam dinini qəbul edib müsəlman olmuşam. Həzrət Peyğəmbər(s) bizə buyurub ki, valideynə qulluq edib onların qayğısına qalmaq böyük ibadətdir. Çünki valideynə qulluq etmək Allahın insanlara tövsiyə etdiyi əməllərdən biridir.”

Anası dedi: “İslam dini nə gözəl dindir. Elə bu gündən mən də İslamı qəbul edirəm.”

Valideyni ondan incik və narazı olan şəxsin duaları qəbul olunmaz və bu dünyada da xoş bir gün görməz. Ölən zaman çətinliklə can verər.

Həzrət Peyğəmbərin(s) dövründə cavan bir oğlan ölüm yatağına düşmüşdü və çətinliklə can verirdi. Peyğəmbərə(s) onun bu vəziyyəti barədə xəbər verdilər. Həzrət Peyğəmbər(s) həmin oğlanın evinə getdi və gördü ki, bəli, o, ömrünün son anlarını yaşayır. Peyğəmbər(s) ona “La ilahə illəllah” deməyi təklif etdi ki, bu dünyadan müsəlman kimi getsin. Lakin oğlan nə qədər çalışdısa, “La ilahə illəllah” sözünü dilinə gətirə bilmədi. Həzrət Peyğəmbər(s) buyurdu: “Bu oğlanın anası varmı?” Oğlanın anası Peyğəmbərin(s) hüzuruna gəldi. Həzrət Peyğəmbər(s) buyurdu: “Deyəsən, sən oğlundan incimisən və onun əlindən çox narahatsan?” Oğlanın anası dedi: “Ya Rəsulallah, o, mənim ürəyimi qırıb və ondan bərk incimişəm. O, məni vurub və altı ildir ki, mənimlə danışmır. Mən onu bağışlaya bilmərəm.”

Həzrət Peyğəmbər(s) ətrafdakılara bir az atəş gətirməyi əmr etdi. Odu gətirib Peyğəmbərə(s) verdilər. Həzrət Peyğəmbər(s) odu oğlana yaxınlaşdırdı. Oğlanın anası dedi: “Ya Rəsulallah, mən razı deyiləm ki, od oğlumu yandırsın.” Həzrət Peyğəmbər(s) buyurdu: “Əgər istəmirsənsə od onu yandırsın, onda bağışla. Çünki sən onu bağışlamasan, Allah onu cəhənnəmə atacaq.” Oğlanın anası dedi: “Ya Rəsulallah, sən mənə əmr etdiyinə görə, onu sənə xatir bağışlayıram.” Sonra Peyğəmbər(s) oğlana “La ilahə illəllah” deməyi təklif etdi. Gördülər ki, oğlanın dili açıldı və “La ilahə illəllah” – deyib dünyadan getdi.

Ümumiyyətlə, ata-ana kafir olsa da belə, onları incidən şəxs dünyada xoş gün görməz və ölərkən çətinliklə can verər. Əgər ata-ana onu bağışlamasa, Allah da onu bağışlamaz.

Allah-təala Qədr gecəsində dua və ibadət edən möminlərin dua və ibadətlərini qəbul etsin. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***1997, 23 ramazan***

## QURAN VƏ ƏHLİ-BEYT

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

Həzrət Peyğəmbər(s) dünyasını dəyişən zaman müsəlmanlara belə vəsiyyət etdi: “Ey müsəlmanlar! Mən sizə 23 il peyğəmbərlik etmişəm və siz də məni qəbul etmisiniz. Həqiqətən, mən Allah tərəfindən dəvət olunmuşam və yaxın vaxtlarda o dəvəti qəbul edəcəyəm. Odur ki, mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Sizə çox-çox təkid edirəm, məndən sonra o iki şeydən ayrılmayın. Mehriban və mərhəmətli Allah mənə xəbər vermişdir ki, bu iki şey cənnət hovuzunda mənə qovuşana qədər bir-birindən ayrılmayacaqlar. Diqqətli olun! Görün məndən sonra bu iki əmanətlə necə rəftar edəcəksiniz. Siz bu iki əmanətdən nə qədər möhkəm yapışsanız, heç vaxt öz yolunuzu azmayacaqsınız. O iki əmanətin biri Allahın kitabı olan Qurani-Kərimdir. Bu kitab Allahın qırılmaz ipidir. Bu ipdən möhkəm yapışın ki, şeytan sizi yoldan çıxarmasın və haqq yoldan azmayasınız. Biri də mənim Əhli-beytimdir. Ey müsəlmanlar! Diqqətli olun: bu iki əmanət qiyamət gününə qədər bir-birindən ayrılmayacaq. Əgər bunlardan birini tutub, o birindən əl çəksəniz, özünüzü həlak etmiş olacaqsınız. Quran və Əhli-beyt(ə) bir-birindən

ayrılmazdır və bu birlik qiyamət gününə qədər davam edəcəkdir.”[1]

Bu sözlər Peyğəmbərin(s) bizlərə etdiyi ən mühüm vəsiyyətlərdən biri idi. Peyğəmbərin(s) bu vəsiyyəti həm şiə, həm də sünni alimlərin kitablarında qeyd olunmuşdur. Bu hədis haqda sünni və şiə alimləri arasında heç bir ixtilaf yoxdur. Həzrət Peyğəmbər(s) həm Quran, həm də Əhli-beyt(ə) barədə bizlərə çox təkid etmişdir.

## Həzrət Peyğəmbərin(s) Quran haqqında buyurduğu hədislər

قَالَ رَسُولُ اللهِ(ص): إِذا التُبِسَتْ عَلَيْكُمُ الْفِطَنُ كَقِطَعِ الْلَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُم بِالْقُرْآنِ فَإِنَّهُ شَافِعٌ مُشَفِّعٌ مَنْ جَعَلَ الْقُرْآنَ أَمامَهُ قَادَهُ إِلَى الْجَنَّةِ وَ مَنْ جَعَلَهُ خَلْفَهُ سَاقَهُ إِلى الْنَّارِ هُوَ الدَّلِيْلُ يَدُلُّ عَلى خَيْرِ سَبِيْلٍ...

Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Ey müsəlmanlar! Elə ki, gördünüz fitnələr qaranlıq gecə kimi sizə üz gətirdi və çaş-baş qalmısınız, Qurandan möhkəm yapışın. Quran sizin üçün nicat vasitəsidir. Həqiqətən, Quran sizi bu dünyada hidayət, axirətdə isə şəfaət edər. Hər kəs Quranı özünə rəhbər edərsə, Quran onu cənnətə aparar. Hər kəs Quranı arxada qoyarsa və onu özünə rəhbər etməzsə, Quran onu cəhənnəmə tərəf yönəldər. (Yəni hər kim Quranı oxuyub ona əməl edərsə və ona tabe olarsa, Quran onu cənnətə aparıb çıxarar. Lakin Qurana tabe olmayan şəxs, Quran oxumağına baxmayaraq,

---

[1] Mizanul-hikmə, c.1. səh.191.

cəhənnəmə vasil olar.) Bilin ki, Quran ən gözəl bələdçi və hidayət edəndir."[1]

قَالَ رَسُولُ اللهِ (ص): وَ هُوَ حَبْلُ اللهِ الْمَتِيْنُ وَهُوَ الصِّراطُ الْمُسْتَقِيمُ...

Başqa bir hədisdə Həzrət(s) buyurur: "Quran Allahın ən möhkəm və qırılmaz ipi və Onun düzgün olan yoludur."

قَالَ عَلِيٌّ(ع): عَلَيْكُمْ بِاالْقُرآنِ فَالتَّخِذُوهُ إِمامًا قائِدًا

Həzrət Əli(ə) isə buyurur: "Mən sizlərə Quranla birgə olmağı tövsiyə edirəm. Quranı özünüzə rəhbər və yolgöstərən seçin."

## Həzrət Peyğəmbərin(s) Əhli-beyt(ə) haqqında buyurduğu hədislər

Bir gün ənsardan bir neçəsi Həzrət Peyğəmbərin(s) yanına gəlib dedi: "Ya Rəsulallah, Sənin maddi-iqtisadi çətinliklərini həll etməyə hazırıq. Nə çətinliyin varsa, əmr et, biz o çətinlikləri həll edək."

Onlar bu sözü Peyğəmbərə(s) deyəndə Allah-təala "Şura" surəsinin 23-cü ayəsini nazil etdi.

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

"De: Mən sizdən bunun (peyğəmbərliyimin) müqabilində heç bir şey istəmirəm. Lakin mənə yaxşılıq etmək istəyirsinizsə, onda yaxınlarıma (Əhli-beytimə) məhəbbət bəsləyin."

---

[1] Mizanul-hikmə, c.8. səh.65.

Əhməd ibn Hənbəl “Fəzilətüs-səhabə” adlı kitabında bu barədə belə bir rəvayət nəql etmişdir:

لَمّا نَزَلَتْ قُل لَّا أَسْأَلُكُمْ ...

قَالُوا يَا رَسُولُ اللهِ مَنْ قَرابَتُكَ؟ مَنْ هَؤُلاءِ الَّذِينَ وَجَبَتْ عَلَيْنا مَوَدَّتُهُمْ؟

قَالَ رَسُولُ اللهِ(ص): عَلِيٌّ وَ فَاطِمَةُ وَ أَبْنَاهُمَا عَلَيْهِمُ السَّلامُ قَالَهَا ثَلاثًا

“Şura” surəsinin 23-cü ayəsi nazil olanda, müsəlmanlar Həzrət Peyğəmbərin(s) yanına gəlib dedilər: Ya Rəsulallah, sənin yaxınların kimlərdir ki, Allah-təala onlara məhəbbət bəsləməyi bizlərə vacib etdi? Peyğəmbər(s) onların cavabında üç dəfə bu sözü buyurdu: “Əli(ə), Fatimə(ə) və onlardan dünyaya gələn iki övlad (Həsən(ə) və Hüseyn(ə).”

Başqa bir rəvayətdə böyük sünni alimlərindən biri olan Hakim Həskani Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql edir:

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ خَلَقَ الْأَنْبِيَاءَ مِنْ أَشْجَارٍ......أَنَا وَ عَلِيٌّ مِنْ شَجَرَةٍ وَاحِدَةٍ فَأَنَا أَصْلُهَا وَ عَلِيٌّ فَرْعُهَا وَ فَاطِمَةُ لِقَاحُهَا وَالْحَسَنُ وَالْحُسَيْنُ ثِمَارُهَا وَأَشْيَاعُنَا أَوْرَاقُهَا

Həzrət Peyğəmbər(s) buyurub: “Həqiqətən, Allah-təala peyğəmbərləri yaradanda hər birini bir şeydən xəlq etmişdir. Məsələn, hərəsini bir ağacdan xəlq etmişdir. Lakin mənimlə Əlini(ə) bir ağacdan yaratmışdır. Mən o ağacın kötüyəm, Əli(ə) qol-budağı, Fatimə(ə) onun bar

verməsi üçün bir vasitə, Həsən(ə) və Hüseyn(ə) həmin ağacın meyvələri, bizim şiələrimiz isə ağacın yarpaqlarıdır.”

قَالَ رَسُولُ اللهِ(ص): إن عَبْدًا عَبَدَاللهَ بَيْنَ الْصَّفا وَالْمَرْوَةِ أَلْفَ عامٍّ ثُمَّ أَلْفَ عامٍّ ثُمَّ أَلْفَ عامٍّ ثُمَّ لَمْ يُدْرِكْ مَحَبَّتَنا كَبَّهُ اللهُ عَلَى مُنْخَرِيهِ فِي الْنَّارِ ثُمَّ تَلا هَذِهِ الْآية قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

Sonra Həzrət Peyğəmbər(s) əlavə edərək buyurdu: “Hər kim Səfa və Mərvə dağları arasında min il, yenə də min il, yenə də min il ibadət etsə, lakin mənim Əhli-beytimin(ə) məhəbbəti onun qəlbində olmasa, Allah onun etdiyi bu ibadətləri qəbul etməz və onu cəhənnəm əhlindən edər.”

“Nisa” surəsinin 59-cu ayəsi nazil olarkən Həzrət Peyğəmbər(s) dərhal onu camaat üçün oxudu:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”[1]

Bir qrup müsəlman Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, Allaha və sənə itaət etməyi bilirik. Lakin əmr sahibləri kimlərdir ki, Allah bizə onlara itaət etməyi vacib edib?”

Həzrət Peyğəmbər(s) onlar üçün 12 imamın adını saydı. İmam Əli(ə), İmam Həsən(ə), İmam Hüseyn(ə), İmam Səccad(ə), İmam Baqir(ə), İmam Sadiq(ə), İmam Musa ibn Cəfər(ə), İmam Rza(ə), İmam Cavad(ə), İmam Hadi(ə), İmam Həsən Əskəri(ə), İmam Zaman(ə.c).

---

[1] Nisa, 59.

Qeyd etdiyimiz bu ayə və hədislərdə Quran və Əhli-beytin bizlərə təkidlə tapşırılmasının şahidi olduq.

## Həzrət Peyğəmbərin(s) Əli(ə) barədə buyurduğu hədislər

Həzrət Peyğəmbər(s) Əli(ə) barədə buyurmuşdur:

مَنْ كُنْتُ مَوْلاهُ فَهَذا عَلِيٌّ مَوْلاهُ

1. “Mən kimin mövlasıyamsa, Əli(ə) də onun mövlasıdır.”

عَلِيٌّ مِنِّى كَنَفْسِى طَاعَتُهُ طَاعَتِى وَ مَعْصِيَتُهُ مَعْصِيَتِى

2. “Əli(ə) mənə özüm kimidir və məndən ayrılmaz. Ona itaət edən mənə itaət etmişdir. Ona hörmətsizlik edən mənə hörmətsizlik etmişdir.”

وَلِيُّ عَلِيٍّ وَلِيُّ اللهِ عَدُوُّ عَلِيٍّ عَدُوُّاللهِ

3. “Əlinin dostu Allahın dostu, Əlinin düşməni Allahın düşmənidir.”

حَرْبُ عَلِيٍّ حَرْبُ اللهِ وَ سِلْمُ عَلِيٍّ سِلْمُ اللهِ

4. “Əli(ə) ilə müharibə edən Allahla müharibə etmişdir və Əli(ə) ilə sülh bağlayan Allahla sülh bağlamışdır.”

حُبُّ عَلِيٍّ إِيمَانٌ وَ بُغْضُهُ كُفْرٌ

5. “Əlini(ə) sevmək iman, onunla düşmənçilik etmək küfrdür.”

عَلِيٌّ مَعَ الْحَقِّ وَ الْحَقُّ مَعَ عَلِيٍّ

6. “Əli(ə) haqq ilədir, haqq da Əli(ə) ilə.”

مَنْ فَارَقَ عَلِيًّا فَقَدْ فَارَقَنِى وَ مَنْ فَارَقَنِى فَقَدْ فَارَقَ اللهَ عَزَّوَجَلَّ

7. “Əlidən(ə) ayrı düşən məndən ayrı düşmüş və məndən ayrı düşən Allahdan ayrı düşmüşdür.”

Yuxarıda qeyd etdiyimiz ayə və hədislər Həzrət Peyğəmbərin(s) bizlərə Quran və Əhli-beyt(ə) haqqında tapşırdığı hədislər idi. Çünki Quran və Əhli-beyt(ə) qiyamət gününə qədər bizimlədir. Hətta insan can verən zaman onun başı üzərində Quran ayələri oxunulur. Əgər can verən şəxs Əhli-beyti (ə) sevən şəxs olarsa, Əhli-beyt (ə) onun başı üzərinə gəlib behişt müjdəsi verər.

İmam Sadiqin(ə) yaxın dostlarından biri çox narahat idi. İmam(ə) onun narahatlığının səbəbini soruşdu. O dedi: “Ey Peyğəmbərin(s) övladı, mənim həyat yoldaşım dünyasını dəyişib, ona görə də narahatam.” İmam(ə) buyurdu: “Allah rəhmət etsin. Bütün yarananlar dünyasını dəyişəcəklər. Burada narahat olmalı nə var ki?” O dedi: “Ey Peyğəmbərin(s) övladı, mən ona görə narahatam ki, o, qərib yerdə dünyadan gedib.” İmam(ə) buyurdu: “Sənin həyat yoldaşın biz Əhli-beyti(ə) sevən insanlardan idi?” O dedi: “Bəli. O, sizə məhəbbət bəsləyən insanlardan idi.” İmam(ə) buyurdu: “Sən ona qərib demə. Biz Əhli-beyti(ə) sevən şəxslər dünyanın hansı nöqtəsində olursa-olsunlar, qərib deyillər. Çünki onlar dünyadan köçən zaman biz onların başı üstündə hazır oluruq. Biz heç vaxt bizi sevən şəxsi qərib ölməyə qoymarıq. Öz evindən, qohum-əqrəbasından uzaq düşən şəxs qərib deyildir. Qərib o şəxsdir ki, qəlbində bizim məhəbbətimiz olmasın və biz Əhli-beytə (ə) məhəbbət bəsləməsin.”

Hər kəs vəfat etdiyi zaman Əli(ə) onun başı üstünə gələrsə, o, qərib deyildir.

Rəvayətçilərin biri belə nəql edir:

“Bir gün İmam Sadiqin(ə) hüzurunda idik. İmam(ə) bizə buyurdu: “Əhli-beyti(ə) sevən şəxslər ölən zaman

görürlər.” Soruşdum: “Ey Peyğəmbərin(s) övladı, onlar kimi görürlər?” Həzrət(ə) yenə həmin sözü təkrar edərək buyurdu: “Onlar görürlər.” Yenə soruşdum: “Ey ağam, onlar kimi görürlər?” Mən beləcə on dəfə İmamdan(ə) xahiş etdikdən sonra Həzrət(ə) buyurdu. “Biz Əhli-beyti(ə) sevən şəxslər dünyasını dəyişdikləri zaman o iki nəfəri görürlər.” Soruşdum: “Ey Peyğəmbərin(s) övladı, o iki nəfər kimlərdir?” İmam(ə) buyurdu: “Peyğəmbər(s) və Əli(ə).”

Yuxarıda qeyd etdiymiz hədis və rəvayətlərə əsasən məlum olur ki, hər kim Əhli-beyti(ə) sevən şəxslərdən olarsa, can verən zaman Əlinin(ə) onun başı üzərində durduğunu görər. Hər kəsin can verən zaman başı üstə Əli(ə) durarsa, ölüm ona yas yox, şənlik olar. Yas, matəm o şəxslərindir ki, öləndə Əli(ə) onların başı üstünə gəlməsin. Çünki cənnət və ya cəhənnəmə gedən şəxsləri bir-birindən Əli(ə) ayırır.

Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Cənnət və cəhənnəm əhlini Əli(ə) bir-birindən ayıracaqdır.”

Hər kim can verən zaman Əlini(ə) başı üstündə görərsə, deməmk, hər bir məqsədinə çatmış və aqibəti gözəl olmuşdur. Yox, əgər can verən zaman Əli(ə) onun başı üstünə gəlməzsə, hər bir şey əlindən çıxmışdır.

Allah-təala Qurani-Kərimdə “Fəcr” surəsinin axırıncı ayələrində buyurur:

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً فَادْخُلِي فِي عِبَادِي وَادْخُلِي جَنَّتِي

“Ey öz imanından, əməlindən (Allah və Əhli-beytdən) xatircəm olan kəs! (Ey arxayın nəfs) Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən!

(Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol! (Onlarla birlikdə) cənnətə varid ol!”[1]

Bu ayənin mənasından başa düşürük ki, həm Qurana əməl edən, həm də Əhli-beyti(ə) sevən şəxslərdən bir nəfər dünyadan gedərkən, Allah-təala on dörd məsumu onun başı üstünə göndərərək belə buyurar: (“Ey Əhli beyti sevən şəxs!) Sən, Əhli-beytdən razı və Əhli-beyt də səndən razı olan halda Allaha tərəf qayıdırsan. Daxil ol əməlisaleh bəndələrimin (Əhli-beytin) zümrəsinə. Və (Əhli-beytlə birgə) cənnətə daxil ol.”

Bu ayə və bu ayə barədə olan hədis Qurana əməl edən və  Əhli-beyti(ə) sevən şəxslərə şamildir.

Mənim 11-12 yaşım var idi. Böyük alimlərdən biri dünyasını dəyişirdi. Onun adı Hacı Şeyx Abdulla Həmzəzadə Ərdəbili idi. O, çox böyük və görkəmli alimlərdən biri idi. Mən həmişə bu alimin yanında olurdum. Demək olar ki, onun bütün məclislərində iştirak edir və böyük bir alimə hörmət edən kimi hörmət edərdim. Ayağa qalxanda əsasını ona verər və məclisdən çıxarkən ayaqqabılarını cütləyərdim. O da yaşımın az olmasına baxmayaraq, mənə hörmət bəsləyirdi. O, ömrünün axırlarında xərçəng xəstəliyinə tutulmuşdu. Xəstəliyin şiddətindən yorğan-döşəyə düşmüşdü. Onun xəstəliyi o qədər ağır idi ki, hətta ayağa belə qalxa bilmirdi və danışmağa da halı qalmamışdı. Ömrünün son anlarını yaşayırdı. Hamı onun başına yığışmışdı. Birdən orada əyləşənlər qeyri-adi bir hadisənin şahidi oldular. Onun şəklini qapının yuxarı hissəsinə vurmuşdular. Günlərlə danışmağa halı olmayan bu alim gözlərini açıb yeddi yaşlı

---

[1] Fəcr, 27-30.

Məsumə adlı qızını səslədi və ona dedi: “Məsumə, qızım, o şəkli qapının üstündən götürün.”

Bu hadisə hamıya çox qəribə gəldi. Çünki o, təqribən üç ay idi ki, halı olmadığından danışa bilmirdi. Orada əyləşənlər onun bu qeyri-adi hərəkətinə təəccübləndilər. Həyat yoldaşı gəlib qapının üstündən şəkli götürdü. Sonra həmin alim öz əba və əmmaməsini istədi. Əbanı gətirib onun çiyninə saldılar və əmmaməsini başına qoydular. Sonra üzünü yanında əyləşənlərə çevirib əsanı istədi. Əsanı ona verdilər. O, əsaya söykənib əyləşdi. Var gücünü toplayıb ayağa qalxaraq: “Salam olsun sənə, ey Allahın Rəsulu”, – deyib əyləşdi. Yenə də ayağa qalxıb əlini sinəsinə qoyaraq: “Salam olsun sənə, ey Peyğəmbərin(s) qızı”, – deyib əyləşdi. Bir az keçməmiş yenə də ayağa qalxıb dedi: “Salam olsun sənə, ya Əmirəlmöminin.” Düz on dörd dəfə ayağa qalxıb bütün imamları salamladıqdan sonra yerinə uzanıb evində ağlaşan qadınlara bildirmək üçün qızına dedi: “Qızım, Məsumə, sən də orada ağlaşanlara de ki, ucadan ağlamasınlar. Görmürsünüzmü, Peyğəmbər(s) və onun Əhli-beyti(ə) bizə qonaq gəliblər?” Bundan sonra vəsiyyətlərini edərək dünyasını dəyişdi.

Mən həqiqətən “Fəcr” surəsinin axırıncı ayələrini bu alimin dünyasını dəyişməsi ilə bir daha dərindən dərk etdim ki, hər kim Qurana əməl edib, Əhli-beytə(ə) məhəbbət bəsləsə, dünyadan rahat və xatircəm qəlblə köçər və ölən zaman Əhli-beyt(ə) başı üstünə gəlib onu cənnətə aparar. Çünki hər kəs Quranı oxuyub, ona əməl edərsə və Əhli-beyt(ə) ondan razı qalarsa, sözsüz ki, rahat qəlblə dünyadan köçər və ölən zaman Əhli-beyt(ə) onun başı üstünə gələr.

Qədr gecəsində biz Quranı başımızın üstünə qoyub Peyğəmbər(s) və Əhli-beytə(ə) and verərək Allahdan öz

diləklərimizi istəyirik. Ramazan ayının 21-ci gecəsinin həm Qədr gecəsi olduğu ehtimal edilir, həm də bu gecə Həzrət Əli(ə) dünyasını dəyişir. Həmin gecə Həzrət Əli(ə) övladlarını başına yığıb belə vəsiyyət edir: "Ey mənim övladlarım! Ey mənim şiələrim! Ey mənim imamətimi qəbul edənlər! Sizlərə Quranı tövsiyə edirəm. Sizlərə namazı tapşırıram. Sizlərə orucu tapşırıram. Əmanətə xəyanət etməyin. Qonşularla mehriban rəftar edin."

Həzrət Əli(ə) vəsiyyət etdikdən sonra buyurdu: "Məni qılıncla vuran əsiri incitməyin. Sağalsam, özüm onunla hesablaşaram. Yox, əgər ölsəm, ona qılıncla bir zərbədən artıq vurmayın." Sonra Həzrətə(ə) süd gətirdilər. Həzrət(ə) süddən bir az içib, qalan hissəsini övladlarının birinə verib buyurdu: "Bunu aparın məni vurana verin. Onu ac saxlamayın." Sonra Həzrət(ə) üzünü böyük oğlu İmam Həsənə(ə) tutaraq belə vəsiyyət etdi: "Oğlum, Həsən, mən öləndən sonra mənə qüsl verib, kəfənə bükərsiniz və tabuta qoyarsınız. Tabutun arxa tərəfindən siz tutarsınız, tabutun qabaq tərəfindən mələklər yapışacaqlar. Mələklər harada dayansalar, siz də orada dayanıb tabutu yerə qoyarsınız. Namazı qıldıqdan sonra oranı qazarsınız. Oradan bir lövhə çıxacaq. O lövhədə Nuh(ə) peyğəmbərin öz dəsti-xətti ilə bu sözlər yazılmışdır: "Bu, qardaşım Əli ibn Əbi Talibin qəbridir."

Həzrət Əli(ə) dünyasını dəyişəndən sonra İmam Həsən(ə) və İmam Hüseyn(ə) Həzrətə(ə) qüsl verib, kəfənlədilər. Sonra tabuta qoydular. Tabutun qabaq tərəfi yerdən qalxdı. İmam Həsən və İmam Hüseyn(ə) tabutun arxa tərəfindən tutdular. Kufədən Nəcəf şəhərinə (Həzrət Əlinin(ə) qəbri olan yerə) qədər getdilər. Gördülər ki, tabutun qabaq tərəfi aşağı əyildi. Tabutu yerə endirdilər. İmam Həsən(ə) özü namaz qılandan sonra tabutu kənara

qoydular və onun yerini qazdılar. Gördülər ki, doğrudan da Həzrət Əlinin(ə) buyurduğu kimi, oradan bir lövhə çıxdı. O lövhədə belə yazılmışdı. “Bu qəbri tufandan əvvəl sonuncu Peyğəmbərin(s) vəsisi qardaşım Əli ibn Əbi Talibə hazırlamışam.”

Əlbəttə, bu rəvayətdə sünni və şiə alimləri arasında heç bir ixtilaf yoxdur. Əlinin(ə) bu cür kəramət sahibi olduğunu hamı bilir, sünni və şiə bu kimi rəvayətləri qəbul edərək öz kitablarında yazmışlar.

Buna görə də Allah-təala bütün insanlara Əhli-beyti sevməyi əmr etmişdir. Allah-təala dünya və axirətdə bizi Əhli-beytdən(ə) ayırmasın. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***1998, 21 ramazan***

## TÖVBƏ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

Bizim bu söhbətimiz “Zümər” surəsinin 53-cü ayəsi barədə olacaqdır. Bu ayə barədə danışmazdan əvvəl müqəddimə olaraq insanın daxilində olan iki qüvvənin mübarizəsi haqda bir neçə mətləbi nəzərinizə ərz edirəm.

İnsanın daxilində iki bir-birinə zidd qüvvə vardır. Onlar insanın daxilində daim mübarizə aparırlar. Bu iki qüvvənin biri ağıl, o biri isə şəhvətdir. Ağıl insanı xoşbəxtliyə, şəhvət isə bədbəxtliyə dəvət edir. Buna görə də onlar insanın daxilində böyük bir mübarizəyə səbəb olur və bu mübarizədə hansı qüvvə qalib olarsa, insanın qiymətini də o təyin edəcəkdir. Yəni insanın qiyməti bu mübarizənin nəticəsi ilə bağlıdır.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ تَعَالى خَلَقَ الْمَلائِكَةَ وَ رَكَّبَ فِيهِم الْعَقْلَ وَ خَلَقَ الْبَهائِمَ وَ رَكَّبَ فِيهِم الشَّهْوَةَ وَ خَلَقَ بَنِى آدَمَ وَ

رَكَّبَ فِيهِمُ الْعَقْلَ وَ الْشَّهْوَةَ فَمَنْ غَلَبَ عَقْلُهُ عَلَى شَهْوَتِهِ فَهُوَ أَعْلى مِنَ الْمَلائِكَةِ وَ مَنْ غَلَبَتْ شَهْوَتُهُ عَلَى عَقْلِهِ فَهُوَ أَدْنى مِنَ الْبَهائِمِ

Həzrət Peyğəmbər(s) bu barədə gözəl bir hədisdə buyurur: “Allah-təala mələkləri ağıldan, heyvanları şəhvətdən, insanları isə həm ağıl, həm də şəhvətdən ibarət xəlq etdi. Hər kəsin (bu daxili mübarizədə) ağlı şəhvətinə qalib gələrsə, o mələkdən üstün olar. Əgər insanda şəhvət qüvvəsi ağıl qüvvəsini məğlub edərsə, o, heyvandan da alçaq səviyyədə olar.”

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, əgər insan daxili mübarizədə öz şəhvətinə və nəfsani qüvvələrinə qələbə çalarsa, o insan mələklərdən də üstün bir səviyyəyə gəlib çatar və kamillik zirvəsinə yetər. Mələklərdə şəhvət qüvvəsi olmadığından onlar günah edə bilmirlər. Lakin insanda şəhvət qüvvəsi olduğu üçün, zəhmət çəkib şəhvətilə mübarizə etdiyinə görə və günah etmək iqtidarında olduğu halda günah etmədiyinə görə mələklərdən üstün olur. Əgər insanın daxilində şəhvət qüvvəsi onun ağlına və imanına qalib olarsa, onda həmin insan heyvandan da alçaq bir səviyyəyə düşər. Çünki heyvanda yalnız şəhvət qüvvəsi vardır. Allah-təala ona ağıl verməyib. Buna görə də heyvanın ağlı olmadığından pis işlər görür, lakin insanın ağlı ola-ola şəhvət və nəfsani qüvvələrə məğlub olarsa, deməli, o, heyvandan da alçaq və səviyyəsizdir.

## İslam baxımından insanın xüsusiyyətləri

İslam baxımından insanın iki xüsusiyyəti vardır. İnsanın birinci xüsusiyyəti “insani” adlanır. İslam

fəlsəfəsində və Quranda insanın bu xüsusiyyəti onun mələksima cəhəti hesab edilir. İnsanın bu xüsusiyyəti ağıl və imandır və bu sifətlər onu mənəviyyata dəvət edir .

İnsanın ikinci xüsusiyyəti isə “nəfsani” adlanır. İslam fəlsəfəsində insanın bu xüsusiyyətinə “nasuti” cəhət də deyilir. Bu xüsusiyyət şəhvət və nəfsani qüvvələrdən ibarət olub, insanı heyvaniyyət aləminə tərəf yönəldir.

İslam Peyğəmbəri(s) buyurur: “Mən merac gecəsi bir hissəsi yaşıl yarpaqlardan, bir hissəsi isə od-alovdan ibarət bir mələk gördüm. Və yarpaqla alov bir-birinə qarışmırdı.”

Hikmət sahibləri və böyük alimlər buyururlar ki, Peyğəmbərin(s) bu ifadəsi insanın daxilində olan həmin ziddiyyətli cəhətlərə aiddir.

Əflatun deyir: “İnsan iki ziddiyyətli şeydən yaranıb formalaşmışdır. O, mürəkkəb bir vücuddur və iki ziddiyyətli cəhətdən ibarətdir.”

Buna görə də insanın daxilində bir-birinə zidd olan iki qüvvə həmişə mübarizə aparır və insan üçün müəyyən olan təkamül də məhz bu ziddiyyətin daxilindədir. Yəni əgər insan bu mübarizədə qalib gələrsə, deməli, kamillik mərhələsinə qədəm qoymuşdur. Peyğəmbər(s) və imamlardan insanın daxilindəki mübarizə barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur.

Həzrət Peyğəmbər(s) buyurur: “İnsan gecələr yatmaq istədikdə axırıncı dəqiqələr mələk gəlib onun qulağına “Bu gecəni xeyirlə bitir”, -deyər. Şeytan isə deyər ki, bu gecəni şərlə (günahla) başa vur. İnsan mələyin dediyi kimi, gecəni (Allaha zikr etməklə) xeyirlə bitirsə, sübh mələk yenidən gəlib ona: “Sübhü xeyirlə başla”, –deyər. Əgər insan gecəni xeyirlə bitirib, sübhü də xeyirlə başlayarsa, öləndə də aqibəti xeyirlə qurtaracaq. Lakin

insan şeytanın sözünə qulaq asıb gecəni günahla bitirib, səhəri də günahla başlayarsa, dünyadan gedəndə də imansız gedəcək.”

Bu mübarizədə qələbə çalan şəxsin gündən-günə qəlbində imanı çoxalar və o, kamillik mərhələsinə yetişib hidayət olar. Qeyd etmək lazımdır ki, kamillik həddinə çatıb hidayət olanların hamısı da bir səviyyədə deyil. Mümkündür ki, biri kamilliyin ən yüksək zirvəsinə yetişsin, o biri isə ondan aşağı səviyyədə olsun. Hər bir halda onların ikisi də kamillik mərhələsində olan insanlar hesab edilirlər.

Məktəbdə imtahan verib yuxarı siniflərə keçən şagirdləri buna misal çəkmək olar. Aydındır ki, məktəbdə şagirdlər imtahan verirlər və bu imtahandan kəsilənlərə yuxarı siniflərə keçməyə icazə verilmir. Lakin yuxarı sinfə keçənlərin hamısı eyni qiymətlə keçmir. Bəzisi “5”, bəzisi “4”, bəzisi isə “3” qiymət alaraq yuxarı siniflərə qədəm qoyurlar. Onların hamısı qəbul olunur, lakin eyni qiymətlə yox. Möminlərin də kamillik mərhələsinə çatmaları eynilə bu cürdür. Peyğəmbər(s) və imamların məqamı hamıdan yüksək səviyyədə olmuşdur. Onların səhabələri bir neçə mərhələ aşağı səviyyədədir. Bəzi möminlər də var ki, kamillik mərhələsinə qədəm qoymuşlar, lakin hələ yüksək məqamlara çatmayıblar. Kamillik məqamına qədəm qoymuş şəxslər günbəgün imanlarını artırıb yüksək mərhələyə çata bilərlər.

Allah-təala Musa Peyğəmbəri(ə) özü üçün həmsöhbət seçmişdi. Çünki o, daxili mübarizədə qalib gəlmişdi. Allah-təala Quranda Musanı(ə) özünə həmsöhbət seçdiyini bütün aləmə bəyan etdi.

Allah-təala Musa Peyğəmbərə(ə) buyurur: “Ya Musa! Bilirsənmi, səni nəyə görə özümə həmsöhbət

seçdim?” Musa(ə) dedi: “Hansı səbəbə görə?” Allah-təala buyurdu: “Ya Musa! Səni ona görə özümə həmsöhbət seçmişəm ki, sən namaz qılarkən üzünü torpağa qoyub Mənə təvazökarlıqla səcdə edirsən. Bundan əlavə, səndə uşaq xisləti vardır. Kiçik bir uşaq öz anasına necə can atırsa, sən də Mənə sarı elə gəlirsən və məndən ayrılmaq istəmirsən. Bu xislətlərinə görə səni özüm üçün həmsöhbət etdim.”

Burada bir mətləbi qeyd etmək lazımdır: Allahın ona çox səcdə edənlərdən xoşu gəlir, Onun qarşısında təkəbbürlülük edənləri sevmir. İnsan gərək Allahın qarşısında təkəbbürlülük etməsin. Təkəbbürlülük elə bir əməldir ki, insanın imanını müflis edər.

قَالَ عَلِيٌّ(ع): عَجِبْتُ مِمَّنْ تَكَبَّرَ وَ قَدْ خَرَجَ مِنْ مَخْرَجِ الْبَوْلِ مَرَّتَيْنِ

Həzrət Əli(ə) buyurur: “Sidik məxrəcindən iki dəfə çıxmış şəxsin təkəbbürlülük etməsinə təəccüb edirəm.”

Ümumiyyətlə, insan gərək Allah qarşısında təvazökarlıqla səcdə etsin. Musa Peyğəmbərin(ə) Allahla həmsöhbət olmasının səbəbi də məhz onun Allah qarşısında təvazökarlıqla səcdə etməsidir.

İbrahim Peyğəmbərin(ə) həyatına nəzər saldıqda görürük ki, o da həmçinin, daxili mübarizədə qalib gəlib və Allahın ən sevimli bəndələrindən biri olub. Burada qarşıya belə bir sual çıxır: Görəsən Həzrət İbrahim(ə) hansı xüsusiyyətinə görə Allahın sevimli bəndəsinə çevrilmişdi? Nəyə görə Allah-təala Quranda bütün aləmə elan edərək, onu Xəlilullah (Allahın dostu) kimi tanıtdırmışdır?

Allah-təala İbrahim Peyğəmbəri(ə) bir çox xüsusiyyətlərinə görə özünə dost seçmişdi. Onun bir neçə xüsusiyyətini qeyd edirəm.

Həzrət İbrahimin(ə) birinci xüsusiyyəti gözəl əxlaqlı olması idi.

İslam Peyğəmbərindən(s) soruşdular: “Ya Rəsulallah, Allah-təala hansı səbəbə görə İbrahim Peyğəmbəri(ə) Özünə dost seçib?” Həzrət Peyğəmbər(s) buyurdu: “Xoşxasiyyət və xoşəxlaqlı olmasına görə.”

Ümumiyyətlə, Allahın xoşəxlaqlı insanlardan xoşu gəlir. Xoşəxlaqlı olmaq çox gözəl bir xüsusiyyətdir.

Bir gün Həzrət İbrahim(ə) evinin qapısını açıb içəri daxil oldu. Həyətdə bir nəfər cavan oğlanın gəzişdiyini gördükdə çox təəccübləndi. Oğlanın yanına gəlib soruşdu: “Mənim həyətimə girməyə sənə kim icazə verib?” Oğlan dedi: “Mənə ev sahibi icazə verib.” İbrahim(ə) öz-özünə fikirləşdi ki, ev sahibi mənəmsə, mən buna icazə verməmişəm. Yenə də oğlandan kimin icazəsi ilə evə daxil olmasını soruşduqda oğlan yenə həmin cavabı verdi: “Mənə ev sahibi icazə verib.” Həzrət İbrahim(ə) üçüncü dəfə soruşmaq istədikdə başa düşdü ki, həmin oğlan Allahın əziz mələyi Cəbrayıldır(ə). Dedi: “Cəbrayıl, xoş gəlmisən. Ev Allahındır, ev sahibi də Odur. Lakin bu dəfə gəlməkdə məqsədin nədir?” Cəbrayıl(ə) dedi: “Ya İbrahim(ə), Allah-təala yer üzündə özünə bir nəfəri dost seçib.” Həzrət İbrahim(ə) dedi: “Cəbrayıl, Allahın dostu kimdir? Onu mənə tanıtdır, mən də gedim onun qulluğunda olum və ona xidmət edim.” Cəbrayıl(ə) dedi: “Ya İbrahim, Allah səni özünə dost seçmişdir.” Həzrət İbrahim Peyğəmbərin(ə) Allaha olan məhəbbəti hamıdan çox olduğuna görə Allah onu özü üçün dost seçdi.

O səbəblərdən biri də İbrahimin(ə) qəlbində Allaha böyük məhəbbət bəsləməsi idi. Onun qəlbində Allaha məhəbbət hər şeydən artıq idi. Həzrət İbrahim(ə) çox işgüzar və zəngin mal-dövlət sahibi idi. Allah-təala ona

çoxlu sərvət əta etmişdi. Mələklər Allaha dedilər: “İlahi, sən İbrahimə(ə) çoxlu mal-dövlət verdiyinə görə o sənə ibadət və zikr edir.” Allah-təala mələklərə sübut etmək istədi ki, əgər bir insanın Allaha həqiqi məhəbbəti varsa, həmin məhəbbət heç vaxt onun qəlbindən çıxmaz.

Həzrət İbrahim(ə) Allahı mal-dövlətə görə yox, bəlkə Ona olan məhəbbətinə görə zikr edir və sevirdi. Bu məhəbbətin əlaməti isə budur ki, əgər insan mal-dövlətini Allah yolunda sərf etməyi bacararsa, deməli, onun qəlbində Allaha həqiqi məhəbbət vardır. Allah-təala bir gün mələklərə Həzrət İbrahimi(ə) imtahana çəkməyi əmr etdi. Günlərin birində İbrahim(ə) çöldə qoyun otararkən Həzrət Cəbrayıl(ə) insan surətində onun yolu üstə əyləşdi və Allaha zikr etməyə başladı. Həzrət İbrahim(ə) ora yaxınlaşdıqda Cəbrayıl(ə) dedi: “Sübbuhun Quddus.” (Allah pak və münəzzəhdir.) Həzrət İbrahim(ə) ondan soruşdu: “Sən kimsən?” Cəbrayıl(ə) dedi: “Allah bəndəsi.” İbrahim(ə) dedi: “Sənə o sözləri kim öyrədib?” Cəbrayıl(ə) dedi: “Öyrənmişəm.” İbrahim(ə) dedi: “O sözlər mənim məşuqumun adlarıdır. Olarmı onları bir də təkrar edəsən?” Cəbrayıl(ə) dedi: “Qoyunlarının üçdə bir hissəsini mənə ver deyim.” İbrahim(ə) qoyunların üçdə birini ona verib o sözləri təkrar etməyi istədi. Cəbrayıl(ə) qoyunların üçdə birini alıb bir dəfə də “Sübbuhun Quddus” dedi. İbrahim(ə) dedi: “O sözləri bir də təkrar edə bilərsənmi?” Cəbrayıl(ə) dedi: “Qoyunlarının yarıısını mənə ver, deyim.” Həzrət İbrahim(ə) qoyunların yarısını da verdi. Cəbrayıl(ə) o sözləri bir də təkrar etdi. İbrahim(ə) dedi: “Olarmı bir də təkrar edəsən?” Cəbrayıl(ə) dedi: “Qoyunların hamısını mənə versən, deyərəm.” Həzrət İbrahim(ə) dedi: “Qoyunların hamısı sənin. Amma o sözləri bir də təkrar et.” Bu zaman

Cəbrayıl(ə) dedi: “Ey İbrahim, həqiqətən, sən Allahın dostu olmağa layiqsən. Ona görə də Allah səni özünə dost seçdi. Çünki mən insanlar arasında çox gəzmişəm və Allah onların hamısını bizə tanıtdırıb. Lakin onların içində sənin kimi Allahın zikrinə bütün mal-dövlətini qurban verən ikinci bir şəxs yoxdur.”

Həzrət İbrahimin(ə) bir xüsusiyyəti də Allaha çox səcdə etməsi idi. Rəvayətçi nəql edir ki, mən İmam Sadiqin(ə) hüzurunda olarkən o həzrətdən soruşdum: “Allah hansı xüsusiyyətinə görə İbrahimi(ə) özünə dost seçdi?” İmam(ə) buyurdu: “Allah qarşısında torpağa çox səcdə etməsinə görə.”

Bir sözlə desək, Allah-təala Həzrət İbrahimi(ə) nəfsani istəklərinə qalib gəldiyi üçün özünə dost seçmişdi. Tarixdə daxili mübarizədə qalib gələn insanlar çox olub. İstər kişilərdən olsun, istərsə də qadınlardan. Həzrət Məryəm İsa Peyğəmbərin(ə) anası idi. O, yeganə qadındır ki, adı Quranda zikr olunub. Ondan başqa Quranda ikinci bir qadının adı çəkilməyib. Allah-təala Həzrət Məryəmin adına Quranda bir surə nazil etmişdir. Həzrət Məryəm Allaha ibadət etməyi hər bir şeydən çox sevərdi və Allaha çox məhəbbəti vardı.

Məryəmdən – dünyada ən çox xoşladığın şey nədir? – deyə soruşduqda belə cavab verərdi: “Qış gecələri yuxudan duraraq donmuş hovuzun buzunu sındırıb dəstəmaz almağı və Allaha ibadət etməyi hər şeydən çox sevirəm.”

Ümumiyyətlə, tarixdə imanı şəhvətinə qalib olan və Allaha sonsuz məhəbbət bəsləyən şəxslər çox olmuşdur. Belə insanlar həmişə tarixdə yaşamış və qiyamət gününə qədər də Allah onların adlarını dillər əzbəri edəcək. Çünki onlar daxili mübarizədən qalib çıxmış, gecələri xeyirlə

sona yetirib, səhərləri də xeyirlə başlayaraq Allahın razılığını qazanmışlar.

Daxili mübarizədə məğlub olan insanlara gəldikdə isə, deməliyəm ki, onlar dünyadan gedəndə də kafir olaraq gedəcəklər. Allah-təala bu insanları Quranda tənqid edərək buyurur:

وَلَقَدْ ذَرَأْنَا لِجَهَنَّمَ كَثِيرًا مِّنَ الْجِنِّ وَالإِنسِ لَهُمْ قُلُوبٌ لاَّ يَفْقَهُونَ بِهَا وَلَهُمْ أَعْيُنٌ لاَّ يُبْصِرُونَ بِهَا وَلَهُمْ آذَانٌ لاَّ يَسْمَعُونَ بِهَا أُوْلَئِكَ كَالأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ أُوْلَئِكَ هُمُ الْغَافِلُونَ

“Biz cinlərdən və insanlardan bir çoxunu cəhənnəmə dolduracağıq. [Ona görə ki,] onların qəlbləri vardır, lakin onunla (Allahın vəhdaniyyətini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla öyüd-nəsihət eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!”[1]

Ümumiyyətlə, insan küfr mərhələsinə birdən-birə gəlib çatmır. İnsan günah etdikcə və nəfsani istəklərə uyduqca yavaş-yavaş gəlib küfr mərhələsinə düşür. Çünki insan günah etdikcə və bunların sayı artdıqca həmin günahlar onu bədbəxtlik və küfr uçurumuna yuvarladar. Uçuruma düşdükdən sonra isə onu oradan heç bir şey çıxara bilməz. İnsanın günahları artarsa, bir çox pis nəticələrə gətirib çıxaracaq. Həmin nəticələrdən bir neçəsini burada qeyd edirəm.

---

[1] Əraf, 179.

# Günahların nəticəsi

1. Günahların insana göstərdiyi təsir və nəticəsinin biri də budur ki, moizə ona təsir etməz. Əgər insan haram yeməkdən çəkinməzsə, haram onu elə bir dərəcəyə gətirib çıxarar ki, artıq moizə və öyüd-nəsihətin ona heç bir xeyri olmaz. Çünki haram tikə insanın Allahdan, Peyğəmbərdən(s) və imamlardan uzaq düşməsinə səbəb olar. İnsan haram yeməyə öyrəşdikdə isə qəlbi qaralar və artıq ona öyüd-nəsihət əsla təsir eləməz.

İmam Hüseyn(ə) müharibə meydanında onunla döyüşmək istəyənlərə nəsihət etdikdə onlar belə dedilər: “Bura moizə yeri deyil. Bura meydandır.”

İmam(ə) onlara buyurdu: “Sizin qarnınız haramla dolduğu üçün sizə moizə təsir etmir. Haram tikələrin təsirindən Quran ayələri sizə təsir etmir.”

2. Günahın insana ikinci təsiri budur ki, insanı Allaha ibadət etməkdən soyudar və ibadətə rəğbətsiz edər.

قَالَ الْبَاقِرُ(ع): ما عَبْدٌ إِلا فِي قَلْبِهِ نُكْتَةٌ بَيْضَاءٌ فَإِذا أَذْنَبَ ذَنْبًا خَرَجَ فِي النُّكْتَةِ نُكْتَةٌ سَوْداءٌ فَإِنْ تَابَ ذَهَبَ ذَلِكَ السِّوادُ وَ إِنْ تَمَادَى فِي الذُّنُوبِ زَادَ ذَالِكَ السِّوَادُ حَتّى يغطى الْبَيَاضُ فَإِذا غُطَّى الْبَيَاضُ لَمْ يَرْجِعْ صَاحِبُهُ إِلَى خَيْرٍ أَبَدًا وَ هُوَ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ: كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

İmam Baqir(ə) buyurur: “Hər insanın qəlbində ağ bir nöqtə vardır. İnsan günah etdikdə o nöqtədə bir qara nöqtə əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə pozular. Əgər günaha davam edərsə, həmin qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün ağlığını örtər və qəlb tamamilə qaralar. Qəlbin ağlığı

aradan getdikdən sonra və qəlb tamamilə qaraldıqdan sonra, o qəlbin sahibi bir daha xeyir və səadətə çatmaz.” Bu, Allahın sözüdür: “Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür.”

3. Günahın üçüncü təsiri budur ki, günahlar çoxaldıqca, insan Allahı və haqqı inkar edər və onu küfr dərəcəsinə çatdırar. İnsan birdən-birə küfr mərhələsinə gəlib çatmır. İnsan günah etdikcə günahı çoxalır. Günahlar çoxaldıqdan sonra əvvəlcə günahın qəbahət olduğunu duymur, sonra məkruh olan əməlləri yüngül sayır, sonra kiçik günahlara fikir vermir, daha sonra isə böyük günahlar onun üçün adiləşir. Bunun da nəticəsində vacib əməlləri, sonra imaməti, nübüvvəti, nəhayətdə isə Allahın özünü inkar edərək kafir olur. Əgər insan günahlar nəticəsində küfr mərhələsinə çatarsa, artıq oradan çıxması mümkün olmayacaq və dünyadan gedəndə də kafir olaraq gedəcək.

Əbu Cəhl ərəblər arasında nüfuzlu, vəzifəli və var-dövlətli bir şəxs idi. O, Allahı və Peyğəmbərin(s) nübüvvətini inkar edirdi. Hətta Peyğəmbərin(s) göstərdiyi möcüzələri belə qəbul etmirdi. Əbu Cəhli bu səviyyəyə gətirib çıxaran onun günahlarının çoxluğu idi. Bir gün Əbu Cəhl Həzrət Peyğəmbərə(s) dedi: “Əgər mənə bir möcüzə göstərsən, sənə iman gətirəcəyəm. Həzrət Peyğəmbər(s) buyurdu: “Sən necə möcüzə istəyirsən?” Əbu Cəhl dedi: “Elə et ki, ay iki yerə bölünsün.” Həzrət Peyğəmbər(s) barmağı ilə aya işarə etdi. Ay iki hissəyə bölündü. Sonra Peyğəmbər(s) işarə etdi, ay yenidən birləşdi. Əbu Cəhl dedi: “Yox, sən mənim gözümü bağlamısan. Ay mənim gözümə iki hissəyə parçalanmış göründü. Qoy səfərdən qayıdan karvan gəlsin, onlardan da ayın iki hissəyə bölündüyünü gördüklərini soruşum, ondan

sonra sənə iman gətirəcəyəm.” Karvan gəlib şəhərə çatanda, Əbu Cəhl qabağa qaçıb soruşdu: “Siz yolda gələrkən bir hadisə gördünüzmü?” Karvan əhli dedi: “Biz on dörd gecəlik ayın bölündüyünü gördük.” Əbu Cəhl dedi: “Məhəmməd böyük cadugərdir. Mənim gözümü bağlayıb, bu heç, hətta yol gələn karvan əhlinin də gözlərini bağlamışdır.”

Əbu Cəhl Peyğəmbəri(s) və Allahı qəbul etmirdi. Çünki daxilindəki nəfsani qüvvələr imanını məğlub edərək onu küfr mərhələsinə gətirib çıxarmışdı.

Odur ki, insan birdən-birə Əbu Cəhl kimi olmur. İnsan günah etdikcə və günahları çoxaldıqca elə bir uçuruma düşür ki, artıq oradan çıxmaq mümkün olmur. Buna görə də insan günahın bu mərhələsinə çatanadək, tez tövbə etməlidir. Insan elə güman etməməlidir ki, Allah onu qəbul etməz. Günah insanın imanını fasid etməmişdən öncə Allaha üz tutub əfv diləsin. Hər nə qədər günah iş görürsə, Allah onun tövbəsini qəbul edir. Allah-təala “Zumər” surəsinin 53-cü ayəsində buyurur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ

إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

“[Ya Peyğəmbər! Mənim adımdan bəndələrimə] de: Ey mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddini aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir.”

İnsan Quranda olan belə ayələri oxuyarkən həyəcan keçirir və Allahın Rəhmli və mərhəmətli olduğunu bir daha dərindən başa düşür. Allah-təala bu ayədə günahkar bəndələrin Ona tərəf qayıtmalarını tövsiyə edir. İnsan

özünə nə qədər zülm etmiş olsa belə, Allaha tərəf qayıdıb tövbə edərsə, Allah onu bağışlayar.  Lakin bir şərtlə ki, bir daha etdiyi günahlara qayıtmasın. Allah-təala "Təhrim" surəsinin 8-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَّصُوحًا

"Ey iman gətirənlər! Allaha səmimi qəlbdən nəsuh tövbəsi edin."

Nəsuh tövbəsi odur ki, insan etdiyi günahdan peşman olub əl çəksin və bir daha həmin günaha qayıtmasın.

İmam Kazim(ə) buyurur: "Nəsuh tövbəsi odur ki, insan etdiyi günaha tövbə edib bir daha həmin günaha tərəf qayıtmasın."

İmam Sadiq(ə) buyurur: "Nəsuh tövbəsi odur ki, insan bir günahdan tövbə etdikdən sonra bir daha həmin günaha qayıtmamasına söz versin."

Qeyd olunan ayə və hədislərdən belə nəticəyə gəlirik ki, insan nə qədər günah etmiş olsa belə, əgər təmiz qəlblə Allaha tərəf qayıdarsa, Allah onu bağışlayar. Çünki Allahın rəhmət qapıları həmişə bəndələrin üzünə açıqdır. Hədislərdə deyilir ki, hər kəs təmiz niyyətlə etdiyi günahlardan peşman olub tövbə etsə, Allah onun bütün günahlarını elə bağışlayar ki, elə bil heç günah etməmişdir. Başqa bir hədisdə deyilir ki, günahdan peşman olub tövbə edən şəxs yeni doğulmuş uşaq kimidir.

Tarixdə tövbə etmiş şəxsiyyətlərə çox rast gəlmək olar Məsələn, Hürr ibn Riyahini misal çəkmək olar. Hürr ibn Ziyad tərəfindən İmam Hüseynin(ə) yolunu kəsib, onu Kərbəlaya tərəf yönəltdi. İmam Hüseyn(ə) ona öyüd-nəsihət etdi. Lakin Hürr razı olmadı. O, gecə yatmayıb təşviş içində öz-özünə fikirləşirdi. Qoşundan bir nəfər Hürrü bu vəziyyətdə görüb ona yaxınlaşaraq dedi: "Yoxsa

sabahkı döyüşdən qorxursan?” Hürr dedi: “Mən döyüşdən qorxmuram. Lakin bu gecə mən özümü cənnətlə cəhənnəm arasında hiss edirəm. Əgər bu gecə öz taleyimi həll etməsəm, bilirəm ki, Allah məni cəhənnəmə atacaq.” Səhərə yaxın Hürr qəti qərara gəlib İmam Hüseyndən(ə) üzr istəməyi və tövbə etməyi qərara alır. Səhər açıldıqdan sonra Hürr çəkmələrini torpaqla doldurub boynundan asır və dizi üstə sürünə-sürünə İmam Hüseynin(ə) çadırına tərəf irəliləyir. O, bu hərəkəti ilə demək istəyirdi ki, Ey Hüseynim, sənə qarşı etdiyim pisliklərdən peşman olmuşam. İndi isə tövbə edirəm. İmam Hüseyn(ə) Hürrü qəbul etdi. Hürr də İmamın(ə) qoşununa qoşuldu və döyüşdə şəhid düşən ilk şəxs də o oldu. Şəhid olarkən gözünü açanda başını İmam Hüseynin(ə) dizi üstə gördü. Hürr təmiz qəlblə tövbə edib Allah tərəfinə qayıtdıqdan sonra, Allah-təala ona belə bir şəhidlik məqamı nəsib etdi.

İnsan bir ömür bilməyərəkdən günah etmiş olsa belə, tövbə edərsə, Allah onu bağışlayar.

Müqəddəs Ərdəbili şəhərlərin birinə gedir. Gecə yatarkən yuxuda ona deyirlər ki, sabah gedib filankəsin cənazə namazını qılarsan. Müqəddəs Ərdəbili səhər yuxuda ona deyilən şəxsin qapısına gedir. Görür ki, doğrudan da bu evin yiyəsi dünyasını dəyişib. Ona cənazə namazı qılmaq istəyəndə camaat ona deyir: “Bu, çox günahkar bir insan olub, ona cənazə namazı qılma.”

Müqəddəs Ərdəbili camaatın sözünə məhəl qoymayıb, o günahkarın cənazə namazını qılır. Dəfn edəndən sonra onun evinə gəlib, ailəsinə başsağlığı verir və həyat yoldaşından soruşur: “Sənin ərin necə insan idi?” Qadın cavab verir ki, ey alim, hamı bilir ki, çox günahkar bir insan idi, artıq mənim deməyimə ehtiyac yoxdur. Müqəddəs Ərbədili soruşur: “Onun ömründə yaxşı bir işi

olubmu?" Qadın dedi: "Ömrünün son dəqiqələrində üzünü qibləyə tutub dedi: "İlahi, bilirəm ki, sən bütün günahları bağışlayansan. Hünər o deyil ki, Müqəddəs Ərdəbilini bağışlayasan. Hünər odur ki, mənim kimi başdan-ayağa günahkarı bağışlayasan." Bu sözləri deyəndən sonra dünyasını dəyişdi.

Buna əsasən demək olar ki, Allah-təala Onun qapısından içəri daxil olanı heç vaxt əliboş qaytarmaz. Adi insanlarda belə rəhm və ürəyiyumşaqlıq vardır. Məsələn, bir şəxs başqa birisinə pislik edibsə və əgər onun qapısını açıb içəri girərsə, geri qaytarmaz. Çünki öz-özünə fikirləşər ki, artıq qapıma gəlib. Mənə nə qədər pislik etmiş olsa belə, yenə də qapıma gəlib. Mənim də onu geri qaytarmağım yaxşı olmaz. Buna görə də onu qəbul edir və etdiyi pislikləri yadından çıxarır.

Allah-təala öz qapısına gələnləri heç vaxt geri qaytarmır. Çünki Allahın rəhm və kərəmi çox böyükdür.

Qədr gecəsi dünyanın hər yerində müsəlmanlar yatmayıb əhya saxlayırlar. Allaha yalvarıb günahlarının bağışlanmasını və istəklərini diləyirlər. Allah-təala da bu gecə öz qapısından heç kəsi əliboş qaytarmır.

Hədislərdə vardır ki, "Tövbə" ayəsi nazil olanda şeytan nalə çəkib ağladı və dedi: "Mən çalışıb insanları yoldan çıxarıram. Lakin onlar bir dəfə Allaha üz tutub tövbə edən kimi, Allah onları bağışlayır və çəkdiyim zəhmətlər hədər gedib məni məyus edir."

Allah-təala bütün tövbə edənlərin tövbələrini qəbul etsin! İnşallah. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***1998, 23 ramazan***

# ƏHLİ-BEYT(Ə)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاة وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

قالَ للّهُ الْحَكِيم: بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيراً

Allah-təala Əhli-beyt(ə) barədə Qurani-Kərimdə buyurur: “Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər.”[1]

Burada qarşıya belə bir sual çıxır: Allahın bütün çirkinliklərdən uzaq və tərtəmiz, pak etmək istədiyi, Quranda “Əhli-beyt” adlandırdığı kəslər kimlərdir?

Bu sualın cavabını Həzrət Peyğəmbərin(s) dilindən eşitsək, daha yaxşı olar. Çünki Əhli-beyti(ə) hamıdan yaxşı tanıyan Peyğəmbərin(s) özüdür.

Ümmi Sələmə deyir: “Bir gün Həzrət Peyğəmbər(s) evdə əyləşmişdi. Qızı Həzrət Fatimə(ə) əlində bir parça içəri daxil oldu. Həzrət Peyğəmbər(s) parçanı qızından alıb yerə qoydu və buyurdu: “Qızım, get, yoldaşın Əlini(ə) və oğlanların Həsən(ə) və Hüseyni(ə) çağır gəlsinlər.” Xanım Fatimə(ə) getdi və bir az keçməmiş Əli(ə), Həsən(ə) və Hüseynlə(ə) birgə Peyğəmbərin(s) hüzuruna

[1] Əhzab, 33.

gəldilər. Bir süfrə kənarında əyləşib yemək yedilər. Sonra Həzrət Peyğəmbər(s) qızının gətirdiyi parçanı gətirib onların üstünə çəkərək belə dua etdi: "İlahi! Bunlar mənim Əhli-beytim və itrətimdir. Bütün çirkinlik və pislikləri onlardan təmizlə və onları tərtəmiz, pak et!"

Həzrət Peyğəmbər(s) bu duanı edib qurtaran kimi elə o haldaca Həzrət Cəbrayıl(ə) nazil olub "Əhzab" surəsinin 33-cü ayəsini gətirdi.

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

"Həqiqətən, Allah siz Əhli-beytdən  bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər."

Ümmi Sələmə deyir: "Mən Peyğəmbərə(s) dedim: "Ya Rəsulallah, icazə verirsənmi mən də bu Əhli-beytin sırasına daxil olum?" Peyğəmbər(s) buyurdu: "Ümmi Sələmə, Allah sənə xeyir versin. Lakin sənə Əhli-beytin sırasına daxil olmağa icazə yoxdur. Onları Allah təyin etmişdir."

Bu barədə Peyğəmbərin(s) həyat yoldaşı Ayişə belə rəvayət edir: "Əhli-beyt barəsindəki bu ayə nazil olduqdan sonra, Həzrət Peyğəmbər(s) düz doqquz ay məscidə sübh namazına gedərkən Həzrət Əlinin(ə) qapısının qarşısında durub belə buyurardı: "Ey Əhli-beyt! Namaz vaxtıdır." Sonra həmin ayəni oxuyardı."

Ümmi Sələmənin və Ayişənin nəql etdikləri bu rəvayətdən məlum olur ki, Peyğəmbərin(s) Əhli-beyti Əli(ə), Xanım Fatimə(s.ə), İmam Həsən(ə) və İmam Hüseyndir(ə).

Ümumiyyətlə, Allah-təala bizlərə Əhli-beyti(ə) sevməyi vacib etmişdir. Bizim onlara olan məhəbbətimiz ana südü ilə qəlbimizə daxil olmuşdur. Əgər günah edib o məhəbbəti qəlbimizdən çıxarmasaq, qiyamət gününə qədər

Əhli-beytin(ə) məhəbbəti qəlbimizdə qalacaqdır. İnsan günah etdikcə o məhəbbət qəlbində ölər.

Sünnilərin böyük alimlərindən olan Fəxri Razi, Qürtəbi və Kəşşaf Qurana yazdıqları təfsirlərdə Həzrət Peyğəmbərin(s) Əhli-beyt(ə) barədə buyurduğu bir hədisi belə rəvayət edirlər:

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ مَاتَ عَلَى حُبِّ آلِ مُحَمَّدٍ مَاتَ شَهِيدًا مَنْ مَاتَ عَلَى حُبِّ آلِ مُحَمَّدٍ مَاتَ مَغْفُورًا لَهُ مَنْ مَاتَ عَلَى حُبِّ آلِ مُحَمَّدٍ بَشَّرَهُ مَلَكُ الْمَوْتِ بِاالْجَنَّةِ مَنْ مَاتَ عَلَى حُبِّ آلِ مُحَمَّدٍ جَعَلَ اللهُ قَبْرَهُ مَزارَالْمَلائِكَةِالرَّحْمَةِ

أَلا وَ مَنْ مَاتَ عَلَى بُغْضِ آلِ مُحَمَّدٍ جَاءَ يَوْمَ الْقِيَامَةِ مَكْتُوبٌ بَيْنَ عَيْنَهِ آيِسٌ مِنْ رَحْمَةِ اللهِ و مَنْ مَاتَ عَلَى بُغْضِ آلِ مُحَمَّدٍ مَاتَ كَافِرًا وَ مَنْ مَاتَ عَلَى بُغْضِ آلِ مُحَمَّدٍ لَمْ يَشُمَّ رَائِحَةَالْجَنَّةِ

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəsin qəlbində Məhəmmədin(s) Əhli-beytinə məhəbbəti olarkən ölərsə, dünyadan şəhid getmişdir. Hər kəsin qəlbində Məhəmmədin(s) Əhli-beytinə məhəbbəti olarkən ölərsə, Allah onun bütün günahlarını bağışlayar. Hər kəsin qəlbində Məhəmmədin(s) Əhli-beytinə məhəbbəti olarsa, can verən zaman ölüm mələyi onun başı üzərinə gülə-gülə gələrək ona cənnət müjdəsini verər. Və hər kəsin qəlbində Məhəmmədin(s) Əhli-beytinə məhəbbəti olarkən ölərsə, Allah onun qəbrini qiyamət gününə qədər mələklərin ziyarətgahı edər.”

Sonra Həzrət Peyğəmbər(s) əlavə edərək buyurur: “Diqqət edin! Hər kəsin qəlbində Əhli-beytə qarşı

düşmənçilik olduğu halda ölərsə, qiyamət günü alnında "Allah rəhmətindən məyus olmuş" sözü yazılmış halda gələcək. Hər kəs Əhli-beytə qarşı düşmən olduğu halda ölərsə, dünyadan kafir getmişdir. Və hər kəs Əhli-beytə qarşı düşmən olduğu halda dünyadan gedərsə, cənnətin iyi belə onun burnuna dəyməyəcək."[1]

Odur ki, hər bir müsəlman Peyğəmbərin(s) Əhli-beytinə(ə) məhəbbət bəsləməlidir və onlara qarşı heç bir düşmənçiliyi olmamalıdır.

Həzrət Əlinin(ə) Əhli-beytin(ə) böyüyü və başçısı olduğunu həm şiə, həm də sünni alimləri qəbul etmişlər və Həzrətin(ə) hamıdan fəzilətli olmasını Peyğəmbərin(s) hədislərinə əsasən bir daha sübuta yetirmişlər.

Həzrət Peyğəmbər(s) buyurur: "Həzrət Əlinin(ə) döyüşlərdə düşmənə vurduğu bir qılınc zərbəsinin fəziləti bütün cin və insanların qiyamət gününədək etdiyi ibadətlərdən üstün və fəzilətlidir."

İbn Abbas Həzrət Peyğəmbərin(s) ən yaxın səhabəsi, şiə və sünni alimlərinin hörmət bəsləyib qəbul etdikləri şəxslərdən biridir. O, Həzrət Əli(ə) barədə yazır: "Quranın 300 ayəsi Həzrət Əlinin(ə) barəsində nazil olmuşdur. [2]"

Allah-təala "Saffat" surəsinin 24-cü ayəsində buyurur: "Qiyamət günü insanlar sirat körpüsündən keçərkən bir nida eşidiləcək:

وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ

[1] Təfsiri-Fəxrirazi, c.27. səh.165. Təfsiri-Qürtəbi, c.8.səh.58. Təfsiri-Kəşşaf, c.4. səh.220.

[2] Kənci Şafei, "Kifayətüt-talib" səh.231. Qunduzi Hənəfi "Yənabiul-məvəddə" c.126, səh.286. İbn Əsakir, "Tərcəmətü İmam Əli ibn Əbi Talib" c.2. səh.31. Süyuti "Tarixül-xüləfa", səh.172.

“Onları yubadıb saxlayın! Çünki (onlar) sorğu-sual olunacaqlar.”[1]

Bu ayədən belə bir sual irəli gəlir: Görəsən orada insanlardan nəyi soruşacaqlar? Bu sualın cavabını “Təkasür” surəsinin 8-ci ayəsi belə cavablandırır:

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

“Sonra da həmin gün (Allahın əta etdiyi) nemətlər barədə mütləq sorğu-sual olunacaqsınız!”

Qiyamət günü Allah-təala insanlardan onlara verdiyi bütün nemətlər (bədən üzvləri, cavanlıq, mal-dövlət və s. kimi nemətlər) haqqında sorğu-sual edəcək.

Əbu Hənifə deyir: “Bir gün İmam Sadiqin(ə) hüzuruna getdim və ondan bu ayə barədə soruşdum. Dedim: “Ey Allahın höccəti, bu ayədə Allah-təalanın bizdən soruşacağı nemətlər hansılardır?” İmam(ə) həmin sualı mənim özümə qaytararaq buyurdu: “Əbu Hənifə, sən özün bu barədə nə fikirləşirsən?” Dedim: “Ey Peyğəmbərin(s) balası, yəqin ki, Allah bizdən verdiyi can, mal-dövlət, bədən üzvləri, ömür, cavanlıq və bu kimi şeylər barədə sorğu-sual edəcəkdir.” İmam(ə) buyurdu: “Əbu Hənifə, onların hamısı düzdür. Lakin Allah-təala bunlardan da mühüm bir şey barədə insanlardan sorğu-sual edəcəkdir.” Soruşdum: “O hansıdır?” İmam(ə) buyurdu: “Qiyamət günü ən mühüm və ilk sorğu-sual Əhli-beyt(ə) barədə olunacaq. Çünki Allah-təala bütün insanlara Əhli-beytə(ə) xatir ruzi, ömür, cavanlıq, mal-dövlət və s. verir və onların vasitəsilə insanları hidayət edir.”

---

[1] Saffat, 2.

Hakim Həskani Hənəfi Peyğəmbərdən(s) belə bir hədis rəvayət edir: “Qiyamət günü bütün insanlar Sirat körpüsündən keçərkən mənimlə Əli(ə) o körpünün qarşısında durub körpüdən keçənlərin hamısını saxlayıb Əlinin(ə) vilayəti barədə sorğu-sual edəcəyik. Hər kəs Əlinin(ə) vilayətini qəbul etmişsə, o körpüdən keçəcək, yox, əgər qəbul etməmişsə, oradan keçə bilməyəcək. ” Sonra Həzrət bu ayəni oxudu: “Onları yubadıb saxlayın, çünki onlardan sorğu-sual olunacaqdır.”[1]

Həzrət Peyğəmbər(s) ömrünün son anlarında belə yenə Əhli-beytlə Quranın bir-birindən ayrılmaz olduğunu və bütün müsəlmanlara onların hər ikisindən möhkəm tutmağı vəsiyyət etdi.

Böyük sünni alimi Əhməd ibn Hənbəl müvafiq sənədlərlə Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql etmişdir:

قَالَ رَسُولُ اللهِ(ص): إِنِّي تَارِكٌ فِيْكُمْ خَلِيفَتَيْنِ كِتَابَ اللهِ وَعِتْرَتِى أَهْلَ بَيْتِي فَإِنَّهُمَا لَنْ يَفْتَرِقا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوضِ

Həzrət Peyğəmbərin(s) ömrünün son günləri idi. Həzrət (s) məscidə daxil olub minbərə çıxdı və camaata bu sözlərlə xitab edərək buyurdu: “Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Onlardan biri Allahın kitabı olan Quran və ikincisi mənim Əhli-beytimdir. Bu iki şey qiyamət gününə qədər bir-birindən ayrılmayacaq.”[1]

Buna görə də insanlar yolunu azıb uçuruma düşməsin deyə Həzrət Peyğəmbər(s) həm Quranı, həm də öz Əhli-beytini(ə) bütün insanlara tövsiyə edərək, onlara tabe olmağı tapşırıb dünyadan getdi.

---

[1] Şəvahidüt-tənzil, c.2, səh.107.
[1] Müsnədi-Əhməd ibn Hənbəl, c.5-səh.122.

Qunduzi Hənəfi müvafiq sənədlərlə Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql etmişdir:

قَالَ رَسُولُ اللّٰهِ(ص): هَذا عَلِيٌّ مَعَ الْقُرْآنِ وَالْقُرْآنُ مَعَ عَلِيٍّ لا يَفْتَرِقا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوضِ

Həzrət Peyğəmbərin(s) ömrünün son günləri idi. Möminlərdən bir neçə nəfər onun hüzuruna gəldi. Həzrət Peyğəmbər(s) Əlinin(ə) əlindən tutub yuxarı qaldıraraq buyurdu. "Əli Quranladır və Quran da Əli ilə. Onlar qiyamət gününə qədər bir-birindən ayrılmayacaqlar.[1]

Qədr gecəsi Həzrət Əli(ə) öz şəhadəti ilə Quranın Əhli-beytdən(ə) ayrılmaz olduğunu bir daha sübuta yetirdi. İmam Əli(ə) Kəbədə dünyaya gəlmişdi və məsciddə də dünyadan getdi. İmam Əli(ə) yeganə bir şəxsdir ki, Kəbədə dünyaya gəlib.

İsa Peyğəmbər(ə) böyük peyğəmbərlərdən biridir və müsəlmanlar da onu böyük peyğəmbər kimi qəbul edirlər. Allah-təala Quranda da onun adını dəfələrlə çəkmiş və onun qeybə çəkilməsini vurğulamışdır.

وَقَوْلِهِمْ إِنَّا قَتَلْنَا الْمَسِيحَ عِيسَى ابْنَ مَرْيَمَ رَسُولَ اللّهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَكِن شُبِّهَ لَهُمْ وَإِنَّ الَّذِينَ اخْتَلَفُواْ فِيهِ لَفِي شَكٍّ مِّنْهُ مَا لَهُم بِهِ مِنْ عِلْمٍ إِلاَّ اتِّبَاعَ الظَّنِّ وَمَا قَتَلُوهُ يَقِينًا  بَل رَّفَعَهُ اللّهُ إِلَيْهِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا

"[Onların lənətə düçar olmalarının bir səbəbi də]: "Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük",

---

[1] Yənabiul-məvəddə, c.5.səh.285

- demələridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişlər."[1]

Quran buyurur ki, İsa Peyğəmbərin(ə) çarmıxa çəkilməsi yalan sözdür. Onlar İsa Peyğəmbərin(ə) yerinə başqa bir şəxsi çarmıxa çəkmişlər. İsa Peyğəmbər(ə) hazırda yaşayır və 12-ci imam zühur edən vaxt o da gələcək.

İsa Peyğəmbərin(ə) anası Həzrət Məryəm idi. Məryəmin Allah yanında çox böyük qiyməti var və yeganə qadındır ki, Allah-təala onun adını Quranda dəfələrlə çəkmişdir.

Gecələrin birində Həzrət Məryəm dəstəmaz almaq üçün hovuzun yanına getdi. O anda Allahın göndərdiyi mələk Məryəmin yanına gəlib Allahın İsa Peyğəmbəri(ə) ona əta edəcəyini xəbər verdi. Məryəm hamilə olaraq doğum halına düşdü. O, uşaqdan azad olmaq üçün Beytül-Müqəddəsə (Beytül-Müqəddəs müsəlmanların birinci qibləsi olmuşdur) daxil olmaq istədi. Allahın mələyi ona dedi: Ey Məryəm, sənə bu halda Beytül-Müqəddəsə getməyə icazə yoxdur. Ora Allahın evidir. Get, başqa yerdə uşaqdan azad ol!

Məryəm gəlib bir ağacın altında İsa Peyğəmbəri(ə) dünyaya gətirdi. Allah ona cənnətdən xurma göndərdi. Məryəm o xurmaları yeyib özünə gəldikdən sonra uşağı qucağına alıb öz evinə gəldi.

---

[1] Nisa, 157.

Bu hadisəni danışmaqda əsas məqsədimiz budur ki, Allah İsanı(ə) bir möcüzə kimi Məryəmə əta etdi. Lakin İsa(ə) dünyaya gələrkən onun Beytül-Müqəddəsdə dünyaya gəlməsinə icazə verilmədi. Amma Həzrət Əli(ə) dünyaya gələndə Kəbə evinin içində dünyaya göz açdı. Bu hadisəni həm əhli-sünnə, həm də şiə alimləri bir çox kitablarda nəql etmişlər.

Həzrət Əlinin(ə) anası Əsədin qızı Fatimə hamilə idi. O, uşaqdan azad olmaq üçün gəlib Kəbə evinin qarşısında duraraq belə dua etdi: Allahım, Səni and verirəm bu bətnimdə olan uşağa. Mənim uşaqdan azad olmağımı asan və mübarək et.

Əsədin qızı dua etdikdən sonra gördülər ki, Kəbə aralandı və Fatimə oraya daxil olduqdan sonra yenidən bitişdi. Üç gündən sonra Kəbə yenidən aralandı və Fatimə oradan qucağında Əli ibn Əbi Taliblə birgə çölə çıxdı. Həzrət Peyğəmbər(s) uşağı qucağına aldı. Əli(ə) gözünü açıb Peyğəmbərə (s) baxdı və dedi: "Şəhadət verirəm ki, sən Allahın elçisisən."

Beləliklə, İmam Əli(ə) Rəcəb ayının 13-də Kəbədə dünyaya gəldi və Ramazan ayının 21-ci gecəsi - Quranın nazil olduğu gecə dünyadan getdi. O, bir daha sübuta yetirdi ki, Quranla Əhli-beyt (ə) bir-birilərinin ayrılmaz hissələridir.

Allah-təala bizləri dünyada və axirətdə Peyğəmbər(s) və Əhli-beytindən(ə) ayrı salmasın. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***1999, 21 ramazan***

## ƏMR SAHİBLƏRİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ قَالَ للهُ الْحَكِيم.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطانِ الرَّجِيمِ. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً

Bu söhbətimiz “Nisa” surəsinin 59-cu ayəsi barədə olacaq. Allah-təala bu ayədə möminlərə xitab edərək buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”[1]

Bu ayədə Allah-təala insanlara üç kəsə itaət etməyi əmr etmişdir. İndi görək bu üç nəfər kimlərdir?

Ayədə Allah-təala birinci Onun özünə, ikinci Peyğəmbərə(s) və üçüncü əmr sahiblərinə itaət etməyin vacib olduğunu bildirir. Biz Allaha və Peyğəmbərə(s) itaət

[1] Nisa, 59.

etməyi bu ayədən açıq-aydın başa düşürük. Lakin əmr sahiblərinin kimlər olduğunu izah etməyə ehtiyac duyulur.

Böyük təfsir alimləri öz kitablarında “Əmr sahibi” ifadəsi barədə belə yazmışlar: əmr sahibləri Həzrət Əli(ə) və onun on bir övladıdır. Deməli, bu ayədə Allah-təala on iki imama itaət etməyi vacib saymışdır.

Əbu Bəkr ibn Mömin sünni alimlərindən ən tanınmış və böyük bir alimdir. O, İbn Abbasdan “Nisa” surəsinin 59-cu ayəsinin Əli(ə) barədə nazil olduğunu rəvayət edərək təsdiqləyir.

Həzrət Peyğəmbər(s) Təbuk döyüşündə Əlini(ə) Mədinədə öz yerinə təyin edərək müsəlmanlarla birgə döyüşə yola düşdü. Həzrət Əli(ə) dedi: “Ya Rəsulallah, niyə məni şəhərdə qadın və uşaqların yanında qoyursan, lakin başqalarını özünlə döyüşə aparırsan?”

Həzrət Peyğəmbər(s) buyurdu: “Ya Əli, necə ki, Musa Peyğəmbər(ə) qardaşı Harunu öz yerinə şəhərdə qoyub gedərdi, mən də səni öz yerimə təyin edib gedirəm. Ya Əli, sən mənim yerimdə Mədinədə qal, mənim işlərimi yerinə yetir və ümməti islah et.” Sonra Peyğəmbər(s) “Nisa” surəsinin 59-cu ayəsini oxudu: “Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!” Peyğəmbər(s) ayəni oxuduqdan sonra buyurdu: “Ya Əli, əmr sahibi sənsən.”

Burada qarşıya belə bir sual çıxır: əgər əmr sahibləri on iki imamdırsa, onda bizim onlar qarşısında vəzifəmiz nədir və onlara itaət etməyimizin nə kimi faydaları olacaq? Və onların insanlardan tələbləri nədir?

Biz bilirik ki, Allah insanlara Quranı nazil edib və peyğəmbərlər göndərmişdir. Allah İslam Peyğəmbərindən sonra insanların təkamülə yetməsi üçün on iki imam müəyyən etmişdir. Ümumiyyətlə, peyğəmbərlər və

imamlar ona görə göndərilib ki, insanlara qədr-qiymət versinlər və doğru yola hidayət etsinlər. Onların göndərilməsinin iki əsas səbəbi vardır. O səbəblərdən biri budur: bu müqəddəslər insanların fikir-düşüncələrini oyatmalı və gözlərini açmalıdırlar. İkinci əsas səbəb də insanların bədən və əməlləri üçün vəzifə müəyyənləşdirərək onlardan vəzifə tələb etməkdir.

Bu iki əsas amili bəzi hədislərlə izah edirəm. Peyğəmbərlər və imamlar bəşər övladının fikir və düşüncələrini iki məsələyə yönəltmək istəyirlər: Birincisi, insanın əbədi bir məxluq olduğunu, ikincisi isə onun qiymətli bir varlıq olduğunu anlatmaq.

## 1. İnsan və əbədiyyət

Peyğəmbərlər və imamlar insanların fikir və düşüncələrini oyatmaq və onları gözüaçıq etməklə insana başa salırlar ki, o, fani məxluq yox, əbədi bir məxluqdur.

Hamı bilir ki, heç bir şey aradan gedib yox olmur. Bəlkə bir haldan başqa bir hala çevrilir. Bu məsələni həm Qərb alimləri, həm də Şərq alimləri qəbul edirlər.

Həzrət Peyğəmbər(s) və imamlar da məhz bunu (insanın əbədi və heç vaxt yox olmayacaq bir məxluq olduğunu) insanlara başa salmaq üçün gəlmişlər. Bu barədə Allah-təala "Muminun" surəsində buyurur:

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

- Yoxsa sizi əbəs yerə yaratdığımızı və (Qiyamət günü dirildib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirsiniz?[1]

---

[1] Muminin, 115.

İnsan elə fikirləşir ki, fani olaraq yaranmışdır. Lakin bu çox səhv bir fikirdir. İnsan bəzi mərhələləri keçib bir neçə dünya dəyişdikdən sonra əbədi həyata qovuşmalıdır. İnsan əvvəl bir müddət ana bətnində, bir müddət bu dünyada, bir müddət də bərzəx aləmində yaşadıqdan sonra nəhayət, cənnət və ya cəhənnəmdə özünün axırıncı və əbədi dünyasını tapacaqdır.

قَالَ عَلِيٌ(ع): إِنَّكَ خُلِقْتَ لِلآخِرَةِ لا لِلدُّنْيَا وَ لِلْفَنَاءِ لا لِلْبَقَاءِ

وَعَجِبْتُ لِعَامِرِ دَارِالْفَنَاءِ وَتَارِكِ دارِالْبَقَاءِ

Həzrət Əli(ə) buyurur: “Sən axirət üçün yaranmısan, dünya üçün yox. Fani olan dünyasını abadlaşdırıb, əbədi dünyasının fikrinə düşməyənlərə təəccüb edirəm.”

Bəzən belə hallara da rast gəlirik ki, insan öz fani dünyasını abadlaşdırmaq üçün canından, dinindən və imanından keçir. Lakin bu dünyasını abadlaşdırdıqdan sonra çox keçmir ki, dünyasını dəyişir, onun bütün çəkdiyi zəhmətlər əbədi dünyasına heç bir xeyir vermir, əksinə, öz əbədi dünyasını bərbad vəziyyətə qoymuş olur. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də, 203-cü xütbədə buyurur:

أَيُّهَاالنَّاس إِنَّمَاالدُّنْيا دارُ مَجازٍ وَالْآخِرَةُ دَارُقَرارٍ فَخُذُوا مِنْ مَمَرِّكُمْ لِمَقَرِّكُمْ وَ لا تَهْتِكُوا أَستَارَكُمْ عِنْدَ مَنْ يَعْلمْ أَسْرارَكُمْ وَ أَخْرِجُوا مِنَ الدُّنْيا قُلُوبَكُمْ مِنْ قَبْلِ أَنْ تَخْرَجَ مِنْهَا أَبْدانُكُمْ فَفِيهَا اخْتُبِرْتُمْ وَ لِغَيْرِهَا خُلِقْتُمْ أَنَّ الْمَرْءَ إِذا هَلَكَ قَالَ النَّاسُ: مَا تَرَكَ ؟ وَ قَالَتِ الْمَلائِكَةُ: مَا قَدَّمَ ؟ لِلّهِ آباؤُكُمْ فَقَدِّمُوا بَعْضًا يَكُنْ لَكُمْ وَ لا تُخَلِّفُوا كُلًا فَيَكُونُ عَلَيْكُمْ

“Ey camaat! Dünya fani evdir, axirət isə əbədi. Öz əbədi eviniz üçün hazırlıq işləri görün. Sizin bütün sirlərinizi bilən Allaha qarşı günah etməyin. Sizin bədənlərinizi aparmamışdan öncə dünya məhəbbətini qəlblərinizdən çıxarın. Çünki siz əbədi yaşamaq üçün dünyada imtahan olunursunuz. Bir nəfər dünyadan getdiyi zaman adamlar bir-birindən “nə irs qoyub getdi?”- deyə soruşarlar. Lakin mələklər bir-birindən “özü ilə nə gətirib? – deyə soruşarlar.”

Sonra Həzrət Əli(ə) əlavə edərək buyurdu: “Sizi and verirəm ata-babalarınızın canına, bu dünyaya aldanmayın!”

## 2. İnsanın qiyməti

Peyğəmbərlərin və imamların insanların fikir və düşüncələrini oyatmağının və onları gözüaçıq etməyinin ikinci əsas amili onun qiymətinin çox böyük olmasını anlatmaqdan ibarətdir. Yəni peyğəmbərlər və imamlar insanlara onların qiymətinin hər şeydən üstün olduğunu, dünyada heç bir şeyin insan qədər qiymətli olmadığını başa salmaq istəyirlər.

قَالَ اللهُ عَزَّوَجَلَّ: عَبْدِى خَلَقْتُ الْأَشْيَاءَ لَكَ وَ خَلَقْتُكَ لِأَجْلِى وَ
هَبَتُكَ الدُّنْيَا بِالْإِحْسَانِ وَ الْآخِرَةَ بِالْإِيْمانِ

Allah-təala buyurur: “Ey bəndəm, hər şeyi sənin üçün yaratdım. Səni isə özüm üçün yaratmışam. Dünyanı sənə ehsan olaraq, axirəti isə imanına görə bağışladım.”

قَالِ عَلِيٌّ(ع): أَلا حُرٌّ يَدَعُ هذِهِ الْلُّمَاظَةَ لِأَهْلِهَا؟ إِنَهُ لَيْسَ لِأَنْفُسِكُمْ
ثَمَنٌ إِلّا الْجَنَّة, فَلا تَبِيْعُوها إِلّا بِها

İmam Əli(ə) “Nəhcül-bəlağə”də buyurur: “Bu dünyada bir nəfər tapılarmı ki, bu ”lumazə[1]”ni öz əhlinə versin?”

Həzrət Əli(ə) bununla demək istəyir ki, dünya oyun-oyuncaq dünyası olduğu üçün qiyməti çox azdır və insanın da qiymətsiz şeylərə baş qoşması ona yaraşmır. Uşaq oyuncağına yaşlı adam meyl salmadığı kimi, insan da dünyaya gərək meyl salmasın. Bəzən uşaqlar oyuncaq üstündə dalaşıb bir-birinin başını yarırlar. Tarix boyu görünməyib ki, qoca bir adam uşaq oyuncağı ilə oynasın. Çünki bilir ki, bu, oyuncaqdır və uşaqlar üçün düzəldiblər.

Odur ki, Həzrət Əli(ə) buyurur: “Bu dünyanın əhli var. Onu öz əhlinə verin. Siz onun əhli deyilsiniz. Siz özünüzü Allaha, Peyğəmbərə və Əhli-beytə bağladığınız üçün dünyaya rəğbətiniz olmasın.”

Düzdür, insan bu dünyada yeməli, yaşamalı və bu kimi halal şeylərdən istifadə etməlidir. Lakin istifadə etdiyi bu şeylər gərək insanı Allah, Peyğəmbər(ə) və Əhli-beytdən(ə) ayrı salmasın.

Sonra Həzrət Əli(ə) əlavə edərək buyurur: “Camaat! Sizin qiymətiniz cənnətdir. Əgər özünüzü cənnətdən başqa bir şeyə satsanız, çox ucuz satmış olarsınız.”

Cənnətlə bu dünya müqayisə ediləsi deyildir. Məsələn, 100 milyard manatın müqabilində 1 manat nə dəyərə malikdirsə, cənnət müqabilində bu dünya da o cürdür. Həzrət Əli(ə) buyurduğu bu hədislərlə insanlara özlərini belə ucuz qiymətə satmamağı başa salır. Odur ki, insan özünü bu dünyada gərək ucuz qiymətə satmasın.

---

[1] Lumazə heyvan qabağından qalmış artıq yeməyə deyilir. Lumazə – insan bir tikə yeməyi ağzında çeynəyib ürəyi bulanma nəticəsində çölə çıxarıb kənara qoyduğu tikəyə deyilir və heç bir kəs onu götürüb yeməz və ona tamah salmaz.

قَالِ عَلِيٌّ(ع): لَبِئْسَ الْمَتْجَرُ أَنْ تَرَى الْدُّنْيَا لِنَفْسِكَ ثَمَنًا, وَ مِمَّا لَكَ عِنْدَ اللهِ عَوَضاً

Həzrət Əli(ə) buyurur: "Özünü dünyaya satan şəxs nə pis alver etmişdir. Bu, ən ziyanlı alverdir."

İnsan bir kəlmə "La ilahə illəllah" kəlməsini deməsi ilə Allah yanında yüksək məqam tapır. Gərək tapdığı bu uca məqamı ucuz satmasın. Elə insanlar vardır ki, özlərini yalnız Allaha fəda edirlər. Allah-təala Qurani-Kərimdə buyurur:

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ

"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər."[1]

Beləlçri Allah rizası üçün tək canlarından yox, hər şeylərindən keçməyə hazırdırlar.

Xanım Zeynəbin iki oğlu döyüşdə şəhid olduqda o, çadırdan çıxmadı. Qadınlar gəlib ona dedilər: "Başqa şəhidlərin cənazəsi gələndə sən onlar üçün oxşayıb ağlayırdın. İndi də biz sənin oğlanlarına əzadarlıq etməyə gəlmişik. Çıx çadırdan, oğlanlarına birlikdə əza saxlayaq."

Xanım Zeynəb dedi: "Mən oğlanlarımı Allahın rizasına qurban vermişəm və Allah rizasına da səbr edərəm."

***Buyurdi: xaneyi-səbri bilün, yıxan deyiləm.***
***Min oğlum ölsə də, mən xeymədən çıxan deyiləm.***

[1] Bəqərə.207.

Sonra o, Allahla minacat edərək dedi:

***Nisbəti-lütfünə naçizdür, neynim, olanım,***
***Sən riza ol, vəli mən çöldə oğulsuz dolanım.***

Xanım Zeynəb bu sözlə demək istəyir: “Ey uca yaradan! Oğlanlarımın şəhid olması ilə Sən məndən razı qalacaqsansa, mən bu işə razıyam.”

Peyğəmbər(s) və imamlar insanların cisminə də iki vəzifə təyin etmişlər. Onlardan biri tövbə, ikincisi isə təqvadan ibarətdir.

## Tövbə

Peyğəmbər(s) və imamlar insanlara bildirmək istəyirlər ki, insan uçuruma tərəf getdiyini və əyri yolda olduğunu başa düşdükdə o yoldan qayıtmalıdır. Buna da tövbə deyilir. Bu müqəddəslərin insanların bədənlərinə təyin etdiyi birinci vəzifə tövbədən ibarətdir.

Tövbə insanın günahlardan əl çəkib, Allaha itaət etməsinə və əyri yoldan çəkinib düz yola qayıtmasına deyilir. Tövbənin bir mənası da insanın etdiyi günahlardan peşman olub bir daha həmin günaha qayıtmamasından ibarətdir.

Peyğəmbərlərin birinin dövründə bir nəfər günahlarından tövbə etmişdi. Lakin tövbəsinin qəbul olmasının əsər-əlamətini özündə hiss etmirdi. Çox ibadətlər etdikdən sonra yenə də tövbəsinin qəbul olmasının əsər-əlamətini özündə hiss etmədi. Peyğəmbərin(s) yanına gəlib dedi: “Ya Rəsulallah, mən günahlarımdan tövbə etmişəm, lakin özümdə tövbənin təsirini hiss etmirəm. Deyəsən, Allah mənim tövbəmi qəbul etməyib.”

Peyğəmbər(s) Allahla söhbətlərinin birində dedi: “İlahi, əgər sən onun tövbəsini qəbul etmisənsə, ona bir

vasitə ilə tövbəsinin qəbul olduğunu bildir.” Allah-təala buyurdu: “Ey Peyğəmbərim! Mən onun tövbəsini qəbul etməmişəm. Çünki o, ürəkdən tövbə etməyib və etdiyi günahlardan o qədər də peşman deyildir. Keçmişdə etdiyi günahlar onun yadına düşəndə xoşhal olur. Buna görə də Mən onun tövbəsini qəbul etməmişəm.”

Həqiqətən, tövbə odur ki, insan etdiyi günahlardan sözün əsl mənasında peşman olsun və bir daha həmin günahları etməsin.

Bəzilərinə deyəndə ki, tövbə et, deyir 40 yaşım olanda tövbə edərəm və yaxud hələ tezdir. Bəziləri də bu gün-sabaha salaraq, tövbə etməyi gecikdirirlər. Əgər insan günah iş gördüyünü və pis əməllər etdiyini bilirsə, onda nəyə görə tövbə etməyi 40 yaşına və ya bu gün-sabaha salır? Yox, əgər əməlləri yaxşıdırsa və günah etmirsə, onda niyə tövbə edir? Tövbəni 40-50 yaşına saxlamağın mənası nədir? İnsanın 40 və ya 50 yaşına qədər yaşamağa ümidi varmı ki, tövbə etməyi gecikdirir?

Məsum imamlardan rəvayət olunmuşdur ki, insan tövbə etmək istədikdə şeytan onun qəlbinə girib vəsvəsə edərək bu işi gecikdirir.

Peyğəmbər(s) və imamların insanların cismlərinə təyin etdiyi ikinci vəzifə isə təqvadan ibarətdir.

## Təqva

Allah-təala Qurani-Kərimdə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ حَقَّ تُقَاتِهِ وَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنتُم مُّسْلِمُونَ

“Ey iman gətirənlər! [Təqvalı olun] Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün!”[1]

İmam Sadiqdən(ə) təqvanın mənasını soruşduqda, Həzrət(ə) cavab verərək belə buyurdu:

قَالَ الصَّادِقُ(ع): أَنْ لا يَفْقُدَكَ اللهُ حَيْثُ أَمَرَكَ وَ لا يَرَاكَ حَيْثُ نَهَاكَ

“Təqva odur ki, Allah sənin harada olmağını əmr etdikdə səni orada itirməsin və harada olmamağını əmr edibsə, səni orada görməsin.”

İmam(ə) təqva barədə buyurduğu bu hədisdə bütün vacibata əməl etmək və haram əməllərdən çəkinməyin vacib olduğunu insanlara bir daha başa salır. Qısaca desək, İmamın(ə) buyurduğu bu cümlədə demək olar ki, Allahın bütün hökmləri öz əksini tapmışdır.

Bir arif şəxs öz ustadının hüzuruna gəlib dedi: “Ey ustadım, mənə mükəmməl şəkildə moizə və nəsihət et.” Ustad onun üçün “Nisa” surəsindən bir ayə oxudu.

وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ

“Biz sizdən əvvəl kitab verilənlərə də Allahdan qorxmağı (təqvalı olmağı) tövsiyə etdik.”[2]

İnsan gərək həmişə təqvalı olsun. Belə olmamalıdır ki, toy-bayram olduqda günah işlər görsün və toydan sonra yenidən təqvaya riayət etsin. Hicri qəməri təqvimi digər təqvimlərdən 10 gün fərqli olduğu üçün Qədr gecəsi və ya digər əlamətdar günlər bəzən miladi təqviminin

[1] Ali-İmran,102.
[2] Nisa, 130.

əlamətdar günləri ilə üst-üstə düşür. Məsələn, təqribən 32 ildən bir ola bilsin ki, Qədr gecəsi miladi təqviminin yeni il ərəfəsinə təsadüf etsin. Belə olduqda müsəlman öz vəzifəsini dəqiq bilməlidir. Camaat cürbəcür günah işlər tutmaqla bu ildəyişməni bayram edir. Məsələn, kimi içki içməklə, kimi şənlik etməklə və s. işləri görməklə bayram edirlər. İnsanın bayramı o günlər olmalıdır ki, həmin günlərdə günah etməsin. Bu gün bayramdır deyə insanın cürbəcür günahlara əl atması onu mənəvi uçuruma yuvarladar və aqibətini pis günə qoyar.

قَالَ عَلِيٌّ(ع): كُلُّ يَوْمٍ لا يُعْصَى اللهُ فِيهِ فَهُوَ عِيْدٌ

İmam Əli(ə) buyurur: "Hansı gün insan günah etmirsə, o gün onun bayramıdır."

Yeni ili qarşılayıb səhərə qədər içki içmək, batil-batil sözlər danışmaq bayram deyildir. Bu işlər azğınlıq, pozğunluq və Allahdan ayrı düşməkdir.

İsa Peyğəmbər(ə) buyurur: "Ey insanlar! Allah qarşısında səcdə edib, gözlərinizdən yaş tökün və təqvalı olun!"

Allah-təala özü də şəxsən İsa Peyğəmbərə(ə) moizə edərkən belə buyurur: "Ey İsa! Gecə yarısı Mənə təvazökarlıqla səcdə et və gözlərindən yaş axsın. Ey İsa! Camaatın bir yerə yığışıb batil-batil sözlər danışdığını gördükdə onlarla əyləşmə. Elə ki, gördün, camaat boş-boş danışıb gülür və batil sözlər deyir, sən dur get qəbristanlığa. Ölüləri ucadan səslə. Bəlkə onların moizələrini eşidəsən."

Yaxşı olar ki, insan hərdən qəbristanlığa getsin və ölüləri beləcə səsləsin: "Salam olsun "La ilahə illəllah" əhlinə! Ey "La ilahə illəllah" deyib bu dünyadan gedənlər.

Bu dünyada dediyiniz "La ilahə illəllah" sözünü orada necə gördünüz?"

Bu əməli bizə Həzrət Əli(ə) öyrətmişdir. Bir gün Həzrət Əli(ə) Siffeyn müharibəsindən qayıdarkən Kufə qəbristanlığının yanında durub üzünü qəbrlərə tutaraq belə buyurdu:

يَا أَهْلَ الدِّيارِ الْمُوهِشَةِ وَ الْمِحَالِ الْمُقْفِرَةِ والقُبُورِ الْمُظْلِمَةِ يَا أَهْلَ التُّرْبَةِ يَا أَهْلَ الْغُرْبَةِ يَا أَهْلَ الْوَحْدَةِ يَا أَهْلَ الْوَحْشَةِ أَنْتُمْ لَنَا فَرَطٌ سَابِقٌ وَنَحْنُ لَكُمْ تَبَعٌ لاحِقٌ أَمَّا الْدُورُ فَقَدْ سُكِنَتْ وَ أَمَّا الْأَزْوَاجُ فَقَدْ نُكِحَتْ وَ أَمَّا الْأَمْوَالُ فَقَدْ قُسِمَتْ هَذَا خَبَرٌ مَاعِنْدَ نَا وَ مَا خَبَرٌ مَا عِنْدَكُمْ ثُمَّ الْتَفَتَ إِلى أَصْحَابِهِ فَقَالَ: أَمَّا لَوْ أُذِنَ لَهُمْ فِى كَلامِى لَأَ خْبرُوكُمْ إِنَّ خَيْرَ الزَّادِ التَّقْوى

"Ey vəhşətli evlərin sakinləri! Ey zülmət qəbirlərin əhli! Ey torpaq altında yatanlar! Ey qürbət əhli! Ey tənha evlərin əhli! Ey vəhşət əhli! Siz bizdən əvvəl bu diyara gəldiniz və biz də sizə qovuşacağıq. Əgər burda olan xəbərləri eşitmək istəyirsinizsə, sizə çatacaq xəbərlər budur: Siz öləndən sonra evlərinizdə başqaları sakin oldu. Həyat yoldaşlarınız başqaları ilə evləndi. Vərəsələriniz mallarınızı öz aralarında bölüb dağıtdılar. Buradan sizə çatacaq xəbərlər yalnız bunlardar. İndi orada olan xəbərləri siz deyin." Sonra Həzrət(ə) üzünü əshabına tərəf çevirib buyurdu: "Əgər onlara danışıq icazəsi verilsəydi, onlar durub belə deyərdilər: "Ya Əli, burada hər şeydən mühüm və dərdə dəyən əməl yalnız təqvadır."[1]

---

[1] Nəhcül-bəlağə, Hikmət-130.

Allah tərəfindən peyğəmbər və imamların insanlar üçün göndərilməsində əsas məqsədlərdən biri də onlara təqvanı tövsiyə etmək olmuşdur. Ümumiyyətlə, insan harada olursa-olsun, (istər gizlində, istərsə də aşkarda fərq etməz) Allahın onu gördüyünü bilməli və günah etməkdən çəkinməlidir.

Allah-təala Ona ibadət edən bütün möminlərin təqvalarını daha da möhkəm etsin, inşallah. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***1999, 23 ramazan***

# İMAN

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

أَعُوذُ بِااللهِ مِنَ الشَّيْطانِ الرَّجِيمِ. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيم. قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُل لَّمْ تُؤْمِنُوا وَلَكِن قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ وَإِن تُطِيعُوا اللَّهَ وَرَسُولَهُ لَا يَلِتْكُم مِّنْ أَعْمَالِكُمْ شَيْئًا إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ وَرَسُولِهِ ثُمَّ لَمْ يَرْتَابُوا وَجَاهَدُوا بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللَّهِ أُوْلَئِكَ هُمُ الصَّادِقُونَ

Bu bəhsdə “Hucurat” surəsinin 14-15-ci ayələri barədə söhbət edəcəyik. Allah-təala bu ayələrdə belə buyurur. “[Qənimət əldə etmək iştahası ilə İslama daxil olan] bədəvi ərəblər: “Biz iman gətirdik!” dedilər. [Ya Peyğəmbər! Onlara] de: “Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: “Biz İslamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!” deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır. Əgər Allaha və onun Peyğəmbərinə(s) itaət etsəniz, O, sizin əməllərinizdən heç bir şeyi əskiltməz (mükafatınızı layiqincə verər). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!”[1]

[1] Hucurat, 14.

Qeyd olunan bu ayəyə əsasən, müsəlman olmaqla imanlı olmağın böyük fərqi vardır. Müsəlman olmaq o deməkdir ki, insan Allahın varlığına və Peyğəmbərin(s) nübüvvətinə şəhadət versin. Belə şəxslər müsəlman adlanır və ölən zaman onları qibləyə uzatmaq, öldükdən sonra müsəlman qayda-qanunları ilə dəfn etmək vacibdir. Lakin Allaha iman gətirmək o deməkdir ki, müsəlman Tövhidi, Ədli, Nübüvvəti, Məadı və ən əsası isə İmaməti qəbul etdikdən sonra dinin bütün qayda-qanunlarına əməl etsin. Əgər bir şəxs Allahı, onun Ədlini, Məadı, Nübüvvəti qəbul edib İmaməti qəbul etməsə, o şəxsə mömin demək olmaz. Çünki insanın iman sahibi olması məhz Həzrət Əlinin(ə) və onun on bir övladının imamlığını qəbul etməklə tamamlınır. Əgər bir insan İmaməti qəbul edib, dinin qayda-qanunlarına əməl etməsə, onda ona mömin demək olmaz.

Buna görə də hər bir müsəlmana mömin demək düzgün deyildir. Allah-təala "Hucurat" surəsində buyurur:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ وَرَسُولِهِ ثُمَّ لَمْ يَرْتَابُوا وَجَاهَدُوا بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللَّهِ أُوْلَئِكَ هُمُ الصَّادِقُونَ

«Möminlər yalnız Allaha və Peyğəmbərinə iman gətirən, (iman gətirdikdən) sonra heç bir şəkk-şübhəyə düşməyən (dini vəzifələrdən boyun qaçırmayan), Allah yolunda malları və canları ilə vuruşanlardır! Məhz beləlri (imanlarında) sadiq olanlardır!"[1]

Bu ayə bizlərə həqiqi möminlərin kimlər olduğunu açıq-aydın bəyan edir. Buna görə də mömin o şəxsə deyilir ki, İslam dinini qəbul edib müsəlman olduqdan

[1] Hucurat, 15.

sonra Quranın hökmlərinə əməl etsin. Buna görə də İslamı qəbul edib, onun qayda-qanunlarına əməl etməyən şəxsə mömin demək olmaz.

Burada qeyd etmək lazımdır ki, bir şəxs müsəlman olmaq istəmirsə, onu heç kəs İslamı qəbul etməyə məcbur edə bilməz.

Bir nəfər Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: «Ey Allahın Rəsulu, mən müsəlmanam, lakin iki 17-18 yaşlı oğlum var ki, onlar İslam dinini qəbul etmək istəmirlər. Amma bilirəm ki, çox qorxaq uşaqlardır və onlara bir az hədə-qorxu gəlsəm, onlar İslamı qəbul edəcəklər.»

Bu anda Həzrət Peyğəmbərə(s) “Bəqərə” surəsinin 256-cı ayəsi nazil oldu: ( لاَ إِكْرَاهَ فِي الدِّينِ ) “Dində məcburiyyət (zorakılıq) yoxdur.

Odur ki, dində məcburiyyət yoxdur və hər hansı bir insan dini qəbul edib-etməməkdə ixtiyar sahibidir. Onu heç kəs məcbur etməməlidir. Buna görə də əgər bir şəxs İslamı qəbul etmirsə, onu məcbur etmək olmaz. Lakin İslamı qəbul etdikdən sonra onun bütün qayda-qanunlarına əməl etmək vacibdir. Əgər əməl etməsə, günahkar hesab olunur. İnsanın Allaha üç yolla inam və imanı olur. Yəni imanın üç mərhələsi vardır. 1. Allaha dildə iman gətirmək. 2.Allaha əqli dəlillər, elm və fəlsəfi yolu ilə iman gətirmək. 3.Allaha qəlbən iman gətirmək.

## 1. Dildə Allaha iman gətirmək

Dildə iman gətirmək ona deyilir ki, insanın qəlbinə və ağlına iman daxil olmadan «mən müsəlmanam» söyləyir. Və yaxud öz dünyəvi mənfəətinə görə özünün müsəlman və Allaha, Peyğəmbərə(s) və imamlara imanı

olduğunu bəyan edir. Lakin qəlbində iman gətirmir. Allah-təala belə insanlar barədə "Həcc" surəsində buyurur:

وَمِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلَى حَرْفٍ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلَى وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

"İnsanlardan eləsi də vardır ki, Allaha şəkklə (dildə) ibadət edər. Əgər ona bir xeyir toxunsa, (din barəsində) arxayın olar (İslamdan möhkəm yapışar). Yox, əgər ona bir bəla (müsibət) üz verərsə, çöhrəsini dəyişər (İslamdan üz döndərib yenə küfrə qayıdar). Beləsi dünyanı da əldən verər, axirəti də. Açıq-aşkar ziyan budur, bu!"[1]

Doğrudan da həyatda belə insanlar çoxdur. Dini məclislərdə və ya yığıncaqlarda belə insanlarla rastlaşmaq olur. Dindən söhbət açıldıqda «Mən də müsəlmanam, ata-babam da müsəlman olub» -deyir. Sonra dindən söhbət etməyə başlayır və heç kəsə danışmağa imkan vermir. Lakin dinin hökmlərinə gəldikdə, heç bir hökmünə əməl etmir və yalnız özünü göstərmək üçün dindən söz açır.

قَالَ الْحُسَيْنُ(ع): أَلنَّاسُ عَبِيْدُ الدُّنْيَا وَالدِّيْنُ لَعِقٌ عَلَى أَلْسِنَتِهِم

İmam Hüseyn(ə) bu barədə gözəl bir ibarə buyurmuşdur: "Camaat dünya quludur. Dini də dillərinin lağlağısına çevirmişlər."

Bu hədis insanları açıq-aydın başa salır ki, insanların bəzisi dünyəvi mənfəətə görə dini söz-söhbətə çevirmişlər. Yəni harada dünyəvi bir xeyir görsələr, onun ardınca gedərlər. Dindən də ancaq özlərini göstərmək üçün söhbət

---

[1] Həcc, 11.

edərlər. İnsan gərək Allaha qəlbən inam gətirsin. Çünki təkcə dildə iman gətirməyin insana heç bir xeyri yoxdur.

Xorasandan bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəldi. Bir az söhbət etdikdən sonra İmama (ə) belə ərz etdi: «Ey Allahın höccəti, sənin cəddin İmam Hüseyn(ə) qiyam etdi. Bəs sən niyə evdə sakit əyləşmisən? Sənin bizim kimi tərəfdarların olduğu halda, niyə hərəkət edib zalımlardan məzlumların haqqını almırsan?»

İmam Sadiq(ə) bilirdi ki, onun dediyi bu sözlər sadəcə olaraq sözdür və qəlbən deyilmir. Ona görə də söhbəti dəyişib ondan Xorasandakı vəziyyətdən və müsəlmanların yaşayışlarından soruşdu. Xorasanlı dedi: «Şükür olsun Allaha, Xorasanın vəziyyəti yaxşıdır və səni istəyənlərin hamısı sənə salam göndəriblər».

Bir az söhbət etdikdən sonra yenə də dedi: «Ey Peyğəmbərin (s) nəvəsi, sənin bizim kimi şiələrin olduğu halda, niyə evdə əyləşib qiyam etmirsən?» İmam Sadiq(ə) ona baxdı və buyurdu: «Sən mənim Allahın höccəti olduğumu qəbul edirsənmi?» Xorasanlı dedi: «Əlbəttə ki, qəbul edirəm.» İmam(ə) buyurdu: «Sən məni imam kimi qəbul edirsənmi?» Xorasanlı dedi: «Əlbəttə ki, qəbul edirəm.» İmam Sadiq(ə) evdə yanan təndiri ona göstərib buyurdu: «Elə isə mən sənə əmr edirəm ki, gedib o təndirin içinə girəsən.» Xorasanlı dedi: «Ey Peyğəmbərin(s) balası, mən pis bir söz demədim ki, sizin acığınıza gəlsin. Məni niyə təndirə atıb yandırırsınız?» Elə bu vaxt İmam Sadiqin(ə) yaxın dostlarından biri olan Harun içəri daxil oldu. İmam(ə) Haruna buyurdu: «Harun, get o təndirin içinə gir.» Harun bir kəlmə də danışmayıb, düz gedib təndirin içinə girdi. İmam(ə) isə xorasanlıyla söhbət etməyə başladı. Xorasanlı söhbət əsnasında tez-tez təndirə baxıb öz-özünə fikirləşirdi ki, görəsən Harunun

aqibəti necə olacaq. Söhbət qurtardıqdan sonra İmam(ə) Harunu səslədi. Harun təndirdən çıxıb İmamın(ə) hüzuruna gəldi. Lakin təndirin qızmar odu onu yandırmamışdı. Harun təndirə necə girmişdisə, eləcə də sağ-salamat çıxıb İmamın(ə) qarşısında dayandı. İmam(ə) çöldə otlayan qoyunları xorasanlıya göstərib buyurdu: «Xorasanlı, o çöldə otlayan qoyunları görürsənmi?» Xorasanlı dedi: «Bəli». İmam(ə) buyurdu: «Orada neçə qoyun var?» Xorasanlı dedi: «On yeddi on səkkiz qoyun olar». İmam(ə) buyurdu: «Xorasanlı, əgər mənim o qoyunların sayı qədər Harun kimi tərəfdarım olsaydı, mən evdə əyləşməzdim.»

Odur ki, dildə söz deməkdən əlavə, gərək insanın qəlbində də iman olsun.

Qeyd etdiyimiz ayə və hədislərdən məlum olur ki, Allaha dildə iman gətirməyin insana heç bir xeyri yoxdur.

## 2. Əqli dəlillərin vasitəsilə Allaha iman gətirmək

Allaha iman gətirməyin ikinci mərhələsi odur ki, insan əqli dəlil və sübutlar vasitəsilə, elm və fəlsəfə yolu ilə Allahı tanıyıb, Onun ədalətli olmasını, Nübüvvəti, İmaməti və Məadı qəbul etsin. Belə bir imana əqli iman deyilir.

Ümumiyyətlə, üsuliddini gərək insan əqli dəlil və sübutlarla əldə etsin. Fiqh alimləri və mərcəilər öz risalələrində də qeyd etmişlər ki, üsuliddində təqlid etmək düzgün deyildir. Üsuliddini hər bir insan öz elm və savadı çatdığı qədər başa düşüb, dərk etməli və Allahın varlığını, Onun ədalətini, Peyğəmbərin(s) nübüvvətini, İmamın (ə) imamətini və məadı (ölümdən sonrakı həyatı, cənnəti və

cəhənnəmi) əqli sübutlarla əldə etməlidir. Lakin firuiddində (dinin köməkçi əməllərində) təqlid etmək vacibdir. Məsələn, insan acıdıqda bilir ki, çörək yemək lazımdır. Çünki bunu ağıl deyir ki, acdıqda yemək lazımdır. İnsan dinin əsllərini də gərək öz ağlı ilə fikirləşib tapsın. Lakin dinin köməkçi əməllərində müctəhidi təqlid etmək vacibdir. Yəni namaz qılmağın, oruc tutmağın və s. əməllərin qaydalarına müctəhidin fətvaları üzrə əməl etməlidir. Məsələn, bir nəfərin ürəyindən şikayəti olduqda həkimə müraciət edərək onun məsləhətlərinə əməl etdiyi kimi, gərək firuiddində də müctəhidin fətvalarına əməl etsin.

Beləliklə, insan gərək əqli dəlil-sübutlar və fəlsəfi yolla Allahın varlığını tapıb Ona iman gətirsin. Məsələn, insan Yer kürəsinin və ya başqa planetlərin hərəkətinə, dünyanın çürbəcür yaranışlarına baxmaqla Allahı tanıyıb Ona iman gətirməlidir.

Həzrət Peyğəmbərin(s) dövründə savadsız qoca bir qadın cəhrə ilə yundan sap hazırlayırdı. Həzrət Peyğəmbər(s) ona yaxınlaşıb soruşdu: «Sən Allahın varlığını necə başa düşürsən?» Qoca qadın işlətdiyi cəhrədən əlini çəkdi, cəhrə dayandı. Sonra üzünü Peyğəmbərə(s) tutub dedi: «Ya Rəsulallah, bu kiçik bir cəhrədir və bunu hərəkətə gətirən də mənəm. Mən əlimi onun dəstəyindən çəkən kimi dayandı. Necə ola bilər ki, bu böyüklükdə kainat öz-özünə hərəkət etsin? Mən yəqin bilirəm ki, bu böyüklükdə kainatı hərəkətə gətirən bir qüvvə vardır. Mən bu qüvvəyə Allah deyirəm.» Həzrət Peyğəmbər(s) üzünü səhabələrə tutub buyurdu: «Mən sizlərə də belə bir əqidədə olmağı təkid edirəm.»

Qoca, savadsız bir qadın da öz dəlil və sübutları ilə Allahın varlığını sübut edir. Gərək bütün insanlar öz savad

və düşüncələrinin imkanı çatacağı qədər Allahın varlığını sübuta yetirsinlər.

Quranda Allahın varlığını sübut edən bir çox ayə və surələr vardır. O ayələrdən birini burada nümunə üçün qeyd edirəm. Allah-təala "Rum" surəsində buyurur:

وَمِنْ آيَاتِهِ خَلْقُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافُ أَلْسِنَتِكُمْ وَأَلْوَانِكُمْ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّلْعَالِمِينَ

"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrətinin əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır."[1]

Bu və bu kimi ayələr Allahın varlığını və Onun hər bir şeyə qadir olduğunu sübut edir. Əgər bir insan Allahın varlığını sübuta yetirmək istəyirsə, onda aləmin və insanların yaranışına və öz səsinə, rənginə, barmaqlarının izlərinə nəzər salıb Allahın varlığını özü üçün sübut edə bilər.

Elm inkişaf etdikcə Allahın daha böyük qüdrət və əzəmət sahibi olması insana sübut edilir. Məsələn, əvvəllər bəzi alimlər elə bilirdilər ki, göylərdə olan ulduzların sayı 5000-dən 6000-ə qədərdir. Çünki onlar göydə yalnız bu qədər ulduz görmüşdülər. Lakin elm inkişaf etdikcə alimlər sübut etdilər ki, bizim gördüyümüz qalaktika minlərlə, bəlkə də milyonlarla qalaktikalardan biridir ki, gördüyümüz qalaktikada təxminən 100.000.000 ulduz hərəkət edir. Bunların hamısı əzəmətli Allahın nişanələridir və yalnız O, göylərdə nə qədər qalaktika

---
[1] Rum, 22.

olduğunu və hər qalaktikada nə qədər ulduzun hərəkət etdiyini bilir.

Elm və bilik inkişaf etdikcə gündə yeni-yeni məlumatlar, qəribəliklər kəşf olunur və bu kəşflərin hər biri Allahın qüdrətinin nişanəsidir. Allah insanların səslərini bir-birindən fərqləndirmişdir. Məsələn, bir nəfər uzaq bir şəhərdən qardaşına zəng edir və o, öz qardaşını səsindən tanıyır. Və yaxud Allah bütün insanların barmaqlarının izlərini bir-birindən fərqləndirmişdir. Tarix boyu belə bir şey görünməyib ki, iki nəfərin barmaq izləri eyni olsun. Allahın bu kimi nişanələri çoxdur. Bəlkə də elə nişanələri vardır ki, elm onları hələ kəşf edə bilməyib, yəqin gələcəkdə kəşf edəcəkdir. İnsanların rənglərinin, dillərinin müxtəlifliyi və bu kimi qəribəliklərin hamısı Allahın qüdrət və əzəmətinin nişanələridir.

Allah-təala "Qiyamət" surəsinin əvvəllərində həm öz varlığı, həm də Məad barədə buyurur:

لَا أُقْسِمُ بِيَوْمِ الْقِيَامَةِ ‎ وَلَا أُقْسِمُ بِالنَّفْسِ اللَّوَّامَةِ ‎ أَيَحْسَبُ الْإِنسَانُ أَلَّن نَّجْمَعَ عِظَامَهُ ‎ بَلَىٰ قَادِرِينَ عَلَىٰ أَن نُّسَوِّيَ بَنَانَهُ

"And içirəm Qiyamət gününə; And içirəm özünü qınayan nəfsə! (Siz öləndən sonra mütləq diriləcəksiniz!) Məgər insan elə güman edir ki, (Qiyamət günü) onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaqlarını da (barmaqlarının uclarını da) düzəltməyə qadirik."[1]

Qeyd etmək lazımdır ki, bu ayə Quranın möcüzələrindən biridir. Çünki Allah-təala bu ayədə insanların barmaq izlərinə belə işarə edərək buyurur:

---

[1] Qiyamət, 1-4

«Bəli, Biz onun barmaqlarını da (barmaqlarının uclarını da) düzəltməyə qadirik.” Bu ayədən məlum olur ki, bütün insanların barmaqları bir-birindən fərqlənir və onların barmaq izləri eyni deyildir. Bunların hamısı Allahın əzəmətinin, qüdrətinin nişanələridir.

Buna görə də bu ayələr vasitəsilə insan Allahı əqli dəlil və sübutlarla tapıb, Ona iman gətirir. İnsanda belə bir imanın olması çox yaxşıdır. Lakin bu imanın bir nöqsan və çatışmazlığı vardır. Bu imanın nöqsanı budur ki, insanın daxilində olan nəfsani qüvvələr coşduqda bu iman onları idarə və islah edə bilmir. Əqli dəlillərlə əldə edilən iman insanı yalnız adi halda idarə və islah edə bilər. Lakin insanın daxilində nəfsani qüvvələr və vəzifəpərəstlik şəhvəti baş qaldırdığı zaman, əqli dəlillərlə Allaha gətirilən iman insanı idarə və islah edə bilmir. Məsələn, haram yolla insanın qarşısına 10000 dollar pul çıxıb və o, bir yalan danışmaqla pulu ələ keçirə bilər. Əgər insanın qəlbində iman olmasa, əqli dəlil və sübutlarla əldə olunan iman onu həmin haramdan saxlaya bilməyəcək.

Tarix boyu müşahidə olunmuşdur ki, bəzi fəlsəfə və məntiq alimləri öz elm və fəlsəfələri ilə Allahın varlığını sübut etmişlər. Lakin onların daxilində nəfsani qüvvələr və vəzifəpərəstlik hissi tüğyan edən zaman onların elm və fəlsəfə yolu ilə əldə etdikləri iman onları idarə və islah edə bilməmişdi. Allah-təala bu məsələyə Quranda dəfələrlə işarə edərək misallar çəkmişdir. Həmin ayələrdən bir neçəsini nümunə olaraq qeyd edirəm.

Vəlid ibn Müğəyrə Məkkədə tanınmış, fəsahətli və bəlağətli bir şəxs idi. O, Qüreyş tayfasında ərəb ədəbiyyatını çox gözəl bilirdi və camaat onu “ədəbiyyatın gülü” (Reyhanətül-ədəb) deyə çağırırdı.

Məscidül-həramda "Cümə" surəsi nazil olarkən Həzrət Peyğəmbər(s) o surəni camaata oxuyandan sonra, Vəlid ibn Müğəyrə "Darun-nübüvvəyə"[1] öz qövmünün arasına gəlib dedi: "And olsun Allaha, Məhəmmədin buyurduğu bu sözlər nə insanların, nə də cinlərin sözünə oxşayır. Peyğəmbərin(s) sözlərinin xüsusi şirinliyi və gözəlliyi vardır. O sözlərin meyvəli budaqları və möhkəm kökü vardır. Onun sözləri bütün insanların sözlərindən üstün və dəyərlidir."

Vəlid bu sözləri deyəndən sonra evinə qayıtdı. Onun tayfasının adamları bir-birinin üzünə baxıb dedilər: "Deyəsən, Məhəmmədin sözləri Vəlidin qəlbinə təsir göstərib. Əgər Vəlid Məhəmmədə tabe olarsa, onda biz məğlub olacağıq." Vəlid Əbu Cəhlin qardaşı oğlu idi. Əbu Cəhl Vəlidi yola gətirməyi boynuna aldı və dedi: "Mən buna bir əlac edərəm." Əbu Cəhl Vəlidin evinə gəlib özünü ona çox narahat göstərdi. Vəlid ondan niyə narahat olmasının səbəbini soruşdu. Əbu Cəhl dedi: "Mənim narahatlığım budur ki, camaat sənin barəndə bəzi sözlər deyir. Biz də o sözlərdən çox narahat oluruq." Vəlid soruşdu: "Camaat mənim barəmdə hansı sözləri danışır?" Əbu Cəhl dedi: "Camaat arasında söz gəzir ki, Vəlid qoca bir adamdır və Peyğəmbər ona bir vəzifə, şan-şöhrət versin deyə İslamı qəbul etmək istəyir."

Əbu Cəhl bu sözləri deyəndən sonra Vəlidin daxilində nəfsani qüvvələr baş qaldırıb tüğyan etdi. Ondakı nəfsani qüvvələr coşub daşdıqdan sonra öz yolundan və fikrindən dönərək Əbu Cəhllə birlikdə tayfasının yanına gəldi və dedi: "Siz Məhəmmədin dəli olduğunu güman edirsiniz?"

---

[1] Məkkədə müşriklərin məsləhətləşdikləri yerin adıdır

Dedilər: “Xeyr.”

Vəlid dedi: “Siz güman edirsiniz ki, Məhəmməd kahindir?”

Dedilər: “Xeyr.”

Vəlid dedi: “Siz Məhəmmədin şair olduğunu zənn edirsiniz?”

Dedilər: “Xeyr.”

Vəlid dedi: “Siz elə bilirsiniz ki, Məhəmməd yalançıdır?”

Dedilər: “Xeyr. Bəs sən onun barəsində nə fikirləşirsən?”

Vəlid bir az fikirləşdikdən sonra üzünü turşudaraq qəzəblə dedi: “Məhəmməd yalnız cadugərdir. Çünki o, bütün ailələr arasına ayrılıq salıb.”

Bu hadisədən sonra Allah-təala onun barəsində “Müddəssir” surəsinin 11-ci ayəsindən 26-cı ayəsinə qədər olan ayələri nazil etdi.

ذَرْنِي وَمَنْ خَلَقْتُ وَحِيدًا وَجَعَلْتُ لَهُ مَالًا مَّمْدُودًا وَبَنِينَ شُهُودًا وَمَهَّدتُّ لَهُ تَمْهِيدًا ثُمَّ يَطْمَعُ أَنْ أَزِيدَ كَلَّا إِنَّهُ كَانَ لِآيَاتِنَا عَنِيدًا سَأُرْهِقُهُ صَعُودًا إِنَّهُ فَكَّرَ وَقَدَّرَ فَقُتِلَ كَيْفَ قَدَّرَ ثُمَّ قُتِلَ كَيْفَ قَدَّرَ ثُمَّ نَظَرَ ثُمَّ عَبَسَ وَبَسَرَ ثُمَّ أَدْبَرَ وَاسْتَكْبَرَ فَقَالَ إِنْ هَذَا إِلَّا سِحْرٌ يُؤْثَرُ إِنْ هَذَا إِلَّا قَوْلُ الْبَشَرِ سَأُصْلِيهِ سَقَرَ

“[Ya Peyğəmbər!] Məni öz yaratdığım kimsə ilə tək burax! [Vəlid ibn Müğəyrə kimi kafirin cəzasını yalnız Mənə tapşır!]. Mən ona bolluca mal-dövlət əta etdim; Yanında hazır duran oğullar [verdim]. Ona hər şeyi artıqlaması ilə müyəssər etdim [sərvət və mənsəbi ayağının altına döşədim]. [Bütün bunlardan] sonra yenə də

[var-dövlətini] artırmağımı istəyir. Xeyr, [bu ola bilməz]. Çünki o, ayələrimizə qarşı inadkar oldu. Mən onu məşəqqətli bir əzaba düçar edəcəyəm! O [Quran barəsində] fikirləşdi və [orada deyilənləri öz ürəyində] ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi? Bir də ölüm olsun! Necə ölçdü-biçdi? Sonra (qövmünün üzünə) baxdı. Sonra üz-gözünü turşutdu, qaş-qabağını tökdü. Sonra da [imandan] üz çevirdi. [Peyğəmbərə tabe olmağa] təkəbbür göstərdi. Və dedi: Bu [sehrbazlardan] öyrənilən sehrdən başqa bir şey deyildir! Bu, yalnız bəşər sözüdür! Biz onu Səqərə atacağıq. [Orada yandıracağıq].” [1]

Vəlid əqlən Peyğəmbərə(s) iman gətirmişdi. Lakin bu iman onu nəfsani qüvvələr və şöhrətpərəstlikdən qoruyub saxlaya bilmədi. Əgər insanın qəlbində iman olmasa, yuxarıda qeyd etdiyimiz iman insanı mükəmməl şəkildə idarə və islah edə bilməz.

Məmun Harun ər-Rəşidin oğlu idi. O deyirdi ki, mən Musa ibn Cəfər kimi imama hörmət etməyi atam Harundan öyrənmişəm. Bir gün gördüm ki, İmam Musa ibn Cəfər(ə) bizə gəldi. Atam ona çox böyük hörmət bəsləyərək Həzrəti(ə) gətirib yuxarı başda əyləşdirdi və onun qarşısında çox ədəblə əyləşdi. İmam(ə) gedəndə yenə də atam onu çox böyük hörmət və ehtiramla yola saldı və qardaşım Əminə dedi ki, get, İmamı(ə) qapılarına qədər yola sal. Bu hadisənin üstündən bir müddət keçəndən sonra atamdan soruşdum: “Ata, sənin əyləşdiyin bu xilafət məqamı kimindir?” Atam dedi: “Bütün bu səltənət və xilafətin hamısı Musa ibn Cəfərindir(ə)”. Dedim: “Ata, onda bəs nəyə görə bu xilafəti öz sahibinə

---

[1] Müddəssir, 11-26.

vermirsən?” Atam dedi: “Oğul, mal-dövlət və vəzifəpərəstlik çox şirin olur.  Mən bilirəm ki, Musa ibn Cəfər(ə) Allahın höccətidir və insanların imamıdır. Lakin bu mal-dölvətdən və səltənətdən əl çəkmərəm. Əgər bilsəm ki, sənin də mənim səltənət və xilafətimdə gözün var, səni də öldürərəm.”

Harun bilirdi ki, İmam Musa ibn Cəfər(ə) yer üzündə Allahın höccətidir. Onun əqli imanı var idi, lakin vəzifəpərəstlik və mal-dövlət ehtirası onun qəlbində yer tutduğu üçün bu iman onu idarə və islah edə bilmədi. Çünki Harun ər-Rəşidin qəlbinə iman daxil olmamışdı.

Buna görə də insanın Allaha qəlbən imanı olmasa, heç bir şey onu idarə və islah edə bilməz. Və əqli iman da insanı adi halda idarə və islah edər, lakin nəfsani qüvvələr tüğyan etdiyi zaman əqli dəlillərlə əldə edilən iman insanı günahdan saxlaya bilmir.

## 3. Qəlbən Allaha iman gətirmək

İmanın üçüncü və ən əsas mərhələsi qəlbdə qərar tutan və insanın qəlbinə nüfuz edən imandan ibarətdir. Belə bir iman insanı bütün hallarda idarə və islah etmək imkanına malikdir. Yuxarıda qeyd etdiyimiz iki imanın nöqsan və çatışmazlığı olduğu üçün insanı nəfsani qüvvələrin tüğyan etdiyi zaman günahdan qoruyub saxlaya bilmir. Lakin qəlbdə olan imanın heç bir nöqsan və çatışmazlığı olmadığından insanı bütün hallarda idarə, islah və hidayət edə bilir.

Burada bir incəliyi də qeyd etməyi lazım bilirəm. Qəlbi imanla əqli imanın heç bir münafatı yoxdur. Yəni belə deyil ki, insanda qəlbi iman olanda əqli iman olmasın və yaxud əqli iman olduqda qəlbi iman olmasın. Bu fikir səhv bir fikirdir. Çünki bəzi vaxtlar ağıl bir şeyə inanır,

lakin insan ona şəkk edir. Amma qəlbən bir şeyə iman və inam olarsa, elə bil ki, onu görür. Və təbii məsələdir ki, insan bir şeyi görərsə, heç vaxt ona şəkk-şübhə etməz. Buna görə də Allaha qəlbən iman gətirib Ona inanmaq insanı hər cür şübhələrdən və vəsvəsələrdən uzaqlaşdırır. Əgər insanda qəlbən iman yaranarsa, cənnəti və cəhənnəmi qəlbində hiss edib görərsə, belə bir iman insanı bütün hallarda nəfsani qüvvələrin coşub daşdığı zaman günahlardan qoruyub saxlayar, insanı idarə və islah edərək kamillik mərhələlərinə gətirib çıxarar. Lakin insanın qəlbində Allaha inam və iman olmasa, heç bir islahedici amil onu gizli günahlardan qoruyub saxlaya bilməz. Hətta polis və hüquq-mühafizə qüvvələri belə insanı gizli günahlardan çəkindirə bilməz. Polis mümkündür ki, aşkarda günah edən şəxsi tutub cəzalandırsın. Lakin gizli günah edən şəxsi imandan başqa heç bir şey idarə və islah edə bilməz və nəfsani qüvvələrin qarşısını ala bilməz. Bir sözlə desək, insanı bütün günah və xətalardan qoruyub saxlayan qəlbən imandır.

Bu imanın əlaməti də odur ki, insan həmişə Allahın ona nəzarət etdiyini bilməlidir. Bilməlidir ki, Allah-təala onun həm gizli, həm də aşkar etdiyi əməlləri görür.

Buna işarə olaraq Allah-təala "Ələq" surəsində buyurur:

أَلَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى

"Məgər (insan) bilmir ki, Allah (onun bütün əməllərini) görür?! "[1]

Əgər bir insan Allahın onun bütün əməllərini gördüyünü düşünsə, heç vaxt günah etməz. Günah edən və

---

[1] Ələq, 14.

günaha düşən şəxslər, Allahın onların başı üzərində nəzarətçi olduğunu hiss etmədiklərindən və Allaha qəlbən imanları olmadığından həmin günahları edirlər.

Alimlərdən biri barədə belə yazırlar: Nəcəf şəhərində uzun müddət dini təhsil aldıqdan sonra vətəninə qayıtmaq istəyən alim ustadının hüzuruna gedib onunla vidalaşır və ustadından ona sonuncu dəfə moizə və nəsihət etməsini xahiş edir.

Ustadı "Ələq" surəsinin yuxarıda qeyd etdiyimiz ayəsini oxuduqdan sonra buyurur: "Heç vaxt bu ayəni yadından çıxarma və harada olursan-ol, Allahın başın üzərində sənə nəzarətçi olduğunu unutma."

Burada Həzrət Peyğəmbərdən (s) gözəl bir hədisi xatırlamaq yerinə düşərdi.

قَالَ رَسُولَ اللهِ(ص): أُعْبُدُاللهَ كَأَنَّكَ تَرَاهُ فَإِنْ لَمْ تَرَاهُ فَإِنَّهُ يَراكَ

Həzrət Peyğəmbər(s) buyurur: "Allaha elə ibadət et ki, elə bil Onu görürsən. Əgər sən Onu görməsən də (bil ki,) O, səni görür." [2]

Həzrət Yusifin(ə) əhvalatına nəzər saldıqda, görürük ki, onu Züleyxa ilə birgə günah etməkdən qoruyan Allaha qəlbən iman bəsləməsi idi.

İmam Baqir(ə) Yusiflə(ə) Züleyxanın əhvalatı barədə belə buyurur: "Züleyxa öz bütünün üstünə bir parça saldı. Yusif ona dedi: "Nə edirsən?" Züleyxa dedi: "Bütdən həya etdiyimə görə, bizi görməsin deyə üstünə parça saldım." Yusif dedi: "Sən görməyi və eşitməyi bacarmayan bir bütdən həya etdiyin halda, mən öz Allahımdan həya etməyimmi?"

---

[2] Təfsiri-nümunə, c.27.səh.168.

Həzrət Yusifi(ə) orada günahdan qoruyan əqli imanı yox, qəlbində Allaha olan imanı idi.

Həzrət Yusif(ə) gördü ki, Züleyxa onu öz toruna salmaq istəyir, əllərini göyə qaldırıb dua etdi. Allah-təala onun etdiyi duanı Quranda buyurmuşdur:

قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ

(Yusif) dedi: "Ey mənim Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur."[1]

Burada imanın ən gözəl nümunəsini qeyd edirəm. Tarix boyu belə bir iman heç bir kəsdə görünməmişdir. Bu iman Əhzab müharibəsində İmam Əlidə(ə) görünmüşdür. Əhzab müharibəsi İslamın ən ağır və çətin müharibələrindən biri idi. O zaman Mədinə şəhərində üç min nəfər müsəlman var idi. Lakin müşriklər digər və müxalif qüvvələr bir yerə yığışıb əlbir oldular. Onların sayı on min nəfər idi və Əbu Sufyan başçılıq edirdi. Qərara almışdılar ki, bütün güclərini toplayıb İslamın kökünü kəssinlər. Müşriklər müsəlmanlarla vuruşmaq üçün hazırlaşıb Mədinəyə yola düşdülər. Peyğəmbərə(s) xəbər çatdı ki, müşriklər Mədinəyə tərəf hərəkət ediblər. Həzrət Peyğəmbər(s) şəhərin ətrafında xəndək qazılması barədə göstəriş verdi. Həzrət Peyğəmbər(s) başda olmaqla hamı əl-ələ verib Mədinənin ətrafında eni və dərinliyi 2-3 metr olan bir xəndək qazdılar və içərisini odunla doldurub yandırdılar. Çünki Peyğəmbər(s) bilirdi ki, müşriklər Mədinəyə girsələr, İslamdan əsər-əlamət qalmayacaq.

Əbu Sufyan da bilirdi ki, bu, onların müsəlmanlarla ən güclü döyüşü olacaq. Burada gərək bütün qüvvəsindən

[1] Yusif, 33.

istifadə edib İslamı məğlub etsin. Ona görə də özü ilə ərəblərin ən güclü pəhləvanlarını götürmüşdü. Həmin pəhləvanların içərisində hamıdan güclü, qüvvətli və adlı-sanlı bir pəhləvan var idi. Onun adı Əmr ibn Əbdəvid idi. O, çox tanınmış bir pəhləvan idi. Adı gələndə hamının bədəni lərzəyə düşürdü. Əmr ibn Əbdəvid Mədinə şəhərinin ətrafını dolanıb içəri keçmək üçün bir yol tapdı. Dörd-beş pəhləvanla içəri keçib müsəlmanların qarşısında durub döyüşçü istədi.

Həzrət Peyğəmbər(s) üzünü qoşuna tutub buyurdu: Aranızda bununla vuruşacaq kimsə varmı? Qoşundan səs çıxmadı. Əli(ə) ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Həzrət Peyğəmbər(s) buyurdu: "Əli, sən əyləş!" Həzrət Peyğəmbər(s) bir də üzünü qoşuna tutub buyurdu: "Aranızda bununla vuruşacaq kimsə varmı?" Yenə də heç kəsdən səs çıxmadı. Yenə Əli(ə) ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Peyğəmbər(s) buyurdu: "Əli, sən əyləş!" Həzrət Peyğəmbər(s) üçüncü dəfə üzünü qoşuna tutub buyurdu: "Aranızda bununla vuruşacaq kimsə varmı?" Yenə də heç kəs cavab vermədi. Əli(ə) üçüncü dəfə ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Həzrət Peyğəmbər(s) öz əmmaməsini başından açıb Əlinin(ə) başına bağladı və belə dua etdi. "İlahi, Ühüd döyüşündə Həmzəni məndən aldın. Amma bu döyüşdə Əlini(ə) məndən alma."

Bu duadan sonra Əli(ə) atına minib Əmr ibn Əbdəvidlə üz-üzə dayandı. Həzrət Əli(ə) döyüşə gedərkən Peyğəmbər(s) buyurdu: "İmanın hamısı ilə şirkin hamısı üz-üzə dayanıb."

Həqiqətən də Əmr ibn Əbdəvid şirkin hamısı, Əli(ə) də imanın hamısı idi. Həzrət Peyğəmbərin(s) bu sözünü bütün kitablarda qeyd etmişlər.

Əlinin(ə) üzü bağlı olduğundan Əmr ibn Əbdəvid onu tanımadı və ondan soruşdu: "Sən kimsən?" Əli(ə) buyurdu: "Mən Əliyəm." Əmr ibn Əbdəvid dedi: "Sən Əbi Talibin oğlusan?" Əli(ə) buyurdu: "Bəli." Əmr dedi: "Mən səninlə vuruşmaq istəmirəm. Çünki sənin atanı tanıyırdım." Əli(ə) buyurdu: "Amma mən səni öldürmək istəyirəm." Əmr ibn Əbdəvid Əlinin(ə) bu sözündən bərk hirslənib qılıncını çəkdi. O, qılıncı qaldıranda Əlinin(ə) başına dəydi və Həzrəti(ə) başı yaralandı. Amma Əli(ə) fürsəti əldən verməyib onu atdan yerə saldı və ayaqlarını kəsdi. Hər yeri toz bürümüşdü. Döyüşənlər tozun içində görünmürdülər. Bütün müsəlmanlar həyəcan içində döyüşün nəticəsini gözləyirdilər. Lakin Əli(ə) Əmri yerə yıxdıqdan sonra döyüş uzun çəkdi. Bu anda Peyğəmbərin(s) yanında olan müsəlmanlar, o cümlədən Ömər ibn Xəttab Həzrətdən(s)soruşdu: "Ya Rəsulallah, nəyə görə Əli(ə) işi bu qədər yubadır? Nəyə görə onun başını kəsmir?" Həzrət Peyğəmbər(s) buyurdu: "Sakit! Gələr, onun özündən soruşarsan." Bir az keçdikdən sonra tozun içində Əlinin(ə) "Allahu əkbər" səsi eşidildi. Hamı bildi ki, Əli(ə) Əmr ibn Əbdəvidin başını kəsib. Əli(ə) Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, Əmri öldürdüm."

Əmr ibn Əbdəvidin əynində qiymətli bir zireh var idi. Ömər soruşdu: "Ya Əli(ə), niyə zirehi onun əynindən çıxarmadın?" Əli(ə) buyurdu: "Yox, mən heç vaxt bu işi görmərəm. Mən istəmərəm kimsə lüt-üryan qalsın." Əmr ibn Əbdəvidin bacısı qardaşının öldüyünü eşidib onun cənazəsinin yanına gəldi və baxıb gördü ki, qardaşı

doğrudan da ölüb. Lakin onun zirehini çıxarmayıblar. Dedi: “Qardaş, mən ölənə qədər sənə ağlayacaqdım. Lakin sən alicənab bir insanın əlində öldüyün üçün daha sənə ağlamaram.”

Əhzab müharibəsi Əlinin(ə) köməyi ilə müsəlmanların qələbəsi ilə nəticələndi. Həzrət Peyğəmbər(s) Əli(ə) barədə buyurur:

يَا عَلِيُّ لَوْ وُزِنَ الْيَوْمَ عَمَلُكَ بِعَمَلِ جَمِيْعِ أُمَّةِ مُحَمَّدٍ لَرَجَّحَ عَلَى عَمَلِهِمْ

“Ya Əli, sənin bu əməlin Məhəmmədin(s) bütün ümmətinin əməli ilə müqayisə edilərsə, hamısının əməlindən üstündür.”

Əgər Əhzab müharibəsində Əlinin(ə) şücaət və qəhrəmanlığı olmasaydı, İslamdan əsər-əlamət qalmayacaqdı. Əgər Əli(ə) tərəfindən Əmr ibn Əbdəvidə zərbə vurulmasaydı, İslam tamamilə məhv olacaqdı. İslamı bu günə qədər qoruyub saxlayan Əlinin(ə) vurduğu o qılınc zərbəsi, göstərdiyi cəsarət və şücaəti oldu. Həzrət Peyğəmbər(s) buyurur: “Ya Əli, sənin Əmr ibn Əbdəvidə vurduğun bu zərbə bütün müşriklərə zillət və müsəlmanlara izzət verdi.”

Həzrət Peyğəmbər(s) buyurur:

لَضَرْبَةُ عَلِيٍ يَوْمَ الْخَنْدَقِ أَفْضَلُ مِنْ عِبَادَةِ الثَّقَلَيْنِ

“Əlinin(ə) Xəndək döyüşündə düşmənə vurduğu bir qılınc zərbəsi bütün cinlərin və insanların ibadətindən üstündür.”[1]

---

[1] Müstədrəki-Hakim, c.3, səh.32.

Həzrət Peyğəmbərin(s) bu sözündən sonra həm birinci, həm də ikinci xəlifə gəlib Əlinin(ə) alnından öpdülər.

Əhzab müharibəsinin qısaca da olsa tarixini danışmaqda əsas məqsədim budur ki, Əli(ə) Əmr ibn Əbdəvidi atdan yerə saldıqdan sonra gördülər ki, onun başını kəsməyi çox yubatdı.

Əli(ə) Əmrin başını kəsib qayıtdıqdan sonra ondan soruşdular: "Ya Əli, onu yerə yıxdıqdan sonra nəyə görə başını kəsməyi o qədər yubatdın?" Əli(ə) buyurdu: "Mən onu atdan yerə saldıqdan sonra o, məni söydü və üzümə tüpürdü." Mən onun bu hərəkətindən çox qəzəbləndim. Əgər o anda onun başını kəssəydim, öz qəzəbimə görə kəsəcəkdim. Ona görə də gözlədim ki, qəzəbim soyusun, sonra onun başını kəsim. Qəzəbim soyuyana qədər gözlədim. Sonra niyyət edib onun başını qürbətən iləllah kəsdim."

Bu, imanın elə bir zirvəsi idi ki, tarixdə yalnız Həzrət Əlidə(ə) görünmüşdür. Bundan başqa tarixdə heç bir kəsdə belə bir iman və şücaət görünməmişdir. Buna görə də insanın qəlbində iman yaranarsa, heç bir günah və nəfsani qüvvələr o insanı haqq yoldan azdıra bilməz. Qəlbində iman olan şəxs bir dağa bənzər ki, heç bir tufan və qasırğa onu yerindən oynada bilməz.

## Qəlbdə iman yaradan amillər

Quran ayələrinə görə, əgər insanın qəlbində iman olmasa, dildə gətirdiyi imanın ona heç bir faydası olmayacaq. İmanın ikinci mərhələsi dəlil-sübutlarla və fəlsəfi yolla əldə edilən imandır. İnsan bu imanın vasitəsilə Allahın varlığını və Onun Ədlini, Nübüvvəti, İmaməti və Məadı sübut edir. İnsanda bu imanın olması

çox yaxşıdır. O iman insanı adi hallarda idarə və islah edə bilər, lakin insanın daxilində nəfsani qüvvələrin tüğyan etdiyi zaman bu iman insanı idarə və islah edib onu günahdan saxlaya bilməz. İnsanı hər bir halda günahdan qoruyub saxlayan yeganə amil onun qəlbən imanlı olmasıdır. Məsələn, Həzrət Yusifi(ə) xəlvət otaqda günahdan qoruyan onun Allaha qəlbən imanlı olması idi.

İbn Sirin parça satan bir şəxs idi. Hər gün küçələrdə parça satmaqla öz başını dolandırırdı. Bir gün bir məhəllədən keçərkən bir qadın onu səslədi. İbn Sirin onun yanına getdi. Qadın ona dedi: "Gəl gedək bizə, mən səndən çoxlu miqdarda parça alacağam." İbn Sirin o qadının evinə gəldi. İçəri daxil olan kimi, qadın arxadan qapını bağladı. İbn Sirin başa düşdü ki, tələyə düşüb. Qadın ona dedi: "Mən səndən parça almağı bəhanə edib səni bura gətirdim. Neçə vaxtdır ki, mənim gözüm sənə düşüb. Axır ki, bu fürsətdən istifadə edib səni bura gətirdim. Sən gərək mənimlə zina edəsən. Əgər etməsən, səni burdan heç yerə buraxmayacağam. "İbn Sirin gördü ki, bu tələdən heç cür çıxış yolu tapa bilməyəcək və ona Allahdan başqa heç kəs nicat verə bilməyəcək. Çünki daxildən nəfsin istəyi, zahirdən də o qadının xahişi onu günaha çəkirdi. Ona görə də ürəkdən Allaha pənah apardı və dedi: "İlahi, mənə bu günah tələsindən yalnız və yalnız Sən nicat verə bilərsən."

Elə bu anda onun fikrinə nəsə gəldi. O, qadına dedi: "Yaxşı, mən səninlə razılaşaram. Amma icazə ver, mən ayaqyoluna gedim, ondan sonra səninlə istədiyini edəcəyəm." Qadın ona icazə verdi. İbn Sirin ayaqyoluna girərək orada olan natəmizliyi götürüb paltarına sürtdü. Sonra gəlib qadının qarşısında durdu. Qadın onu bu vəziyyətdə görüb iyrəndi və qapını açıb onu evdən qovdu.

İbn Sirin qaça-qaça gəlib şəhərin girəcəyində bir bulağın kənarında durdu. Paltarını çıxarıb yumamışdan əvvəl Allaha şükr edərək belə dedi: “İlahi, mənim paltarım murdar oldu, lakin fəxr edirəm ki, Sən mənim ruhumu çirklənməyə qoymadın. Şükr olsun Sənə!” Allah-təala İbn Sirinin bu işinə görə ona istədiyini verdi. Bundan əlavə, ona elə bir qüvvə vermişdi ki, onun vasitəsilə yuxu yozurdu. Onun “Yuxu yozmaları” adlı qalın bir kitabı vardır ki, insanlar ondan istifadə edirlər.

Buna görə də deyə bilərik ki, insanı bütün hallarda günahdan qoruyan yalnız qəlbən imanlı olmasıdır. Çünki insan elə hallara düşə bilər ki, istər dildə olan iman, istərsə də elm və fəlsəfi yol ilə qazanılan iman onu günahdan qoruya bilməz.

Bizim bu söhbətimiz qəlbdə iman yaradan amillər barədə olacaqdır. Çünki insanın qəlbinə birdən-birə iman daxil olmur. Qəlbə imanın daxil olması üçün bir sıra əməllər vardır ki, insan o əməllərin vasitəsilə qəlbən imanı qazana bilər. Alimlər qəlbdə iman yaradan müxtəlif amilləri qeyd etmişlər. Mən onların hamısının yığcam formasını nəzərinizə çatdırıram.

## 1. Tövbə

Qəlbdə iman yaradan amillərin birincisi keçmiş günahlardan tövbə edib, bir daha həmin günahları təkrarlamamaqdan ibarətdir. Çünki imanla günah bir qəlbdə heç vaxt qərar tutmaz. Günah iş görən və haram yeyən insanın qəlbində Allaha iman və inam olmaz. Tövbə sözün əsl mənasında üzr istəməyə deyilir. Lakin üzr istəməyin də üç yolu vardır. Yəni insan pis bir iş gördükdə üç cür üzr istəyə bilər.

Birincisi budur ki, insan pis iş gördükdən sonra etdiyi əməli boynuna almasın və desin ki, bu işi mən görməmişəm. Bir sözlə desək, yalan danışsın.

Üzr istəməyin ikinci yolu budur ki, insan pis iş gördükdən sonra etdiyi günaha bəhanə gətirərək özünü təmizə çıxarmaq istəyir. Məsələn, günah bir işi gördükdən sonra deyir ki, dostum bunu mənə təklif etdi, mən də o günahı elədim. Bu kimi misallar çoxdur. Bir sözlə desək, etdiyi günahların üstünü min cür bəhanə ilə ört-basdır edir.

Üzr istəməyin üçüncü  mərhələsi budur ki, insan etdiyi günahı boynuna almaqla yanaşı, peşman olub, bağışlanmasını istəsin. Yəni qəflət üzündən bir günah iş gördükdə üzünü Allaha tutub desin ki, İlahi, məni bağışla, şeytan məni yoldan çıxartdı.

Üzr istəməyin birinci və ikinci mərhələsi və yolu insanın öz-özünü aldatması və dünyasını düzəldib aqibətini pis günə qoymaqdır. Lakin üzr istəməyin üçüncü yolu isə tövbə adlanır və bizim əsas söhbətimiz də bu barədədir.

Alimlərin dediklərinə əsasən tövbənin tərifi belədir:

التَّوْبَةُ وَ هِيَ الرُّجُوعُ  مِنَ الذُّنُوبِ القَوْلِيّ وَ الْفِعْلِيّ وَ الْفِكْرِيّ

“Tövbə-dildə, əməldə və fikirdə olan günahlardan qayıtmağa deyilir.”

Tövbənin ikinci tərifi belədir:

وَ هِيَ تَنْزِيهِ الْقَلْبِ عَنِ الذُّنّوبِ وَ الرُّجُّوعُ مِنَ الْبُعْدِ إِلَى الْقَرْبِ

“Tövbə qəlbən günahlardan təmizləmək və Allahdan uzaq düşənləri Ona yaxınlaşdırmaq deməkdir.”

Ayətulla Nəraqi tövbəni belə tərif edir:

وَ هِيَ تَرْكُ الْمَعاصِي فِى الْحَالِ وَالْعَزْمِ عَلَى تَرْكِهَا فِى الْإِسْتِقْبَالِ وَ تَدارُكُ مَاسَبَقَ مِنَ التَّقْسِيْرِ

“Tövbə - olduğu halda günahı tərk etmək, gələcəkdə bir daha günah etməyəcəyinə söz vermək və keçmişdə etdiyi günahların əvəzini çıxmağa (qılmadığı namazları qılmağa, tutmadığı orucları tutmağa və s.) deyilir.”[1]

Yeri gəlmişkən, burada tövbə bəhsinə aid olan bir mətləbi qeyd etməyi lazım bilirəm. O da budur ki, insan gərək tövbəni təxirə, yəni bu gün sabaha salmasın və bacardığı qədər günahlardan tövbə edib tez qayıtsın. Çünki özlərini günaha batırmış və günah dəryasında qərq olan insanların yeganə nicat yolu tövbə gəmisidir. Əgər bir şəxs günahdan qayıtmasa və tövbə etməsə, özünə zülm etmişdir. Allah-təala tövbə etməyənləri “Hucurat” surəsində zalım adlandırmışdır.

وَمَنْ لَمْ يَتُبْ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

“Məhz tövbə etməyənlər zalımlardır! (Özlərinə zülm edənlərdir!)”[2]

Həzrət Peyğəmbər(s) İbn Məsuda buyurur:

يَابْنَ مَسْعُود لا تُقَدِّمِ الذَّنْبَ وَ لا تُؤَخِّرِ التُّوبَةَ

“Ey İbn Məsud! Günahı qabağa salıb, tövbəni təxirə salma.”

قَالَ الصَّادِقُ(ع): إِنْ فَارَقْتَ سَيِّئَةً فَعَجِّل مَحْوَهَا بِالتُّوْبَةِ

İmam Sadiq(ə) buyurur:

---

[1] Camius-səadat, c.3. səh.49.
[2] Hucurat, 1.

“Günaha düşdüyün zaman onu tövbə ilə məhv etməyə tələs.”[1]

Buna görə də insan gərək günahlardan tezliklə tövbə etsin.

## 2. İbadət

Qəlbdə iman yaradan amillərin ikinci səbəbi Allaha ibadət etməkdən ibarətdir. Allaha ibadət etdikcə tədricən insanda güclü iman yaranır və belə bir iman insanı bütün hallarda günahlardan qoruyub saxlayır və islah edir. İnsan gərək Allah qarşısında təkəbbürlülük etməsin. İnsan gərək nədən yarandığını və axırının nə olacağını fikirləşib, Allah qarşısında səcdə etsin və təkəbbürlülükdən əl çəksin.

Bir gün Harun ər-Rəşid küçədən keçərkən bir nəfər ona salam vermədi. Harunun tərəfdarları gördülər ki, bu şəxs Harunu saymadı. Onu tutub saraya gətirdilər. Harun dedi: “Onu buraxın. Ola bilsin ki, o, məni tanımayıb.” Həmin şəxs dedi: “Mən səni yaxşı tanıyıram.” Harun dedi: “Mən kiməm?” Həmin şəxs dedi: “Sən azacıq murdar sudan yaranan və öləndə iylənib leş olacaq bir insansan.”

Beləliklə, insan gərək Allah qarşısında səcdə etsin. Ümumiyyətlə, insan Allaha səcdə etməklə qəlbində iman yarada və kamillik mərhələsinə yüksələ bilər. Allah qarşısında səcdəyə qapılanlar həmişə izzət tapmışlar. Buna görə də qəlbdə iman yaradan əməllərdən biri də Allaha ibadət etməkdir.

Qeyd etmək lazımdır ki, ibadətin bir neçə rükn və əsası vardır. Birinci rükn və əsas vacib əməlləri yerinə yetirməkdən ibarətdir. İnsan Allahın ona vacib bildiyi əməlləri mütləq yerinə yetirməlidir. Əgər bir şəxs dinin

[1] Biharul-ənvar , 77, səh.208.

vacibatına əməl etməsə, heç bir məqam və mərhələyə çatmağa nail olmayacaqdır. Mümkündür ki, bir şəxs namaz qılmır, oruc tutmur və vacib əməlləri yerinə yetirmir, lakin xəyalında özünün yüksək məqamda olduğunu və müqəddəs bir insan olduğunu fikirləşir. Xeyr, belə insanlar heç vaxt yüksək məqama çata bilməzlər. Onların öz beyinlərində fikirləşdikləri məqamlar sadəcə olaraq bir xəyaldır. Bu xəyal və təsəvvürlər şeytanın hiyləsidir ki, insanı Allahdan uzaqlaşdırır. Allahın vacib etdiyi əməlləri yerinə yetirməyən şəxsdə zərrə qədər də olsun müqəddəslik yoxdur. Allahın ən acığı gəldiyi insan vacib əməlləri yerinə yetirməyən şəxslərdir.

قَالَ الصَّادِقُ(ع):يَقُولُ اللهُ تَعالی... إِبْن آدَم إِعْمَل بِمَا إِفْتَرَضْتُ عَلَيْكَ تَكُنْ مِنْ أَعْبَدِ النَّاسِ

İmam Sadiq(ə) bu barədə buyurur: Allah-təala buyurur: ”Ey Adəm övladı, Mənim sənə vacib etdiyim əməlləri yerinə yetir ki, insanlar içərisində ən yaxşı ibadət edənlərdən olasan.”

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَتَی بِمَا إِفْتَرَضَ اللهُ عَلَيْهِ فَهُوَ مِنْ أَعْبَدِ النّاسِ

Həzrət Peyğəmbər(s) buyurur: “İnsanlar arasında Allahın vacib bildiyi əməlləri yerinə yetirən şəxs hamıdan gözəl abiddir.”

قَالَ عَلِيٌّ(ع): لآ عِبَادَةَ كَأَداءِ الْفَرَائِضِ

İmam Əli(ə) buyurur: “Vacib əməlləri yerinə yetirməkdən üstün ibadət yoxdur.”

İnsan Allaha ibadət edərkən gərək eşq və məhəbbətlə ibadət etsin.

قَالَ رَسُولُ اللهِ(ص): أَفْضَلُ النَّاسِ مَنْ عَشَقَ الْعِبَادَةَ فَعَانَقَهَا وَ أَحَبَّهَا بِقَلْبِهِ وَ بَاشَرَهَا بِجَسَدِهِ وَ تَفَرَّغَ لَهَا

Həzrət Peyğəmbər(s) buyurur: “İnsanların ən fəzilətlisi Allaha eşq və məhəbbətlə ibadət edən, ibadəti tamam qəlbilə sevən, öz bədən üzvlərilə əmələ gətirən və ibadət üçün müəyyən bir vaxt təyin edən şəxsdir.”

İbadətin ikinci rükn və əsası günahlardan çəkinməkdən ibarətdir. Günah elə bir şeydir ki, insanın imanını yandırıb ruhunu korlayır.

قَالَ السَّجَادُ(ع): عَجِبْتُ لِمَنْ يَحْتَمِى الْطَّعَامِ لِمَضِرَّتِهِ وَلَا يَحْتَمِى مِنَ الذُّنُوبِ لِمَعِرَّتِهِ

İmam Səccad(ə) buyurur: “Yeməyin ziyanından qorxub çəkinən, lakin günahın ziyanından qorxub çəkinməyən şəxslərə təəccüb edirəm.”

Bu hədisin mənasının daha aydın olması üçün bir misal çəkmək yerinə düşərdi. İnsanın quruluşu ruh və cisimdən təşəkkül tapmışdır. İnsan öz cisminin sağlamlığını qorumaq üçün zərərli yeməklərdən çəkindiyi kimi, ruhun sağlamlığını qorumaq üçün də günahlardan çəkinməlidir. Məsələn, şəkər xəstəliyinə tutulmuş şəxs şirin yeməklərdən çəkinir ki, xəstəliyi daha da artmasın. Eləcə də insan, gərək günahlardan çəkinsin. Çünki günah insanın ruhunu korlayır və xarab edir.

## 3. Ölümü yada salmaq

Qəlbdə iman yaradan əməllərdən üçüncüsü ölümü xatırlayıb yada salmaqdan ibarətdir. Qəlbində iman yaratmaq istəyən insan mütləq ölümünü yada salıb

xatırlamalıdır. Əgər insan öləcəyini yadından çıxarıb unudarsa, o insan hər bir günah və cinayətə əl atar.

قَالَ عَلِيٌّ(ع): وَيْلٌ لِمَنْ غَلَبَ عَلَيْهِ الْغَفْلَةُ فَنَسَى الرِّحْلَةَ وَ لَمْ يَسْتَعِد

Həzrət Əli(ə) buyurur: “Vay olsun qəflətin qalib gəldiyi və dünyadan köçəcəyini yaddan çıxarıb özünü ölümə hazırlamayan şəxsin halına.”

Lakin insan bir vaxt öləcəyini və qiyamət günü dirilib hesab verəcəyini yadına salıb düşünərsə, onun qəlbi nurani olar. Ölümü xatırlamağı Allah-təala öz peyğəmbərlərinə təkid etmişdir. Allah-təala bu barədə İsa Peyğəmbərə belə moizə etmişdir:

يَا عِيسَى وَ إِذا ضَحِكَ الْبَطَّالُونَ فَقُمْ عَلَى قُبُورِالْأَمْوَاتِ فَنَادِهُم بِالصَّوْتِ الرَّفِيْعِ لَعَلَّكَ تَأْخُذ مَوْعِضَتَكَ مِنْهُم

“Ya İsa! Batil insanlar boş-boş danışıb güldükləri zaman, sən get qəbiristanlığa. Orada ölüləri uca səslə çağır. Bəlkə onların sənə verdiyi nəsihətləri eşidəsən.”

İslamda böyük şəxsiyyətlərin hamısı qəbiristanlığa gedər və ölümü xatırlayardılar. O cümlədən Həzrət Əli(ə) həmişə qəbiristanlığa gedib ölümü xatırlayardı.

İslamın böyük şəxsiyyətləri - peyğəmbərlər, imamlar, müctəhid və alimlər həm özləri ölümü xatırlayıblar, həm də insanlara bu əməli tövsiyə etmişlər.

Ölümü yadına salıb xatırlayan şəxsin qəlbi nurani olar və imanla dolar.

قَالَ عَلِيٌّ(ع): ذِكْرُ الْموتِ جِلاءُ الْقُلُوبِ

İmam Əli(ə) buyurur: “Ölümü xatırlamaq qəlbin qaralığını təmizləyər.”

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ هَذِهِ الْقُلُوبُ تَصْدَأُ كَما يَصْدَءُ الْحَدِيْدُ إِذَا أَصَابَهُ الْمَاءُ

قِيْلَ: وَمَا جَلاؤُهَا؟ قَالَ(ص): كَثْرَةُ ذِكْرُ الْمَوْتِ وَتَلاوَةُ الْقُرْآنِ,

Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Həqiqətən, bu qəlblər dəmirə su dəydikdə paslandığı kimi paslanar. Dedilər: “Ya Rəsulallah, onun cəlası nədir?” Həzrət(s) buyurdu: “Ölümü çox yada salmaq və Quran oxumaq.”

## 4. Quran oxumaq

Qəlbdə iman yaradan əməllərdən dördüncüsü Quran oxumaqdan ibarətdir. Quran oxumaq insanın qəlbini ağardıb nurani edər və qəlbi imanla doldurar.

قَالَ رَسُولُ اللهِ(ص): نَوِّرُوا بُيُوتَكُمْ بِتَلاوَةِ الْقُرْآنِ,

Həzrət Peyğəmbər(s) buyurur: “Öz evlərinizi Quran oxumaqla nurlandırın.”

قَالَ عَلِيٌّ(ع): أَلْبَيْتُ الَّذِى يُقْرَأُ فِيْهِ الْقُرْآنُ وَيُذْكَرَاللهَ عَزَّ وَ جَلَّ فِيْهِ تُكْثَرُ بَرَكَتُهُ وَيَحْضُرْهُ الْمَلائِكَةُ وَيَهْجُرْهُ الشَّيَاطِانُ يَضِيْئُ لأَهْلِ السَّمَاءِ كَمَا يَضِيْئُ الْكَوَاكِبُ لأَهْلِ الأَرْضِ

İmam Əli(ə) buyurur: “Quran oxunan və Allaha zikr edilən evin bərəkəti çoxalar. Və o evə mələklər gəl-get edərlər, şeytanlar o evə yaxın düşməzlər. Göyün ulduzları yer əhlinə nur saçan təki, Quran oxuyub, Allahı zikr edən şəxsin nuru da göy əhlinə nur saçar.”

Quran oxumaq insanlara təkid olunmuşdur. Allah-təala “Müzzəmmil” surəsində buyurur:

فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ

“Qurandan bacardığınız qədər oxuyun!”[1]

قالَ الرِّضَا(ع): مَا تَيَسَّرَ مِنْهُ لَكُمْ فَيْهِ خُشُوعُ الْقَلْبِ وَصَفَاءُ السِّرِ

İmam Rza(ə) buyurur: “Bacardığınız qədər çox Quran oxuyun ki, qəlbləriniz rahat, batininiz saf və tərtəmiz olsun.”

Quran oxumaq insanın qəlbinin qaralığını aradan qaldırar və insana müsbət təsir bağışlayar.

## 5. Camaata xidmət etmək

Qəlbdə iman yaradan əməllərin beşinci amili Allahın bəndələrinə xidmət etməkdən ibarətdir.

Həqiqətən, Allahın bəndələrinə xidmət göstərib onlara qulluq etmək insanın imanının möhkəmlənməsində böyük rol oynayır və insanın təkamülə yetişməsində mühüm amillərdən hesab olunur. İnsan Allah bəndələrinin çətinliyə düşdüyü zaman gərək bacardığı qədər əlindən gələn köməkliyi onlardan əsirgəməsin. Harada olduğundan asılı olmayaraq, Allah bəndələrinə kömək etmək və onlardan bir şey ummamaq şərtilə yaxşılıq etməyin Allah yanında çox böyük savabı vardır. Allah-təala camaata yaxşılıq edən və onların dərdinə şərik olan şəxsi sevər və onu hər bir işdə, xüsusilə təkamülə çatmaqda müvəffəq edər.

Həzrət İbrahim Peyğəmbərin(ə) xüsusiyyətlərindən biri də hansısa Allah bəndəsi qapısına gəldikdə onu əliboş yola salmaması idi. Həzrət İbrahim(ə) hər yerdə möhtac bir insan gördükdə ona mümkün qədər yardım edərdi. Bir

[1] Müzzəmmil, 20.

sözlə, camaat üçün əlindən gələn köməkliyi əsirgəməz və onların əziyyətlərinə dözüb səbr edərdi.

Əgər insan öz yaşadığı məntəqədə və ya başqa yerdə camaatın əziyyətinə dözüb onlara əlindən gələn köməkliyi əsirgəməzsə, Allah onun üzünü ağardar və harada olsa ona kömək edər.

Böyük alimlərin yüksək mərhələlərə çatmasında da məhz bu kimi xüsusiyyətlər və xislətləri, yəni camaata xidmət göstərib onların əziyyətinə dözmələri olmuşdur.

Mərhum axund Molla Hüseynqulu Həmədani Şeyx Ənsarinin şagirdlərindən biri idi. Onun Seyid Əli Qazi adlı bir şagirdi var idi. Seyid Əli Qazi belə bir əhvalat nəql edir: "Bir gün Molla Hüseynqulu Həmədani öz şagirdləri ilə Kərbəlaya İmam Hüseynin(ə) ziyarətinə yola düşür. Lakin onun Seyid Səid adlı şagirdinin işi olduğundan onlarla birlikdə gedə bilmir və deyir ki, siz gedin, mən də gəlib sizə qoşularam. Onlar birlikdə gəmiyə minib Kərbəlaya yola düşürlər. Seyid Səid işlərini qurtardıqdan sonra sahilə gəlib görür ki, artıq gəmilər gedib. Kərbəlaya gedən yalnız bir gəmi qalmışdır. Seyid Səid gəmiyə minib bir yerdə əyləşir. Onun ardınca bir zənci ərəb gəmiyə minir və gəlib onun yanında oturur. Ərəbin paltarları çox çirkli idi, bədənindən və ağzından pis iy gəlirdi. Ərəb Seyidin yanında əyləşən kimi onu yuxu tutur və başını onun çiyninə qoyub yatır. Seyid öz-özünə fikirləşir ki, bunun bədənindən və ağzından pis iy gəlir və məni narahat edir. Odur ki, əvvəl istəyir onu oyatsın. Sonra fikirləşir ki, ola bilsin yorğundur, onu narahat etməyim. Səhərə qədər özü oyaq qalıb ərəbi oyatmır. Bu minvalla gəlib Kərbəlaya çatırlar.

Molla Hüseynqulunun yanında olan şagirdləri deyirlər ki, biz gecə onun yanında əyləşib söhbət edirdik.

Söhbət əsnasında Molla Hüseynqulu bir neçə dəfə “Afərin sənə, seyid Səid” dedi. Ustad bu sözləri təkrar edirdi, lakin biz onun bu sözü nəyə görə dediyini başa düşmürdük. Səhər açıldı. Seyid Səid içəri daxil oldu və bizimlə salamlaşdı. Molla Hüseynqulu onu görən kimi dedi: “Afərin sənə, seyid Səid! Sən əlliillik yolu bir gecədə getdin.” Ondan sonra biz seyid Səiddən necə gəldiyini soruşduqda, o, gecə yolda başına gələn əhvalatı danışdı. Sonra Molla Hüseynqulu bizə buyurdu ki, hər kim möminin əziyyətinə dözüb səbr edərsə, Allah-təala ona böyük əcr və savab bəxş edər.”

Beləliklə, İslamın və Quranın insanlara etdiyi təkidlərin əsasında bu durur ki, onlar cəmiyyətdə bir-birinə xidmət edərək bir-birilərinin çətinliklərinə dözüb səbr etsinlər.

قَالَ رَسُولُ اللهِ(ص): أَيُّمَا مُسْلِمٍ خَدَمَ قَوْمًا مِنَ الْمُسْلِمِيْنَ إِلاّ أَعْطَاهُ اللهُ مِثْلَ عَدَدِهِمْ خُدّآمًا فِىالْجَنَّةِ

Bu barədə Həzrət Peyğəmbər(s) belə buyurur: “Hər bir müsəlman bir dəstə müsəlmana qulluq edib, onlara xidmət göstərərsə, Allah ona cənnətdə dəstədəkilərin sayı qədər xidmətçi verər.”

İnsan gərək etdiyi yaxşılıqları ixlasla yerinə yetirsin və kiməsə etdiyi yaxşılıqları minnətlə etməsin. Belə olduqda insanın qəlbində iman nuru yaranar və bu əməl insanı günahlardan qoruyub saxlamaqda kömək edər.

## 6. İxlas

Qəlbdə iman yaradan əməllərin altıncısı Allaha ixlasla-saf niyyətlə ibadət etməkdən ibarətdir. İxlas odur ki, insan etdiyi hər bir ibadəti yalnız və yalnız Allaha görə

yerinə yetirsin və ibadətlərində Allahdan başqasını şərik qoşmasın. Alimlər ixlas üçün belə bir tərif də qeyd etmişlər: "İxlas odur ki, insanın niyyəti Allahdan başqa bütün şeylərdən pak olsun."

Bir nəfər Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, mən Allah yolunda malını sərf edir və qohumluq əlaqələri yaradıram. Mən bunu Allaha görə edirəm, lakin camaat bu işlərimə görə məni tərifləyəndə xoşhal olub sevinirəm. Mənim bu əməlim yaxşı işdirmi?"

Həzrət Peyğəmbər(s) bir söz deməyib susdu. Allah-təala Həzrətə(s) bu ayəni nazil etdi:

فَمَن كَانَ يَرْجُو لِقَاءِ رَبِّهِ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهِ أَحَدًا

"Kim Rəbbi ilə qarşılaşacağına (Qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə, yaxşı işlər görsün və Rəbbinə etdiyi ibadətə heç bir kəsi şərik qoşmasın."[1]

Peyğəmbərə(s) nazil olan bu ayə həm həmin şəxsin sualına cavab oldu, həm də insanlara bildirdi ki, Allaha görə etdikləri ibadətlərində başqalarını şərik qoşmasınlar. Əgər insan Allaha görə etdiyi ibadətlərdə kiminsə onu tərifləməsindən xoşu gəlirsə, artıq həmin ibadət Allaha xatir yox, onu tərifləyən üçündür. Məsələn, insan gərək Allaha xatir məscid tikdirmək, su çəkdirmək, körpü salmaq, ehsan etmək və bu kimi digər ibadətləri kiminsə onu tərifləməsinə və ya ad-san qazanmasına görə etməsin və kiminsə onu bu əməlinə görə tərifləməsindən sevinməsin.

---

[1] Kəhf, 110.

Həvarilər İsa Peyğəmbərə(ə) dedilər: “Ya İsa! Allaha müxlis (ixlasla ibadət edən) kimdir?” İsa Peyğəmbər(ə) buyurdu: “Müxlis o kəsdir ki, Allaha ibadət edər və onun bu əməlinə görə kiminsə tərifləməsini sevməz.”

Bunun üçün də insan Allaha görə etdiyi bir işdə kimisə şərik qoşarsa, onun həmin əməlini Allah qəbul etməz.

Musa Peyğəmbər(ə) Misirdən çıxıb Mədyən şəhərinə yollandı. Şəhərin girəcəyində bir bulaq var idi. Camaat qoyunları suvarmaq üçün o bulağa gətirirdilər. Orada iki qız dayanmışdı. Onlar da qoyunları suvarmaq üçün ora gəlmişdilər. Lakin bulaq başında çox adam olduğundan qızlar qoyunları suvara bilmirdilər. Musa Peyğəmbər(ə) gəlib qızlara qoyunları suvarmaqda kömək etdi. Qızlar ona təşəkkürlərini bildirib ayrıldılar. O qızlar Şüeyb Peyğəmbərin(ə) qızları idi. Lakin Musa Peyğəmbər(ə) onun qızlarını tanımırdı. Qızlar yolda başlarına gələn əhvalatı evdə öz atalarına danışdılar. Şüeyb Peyğəmbər (ə) bildi ki, o, Musadır(ə). O, qızlara dedi: “Gedin, onu bizə qonaq çağırın.” Qızlar gəlib Musaya(ə) dedilər ki, atam səni evə dəvət edir. Musa(ə) Şüeyb Peyğəmbərin(ə) evinə daxil olanda gördü ki, süfrə açıblar. Ona görə də süfrə kənarında əyləşmədi. Şüeyb Peyğəmbər(ə) dedi: “Nəyə görə süfrə kənarında əyləşmirsən?” Musa Peyğəmbər(ə) orada qiymətli bir söz dedi: “Biz elə bir ailədənik ki, axirətə görə etdiyimiz bir əməli heç bir şeyə, hətta Yer kürəsini qızılla doldursalar belə, onunla dəyişmərik.” Şüeyb Peyğəmbər(ə) dedi: “Mən bu qonaqlığı sənin etdiyin o yaxşılığa görə vermirəm. Mən də bu süfrəni Allaha xatir sənin üçün açmışam.”

Buna görə də ixlasla, saf niyyətlə görülən əməllər insanın qəlbində iman yaradır.

## 7. Əhli-beytə(ə) təvəssül və məhəbbət

Qəlbdə iman yaradan əməllərin yeddincisi və əsas səbəbi Həzrət Məhəmməd Peyğəmbərin(s) Əhli-beyti(ə) ilə əlaqə saxlayıb onlara qəlbən bağlanıb təvəssül etməkdən ibarətdir. Hər bir şəxs bir iş gördükdə Əhli-beytə(ə) təvəssül edərsə, Allah onu gördüyü işlərdə müvəffəq edər. Lakin Əhli-beytə(ə) sevgisi olmayan və onlara təvəssül etməyən şəxslər müvəffəqiyyətlərdən məhrum edilmişdir. Belə şəxslər öz-özlərini təqvalı hesab edirlər. Lakin həqiqətə gəldikdə isə, görünür ki, onlarda təqva yoxdur. Çünki təqvanın əldə edilməsinin əsası və kökü haqqa boyun əymək, yəni Əhli-beytə(ə) məhəbbət bəsləyib onlara təvəssül etməkdən ibarətdir. Əgər bir insanda yuxarıda qeyd etdiyimiz altı əməl olub, bu sonuncu əməl olmasa, yəni Əhli-beytə(ə) məhəbbəti olmasa, Allah-təala onun heç bir əməlini qəbul etməz.

Peyğəmbərlərin birinin dövründə möminlərdən bir nəfər Allaha dua edirdi. Lakin duaları nədənsə qəbul olunmurdu. Həmin şəxs Peyğəmbərin(s) yanına gəlib dedi: “Ya Peyğəmbər(s), mən nə qədər dua edirəmsə, Allah mənim dualarımı qəbul etmir. Bunun səbəbi nədir?” Peyğəmbər(s) Allahla minacat edərkən Ondan həmin şəxsin duasının qəbul olunmamasının səbəbini soruşdu. Allah-təala buyurdu: “Ey Mənim Peyğəmbərim! Mən ona görə onun dualarını qəbul etmirəm ki, o, yer üzərində Mənimlə insanlar arasında təyin etdiyim vasitəyə və peyğəmbərimə etinasızlıq edir. Hər kim Mənim göndərdiyim vasitələri saymayıb, Məndən bir şey diləsə, onun duasını qəbul etmərəm.”

Allah-təala Quranda bu barədə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَابْتَغُواْ إِلَيهِ الْوَسِيلَةَ وَجَاهِدُواْ فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

"Ey iman gətirənlər! Təqvalı olun. Ona (Onun rəhminə və lütfünə qovuşmaq üçün) vəsilə seçib yol axtarın, Allah yolunda çalışın (cihad edin), bəlkə nicat tapasınız."[1]

Həzrət Peyğəmbərdən(s) soruşdular: "Ya Rəsulallah, Allahla insanlar arasında ən gözəl vasitələr kimlərdir?" Həzrət Peyğəmbər(s) buyurdu: "Mən və mənim Əhli-beytim."

Peyğəmbər(s) və Əhli-beytə(ə) məhəbbət bəsləməyi və təvəssül etməyi şirk hesab edən insanların Qurandan məlumatları yoxdur. Çünki Allah-təala özü Quranda təvəssül etməyi əmr etmişdir. Hətta İslamın bütün firqələrinin hamısı təvəssül etməyin çox gözəl bir əməl olduğunu kitablarda qeyd etmişlər.

Böyük sünni alimlərindən biri olan Səmhudi "Vəfaül-vəfa" adlı kitabında bu barədə yazır: "Peyğəmbərin(s) vasitəsilə Allahdan şəfa diləməyə həm xilqətdən öncə, həm o həzrətin sağlığında, həm vəfatından sonra, həm bərzəx aləmində, həm də qiyamət günündə icazə verilmişdir."

Səmhudi həmin əsərində Ömər ibn Xəttabdan Adəmin tövbəsi barədə belə bir rəvayət yazır: "Adəm tövbədən sonra Həzrət Peyğəmbərə(s) təvəssül edərək dedi: "Ey mənim Rəbbim, Sənə and verirəm Məhəmmədə(s), mənim günahlarımı bağışla."

---

[1]Maidə,35..

Yusif Peyğəmbərin(ə) quyudan nicat tapması da Məhəmmədə(s) və onun Əhli-beytinə(ə) qəlbində bəslədiyi böyük məhəbbəti sayəsində və onları vasitə hesab etməklə mümkün olmuşdur. Qardaşları Yusifi(ə) quyuya atıb getdikdən sonra Yusif(ə) Allahdan ona nicat verməsini dua etdi. Lakin nicat tapmadı. Allahın mələyi Həzrət Cəbrayıl(ə) onun yanına gəldi və dedi: “Ey Yusif! Bu quyudan nicat tapmaq istəyirsənmi?”

Yusif(ə) dedi: “Niyə istəmirəm?”

Cəbrayıl dedi: “Elə isə bu duanı oxu və nicat tap.”

أَللّهُمَ إِنِّ أَسْئَلُكَ بِأَنَّ لَكَ الْحَمْد لا إِلهَ إِلّا أَنْتَ الْمَنَّانُ بَدِيْعُ السَّمَوَاتِ وَالْأَرْضِ ذُوالْجَلالِ وَالْإِكْرَامِ أَنْ تُصَلِّيَ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّد وَ أَنْ تَجْعَلَ إِلى مِمَّا أَنَا فِيْهِ فَرَجًا وَ مَخْرَجًا

“Ey Allahım, səndən istəyirəm, çünki həmd sənə məxsusdur. Səndən başqa minnət qoyan yoxdur. Yeri-göyü yaradan ləyaqət və cəlal sahibisən. Məhəmməd (s) və onun ailəsinə salavat göndər və mənə düşdüyüm bu müşküldən nicat ver.”

Həzrət Yusif(ə) bu duanı oxuyan kimi, Allah-təala ona quyudan çıxmaqla nicat verdi.

Bir çox hədis və rəvayətlərdə Quranda gələn vəsilə sözünün Əhli-beytə(ə) aid olduğu vurğulanmışdır. Hətta Peyğəmbərin(s) öz zamanında belə insanlar Peyğəmbərə(s) təvəssül edib, Allahdan öz istəklərini almışlar.

Səmhudi “Vəfaül-vəfa” kitabında Nəsaidən və Tirmizidən belə bir hədis nəql etmişdir:

“Bir kor kişi Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Allahdan mənə sağlamlıq (afiyət) verməsini istə.”

Peyğəmbər(s) dəstəmaz alıb iki rükət namaz qıldıqdan sonra belə dua etməsinə göstəriş verdi:

أَللّهُمَ إِنِّ أَسْئَلُكَ أَتَوَجَّهُ إِلَيْكَ بِنَبِيِّكَ مُحَمَّدٍ نَبِيِّ الْرَّحْمَةِ يَا مُحَمَّد إِنِّ تَوَجَّهْتُ بِكَ رَبِّ فِ حَاجَتِي لِتَقْضِيَ لِي أَللَّهُم شَفِّعْهُ فِ

"İlahi, mən istəyirəm ki, rəhmət peyğəmbəri Məhəmmədin(s) vasitəsi ilə mənə nəzər yetirəsən. Ey Məhəmməd, mən sənin vasitənlə Allaha üz tuturam və Allahdan diləyimi istəyirəm. İlahi, onun (peyğəmbərin) şəfaətini mənim haqqımda qəbul et."

O, bu duanı etdi və şəfa tapdı.

Peyğəmbərdən(s) sonra da müsəlmanlar Həzrətin(s) qəbrinə müraciət edib öz istəklərini almışlar.

Bəzi insanlar nadanlıq və elmsizlik üzündən Peyğəmbər(s) və onun Əhli-beytinin(ə) vasitəçiliyini şirk hesab edirlər. Bu, çox səhv bir fikirdir. Şirk odur ki, insan Allahın vəhdaniyyətinə şərik qoşsun. Biz Peyğəmbər(s) və onun Əhli-beytini(ə) Allahla öz aramızda vəsilə qərar verib öz istək və diləklərimizi Allahdan istəyirik. Çünki onlar Allah yanında hamıdan hörmətli insanlardır və onların vasitəsilə Allahdan dua və istəklərimizi dilədikdə, Allah onların hörmətinə xatir bizim diləklərimizi yerinə yetirər. Əgər bu əməl dində qadağan edilmiş bir əməl olsaydı, "üçüncü xəlifə" də bu əmələ etiraz edərdi.

Buna əsasən də insan əgər Əhli-beytə(ə) təvəssül edərsə, Allah-təala onun qəlbini imanla nurlandırar. Əgər insanın Əhli-beytə(ə) məhəbbəti olmasa, Allah-təala onun etdiyi heç bir ibadəti qəbul etməz.

İbn Həcər Məkki "Səvaiq" kitabında İmam Şafeidən belə bir rəvayət nəql edir. Şafei Həzrət Peyğəmbəri(s) bir vasitə sayaraq belə bir şeir oxudu:

آلُ النَّبِيِّ ذَرِيْعَتِي        وَهُمْ إِلَيْهِ وَسِيلَتِي
أَرْجُوا بِهِمْ أُعْطَى غَدًا        بِيَدِالْيَمِينِ صَحِيفَتِي

"Peyğəmbərin Əhli-beyti mənim üçün bir vəsilədir. Onlar Allahla mənim aramda olan bir vəsilədirlər. Ümid edirəm ki, qiyamət günü onlara xatir mənim nameyi-əməlimi sağ əlimə verəcəklər."

Alusinin təfsirində Əhli-beyti(ə) vasitə saymaq barədə çox bəhs edilmişdir. Müəllif bu barədə belə deyir: "Mən Peyğəmbərin(s) vasitəsilə Allaha müraciət etməkdə heç bir maneə görmürəm. İstər Həzrətin(s) sağlığında olsun, istərsə də vəfatından sonra."

Buna görə də insan əgər qəlbinə iman daxil olmasını istəyirsə, mütləq Əhli-beytlə(ə) əlaqə saxlayıb onlara bağlanmalıdır. İnsan bir çətinliyə düşdükdə və ya bir ehtiyacı olanda Əhli-beytə(ə) üz tutub, onlara hədiyyə namazı qılmaqla öz istəklərini ala bilər.

Bizim öz dövrümüzdə yüzlərlə yox, bəlkə minlərlə insan məhz bu yolla öz istəklərini almışlar.

Bir nəfərin 14-15 yaşlı uşağı sağalmayan xəstəliyə tutulmuşdu. Uşağın adı seyid Yəhya idi. Həmin şəxsi mən tanıyıram. O, seyid ailəsində anadan olmuşdu. Deyirdi ki, uşağı götürüb həkimə apardım. Həkimlər dedilər ki, bu uşağı vaxtında gətirsəydin, sağalmasına ümid yeri olardı. Lakin onu gec gətirdiyinə görə əlacı yoxdur. Üç ay bu xəstəliyin müxtəlif əlamətləri olacaq, sonra uşaq keçinəcək. Mən həkimlərə dedim: "Bəlkə uşağı Avropaya aparım." Həkim dedi: "Mən demirəm aparma. Amma xeyri olmayacaq." Həkimlər mənə bir az sakitləşdirici dərmanlar verdilər ki, uşaq əziyyət çəkməsin. Mən ümidsiz halda uşağı evə gətirdim. Günlər keçdikcə

həkimin dediyi əlamətləri uşaqda görürdüm. Mən gözüm görə-görə uşağın əlimdən çıxdığına dözə bilmirdim. Bu mənə çox ağır gəlirdi. Bir gün atam bizə gəldi. Atama dedim ki, uşaqda həkimlərin dediyi əlamətlərin çoxunu görürəm. Uşaq artıq heç nə yemir və ayağa dura bilmir. Mən belə görürəm ki, son anlarını yaşayır.

Onun atası yaşlı, təqvalı və hörmətli bir seyid idi. Məhəllədə hamı ona böyük hörmət bəsləyirdi. Kişi danışır ki, atam uşağın bu vəziyyətini görüb ağladı. O, Quranı götürüb evin bir küncündə dayandı. Quranı başına qoydu və bir ayağını qaldırıb dedi: «İlahi, uşağa şəfa verməyincə mən yerə əyləşməyəcəyəm.» Mən gəlib atamın üzündən öpüb dedim: «Atacan, olan işdir, səbirsizlik edib özünə əziyyət vermə.» Atam mənə baxıb dedi: «Sən get işinlə məşğul ol. Mənim işimə qarışma.»

Mən gəldim uşağın yanına. Məni ağlamaq tutmuşdu. Özümü saxlaya bilmirdim. Bir tərəfdən atamın küncdə durub ağlaması, bir tərəfdən də uşağın bu vəziyyəti mənə çox pis təsir etmişdi. Mən ağlaya-ağlaya Həzrət Əbülfəzlin(ə) adını çəkib Allaha yalvarırdım. Çox ağladım, başımı uşaq yatan yerə qoydum və yatdım. Yuxuda gördüm ki, məhəllədəki məscidin qarşısında böyük çaxnaşma var. Gəlib camaatdan soruşdum: «Burada nə hadisə baş verib.» Dedilər: «Məgər bilmirsən ki, on dörd məsum bizim məscidə gəlib.» Mən qaça-qaça məscidə daxil oldum. Gördüm ki, məsciddə on dörd nəfər sıra ilə minbərin yanında əyləşib. Bildim ki, bunlar on dörd məsumdur. Lakin yaşıl qəbalı, əmmaməli bir nəfərin minbərə çıxdığını gördüm. Soruşdum: «Bəs o minbərə çıxan kimdir.» Dedilər: «Həzrət Əbülfəzldir(ə)». Mən minbərin yanına qaçıb Həzrət Əbülfəzlin(ə) əbasından yapışdım. Həzrət Əbülfəzl(ə) dönüb mənə baxdı və

buyurdu: «Nə istəyirsən?» Dedim: «Ağa, mən səndən seyid Yəhyanı istəyirəm.» Həzrət Əbülfəzl(ə) mənə baxdı və buyurdu: «Seyid Yəhyanı verdim sənə.” Elə bu anda yuxudan ayıldım. Gördüm ki, uşaq yatıb, atam isə evin küncündə eləcə dayanıb. Onun yanına gəlib dedim: «Atacan, Quranı başından götür. Həzrət Əbülfəzl(ə) uşağa şəfa verdi.» Atam dedi: «Mən hardan bilim ki, uşaq şəfa tapıb.» Dedim: «Gəl əyləş, mən sənə danışım.» Atam əyləşdi, mən yuxuda gördüklərimin hamısını ona danışdım. Uşaq yuxudan ayıldı, gördük ki, tamamilə sağalıb. Beş-altı aydan sonra həkimlərin mənə verdiyi kağızları da, uşağı da götürüb xəstəxanaya yollandım. Həmin həkimlərin yanına gedib kağızları onlara verdim. Həkimlər mənə dedilər: «Nə oldu, uşaq öldü?» Dedim: «Yox. Mən uşağın şəfasını aldım.» Dedilər ki, bu ola bilməz. Dedim ki, uşağı özümlə gətirmişəm, icazə verin içəri gəlsin. Uşaq gəldi, həkimlər onu rentgendən keçirib analiz etdilər. Gördülər ki, onda heç bir xəstəlik yoxdur. Dedilər: «Elə bil bu uşaqda heç xəstəlik olmayıb.» Bu hadisənin üstündən təqribən on il keçib və həmin uşaq indi yaşayır.

Bizim zamanəmizdə bu kimi hadisələr həddən artıq çoxdur. Bir çox insanlar Əhli-beyti(ə) vasitə etməklə öz şəfalarını onlardan almışlar.

Əhli-beyti(ə) vasitə edən şəxs gərək təqvalı və qəlbi günahlardan təmiz olsun. Camaat arasında kiməsə vergi verilməsi və ya falçılardan istifadə etməsi cahilliyin və nadanlığın əlamətləridir. Yalandan: “Mənə vergi verilib,” -deyən və ya falçılıqdan istifadə edənlər camaatın nadanlığından faydalanırlar. Qəlbində təqva olmayan şəxsə Əhli-beyt(ə) yaxın düşməz. Əhli-beytə(ə) sevgi

bəsləyən şəxsin  gərək qəlbi təmiz və əməlləri də düzgün olsun.

Mərhum Ayətulla Əşrəf Mazandəraninin şagirdlərindən biri deyir: «Mən Məşhəd şəhərinə İmam Rzanın(ə) ziyarətinə gedərkən ustadımın yanına gəldim və bildirdim ki, İmam Rzanın(ə) ziyarətinə gedirəm. Ayətulla Mazandərani dedi ki, İmama(ə) mənim salamımı yetir və o həzrətə de ki, gözünün ucu ilə bizə də bir lütf nəzəri ilə baxsın.

Mən Məşhəd şəhərinə yollandım. Bir neçə gün İmam Rzanın(ə) hərəmini ziyarət etdikdən sonra Ayətulla Mazandəraninin salamını Həzrətə(ə) dedim. Gecə yatıb yuxuda İmamı(ə) gördüm. İmam(ə) mənə buyurdu: Əşrəf Mazandəraniyə mənim salamımı yetir və bu şeiri ona oxu:

***Ayine şo, cəmale pəritələtan tələb.***
***Caru bezən xane, sepəs mihiman tələb.***[1]
*Saf  ol, güzgü kimi pəri camallıları özünə cəlb eylə.*
*Süpürgə çək evə, təmizlə, sonra qonaq tələb eylə.*

Yəni həmişə əməllərin düzgün olmalıdır və qəlbin bütün çirkinliklərdən pak və təmiz olduqdan sonra bizi çağır.

Mən yuxudan ayıldım və yuxuda gördüklərimi yadımda saxladım. Mən geri qayıtdıqdan sonra Ayətulla Mazandəraninin evinə getdim. Qapını döydüm. Ayətulla Mazandərani qapını açıb, üzümə baxdı və gülümsəyərək İmamın(ə) oxuduğu şeiri oxudu.

Gərək insanın qəlbi və əməli düzgün və təmiz olsun. Çünki insanın qəlbi təmiz və əməlləri düzgün olarsa,

---

[1] Saib Təbrizi

Allah belə xüsusiyyətləri ona inayət edər və imamlara əlaqə və məhəbbəti artar.

Biz yuxarıda qeyd etdik ki, insanın tövbəsi, təqvası, ibadəti və ixlası olmasa, Əhli-beytə(ə) bağlı ola bilməz. Eləcə də Əhli-beytə(ə) məhəbbəti olmayan şəxsin təqvası və imanı da olmaz. Allah belə insanların ibadət və dualarını qəbul etməz. Çünki bu iki məsələ bir-birinə qarşılıqlı surətdə bağlıdır.

Allah-təala qəlblərimizi iman nuru ilə işıqlandırsın və bizi dünya və axirətdə Əhli-beytdən(ə) ayrı salmasın.

***2000, 21,23 ramazan***

# ƏHD-PEYMAN VƏ DUALARIN QƏBUL OLUNMASI

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. أَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ

Bu bəhsdə əziz möminlər üçün İmam Sadiqin(ə) buyurduğu bir hədisi iki dəfə ərz edim. Həm sözümün əvvəlində, həm də sözümün axırında bu hədisi nəzərinizə çatdırmaq istəyirəm. Bu hədisi ikinci dəfə oxuyarkən hər şey bizim üçün müəyyən qədər daha aydın olacaqdır. Hədisin məzmunu duanın qəbul olunmasının şərtini bizim üçün bəyan edir.

اِنَّ العَبْدَ اِذا دَعا الله تَعالى بِنِيَّةٍ صَادِقَه وَ قَلْبٍ مُخْلِص أُسْتُجِيبَ لَهُ بَعْدَ وَفائِهِ بِعَهْدِالله عَزَّوَجَلَّ...اليس الله يَقُول: أَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ

Həzrət (ə) buyurur: "Həqiqətən bəndə Allahı saf niyyətlə və təmiz ürəklə çağırıb dua edərsə, Allahla bağladığı əhdinə vəfalı olarsa, həmin şəxsin duası yerinə yetəcək. Necə ki Allah buyurur: Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim."

Bu hədisdən məlum olur ki, insanın duaları Allahla bağladığı əhdinə vəfalı olduqdan sonra qəbul olur. Yəni duaların qəbul olunmasının əsas şərti insanın Allahla bağladığı əhd-peymana vəfalı olmasıdır. Hər kəs Onunla bağladığı əhdini pozarsa, Allah-təala həmin şəxsin duasını heç vaxt qəbul etməyəcək.

Musa Peyğəmbərin(ə) zamanında bir nəfər Allaha dua edib hacətini istəyirdi. Neçə illər idi ki, o, Allaha beləcə yalvarırdı. O qədər dua etmişdi ki, əynindəki paltarlar çürümüşdü. Lakin Allah onun dualarını qəbul etmirdi. Musa Peyğəmbərin(ə) həmin şəxsə yazığı gəldi. Allahla minacat edərkən dedi: "İlahi, bu bəndə neçə vaxtdır ki, Sənə yalvarıb dua edir, amma Sən onun dualarını qəbul etmirsən". Allah-təala buyurdu: "Ya Musa, əgər o, bir az da dua etsə, Mən onun duasını qəbul etmərəm və küləyə əmr edərəm ki, onun paltarlarını əynindən alıb yerə səpər". Musa Peyğəmbər(ə) soruşdu: İlahi, hansı səbəbə görə? Allah-təala buyurdu: "Bu şəxs mənimlə bağladığı əhd-peymanına əməl etmədiyi üçün onun dualarını qəbul etmirəm".

Deməli, duların qəbul olunmasının əsas şərti Allahla bağladığımız əhd-peymana vəfalı olmaqdır. Hər kəs öz əhdinə vəfalı olmasa, Allah həmin şəxsin dualarını qəbul etməyəcək.

Burada qarşıya belə bir sual çıxır ki, biz Allaha vəd vermişikmi? Cavab belədir ki, Qurani-Kərimdə Allah-təala neçə yerdə bu məsələyə işarə edərək açıq-aydın bizə bəyan edir. Nümunə üçün o ayələrdən bir neçəsini nəzərinizə yetirirəm. Allah-təala "Bəqərə" surəsinin 40-cı ayəsində buyurur:

أَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ

- Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim. Və yalnız Məndən qorxun!

Bu ayədən başa düşürük ki, biz Allahla əhd bağlamışıq, O da bizə vəd vermişdir. Digər bir ayədə belə buyurur:

وَأَوْفُواْ بِعَهْدِ اللّهِ إِذَا عَاهَدتُّمْ وَلاَ تَنقُضُواْ الأَيْمَانَ بَعْدَ تَوْكِيدِهَا وَقَدْ جَعَلْتُمُ اللّهَ عَلَيْكُمْ كَفِيلاً إِنَّ اللّهَ يَعْلَمُ مَا تَفْعَلُونَ

- Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun və öz andlarınızı onları möhkəmlətdikdən sonra Allahı özünüzə zamin götürdüyünüz halda pozmayın. Şübhəsiz, Allah etdiklərinizi bilir.[1]

“Ali-İmran” surəsinin 77-78-ci ayələrində belə buyurur:

بَلَى مَنْ أَوْفَى بِعَهْدِهِ وَاتَّقَى فَإِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ

إِنَّ الَّذِينَ يَشْتَرُونَ بِعَهْدِ اللّهِ وَأَيْمَانِهِمْ ثَمَنًا قَلِيلاً أُوْلَئِكَ لاَ خَلاَقَ لَهُمْ فِي الآخِرَةِ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ وَلاَ يَنظُرُ إِلَيْهِمْ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

Əlbəttə, kim öz əhdinə vəfa etsə və təqvalı olsa, şübhəsiz, Allah da təqvalıları sevər.

Həqiqətən, öz əhd-peymanları və andları (dini qəbul etmək barədə olan əhd-peymanlarını və haqqa kömək üçün olan andlarını pozmaq) müqabilində ucuz bir qazanc (vəzifə və mal) əldə edən kəslərin axirətdə payları yoxdur. Həmçinin Allah onlarla danışmayacaq, qiyamət günü

---

[1] Nəhl surəsi.91.

onlara (rəhmət) nəzər(i) salmayacaq, onları paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Digər bir ayədə ağıllı insanların tərifində belə buyurur:

الَّذِينَ يُوفُونَ بِعَهْدِ اللّهِ وَلاَ يِنقُضُونَ الْمِيثَاقَ

- Həmin o kəslər ki, Allahın əhdinə vəfa edir və peymanını sındırmırlar.[1]

Qeyd olunan bu ayələrdən açıq-aydın məlum olur ki, insan Allaha söz verib və Onunla əhd-peyman bağlayıb. Burada qarşıya yenə belə bir sual çıxır. Görəsən insan Allahla hansı məsələlər barədə əhd-peyman bağlayıb? İnsanın Allahla bağladığı əhd-peyman nə vaxt olub? Cavab olaraq qeyd etməliyəm ki, insan Allahla iki dəfə əhd-peyman bağlamışdır. Birinci dəfə dünyaya gəlməzdən öncə, ikinci dəfə isə dünyaya gələndən sonra. Dünyaya gəlməzdən öncə şəxsən Allah özü bizdən söz alıb. Dünyaya gələndən sonra Peyğəmbərinin(s) vasitəsilə bizimlə əhd-peyman bağlayaraq söz almışdır. Yəni biz dünyaya gəldikdən sonra Həzrət Peyğəmbərə(s) söz verib əhd-peyman bağlamışıq. Quranın buyurduğuna əsasən əhd-peyman bağlamaqda Allahla Peyğəmbər(s) arasında fərq yoxdur. Yəni insan əgər Peyğəmbərə(s) söz verirsə və onunla əhd-peyman bağlayırsa, elə bil Allaha söz vermiş və Onunla əhd-peyman bağlamışdır. Peyğəmbər(s) insanlarla Allahın adından danışır və əhd-peyman alırsa, deməli, Allahın adından alır. İnsanların verdiyi hər iki vəd və bağladığı əhd-peyman barədə Quranın ayələrini nəzərinizə yetirirəm.

---

[1] Rəd surəsi.20.

## İnsanların Allahla bağladığı əhd-peyman

Allah-təala insanlarla bağladığı əhd-peyman barədə buyurur:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ

- O zaman sənin Rəbbin Adəm övladlarından – onların bellərindən övladlarını çıxartdı (dünyaya gətirməzdən oncə) və onları özlərinə şahid tutdu ki: «Mən sizin Rəbbiniz deyiləmmi?» Onların hamısı: «Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik» dedilər. (Allah belə etdi ki,) məbada qiyamət günü «biz bundan (tövhid və rübubiyyətdən) qafil idik» deyəsiniz.[1]

Bu ayə bizə bəyan edir ki, Allah-təala bütün insanların hamısından söz aldıqdan sonra onları dünyaya gətirmişdir. Dilindən, rəngindən, vəzifəsindən və s. asılı olmayaraq dünyaya hər nə qədər insan gəlib-gedibsə, hamısından vəd alıb sonra yaratmışdır. Dünyaya gəlməzdən öncə insanların hamısı bərabərdir, dünyadan gedəndən sonra da qiyamət günü məhkəmə qarşısında bərabər olacaqlar. Yalnız bu dünyada əməlisaleh işlər görən və o biri dünyaya özləri ilə əməl aparan insanların işləri öndə olacaq və nicat tapacaqlar. Əgər insan bu dünyada Allaha səcdə edib onun əmrini yerinə yetiribsə həmin şəxsin işi yüngül olacaq və səadətə qovuşacaq. Çünki Allah-təala bizi yalnız və yalnız ibadətə görə bu

---

[1] Əraf.172.

dünyaya gətirib. Namaz, oruc, əmr be-məruf, nəhy əz-münkər və bu kimi əməllər Allahın əmrləridir. İnsan bütün bunlara riayət etməli və Allahın haram etdiyi işlərdən çəkinməlidir. İnsan bunu başa düşməlidir ki, gördüyü hər bir əməlinə görə qiyamət günü Allah məhkəməsində cavab verəcək. Bu dünyanın ömrü ötəridir. İstəsək də, istəməsək də bu dünyadan gedəcəyik. Necə ki, ramazan ayı daxil olur və gün keçdikcə sona çatır. Bayram günündə hamı bayram edir. Lakin bu bayramdan ən çox mənfəət və xeyri oruc tutanlar qazanırlar. Dünya da fani olduğu üçün insan ömrü sona çatdıqdan sonra Allahın əmrlərini yerinə yetirənlər öz xeyirlərini görəcək və səadətə nail olacaqlar.

## İnsanların Peyğəmbərlə(s) bağladığı əhd-peyman

İslam Peyğəmbərinin(s) dövründə elə bir zaman yetişmişdi ki, müsəlmanların sayı az, müşriklərin sayı çoxalmışdı. Hətta belə bir vəziyyət yaranmışdı ki, möminlər şəkk-şübhə hissinə qapanmışdılar. Onların Peyğəmbərdən(s) uzaqlaşma ehtimalı var idi. Müsəlmanlarda qorxularından Peyğəmbərlə(s) bağladıqları əhd-peymanlarını sındırmaq təhlükəsi yaranmışdı. O zaman Allah-təala bu ayəni nazil etdi.

وَأَوْفُواْ بِعَهْدِ اللّهِ إِذَا عَاهَدتُّمْ وَلاَ تَنقُضُواْ الأَيْمَانَ بَعْدَ تَوْكِيدِهَا وَقَدْ جَعَلْتُمُ اللّهَ عَلَيْكُمْ كَفِيلاً

إِنَّ اللّهَ يَعْلَمُ مَا تَفْعَلُونَ

-Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun və andlarınızı möhkəmlətdikdən

sonra Allahı özünüzə zamin götürdüyünüz halda pozmayın. Şübhəsiz, Allah etdiklərinizi bilir.[1]

Bu ayəyə diqqətlə nəzər saldıqda görürük ki, ayə müsəlmanlarda Peyğəmbərlə(s) əhd-peymanlarını pozmaq ehtimalı yarandıqda nazil oldu. Allah- təala bu ayədə öz adından bəyan edir ki, Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun. Deməli, məlum olur ki, insan Peyğəmbərlə(s) əhd-peyman bağlayırsa, həqiqətdə Allahla əhd-peyman bağlamışdır.

Qeyd olunan ayələrdən belə nəticəyə gəlirik ki, istər Allaha, istərsə də Peyğəmbərə(s) söz verib, əhd-peyman bağlamışıq. Burada qarşıya belə bir sual çıxır: Görəsən, biz Allaha hansı sözləri verərək, Onunla əhd-peyman bağlamışıq? Cavab belədir ki, Quranın ayələrinə əsasən, Allah-təala üç əsas məsələ barədə söz aldıqdan sonra bizi dünyaya gətirmişdir.

## Əhd -peyman

Birincisi, Allah-təala insanlardan öz varlığı və tövhidi (yeganəliyi) haqda söz almışdır.

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ

-O zaman sənin Rəbbin Adəm övladlarından – onların bellərindən övladlarını çıxartdı (dünyaya gətirməzdən oncə) və onları özlərinə şahid tutdu ki: «Mən sizin Rəbbiniz deyiləmmi?» Onların hamısı: «Bəli,

[1] Nəhl surəsi.91.

(Rəbbimiz olmağına) şəhadət verdik» dedilər. (Allah belə etdi ki,) məbada qiyamət günü «biz bundan (tövhid və rübubiyyətdən) qafil idik» deyəsiniz.[1]

Deməli, bütün insanlar Allahın varlığı və tövhidinə şəhadət verərək dünyaya gəlmişlər.

İnsanın Allaha verdiyi vədlərdən biri də, yəni ikincisi şeytana ibadət etməyəcəyidir. Yəni bütün insanlar şeytana ibadət etməyəcəklərini Allaha söz veriblər. Bu barədə "Yasin" surəsinin 60-cı ayəsində belə buyurulur:

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ
إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

- Ey Adəm övladı, məgər Mən sizinlə əhd bağlamadımmı «Şeytana ibadət etməyin! Şübhəsiz, o, sizin açıq-aşkar düşməninizdir?!»

Burada bir məsələni nəzərinizə yetirmək istərdim ki, Allah-təala Quranı insanlar üçün nazil etmişdir. Hər bir insan bu müqəddəs kitabı oxuyub əməl etməklə öz xöşbəxtliyinə nail olar. Bəziləri elə düşünməsinlər ki, Quran nazil olubsa, onun ayələrini pəhləvanlar qollarına bağlamaqla ağır daşlar qaldırırlar. Adamlar elə düşünməsinlər ki, Quran nazil olubsa, Onun hökmlərindən kənar toy məclisləri təşkil edən bəy və gəlinlərin başı üzərinə tuta bilərlər. Elə bilməsinlər ki, Allah Quranı heyvanların buynuzuna taxmaqla onların yaxşı süd verməsi üçün göndərib. Quran ağaclara, heyvanlara nazil olmayıb. Həzrət İmam Sadiq(ə) buyurur: "Əgər Quran qoyun-quzuya nazil olsaydı, kök bir qoyun tapılmazdı ki, insan onu kəsib ətini yesin. Hamısı arıqlıqdan bir dəri, bir

---

[1] Əraf.172.

sümük qalardı. Quran dağlara daşlara nazil olmayıb. Əgər Quran dağlara nazil olsaydı, onlar qorxusundan partlayıb dağılardı. Allah-təala “Həşr” surəsinin 21-ci ayəsində buyurur:

لَوْ أَنزَلْنَا هَذَا الْقُرْآنَ عَلَى جَبَلٍ لَّرَأَيْتَهُ خَاشِعًا مُّتَصَدِّعًا مِّنْ خَشْيَةِ اللَّهِ

- Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, mütləq onun Allahın qorxusundan zəlil olub kiçildiyini və parçalandığını görərdik.

Odur ki, Quran insan üçün nazil olub. İnsan öz proqramını bu kitabdan əxz etməli və hədəfinə nail olmalıdır. Bu kitab insana xatırladır ki, Allahla əhd-peyman bağlayıb. Həmin əhd-peymanın biri də şeytana ibadət etməyəcəyi haqqındadır. Yəni insan Allaha söz verib ki, dünyaya gəldikdən sonra şeytana ibadət etməyəcək. Çox təəssüflər olsun ki, insan dünyaya gələndən sonra dünyanın bəzək-düzəkləri onun verdiyi sözləri yadından çıxarıb. Dünyada olan kiçik məhəbbətlər və bəzək-düzəklər insanın bağladığı əhd-peymanı yadından çıxararaq istiqamətini dəyişdirir. Buna görə də insan həmişə yadda saxlamalıdır ki, yaradılışda məqsəd nədir və kiminlə əhd-peyman bağlamışdır.

Həzrət İmam Həsən Əskəri(ə) buyurur: "Hər kəs bir natiqin (danışanın) sözünə qulaq asırsa, ona ibadət etmiş olur. Həmin natiq əgər Allahdan danışırsa, qulaq asan həqiqətdə Allaha ibadət edir. Yox, əgər şeytandan danışırsa, qulaq asan şəxs həqiqətdə şeytana ibadət edir."

Buna görə də insan öz əhdinə vəfalı olmalı və şeytana ibadət etməməlidir.

Üçüncüsü odur ki, Allah-təala Əli ibn Əbi Talib(ə) barədə insanlardan vəd aldıqdan sonra onları yaratmışdır. Allah-təala bütün aləmdə müdiriyyət və rəhbərliyi bərqərar edir. Əvvəl insandan söz alar, sonra yer üzündə qərarlaşdırar. Allah-təala öz işini çox gözəl bilir. Əvvəl insandan söz alar sonra yaradar. Yaradandan sonra insanın ixtiyarını özündə qoyar. Heç kəsi də bu dünyada cəzalandırmaz. Çünki bu dünya cəza və ya mükafat dünyası deyil. Allah bu işləri qiyamət gününə saxlayır. Bir dəfə insanı yaradarkən söz alar və qiyamət günü də onunla hesab-kitab çəkər. Bir zamanlar var idi ki, Allahın adını çəkənin dilini kəsər və işgəncələr verərdilər. Bəs nə üçün Allah həmin zülmkarların cəzasını vermirdi? Allah-təala səbirlidir. Nə üçün səbirli olmasın? Qüdrət bütün aləmə hakim olan Allahın əlindədir. Nə vaxt birinin nəfəsini kəsmək istəsə edə bilər. Hər bir şeyin ixtiyarı onun əlindədir. Belə bir vücud səbirli olmalıdır. Buna görə də hər bir şeyi qiyamətdə qurulacaq məhkəməyə saxlayıb və hər bir insan etdiyi işlərə görə orada cavab verməlidir. İnsan elə başa düşməsin ki, etdiyi əməllərə görə cavab verməyəcək. Bu dünyada istədiyi işi görə bilər. İnsan başa düşməlidir ki, gördüyü hər bir işə görə mütləq cavab verəcəkdir. “Füssilət” surəsinin 40-cı ayəsində buyurulur:

اعْمَلُوا مَا شِئْتُمْ إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

- İstədiyinizi edin. Şübhəsiz, O, etdiklərinizi görür.

Bu kəlmənin mənası odur ki, Allah dünyada insana hər bir işi görmək üçün imkan vermişdir. İnsan bu dünyada olan bütün imkanlardan istifadə edə bilir. Lakin Allah insanın nəfəsini aldıqdan sonra bütün ixtiyarlar onun əlindən çıxacaq. O zaman Allah-təala insan üçün məhkəmə quracaq. Hamı bilməlidir ki, ağızdan çıxan hər

bir kəlmə Allah yanında qeydə alınır. Dünyada bəzi adamların danışıqlarını, hərəkətlərini izləyib qeyd edirlər və nəzarət altında saxlayırlar. Hər nə iş görürsə, tez yazırlar. Allah yanında isə bütün insanların hər bir hərəkəti, danışığı qeyd olunur. Nəzarət altında olanlar və nəzarət altına alanların özləri də Allahın yanında qeyd olunub saxlanılır. Hamı bilməlidir ki, orada heç bir bəhanə və hay-küyün yeri olmayacaq. Orada yalnız Allahın rəhmətindən başqa bir şeyə ümid qalmayacaq.

Odur ki, biz Allaha Əli(ə) barədə vəd verib dünyaya gəlmişik. İnsan bunu həmişə yadına salmalı və verdiyi vədlərə xilaf çıxmamalıdır.

İbn Abbas deyir: "أَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ" - "Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim" ayəsi nazil olanda mən də Həzrət Peyğəmbərin(s) hüzurunda idim. Həzrət(s) bizə buyurdu: Həzrət Adəm(ə) dünyadan gedərkən öz vəsisi Şiysi camaata vəsiyyət edərək belə dedi: Mənə söz verin ki, məndən sonra vəsimə tabe olub, ona itaət edəcəksiniz. Camaat söz verib əhd-peyman bağladı. Lakin Adəmdən(ə) sonra öz vədlərinə əməl etmədilər. Həzrət Nuh Peyğəmbər(ə) dünyadan gedəndə camaata öz vəsisi olan Samı tapşırdı və camaatdan söz aldı. Lakin Nuh(ə) dünyasını dəyişəndən sonra camaat vədinə xilaf çıxdı. Həzrət İbrahim(ə) oğlu İsmayılı vəsi təyin edib, camaatdan ona itaət etmək barədə vəd aldı. Lakin təəssüflər olsun ki, İbrahim(ə) dünyasını dəyişəndən sonra camaat öz vədinə vəfa etmədi. Həmçinin Musa Peyğəmbər(ə) Yuşə ibn Nunu və İsa Peyğəmbər(ə) Şəmunu özündən sonra vəsi təyin etdilər və camaatla əhd-peyman bağladılar ki, onların öz vəsilərinə itaət etsinlər.

Lakin onlar da dünyadan gedəndən sonra camaat bağladığı əhd-peymanı sındırdılar.

İbn Abbas deyir: Sonra Həzrət Peyğəmbər(s) belə buyurdu:

وَقَد عَهَدْتُ اِلی اُمَّتِی فِی عَلِیِّ ابْنِ اَبِی طالِب

وَإِنِّ مُجَدِّدٌ عَهْدِی فِی عَلِی اِبْنِ اَبِی طالِب فَمَنْ نَکَثَ فَإِنَّما یَنْکُثُ

عَلی نَفْسِهِ وَ مَن اَفی بِما عَاهَدَاللهُ فَسَیُؤْتِیهِ اَجْرَاً عَظِیماً

- Mən də Əli ibn Əbi Talib barədə sizinlə əhd bağladım. Bu gün Əlinin barəsində sizinlə öz əhdimi bir daha təzələyirəm. Hər kəs bağladığı əhd- peymanını sındırarsa, özünü sındırmışdır. Hər kəs Allaha verdiyi vədinə vəfalı olsa, Allah ona böyük əcr inayət edəcək.

Bu hədisdən başa düşürük ki, əgər bir insan peyğəmbərlə əhd-peyman bağlayırsa, həqiqətdə Allahla əhd bağlayır. Allah Həzrət Əlinin(ə) vilayəti barədə insanlardan vəd alır. İnsan əgər peyğəmbərlə əhd bağlayırsa, deməli Allahla əhd bağlamış olur. Hər kəs öz əhdini sındırsa, özünə ziyan etmişdir. Əhd-peymanına vəfalı olanlara isə Allah-təala böyük savab və əcr verəcəkdir. Bu hədisdə Həzrət Peyğəmbər(s) əhd bağlayır və buyurur: “Hər kəs Allahla bağladığı əhd- peymanına sadiq qalsa, böyük savab və əcrə nail olacaq. Deməli, bizim Allahla bağladığımız üçüncü əhd-peyman Əli ibn Əbi Talibin vilayəti barədədir.

قالَ الباقِر(ع) فِی قَولِهِ تَعالی: وأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ قَالَ:

أَوْفُواْ بِوِلايَتِ عَلِیِّ ابْنِ اَبِی طالِب(ع) اَوفِ لَکُم بِالْجَنَّة

Həzrət İmam Baqir(ə) buyurur: “Allah-təalanın buyurduğu "Mənim əhd-peymanıma vəfa edin ki, Mən də

sizin əhd-peymanınıza vəfa edim" ayəsinin mənası budur ki, siz Əli ibn Əbi Talibin barəsində verdiyiniz sözə əməl edin, Mən də sizə vəd etdiyim cənnəti bəxş edim".

Bu hədislərdən açıq-aydın məlum olur ki, Əlinin(ə) vilayəti barədə vədinə əməl edənlər cənnətə daxil olacaqlar. Hər kim bu vədə əməl etməsə, cənnətə getməyəcək. Əhdinə vəfalı olmayan insanların aqibəti çox pis olacaqdır. Allah-təala Quranda belə buyurur:

وَالَّذِينَ يَنقُضُونَ عَهْدَ اللّهِ مِن بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَآ أَمَرَ اللّهُ بِهِ أَن يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُوْلَئِكَ لَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

- Allahın əhd-peymanını möhkəmləndirdikdən sonra onu pozan, Allahın birləşilməsinə əmr etdiyi şeyi qıran və yer üzündə pozğunçuluq törədən kəslər üçün lənət var və onların sonu pisdir.[1]

Həzrət(s) hədisdə bu ayənin mənası barədə belə buyurur:

عَهْدُالله اَلْمَأْخُوزِ عَلَيْهِم لِلّه بِالرّبُوبِيَّة وَلِمُحَمَّدٍ(ص) بِالنُّبُوَّة وَ لِعَلِيٍّ(ع) بِالْإِمامَة وَلِشِيعَتِهِم بِالمحَبَّةِ وَالْكَرامَة

- Bu, Allahın insandan aldığı həmin vəddir ki, Onun rübubiyyətinə və vəhdaniyyətinə söz almışdır. Bu, həmin vəddir ki, Allah Məhəmmədin(s) nübüvvətini insanlardan vəd almışdır. Bu, Allahın insanlardan Əlinin(ə) imaməti barədə aldığı vəddir. Əlinin(ə) şiələrinə məhəbbət və kəramət verilmişdir.

İndi öncə İmam Sadiqdən(ə) oxuduğum hədisə bir daha nəzər salaq.

---

[1] Rəd.25.

اِنَّ العَبْدَ اِذا دَعا اللّٰه تَعالى بِنِيَّةٍ صَادِقَه وَ قَلْبٍ مُخْلِص أُسْتُجِيبَ لَهُ بَعْدَ وَفائِهِ بِعَهْدِاللّٰه عَزَّوَجَلَّ...اليس اللّٰه يَقُول: أَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ

Həzrət(ə) buyurur: "Həqiqətən, bəndə Allahı saf niyyətlə və təmiz ürəklə çağırıb dua edərsə, Allahla bağladığı əhdinə vəfalı olarsa, həmin şəxsin duası yerinə yetəcək. Necə ki Allah buyurur: Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim."

Bütün bu ayə və hədislərdən aydın olur ki, insan Allaha vəd verərək əhd-peyman bağlamışdır. Həmin əhd-peymanlardan biri Allahın vəhdaniyyəti və rübubiyyətidir. İkinci vəd şeytana ibadət etməməkdir. Üçüncü vəd isə Peyğəmbərin(s) nübüvvəti və Əlinin(ə) imamətidir ki, Allah-təala bizdən vəd almışdır. Əgər bir insan ixlasla, saf niyyətlə Allaha dua edərsə, Allaha verdiyi vədinə xilaf çıxıb əhd-peymanını sındırarsa, Allah həmin şəxsin dualarını qəbul etməyəcək.

***2001, 21 ramazan***

## XOŞBƏXT İNSAN

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيم اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ

Allah-təalanın Quranda nazil etdiyi surələrdən biri “Möminun” surəsidir. Bu mübarək surənin 1-ci ayəsində belə buyurulur:

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ

- Həqiqətən, iman gətirənlər nicat tapdılar (xoşbəxt oldular) (sanki onlar artıq axirətdə əməllərinin bütün mükafatlarını alıblar).

Bu ayədə (أَفْلَحَ) (əfləhə) sözü işlənmişdir. Bu sözün kökü (فَلاح) (fəlah)dır. Sözün qısaca mənası xoşbəxtlik deməkdir. İzzətə, əzəmətə, şərafətə və xoşbəxtiyə çatmış insana (مُفْلِح) müflih deyilir. İndi araşdırmaq lazımdır ki, kimə xoşbəxt insan deyilir? Bəzən insanlar bir-birini dua edərkən "Xoşbəxt olsunlar", "Xoşbəxtlik diləyirəm" və s. bu kimi ifadələr işlədirlər. Xoşbəxtiyə hər insan bir cür baxır və hər insanın fikrində müəyyən mənalar daşıyır.

Buna görə də xoşbəxtliyin mənası və hansı insanların xoşbəxt hesab olunduğu barədə söhbət edək. Çox yaxşı olar ki, biz xoşbəxtliyin mənasını Qurandan öyrənək. Baxaq görək ki, Quran xoşbəxtliyi bizim üçün necə bəyan edir? Əlbəttə, bu mövzu çox uzun və geniş mövzudur. Əgər bu barədə geniş söhbət açsaq, çox dərin və məzmunlu bir bəhs olacaq. Lakin bu gecə sadəcə bir neçə Quran ayəsi və bir neçə hədislə xoşbəxtliyin mənasını açıqlayıb bəhsi tamamlayıram.

Yuxarıda qeyd etdiyim ayəyə əsasən yalnız möminlər xoşbəxt olub nicat tapacaqlar. Qiyamət günündə də belə olacaq. Allah həm bu dünyada, həm də axirətdə möminlərə kömək edəcək. Quran imandan çıxıb, özlərinə zülm etməklə zalımların cərgəsinə qoşulan insanları tənqid edir. Allah-təala “Ğafir” surəsinin 51-52-ci ayələrində belə buyurur:

إِنَّا لَنَنصُرُ رُسُلَنَا وَالَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ يَقُومُ الْأَشْهَادُ

يَوْمَ لَا يَنفَعُ الظَّالِمِينَ مَعْذِرَتُهُمْ وَلَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

- Həqiqətən, Biz öz peyğəmbərlərimizə və (onlara) iman gətirənlərə dünya həyatında (müharibələrdə qələbə nəsib etməklə və xeyir işləri ilham etməklə) və (peyğəmbərlər, məsumlar və mələklərdən ibarət əməl) şahidlərin(in) ayağa qalxdıqları gündə (qiyamətdə mükafat və cəzanın icrası istiqamətində) kömək edərik.

- (Həmin) o gün(də) ki, zalımlara üzrxahlıqları fayda verməyəcəkdir. Onlar üçündür (Allahın) lənət(i) və onlar üçündür xoşagəlməz ev (aqibət)!

Bu ayələrdən açıq-aydın başa düşülür ki, qiyamət günü Allah zalımların (zülm edənlərin) üzrlərini qəbul etməyəcək və onları lənətləyəcək. Belə insanları çox pis

aqibət gözləyir. Qiyamət günündə nicat tapanlar yalnız iman gətirənlər olacaqdır. Allah-təala möminlərin sifətlərini Quranda bizim üçün bəyan edir. Təqribən otuz mühüm xüsusiyyət var ki, möminlər xüsusiyyətləri özlərində daşımalıdırlar.

## Əməllərin ölçülməsi

Hansı insanın xoşbəxt olması barədə Quranda bir çox ayələr vardır. Həmin ayələrdən bir neçəsini nəzərinizə yetirirəm.

Allah-təala "Əraf" surəsinin 8-9-cu ayələrində buyurur:

وَالْوَزْنُ يَوْمَئِذٍ الْحَقُّ فَمَن ثَقُلَتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ الَّذِينَ خَسِرُواْ أَنفُسَهُم بِمَا كَانُواْ بِآيَاتِنَا يِظْلِمُونَ

- Həmin gün (əqidə və əməllərin) ölçülməsi haqq və qətidir. Beləliklə, kimin ölçülmüş əməlləri ağır və dəyərli olsa, onlardır nicat tapanlar (xoşbəxt olanlar)!

- Kimin ölçülmüş əməlləri yüngül və dəyərsiz olsa, onlardır Bizim ayələrimizə zülm etdiklərinə (onları qəbul etmədiklərinə və ya onlara əməl etmədiklərinə) görə öz vücud sərmayələrini ziyana uğratmış kəslər!

Quranın buyurduğuna əsasən çoxlu mal-dövlətə, yaxşı miniyə, böyük imarətlərə və yüksək vəzifələrə malik olmaq xoşbəxtlik deyil. Əgər qiyamət günü bunlarla yanaşı, əməl tərəzisi ağır gələrsə, həmin şəxs xoşbəxtdir. Əgər hər kəsin əməl tərəzisi yüngül gələrsə, onlar lənətlənəcəklər. Çünki onlar dünyada özlərinə və Allahın ayələrinə zülm etmişlər. Qiyamət günü ziyankar insanlar da məhz onlar olacaqlar.

Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala Adəmə xitab edərək buyurdu:

قُم عِنْدَ الْمِيزان, فَانْظُر مَا يُرْفَع اِلَيْكَ مِن اَعْمالِهِم فَمَن رَجَحَ مِنْهُم خِيرُهُ عَلى شَرِّهِ مِثقالَ ذَرَّةٍ فَلَهُ الجْنَّة حَتّى تَعْلَم أَنِّى لا أُدْخِل النّارَ مِنْهُم اِلاّ ظالِماً

- Qiyamət günü övladlarının əməlləri ölçülərkən səni tamaşa etmək üçün tərəzinin başında saxlayacağam. Hər kəsin xeyir əməli zərrə qədər şər əməlindən çox olarsa, cənnətə daxil olacaq. Bunu da bil ki, Mənim cəhənnəmə apardığım insanlar yalnız zalımlar olacaq.

Quranın ayələrində və Peyğəmbərin(s) hədislərində Adəm(ə) övladlarına bu barədə ciddi tapşırıqlar verilmişdir. İnsanları başa salırlar ki, qiyamət günü böyük bir məhkəmə qurulacaq. Bütün insanların əməlləri ölçüləcək. Həddi-büluğa çatandan sonra neçə il ömür sürübsə, yaşadığı müddətin hər dəqiqə və hər saniyəsi barədə mühakimə gedəcək. Və ömür sürdüyü müddətdə bütün əməllərini tərəziyə qoyub ölçəcəklər. Bu dünya qazanmaq dünyasıdır. İnsan öz vaxtından istifadə edib axirət üçün azuqə toplamalıdır. Bu dünyada yeyib yatmaq insanın tərəzisinə xeyir gətirməyəcək. Qiyamət günü o insanlar fəxr edəcəklər ki, əməl tərəzisi ağır olmuş olsun.

Allah-təala Adəm(ə) övladlarına belə xitab edir: “Ey Adəm övladı! Yuxularınızı qəbrə saxlayın. Fəxr etməyiniz əməl tərəzisinin ağır gəlməsindən asılıdır”.

İnsan başa düşməlidir ki, bu dünya ötüb keçəridir. Bu dünyada yeyib yatmaq və haram işlər görmək insanın əməl tərəzisi üçün ziyanlıdır. İnsan bu dünyada çalışmalı, ibadət etməlidir. Əgər halal ruzi dalınca gedirsə, halal

alver edirsə, halal işlər görürsə, bu, insanın xeyrinədir. Çünki halal alver etmək ibadətdir. İnsan üçün var-dövlət, gözəl geyim, yaxşı minik, uca imarətlərin olması fəxr sayılmır. Bir şəxs öz babasından və ya qohumundan danışaraq fəxr edirsə, bu fəxr qiyamət günü onun dərdinə dəyməyəcək. İnsan öz gözəlliyi, cavanlığı ilə fəxr etməməlidir. Çünki bütün bunlar beş-on günlük insana qonaqdır. İnsan öz dərisinin və ya dilinin müxtəlifliyi ilə fəxr edə bilməz. Çünki Allah insanı belə yaratmışdır. Əgər bir insan dərisinin ağ olması ilə fəxr edirsə, birdən Allah onu qaradərili yaratsaydı, nəylə fəxr edəcəkdi. Əgər bir insan dilinin ərəb dili olması ilə fəxr edirsə, Allah onu başqa ölkədə yaratsaydı, nəylə fəxr edəcəkdi. Bütün bunlar insanın özündən asılı olmayan şeylərdir. İnsan elə bir şeylə fəxr etməlidir ki, onu özü kəsb etmiş olsun. Hər kəs öz qazandığı xeyir əməlinə görə fəxr etməlidir. İnsan yalnız bir şeylə fəxr edəcək. Qiyamət günü hər kəsin əməlləri tərəzidə ağır gələrsə, o zaman fəxr edib sevinəcək.

Quran buyurur: “Qiyamət günü hər kəsin əməl dəftəri onun sağ əlinə verilərsə, sevinərək fəxrlə deyəcək: Alın, mənim kitabımı oxuyun!” Quranda bu barədə belə buyurulur:

يَوْمَئِذٍ تُعْرَضُونَ لَا تَخْفَى مِنكُمْ خَافِيَةٌ فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ

فَيَقُولُ هَاؤُمُ اقْرَؤُوا كِتَابِيَهْ

- O gün siz (haqq-hesab üçün Allahın hüzuruna) gətiriləcəksiniz, sizin heç bir gizlin işiniz gizlin qalmayacaqdır. Əməl dəftəri sağ əlinə verilən şəxs (sevinclə) deyər: «Alın (ey insanlar) mənim kitabımı (əməl dəftərimi) oxuyun».

Buna misal olaraq demək olar ki, uşaq məktəbdə “əla” qiymət alıb evə qayıdandan sonra gündəliyini açıb atasına, anasına və evdə olanlara göstərərək sevinclə deyir: Alın, baxın mənim gündəliyimə. Görün mən necə “əla” qiymət almışam.

Qiyamət günündə də hər kəsin yaxşı əməlləri sağ əlinə verilərsə, sevinclə car çəkib deyər: Ay insanlar, baxın, oxuyun mənim kitabımı. İnsan o zaman fəxr edəcək. Çünki kəramət həmin insana nazil olacaq. Həmin şəxs Allahın kərəminə nail olacaq. Bütün pisliklər həmin şəxsdən uzaqlaşacaq.

Bir nəfər Salman Farsidən soruşur: Ey Salman, sən kərim adamsan, yoxsa rəzil xüsusiyyətli?

قَالَ سَلْمان رَحْمَةُ الله عَلَيه:

...اَمّا اَوَّلِى وَ اَوَّلُكَ فَنُطْفَةٌ قَذِرَه وَ اَمَّا آخِرِى وَ آخِرُكَ فَجِيفَةٌ مُنْطِنَة فَإِذَا كَانَ يَوْمَ القِيامَة وَ نُصِبَ الْمَوازِين فَمَن ثَقُلَت مَوازِينُه فَهُوَ الكَرِيم وَمَنْ خَفَّت مَوازِينُهُ فَهُوَ اللَّئِيم

Salman(r) deyir: Mənim də əvvəlim, sənin də əvvəlin bir qətrə murdar nütfədən ibarət olub. Həmçinin mənim də, sənin də axırımız iylənmiş murdar bir meyit olacaq. Qiyamət günü əməllərin ölçülməsi üçün tərəzilərin qurulduğu zaman hər kəsin əməli ağır gələrsə, həmin şəxs kərim adamdır. Hər kəsin əməlləri yüngül olarsa, həmin şəxs rəzildir.

Deməli, insanın xoşbəxtliyi və ya bədbəxtliyi qiyamət günü əməllərin tərəzidə ölçüləcəyi zaman bilinəcək. İndi gəlin görək hansı əməllər insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olar?

# Qiyamət günü tərəzinin ağır gəlməsinə səbəb olan əməllər

Bir sıra əməllər var ki, onlar insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olacaq.

**1. Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə şəhadət vermək**

İnsanın əməl tərəzisini ağırlaşdıran əməllərdən birincisi Allahın vəhdaniyyətinə, rübubiyyətinə və Peyğəmbərin(s) peyğəmbərliyinə şəhadət verməkdir. Allahın vəhdaniyyətini, yeganəliyini və Peyğəmbərin(s) nübüvvətini ürəkdən qəbul etməyən insanın əməli heç vaxt ağır gəlməyəcək.

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də buyurur: "Şəhadət veririk ki, şəriki olmayan tək Allahdan başqa layiqli məbud yoxdur. Şəhadət veririk ki, Məhəmməd *(səlləllahu əleyhi və alih)* Onun bəndəsi və elçisidir. *(Səmimi qəlbdən və saf niyyətlə verilmiş)* bu iki şəhadət *(gözəl)* sözləri və *(bəyənilmiş)* əməlləri yüksəldir. *(Allah dərgahında qəbul olunar. Sözdə və əməldə ibadətin qəbulu da bu aydın iki əsasın deyilməsi və inanılmasından asılıdır.)* Bu iki şəhadətin qoyulduğu tərəzinin gözü yüngül olmaz və iki şəhadətin götürüldüyü tərəzinin gözü ağır gəlməz *(bu iki şəhadətə iman olmasa, heç bir əməl qəbul olunmaz)*.

Deməli, qiyamət günü insanın tərəzisinin ağır gəlməsinin ən əsas şərtlərindən biri Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə ürəkdən şəhadət verməkdir.

## 2. İnsanın batininin (daxilinin) təmiz olması

Qiyamət günü tərəzinin ağır gəlməsinə səbəb olan əməllərdən ikincisi insanın daxilinin zahirindən gözəl olmasıdır. İnsan öz zahirinə, paltarına, saçlarına, üz-gözünə fikir verib, özünü səliqəyə saldığı kimi, gərək daxilinə də fikir versin. Çalışmalıdır ki, onun qəlbi təmiz olsun. Əgər bir insanın qəlbi təmiz olmasa, onun əməl tərəzisi ağır gələ bilməz. Bir insanın evdən çıxarkən güzgüyə baxıb özünü səliqəyə salaraq, geyiminə fikir verdiyi kimi, həmişə öz daxilini də səliqəli saxlaması vacibdir. Ümumiyyətlə, insanın daxili zahirindən gözəl olmalıdır. İnsanın iki cür qiyafəsi var. Biri budur ki, insanlar bir-birinin zahirini görürlər. Yəni bu, insanın zahiri qiyafəsidir. Bu qiyafənin quruluşu insanın özündən asılı deyil. Çünki Allah insanı belə yaratmışdır. Gözəl və ya eybəcər olmaq insanın öz əlində deyildir. Amma insanın ruhunun qiyafəsinin gözəl və ya çirkin olması öz əlindədir. Məcazi mənada desək, qələm insanın öz əlindədir. İstəsə bunu gözəl çəkər, istəsə çirkin. Ona görə də hədislərdə var ki, insanın ruhunun qiyafəsi cisminin qiyafəsindən gözəl olarsa, həmin şəxsin əməl tərəzisi ağır gələcək.

Böyük alimlərdən biri deyir: Tələbə vaxtlarında mədrəsədə dostlarımdan biri ilə bir otaqda qalırdıq. Bir gün söhbət edərkən belə qərara gəldik ki, hansı birimiz dünyadan tez getsək, digərimizin yuxusuna gəlib, orada nələr baş verdiyi haqda xəbər verək. Beləcə şərt kəsib razılaşdıq. Bu söhbətin üstündən uzun müddət keçdi. Etdiyimiz bu söhbət tamamilə mənim yadımdan çıxmışdı. Belə oldu ki, həmin dostum dünyasını dəyişdi. Mən bunu gördükdə onunla etdiyim söhbəti xatırladım və gözləyirdim ki, tezliklə yuxuma gələcək və mənə hər şeyi

danışacaq. Günlər keçdi, həftələr dolandı, lakin ondan bir xəbər çıxmadı. Üstündən altı ay keçəndən sonra yuxuma gəldi. Salamlaşıb görüşdükdən sonra dedim: Yadındadırmı biz şərt kəsmişdik ki, kim tez ölsə, digərinə xəbər versin? O, mənə dedi: Mən sənə verdiyim həmin vədə görə yuxuna gəlmişəm. Mənim heç bir söz deməyə ixtiyarım yoxdur. Amma sənə bir kəlmə söz deyib gedəcəyəm. O da budur ki, çalışın o dünyaya gedəndə insan surətində gedəsiniz. Çünki orada hər nə verirlərsə, yalnız insana verirlər.

Hədislərdə vardır ki, bəzi insanlar qiyamət günü it, donuz və müxtəlif surətlərdə gələcəklər. Bu qiyafələr ruhun qiyafəsidir. Həmin insanlar öz əməlləri nəticəsində ruhlarının qiyafəsini dəyişdirib, heyvan surətinə salırlar. Buna görə də insanın daxili zahirindən gözəl olmalıdır.

**3. Quran oxumaq**

İnsanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan əməllərdən üçüncüsü Quran oxumaqdır. Hədislərdə vardır ki, hər kim Quran öyrənib oxuyarsa və oxuduğu ayələrə əməl edərsə, bu əməl qiyamət günü həmin şəxsin əməl tərəzisinin ağırlaşmasına səbəb olacaq.

قَالَ رَسُولُ اللهِ(ص): إِن اَرَدْتُم عِيشَ السُّعَداءِ وَ مُوتُ الشُّهَداءِ وَ النَّجَاةَ يَومَ الْحَشرِ... فَادْرِسُوا القُران فَإِنَّهُ كَلامُ الرَّحْمان... وَ رُجْحَانٌ فِى الْمِيزان

- Həzrət Peyğəmbər(s) buyurur: “Xoşbəxtlər kimi yaşayıb, şəhidlər kimi ölmək və qiyamət günü nicat tapmaq istəyirsinizsə, Quran öyrənin... Həqiqətən, Quran

Rəhman olan Allahın kəlamıdır... Quran əməl tərəzisini ağırlaşdırar.

**4. Böhtan atılan və qeybət edilən şəxs**

Qiyamət günü insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan şeylərdən biri də odur ki, bu dünyada insanın özünün həmin işdən xəbəri olmayıb. Bu əməl insanın öz əməli hesab olunmur və qiyamət günü üzə çıxaraq, insanın tərəzisinin gözünə əlavə ediləcək. O da budur ki, hansı insana böhtan atılıb, arxasınca danışılırsa və həmin insanın bu söz-söhbətlərdən xəbəri olmayıbsa, bu böhtan və qeybətlər onun üçün müsbət sayılacaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): يُجاءُ بِالْعَبْدِ يَومَ القِيامَة فَتُضَع حَسَناتُهُ فِى كَفَّةٍ وَ سَيِّئاتُهُ فِى كَفَّةٍ فَتَرجِحُ السَّيِّئات, فَتَجِئُ بِطاقَةٌ فَتَقَعُ فِى كَفَّةِ الْحَسَنات فَتَرْجَحُ بِها. فَيَقُول يَا رَبّ مَا هَذِهِ الْبِطاقَة؟ فَما مِن عَمَل عَمِلْتُهُ فِى لَيْلِى اَو نَهارِى وَ قَد اسْتُقبِلتُ بِه. قَالَ: هَذا ما قِيلَ فِيكَ وَ اَنْتَ مِنْهُ بَرِئٌ فَيَنْجو بِذلِك

Bu barədə Həzrət Peyğəmbər(s) belə buyurur: “Qiyamət günü hər bir bəndəni pis və yaxşı əməllərini ölçmək üçün gətirəcəklər. Onun yaxşı əməllərini tərəzinin bir gözünə, pis əməllərini isə digər gözünə qoyacaqlar. Pis əməlləri ağır gəldikdə, ümidsiz qalacaq. Elə bu zaman yarpağa bənzər bir şeyi gətirib onun yaxşı əməllərinin üzərinə əlavə edəcəklər. Onun yaxşı əməlləri ağırlaşacaq. Həmin şəxs təəccüblə deyəcək: Ey mənim Rəbbim, bu nə idi belə? Axı mənim dünyada gecə-gündüz etdiyim əməllərin hamısı tərəzinin gözünə qoyulmuşdur. Bundan artıq bir əməlim qalmamışdır. Allah-təala buyuracaq: Bu

yarpaq dünyada sənin dalınca danışılan sözlər, qeybət və böhtanlardır. Sənin bunlardan xəbərin yox idi".

Məlumdur ki, hər kəsin arxasınca danışılırsa və qeybətini edirlərsə, qiyamət günü mütləq həmin danışanlardan bunun əvəzi çıxılacaq. Belə ki, kiminsə arxasınca danışan insanların yaxşı əməllərindən gətirib barəsində qeybət olunan həmn insanın tərəzisinin yaxşı əməllər gözünə qoyulacaq.

### 5. Peyğəmbər(s) və Əhli-beytinin(ə) məhəbbəti

Qiyamət günü insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan əməllərdən beşincisi Peyğəmbər(s) və Əhli-beytinin(ə) məhəbbətidir. Əgər insan bu məhəbbəti qeyd etdiyimiz dörd əməlin üstünə qoya bilsə, tərəzinin yaxşı əməlləri ağırlaşacaq. Yox, əgər insanda bu sevgi və məhəbbət olmasa, yuxarıda sadaladığımız dörd əməlin heç biri ona fayda verməyəcək. On yarpağa oxşar bir şey gətirib, onun yaxşı əməllərinin üzərinə əlavə etsələr də belə, tərəzinin gözü ağır gəlməyəcək.

قَالَ رَسُولُ اللهِ(ص): حُبِّي وَ حُبُّ اَهْلِ بَيْتِي نَافِعٌ فِي سَبْعَة مَواطِن اَهْوالُهُنَّ عَظِيمَةٌ:

عِنْدَ الْوَفات, وَفِي الْقَبْر وَ عِنْدَ النُّشُور وَ عِنْد الْكِتاب وَ عِنْدَ الْحِساب وَ عِنْدَ الْمِيزان وَ عِنْدَ الصِّراط

Həzrət Peyğəmbər(s) buyurur: "Mən və mənim Əhli-beytimin məhəbbəti yeddi böyük və qorxulu halda insana mənfəət verib dərdinə dəyəcək: vəfat edən zaman, qəbirdə, məhşər günündə, kitabı (əməl dəftəri) oxunduğu vaxt, hesaba çəkilən an, tərəzidə əməllərinin ölçüləcəyi və Sirat körpüsündən keçən zaman".

Peyğəmbər(s) və Əhli-beytinə(ə) məhəbbət bəsləməyin insana bu kimi xeyir və mənfəətləri dəyəcəkdir. Burada bir maraqlı hadisə və mətləbi qeyd etmək yaxşı olardı. Mənim 11-12 yaşım olanda böyük alimlərdən biri dünyasını dəyişirdi. Onun adı Hacı Şeyx Abdulla Həmzəzadə Ərdəbili idi. O, çox böyük və görkəmli alimlərdən biri idi. Mən çox vaxt onun yanında olurdum. Demək olar ki, bütün məclislərində iştirak edir və ona böyük hörmətim var idi. Ayağa qalxanda əsasını ona verər və məclisdən çıxarkən ayaqqabılarını cütləyərdim. O da bir uşaq kimi mənə hörmət bəsləyirdi. Şeyx ömrünün axırlarında xərçəng xəstəliyinə tutulmuş və xəstəliyin şiddətindən yorğan-döşəyə düşmüşdü. Onun xəstəliyi o qədər ağır idi ki, hətta ayağa belə qalxa bilmirdi və danışmağa da halı qalmamışdı. O, gecə yarısı dünyasını dəyişmişdi. Belə ağır vəziyyətində rəhmətlik anam da onların evinə gedib gəlirdi. Bizim onlarla ailəvi münasibətimiz var idi. Bir-birimizin evinə gedib gələrdik. O, dünyasını dəyişən zaman anam onların evində idi. Anam deyir ki, o, ömrünün son anlarını yaşayırdı. Hamı onun başına yığışmışdı. Birdən orada əyləşənlər qeyri-adi bir hadisənin şahidi oldular. Onun şəklini qapının yuxarı hissəsinə vurmuşdular. Günlərlə danışmağa halı olmayan bu alim gözlərini açıb yeddi yaşlı Məsumə adlı qızını səslədi və dedi: “Məsumə, qızım, o şəkli qapının üstündən götürün.”

Bu hadisə hamıya çox qəribə gəldi. Çünki o, üç ay idi ki, halı olmadığından danışa bilmirdi. Orada əyləşənlərin hamısı Şeyxin bu qeyri-adi hərəkətinə təəccüb edirdilər. Həyat yoldaşı gəlib qapının üstündən şəkli götürdü. Sonra həmin alim öz əba və əmmaməsini istədi. Əbanı gətirib onun çiyninə saldılar və əmmaməsini

başına qoydular. Sonra üzünü yanında əyləşənlərə çevirib çəliyini istədi. Çəliyi də ona verdilər. O, çəliyə söykənib əyləşdi. Var gücünü toplayıb ayağa qalxaraq: “Salam olsun sənə, ey Allahın Rəsulu” – deyib əyləşdi. Yenə də ayağa qalxıb əlini sinəsinə qoyaraq: “Salam olsun sənə, ey Peyğəmbərin qızı,” – deyib əyləşdi. Bir az keçməmiş yenə də ayağa qalxıb dedi: “Salam olsun sənə, ya Əmirəlmöminin.” Düz on dörd dəfə ayağa qalxıb bütün məsumları salamladıqdan sonra yerinə uzanıb, evində ağlaşan qadınlara bildirmək üçün qızına dedi: “Qızım, Məsumə, sən də orada ağlaşanlara de ki, ucadan ağlamasınlar. Görmürsünüzmü, Peyğəmbər(s) və onun Əhli-beyti(ə) bizə qonaq gəliblər?”

Sonra o, vəsiyyətini edərək dünyasını dəyişdi.

Odur ki, hər kim Peyğəmbər(s) və Əhli-beytinə(ə) məhəbbət bəsləyərsə, bu məhəbbət həmin şəxsə canını tapşırdığı zaman yardımçı olacaq. Qeyd olunan mətləbi Allah-təala Quranda da bizə bəyan etmişdir. “Fəcr” surəsinin axırıncı ayələrinə diqqət yetirin. Bu ayələr kimin barəsində nazil olmuşdur?

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً فَادْخُلِي فِي عِبَادِي وَادْخُلِي جَنَّتِي

“Ey öz imanından, əməlindən (Allah və Əhli-beytdən) xatircəm olan kəs! (Ey arxayın nəfs) Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! (Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol! (Onlarla birlikdə) Cənnətə varid ol!”[1]

[1] Fəcr. 27-30.

Həzrət Peyğəmbərə(s) və onun Əhli-beytinə(ə) məhəbbət bəsləmək qiyamət günü insanın dərdinə çox dəyəcək. Əhli-sünnənin böyük alimlərindən biri olan Hakim Həskani “Şəvahidüt-tənzil” kitabında yazır: "Həzrət Peyğəmbər(s) “Saffat” surəsinin 24-cü ayəsini - (وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ) “Qiyamət günü” insanlar sirat körpüsündən keçərkən bir nida eşidiləcək: “Onları yubadıb saxlayın! Çünki (onlar) sorğu-sual olunacaqlar.”[2] oxuduqdan sonra buyurur: “Qiyamət günü Mən və Əli Sirat körpüsünün üstündə dayanacağıq. İnsanlar bir-bir oradan keçən zaman onlardan Əlinin(ə) vilayəti haqda sorğu-sual edəcəyik. Hər kəs dünyada Əlinin(ə) vilayətini qəbul etmişsə, körpüdən rahat keçib gedəcək. Hər kəs dünyada Əlinin(ə) vilayətini qəbul etməyibsə, onu oradan geri qaytaracaqlar."

Həzrət Əlinin(ə) vilayəti çox mühüm bir məsələdir. Onun vilayətini qəbul etməyən insanların vəziyyəti ağır olacaqdır. İnsan Həzrət Əliyə(ə) həm məhəbbət bəsləməli, həm də onun vilayətini qəbul etməlidir.

قَالَ الصَّادِقُ(ع): وِلايَتِى لِعَلِيّ بْنِ اَبِى طالِب اَحَبُّ اِلَیَّ مِن وِلادَتِى مِنه لأَنّ وِلايَتِى لِعَلِيّ بْن اَبِى طالِب فَرْضٌ وَ وِلادَتِى مِنْهُ فَضْلٌ

İmam Sadiq(ə) buyurur: “Əli ibn Əbi Talibin vilayəti mənim üçün onun övladı olmaqdan daha əzizdir. (Yəni onun övladı olduğum üçün deyil, onun vilayəti və məhəbbəti ürəyimdə olduğu üçün fəxr edirəm.)”

Hədislərdə var ki, hansı yerdə Əlinin(ə) adı zikr olunursa, mələklər gəlib həmin yeri ziyarət edərlər. Əbu Hüreyrə Ümmi Sələmədən belə bir rəvayət nəql edir: “Bir

---

[2] Saffat, 2.

dəstə insan əyləşib Peyğəmbər(s) və Əhli-beyti(ə) barədə söhbət edərkən, bir dəstə mələk də gəlib onların ətrafında əyləşər. Söhbət edib qurtarandan sonra hərə öz evinə dağılışar. Mələklər də öz yerlərinə (ərşə) qayıdarlar. Ərşdə olan mələklər onlardan soruşar. Sizdən  gözəl ətir qoxusu gəlir. Hardan gəlirsiz belə? Onlar cavab verirlər: Yer üzündə Peyğəmbərin(s)  ümmətindən bir neçə nəfər yığışıb onun və Əhli-beytinin(ə) barəsində söhbət edirdilər. Biz də onların kənarında əyləşdiyimizə görə Allah bizi belə müəttər etmişdir. Bizdən gələn həmin gözəl qoxu onların ətirlərinin iyidir. Ərşdə olan mələklər onlara deyərlər: bizi də aparın həmin şəxsləri ziyarət edək və onların ətirli iyləri ilə özümüzü müəttər edək. Həmin mələklər deyər: Onlar dağılışıb öz evlərinə getdilər. Onlar deyərlər, elə isə bizi aparın onların əyləşdiyi yerləri ziyarət edək. Həmin mələklər onları yer üzünə gətirər və oranı ziyarət edib ətirləndən sonra yenidən ərşə qayıdarlar".

Bu rəvayəti şair öz qələmi ilə nəzmə çəkərək belə deyir:

*Bequ Əli, ke busəd Mələk dəhane tora,*
*Mələk dəhane to busəd, fələk zəbane tora.*
*Məkan begir bekonci, bequ Hüseyno benaz,*
*Ke Cəbrəil ziyarət konəd məkane tora.*

- Əlinin(ə) adını zikr et ki, mələklər ağzından öpsün. Mələk ağzından, fələk dilindən öpsün. Bir küncdə əyləş Əlini(ə) çağır və sevin, Cəbrayıl sənin əyləşdiyin yeri ziyarət etsin.

Hər kəs Peyğəmbər(s) və onun Əhli-beytinin(ə) adını zikr edirsə, Allah həmin məkanı mələklərin ziyarətgahına çevirər.

Behişt adıyla məni gümrah etmə, ey zahid,

Mənim Hüseyndi behiştim, cənnəti neyləyirəm.

Bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: “Ey Allahın höccəti, xahiş edirəm, dua edəsiniz ki, Allah məni cənnətə aparsın. Həzrət (ə) buyurdu: Məgər sən Əhli-beyti sevmirsənmi? Həmin şəxs dedi: Əlbəttə, sevirəm. Həzrət(ə) buyurdu: Sən artıq cənnətdəsən. De ki, dua et, Allah bizi cənnətdən çıxarmasın”.

İmam Hüseyn(ə) aşura gecəsi öz səhabələrinə məqamlarını və cənnətlərini göstərdi. Əli ilə göyə işarə edib buyurdu: “Sabah gedəcəyiniz yerlərə baxın. Hamı öz məqamını görüb sevindi. Lakin Həzrət Əbülfəzl(ə) gözünü İmam Hüseyndən(ə) çəkmirdi. İmam(ə) buyurdu: Abbas, sən niyə baxmırsan? Həzrət Əbülfəzl(ə) buyurdu: Ağa, neyləyirəm cənnəti, mənim behiştim sənsən.

**6. Xanım Fatimeyi Zəhraya(s.ə) xüsusi məhəbbət**

Qiyamət günü insanın əməl tərəzisini ağırlaşdıran əməllərdən biri də Xanım Fatimeyi Zəhraya(s.ə) xüsusi məhəbbət bəslənilməsidir. Bu əməl demək olar ki, yuxarıdakı əməl ilə eynidir.

قَالَ رَسُولُ اللهِ(ص): يَا سَلْمان حُبُّ فَاطِمَة يَنْفَعُ فِي مِأَةٍ مِنَ الْمَواطِنِ أيسر ذلِكَ الْمَواطِنِ الموت وَالقَبر وَالْمِيزانِ وَ الْحَشر وَالصِّراط وَالْمُحاسِبَة...

Həzrət Peyğəmbər(s) Salman Farsiyə(r) buyurdu: “Ey Salman, Fatiməyə məhəbbət bəsləmək yüz yerdə insanın dərdinə dəyəcək. O yerlərdən biri də qiyamət günü əməl tərəzisinin qurulduğu zamandır. Bu məhəbbət insanın əməllərinin ağır gəlməsinə səbəb olacaq”.

### 7. Peyğəmbərə(s) və Peyğəmbərin(s) əhli-beytinə salavat göndərmək

İnsanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan əməllərdən biri də Peyğəmbərə(s) və onun Əhli-beytinə(ə) salam və salavat göndərməkdir. Ümumiyyətlə, Peyğəmbər(s) və Peyğəmbərin ailəsinə salavat göndərməyin insan üçün çox böyük savabları vardır. İnsan həyatda çalışmalıdır ki, öz vaxtını boş-boşuna keçirməsin. Vaxtının boş olduğundan istifadə edib Peyğəmbərə(s) və Əhli-beytinə(ə) salavat göndərməyi özünə qənimət bilsin. Çünki bu əməl insanın dərdinə çox dəyəcək.

Həzrət Peyğəmbər(s) şaban ayının axırıncı cüməsində camaata belə buyurdu:

مَن اَكْثَرَ فِيهِ مِنَ الصَّلَواة عَلَىَّ ثَقَّلَ اللهُ مِيزانَهُ يَومَ تَخِفُّ الْمَوازِين

- Hər kəs mənə çoxlu salam və salavat göndərərsə, əməl tərəzisinin yüngül gəldiyi gün Allah onun tərəzisini ağırlaşdırar.

Beləliklə, qeyd etdiyimiz əməllər qiyamət günü insanın əməl tərəsizinin ağır gəlməsinə səbəb olur. Qiyamət günü hər kəsin tərəzisi ağır gələrsə, həmin şəxs xoşbəxt insandır.

Bütün bu əməllər insanın xoşbəxtliyinə səbəb olan əməllərdir. Bütün bunlar Allaha ibadətdir. Xüsusilə Qədr gecəsində Allah-təala bu işləri görənə daha çox savab inayət edər. Çünki Qədr gecəsində qılınan iki rükət müstəhəb namazın savabı min ay qılınan müstəhəb namazların savabından daha fəzilətli və şərafətlidir. Bu gecə Peyğəmbərə(s) və Əhli-beytinə(ə) salavat göndərməyin savabı min ayın savabından çoxdur. Qədr gecəsi Quranın nazil olduğu gecədir. Möminlər bu gecə Quranı göz yaşı ilə qarşılayarlar. Hədislərdə vardır ki, bu

gecə Allaha xatir bir damla göz yaşı tökən bəndənin dərya qədər günahı bağışlanar. Yəni onun gözündən axan bir damla bir dərya odu söndürmüş olar.

Digər bir hədisdə deyilir ki, Allahın bir neçə damladan xoşu gəlir. Onlardan biri şəhidin yerə tökülən qanının damlalarıdır. İkincisi günahkar insanın gecə yarısı Allahın xofundan axıtdığı göz yaşlarının qətrələridir ki, Allahın bu qətrələrdən xoşu gəlir. Əgər insan günah edirsə, tövbə edib ağlamaqla Allahdan bağışlanmasını istədikdə, Allah onun günahlarını bağışlayır. Yəni günahkar bir insan günah edəndən sonra təvazökarlıqla Allah qarşısında ağlayıb sızıldayaraq öz günahlarının bağışlanmasını istəyir. Hədislərdə yazılıb ki, təvazökarcasına Allah qarşısında tövbə edən bəndə, təkəbbürlülüklə ibadət edən bəndədən üstündür. Odur ki, insan heç vaxt təkəbbürlülük etməməlidir. Həmişə Allah qarşısında təvazökar olmalı və etdiyi günahları etiraf edərək Allahdan bağışlanmasını diləməlidir. Hər nə iş görübsə, yenə də Allaha sarı qayıdıb, Onun dərgahına əl açmalıdır.

Allah-təala Musa Peyğəmbərə(ə) buyurdu: “Ya Musa, bilirsənmi səni nə üçün Peyğəmbər seçmişəm? Səndə bir xüsusiyyət var, hara gedirsənsə, uşaq kimi məni çağırırsan. Uşaq öz valideynindən küsərkən bir qədər keçməmiş yenə də gəlib yapışır anasının ətəyindən. Səndə də bu xüsusiyyət olduğu üçün səndən xoşum gəlir”.

Buna görə də insan belə bir bəndə olduqda Allahın ondan xoşu gələr. Əgər günah etmiş olsa da belə, yenə də Allaha sarı qayıdıb tövbə edərək üzr diləyir. Bu dünyada üzr istəyən insanın üzrü qəbul olacaq, lakin qiyamətdə üzr istəməyin insana heç bir xeyri dəyməyəcək. Qədr gecəsi çox istifadə edilməli bir gecədir. Allah-təala İslam

Peyğəmbərinin(s) ümmətinə belə bir şans nəsib etmişdir, odur ki, insan Qədr gecəsini özünə qənimət bilməli, hər dəqiqəsindən istifadə edib faydalanmalıdır.

***2001, 23 ramazan***

## İBADƏT
## QƏDR GECƏSİ İBADƏT GECƏSİDİR

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

Bu bəhsdə əziz möminlər üçün ibadət barədə söhbət açmaq istəyirəm. Allah-təala Qədr gecəsini insanların ibadət və səcdə edib, Ona yaxınlaşması üçün müəyyən etmişdir. Ötən bəhslərimizdə Qədr gecəsi haqqında ətraflı söhbət açmışıq. Lakin bəhsimiz ibadət mövzusu olduğu üçün azacıq da olsa bu gecənin şərafəti barədə bir neçə kəlməni müqəddimə olaraq qeyd etməklə əsas mövzumuza başlayaq. Məlum olduğu kimi, ramazan ayının 19, 21, 23-cü gecələri Qədr gecələridir. Lakin bu üç gecənin hansı birinin Qədr gecəsi olması dəqiq məlum deyil. Hər halda biz Qədr gecəsini dərk etmək üçün bu üç gecəni əhya saxlayıb ibadət edirik.

### Qədr gecəsi necə qeyd olunmalıdır?

Bəzən sual olunur ki, Qədr gecəsi mübarək gecədirsə, biz bu gecəni necə keçirməliyik? Qədr gecəsi

matəm gecəsidir, yoxsa şadlıq gecəsi? Biz bu gecəni şadlıq etməliyik, yoxsa matəm saxlamalıyıq?

Cavab belədir ki, Qədr gecəsi nə matəm gecəsidir, nə də şadlıq. Qədr gecəsi ibadət gecəsidir. Quran bu suala açıq-aydın şəkildə cavab verir. Bu gecə Allahın kitabı olan müqəddəs Qurani-Kərimin nazil olduğu gecədir. Buna görə də Quranı qarşılamaq üçün möminlər ibadətlə məşğul olmalıdırlar. Allah-təala "İsra" surəsinin 107-109-cu ayələrində belə buyurur:

قُلْ آمِنُواْ بِهِ أَوْ لاَ تُؤْمِنُواْ إِنَّ الَّذِينَ أُوتُواْ الْعِلْمَ مِن قَبْلِهِ إِذَا يُتْلَى عَلَيْهِمْ يَخِرُّونَ لِلأَذْقَانِ سُجَّدًا ١٠٧ وَيَقُولُونَ سُبْحَانَ رَبِّنَا إِن كَانَ وَعْدُ رَبِّنَا لَمَفْعُولاً ١٠٨ وَيَخِرُّونَ لِلأَذْقَانِ يَبْكُونَ وَيَزِيدُهُمْ خُشُوعًا ١٠٩

[Ya Peyğəmbər!] de: "İstər (Qurana) inanın, istərsə də inanmayın. Şübhə yoxdur ki, ondan əvvəl elm verilmiş kimsələr yanlarında (Quran) oxunduğu zaman üzü (çənəsi) üstə səcdəyə qapanar. Və deyərlər: "Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin (möminlərə mükafat, kafirlərə əzab veriləcəyi barəsindəki) əmri mütləq yerinə yetəcəkdir!" –deyərlər. Onlar üzü üstə səcdəyə qapanıb ağlayar, (Qurandakı öyüd-nəsihət isə) onların (Allaha) itaətini daha da artırar."[1]

Bu ayələr insanı başa salır ki, elm və mərifəti olan insanlar Quranı göz yaşı ilə səcdə halında qarşılayarlar. Mərifəti olmayan insan heç vaxt başa düşməz ki, Allahın kitabı və ayələri nədir. Allahın ayələrini və əzəmətini başa

---

[1] İsra- 105-109

düşməyənlər bu dünyada başqa canlılar kimi yalnız öz qarınlarını və əyin-başlarını təmin etməklə məşğuldurlar. Heyvanların Allahın ayələrindən xəbəri olmadığı kimi, insanların içində də elələri vardır ki, bu şeylərdən xəbərləri yoxdur. Belə insanlar bu dünyada ömürlərini yalnız yemək içməklə keçirir. Buna görə də qeyd olunan ayələrdə Allah-təala buyurur ki, yalnız mərifətli, düşüncəli və dərrakəli insanlar ayələr nazil olduqda səcdəyə düşüb göz yaşı axıdarlar. Həzrət Əlinin(ə) həyatına nəzər saldıqda görürük ki, Həzrət(ə) səhərə qədər Allaha ibadət edib, Onun əzəməti qarşısında göz yaşı axıdardı. Onun Allaha dərin mərifəti olduğundan bilirdi ki, kimin qarşısında dayanıb. Həzrət(ə) Allahla minacat edərkən belə deyərdi: "İlahi, mən Sənə cənnətə getməyə və ya cəhənnəm qorxusuna görə ibadət etmirəm. Mən Səni ibadətə layiq bildiyim üçün ibadət edirəm. Mən Sənə ibadət etməklə yaxın olacağam. Hər kim Sənə yaxın olsa, qiyməti artacaq. Hər kim Səndən uzaqlaşsa, qiyməti azalacaq. Kim sənə nə qədər yaxındırsa, onun qiyməti də bir o qədər çoxdur. Kim səndən hər nə qədər uzaqlaşırsa, qiyməti də bir o qədər azalacaq".

Həzrət Əlinin(ə) bu kəlamı bizə bəyan edir ki, insan yalnız Allaha ibadət etməklə ona yaxınlaşıb qiymətini ala bilər. Digər bir hədisdə buyurulur ki, (ey insan) sənin qiymətin ən azı cənnətdir. Hər kəs özünü cənnətdən ucuz qiymətə satsa ziyan etmişdir.

Əlbəttə, cənnətin də mərtəbə və təbəqələri vardır. Bəzi insanlar vardır ki, peyğəmbərlərin olduğu təbəqəyə, bəziləri isə aşağı təbəqələrə daxildirlər. Hər halda insanın qiyməti ən azı cənnətdir.

Qədr gecəsi Quranın nazil olduğu mübarək bir gecədir. Möminlər bu gecəni səhərə qədər oyaq qalıb

müqəddəs məkanlara (məscidlərə) toplaşaraq Allaha ibadət edər, göz yaşı tökərək səcdəyə gedər, namaz qılar, tövbə və dua edərək günahlarının bağışlanmasını diləyərlər. Qədr gecəsinin əməllərindən biri Quranı başın üzərinə qoyub dua etməkdir. Bu əməlin mənası odur ki, İlahi, Sən mənə hörmət edib Quran nazil edirsən. Mən də Sənin bu müqəddəs kitabını qəbul edib başım üzərində saxlayıram. Onun hər bir ayəsinə və kəlməsinə hörmət və əməl edəcəyəm. Allah-təala bu gecə bütün rəhmət qapılarını bəndələrin üzünə açır. Gərək insan bundan istifadə edib tövbə etməklə günahlarını bağışlatdırsın. Tövbənin mənası odur ki, insan Allahla münacat edərkən belə desin: “İlahi, indi ki, Öz rəhmət qapılarını mənim üzümə açmısan, mən də Sənə sarı üz gətirirəm. Sənin qapına gəlməklə istəyirəm ki, məni bağışlayasan. Bu günə qədər qəflət üzündən Sənə tərəf gəlmədiyimə görə indi peşmanam. Bundan sonra Sənə səcdə etmək istəyirəm. Bu günə qədər Səndən uzaq düşmüşdüm. Lakin bu gecə başa düşdüm ki, hara qaçsam, yenə də Sənə sarı qayıdacağam. Əgər öz xoşumla qayıtmasam, axırda məni məcburi olaraq kəfənləyib Sənin məhzərinə gətirəcəklər. Buna görə də elə bu andan öz xoşumla Sənin məhzərinə gəlmişəm. Mənim üzümü torpağa qoymamışdan öncə öz xoşumla üzümü Sənin qarşında torpağa qoyub deyirəm: Əstəğfirullahə Rəbbi və ətubu ileyh. (İlahi, tövbə edib Səndən günahlarımın bağışlanmasını diləyirəm).

Qədr gecəsi ibadət gecəsidir. Bu gecənin hər saniyəsində edilən ibadətin savab və fəziləti min ayın savabından daha çoxdur.

## İbadət

Allah-təala insanları Ona ibadət etmək üçün xəlq edib. İslam dinində ibadət ən əsas və mühüm yer tutur və insanlara da bu əməl təkid olunur. Allah-təala "Bəqərə" surəsinin 21-ci ayəsində buyurur:

يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

- Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaradan Rəbbinizə ibadət edin, bəlkə (bununla) təqvalı olasınız.

Allah-təala bu mübarək ayədə bütün insanlara xitab edir. Dinindən, milliyyətindən, dilindən və rəngindən asılı olmayaraq nə qədər insan varsa, hamısını ibadətə çağırır. İnsanlar üçün Allah tərəfindən göndərilən bütün peyğəmbərlərin hamısı öz ümmətlərini Allaha ibadət etməyə dəvət ediblər. Quranda bu barədə olan ayələrdən bir neçəsini nümunə üçün nəzərinizə çatdırıram. "Nəhl" surəsinin 36-cı ayəsində belə buyurur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

- Əlbəttə, Biz hər bir ümmətin içərisindən bir peyğəmbər seçdik ki: «Allaha ibadət edin və (şeytan və insan) tağut(ların)dan uzaq olun.»

Digər bir ayədə belə buyurur:

قَالَ الْمَسِيحُ يَا بَنِي إِسْرَائِيلَ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ إِنَّهُ مَن يُشْرِكْ بِاللّهِ فَقَدْ حَرَّمَ اللّهُ عَلَيهِ الْجَنَّةَ وَمَأْوَاهُ النَّارُ

- Məsih dedi: «Ey İsrail övladları, (həm) mənim Rəbbim və (həm də) sizin Rəbbiniz olan Allaha ibadət

edin. Şübhəsiz, Allah Ona şərik qoşana cənnəti haram edər və onun qalacağı yer oddur.[1]

Başqa bir ayədə Nuh Peyğəmbərin(ə) barəsində belə bəyan edir:

لَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَقَالَ يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ

- Həqiqətən, Biz Nuhu öz qövmünə tərəf göndərdik. O dedi: «Ey mənim qövmüm, Allaha ibadət edin ki, sizin üçün Ondan başqa bir məbud yoxdur. Şübhəsiz, mən sizin üçün böyük günün əzabından qorxuram».[1]

Ümumiyyətlə, bütün peyğəmbərlər öz ümmətlərini ibadətə dəvət etmişlər. Həmçinin İslam Peyğəmbəri(s) də öz ümmətinə bu işi görməyi təkidlə tapşırmışdı. “Hud” surəsinin ilk ayələrində Quran barədə bir neçə kəlmə danışdıqdan sonra belə buyurur:

أَلاَّ تَعْبُدُواْ إِلاَّ اللّهَ إِنَّنِي لَكُم مِّنْهُ نَذِيرٌ وَبَشِيرٌ

- (Mənim dəvətim bundan ibarətdir) ki: «Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizin üçün bir qorxudan və müjdə verənəm.»

Bu kimi ayələr Quranda çoxdur. Allah-təala bütün peyğəmbərlərin hamısını ona görə göndərmişdir ki, onlar gəlib insanları yalnız Allaha ibadət etməyə dəvət etsinlər.

## İbadətin mənası

İslamın insanlardan tələb etdiyi ibadətin mənası nədir? Allahın və peyğəmbərlərin insanlardan istədiyi

---

[1] Maidə.72.
[1] Əraf.59.

ibadət nədir? Bu sualların cavabını əziz möminlərin nəzərinə çatdırıram. İbadətin üç növ mənası vardır.

### 1. İbadətin lüğəvi mənası

Lüğətdə ibadətin mənası "bəndəçilik" deməkdir. Yəni insanın Allah qarşısında təslim olmasına ibadət deyilir. Quranda buna dair ayələr də mövcuddur. Məsələn, “Fatir” surəsinin 15-ci ayəsində buyurur:

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

- Ey insanlar, sizin hamınız Allaha möhtacsınız. Allah isə (heç kəsə) möhtac deyil. (Onun) sifətləri və işləri öyülmüşdür (O, bəşərin xaliqi, qoruyucusu və ruzi verənidir, beləliklə, məxluqlar tamamilə möhtac, O isə əsla möhtac deyil).

Bütün xilqət, dənizlər, dağlar, göylər, yer, heyvanlar, bitkilər, axirət və hər bir şeyin ixtiyarı Allahın əlindədir. İnsan möhtac bir məxluqdur. Əgər Allah istəsə, bir anın içində insanın nəfəsini kəsər. İnsan elə başa düşür ki, nəsə böyük bir qüvvədir və hər nə istəsə edə bilər. Allah üçün fərq etmir ki, insan vəzifədə olmuş olsun, pullu olmuş olsun və ya kasıb olmuş olsun. İstədiyi vaxt insanın nəfəsini əlindən alar. İnsanın nəfəsini aldıqdan sonra, elə bil həmin insan yox imiş. İnsanın etdiyi hay-küy elə bir anda kəsilər ki, baxanlar deyər: elə bil heç belə bir insan həyatda olmayıb. Görəsən, bu hay-küy salan, mənəm-mənəm deyən insan necə oldu? Onun axırı torpaqdır. Varlıq aləminin hamısı Allahın ixtiyarındadır. İnsanlar isə Allahın möhtac və çarəsiz bəndələridir. Buna görə də insan əgər Allaha səcdə edərsə, Allah ona qiymət, izzət və əzəmət bəxş edəcək. Yox, əgər səcdə etməyib, Ona ibadət etməsə, Allah həmin şəxsə qiymət verməyəcək. Dünyaya milyardlarla insan gəlib getmişdir. Əgər insan Allahını tanımayıb gedərsə, o da həmin gəlib gedənlərin cərgəsindədir. Milçək qədər də olsan qiyməti olmayacaq.

Deməli, insanın qiyməti məhz Allahın qarşısında səcdə etməsindən asılıdır.

### 2. İbadətin ümumi mənası

İbadətin ümumi mənası budur ki, insan Allaha görə hər hansı əməli edərsə, bu əmələ ibadət deyilir. Yəni hər hansı müsbət və xeyirxah bir əməli Allaha yaxınlaşmaq məqsədi ilə yerinə yetirərsə, bu əmələ ibadət deyilir. Belə əməllərdən bir neçəsini nəzərinizə çatdırıram.

Möminlərin haqqını əda etmək, bir-birinin haqqına riayət etmək ibadətdir. Məsələn, bir ağsaqqal kişi məclisə daxil olarkən, Allaha xatir durub ona yer vermək ibadətdir. İnsan həmin ağsaqqala yer verərkən ürəyindən keçirir ki, İlahi, bu yaşlı kişi məclisə daxil oldu. Mən də Sənə xatir ayağa qalxıb öz yerimi ona verəcəyəm. Əgər yerini vermək mümkün deyilsə, sadəcə Allaha xatir ona hörmət etmək məqsədilə ayağa qalxıb yenidən əyləşmək də ibadətdir. Amma əgər qoca bir kişi məclisə daxil olursa, bir şəxs öz-özünə deyir ki, mən çox oturduğuma görə belim ağrıyır. Yaxşı olar ki, mən öz yerimi ona verim. Həm özüm istirahət etmiş olaram, həm də həmin qoca kişi elə başa düşər ki, mən ona ehtiram göstərirəm. Belə bir əməl ibadət sayılmır. Bu əmələ görə Allah heç kəsə savab vermir. Çünki həmin şəxs öz istəklərinə görə bu işi görmüşdür. Kənardan baxanlar elə başa düşürlər ki, həmin şəxs qocaya ehtiram etdi. Amma bu işdə heç bir savab və ibadət yoxdur. Belə bir işin insan üçün nə axirət xeyri olar, nə də dünya xeyri. Çünki hədislərdə var ki, hər kəs bu dünyada Allahdan başqa niyyətlə bir iş görərsə, əvvəl axır həmin işin üstü açılacaq və hamı onun niyyətindən xəbərdar olacaq. Buna görə də kiçik bir

əməldə “qürbətən iləllah” niyyəti olarsa, bu əməlin həm dünyada insana xeyri olar, həm də axirətdə.

Başqa bir nümunəni nəzərinizə çatdırıram. Küçədə yol gedərkən insan naməhrəmlə qarşılaşdıqda əgər Allaha xatir naməhrəmə baxmayıb keçərsə, ibadət etmiş olar. Hədislərdə deyilir ki, insan naməhrəmlə qarşılaşdığı zaman Allaha xatir yerə baxıb gözünü naməhrəmdən yumarsa, göyün mələkləri həmin şəxsə rəhmət oxuyar. Əgər yerə baxıb ötərsə, yerin mələkləri onun üçün rəhmət oxuyar.

Vacib olan əməlləri yerinə yetirərsə, ibadət sayılır. Halal ruzi qazanmaq üçün evindən çıxıb hərəkət edən şəxs ibadət etmiş olar. Bu şəxsin hər bir addımı halal çörək qazanıb gələnə qədər ona ibadət yazılar. Əgər halal ruzi qazanmaq üçün alver edirsə, bu əməl onun üçün ibadət sayılır. Hədislərdə yazılır ki, Həzrət İsa(ə) bir neçə nəfərlə səfərə çıxır. Səfərdə namaz vaxtı hamı İsa Pyeğəmbərlə(ə) camaat namazı qılır. Namazdan sonra ac olduqlarını hiss edirlər. Həzrət İsa(ə) Allaha dua edir və cənnətdən onlar üçün yemək gəlir. İsa Peyğəmbərin(ə) yoldaşlarından ikisi arasında mübahisə düşür. Biri belə deyir: Yer üzündə bizdən şərafətli insan yoxdur. Çünki biz Allahın Peyğəmbəri(ə) ilə bir səfərə çıxmışıq, onunla camaat namazı qılırıq və həm də Allah bizim üçün cənnətdən yemək göndərib. O biri isə belə deyir: Xeyr, belə demə. Ola bilər elə insanlar olmuş olsunlar ki, onlar bizdən daha da şərafətlidirlər. Beləcə mübahisələri düşür. Axırda deyirlər: Gəl gedək Allahın Peyğəmbərindən(ə) soruşaq. Qoy o bizə desin ki, hansımız düz deyirik. Gəlib öz mübahisələri haqda İsa Peyğəmbərə(ə) danışırlar. Həzrət İsa(ə) buyurur: Hər kəs səhər yuxudan durub namazını qılır, halal çörək yeyir və halal ruzi qazanmaq üçün

evindən çıxıb hərəkət edirsə, belə bir şəxsin şərafəti sizdən çoxdur. Bir şərtlə ki, halal ruzi qazanmış olsun.

Hədislərdə deyilir ki, Həzrət İsa(ə) bir kişidən soruşdu: Nə işlə məşğul olursan? Həmin şəxs cavab verdi: Yalnız ibadət etməklə məşğul oluram. Həzrət(ə) soruşdu: Bəs sənin dolanışığını kim təmin edir? Dedi: Qardaşım qazanıb gətirir və qazandığından mənə də verir. Həzrət(ə) buyurdu: Onun ibadətinin savabı sənin ibadətinin savabından çoxdur.

Hədislərdə nəql olunur ki, valideynin üzünə məhəbbətlə baxmaq ibadətdir.

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur: "Ədalətli bir hakimin üzünə baxmaq ibadətdir".

Allaha xatir elm və təhsil almaq ibadətdir. Əgər bir insan Allaha xatir, öz vətəninə, camaata xeyir vermək məqsədilə məktəbə gedirsə, sonra institute, daha sonra universitetə gedib təhsil alaraq müəllim, mühəndis və s. olub xidmət göstərirsə ibadətdir. Əgər bir universitet tələbəsi Qədr gecəsi öz kitabını qarşısına qoyub mütaliə edirsə, ona ibadət yazılır. Bir şərtlə ki, niyyəti Allaha xatir olmalıdır. Niyyəti belə olsa ki, "qurbətən iləllah" oxuyub alim olacaq və millətimə, müsəlmanlara xeyir verəcəyəm. Belə bir əməl ibadət sayılır.

Məscidə getmək insan üçün ibadət sayılır. Hədislərdə qeyd olunub ki, evindən çıxıb məscidə gedən insan ibadət etmişdir. Hər bir qədəminə ibadət savabı yazılır. Ümumiyyətlə, insan hər hansı bir əməli Allaha xatir yerinə yetirirsə, deməli, ibadət etmiş olur.

### 3. İbadətin şəriətdə mənası

İbadətin üçüncü mənası şəriət baxımından mənasından ibarətdir. Şəriətdə ibadətin mənası budur ki,

insan Allahın buyurduqlarının qarşısında baş əyib təslim olsun. Allahın buyurduqlarına Onun istədiyi kimi əməl etsin. Əgər bir insan Allahın buyurduqlarını və əmrlərini olduğu kimi yerinə yetirərsə, ibadət etmişdir. Belə olmamalıdır ki, hər kəs öz istədiyi kimi Allaha ibadət etsin. Şəriətdə Allaha ibadət etmək yalnız Onun istədiyi və Peyğəmbərin(ə) buyurduğu kimi əməl olunmalıdır. Hər bir şey qayda-qanuna əsasən və hər bir əməl öz vaxtında yerinə yetirilməlidir. Bütün səmavi dinlərin özünəməxsus ibadətləri olmuşdur. Bütün peyğəmbərlərin ümmətlərinə özünəməxsus şəkildə ibadətlər təyin olunmuşdur. Həmçinin Allah İslam Peyğəmbərinə(s) də özünəməxsus ibadətlər vermişdir və hər bir müsəlman bu şəriətin qayda-qanununa dəqiqliklə riayət etməlidir. Məsələn, həmin əməllərdən biri namazdır. Namaz İslamda ibadətlərdən biridir. Gərək bu əmələ Peyğəmbər(s) buyurduğu kimi əməl olunsun. Belə olmamalıdır ki, insan namazı özü istədiyi kimi qılsın. Axtarıb araşdırmalı və Peyğəmbərin(s) buyurduğu kimi yerinə yetirilməlidir. Belə olduqda bu əmələ ibadət deyilir. Həm vacib namazlar, həm də müstəhəb namazlar insan üçün ibadətdir. Məsələn, gündəlik vacib namazlar, Qurban və Fitr bayramının namazları, gecə namazı və s. namazların hamısı ibadət sayılır. Oruc tutmaq İslamda insanlar üçün ibadətdir. Vacib oruclar da, müstəhəb oruclar da ibadət sayılır. Hər kəs oruc tutursa, deməli, Allaha ibadət edir. Həcc ziyarətinə getmək, qurban kəsmək, Minada və Ərəfatda qalmaq, bir sözlə desək, Həccin bütün əməlləri insan üçün ibadətdir. Bütün bunlar Allahın insanlar üçün nazil etdiyi ibadətlərdir.

## İbadətin qəbul olmasının əsas şərti

Yuxarıda ibadət barədə müxtəsər də olsa söhbət açdıq və onun mənaları ilə tanış olduq. Lakin ibadətin qəbul olunmasının mühüm bir şərti vardır. Bu o deməkdir ki, əgər ibadətlərdə bu şərt olarsa, Allah həmin ibadəti qəbul edəcək. Əgər bu şərtə riayət olunmasa, Allah heç bir ibadəti qəbul etməyəcək. İbadətin qəbul olunmasının bir neçə şərti vardır. Ən əsas şərti budur ki, ibadət yalnız və yalnız Allaha görə olmalıdır. Əgər ibadətdə niyyətə Allahdan başqa bir şey qarışarsa, həmin ibadət batildir. Allah-təala yalnız Ona görə edilən ibadəti qəbul edir.

قَالَ الصّادِقُ(ع): كُلُّ رِيَاءٍ شِرك اِنَّهُ مَنْ عَمِلَ لِلنّاس كانَ ثَوابُهُ عَلى النّاس

وَ مَنْ عَمِلَ لِلّه كانَ ثَوابُهُ عَلى الله

İmam Sadiq(ə) buyurur: “Bütün riyalar şirkdir (Hər hansı bir əməldə riya olsa şirkdir.) Əgər bir əməl camaata görə edilirsə, savabını da camaatdan alsın. Hər bir əməl Allaha görə görülürsə, savabın da Allah verəcək”.

قَالَ اللهُ عَزَّوَجَلَّ: أَنَا خيرُ شَرِيكٍ مَن أَشْرَكَ مَعِى غَيْرِى فِى عَمَلٍ عَمِله لَمْ أَقْبَل اِلاّ مَا كَانَ لِى خَالِصاً

İmam Sadiqdən(ə) belə nəql olunur: “Allah-təala buyurur: Ən gözəl və yaxşı şərik Mənəm. Hər kəs ibadətdə Mənimlə başqasını şərik edərsə, Mən öz payımı həmin şəxsə (şərikimə) verərəm. Yalnız xalis niyyətlə Mənə görə edilən ibadəti qəbul edirəm”.

İbadətdə ixlas ən mühüm yerdə dayanır. İxlassız ibadəti Allah qəbul etmir. Hər kəs yalnız xalis niyyətlə, sırf Allaha görə ibadət etsə, nicat tapacaq. Öz işlərində

başqasını Allahla şərik edən şəxslər nəticəsiz və bəhrəsiz qalacaq. Sırf Allaha xatir xalis niyyətlə görülən işləri Allah-təala qiyamətə qədər qiymətləndirər və axirətdə də həmin şəxslərə savab inayət edər. Tarix boyu belə insanlar çox olub. Allah-təala onların adlarını yaşadır. İstər Quranda olmuş olsun, istərsə də insanların dillərinin əzbərində belə insanların adları həmişə yaşayacaq. Hər bir insan öz xidmətində xalis niyyətli olubsa, özü dünyadan getmiş olsa da belə, onun xidməti yüz illərlə, min illərlə davam etmişdir. Çox insanlar da var ki, çox işlər görmüşlər. Lakin niyyətlərinin düz olmaması ucbatından ölən kimi gördükləri işlər də onlarla bərabər yaddaşlardan silinib. Bu barədə bir neçə nümunəni nəzərinizə çatdırıram.

Məşhəd şəhərində İmam Rzanın(ə) hərəminin yanında bir məscid var. Bu məscidin divarı İmam Rzanın(ə) hərəminə yapışıqdır. Gövhərşad adlanan məscidi Gövhərşad adlı bir xanım tikdirib. O, Şahrux Mirzənin həyat yoldaşı idi. Şahrux Mirzə dünyasını dəyişəndən sonra Gövhərşad bu məscidi tikdirmişdi. Onun yaşı bir o qədər də çox deyildi. Amma çox imkanlı bir qadın idi. Beləcə məscid tikilməyə başlandı. Ustalar, fəhlələr hər gün gəlib məscidin tikintisi ilə məşğul idilər. Gövhərşad ara-sıra gəlib işlərin gedişatı ilə maraqlanırdı. Bir gün də məsciddəki işlərlə maraqlanmaq üçün gəlmişdi. Orada işləyənlərdən birinin gözü Gövhərşada düşdü. Bir könüldən min könülə ona aşiq oldu. Bu eşqin nəticəsində xəstələnib yorğan-döşəyə düşdü. Qohum-əqrəba yığışıb onun yanına gəldilər. Dərdini soruşduqda belə dedi: Mən Gövhərşada aşiq olmuşam. Qohumlar dedilər: Sən hara, Gövhərşad hara? Onu sənə verməzlər. Sən onun tayı deyilsən. Oğlan dedi: Onunla mütləq evlənəcəyəm.

Mənim dərdim yalnız ondadır. Ya onunla evlənib sağalacağam, ya da bu xəstəlikdən öləcəyəm. Anası oğlunun bu acınacaqlı halına dözməyib Gövhərşadın yanına gedir. Görüşüb ürək sözlərini ona danışaraq deyir: Mən sizi tanıyıram, amma siz məni tanımırsınız. Siz Gövhərşadsınız və tanınmış bir insansınız. Mənim oğlum sizə aşiq olub. Sizin dərdinizdən yorğan-döşəyə düşüb. Bu sözləri sizə deməyə üzüm gəlmirdi. Lakin oğlumun gözlərimin önündə əriyib əldən getməsini istəmədiyim üçün qapınıza gəlmişəm. Gövhərşad əvvəlcə qadının sözlərini ciddi qəbul etmir. Oğlanın anası deyir: Oğlum əlimdən gedir və çarəsi yalnız sizdən asılıdır. Gövhərşad məsələnin bu dərəcədə dərin və ciddi olduğunu görüb deyir: Mən razıyam, amma bir şərtim var. Oğluna de ki, qırx gün gedib məsciddə ixlasla Allaha ibadət etsin. Yalnız Allaha xatir namaz qılıb zikr etməlidir. Qırx gündən sonra mən onunla evlənməyə razılıq verərəm. Anası sevinə-sevinə gəlib bu şad xəbəri oğluna söyləyir və Gövhərşadın şərtini ona çatdırır. Oğlan bu şərti canla-başla qəbul edir. Məscidə gedib ibadətə başlayır. Günlər keçdikcə onda ibadətə qarşı şövq yaranır. Yavaş- yavaş Allaha bağlanır. Beləcə qırx gün tamam olur. Gövhərşad vəziyyəti öyrənmək üçün bir nəfərlə ona xəbər göndərir. Həmin şəxs gəlib oğlana deyir: Məni Gövhərşad xanım göndərib. Söyələyir ki, qırx gün tamam olub. Indi sən öz fikrini bildir, mən də öz fikrimi bildirim. Oğlan deyir: Gedin, ona deyin ki, indi mən ona görə həqiqi məşuqəmdən əl çəkmərəm. Hər bir şey artıq həll oldu. Mən artıq öz itirdiyimi tapmışam.

İxlasın xüsusiyyətlərindən biri budur ki, hər bir ibadət ixlasla yerinə yetirilərsə, həmin əməl və həmin ixlas insana nicat verər. Dünyaya çox insan gəlib gedib.

Lakin ixlassız əməllərinə görə heç bir nəticəyə nail ola bilməyiblər.

Həzrət Musa Peyğəmbəri(ə) kiçik bir əməlinə görə Allah-təala Quranda bütün aləmə nümunə göstərir. Çünki bu əməl kiçik bir əməl olsa da belə sırf ixlasla görülmüşdü. Minlərlə insan dünyaya gəlib gedib və yaxşılıqlar edib. Amma onlardan az da olsa belə nişanə qalmamışdır. Çünki onların bu yaxşılıqlarının niyyəti Allaha görə olmamışdır. Eləəri var ki, bir insana yaxşılıq etdikdən sonra bu əməlini hamıya söyləyir. Məsələn, bir insanın çətinliyini həll edir. Dost-tanış arasında etdiyi yaxşılıqlar barədə danışır. Əgər, hansı bir əməl Allaha xatir olmasa, Allah-təala belə əməli qəbul etmir. Musa Peyğəmbər(ə) bu kiçik əməli yalnız və yalnız Allaha xatir etdiyinə görə Allah-təala həmin hekayəni Quranda insanlara üçün nəql edir.

Musa Peyğəmbər(ə) Misirdən çıxıb Mədyən şəhərinə yollandı. Günlərlə yol getdikdən sonra, nəhayət, Mədyənə yetişdi. Şəhərin girəcəyində bir bulaq var idi. Camaat öz qoyunlarını suvarmaq üçün o bulağa gəlirdi. Bəziləri də su aparmaq üçün özləri ilə qab gətirmişdilər. Orada iki qız dayanmışdı. Onlar da öz qoyunlarını suvarmaq üçün ora gəlmişdilər. Lakin bulaq başında çox adam olduğundan qızlar qoyunlarını suvara bilmirdilər. Musa Peyğəmbər(ə) gəlib qızlara qoyunları suvarmaqda kömək etdi. Qızlar ona təşəkkürlərini bildirib ayrıldılar.

Musa Peyğəmbər(ə) günlərlə yol gəldiyindən bərk acmışdı. Neçə gün idi ki, yemək yemirdi. Aclıq onu əldən salmışdı. Elə bu haldaca əllərini Allah dərgahına açıb dedi:

فَقَالَ رَبِّ إِنِّي لِمَا أَنزَلْتَ إِلَيَّ مِنْ خَيْرٍ فَقِيرٌ

«Ey Rəbbim, həqiqətən, mən Sənin mənə nazil edəcəyin hər hansı bir xeyrə (yeməyə) möhtacam».

O qızlar Şüeyb Peyğəmbərin(ə) qızları idi. Lakin Musa Peyğəmbər(ə) onun qızlarını tanımırdı. Onlar yolda başlarına gələn əhvalatı evdə öz atalarına danışdılar. Şüeyb Peyğəmbər(ə) qızlara dedi: "Gedin, onu bizə qonaq çağırın." Qızlar gəlib Musaya(ə) dedilər ki, atamız səni evə dəvət edir. Musa(ə) Şüeyb Peyğəmbərin(ə) evinə daxil olanda gördü ki, süfrə açıblar. Ona görə də süfrə kənarında əyləşmədi. Şüeyb Peyğəmbər(ə) dedi: "Nəyə görə süfrəyə əyləşmirsən?" Musa Peyğəmbər(ə) orada qiymətli bir söz dedi:

اِنّا مِنْ اَهْلِ بَيْتٍ لا نَبِيعُ شَيْأً مِن عَمَلِ الآخِرَةِ بِمِلاءِ الأَرْضِ ذَهَباً

"Biz elə bir ailədənik ki, axirətə görə etdiyimiz bir əməli heç bir şeyə, hətta Yer kürəsini qızılla doldursalar belə, onunla dəyişmərik."

Etdiyim yaxşılığa görə mənə muzd vermək istəyirsiniz? Mən axirətə görə etdiyim işlər üçün muzd almıram. Şüeyb Peyğəmbər(ə) dedi: "Biz də elə bir ailədənik ki, həmişə qonağa hörmət edərik. Mən bu qonaqlığı sənin etdiyin yaxşılığa görə vermirəm. Mən də bu süfrəni Allaha xatir sənin üçün açmışam."

Musanın(ə) kiçik bir xeyirxah əməli ixlasla olduğuna görə Allah-təala bu hadisəni Quranda bütün insanlara nümunə göstərir. Hər bir insan hansısa xeyir bir işi xalis niyyətlə, yalnız Allaha xatir edərsə, bu əməl həmişə yaşayacaq və Allah həmin şəxsə savab inayət edəcək.

## Həzrət Əli(ə) ixlasın bariz nümunəsidir

Allah-təala Quranda xeyir və bərəkətindən söhbət açdığı Qədr gecəsini Həzrət Əlinin(ə) vilayəti ilə bir-birinə bağlayır. Həzrət Əli(ə) Allahın ən müxlis bəndələrindəndir. Onun Allaha necə ixlasla ibadət etməsi hamıya məlumdur. Nümunə üçün tarixin bir hadisəsini nəzərinizə yetirirəm:

Əhzab (Xəndək) müharibəsi İslamın ən ağır və çətin müharibələrindən biri idi. Mədinə şəhərində üç min nəfər müsəlman var idi. Lakin müşriklərin hamısı və bütün müxalif qüvvələr müsəlmanların əleyhinə əlbir olmuşdular. Onların sayı on min nəfər idi. Onlara Əbu Sufyan başçılıq edirdi. Qərara almışdılar ki, bütün güclərini toplayıb, İslamın kökünü birdəfəlik kəssinlər. Müşriklər müsəlmanlarla vuruşmaq üçün hazırlaşıb Mədinəyə yola düşdülər. Peyğəmbərə(s) xəbər çatdı ki, müşriklər Mədinəyə tərəf hərəkət ediblər. Həzrət Peyğəmbər(s) şəhərin ətrafında xəndək qazmaq barədə göstəriş verdi. Həzrət Peyğəmbər(s) başda olmaqla hamı əl-ələ verib Mədinənin ətrafında eni və dərinliyi 2-3 metr olan xəndək qazdılar və içərisini odunla doldurub yandırdılar. Çünki Peyğəmbər(s) bilirdi ki, müşriklər Mədinəyə girsələr, İslamdan əsər-əlamət belə qalmayacaq.

Əbu Sufyan da bilirdi ki, müsəlmanlarla bu döyüş ən güclü döyüş olacaq. Burada gərək bütün güc-qüvvəsindən istifadə edib İslamı məğlub etsin. Ona görə də özü ilə ərəblərin ən güclü pəhləvanlarını gətirmişdi. Pəhləvanların içərisində hamıdan güclü, qüvvətli və adlı-sanlı bir pəhləvan var idi. Onun adı Əmr ibn Əbdəvid idi. O, çox tanınmış bir pəhləvan idi. Adı gələndə hamının bədəni lərzəyə düşürdü. Əmr ibn Əbdəvid Mədinə şəhərinin ətrafını dolanıb içəri keçmək üçün bir yol tapdı. Dörd-beş

pəhləvanla içəri keçib müsəlmanların qarşısında dayandı və döyüşçü istədi.

Həzrət Peyğəmbər(s) üzünü qoşuna tutub buyurdu: Aranızda bununla vuruşacaq kimsə varmı? Qoşundan səs çıxmadı. Əli(ə) ayağa qalxıb dedi: “Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram.” Həzrət Peyğəmbər(s) buyurdu: “Əli, sən əyləş!” Həzrət Peyğəmbər(s) bir də üzünü qoşuna tutub buyurdu: “Aranızda bununla vuruşacaq kimsə varmı?” Yenə də heç kəsdən səs çıxmadı. Əli(ə) ayağa qalxıb dedi: “Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram.” Peyğəmbər(s) buyurdu: “Əli, sən əyləş!” Həzrət Peyğəmbər(s) üçüncü dəfə üzünü qoşuna tutub buyurdu: “Aranızda bununla vuruşacaq kimsə varmı?” Yenə də heç kəs cavab vermədi. Əli(ə) üçüncü dəfə ayağa qalxıb dedi: “Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram.” Həzrət Peyğəmbər(s) öz əmmaməsini başından açıb Əlinin(ə) başına bağladı və belə dua etdi. “İlahi, Ühüd döyüşündə Həmzəni məndən aldın, amma bu döyüşdə Əlini(ə) məndən alma.”

Bu duadan sonra Əli(ə) atına minib Əmr ibn Əbdəvidlə üz-üzə dayandı. Həzrət Əli(ə) döyüşə gedərkən Peyğəmbər(s) buyurdu: “İmanın hamısı ilə şirkin hamısı üz-üzə dayanıb.”

Həqiqətən də Əmr ibn Əbdəvid şirkin hamısı, Əli(ə) də imanın hamısı idi. Həzrət Peyğəmbərin(s) bu sözünü bütün kitablarda qeyd etmişlər.

Əlinin(ə) üzü bağlı olduğundan Əmr ibn Əbdəvid onu tanımadı və ondan soruşdu: “Sən kimsən?” Əli(ə) buyurdu: “Mən Əliyəm.” Əmr ibn Əbdəvid dedi: “Sən Əbi Talibin oğlusan?” Əli(ə) buyurdu: “Bəli.” Əmr dedi: “Mən səninlə vuruşmaq istəmirəm. Çünki sənin atanı tanıyırdım.” Əli(ə) buyurdu: “Amma mən səni öldürmək

istəyirəm.” Əmr ibn Əbdəvid Əlinin(ə) bu sözündən bərk hirslənib qılıncı çəkdi. O, qılıncı qaldıranda Əlinin(ə) başına dəydi və Həzrətin(ə) başı yaralandı. Amma Əli(ə) cəld tərpənərək onu atdan yerə saldı və ayaqlarını kəsdi. Bütün hər yeri toz bürümüşdü. Döyüşənlər tozun içində görünmürdülər. Bütün müsəlmanlar həyəcan içində döyüşün nəticəsini gözləyirdilər. Lakin Əli(ə) Əmri yerə yıxdıqdan sonra döyüş uzun çəkdi. Bir az keçdikdən sonra tozun içində Əlinin(ə) “Allahu Əkbər” səsi eşidildi. Hamı bildi ki, Əli(ə) Əmr ibn Əbdəvidin başını kəsib. Əli(ə) Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, Əmri öldürdüm.”

Əmr ibn Əbdəvidin əynində çox qiymətli bir zireh var idi. Əmr ibn Əbdəvidin bacısı qardaşının öldüyünü eşidib onun cənazəsinin yanına gəldi və baxıb gördü ki, qardaşı doğrudan da ölüb. Lakin onun zirehini çıxarmayıblar. Dedi: “Qardaş, mən ölənə qədər sənə ağlayacaqdım. Lakin sən alicənab insanın əlində öldüyün üçün daha sənə ağlamaram.”

Əhzab müharibəsində Əlinin(ə) köməkliyi ilə müsəlmanlar qələbə çaldılar. Həzrət Peyğəmbər(s) Əli(ə) barədə buyurdu:

يَا عَلِيُّ لَوْ وُزِنَ الْيَوْمَ عَمَلُكَ بِعَمَلِ جَمِيْعِ أُمَّةِ مُحَمَّدٍ لَرَجَّحَ عَلَى عَمَلِهِمْ

“Ya Əli, sənin bu əməlin Məhəmmədin(s) bütün ümmətinin əməli ilə müqayisə edilərsə, hamısının əməlindən üstündür."

Əgər Əhzab müharibəsində Əlinin(ə) şücaət və qəhrəmanlığı olmasaydı, İslamdan əsər-əlamət belə qalmayacaqdı. Əgər Əlinin(ə) zərbəsi Əmr ibn Əbdəvidə

vurulmasaydı, İslam tamamilə məhv olacaqdı. İslamı bu günə qədər qoruyub saxlayan Əlinin(ə) vurduğu həmin qılınc zərbəsi, göstərdiyi igidlik və şücaət oldu. Həzrət Peyğəmbər(s) buyurdu: "Ya Əli, sənin Əmr ibn Əbdəvidə vurduğun bu zərbə bütün müşriklərə zillət və bütün müsəlmanlara izzət verdi." Sonra Həzrət Peyğəmbər(s) buyurdu:

لَضَرْبَةُ عَلِيٍ يَوْمَ الْخَنْدَقِ أَفْضَلُ مِنْ عِبَادَةِ الثَّقَلَيْنِ

"Əlinin(ə) Xəndək döyüşündə düşmənə vurduğu bir qılınc zərbəsi bütün cinlərin və insanların ibadətindən üstündür."

Əhzab müharibəsinin qısaca da olsa bu tarixini danışmaqda əsas məqsədim  odur ki, Əli(ə) Əmr ibn Əbdəvidi atdan yerə saldıqdan sonra gördülər ki, onun başını kəsməyi çox yubatdı.

O, işi bitirib qayıtdıqdan sonra Peyğəmbər(s) soruşdu: "Ya Əli, onu yerə yıxdıqdan sonra nəyə görə başını kəsməyi bu qədər yubatdın?" Əli(ə) buyurdu: "Ya Rəsulallah, mən Əmri atdan yerə saldıqdan sonra onun başını kəsmək istəyəndə əlacının hər yerdən kəsildiyini görüb məni söydü və üzümə tüpürdü." Mən onun bu hərəkətindən çox qəzəbləndim. Əgər o anda onun başını kəssəydim, öz qəzəbimə görə kəsəcəkdim. Ona görə də gözlədim ki, qəzəbim soyusun, sonra onun başını kəsim. Qəzəbim soyuyana qədər gözlədim. Sonra niyyət edib, onun başını "qürbətən iləllah" kəsdim."

Həzrətin(ə) bu əməli sırf Allaha xatir ixlasla etdiyi ibadətdir. Bu əməl həmişə qalacaq. Hər bir insanın əməli sırf Allaha xatir olarsa, həmin əməl həmişə yaşayacaq və insanlara öz faydasını verəcək.

Ramazan ayının 21-ci gecəsi Həzrət Əlini(ə) qılıncla vurdular. Bu gecə Həzrət Əli(ə) qızı Ümmi Gülsümün evində iftar edir. Bir neçə tikə duz-çörəklə iftarını açır. Səhərə qədər ibadət edib, Allahla raz-niyaz edirdi. Ümmi Gülsüm dedi: Ata, bu gecə səni çox qəribə bir halda görürəm. Sənin dilindən elə sözlər eşidirəm ki, bu sözlər məni qəmgin edir. Həzrət(ə) buyurdu: Qızım, bilirsənmi bu gecə hansı gecədir? Peyğəmbərin(s) mənə verdiyi vədə həmin bu gecədir. Həzrət Əli(ə) bu gecəni səhərə qədər ibadətlə məşğul olur və hərdən həyətə düşüb ulduzlara, aya baxaraq Allahla minacat edir. Sübh azanında məsciddə namaz qılmaq üçün evdən çıxır. Həyətdəki ördəklər oxuya-oxuya Həzrətin(ə) arxasınca yüyürürlər. Bir nəfər ördəkləri kənara çəkmək istəyərkən İmam(ə) buyurdu: Onlarla işiniz olmasın. Qoyun onlar öz novhələrini oxuyub əzadarlıq etsinlər. İmam Əli(ə) məscidə daxil oldu. Baxıb gördü ki, bir dəstə insan namaz qılmaq üçün hazırlaşır. Bir neçə nəfər də üzü üstə uzanıb yatıblar. Həzrət(ə) gəlib İbn Mülcəmin(l) başının üstündə dayanıb buyurdu: Qalx ayağa. Sənin bu gecə məscidə gəlməyinin səbəbini istəyirsənmi deyim? Həzrət(ə) sübh namazını qılmaq üçün mehrabda dayandı. Namaz başlandı. Həzrət Əli(ə) başını səcdədən qaldıranda İbn Mülcəm(l) qılıncını sıyırıb Həzrətin(ə) mübarək başına endirdi. Həzrət Əli(ə) buyurdu: And olsun Kəbənin Allahına, azad (rahat) oldum. Bu anda göydə Cəbrayıl fəryad çəkdi: Əlini vurdular! And olsun Allaha, dinin sütunları qırıldı.

Allah-təala bizi bu dünya və axirətdə Həzrət Əlidən(ə) ayrı salmasın. İnşallah.

## İslamın buyurduğu kimi ibadət etmək

Ötən bəhslərdə ibadətin mənaları və ən əsas şərtlərindən biri haqda söhbət etdik. Bu bəhsdə istərdim ki, həmin mövzunu davam etdirib, müəyyən bir nəticəyə gəlib çataq. Burada iki mətləbi nəzərinizə çatdırmaq istəyirəm. Birincisi, ibadət etmək istəyən hər bir şəxsə vacibdir ki, İslamın qayda-qanunlarını öyrənib, dinin buyurduğu kimi ibadət etsin. Yəni ibadət edərkən öz bildiyi kimi yox, İslamın buyurduğu kimi ibadət etməlidir. Əgər bir kəs hər hansı bir ibadəti öz istədiyi kimi edərsə, bu, ibadət sayılmaz. İbadət odur ki, Allah insandan necə istəyirsə, Peyğəmbər(s) necə buyurursa və Həzrət Əli(ə) necə göstəriş verirsə, o cür də yerinə yetirilsin. Nə üçün belə olmalıdır? Cavab budur ki, insanlar həmişə öz işlərində ya ifrata varırlar, ya da təfritə yol verirlər. Yəni insanlar bir məsələdə ya hədlərini sağa aşırlar, ya da sola. Bir məsələni ya həddindən çox şişirdirlər, ya da həddindən çox az yerinə yetirirlər. Bu iki yolun hər ikisi səhv və batil yoldur. Əsl həqiqət isə bundan ibarətdir ki, insanlar hər bir işi Allah-təalanın müəyyən etdiyi kimi yerinə yetirməlidirlər. Məsələn, namaz, oruc, xüms, zəkat, həcc və şəriətin bütün digər ayinləri vaxtlı-vaxtında və müvafiq normalar çərçivəsində icra olunmalıdır.

قَالَ عَلِيّ(ع): لا تَرَى الجاهِلَ اِلاّ مُفْرِطاً اَو مُفَرِّطاً

Bu barədə Həzrət Əli(ə) buyurur: “Cahil insanlar ya təfritə, ya da ifrata yol verirlər.”

Bu hədisdən aydın olur ki, hər hansı bir məsələdə ifrata və ya təfritə varmaq cahillik və nadanlıqdır. Buna görə də insan hər bir işdə davamlı olaraq orta səviyyəni tutub getməlidir. İnsana orta məxrəci tapıb, Allahın istədiyi kimi hərəkət etmək lazımdır.

## İbadət edən insanlar üç qismdir

Bu məsələni daha yaxşı aydınlaşdırmaq üçün ibadət edənləri aşağıda qeyd olunan üç qism üzrə xarakterizə etmək lazımdır:

1. İbadətdə ifrata varanlar. Bu insanlar o şəxslərdir ki, öz vaxtlarını yalnız ibadətlə keçirirlər. Bu insanlar bütün günü məsciddə və ya evdə yalnız ibadət etməklə məşğul olaraq, cəmiyyətdə baş verən məsələlərdən həmişə xəbərsiz qalmışlar. Onların düşüncələrinə əsasən yalnız Allaha ibadətlə məşğul olmaq lazımdır və heç kəsin məsələsinə qarışmaq gərək deyil. Bu kimi insanlar tarix boyu olub və bizim dövrümüzdə də beləları çoxdur. Nümunə üçün belə insanlardan birini nəzərinizə çatdırıram. Həzrət Əlinin(ə) zamanında  Rəbi ibn Hüseyn adlı bir şəxs yaşayırdı. Xacə Rəbi kimi tanınan bu şəxs gecə-gündüz Allaha ibadət etməklə məşğul idi. Cəmiyyətdəki heç bir məsələyə qarışmır, öz evində əyləşib namaz qılar və zikr edərdi. Hətta həyətində özü üçün bir qəbir də qazmışdı. Gecələr ora girər və öz-özünü danlayardı. Heç bir kəslə belə söhbət etməzdi. Onun barəsində yazırlar ki, Həzrət Əli(ə) şəhid olandan sonra, iyirmi il heç bir söz deməyib. Kərbəla hadisəsində ona xəbər gətirdilər ki, İmam Hüseyni(ə) şəhid etdilər. Xacə Rəbi orada belə dedi: Vay olsun bu qövmə ki, öz Peyğəmbərinin(s) oğlunu öldürdülər. Bu sözdən sonra dedi: Mən nə üçün bu dünyanın söhbətini etdim? Dünyadan söz açdığıma görə tövbə edirəm.

Müaviyə və Yezidin vaxtında yaşayan, Müaviyə ilə Yezidin İslamın başına olmayan oyunları açdığı və Peyğəmbərin(s) illərlə çəkdiyi zəhmətləri hədərə verdikləri bir zamanda evə girib ibadətlə məşğul olan və heç bir məsələyə qarışmayan  Xacə Rəbi ömründə bir dəfə

yaxşı söz demişdi. Amma nadanlıq və cahilliyi üzündən elə fikirləşdi ki, dediyi sözlər dünya söhbətidir. Buna görə də tövbə etdi. Xacə Rəbi və bu sayaq insanlar İslamda ifrata varmış və cahil olmuşlar. Xacə Rəbi son dərəcə ifrata varanlardan idi. Belə insanlar çoxdur. Bəziləri də var ki, həm yeyir, həm içir, həm də ibadətlə məşğul olduqlarına baxmayaraq ifrat dərəcəsindədirlər.

2. İbadətdə təfrit edənlər. Bir dəstə ibadət edənlər var ki, təfritə yol verirlər. Belə düşünürlər ki, əgər bir yerdə gedib namaz qılsam, bu namazımın heç bir kəsə xeyri olmayacaq? Belə deyil ki, insan namaz qılmaqla kiməsə xeyri olmalıdır. Namaz insanın özünə xeyirdir. Belə də düşünürlər ki, mən məscidə gedib namaz qılmaqla, zikr etməklə kimin qarnı doyacaq? Elə başa düşürlər ki, xüms verməkdənsə, körpü və ya məktəb tikdirmək daha yaxşıdır. Bu kimi insanlar deyirlər ki, Həcc ziyarətinə getməklə və orada pul xərcləyib ərəblərin qarnını doyuzdurmaqdansa, həmin pulu gətirib dost-tanışlarıma verməyim daha yaxşıdır. Elə başa düşürlər ki, dünyaya ancaq qarın doyurmağa görə gəliblər. Lazım deyil ki, hər hansı bir əməli yerinə yetirməklə kiminsə qarnı doysun. İbadət qarın doyurmaq demək deyil. Qarnı doyurmağın öz yeri var, ibadətin öz yeri. Bu insanlar ibadəti öz bildikləri kimi başa düşüb, əsas məsələləri kənara qoyur və başqa işlərlə məşğuldurlar. Elə güman edirlər ki, vacib əməlləri yerinə yetirməyib, başqa savab işləri görərkən Allah onlara savab verəcək.

Allah-təala Quranda ibadət edənlərin bu iki dəstəsini tənqid edərək buyurur:

أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ فَمَا جَزَاء مَن يَفْعَلُ ذَلِكَ مِنكُمْ إِلاَّ خِزْيٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَى أَشَدِّ الْعَذَابِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ

- Deməli, siz kitabın (hökmlərinin) bir hissəsinə iman gətirib, digər bir hissəsinə qarşı çıxırsınız?! Buna görə də belə iş görənlərin cəzası dünyada xar olmaq və zillətdən başqa bir şey deyildir. Qiyamət günü isə (onlar) ən şiddətli bir əzaba tərəf qaytarılacaqlar. Allah etdiklərinizdən xəbərsiz deyildir.

Bu ayə bizə bəyan edir ki, Allahın hökmlərinin və dini məsələlərin bəzisini yerinə yetirib, digərini yerinə yetirməmək insanın xar olmağına və zillətinə səbəb olar. Bu yolda ifrata və təfritə yol verilməməlidir. Birinci dəstə insanlar namaza, oruca və bu kimi əməllərə iman gətirir, lakin dinin başqa məsələlərinə riayət etmirlər. İkinci dəstə isə dinin başqa məsələlərini (yetimə əl tutmaq, körpü salmaq, ona-buna yardım etmək kimi əməlləri) özlərinə ibadət hesab edirlər, lakin əsas məsələlərə (namaz, oruc və s. əməllərə) etinasız yanaşırlar. Bu iki dəstənin hər ikisi səhv yoldadır. Əsas düzgün yol odur ki, insan namazını qılmaqla, orucunu tutmaqla, xüms, zəkat verməklə və dinin əsas hökmlərini yerinə yetirməklə yanaşı, digər müstəhəb əməlləri də imkan daxilində yerinə yetirsin. Doğrudur, körpü düzəltməyin də insana savabı var. Amma bu əməl insanın boynundan xümsü götürmür. Hər hansı xeyirxah əməlin insana savabı vardır. Lakin bu əməllər insanın boynunda olan vacibatı ödəmir. Hədislərdə var ki, yolun üstündə camaata və miniklərə mane olan bir daşı Allaha xatir götürüb  kənara atmağa görə Allah həmin

şəxsə Həcc savabı inayət edər. Əlbəttə ki, cəmiyyətə xidmət etməyin insana savabı vardır. Lakin bu kimi xeyirxah əməllər insanın boynundan oruc, namaz və s. vacib əməlləri götürmür. Yəni həmin əməllərin vacib əməllərə dəxli yoxdur. Kimsə səhərdən axşama qədər yollardan daşları təmizləməklə elə başa düşməsin ki, Allah daha bu insandan namaz və ya oruc istəməyəcək. Xeyirxah əməllərin öz yeri var, vacib əməllərin öz yeri.

## Hacı Zeynalabdın Tağıyevin hekayəti

Azərbaycanın görkəmli alimlərindən və yaşlı insanlardan eşitdiyim bu hekayəti sizlərə danışmaq istərdim. Hacı Zeynalabdın Tağıyev sovet hakimiyyətindən qabaq çox xeyirxah işlər görmüşdür. Onun etdiyi yaxşılıqların sayı-hesabı yoxdur. Onun çoxlu mal-dövləti olmaqla yanaşı, xeyirxah bir insan olduğu hamıya bəllidir. Hacının dövründə Şeyx Əli Turabi adlı ruhani bir insan yaşayırdı. Bir gün Şeyx Əli Zeynalabdının yanına gəlib deyir: Hacı, gəlmişəm ki, sənə bir neçə kəlmə nəsihət və moizə edim. Zeynalabdın deyir: Buyurun, sizi dinləmək mənim üçün xoşdur. Şeyx Əli deyir: Hacı, sən yol çəkirsən, körpü düzəldirsən, su çəkirsən, məktəblər tikdirirsən və bir çox xeyirxah işlər görürsən. Buna görə hamı sənə minnətdardır. Bütün bu işlərinin hamısı çox gözəl, müqəddəs və xeyirxah işlərdir. Lakin qiyamət günü səndən soruşanda ki, malının xümsünü vermisənmi? Əgər desən ki, körpü tikdirib, su çəkdirmişəm və ya başqa xeyirxah işlər görmüşəm, sənin bu üzrünü qəbul etməyəcəklər. İnsan ilk növbədə vacib əməlləri yerinə yetirməlidir. Ondan sonra müstəhəb işləri yerinə yetirməyin böyük savabı vardır. Hacı Zeynalabdın deyir: Bəs indi mən nə iş görməliyəm? Şeyx Əli deyir: Gərək

malının xümsünü verəsən. Hacı deyir: Mal-dövlətimdən çıxaracağım xümsün miqdarı nə qədər olmalıdır? Şeyx Əli deyir: Beşdə bir hissəsi. Hacı Zeynalabdın hesablayıb görür ki, həddindən artıq çoxdur. Buna görə də xüms verməkdən imtina edir. Şeyx Əli ona deyir: Hacı, bunu da bil ki, bu dünya karvanı həmişə belə qalmayacaq. Belə bir cah-cəlal həmişə insanın əlində qalmır. Bu gün belədirsə, başqa bir gün vəziyyət dəyişə bilər. Əgər bu gün camaat nahar və ya şam etmək üçün sənin evinə toplaşırsa, haradan bilirsən ki, nə vaxtsa sən özün də şam yeməyinə kiməsə möhtac qalmayacaqsan? Çalış, axirətini yadından çıxarmayasan. Şeyx Əli Turabi bu sözləri deyib gedir. Bu hadisənin üstündən çox çəkmir ki, Azərbaycanda sovet hakimiyyəti qurulur. Zeynalabdın Tağıyevin bütün mal-dövlətini əlindən alıb, özünü də zindana atırlar. Axşam olur, Hacı ac olduğunu hiss edir. Elə bu an Şeyx Əli Turabi ilə etdiyi söhbət yadına düşür. Öz-özünə deyir: Bir vaxt Şeyx Əli mənə demişdi ki, vaxt gələr, şam yeməyinə kiməsə möhtac qalarsan. Bu, elə həmin gündür. Yaxınlarına bildirir ki, Şeyx Əlini görmək istəyirəm. Onu mənim yanıma gətirə bilərsinizmi. Deyirlər ki, Şeyx Əli Rəhmətə gedib. Hacı Zeynalabdın deyir: Onu harada dəfn ediblər? Deyirlər: Mərdəkanda. Deyir: Elə isə mən sizə bir vəsiyyət etmək istəyirəm. Məndən sonra bu vəsiyyətimə mütləq əməl edin. Vəsiyyətim budur ki, mən öləndən sonra məni Şeyx Əlinin ayaqlarının altında dəfn edərsiniz.[1]

Bu vəsiyyətin mənası budur ki, Şeyx Əli Turabinin ayaqlarının bildiyini mənim başım belə bilmir. Mən güman etmirdim ki, iş bu yerə gəlib çıxa bilər.

---

[1] Yəni elə dəfn edilsin ki, başı onun ayaqları istiqamətində olsun.

Bu dünya qoca bir dünyadır. Bu dünya bu cür və bundan daha böyük insanları çox görüb. Çoxları bu dünyaya gəlib gedib. Və hər nə qədər gələn varsa, hamı bir gün mütləq getməlidir. Odur ki, Quran bizə hər bir əməli öz yerində və vaxtında görməyi təkid edir. Quranda ayələr var ki, buyurur: "Xeyirxah işlər görün". Bu, o demək deyil ki, insan namazın yerinə həmin işləri görməlidir.

3. İbadət edənlərin üçüncü qismi isə mötədil insanlardır. Yəni hər bir şeyi yerli-yerində başa düşüb riayət edənlər. Həm Allahın vacib etdiyi əməlləri yerinə yetirir, həm də xeyirxah işlər görürlər. İslamın tövsiyəsi budur ki, insan öz əlaqəsini həm Allahla möhkəm etməlidir, həm də xalqla. Məsələn, Allah-təala Quranda belə buyurur: "Namaz qılın və zəkat verin". Bu ayə bizlərə bəyan edir ki, namaz insanın mənəviyyatı, zəkat isə camaatla əlaqəsidir. Quran bu iki əməli göstəriş verməklə başa salır ki, bunlar bir-birindən ayrı deyil.

## Vasitə və hədəf

Burada ikinci bir mətləbi nəzərinizə çatdırıram. Bu mətləb ondan ibarətdir  ki, insanın iddiasını iman sübuta yetirə bilər. Elmi ibadət sübuta çatdıra bilər. İbadətsiz elm insanı heç bir məqama çatdıra bilməz.  O elm insana nicat verə bilər ki, onun arxasında iman dayanmış olsun. Əgər bir insan imanı elmdən ayırsa, heç vaxt həmin elmdən nəticə almayacaq. Quran ayələri və hədislərin buyurduğuna əsasən elm insan üçün bir vasitədir. Lakin elm təklikdə hədəf ola bilməz. Lakin ibadət həm vasitə, həm də hədəf ola bilir. Buna görə də ibadətsiz elm insana heç vaxt nicat verə bilməz. Elm bir vasitədir, lakin hədəf deyil. Məsələn, bir insan tibb elmini öyrənir. Ondan

soruşulur ki, bu qədər kitabı və dərmanın adını nə üçün əzbərləyirsən? O, bu sualın cavabında deyir: Tibb elmini öyrənməkdən və dərmanların adını əzbərləməkdən xoşum gəlir. Elmi elm üçün öyrənirəm. Bu, düzgün fikir deyil. İnsan tibb elmini xəstəni müalicə etmək üçün öyrənir. Deməli, elm insanın hədəfə çatması üçün bir vasitədir. Hədəf xəstəni sağaltmaqdırsa, deməli, elm bunun üçün bir vasitədir.

Digər bir məsəli qeyd edək. Bir mühəndis səhərdən axşama qədər kitablarını qarşısına qoyub oxuyur, kağız üzərində cızıq və xətlər çəkir. Ondan bu xətləri nə üçün çəkirsən, soruşduqda belə deyir: Cızıq və xətt çəkməkdən çox xoşum gəlir. Bu cavab düzgün cavab deyil. Əgər bir mühəndis xətt çəkib, çertyoj hazırlayırsa, deməli, hansısa gözəl bir binanın layihəsini işləyir. Boş-boşuna xətt çəkib, çertyoj hazırlamağın öz-özlüyündə heç bir faydası yoxdur. Xətt və çertyojun çəkilməsinin o zaman faydası olar ki, onun vasitəsilə gözəl bir bina tikilsin.

Odur ki, elm təklikdə heç vaxt hədəf deyil. Bütün elmlər belədir. Əgər elmin yanında iman olmasa, insan heç vaxt nicat tapa bilməz. Amma ibadət həm vasitədir, həm də hədəfdir. Allah-təala buyurur:

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ

-Cin və insanları yalnız Mənə ibadət etmək üçün yaratmışam.[1]

Yəni insanlar ibadət etməklə hədəfə çatacaqlar. İbadətin özü həm hədəf, həm də vasitədir. İbadətin hədəf olduğunu bildik. Lakin ibadət nəyin vasitəsidir? İbadət cəmiyyətin düzəlməsi üçün ən ümdə vasitədir.

---

[1] Zariyat.56.

Cəmiyyətdə problem nədədir? Bu sualın cavabı belədir. Məsələn, insanın bədəninin sağlam qalması nədədir? Tibb elmində də belə bir qənaətə gəlmişlər ki, insan bədəninin sağlam qalmasının əsası az yeməkdədir. Əxlaq elmində əsas nədədir? Bu elmdə əsas budur ki, insan mənəm-mənəm deməyi kənara qoysun. Bilməlidir ki, hər nə varsa, Allahdandır. Cəmiyyətdə də ən əsas və ümdə məsələ ədalətdir. Cəmiyyətdə ədalətdən mühüm məsələ yoxdur. Hər bir xırda məsələ belə ədalətin ətrafına cəmlənir. İndi bu məsələni başa düşüb iddia etməkdə problem yoxdur. Çünki heç bir kəs ədalətin əleyhinə çıxmır. Hamı ədalətli olmağın tərəfdarıdır. Hətta kafir də olsa, müsəlman da olsa, heç kim ədaləti pisləmir. Ən qatı cinayətkarla danışdıqda belə, o da ədalətin yaxşı bir xislət olduğunu etiraf edir. Dünyada heç kəs demir ki, mən ədaləti aradan qaldırmaq istəyirəm. Hər bir kəs cəniyyətdə ədalət tərəfdarıdır. Bəs cəmiyyətdə problem nədədir? Problem insanların əməlindədir. Ədalət tərəfdarı olan bir insanın şəxsi mənfəətlərilə bu ali keyfiyyətlərin qarşı-qarşıya dayandığı zaman insan dildə ədalətli, əməldə isə ədalətsiz olacaq. Çünki o, şəxsi mənfəətlərini ədalətdən üstün saydığı üçün ədalətin bərqərar olunmasına imkan vermir. Dildə ədalət tərəfdarı olmasına baxmayaraq, əməldə ədalətsizdir. Aydındır ki, ədalətin arxasında iman dayanmasa, o, heç vaxt icra olunmayacaq.  Çünki ədaləti icra edən yeganə amil həm iman, həm də ibadətdir. Əgər iman və ibadət olarsa, cinayət və ya xətaya yol vermiş şəxs öz ayağı ilə məhkəməyə gedir və cəzasını çəkməyə razı olur. Dünyada heç yerdə belə bir xüsusiyyət yoxdur. Yalnız imanlı insan ədalətin icra olunmasını tələb edir. İstər öz barəsində olmuş olsun, istərsə də başqasının barəsində. İslam tarixinə nəzər saldıqda belə hadisələrlə

çox rastlaşmaq olur. Həzrət Əlinin(ə) dövründə bir qadın böyük günah işlədir. Şeytan qadını azdırır və ərinə xəyanət nəticəsində zinadan onun bətninə uşaq düşür. Həmin qadın öz ayağı ilə məhkəməyə gedir və Həzrət Əlinin(ə) məhzərinə gəlib deyir: Ya Əli(ə), mən böyük bir xətaya yol vermişəm. Həm ərimə xəyanət etmişəm, həm də özümü murdarlamışam. İstəmirəm Allahımla bu vəziyyətdə - murdar halda görüşüm. Ya Əli(ə), məni bu çirkinlikdən pak et. Həzrət Əli(ə) bir cəmiyyətdə kiminsə abrının əlindən getməsini istəmədiyi üçün o qadına buyurdu: "Əgər səni cəzalandırmaq üçün hökm versəm, bəs bətnindəki uşağın günahı nədir? Qayıt evinə, qoy uşaq dünyaya gəlsin". Həzrət Əli(ə) istəyirdi onu başa salsın ki, etdiyi günahı dilinə gətirməsin. İstəyirdi onu başa salsın ki, Allahın tövbə qapıları həmişə açıqdır. Tövbə etsən, Allah səni bağışlayar. Amma dilinlə gəlib etdiyin günahı danışma. Qadın getdi və bir neçə aydan sonra uşaq qucağında ağlaya-ağlaya Həzrətin(ə) məhzərinə qayıdıb dedi: Ya Əli, məni pak et. Həzrət Əli(ə) buyurdu: "Əgər hökm oxunsa və səni öldürsələr, bu uşağın qarnını kim doyuracaq? Axı sən buna süd verməlisən. Get ona süd ver". Qadın gedib iki il uşağa süd verdi. Uşaq süddən ayrılandan sonra yenə Həzrətin(ə) məhzərinə gəlib dedi: Ya Əli(ə), məni pak et. Qadın gəlir, Həzrət(ə) onu geri qaytarır. Yenidən gəlir, Həzrət Əli(ə) onu yenə də qaytarır. Nəyə görə belədir? Çünki qadının imanı olduğuna görə öz ayağı ilə məhkəməyə gedir. Həm ədalət tərəfdarıdır, həm də ədalətin icra olunmasını istəyir. Onun imanı ədalətsizlik etməsinə imkan vermir. Həzrət Əli(ə) də onun cəmiyyətdə abrının getməsini istəmir. Yalnız imanı olan insanlar bu işləri görə bilərlər. Imansız ədalətin icra

olunması mümkün deyil. Bu da cəmiyyətdə problem yaradır.

İmam Əlinin(ə) zamanında bir qara qulu Həzrətin(ə) məhzərinə gətirib dedilər: Ya Əli, bu qulam oğurluq edib. Həzrət(ə) soruşdu: Ey qulam, oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. Həzrət(ə) bir də soruşdu: Ey qulam, oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. İmam(ə) istəyirdi ki, o, bu sözləri dili ilə təsdiq etməsin. Ona görə də bir daha buyurdu: Ey qulam, əgər bir dəfə də dilinlə təsdiq etsən, hökm verəcəyəm ki, əlini kəssinlər. Oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. Həzrət(ə) hökm verdi ki onun əlini kəssinlər. Qulamın sağ əli kəsildi. O, kəsilmiş əlini sol əli ilə götürüb qanı axa-axa bazara girdi. Həzrət Əlinin(ə) düşmənlərindən biri olan İbn Kəvva qulamı bu halda görüb yaxınlaşaraq soruşdu: Sənin əlini kim kəsib belə? İbn Kəvva bilirdi ki, Əli(ə) onun əlini kəsib. Bundan istifadə edərək qulamı Həzrətin(ə) əleyhinə danışdırmaq istəyirdi. İstəyirdi ki, qulam bazarda camaatın içərisində Əli(ə) barədə nalayiq sözlər desin. Qualm onun bu hiyləsini başa düşüb dedi: İbn Kəvva, doğrudan da bilmək istəyirsən, mənim əlimi kim kəsib? Yoxsa siyasi məqsədlə soruşursan? İstəyirsən ki, deyim mənim əlimi İmam Əli(ə) kəsib və Həzrətin(ə) əleyhinə nalayiq sözlər danışım. İmama(ə) qarşı məndən istifadə etmək istəyirsən? Buna görə də o dedi: “İbn Kəvva, elə isə qulaq as, mən sənə deyim ki, əlimi kim kəsib. Mənim əlimi kəsən Məkkənin balasıdır. Mədinənin balasıdır. Allahın yer üzərində olan höccətidir. Peyğəmbərin(s) özüdür. Zəhranın həyat yoldaşıdır. Onun əli Allahın əlidir. Onun gözü Allahın gözüdür. Onun dini Allahın dinidir. O, bütün möminlərin ağasıdır. O, Peyğəmbərin(s) vəsisidir...”

Qulamın əlindən qan tökülə-tökülə Həzrət Əlinin(ə) şəninə bu sözləri dedi. Bütün aləmi sözlərilə məftun etdi. Hamı onun sözlərinə heyran qaldı:

- Mən günah bir iş görmüşəm. Əli(ə) Allahın hökmünü icra edərək əlimi kəsib. Sən istəyirsən ki, bundan istifadə edib mənim dilimlə Əliyə(ə) nalayiq sözlər dedizdirəsən mənə? Mən bir günah etmişəm, əlimi kəsiblər. İstəyirsən ki, bir günah da edib, Allahın yer üzündəki höccətinə nalayiq sözlər deyim? Sən bunu görməyəcəksən.

İbn Kəvva qulamın bu sözlərindən pərt oldu.

Əgər bir insanın ibadəti və imanı olarsa, etdiyi iddianın və elminin arxasında dayanacaqdır. İman ədalətin icrasının əsas şərtidir. Burada bir sual ortaya çıxır. Peyğəmbərlər və imamlar məsumdurlar. Yəni onlar dünyaya gələndən gedənə qədər bircə dəfə də olsa günah etməyiblər. Sual isə bundadır ki, nə üçün günah etməyiblər? Biri var ki, desinlər, Allah onları günahlardan pak qərar verib. Belə olduqda bunun nə fəziləti ola bilər? Allah hər kəsi günahlardan pak qərar versəydi, o da günah etməzdi. Amma bu, həmin sualın cavabı deyil. Əsl cavab budur ki, onların son dərəcədə Allaha olan imanları və özlərini Ona təslim etmələri günahla onların arasında maneə yaradır. Qeyd etdik ki, insanlar üç qismdirlər. Bəzilərinin, ümumiyyətlə, imanları yoxdur. Onlar həmişə qəflətdədirlər. Gecə-gündüz günah etməklə məşğuldurlar. Bəzi insanların imanları vardır. Lakin bəzən Allahı unudaraq günah edirlər, bəzən də yadlarına düşən kimi, tövbə edib günahdan çəkinirlər. Bəzən ibadət edir, zikr edir və Allahı yada salırlar. Bəzən də Allahı yaddan çıxarıb günaha yol verirlər. Birdən ayılıb Allahı yada salır və etdikləri günaha görə tövbə edirlər. İnsanların

əksəriyyəti bu cürdür. İnsanlar bəzən Allahı yadlarına salır, bəzən də unudaraq günah işlədirlər. Əgər Allah heç vaxt insanın yadından çıxmasa və ya imkan verməsə ki, Allah onun yadından çıxsın, belə insanlar daha günah etməzlər. Məsələn, bir tonqalın alovu göyə qalxır. Heç kəs ona yaxın düşmür. Çünki hər kəs bilir ki, ona yaxın düşsə, yanacaq. Elə bir insan tapılarmı ki, tonqalın içinə girib desin: Bu odun içinə girim görüm məni necə yandıracaq? Yəqinliklə bilir ki, əgər odun içinə girsə yanacaq. Məsumların da imanları o dərəcədədir ki, günaha od kimi baxırlar. İmanlarının son dərəcə güclü olması onlara bildirir ki, günah insanları təhlükəyə salır. Ona görə də heç vaxt günah etməyi fikrlərinə belə gətirmirlər. Allah-təala Quranda buyurur:

رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

- Heç bir ticarət və alış-verişin Allahı yad etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmadığı kişilər. Onlar ürəklərin və gözlərin pərişan və fərqli olacağı gündən qorxurlar.[1]

Deməli, bu bəhsdən belə bir nəticəyə gəlirik ki, ibadət Allahın tez-tez insanın yadına düşməsinə səbəb olur. İnsan Allahı xatırladığı vaxt günah etmir. O, günah etmədikdə isə şəxsi mənfəətlər əsla insanın qarşısını kəsə bilməyəcək. Belə olduqda ədaləti bərqərar etmək üçün heç bir maneə yaranmır. Əgər bir insan həmişə ibadət edirsə və bu ibadət Allahın başının üzərində nəzarətçi olmasına

[1] Nur surəsi-37

səbəb olursa, belə bir insan üçün ədaləti bərqərar etməkdə heç bir manəə ortaya çıxmayacaq.

Həzrət Əlinin(ə) ədalətli olmasını hamı çox gözəl bilir. Həzrət Əli(ə) həmişə Allahın başı üzərində nəzarətçi olduğunu bilirdi. Buna görə də heç vaxt dünya onu aldada bilmədi. Gecələr Allaha ibadət edir, səhərlər ədalətin bərqərar edilməsi ilə məşğul olurdu.

Qədr gecəsi ibadət üçündür. İnsanlar Qədr gecəsində ibadət və Allahla raz-niyaz etməlidirlər. Əgər insan ibadət edib Allahdan enerji alarsa, mənəviyyata yetişə bilər. Həzrət Əli(ə) üçün ədaləti bərqərar etməkdə heç bir kəsin fərqi yox idi. İstər fəhlə olsun, istərsə də tanınmış bir insan. Təlhə və Zübeyr elə insanlar idilər ki, həmişə Peyğəmbərin(s) ətrafında olmuşdular. Həzrət Əlinin(ə) hakimiyyəti dövründə Həzrətin(ə) yanına gəlib dedilər: "Ya Əli, ona görə gəlmişik ki, bizim maaşımızı bir az artırasan. Həzrət(ə) buyurdu: Nə üçün? Dedilər: Ya Əli, səndən əvvəlki xəlifələr bizə çox maaş verərdilər. Həzrət Əli(ə) buyurdu: Peyğəmbər(s) sizə nə qədər maaş verərdi? Onlar başlarını aşağı salıb bir söz demədilər. Həzrət buyurdu: Mən Peyğəmbər(ə) kimi etsəm yaxşıdır, yoxsa başqaları kimi etsəm yaxşıdır? Dedilər: Axı, bizim İslama xidmətimiz çoxdur. İllər boyu İslam yolunda əziyyət çəkmişik. Həm də axı biz Peyğəmbərin(s) yaxınlarındanıq. Buna görə də bizə daha çox maaş versən, yaxşı olardı. Həzrət Əli(ə) buyurdu: İslam yolunda xidmətiniz məndən çoxmu olub? Dedilər: Xeyr. Həzrət(ə) soruşdu: İslamda sizin əziyyətiniz məndən çoxmu olub? Dedilər: Xeyr. Həzrət buyurdu: Siz Peyğəmbərə(s) məndən də yaxınsınızmı? Dedilər: Xeyr. Həzrət(ə) orada işləyən fəhləni göstərib buyurdu: O, fəhləni

görürsünüzmü? Dedilər: Bəli. Həzrət buyurdu: Mən özümə də həmin fəhlənin maaşı qədər götürürəm”.

Nəyə görə Həzrət Əli(ə) belə danışa bilirdi? Nə üçün ədaləti bərqərar etməkdə qarşısını heç bir maneə ala bilmirdi? Çünki həmişə Allahı başı üzərində görürdü. İbadət və imanının son dərəcə güclü olması onu ədalət carçısı etmişdi.

Bir nəfər Müaviyənin yanına gəlmişdi. Müaviyə ona dedi: Sən Əlinin(ə) yanında çox olmusan. Bir az mənə Əlidən danış. Həmin şəxs dedi: Əlini(ə) ibadət edərkən Allah qarşısında ilan vuran adamlar kimi qovrulduğunun və həzin- həzin ağladığının şahidi olmuşam. Gecələr qarşısında mehrab ağlayaraq ibadət etdiyini görmüşəm. Üzünü dünyaya tutub deyir: Ey dünya, məndən uzaq ol. Özünü mənə göstərirsən? Sən məni heç vaxt aldada bilməzsən. Get, Əlidən başqasını axtar.

Odur ki, gecələr bu cür ibadət edən insan üçün gündüzlər ədalətli olmaq heç bir problem deyil. Həzrət Əli(ə) hər gecə Allahla minacat edirdi. Elə ağlayırdı ki, mübarək saqqalı göz yaşı ilə islanırdı. Kumeyl ibn Ziyad deyir: “Bir gecə Həzrət Əli(ə) əlimdən tutub məni xurmalığa apardı. Bu duanı oxumağı mənə öyrətdi. Allahla minacat edərək ağlaya-ağlaya belə deyirdi:

وَ قَدْ اَتَيْتُكَ يا اِلـهي بَعْدَ تَقْصيري وَ اِسْرافي عَلى نَفْسي مُعْتَذِراً نادِماً مُنْكَسِراً مُسْتَقيلاً مُسْتَغْفِراً مُنيباً مُقِرّاً مُذْعِناً مُعْتَرِفاً ، لا أجِدُ مَفَرّاً مِمّا كانَ مِنّي ، وَ لا مَفْزَعاً اَتَوَجَّهُ إليه في أَمْري ، غَيْرَ قَبُولِكَ عُذْري ، وَ اِدْخالِكَ اِيّايَ في سَعَة رَحْمَتِكَ

اَللّٰهُمَّ فَاقْبَلْ عُذْري ، وَ ارْحَمْ شِدَّةَ ضُرّي ، وَ فُكَّني مِنْ شَدِّ وَثاقي.

يا رَبِّ ارْحَمْ ضَعْفَ بَدَني ، وَ رِقَّةَ جِلْدي ، وَ دِقَّةَ عَظْمي

- Ey Allahım! Təqsirim olduğu üçün və nəfsimə çox ziyan vurduğuma görə Sənin dərgahına gəlmişəm ki, peşman, qəlbi qırılmış, günahlarının bağışlanmasını tələb edən, günahlarından qayıdan, günahlarını boynuna alan, onları təsdiq və etiraf edən bir insan kimi Səndən üzr istəyəm. Törətdiyim işlərdən yaxa qurtarmağa nə bir pənahım var, nə də sığınmağa bir yerim. Üzrümü qəbul etməkdən və məni öz mərhəmətinin altına almaqdan başqa bir çıxış yolu yoxdur. İlahi! Üzrümü qəbul et! Düşdüyüm çətin vəziyyətə görə rəhm et! Məni günahlarımın dolaşıq düyünlərindən xilas et!

Ey Rəbbim! Bədənimin zəifliyinə, dərimin incəliyinə, sümüyümün nazikliyinə görə mənə rəhmin gəlsin. İlahi, Sənin əzabına dözərəm. Amma Səndən ayrılmağıma necə dözə bilərəm?

Kumeyl deyir: “Gecənin bir aləmində xurma bağında Həzrət Əli(ə) bu duanı oxuya-oxuya elə ağlayırdı ki, göz yaşlarının suyu axıb saqqalından yerə tökülürdü”.

Gecənin bir aləmində Allahla belə minacata başlayib ibadət edən insana ədaləti yerinə yetirməyə nə maneə ola bilər? Həzrət Əli(ə) həm ədalətliydi, həm də ədalətin icraçısı idi. Həzrətin(ə) Əqil adlı bir qardaşı var idi. İmam Əlinin(ə) hakimiyyəti dövründə Əqil onun yanına gəlib dedi: “Ya Əli(ə) indi ki, hakim olmusan, qardaşına kömək et. Mənim dolanışığım ağırdır. Bir az beytülmaldan mənə pul ver. Həzrət Əli(ə) maşanı közün üstünə qoydu. Maşa qızıb od kimi olduqdan sonra onu götürüb qardaşına yaxınlaşdırdı. Əqil qışqıraraq dedi: Qardaş, mən səndən

kömək istədim. Amma sən məni yandırmaq istəyirsən? Həzrət(ə) buyurdu: Dünyanın atəşinə dözümün yoxdur, məni axirət oduna atmaq istəyirsən? Nə üçün sənə beytülmaldan (camaatın pulundan) çox pul verməliyəm?”

Tarix kitablarında yazırlar ki, Əqil yüz üç il ömür sürüb. Bu hadisədən sonra o, Şam şəhərinə - Müaviyənin yanına yollandı. Müaviyə onu hörmətlə qarşıladı. Ona yaxşı geyim, yemək və çoxlu pul verdi. Əqilin yüz min dirhəm borcu var idi. Müaviyə onu da verdi ki, aparıb borclarını ödəsin. Sonra Əqilə dedi: “Mən sənə bu cür hörmət etdim. Camaat sənin uzaq səfərdən gəldiyini və Əlinin qardaşı olduğunu bilir. Yaxşı olar ki, minbərə çıxıb bir az camaat üçün söhbət edəsən. Söhbət əsnasında məni də tərifləyərsən”. Əqil razılaşıb minbərə çıxaraq, üzünü camaata tutub dedi: “Camaat, bilirsinizmi, mən Əlinin qardaşıyam? Camaat dedi: Bəli. Əqil dedi: Mən Əlinin yanına gedib ondan kömək istədim. O, dinindən qorxduğu üçün bunu etmədi. Amma Müaviyə bu işi gördü. Müaviyə mənə pul da verdi, borclarımı da ödədi və qarnımı da doydurdu. Əli mənim dinimi, Müaviyə isə dünyamı saxladı”.

Həzrət Əli(ə) barədə nəinki müsəlman aləmi, hətta qeyri-müsəlmanlar belə kitablar yazıb, Həzrətin(ə) ədalətli şəxsiyyət olduğunu sübuta yetirmişlər. Corc Cordak adlı xaçpərəst yazıçı beşcildlik “İnsan ədalətinin səsi” adlı kitabında İmam Əli(ə) barədə yazır: “Əli ibn Əbi Talibi həddindən artıq ədalətli olduğundan ibadət mehrabında öldürdülər.”

Mübarək ramazan ayının 19-cu gecəsi zəhərli qılıncla Həzrətin(ə) başından vurdular. Həmin ayın 21-ci gecəsində İmam Əli(ə) dünyasını dəyişdi. Son anlarında ailəsini ətrafına toplayıb vəsiyyət edərək buyurdu:

“Mənim övladlarım, istəyirəm Yaqub Peyğəmbərin(ə) son anlarında gördüyü işi bu gecə mən də görüm. Yaqub(ə) öz övladlarını başına toplayıb dedi: Mən özümdən sonra Yusifi(ə) yerimə təyin edirəm. Məndən sonra Yusiflə müxalifətçilik etməyin. Ona itaət edin.  Mən də bu gecə sizdən ayrılıram. Həsən və Hüseyni öz yerimə təyin edib gedirəm. Sizin hamınızın vəzifəniz onlara itaət etməkdir. Sonra Həzrət(ə)  üzünü İmam Həsənə(ə) tutaraq belə buyurdu: Səni onlara, Hüseyni isə sənə tapşırıram. Bu vəsiyyətdən sonra İmam Həsənlə(ə) xüsusi söhbət edib imamət sirrini ona verdi. Sonra belə vəsiyyət etdi: Oğlum, mən dünyadan gedəndən sonra mənə özün qüsl ver. Peyğəmbər(ə) üçün istifadə olunan ətirli maddənin qalığı ilə məni ətirləyərsən. Məni tabuta qoyarsınız. Tabutun arxa tərəfindən siz tutarsınız, ön tərəfindən isə mələklər yapışacaqlar. Mələklər harada dayansalar, siz də orada dayanıb tabutu yerə qoyarsınız. Mənə özün namaz qılarsan. Namazı qıldıqdan sonra oranı qazarsınız. Oradan bir lövhə çıxacaq. O lövhədə Nuh Peyğəmbərin(ə)  öz dəst-xətti ilə bu sözlər yazılmışdır: “Bu, qardaşım Əli ibn Əbi Talibin qəbridir.” Oradan çıxan taxtaları qəbrimin üstünə düzərsiniz. Oğlum, məni qəbrə qoyduqdan sonra görəcəksiniz ki, orada yoxam. Bir az keçməmiş yenidən orada olacağam. Bu o deməkdir ki, hər hansı bir peyğəmbərin vəsisi dünyadan gedəndən sonra qəbrə qoyulduqda, Allah həmin vəsini bir neçə dəqiqə öz peyğəmbərilə görüşdürər. Ona görə də Allah həm mənim bədənimi, həm də ruhumu Peyğəmbərlə(s) görüşdürəcək.

Həzrət Əli(ə) dünyasını dəyişəndən sonra İmam Həsən(ə) və İmam Hüseyn(ə) Həzrətə(ə) qüsl verib kəfənlədilər. Sonra tabuta qoydular. Tabutun qabaq tərəfi yerdən qalxdı. İmam Həsən(ə) və İmam Hüseyn(ə)

tabutun arxa tərəfindən tutdular. Kufədən Nəcəf şəhərinə (Həzrət Əlinin(ə) indiki qəbri olan yerə) qədər apardılar. Gördülər ki, tabutun ön tərəfi aşağı əyildi. Tabutu yerə endirdilər. İmam Həsən(ə) özü namaz qılandan sonra tabutu bir kənara qoyub, onun yerini qazdılar. Gördülər ki, doğrudan da Həzrət Əlinin(ə) buyurduğu kimi, oradan bir lövhə çıxdı. O lövhədə belə yazılmışdı. "Bu qəbri tufandan əvvəl sonuncu Peyğəmbərin(s) vəsisi qardaşım Əli ibn Əbi Talibə hazırlamışam." Həzrət Əli(ə) necə vəsiyyət etmişdisə, eləcə də oldu.

Əlbəttə, bu rəvayətlə bağlı sünni və şiə alimləri arasında heç bir ixtilaf yoxdur. Əlinin(ə) bu cür böyük kəramət sahibi olduğunu hamı bilir, ona görə də və sünni və şiə alimləri bu kimi rəvayətləri qəbul edərək kitablarında yazmışlar.

## İbadət və cəmiyyət

Ötən bəhslərdə qeyd olundu ki, Allah və Onun peyğəmbərləri bizim hamımızı ibadətə dəvət edirlər. Qısaca da olsa ibadətin mənaları ilə tanış olduq. Həmçinin deyildi ki, ibadət Allahın buyurduğu və istədiyi kimi yerinə yetirilməlidir. Yəni ibadətdə ifrat və təfritə yol verilməməlidir. İbadət həm hədəfdir, həm də insan və cəmiyyəti tərbiyə etmək üçün vasitədir. İbadət insanın həmişə Allahı yada salıb xatırlamasına səbəb olur. İnsan Allahı xatırlayıb yad edərsə, bu əməl insanın günah etməsinə gətirib çıxarar. İnsan günah etmədikdə isə ədaləti bərqərar etmək üçün onun qarşısını heç bir maneə ala bilməz. Bu gecə istərdim ki, ibadətlə cəmiyyətin bir-birinə bağlı olduğu barədə söhbət açaq. İslamda ibadətlə ictimai məsələlərin bir-birilə qarşılıqlı bağlılığı vardır. Xristianlıqda bu məsələ tamamilə başqa cürdür. Onlar

üçün dünya başqa, axirət başqadır. Onlar öz şəxsi məntiqlərinə əsaslanıb kimisi dünya, kimisi axirət barədə düşünür. Axirət barədə düşünən adam dünya barədə qətiyyən düşünə bilməz. Həmçinin dünya barədə düşünən şəxslər də axirət məsələlərinə qarışmırlar. Çünki dünyəvi insan olduqlarını iddia edirlər. Amma İslam dinində bu məsələ belə deyil. İslamda dünya ilə axirət bir-birinə bağlıdır. Bu mətləbi sübut etmək üçün bir neçə hədisi nəzərinizə çatdırıram.

قَالَ رَسُول الله(ص): اَلدُّنْيا مَزْرَعَةُ الآخِرَة

Həzrət Peyğəmbər(s) buyurur: "Dünya axirətin tarlasıdır".

Yəni insan dünyada hər nə əkirsə, axirətdə də onu biçəcək. Əkinlə biçinin arasında bağlılıq olmazmı? Ola bilərmi ki, əkin başqa şey olsun, biçin isə tamam başqa bir şey?

*Arpa əkənin hasili haşa ola buğda,*
*Verməzlər səmər xasirə xüsran əvəzində.*

Mümkün deyil ki, bir insan arpa əksin və sonda buğda biçsin. Yaxud bir şey əkməyib, nəyisə biçsin. Ya da mümkün deyil ki, nəsə əksin, amma onu biçməsin. İnsan nə əksə, onu da biçəcəkdir.

قَالَ رسول الله(ص): بِالدُّنْيا تُحْرَزُ الآخِرَة

Digər bir hədisdə Həzrət(s) belə buyurur: "Axirət dünyanın vasitəsilə ələ gəlir".

Əgər bu dünya olmasa və insan dünyada səcdə edib ibadət etməsə, axirətdə də heç nə əldə edə bilməyəcək. Çünki insan axirətini bu dünyada qazanır. Hədislərdə var ki, insan dünyanı məzəmmət etməməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): لا تَسُبُّو الدُّنْيا فَنِعْمَت مَطِيَّةُ الْمُؤمِن فَعَلْيهَا يَبْلُغُ الْخَيْرَ وَ بِهَا يَنْجُو مِنَ الشَّرّ

اِنَّهُ اِذا قَالَ الْعَبد: لَعَنَ اللهُ الدُّنْيا, قَالَتِ الدُّنْيا: لَعَنَ اللهُ أَعْصَانَا لِرَّبِه

Həzrət Peyğəmbər(s) buyurur: “Dünyanı söyməyin. Dünya möminin ən gözəl miniyidir. İnsan bu dünyanın vasitəsilə xeyrə qovuşur (cənnəti qazanır). Insan bu dünyanın vasitəsilə şərdən (günahlardan) nicat tapır. Hər kəs «Allah dünyaya lənət etsin» deyərsə, dünya onun cavabında belə deyər: Hansımız günah ediriksə, Allah ona lənət etsin”.

Başqa hədislərdə deyilir ki, dünya möminin miniyidir. Mömin bu miniyi ilə Allaha qovuşmaq üçün hərəkət edir. Əgər bir insan günah etmirsə və Allaha sarı hərəkət edirsə, deməli, Allahın həmin şəxsdən xoşu gəlir. Hamı Allahın bəndəsidir. Amma Allahın insanların bəzilərindən acığı, bəzilərindən isə xoşu gəlir. Hər kim Allahı sevirsə, Onun qarşısında səcdə edərək ibadət edirsə, Allahın həmin şəxsdən xoşu gəlir. Hər kəs Allah qarşısında günah edirsə, Allahın ondan acığı gəlir. Allah-təala Yusif Peyğəmbəri(ə) nə üçün çox sevirdi? Hətta o dərəcədə sevirdi ki, Quranda onun adına bir surə də nazil etmişdir. Çünki Yusif(ə) heç vaxt Allah qarşısında günah etmədi. Züleyxanın Yusifə(ə) gözü düşmüşdü. Onunla yaxınlıq etmək üçün hər bir şəraiti təşkil etmişdi. Yusifə(ə) bu işi görməyi təklif etdi. Yusif(ə) razı olmadı. Züleyxa dedi: “Əgər bu işi görməsən, səni zindana saldıracağam. Yusif(ə) üzünü Allahın dərgahına tutub dedi:

قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ وَإِلاَّ تَصْرِفْ عَنِّي كَيْدَهُنَّ أَصْبُ إِلَيْهِنَّ وَأَكُن مِّنَ الْجَاهِلِينَ

«Ey Rəbbim, mənim üçün zindan bunların dəvət etdiklərindən daha xoşdur və əgər bu qadınların məkr və hiyləsini məndən dəf etməsən, onlara meyl edər və nadanlardan olaram.»[1]

Bu hərəkətdən sonra Yusif(ə) Allahın ən əziz və hörmətli bəndəsinə çevrildi.

Odur ki, insan dünyanın vasitəsilə Allaha yaxın olur və axirətini qazanır. Burada qarşıya belə bir sual çıxır: Allah-təala Quranda dünyanı məzəmmət edir. Bəs bu nə deməkdir? Cavab belədir ki, Allah dünyanı o zaman məzəmmət edir ki, insan onu özünə hədəf seçmiş olsun. Əgər dünya ilə axirət bir-birinə bağlı olarsa, bu dünya insan üçün nemətdir.

Allah-təala "Nəhl" surəsinin 30-cu ayəsində buyurur:

وَلَدَارُ الآخِرَةِ خَيْرٌ وَلَنِعْمَ دَارُ الْمُتَّقِينَ

- Təqvalıların evi necə də gözəldir!

İmam Baqir(ə) bu ayə barədə belə buyurur: "Ayədə zikr olunan «Təqvalıların evi»ndə məqsəd həmin bu dünyadır".

Amma əgər dünya vasitəçilikdən çıxıb hədəfə çevrilərsə, məzəmmət olunası dünyadır. Yəni insan bu dünyada yaxşı yemək, içmək, gəzib dolanmaq, kef çəkmək üçün yaşayarsa və axirət üçün çalışmazsa, məzəmmət olunmalıdır.

---

[1] Yusif.33.

Allah-təala Musa Peyğəmbərə(ə) vəhy edərək buyurdu:

فيما اوحى الله تعالى الى موسى(ع): اِعْلَم أَنَّ كُلَّ فِتْنَةٍ بَذْرُها حُبُّ الدُّنْيا

- Ey Musa, bil ki, hər bir fitnə-fəsadın toxumu dünyaya məhəbbətdir.

قَالَ رَسُولُ اللهِ(ص): اَكْبَرُ الْكَبائِرِ حُبُّ الدُّنْيا

Həzrət Peyğəmbər(s) buyurur: "Günahların ən böyüyü dünyanı sevməkdir".

Belə olduqda başa düşürük ki, əgər dünyanın axirətə bağlılığı olarsa və axirət üçün müqəddiməyə çevrilərsə, çox gözəl dünyadır. Yox, əgər dünya axirətdən ayrılarsa və dünya dünyaya görə olarsa, o zaman lənət oxunmalı və tənqid ediləsi dünyadır.

İndi qayıdaq öz söhbətimizə. Sözümüz budur ki, ibadətlə dünyəvi məsələlərin bir-biri ilə sıx əlaqəsi var. Bunların bir-biri ilə çox möhkəm bağlılıqları var. Allahın buyurduqlarını Onun istədiyi kimi yerinə yetirməyə ibadət deyilir. Hər hansı bir ibadəti misal çəkmək olar. Çünki ibadətin bütün qismlərində ictimai və dünya məsələləri də rol oynayır.

## Namaz

Məsələn, namazı misal çəkək. Namaz insanın Allah qarşısındakı ibadətlərindən ibadətlərdən biridir. Baxaq görək qılınan bu namaz dünyaya necə bağlı ola bilər? Namazın iki cəhəti vardır. Birincisi, insanın mənəviyyatında böyük rol oynayır. Yəni insan namaz vasitəsilə Allahı yada salır, ruhunu təmizləyərək

mənəviyyatını saflaşdırır. Həmin bu namazın maddi və dünyəvi cəhətləri də vardır.

**1.Namazda təmizliyə riayət etmək**

Namazın dünyəvi cəhətlərindən biri budur ki, Allaha ibadət edilirsə, təmizliyə mütləq riayət olunmalıdır. Namaz qılmaq istəyən bir şəxs namazdan öncə üzünü, qollarını və əllərini yumalı, başına və ayaqlarına da məsh çəkməlidir. Namaz qılmaq istəyərkən boynunda qüsl olan hər bir kəs mütləq qüsl verməlidir. Əgər namazdan qabaq bu işlər görülməsə, Allah belə qılınan namazları qəbul etmir.

Allah-təala "Maidə" surəsinin 6-cı ayəsində möminlərə xitab edərək buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ وَامْسَحُواْ بِرُؤُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَينِ وَإِن كُنتُمْ جُنُبًا فَاطَّهَّرُواْ

- Ey iman gətirənlər, namaza durarkən (dəstəmazınız olmayanda) üzlərinizi və dirsəklərinizdən əllərinizə qədər yuyun, başınıza və ayaqlarınızın üzərinə - hər iki ayağınızın üstündəki qabarıq (yuxarı qalxan) yerə kimi məsh edin. Əgər cənabətli olsanız, qüsl edin.

Əgər bir insanın boynunda qüsl olsa, təkcə dəstəmaz almaq kifayət etməyəcək. Mütləq qüsl verilməlidir. Bu, namazın maddi cəhətidir. Namaz qılan şəxsin bədəni təmiz olmalıdır.

**2. Namaz qılan şəxs insanların hüququna riayət etməlidir**

Namaz qılan şəxs cəmiyyətdə bütün insanların hüququna da riayət etməlidir. Namaz qılan insanın namaz qıldığı yer və əynindəki paltarlar özününkü olmalıdır. Məsələn, əgər paltarının xırda bir sapı və ya bircə düyməsi belə özgəninki olarsa, yaxud əynindəki paltarın xümsünü və zəkatını verməyibsə, Allah həmin şəxsin namazını qəbul etməz.

Belə olduqda həqiqi namaz qılmaq istəyən bir şəxs kimin haqqını qəsb edər? Bu cür insan heç bir kəsin hüququnu tapdalamaz. Çünki namaz qılır və bilir ki, kiminsə haqqını qəsb etsə və ya kiminsə hüququ onun əli ilə tapdalana, qıldığı namaz qəbul edilməyəcək. Namazda rüku, səcdə və s. əməlləri etmək vacibdir. İndi bir insan desin ki, mənim rüku və ya səcdə etməyimin Allaha nə xeyri var? Elə belə, öz istədiyim kimi Allaha ibadət edirəm. Bir insanın səcdə, rüku və s. əməlləri yerinə yetirməsinin Allaha heç bir xeyir və ziyanı yoxdur. Bu işlərin hamısı insanın özü üçün xeyirlidir. Əgər bir insan rüku və ya səcdə etmirsə, deməli, namazı namaz sayılmır. Rükusuz namaz namaz sayılmadığı kimi, kimsənin haqqını yeyib namaz qılınarsa, həmin qılınan namaz da Allah dərgahında qəbul olunmayacaq. Bir insanın əynində qəsb edilmiş paltar, qarnında haram yemək olarsa, qıldığı namaz namaz sayılmayacaq. Çünki belə bir namaz rükusuz namaz kimidir. Belə namazı da Allah heç kəsdən qəbul etmir. Açıq-aydın məlum olur ki, namazla dünyanın bir-birinə möhkəm bağlılığı var. Namaz insanın mənəviyyatını təmin edir və eyni zamanda cəmiyyətdə insanların hüququna riayət etməyi insana vacib edir. Yəni namaz insanın mənəviyyatına görədir. Dünya ilə bağlı

olması da budur ki, namaz qılan şəxs cəmiyyətdə heç kəsin hüququnu tapdalaya bilməz.

قَالَ الْحَسَن(ع): إِنَّ مَنْ طَلَبَ الْعِبادَةَ تَزَكّى لَهَا

İmam Həsən(ə) buyurur: “İbadət etmək istəyən kəs özünü təmizləməli və ibadətə hazır etməlidir”.

**3. Namaz qılanın cəhət və istiqaməti bir olmalıdır**

Namaz qılan şəxs yalnız bir istiqamətdə dayanıb namaz qılmalıdır. Namaz insanın istiqamətini təyin edir. Yəni dünyada hər nə qədər namaz qılan varsa, hamısının istiqaməti bir nöqtəyə (Kəbəyə) yönəlməlidir. Əgər bir insan namaz qılarkən Kəbədən başqa bir istiqamətə qılarsa, onun namazı qəbul olunmayacaq. Yalnız və yalnız üzü qibləyə namaz qılınmalıdır. Kəbə haradır? Kəbə Məkkə şəhərində yerləşir və yer üzərində inşa olunan ilk evdir.

إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكًا وَهُدًى لِّلْعَالَمِينَ

- Şübhəsiz, insanlar(ın ibadəti) üçün (təməli) qoyulmuş ilk ev, həmin Məkkədəkidir (müqəddəs Məkkə şəhərindəkidir) ki, (o,) xeyir və bərəkət dolu və aləmdəkilər üçün hidayət vasitəsidir.[1]

Yer üzərində ilk dəfə daşın daş üzərinə qoyulduğu yer Kəbə evidir. Allah-təala oranı insanlara ibadət məbədinə çevirib. Bütün ibadət edənlərin üzü ora tərəf yönəlməlidir. Hətta insan dünyasını dəyişən zaman vacibdir ki, (ayaqlarının alt tərəfi) üzü qibləyə olmalıdır. Heyvanın başını kəsdikdə belə üzü qibləyə dayanıb kəsmək lazımdır. Əgər heyvan üzü qibləyə kəsilməsə,

---

[1] Ali-İmran.96.

həmin heyvan murdar hesab olunur və onun ətini yemək də haramdır. Bir heyvanı kəsərkən (bismillah) deyib kəsilməsə, o heyvanın ətini yemək haramdır. Əgər bir heyvanı qeyri-müsəlman kəsərsə, onun əti haram olur. Həmçinin üzü qibləyə kəsilmədikdə belə həmin heyvanın əti haramdır. Bütün bu əməllər o deməkdir ki, Allah-təala bütün müsəlmanlara istiqamət verir. Sual oluna bilər ki, insan hər hansı bir yerə üzünü tutarsa, Allahın məkanıdır. Nə üçün insan müəyyən əməlləri edərkən məhz üzü qibləyə dayanmalıdır? Quranda ayə var ki, buyurur:

فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ

- Hansı tərəfə üz tutsanız, Allahın üzü (səmti) oradır.

Belə olduqda bəs nə üçün insan məhz üzü qibləyə dayanmalıdır?

Cavab belədir ki, doğrudur, Allah hər yerdədir. Allah-təala bütün aləmləri əhatə edir. Amma namazda və digər ibadətlərdə üzü Kəbəyə dayanmaq o deməkdir ki, bu əməl insan cəmiyyətinin tərbiyəsidir. Allah-təala müsəlmanlara istiqamət göstərməklə onları tərbiyə edir.

**4. Namazda vaxta riayət etmək**

Vaxta riayət etmək ibadətdə çox mühüm yer tutur. Demək olar ki, bütün ibadətlərdə vaxta riayət olunmalıdır. Məsələn, hər hansısa gündəlik vacib olan namaz vaxtından əvvəl qılınarsa, həmin namaz batildir. Əgər sübh azanının vaxtı dəqiq saat 6:00-dadırsa, bir şəxsin  yorğunluq və ya yuxusuzluq üzündən 5:59-da qıldığı namaz batildir. Hətta hər kim vacib gündəlik namazları bircə dəqiqə belə tez qılarsa, Allah o namazı qəbul etməyəcək. Bu əmələ  düz vaxtında riayət olunmalıdır. Oruc da həmçinin belədir. Əgər bir insan iftarı azandan əvvəl yeyərsə, orucu batil

olur. Həcc əməllərindən Ərəfatı misal çəkək. Ərəfatda qalmaq Həccin ən mühüm əməllərindən (rüknlərindən) biridir. Özü də elə bir əməldir ki, bilərəkdən və ya bilməyərəkdən bu əməl yerinə yetirilməsə, insanın həcci batildir. Həcc ziyarətində insan günorta azanına qədər özünü Ərəfata çatdırmalıdır. Bir kəs əgər yarım saat olsa belə gecikərsə, Allah həmin şəxsin həccini qəbul etməyəcək. Hətta beş dəqiqə gecikərsə belə, qəbul olmayacaq.  Minada üç gün qalmaq vacibdir. Üçüncü gün hamı günorta azanından sonra minadan çıxmalıdır. Hər kəs günorta azanından bircə dəqiqə belə tez çıxarsa, həmin şəxsin həcci batildir. Hamı eyni saatda gəlməli və eyni saatda da çıxmalıdır. Allah-təala bütün bunlarla müsəlmanları tərbiyə edir. Dinin hökmlərində eyni vaxtda hərəkət etmək insanların tərbiyəsi deməkdir. Həmçinin bu əməllər insanların dünyasına aid olan məsələlərdir. Bir insanın Ərəfata beş dəqiqə tez və ya gec getməsinin onun mənəviyyatına nə təsiri olacaq? Əgər bir insan 18 saat oruc tutursa və azandan 5 dəqiqə tez iftar edirsə, bundan nə olacaqdır? Allah-təalanın hökmüdür ki, hər bir şey vaxtında yerinə yetirilməlidir. Əks halda Allah həmin əməli qəbul etməyəcək.

**5. Namazda sülh elan etmək**

İnsan namaz qılarkən sülh elan edir. Sülh elan etmək insanın dünyasına aid məsələdir. İnsan namazda belə deyir:

أَلسَّلامُ عَلَيْنَا وَ عَلى عِبادِ اللهِ الصّالِحِينَ

- Salam olsun bizə və Allahın saleh bəndələrinə.

Sual oluna bilər ki, axı namazda yalnız Allaha ibadət olunmalıdır. Bəs nə üçün saleh bəndələrə salam

göndərilir? Cavab budur ki, namaz qılarkən Allaha diqqət etməklə yanaşı, cəmiyyətə də diqqət yetirilməlidir. Yəni insanın həm Allahla, həm də saleh insanlarla bağlılığı olmalıdır. Həmçinin namazda "Həmd" surəsini oxuyarkən deyirik:

إِيّاكَ نَعْبُدُ وَ إِيّاكَ نَسْتَعِين

- (Pərvərdigara!) Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.

Hətta insan gecəyarı tək-tənha namaz qılarsa, mütləq bu sözü deməlidir: Sənə ibadət edirik. Yalnız Səndən kömək diləyirik. Nə üçün cəm halda deməliyik? Nə üçün demirik: Yalnız Sənə ibadət edirəm və yalnız Səndən kömək diləyirəm? Hər kəs namazda "Yalnız Sənə ibadət edirəm və yalnız Səndən kömək diləyirəm" desə, namazı batildir. Bu o deməkdir ki, İlahi, mən tək deyiləm. Mən böyük bir cəmiyyətəm. Mən həmin cəmiyyətin bir üzvüyəm. Biz hamılıqla Sənə ibadət edirik.

### 6. Namaz vasitəsilə Allahın əzəmətini dərk etmək və Allahdan başqa hər şeyin aciz olduğunu bilmək

İnsan namaz qılarkən Allahın əzəmətli olduğunu anlayır. Namaz qılarkən kimin qarşısında dayandığını hiss etməlidir. İnsan namaza başlayarkən iki əlini yuxarı qaldıraraq deyir: Allahu Əkbər. Yəni Allah böyükdür. Allah əzəmətlidir. İnsanların fitrəti belədir ki, bəzən təbiətdən, bəzən dağdan-daşdan, bəzən zəlzələdən və daşqınlardan, bəzən də bir sıra şəxsiyyətlərdən qorxur. Əgər insan Allahın əzəmətini başa düşərsə, o zaman həmin şəxsin gözündə Allahdan başqa hər bir şey aciz görünər. Allahın əzəmətini başa düşən insan daha heç bir şeydən qorxmaz. Çünki artıq başa düşmüşdür ki, hər bir

şey Allahın əlindədir. Allahın hər bir şeydən böyük olduğunu dərk edən insanın gözündə başqa heç bir qorxu olmaz. Deməli, Allahın əzəmətini dərk edən insanın dünya ilə əlaqəsi odur ki, dünyada heç nədən qorxmaz.

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də, Həmmam xütbəsində təqvalı insanları vəsf edərkən bir yerdə belə buyurur:

عَظُمَ الْخَالِقُ فِى أَنْفُسِهِم فَصَغُرَ مَا دُونَهُ فِى أَعْيُنِهِم

- Onların nəzərində Allah böyük, Ondan başqası isə *(hər nə olmasından asılı olmayaraq)* kiçikdir.

قَالَ عَلِىّ(ع): كَانَ لِى فِيمَا مَضَى أَخٌ فِى الله, وَكَانَ يُعْظِمُهُ فِى عَيْنِى صَغُرَ الدُّنْيا فِى عِيْنِه

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: "Mənim bir qardaşım var idi. O, mənim nəzərimdə çox böyük bir insan idi. Çünki dünya onun gözündə çox aciz və kiçik idi. (Dünya onun nəzərində kiçik olduğu üçün, mənim nəzərimdə həmin şəxs çox böyük idi.)"

### 7. Camaat namazı

Camaat namazı, adından məlum olduğu kimi, cəmiyyətlə birgə ibadətlə məşğul olmaq deməkdir. İnsan bu namazda həm Allaha ibadət edir, həm də namazı cəmiyyətlə birgə qılır. Camaat namazı barədə bir çox hədis və rəvayətlər vardır. Camaat namazının savabının qədərini heç bir mələk yaza bilmir. Hətta hədislərdə deyilir ki, Allah camaatla qılınan namazın savabını iyirmi beş dəfə  artıraraq qəbul edir. Digər bir hədisdə belə buyurulur: "Camaat namazında insanların bir-birinə yardımı və xeyri dəyir".

Bəs camaat namazının nə üçün bu qədər savabı vardır? Ona görə ki, camaat namazında cəmiyyət həyat tapır. Müsəlmanlar bir yerə toplaşır, birgə Allaha ibadət edir və bir-birinin halından xəbərdar olaraq əllərindən gələn köməkliyi bir-birindən əsirgəmirlər. Bura qədər sadaladığımız əməllərin hamısı namaza aid məsələlərdir ki, onun insanın mənəviyyatından əlavə, dünya və cəmiyyətə bağlı olduğunu öyrəndik .

## Oruc

İslam dinində müsəlmana vacib olan əməllərdən ikincisi orucdur. Oruc nəyə görə müsəlmanlar üçün vacibdir? Bu sualın cavabına "Bəqərə" surəsinin 183-cü ayəsində rast gəlmək mümkündür:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

- Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə pis əməllərdən çəkinəsiniz.

Deməli, Allah-təala orucu iman gətirənlərə vacib edir və insan orucun vasitəsilə pis əməllərdən çəkinir. Oruc tutmaq insan üçün xeyirlidir. Bu barədə də belə buyurulur:

وَأَن تَصُومُواْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

- Oruc tutmaq (çətin və məşəqqətli olsa da), sizin üçün daha yaxşıdır, əgər bilsəniz![1]

Allah-təala bu ayələrdə oruc tutmağın xeyirli bir əməl olduğunu bəyan edir. Lakin bunun hansı xeyirlərdən ibarət olduğunu açıqlamır. Bundan bilinir ki, orucun insan

[1] Bəqərə,184.

üçün çox mühüm xeyirləri var. Ayənin axırında belə buyurulur:

- Əgər bilsəniz. Yəni insanlar orucun nə qədər və hansı xeyirləri olduğunu bir o qədər də bilmirlər. Hər halda orucun insan üçün çox böyük xeyirləri vardır.

Hədislərdə orucun xeyirləri barədə açıqlama verilir. Buyurulur ki, orucun insana şəxsi və dünyəvi xeyri vardır. Məsələn, Həzrət Peyğəmbər(s) buyurur: “Oruc tutun ki, sağlam olasınız”.

Oruc barədə qeyri-müsəlman alimlər də öz müsbət fikirlərini irəli sürmüşlər. Onların bəzilərinin oruc barədə məlumatları olmasa da belə qeyd etmişlər ki, əgər insan il ərzində 25-30 günarası gündə 12 saat ac-susuz qalarsa, həmin şəxsin bədəninə bunun bir çox xeyirləri dəyər. Sonra insan həmin xeyirləri saymağa başlayır. Ümumiyyətlə, xarici alimlərin hamısı orucun insan bədəninə çox xeyri olduğunu təsdiqləyirlər. Oruc tutmağın insana həm fərdi, həm də mənəvi xeyri var. Oruc insanın ixlasını artırır.

Həzrət Əli(ə) buyurur: “Allah oruc insanların ixlasının artmasına görə təyin edib”.

Bundan əlavə, orucun ictimai xeyri də vardır. Hüşam ibn Həkəm deyir: İmam Sadiqdən(ə) soruşdular: Ey Allahın höccəti, orucun insanlara nə kimi xeyri vardır? Həzrət(ə) buyurdu: “Allah orucu təyin etdi ki, tox insanlar ac insanlardan xəbərdar olsunlar”.

Deməli, oruc insana vacib olan əməllərdən biridir. Oruc vasitəsilə insanın bədəni sağlam qalır, mənəviyyatı, ixlası çoxalır və cəmiyyətdə inananlar bir-birinin halından xəbərdar olurlar.

# Zəkat

Zəkat vermək Allahın əmrlərindən biridir. Bu əməl ictimai bir əməldir ki, Allah-təala insanlara vacibdir. Zəkat insanın öz malının Allah tərəfindən təyin olunmuş hissəsini verməsidir. Zəkat vermək həm ibadətdir, həm də xüsusilə ictimai və dünya ilə əlaqəli bir məsələdir. Həzrət Əlinin(ə) namaz qılarkən rüku halında zəkat verməsi, onu bildirir ki, zəkatla namaz bir-birinə sıx bağlı olan məsələlərdir. Allah-təala "Maidə" surəsinin 55-ci ayəsində buyurur:

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

Həqiqətən sizin başçınız və işlərinizin ağası yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən şəxslərdir.

Bu ayənin göndərilməsi barədə Abuzər Ğəffaridən(r) belə bir hədis rəvayət olunur. Abuzər deyir: "Biz Peyğəmbərlə(s) məsciddə namaz qılırdıq. Elə bu vaxt bir dilənçi məscidə daxil olub möminlərdən yardım istədi. Heç kəs ona cavab vermədi. Həmin şəxs məyus halda məsciddən çıxmaq istəyirdi ki, Həzrət Əli(ə) namazda rüku halında əli ilə ona işarə etdi. O, bu işarəni görüb Həzrətə(ə) yaxınlaşdı. Həzrət(ə) üzük taxdığı barmağı ilə ona işarə etdi. Həmin dilənçi üzüyü Həzrətin(ə) barmağından çıxarıb getdi".

Hədislərə əsasən bu ayə elə orada nazil olmuşdur. "Ğayətül-məram" kitabında əhli-sünnə alimlərindən bu barədə iyirmi dörd hədis nəql olunmuşdur. Bu rəvayəti Peyğəmbərin(s) səhabələrindən on nəfər də nəql etmişdilər ki, onlardan biri də Abuzər idi. Abuzər həmin şəxsdr ki,

Həzrət Peyğəmbər(s) onun barəsində belə buyurmuşdur: "Yer üzündə Abuzərdən düz danışan insan yoxur." Həmin Abuzər deyir ki, Həzrət Əli(ə) barmağından üzüyü verdikdə Allah-təala bu ayəni nazil etdi.

Həzrət Əli(ə) namazla zəkatı bir-birilə əlaqələndirir və məlum ayənin nazil olması ilə Quran da bu məsələni təsdiq edir.

Digər bir hədisdə nəql olunur ki, bir gün səhabələr məsciddə əyləşmişdilər. Həzrət Peyğəmbər(s) buyurdu: "Əvvəldən axıra qədər fikri heç bir yerə yayınmadan kim iki rəkət namaz qıla bilər? Hər kəs mən dediyim kimi iki rükət namaz qılsa, həmin şəxsə on dəvə verəcəyəm". Həzrət Əli(ə) dedi: "Ya Rəsulallah, mən qıla bilərəm. Ayağa qalxıb iki rükət namaz qıldı. Namazı qılıb qurtarandan sonra Peyğəmbər(s) soruşdu: Ya Əli, bu namazı qılarkən dünya haqda heç bir şey düşünmədin? Həzrət Əli(ə) dedi: Ya Rəsulallah, namazda fikrimdən bir şey keçdi. Səndən aldığım dəvələri hansı fəqirlərə paylayacağımı düşündüm. Həzrət Peyğəmbər(s) buyurdu: "Bu özü də bir ibadətdir. Namaz ibadət olduğu kimi, zəkat da Allaha ibadətdir". Sonra Həzrət Peyğəmbər(s) dəvələri ona verdi. Həzrət Əli(ə) həmin dəvələri fəqirlərə payladı.

Həzrət Əli(ə) hakim olduğu dövrdə həftədə bir gün beytülmalı paylayardı. Kimə nə qədər pay düşürdüsə, hamısını yerli-yerində paylayıb qurtarırdı. Beytülmal anbarını süpürüb qurtardıqdan sonra həmin yerdə dayanıb iki rükət namaz qılırdı. Bu o deməkdir ki, cəmiyyətin işlərini yerbə-yer etdikdən sonra ibadətlə məşğul olurdu. Namazı qurtardıqdan sonra Allahla belə minacat edirdi: "İlahi, şükürlər olsun sənə ki, beytülmalı sən buyurduğun kimi camaat arasında bölüşdürdüm". Həzrət(ə) cəmiyyətin

işləri ilə ibadəti bir-birinə əlaqələndirirdı. Yəni ibadətlə zəkat bir-birinin ayrılmaz tərkib hissəsidir.

Bir gün Həzrət Əli(ə) evə gəlib Qənbərdən evdə yemək üçün nə olduğunu soruşdu. Qənbər dedi: “Duzla çörəyimiz var. Həzrət(ə) buyurdu: Gətir gəl, bir tikə yeyək. Qənbər duz-çörəyi gətirdi. Həzrət(ə) bir az duz-çörək yeyib ayağa qalxdı”. Həmin vaxt camaat yaşayan bir yerdə suyun olmadığı barədə Həzrətə(ə) xəbər vermişdilər. Həzrət(ə) həmin yerdə bir quyu qazıb su çıxartdı və quyunu oranın əhalisinə ehsan etdi. Sonra həmin su ilə dəstəmaz alıb orada iki rükət namaz qılıb dedi: “İlahi, Sənə xatir yedim, qarnım doydu. Sənə xatir bu quyunu qazıb camaatın işinə yaradım. İki rükət namazı da Sənə xatir qılıb ibadət etdim”.

Həzrət Əli(ə) çörək yeməyi, cəmiyyətə xidməti və insanların işlərini həll etməklə namaz qılıb ibadət etməyi bir-birilə əlaqələndirirdi. Bu o deməkdir ki, bütün bunların heç biri bir-birindən ayrı deyil. Hamısı bir-birilə əlaqəli olan məsələlərdir.

## Cihad

Cihad məsələsinə nəzər saldıqda görürük ki, bu mehrabda dayanıb namaz qılmaq kimi bir əməl deyil. Müharibə meydanı yalnız savaş, qılınc və qandan ibarətdir. Islam tarixinə nəzər saldıqda görürük ki, Siffeyn müharibəsi ən şiddətli müharibələrdən biri olmuşdur. Bu müharibə ilə bağlı söz-söhbətlər tarixi kitablarda qeyd olunmuşdur. Müaviyə döyüş zamanı hiyləyə əl ataraq Quran kitablarını nizələrə taxmaqla bəzi avam və cahil müsəlmanları aldatdı. Bir sıra müsəlmanlar Həzrət Əlinin(ə) məhzərinə gəlib dedilər: “Biz bu müharibədə şəkkə düşmüşük. Onlar Quranı nizələrə taxıb müsəlman

olduqlarını bildirirlər. Biz də heç vaxt müsəlmanlara qarşı qılınc qaldırmarıq”. Həzrət Əli(ə) onları başa saldı ki, Müaviyə bu işi görməklə hiyləyə əl atıb. Onun hiylələrinə aldanmayın. Lakin cahillik və nadanlıq üzündən həmin müsəlmanlar öz qılınclarını Həzrətə(ə) qarşı çəkdilər ki, müharibəni dayandırsın. İbn Abbas deyir: “Siffeyn müharibəsinin şiddətli vaxtında gördüm ki, Əli(ə) döyüşə-döyüşə göyə baxır. Soruşdum: Ya Əmirəlmöminin, nə üçün tez-tez göyə baxırsan? Həzrət(ə) buyurdu: Baxıram ki, günorta namazının vaxtı çatıbsa, namazımızı qılaq. Soruşdum: Ya Əli(ə), əgər namazın vaxtı yetişərsə, bu halda namaz qılacağıqmı? Həzrət(ə) buyurdu: “Əlbəttə. Bizim müharibəmiz elə namaza görədir. Biz namazın qalması üçün döyüşürük”.

İmam Hüseynin(ə) həyatına və tarixinə nəzər saldıqda görürük ki, o da müharibənin şiddətli anlarında namazını qılırdı. Hamı bilir ki, Kərbəlada necə bir savaş olub. İmam Hüseynin(ə) dəstəsi yetmiş iki nəfər, Yezidin qoşunu isə otuz min nəfərdən ibarət idi. Aşura günü döyüş başlandı. Bir müddət keçmişdi ki, Əbu Sümamə İmam Hüseynə(ə) yaxınlaşıb dedi: “Ey Peyğəmbərin(s) balası, günorta namazının vaxtı yetişib. Ürəyim istəyir ki, axırıncı namazımı səninlə birgə qılım. İmam Hüseyn(ə) ona buyurdu: Namazı yad etdin, Allah səni həqiqi namaz qılanlardan qərar versin. Bəli, namazın əvvəl vaxtı yetişdi. Gedin, düşmən qoşununa deyin müharibəni saxlasınlar, biz namazımızı qılaq. Bir neçə nəfər Ömər Sədə yaxınlaşıb dedilər: “İmam(ə) buyurur ki, namaz qılmaq üçün bir neçə dəqiqə döyüşü saxlayın. Həsin Ömər Sədin qoşununda idi. O, bu sözü eşidib dedi: Sizin qıldığınız namaz qəbul deyil. Həbib ibn Məzahir onun bu sözlərindən qəzəbləndi və irəli çıxıb ona dedi: Sən elə

hesab edirsən ki, Peyğəmbərin(s)  balasının qıldığı namaz qəbul deyil, sənin namazın qəbuldur? Ey ulaq! Həbib ibn Məzahir bu sözləri deyəndən sonra onu elə oradaca şəhid etdilər. İmam Hüseyn(ə) bir neçə nəfərlə namaza başladı. Düşmən isə döyüşü saxlamayıb, ox atmağa başladılar. Həzrətin(ə) ətrafında olanlardan bir neçəsi atılan oxların qarşısında dayanıb onu mühafizə edirdilər. Öz sinələrini oxlara sipər edirdilər ki, İmama(ə) ox dəyməsin. Həzrət(ə) qanın içində orada camaat namazı qıldı. İmam Hüseyn(ə) namazını qılıb qurtarana qədər bir neçə nəfər də elə oradaca şəhid oldu.

Tasua günü Xanım Zeynəb(ə) İmamın(ə) məhzərinə gəlib dedi: “Elə bil düşmən ordusu hücuma keçmək qərarına gəlib. İmam Hüseyn(ə) qardaşı Əbülfəzli çağırıb buyurdu: Atını min, get onlardan soruş ki, nə etmək fikrindədirlər.

Həzrət Əbülfəzl gedib onlarla söhbət edəndən sonra İmamın(ə) yanına qayıtdı və dedi: Ağa, onlar döyüşə başlamaq istəyirlər.

İmam(ə) ona buyurdu: Get onlardan sabaha qədər möhlət al. Biz istəyirik bu gecə doyunca Allahımıza ibadət edib, Onunla minacat edək. Allah bilir ki, mən namazı nə qədər çox sevirəm. Mən bu möhləti yalnız və yalnız namaz qılmağa, Quran oxumağa, dua və istiğfar etməyə görə alıram.

Kərbəla şəhidləri hətta tasua günü namaz qılıb ibadət etmək üçün vaxtlarını qənimət bilirdilər. Tarixdə yazırlar ki, o gecə hamı öz çadırlarında elə minacat edirdilər ki, onların Allahla minacat səsləri arıların vızıltılı səsi kimi göylərə ucalırdı”.

Deməli, buradan da məlum olur ki, dünyanın ibadətlə bir-birilə sıx bağlılığı var. Heç vaxt dünya məsələləri

ibadətdən ayrı ola bilməz. Yəni ibadətdə dünya və axirət məsələləri bir-birilə bağlı olan məsələlərdir. Hətta cihad zamanı belə ibadət və namaz öz yerində və qaydasında olmalıdır.

## Zahidlik

Zahidlik İslamda müstəhəb və ən gözəl əməllərdən biridir. Bu əməlin müəyyən vaxtları, müəyyən məkanları vardır ki, şəriət kitablarında qeyd olunmuşdur. Zahidlik edən bir şəxs üç gün məsciddən çıxmamaq şərtilə yalnız və yalnız ibadətlə məşğul olmalıdır. Evdə və ya hər məsciddə bu əməli yerinə yetirmək olmaz. Bu əməlin xüsusi hökmləri var ki, şəriət kitablarında müfəssəl şəkildə qeyd olunmuşdur.

Bir nəfər İmam Həsənin(ə) yanına gəlib dedi: “Ağa, mənim bir çətinliyim var. Bu çətinliyimi həll etmək üçün sənin məhzərinə gəlmişəm. Həzrət(ə) ondan soruşdu: Nə çətinliyin var? Həmin şəxs öz çətinliyini Həzrətə(ə) dedi. İmam(ə)  buyurdu: Bəli, bu məsələni həll edə bilərəm. Ayağa qalxıb yola düşdülər. İmam Həsən(ə) yolda ondan soruşdu: Nə üçün sən mənim yanıma gəldin? Nə əcəb Hüseynin(ə) yanına getmədin? Həmin şəxs dedi: Ağa, eşitdim ki, Hüseyn(ə) məsciddə zahidlik edir. Buna görə də sənin məhzərinə gəldim. İmam Həsən(ə) buyurdu: “Doğrudur, o, tərkdünyalıq edib. Amma bir möminin ona işi düşdüyünü görsəydi, tərkdünyalığı pozub, həmin insanın çətinliyini həll edərdi”.

Hədislərdə deyilir ki, bir möminin digər möminə işi düşərsə və həmin mömin onun problemini həll etməyi bacardığı halda onun işini həll edərsə, bu əməlin savabı həcc savabından çoxdur. Hətta zahidlik edən şəxsin savabından belə çoxdur.

Bir daha sübut olunur ki, ibadətdə dünya ilə axirətin bir-birinə bağlılığı var. Allaha ibadət etmək insanın hədəfidir. İnsan Allaha ibadət etmək üçün xəlq olunub. İnsan hər gün Allahı yad edib ibadət etməlidir. Allah-təala möminlər üçün xüsusi bir gecə də təyin etmişdir ki, bu gecə ildə bir dəfə olur. O da Qədr gecəsidir. Bu gecə tövbə edərək ibadət və raz-niyaz edənlərdən Allahın xoşu gəlir. Qədr gecəsində hər kəs Allahın dərgahına əl uzadarsa, tövbə edib günahlarından peşmançılıq çəkərsə, Allah həmin şəxsin tövbəsini və dualarını qəbul edər.

Allah-təala bizləri Qədr gecəsinin feyzindən bəhrəsiz qoymasın. İnşallah.

***2003, 19, 21, 23 ramazan***

# DUA

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلَى رَسُول اللهِ الأَمِينِ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آله الطّاهِرِينَ سِيَّمَا بَقِيَّة الله فِى الأَرَضِين وَاللَعْنُ الدّائِم عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ اِلى يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ

İl ərzində Qədr gecəsi ən fəzilətli və şərafətli gecədir. Quranın ayələrini oxuduqda görürük ki, Quran mübarək ramazan ayında nazil olub. Digər ayədə isə Quranın Qədr gecəsində nazil olduğu bəyan olur. Deməli, bu ayələrdən belə nəticəyə gəlirik ki, Qədr gecəsi mübarək ramazan ayının gecələrindən birinə təsadüf edir. Lakin ramazan ayının hansı gecə Qədr gecəsi olması aydın deyildir. Peyğəmbər(s) və imamların hədis və rəvayətlərinə əsasən ramazan ayının 19-21-23-cü gecələrindən biri Qədr gecəsidir. Bu üç gecənin Qədr gecəsi olması barədə hədis və rəvayətlər vardır. Lakin hansının daha dəqiq Qədr gecəsi olması bizlərə aydın deyildir. Buna görə də biz Qədr gecəsinin feyzindən bəhrələnmək üçün hər üç gecəni səhərə qədər oyaq qalıb, özünəməxsus ibadətlə məşğul oluruq. Çünki Qədr gecəsi elə bir gecədir ki, Allah-təala bu gecəni bərəkətli gecə adlandırır. “Duxan” surəsinin 3-cü ayəsində buyurur:

إِنّا أَنْزَلْناهُ فِى لَيلَةٍ مُبارَكَةٍ

“Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik”.

Bu ayədən də məlum olur ki, Quran mübarək bir gecədə nazil olub. Mübarək o gecəyə, o günə, o dəqiqəyə deyilir ki, həmin anlar Allahın bərəkəti insana nazil olur. Hər hansı yerdə Allahın bərəkəti varsa, deməli həmin yer mübarək yerdir. Bu barədə və Qədr gecəsinin fəzilətləri barədə ötən bəhslərdə geniş söhbət açmışıq. İstərdim ki, mübarək olan bu gecələrdə əziz möminlər üçün dua barədə söhbət edim.

Qədr gecəsinin ən şərafətli əməllərindən biri budur ki, insan səhərə qədər yatmayıb Allaha dua etsin. Allahla raz-niyaz etmək insanın ruhunu təmizləyir. Çoxlu dua edib, Allaha yalvaran və sızıldayan insanı Allah da sevir. Allahla dostluq etmək istəyən şəxs gərək Onun qarşısında ağlayıb sızıldasın. Çünki bu əməl dostluğun şərtlərindəndir. Süleyman Peyğəmbərin(ə) zamanında bir nəfər bazarda gördü ki, cürbəcür quşlar satılır. O quşların içində bahalı bir bülbül də var idi. Həmin bülbülü alıb evinə gətirdi. Gözəl bir qəfəs düzəldib bülbülü onun içinə saldı. Hər gün bülbülə qulluq edirdi. Bülbül də onun üçün oxuyurdu. Bülbülün belə gözəl oxumağından həzz alırdı. Həmin şəxs deyir: “Günlər keçdi, aylar ötdü. Bir gün gördüm ki, başqa bir bülbül gəlib həmin qəfəsin üstünə qondu. Bir az cəh-cəh vurduqdan sonra uçub getdi. O, gedəndən sonra mənim bülbülüm daha heç nə oxumadı. Günlərlə gözlədim, amma bu bülbül oxumadı ki oxumadı. Hiss etdim ki, burada bir sirr var. Həzrət Süleymanın(ə) məhzərinə gedib bütün əhvalatı olduğu kimi ona danışdım. Başqa bülbül mənim bülbülümə nə dedi, nə demədi bilmirəm. Ondan sonra bu quşcuğaz oxumur. Həzrət Süleyman(ə) ona buyurdu: Get, bülbülü mənim yanıma

gətir. Həmin şəxs evə gəlib qəfəsi götürdü və geri qayıtdı. Həzrət Süleyman(ə) quşdan soruşdu: Ey Allahın heyvanı, sənə nə olub belə? Niyə oxumursan? Bülbül dedi: Ey Allahın Peyğəmbəri(ə), bir vaxtlar mən azad bir quş idim. Göylərdə özüm üçün süzüb rahat yaşayırdım. Günlərin birində bir neçə dənə görə tamah edib yerə qondum. Həmin dənləri yemək istəyəndə ovçu məni ovladı. Aparıb məni bu kişiyə baha qiymətə satdı. Bu kişi məni evinə gətirdi, mənim üçün gözəl bir qəfəs düzəldib qulluq etməyə başladı. Mən qəfəsin içində olduğuma görə sızıldayıb nalə çəkirdim. Bu kişi də mənim sızıldamağımdan həzz alırdı. Günlərin birində mənim kimi bir bülbül uçaraq gəlib qəfəsimin üstünə qondu. Mənə dedi ki, istəyirsən bu kişinin səndən acığı gəlsin və səni açıb azadlığa buraxsın? Dedim: Əlbəttə, istəyirəm. Həmin quş mənə dedi: Qəfəsdən çıxmağını istəyirsənsə, bundan sonra oxuma. Əgər oxumasan, sahibinin səndən acığı gələcək və səni açıb buraxacaq. Elə həmin gündən özümə söz vermişəm ki, qəfəsdə olduğum müddətdə oxumayacağam. Süleyman Peyğəmbər(ə) quşun bu sözlərindən sonra gülümsəyərək onun sahibinə buyurdu: “Bu bülbülü aç burax. Çünki bu özünə söz verib ki, qəfəsdə heç vaxt oxumayacaq. Quşun sahibi də Allah yolunda onu qəfəsdən azad edib buraxdı”.

Bu hekayəti ona görə deyiblər ki, hər bir kəs Allahın ondan xoşu gəlməsini istəyirsə, gərək Onun məhzərində ah-nalə etsin. İnsanın elə böyük ruhu vardı ki, həmin ruh Allaha bağlıdır. Quran da belə buyurur: “Mən insana öz ruhumdan üfürmüşəm. Həmin ruh insanın bədənində qəfəsə düşmüşdür. Nə vaxt qəfəsdən çıxacağını bilmir. Amma bir zaman mütləq çıxmalıdır. O ruh bu bədənin içində sızıldayan zaman Allahın bu sızıltıdan xoşu gəlir.

Bu sızıltının kəsildiyi zaman Allahın həmin şəxsdən acığı gəlir. Buna görə də Allahın ondan xoşu gəlməsini istəyən kəs sızıldamalı, Allah qarşısında ah-nalə etməlidir”.

Bir nəfər İmam Baqirin(ə) məhzərinə gəlib soruşdu: “Ey Allahın höccəti, Quran oxumaq fəzilətlidir, yoxsa dua etmək? Həzrət(ə) buyurdu: Dua etmək Quran oxumaqdan fəzilətlidir”.

İndi baxıb görək Həzrətin(ə) buyurduğu həmin dua hansı duadır ki, fəziləti Quran oxumaqdan çoxdur? Bu sualın cavabı üçün bir neçə mətləbi nəzərinizə çatdırıram.

## Duanın növləri

Ümumiyyətlə, Allaha dua etmək üç növdən ibarətdir. Hər üç qismini diqqətinizə çatdırıram. Əlbəttə, bu bəhsimizdə bir hissəsi barədə söhbət edəcəyik. Inşallah, gələn söhbətimizdə bu mövzunu davam etdirərik.

1.Birinci qism dua Allahla minacat və eşqi izhar etməkdən ibarətdir. Kumeyl duasına nəzər saldıqda görürük ki, əvvəldən axıra qədər Həzrət Əli(ə) Allahla minacat edir. Həzrətin(ə) Kumeyl adlı bir səhabəsi var idi. Bu duanı Həzrət Əli(ə) ona öyrətdiyi üçün duanın adı da Kumeyl duası kimi məşhurdur. Kumeyl deyir: “Bir gün gecələrin birində Həzrət Əli(ə) mənim əlimdən tutub buyurdu: Ey Kumeyl, gəl gedək xurma bağlarına. Orada Allaha eşqimizi izhar edək. Gecənin bir aləmində xurma bağlarında ağacın altında Əli(ə) Allahla elə minacat edib ağlayırdı ki, göz yaşı bütün saqqalını islatmışdı. Həzrət(ə) Allahla minacat edərək belə deyirdi:

يَا سَرِيعَ الرِّضَا اغْفِرْ لِمَنْ لاَ يَمْلِكُ إِلاَّ الدُّعَاءَ فَإِنَّكَ فَعَّالٌ لِمَا تَشَاءُ يَا مَنِ اسْمُهُ دَوَاءٌ وَ ذِكْرُهُ شِفَاءٌ وَ طَاعَتُهُ غِنًى ارْحَمْ مَنْ رَأْسُ مَالِهِ الرَّجَاءُ

وَ سِلاَحُهُ الْبُكَاءُ يَا سَابِغَ النِّعَمِ يَا دَافِعَ النِّقَمِ يَا نُورَ الْمُسْتَوْحِشِينَ فِي الظُّلَمِ

- Ey günahkarların (tövbə etdikləri halda) günahından tez keçən, duadan başqa bir şeyin sahibi olmayan hər bir kəsin günahlarını bağışla! Həqiqətən, Sən istədiyin hər şeyi, hər işi edənsən. Ey o kəs ki, adın dərman, zikrin şəfa, itaətin zənginlikdir. Sərmayəsi ümid, silahı ağlamaq olan bir kəsə rəhm et! Ey o kəs ki, hamıya kamil nemətlər verirsən. Ey o kəs ki, bəlanı, qəzəbi dəf edirsən. Ey qaranlıqlarda, vəhşətdə olanların qəlbinin nuru.

Bu kimi dualar insanın Allahla danışığıdır. Həzrət Əli(ə) Allahla belə minacat edərdi. Onun hər gecəsi Allahla minacat etməklə keçərdi. Bir gecə Həzrət Əli(ə) xurma bağlarında Allahla o qədər minacat edib ağladı ki, qəşş edib özündən getdi. Gəlib onu bu vəziyyətdə görürlər. Tez gedib Xanım Zəhraya(s.ə) xəbər verirlər ki, Əli(ə) xurmalıqda dünyasını dəyişib. Xanım Zəhra(s.ə) buyurur: "Xeyr, o, minacat edərkən Allaha olan eşqindən özündən gedib.

Hədislərdə deyilir ki, Allah məhzərində elə bir məqam və dərəcə var ki, həmin dərəcəyə yalnız və yalnız dua vasitəsilə yetişmək mümkündür. Başqa bir yolla həmin dərəcəyə nail olmaq qeyri-mümkündür. Namazın, orucun, həccin və s. əməllərin öz yeri var. Hər bir ibadətin öz yeri olduğu kimi, bütün bunlarla yanaşı, həmin məqama da dua vasitəsilə nail olmaq olar.

İmam Sadiq(ə) buyurur: "Allah yanında elə bir məqam var ki, ora yalnız dua vasitəsilə çatmaq olar".

Həzrət Peyğəmbər(s) buyurur: “Dünyada iki nəfər birgə Allaha ibadət edirdilər. Onların ikisi də behiştə getdilər. Lakin cənnətdə onların biri digərindən daha yüksək məqama nail oldu. Əllərini qaldırıb dedi: Ey mənim Allahım, axı dünyada biz ikimiz bir yerdə sənə ibadət edirdik. Hansı səbəbə görə o, cənnətdə yüksək, mən isə aşağı dərəcədə qərar tutdum? Allah-təala buyurdu: “O, dünyada həmişə Mənə dua edib, Məni çağırırdı. Onun dua və minacatları sayəsində Mən ona yüksək məqam əta etmişəm”.

2. Duanın ikinci növü odur ki, insan Allahdan dünya və axirət hacətlərini istəsin. İnsanın ömrü boyu daxilində həm maddi, həm də mənəvi istəkləri olur. Əgər bir insan Allahdan öz hacət və istəklərini diləyirsə, bu həmin şəxs üçün ibadət sayılır. Heç fərq etməz ki, istər maddi istəklər olmuş olsun, istərsə də mənəvi istəklər. Allahın heç bir şeyə ehtiyacı yoxdur. Çünki O, Kərim, Səxavətli və Ğənidir. İnsan isə başdan-ayağa ehtiyac içindədir. Buna görə də həmişə ehtiyacı olan, fəqir insan Kərim olan Allahın qarşısında dayanıb öz istəklərini diləyirsə, insan üçün ibadət hesab olunur. Duanın insan üçün çox böyük xeyirləri var. Dua insan üçün şəfadır.

قَالَ الصَّادِقُ(ع): عَلَيْكَ بِالدُّعاءِ فَإِنَّ فِيهِ شِفاءِ مِن كُلِّ دَاءٍ

Həzrət Peyğəmbər(s) buyurur: “Dua edin. Həqiqətən, bütün dərdlərin dərmanı duadır”.

İnsan Allahla minacat edib, Ona yalvarmalıdır. Allah-təala insana Onunla danışmağa, minacat və dua etməyə icazə verir. Allah insana Onunla danışmaq, minacat etmək qabiliyyəti verib. İnsan da gərək bu fürsətdən istifadə edib, Onunla ünsiyyət yaratsın. İnsan Allahla həm şifahi, həm də yazılı şəkildə danışa bilər. Onu

da bilmək lazımdır ki, bütün bəlaların hamısını insandan uzaqlaşdıran amil duadır.

قَالَ رَسُولُ اللهِ(ص): اِدفَعُوا اَبْوابَ البَلاءِ بِالدُّعاءِ

Həzrət Peyğəmbər(ə) buyurur: “Bəlaların qapılarını dua etməklə öz üzünüzə bağlayın”.

Burada bir incə cəhəti nəzərinizə çatdırıram. İnsan elə başa düşməməlidir ki, bəla nazil olandan sonra o, dua edib bəlanı özündən uzaqlaşdırmalıdır. Bəla nazil olmamışdan öncə dua etmək lazımdır.

Hədislərdə deyilir ki, bəla nazil olduqda insanlar Allaha yalvarmağa başlayır. Mələklər deyərlər: Bu səsi heç indiyə qədər eşitməmişik. Buna görə də həmin şəxslərin duaları qəbul olmur. Çünki bəla nazil olduqda insanın hərdənbir Allahı çağırmasıyla hacəti qəbul olunmaz. Həmişə dua edən insanlar bəla nazil olduqda belə əllərini açıb Allaha yalvardıqda mələklər deyər: Bu səs bizə çox tanış gəlir. Bu insan həmişə Allaha dua edir. Həmçinin bəla nazil olduğu bu gün də əllərini açıb Allahı səsləyirsə, onun istəkləri yerinə yetəcək.

Buna görə də insan həmişə özünü hazırlamalı, həmişə Allahla ünsiyyət yaratmalıdır. Allahdan dünya və axirət istəklərini diləməkdən əlavə, dua etmək öz-özlüyündə bir ibadətdir. Yəni insan özü dua edirsə və ya dua edənin dualarına amin deyirsə, bu, insan üçün ibadətdir.

3. Duanın üçüncü növü isə insanlar arasında olan xurafat işlərdir. İnsanlar elə başa düşürlər ki, bu işləri görməklə hansısa problemləri həll olunacaq. Məsələn, bir insanın başına bir iş gəldikdə elə başa düşür ki, kiminsə yanına gedib dua yazdırmaqla şəfa tapacaq. Yaxud camaat arasında gəzən şayiələr, "filankəsi cin vurub, ruh tutub"

kimi sözlərlə dua yazmaq və ya fal açmaq üçün hansısa falçının yanına getmək kimi əməllərin hamısı boş-boş şeylərdir. Bütün bunlar camaatın cahilliyi və nadanlığından irəli gəlir. Bütün bu kimi əməllər İslamda xurafat və cahillik hesab olunur. Düşmənlər də camaatın bu cahilliyindən istifadə edərək, öz mənfəətləri üçün bu kimi şeyləri təbliğ edirlər. Bunların hamısı boş şeylərdir.

Duada məqsəd odur ki, insanın ruhu təmizlənsin və o, həmişə Allaha səcdə və dua etsin. Həm özü, həm də möminlər bir-birini dua etməlidirlər. İnsan gərək Allahla minacat etsin. Allah qarşısında əllərini açıb hacətlərini Ondan istəsin. Allaha yalvarıb dua etmək insanın ruhunu təmizləyər və o, xəstəliklərinə şəfa tapar, mənəviyyatı artar.

## Qədr gecəsi dua etməli gecədir

Çox gözəl olar ki, insan Qədr gecəsini özünə qənimət bilib, Allaha dua, zikr etməklə məşğul olsun. Çox yaxşı olar ki, insan bu gecə öz halını dəyişsin. Yəni bu günə qədər pis yolda olubsa və ya günah iş görübsə, bu gecədən etibarən söz versin ki, bir daha həmin işləri görməyəcək. Belə olduqda, insan hidayət tapıb Allahın sevimli bəndəsinə çevrilə bilər. Burada bir rəvayəti nəzərinizə çatdırmaq yerinə düşər.

Əbu Bəsir İmam Sadiqin(ə) səhabələrindən biri idi. O deyir: “Kufədə mənim bir qonşum var idi. Çox pis bir insan idi. Hamı onun əlindən zara gəlmişdi. Nahaq işlər görər, camaatı incidər və camaatın haqqını qəsb edərək mərdimazarlıq edərdi. Onun evi pis əməllərin mərkəzinə dönmüşdü. Mən də bir qonşu kimi dəfələrlə onu görəndə öyüd-nəsihət verərdim. Lakin mənim sözlərim ona təsir etmirdi. Bir dəfə də onunla rastlaşdım. Yenə də onu başa

saldım ki, pis işlərdən çəkinsin. Dedim ki, nə vaxta qədər bu işləri görəcəksən? Hamı sənin əlindən zara gəlib. Gəl bu işlərdən əl çək. O bilirdi ki, mən İmam Sadiqin(ə) yanına tez-tez gedib gəlirəm. Buna görə də mənə dedi: Əbu Bəsir, sən İmamın(ə) yanına gedib gələn adamsan. Bu dəfə onun yanına gedəndə de ki, mənim belə bir qonşum var. Vəziyyətimi də ona danış. Bilmək istəyirəm ki, İmam(ə) mənim barəmdə nə məsləhət verəcək? Əbu Bəsir deyir: Ona söz verdim ki, İmamın(ə) məhzərinə gedəndə sözünü Həzrətə(ə) çatdıraram. Belə oldu ki, bir neçə gündən sonra İmamın(ə) məhzərinə yollandım. Həzrət(ə) Mədinə şəhərində yaşayırdı. Onun məhzərinə getdim. Bir az söhbət etdikdən sonra həmin şəxs barədə Həzrətə(ə) məlumat verərək dedim: Ağa, mənim belə bir qonşum var, hamı onun əlindən zara gəlib. Çox pis bir adamdır. Mən də hər dəfə ona öyüd-nəsihət verirəm. Amma faydası olmur. Axırıncı dəfə onu görəndə yenə də söhbət etdim. O da mənə dedi ki, sən İmamın(ə) yanına gedib gələn adamsan. Mənim vəziyyətim barədə Həzrətə(ə) danış. Bilmək istəyirəm ki, İmam(ə) mənim barəmdə nə məsləhət verəcək? Həzrət(ə) mənə buyurdu: Əbu Bəsir, qayıdandan sonra gedib bu cümləni olduğu kimi ona çatdırarsan. Ona deyərsən ki, olduğu vəziyyətini (halını) dəyişsin, mən də onun cənnətə getməsinə zamin dayanacağam.

Əbu Bəsir deyir: İşlərimi görüb İmamla(ə) sağollaşandan sonra Kufəyə qayıtdım. İmamın(ə) yanından gəldiyimi xəbər tutanlar evimizə gəlirdilər. Həmin qonşu da gəldiyimi xəbər tutub bizə gəldi. Fürsət tapıb məndən soruşdu: Mənim vəziyyətim haqda İmama(ə) söylədinmi? Dedim: Əlbəttə, danışdım. Soruşdu: Bəs İmam(ə) nə buyurdu? Dedim: Ağa mənə

belə buyurdu: Sözlərimi olduğu kimi ona deyərsən. Mən də İmamın(ə) sözlərini olduğu kimi sənə deyirəm. Ağa belə buyurdu: Ona deyərsən ki, olduğu vəziyyətini (halını) dəyişsin, mən də onun cənnətə getməsinə zamin dayanacağam.

Əbu Bəsir deyir: O, bu sözləri eşidəndən sonra bir az sükuta daldı. Baxıb gördüm ki, rəngi qızarıb. Mənə dedi: Əbu Bəsir, doğrudan deyirsən ki, ağa mənim barəmdə belə buyurdu? Dedim, əlbəttə. Bir az keçdi və bir daha soruşdu: Əbu Bəsir, ağa buyurdu ki, mən halımı dəyişsəm, cənnətə getməyimə zamin dayanacaq? Dedim, bəli ağa buyurdu ki, əgər halını dəyişsən, sənə cənnətə getmək üçün zamin dayanacağam. Sonra o durub getdi.

Bir neçə gündən sonra həmin qonşu bir nəfərlə mənə xəbər göndərdi. Durub onun evinə getdim. Qapını döydüm. O, qapını azacıq aralayıb dedi: Əbu Bəsir, hər nəyim vardısa hamısını öz əhlinə qaytardım. Kimin haqqını zorla əlindən almışdımsa, onları da qaytarmışam. Tövbə etmişəm, Allahın buyurduqlarını yerinə yetirməklə məşğulam. Hətta əynimdəki paltarları da çıxarıb vermişəm. Əynimdə az paltar qalıb. Onunla sənin qarşına çıxmağa utandığım üçün qapını tam açmadım. Ona dedim: Sən bir az gözlə, mən indi gəlirəm. Evə qayıdıb yaxşı yemək, yaxşı pal-paltar toplayıb onun evinə yollandım. Yeməyi və paltarları ona verib dedim: Mən də bunları Allaha xatir sənə hədiyyə edirəm. Gətirdiklərimi qəbul edib mənim üçün dua etdi. Beləcə biz onunla dostlaşdıq. Bir az müddətdən sonra o, xəstələnib yorğan-döşəyə düşdü. Mən də hər gün gedib ona qulluq edirdim. Bir neçə gün beləcə davam etdi. Onun ömrünün son anları yetişdi. Onu üzü qibləyə uzadıb yanında əyləşmişdik. O, gözlərini yumub son nəfəslərini alırdı. Birdən gözlərini açıb dedi:

Əbu Bəsir haradadır? Dedim, buradayam. Narahat olma. Ürəyin nə istəyir? Gülümsəyərək mənə dedi: Əbu Bəsir, sənə də hər şeyə görə təşəkkür edirəm. İmam Cəfər Sadiq(ə) mənə verdiyi vədəsinə əməl etdi. Bu sözləri deyib gözlərini yumaraq əbədi dünyaya qovuşdu. Onu aparıb dəfn etdik. Həmin il Həcc ziyarəti mənə nəsib olmuşdu. İmam Sadiq(ə) Məkkədə idi. Həzrətin(ə) ziyarətinə yollandım. İmam(ə) məni görən kimi çağırıb öz yanında əyləşdirdi. Sonra qulağıma buyurdu: “Sənin qonşun barədə verdiyim sözə əməl etdim. Ərz etdim: Ağa, o da son anlarında gözlərini açıb bu sözləri mənə demişdi”.

Qədr gecəsi çox möhtəşəm və fəzilətli gecədir. Bu gecə mən özümdə cürət taparaq Peyğəmbər(s) və Quranın buyurduğuna əsaslanaraq, cəsarətlə İmam Sadiqin(ə) kəlamını həm özümə, həm də sizlər üçün qeyd edirəm: Öz vəziyyətini və halını dəyiş. Başqa yoldasansa, Allahdan uzaqlaşmısansa, çirkab içindəsənsə, bu vəziyyətdən çıx. Özünü düzəlt və halını dəyişdir. İmam Sadiq(ə) təkcə bir nəfərə vədə verməyib. Dünyada olan bütün insanlara buyurur ki, hər kəs öz vəziyyətini dəyişib düzgün olan yola qədəm qoysa, Allah qarşısında səcdə etsə, öz bəndəliyini Ona sübut etsə, cənnəti həmin şəxsə zamin dayanar.

Heç naümid deyiləm ki, Qədr gecəsində Allaha səcdə edib, Onunla minacat edən və tövbə diləyən şəxs İmam Sadiqdən(ə) cənnəti almamış səhəri açsın. Heç naümid deyiləm ki, bu gecəni oyaq qalıb, Allahdan hacətimizi almamış səhəri gözümüzlə açaq.

Ramazan ayının 19-cu gecəsi Həzrət Əlinin(ə) çox qəribə bir halı var idi. Həmin gecə Həzrət Əli(ə) qızı Ümmi Gülsümün evində qonaq idi. İftar vaxtı yetişdi.

Ümmi Gülsüm deyir: “Axşam azanı oldu. Atam şam namazını qılıb qurtarana qədər mən də süfrə hazırladım. Onun üçün süfrəyə bir az çörək, duz və süd qoymuşdum. Atam gəlib süfrəyə baxdı və gözləri doldu. Soruşdum: Atacan, nə üçün bu haldasan? Buyurdu: Qızım, heç bu vaxta qədər görmüsənmi atan çörəklə iki cür yemək yesin? Bunlardan birini apar. Mən südü götürüb apardım. Atam, süfrə kənarında əyləşib bir neçə tikə çörək və duzla iftarını açdı. Sonra qalxıb yenə minacat etməyə başladı. O gecə atam səhərə qədər Allaha ibadət edir və belə dua edirdi: “İlahi, ölümü mənə mübarək et!” İmam(ə) o gecə tez-tez həyətə çıxıb göyə baxır və bu sözləri təkrar edirdi. “And olsun Allaha ki, nə mən yalan deyirəm, nə də mənə deyilən sözlər yalandır. Bu gecə həmin vədə verilmiş gecədir.”

Nəhayət, sübh namazının vaxtı yetişdi. Həzrət(ə) namaz qılmaq üçün evdən çıxarkən həyətdə olan ördəklər İmamın(ə) ətəyindən tutub, Həzrətin(ə) məscidə getməsinə mane olurdular. Sanki ördəklər də İmamın(ə) şəhid olacağını hiss edirdilər. Buna görə də evdən çıxmasını istəmirdilər. Həzrət Əli(ə) qızı Ümmi Gülsümü səslədi və buyurdu: “Qızım, bu ördəklərə dən ver.” İmam(ə) qapıdan çölə çıxarkən əbası qapının cəftəsinə ilişdi. O gecə sanki, qapı da İmamın(ə) məscidə getməsini istəmirdi. İmam(ə) Kufə məscidinə daxil oldu. İbn Mülcəm məsciddə üzü üstə yatmışdı. Həzrət Əli(ə) onu yuxudan oyadıb buyurdu: “İbn Mülcəm, üzü üstə yatma. Çünki bədbəxt adamlar həmişə üzü üstə yatar.” İstəyirsənmi, məscidə gəlməyinin səbəbini və əbanın altında gizlətdiyin barədə sənə xəbər verim? Sonra İmam(ə) sübh namazını qılmaq üçün ibadət mehrabına daxil oldu. Sübh namazı başlandı. İmam(ə) səcdədən başını qaldıran kimi, İbn Mülcəm zəhərli qılıncı

Həzrətin(ə) mübarək başına endirdi. İmam Əli(ə) buyurdu: “And olsun Kəbənin Rəbbinə, azad oldum!”

Allahın əziz mələyi Cəbrayıl(ə) göylərdən securesləndi: Əlini(ə) şəhid etdilər. And olsun Allaha ki, hidayətin sütunları qırıldı.

Məscidin mehrabı al qana boyandı. Həzrət(ə) başından qan axa-axa bu ayəni tilavət etdi:

مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَى

- Sizi ondan (torpaqdan) yaratdıq (öləndən sonra) ona qaytaracaq və bir daha (qiyamətdə) ondan çıxaracağıq.

Allah-təala Qədr gecəsinin feyzini bizlərə nəsib etsin. Allah dünya və axirətdə bizi Həzrət Əlidən(ə) ayırmasın, inşallah.

## Duanın şərtləri

Qədr gecəsinin ən şərafətli və fəzilətli əməllərindən biri Allahla minacat edib, dua oxumaqdan ibarətdir. İnsan Allahla əlaqəsini möhkəmləndirməli və Onunla dost olmalıdır. İnsanın ruhu Allahın ruhundandır. İnsanın Allahla əlaqə yaratdığı zaman Allah onun ruhuna mənəvi zövq verir. Həmin mənəvi zövq insana böyük ruhiyyə bəxş edərək, onun ruhunu qidalandırır. Ötən bəhslərdə dua barədə bir neçə ayə və hədisi nəzərinizə çatdırdım. Bu gecə istərdim ki, duanın şərtləri barədə söhbət açaq.

Dua etməyin müəyyən şərtləri var. Hər bir dua edən şəxs dualarından həzz almaq üçün mütləq həmin şərtləri öyrənib onlara riayət etməlidir. Əgər insan bu şərtlərə əməl edərək Allaha dua edərsə, o zaman insanın ruhu mənəvi dəyərlərlə zənginləşəcək. Özümüzə nəzər saldıqda görürük ki, bizdə dua etmək üçün hal yoxdur. Amma elə

insanlar var ki, şövqlə dua oxuyur və oxuduqları dualardan ləzzət alırlar. Nə üçün biz dua edərkən ləzzət ala bilmirik? Bunun səbəbi insanın öz əməl və düşüncəsi ilə bağlıdır. Duadan ləzzət almamağın səbəbini insan özündə axtarmalıdır. Ruhi xəstə olan insan heç vaxt duadan ləzzət ala bilməz. Bunun üçün bir misalı nəzərinizə çatdırıram. Gözəl bir məclisdə süfrəyə ətirli, dadlı yeməklər hazırlayıb gətirirlər. Hamı həmin yeməklərdən ləzzətlə yeyib dadına heyran qalırlar. Amma bir nəfər xəstə olduğu üçün yeməklərdən ləzzət ala bilmir. Deməli xəstəlik nəticəsində həmin yeməklərdən yeyə bilmir. Bəzən insan elə xəstələnir ki, ən sevimli yeməyə belə baxdıqda ürəyi bulanır. Xəstəliyin şiddətindən ən sevimli yeməyindən ləzzət almaması bir tərəfə, hətta onun adını belə eşidəndə narahat olur.

Deməli, əgər insan mənəvi dəyərlərdən də ləzzət ala bilmirsə, nöqsan onun özündədir. Bu insan özünü müalicə etməlidir. Nə qədər ki, müalicə olunmayıb, namazdan, Qurandan və dualardan ləzzət ala bilməyəcək.

Peyğəmbərlərin birinin zamanında bir nəfər həmin peyğəmbərə deyir: Bəs sən deyirdin ki, əgər mən Allaha itaət və ibadət etməsəm, məni böyük bir bəlaya düçar edəcək. Amma mənə heç bir şey olmayıb. Allah-təala həmin peyğəmbərə buyurdu: Ey Mənim peyğəmbərim, ona de: Mən onu elə bir bəlaya düçar etmişəm ki, o, heç bir vaxt ibadətin, duanın ləzzətini hiss edə bilməyəcək. Onun bu xəstəlikdən xəbəri yoxdur.

Dualardan, ibadətlərdən və mənəvi dəyərlərdən ləzzət ala bilməmək insan üçün ən ağır dərddir. İnsan elə bir məxluqdur ki, Allah ona minacat etməyə, söhbətləşməyə qabiliyyət vermişdir. İnsan Allahla hər cür minacat edə bilər. Həm şifahi, həm də yazılı şəkildə. Allah

rəhmət etsin şəhid Saniyə. Onu zindana salmışdılar. O zamankı həbsxanalar açıq həyət və uca divarları olan zindanlardan ibarət idi Şəhid Sani neçə müddət idi ki, zindanda idi. Bir gün o, Allahla minacat etmək qərarına gəldi. Qələm-kağız götürüb belə yazdı: "Bismillahir-Rəhmanir-Rəhim. İlahi, mən burada məğlub oluram. Sənin düşmənlərin məni çox incidir. Mənə yardım et".

Bu sözləri yazıb kağızı havaya atdı. Kağız göyə qalxıb gözdən itdi. Bir az keçməmişdi ki, həmin kağız geri qayıtdı. Şəhid Sani kağızı götürüb baxanda gördü ki, cavab gəlib. Məktubun cavabında bu cümlələr yazılmışdı: "Bismillahir-Rəhmanir-Rəhim. Əgər Mənim bəndəmsənsə, səbr et".

Allah-təala insanlara həm şifahi, həm də yazılı şəkildə minacat etməyə icazə verir. Allah-təala Öz qapılarını insanların üzünə hər zaman açıq qoyub. Lakin eyb və nöqsan insanın özündədir ki, bu qapılara tərəf getmir. Odur ki, hər hansı bir insan Allaha dua edirsə, dualarının qəbul olunması üçün mütləq onun şərtlərinə riayət etməlidir. Duanın qəbul olunmasının şərtlərini nəzərinizə çatdırıram:

**1. Mərifətlə dua etmək**

Duaların qəbul olunmasının birinci şərti budur ki, insan Allaha mərifətlə dua etməlidir. Əgər mərifəti olmayan bir insan Allaha dua edərsə, etdiyi dua qəbul olunmayacaq və heç bir faydası dəyməyəcək. Bir qrup müsəlman İmam Sadiqin(ə) məhzərində əyləşmişdi. Dedilər: "Ey Allahın höccəti, nə üçün biz dua edərkən dualarımız qəbul olmur? Həzrət(ə) buyurdu: Çünki dua etdiyiniz kimsəni tanımırsınız. (Yəni çağırdığınız Allaha mərifətiniz yoxdur). Sonra Həzrət(ə) bu ayəni tilavət etdi:

فَلْيَسْتَجِيبُواْ لِي وَلْيُؤْمِنُواْ بِي

- Odur ki, Mənim dəvətimi qəbul etsinlər və Mənə iman gətirsinlər ki, bəlkə yolu tapdılar.[1]

Allaha dua etməyin şərti odur ki, insan Allaha iman gətirsin və Onu tanısın. Sonra Həzrət(ə) buyurdu: "Mərifətin ilk pilləsi odur ki, Allah-təala buyurur: Dua edən kəslərin möhkəm imanları və əqidələri olmaqla yanaşı, bilməlidirlər ki, Məndə onların bütün hacət və istəklərini yerinə yetirməyə qüdrət var".

Deməli, insan Allahı tanımadan və Ona mərifəti olmadan dua edərsə, etdiyi dualar nəticəsiz qalacaq. Çünki duada ən əsas şərtlərdən biri Allahı layiqincə tanımaqdır. Mərifətin də ilk pilləsi odur ki, insan iman və möhkəm əqidə ilə yanaşı, Allahın bütün hacət və istəkləri yerinə yetirməyə qüdrəti olduğunu başa düşsün. Mərifət insan üçün ən mühüm məsələlərdən biridir. Mərifətsiz insan mənəviyyata malik ola bilməz.

Mərifəti olmayan insanın duaları qəbul olunmaz. Hər kəs Allahı tanımadan dua edirsə, bilməlidir ki, etdiyi dualar nəticəsiz qalacaq. İnsanda öncə mərifət olmalıdır ki, duaları qəbul edilsin. İnsan əvvəl getdiyi yeri müəyyən etməli və sonra həmin yerə getmək üçün özünü hazırlamalıdır. İnsan dua edərkən, namaz qılarkən kimin qarşısında dayandığını dərk etməlidir. Peyğəmbər(s), Xanım Fatimeyi Zəhra(s.ə) və imamlar barədə yazırlar ki, namaz qılmaq üçün dəstəmaz alarkən Allahın əzəmətindən onların üzlərinin rəngləri dəyişirdi. Namaz qılarkən ürəkləri döyünürdü. Çünki onlar kimin qarşısında

---

[1] Bəqərə.186

dayandıqlarını çox gözəl bilirdilər. Buna görə də hər kim Allahın əzəmətini başa düşüb kimin qarşısında dayandığını bilsə, əlbəttə, duaları qəbul olar. Belə olduqda insan etdiyi dua və ibadətlərindən zövq alar.

Həzrət Məryəm(s.ə) İsa Peyğəmbərin(ə) anasıdır. Quranda o xanımın adına Məryəm adlı bir surə nazil olmuşdur. O, çox müqəddəs və nurani bir insan idi. Bir gün Məryəmdən soruşdular: “Ey Məryəm, dünyada ən çox nəyi sevirsən? Məryəm(s.ə) belə cavab verdi: Qışın ən çılğın və soyuq vaxtında gecə yarı yuxudan durub, buz bağlamış suyun buzunu sındırıb, onun altındakı su ilə dəstəmaz aldıqdan sonra mehrabda dayanaraq Allahıma ibadət etməyi hər şeydən çox sevirəm”.

Həzrət Xanım Fatimeyi Zəhra(s.ə) barədə yazırlar ki, namaz qılarkən rükuda yüz dəfə "Sübhanə Rəbbiyəl Əzimi və bihəmdih" deyərdi. Çünki kimin qarşısında dayandığını bütün qəlbilə hiss edirdi. O böyük xanımın Allaha dərin mərifəti var idi. O, rükuda olarkən Allah-təala göyün pərdələrini kənara çəkib mələklərə buyurdu: “Mən insanı yaradarkən siz deyirdiniz ki, yaratma. İnsan gəlib yer üzündə qan tökəcək. İndi isə baxın Mənim bəndəmə. Mən dünyanı qan tökən və günahkar insanlara görə yaratmamışam. Mən bütün aləmi qan töküb fəsad edənlərə görə deyil, baxın, bu bəndəmə görə xəlq etmişəm”.

Odur ki, duaların qəbul olmasının birinci şərti mərifətdir. İnsan ibadət və dua edərkən kimin məhzərində dayandığını başa düşməlidir.

**2. Mərifətin tələblərinə uyğun əməl etmək**

Duanın qəbul olunmasının ikinci şərti budur ki, mərifətin (Allahı tanımağın) tələblərinə uyğun şəkildə əməl olunmalıdır. İnsan Allahı tanıdıqdan sonra boynuna

düşən ikinci təklifə riayət etməlidir. Nə qədər ki, tanımırdı, vəzifəsi tanımaq və mərifətli olmaq idi. Mərifət tapdıqdan sonra öz borcunu yerinə yetirməlidir. Bu məsələnin daha aydın olması üçün bir misalı nəzərinizə çatdırıram. Elə bil ki, böyük bir şəxsiyyətin adını eşitmisən, lakin üzünü görməmisən. Bir məclisdə əyləşdiyin zaman bir nəfər içəri daxil olur. Hamı onu gördükdə ayağa qalxıb hörmətlə onu qarşılayırlar. Onun kim olduğunu soruşduqda adını eşidib özünü görmədiyin şəxsin adını çəkirlər. Bir zaman adını eşitmişdin, amma tanımırdın. Lakin indi həmin şəxsi tanıdın. Bu vaxta qədər tanımırdın. Bu gün məclisdə onu tanıdın. Tanıdıqdan sonra nə etmək lazımdır? Həmin hörmətli şəxs məclisə daxil olduqda ayağa qalxmalı və ehtiram göstərməlisən. Tanıdığın hörmətli bir şəxs məclisə daxil olduqda, arxası ona sarı əyləşib ehtiramsızlıq etmək mümkün deyil. Deməli, insan mərifət tapdıqdan sonra onun tələblərinə uyğun əməl etməlidir. Yəni insan Allahı tanıdıqdan sonra bu mərifətin tələblərini yerinə yetirməlidir.

İnsan yaranmamışdan öncə Allah onunla əhd-peyman bağlayır və yalnız bundan sonra onu yaratmışdır. Bu barədə Qurani-Kərimdə açıq-aşkar bəyan olunmuşdur. Hətta hansı əhd-peyman bağlandığı barədə də söhbət edilir.

“Əraf” surəsinin 172-ci ayəsində buyurur:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى

- O zaman sənin Rəbbin Adəm övladlarından – onların bellərindən övladlarını çıxartdı (dünyaya gətirməzdən oncə) və onları özlərinə şahid tutdu ki: «Mən

sizin Rəbbiniz deyiləmmi?» Onların hamısı: «Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik» - dedilər.

Bu mübarək ayədə Allah-təala insandan söz aldığını bəyan edir. Həmçinin ilk aldığı söz və bağladığı əhd-peyman Onun rübubiyyəti və allahlığı idi. Yəni insan Allaha ibadət və itaət edəcəyini söz vermişdi. Lakin insan bu dünyaya gəldikdən sonra bu vəd yadından çıxmışdır. Elə buna görə də Allah-təala peyğəmbərləri göndərmişdir ki, bağladığı əhd-peymanı insanların yadına salsınlar. Deməli, bütün insanlar Allahın varlığı və tövhidinə şəhadət verərək dünyaya gəlmişlər.

İnsanın Allaha verdiyi vədlərdən biri də dünyaya gələndən sonra şeytana ibadət etməyəcəyidir. Yəni bütün insanlar şeytana ibadət etməyəcəklərini Allaha söz veriblər. Bu barədə “Yasin” surəsinin 60-cı ayəsində belə buyurur:

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

- Ey Adəm övladı, məgər Mən sizinlə əhd bağlamadımmı «Şeytana ibadət etməyin! Şübhəsiz, o sizin açıq – aşkar düşməninizdir?!»

İnsanın Allaha verdiyi sözlərdən və bağladığı əhd-peymanın üçüncüsü Həzrət Əlinin(ə) vilayətidir. İnsan dünyaya gəlməmişdən öncə Allah-təala ondan Həzrət Əlinin(ə) vilayəti barədə vəd almış və sonra onu yaratmışdır. Tövhid və şeytana ibadət etməyəcəyi barədə insandan vəd aldığı kimi, Həzrət Əlinin(ə) vilayətini də vəd almışdır. İnsan dünyaya gəldikdən sonra bütün bu vədlər yadından çıxır. Haqq tərəfindən göndərilən peyğəmbərlər bütün bunları insanların yadına salmaq üçün göndərilmişdir.

Odur ki, biz Allaha Əli(ə) barədə vəd verib dünyaya gəlmişik. İnsan bunu həmişə yadına salmalı və verdiyi vədlərə xilaf çıxmamalıdır.

قالَ الباقِر(ع) فِي قَولِهِ تَعالى: وأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ قَالَ: أَوْفُواْ بِوِلايَتِ عَلِيٍّ ابْنِ اَبِى طالِب(ع) اَوفِ لَكُم بِالْجَنَّة

Həzrət İmam Baqir(ə) buyurur: “Allah-təalanın buyurduğu "Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim" ayəsinin mənası budur ki, siz Əli ibn Əbi Talib(ə) barədə verdiyiniz sözə əməl edin, Mən də sizə vəd etdiyim cənnəti bəxş edim”.

İbn Abbas deyir: “Həzrət Peyğəmbərin(s) ömrünün axır vaxtlarında mən Həzrətin(s) məhzərində idim. Həzrət(s) mübarək üzünü bizə tutaraq buyurdu: Həzrət Adəm(ə) dünyadan gedərkən öz vəsisi Şiysi[1] övladlarına və nəslinə vəsiyyət edərək belə dedi: Mənə söz verin ki, məndən sonra vəsimə tabe olub, ona itaət edəcəksiniz. Camaat söz verib əhd-peyman bağladı. Lakin Adəmdən sonra öz vədlərinə əməl etmədilər. Həzrət Nuh(ə) dünyadan gedəndə camaata öz vəsisi olan Samı tapşırdı və camaatdan söz aldı. Lakin təəssüflər olsun ki, Nuh(ə) dünyasını dəyişəndən sonra camaat vədinə xilaf çıxdılar. Həzrət İbrahim(ə) oğlu İsmayılı vəsi təyin edib camaatdan ona itaət etməyi vəd aldı. Lakin təəssüflər olsun ki, İbrahim(ə) dünyasını dəyişəndən sonra camaat öz vədlərinə vəfa etmədilər. Həmçinin Musa Peyğəmbər(ə) Yuşə ibn Nunu və İsa Peyğəmbər(ə) Şəmun ibn Həmun Əs-səfanı özündən sonra vəsi təyin etdilər və camaatla əhd- peyman bağladılar ki, onların vəsilərinə itaət etsinlər.

---

[1] Şiys Adəmin sonuncu övladı idi.

Lakin təəssüflər olsun ki, onlar da dünyadan gedəndən sonra camaatın əksəriyyəti bağladığı əhd-peymanlarını sındırdılar”.

İbn Abbas deyir: “Sonra Həzrət Peyğəmbər(s) belə buyurdu:

وَقَد عَهَدْتُ اِلى اُمَّتِى فِى عَلِيِّ ابْنِ اَبِى طالِب

وَإِنِّى مُجَدِّدٌ عَهْدِى فِى عَلِى اِبْنِ اَبِى طالِب فَمَنْ نَكَثَ فَإِنَّما يَنْكُثُ

عَلى نَفْسِهِ وَ مَن اَفى بِما عاهَدَاللهِ فَسَيُؤْتِيهِ اَجْرَاً عَظِيماً

- Mən də Əli ibn Əbi Talib barədə öz ümmətimlə əhd bağladım. Bu gün Əlinin barəsində sizinlə öz əhdimi bir daha təzələyirəm. Hər kəs bağladığı əhd- peymanını sındırarsa, özünü sındırmışdır. Hər kəs Allaha verdiyi vədinə vəfalı olsa, Allah ona böyük əcr inayət edəcək.

Bu hədisdən başa düşürük ki,  əgər bir insan peyğəmbərlə əhd-peyman bağlayırsa, həqiqətdə Allahla əhd bağlayır. Həzrət Əlinin(ə) vilayətini Allah insanlardan vəd alır. İnsan əgər peyğəmbərlə əhd bağlayırsa, deməli Allahla əhd bağlamış olur. Hər kəs öz əhdini sındırsa, özünə ziyan etmişdir. Əhd-peymanına vəfalı olanlara isə Allah-təala böyük savab və əcr verəcəkdir.

اِنَّ العَبْدَ اِذا دَعا اللهَ تَعالى بِنِيَّةٍ صادِقَه وَ قَلْبٍ مُخْلِص أُسْتُجِيبَ لَهُ بَعْدَ وَفائِهِ بِعَهْدِاللهِ عَزَّوَجَلَّ..اليس الله يَقُول: أَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ

İmam Sadiq(ə) buyurur: "Həqiqətən bəndə Allahı saf niyyətlə və təmiz ürəklə çağırıb dua edərsə, Allahla bağladığı əhdinə vəfalı olarsa, həmin şəxsin duası yerinə

yetəcək. Necə ki, Allah buyurur: Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim."

Odur ki, insan Allahı tanıdıqdan Ona mərifəti olduqdan sonra bu mərifəti doğrultmaq üçün Allahla bağladığı əhd-peymanına vəfalı olmalıdır. Belə olduqda Allah insanın duasını qəbul edər. Tarix boyu duaları qəbul edilmiş insanların şahidi olmuşuq. Həmçinin öz dövrümüzdə də belə insanlar vardır. Ustadlardan biri deyir: “Bir gün bazarların birində idik. Bir uşaq bazarın damının üstünə çıxıb oynayırdı. Birdən uşağın ayağı büdrəyərək yerə yıxıldı. Bazarda işləyən fəhlələrdən biri əli ilə uşağa işarə edib dedi: Allahın izni ilə dayan. Damdan yıxılan uşaq yerə çatmamış göydən asılı vəziyyətdə qaldı. Fəhlə həmin uşağı götürüb yerə qoydu. Bütün bu hadisənin şahidi olan camaat fəhlənin ətrafına toplaşdılar və onun müqəddəs bir insan olduğunu bir-birinə söylədilər. Hətta onun peyğəmbər və ya seçilmiş bir insan olduğunu deyənlər də oldu. Həmin fəhlə dedi: Mən nə peyğəmbərəm, nə də seçilmiş insanam. Allahın sadə bəndəsiyəm. Bir ömür Allah mənə nə buyurubsa, hamısını yerinə yetirmişəm. Bir dəfə də mən Allahdan xahiş etdim, O da yerinə yetirdi”.

Bu hadisənin üstündən elə bir zaman ötməyib. Həmin fəhlə hələ də sağdır. Bu kimi hadisələr insana qəribə gəlməməlidir. Hər kəs Allahla münasibətini yaxşı etsə və Allahın buyurduqlarını yerinə yetirsə, Allah da həmin şəxsin istək və dualarını qəbul edər. Allah-təala bu imkanı bütün insanlar üçün yaratmışdır. Öz qapılarını insanların üzünə açıq qoyub. Belə deyil ki, Allahın sevimli bəndəsi mütləq müctəhid, şeyx və yaxud seyid olmalıdır. Hər kəsə Allahın bu qapılarından daxil olmağa icazə

verilir. Bir sözlə desək, hər kəs Allaha itaət etsə, Allah həmin şəxsi ucaldar və dualarını qəbul edər.

Bir nəfər Həzrət Peyğəmbərin(s) məhzərinə gəlib dedi: “Ya Rəsulallah, görəsən qiyamətdə mən harada olacağam? Həzrət Peyğəmbər(s) buyurdu: Əgər gözlərini naməhrəmdən, dilini haram söhbətlərdən, qulaqlarını haram sözlər eşitməkdən, boğazını və qarnını haram yeməklərdən qorusan, qiyamət günü mənim yanımda olacaqsan”.

Söban Həzrət Peyğəmbərin dostlarından biri idi. Bir gün o, Quran oxuyarkən cəhənnəm ayələrindən birinə rast gəldi. Ağlaya-ağlaya Peyğəmbərin(s) evinə getdi. Həzrət Peyğəmbər(s) buyurdu: “Söban, sənə nə olub? Söban dedi: Ya Rəsulallah, mən Quran oxuyarkən birdən fikrimə gəldi ki, görəsən qiyamət günü mənim yerim hara olacaq? Həzrət(s) buyurdu: Söban, məgər sən məni sevmirsənmi? Söban dedi: Ya Rəsulallah, canım sənə fəda olsun, səni çox sevirəm. Həzrət(s) buyurdu: Məgər bilmirsənmi hər kəs məni sevsə, qiyamət günü mənimlə bir yerdə olacaq? Əgər məni sevirsənsə, deməli qiyamət günü mənimlə bir yerdə olacaqsan. Lakin bu eşqin və məhəbbətin şərtlərinə əməl etməlisən”.

Deməli, hər kəs Allahı sevirsə və Onun aşiqidirsə, mütləq bu eşqin şərtlərinə əməl etməli və ibadət etməlidir. Dildə aşiqəm, Allahı çox sevirəm deməklə işlər qaydasına düşməz. Aşiq olan kəs ibadət etməli, gecə-gündüz öz məşuqunu yad etməlidir. Belə olduqda həmin şəxsin minacatı və duaları Allah dərgahında qəbul olar.

### 3. Halal qazanc və halal yemək

Əgər bir insan dualarının qəbul olmasını istəyirsə, həmin şəxsin alveri, qazancı, maaşı və yeməkləri mütləq

halal olmalıdır. Bu duaların qəbul olunmasında ən əsas şərtlərdəndir. Çünki haram qazanc və haram maaşla nə dua etmək olar, nə də dualar qəbul edilər.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ العَبْدَ لَيَرْفَعُ يَدَهُ اِلَى اللهِ وَ مُطْعَمُهُ حَرامٌ فَكَيفَ يُسْتَجابُ لَهُ وَهَذا حالَه؟

Həzrət Peyğəmbər(s) buyurur: “Yeməyi, qazancı haram olan şəxs əllərini qaldırıb Allaha dua etdikdə, onun duaları necə qəbul ola bilər?”

Əgər insan Allaha mərifət tapırsa və mərifətin şərtlərinə əməl edirsə, haram yeməklərdən və qazanclardan çəkinməsi vacibdir.

Bir nəfər Həzrət Peyğəmbərin(s) məhzərinə gəlib dedi: “Ya Rəsulallah, mən istəyirəm dualarım qəbul olunsun. Həzrət Peyğəmbər(s) buyurdu: Yeməklərini təmizləyib paklaşdır və qarnına haram daxil olmasına imkan vermə”.

Qarnı haram yeməklərdən qorumaq duaların qəbul olunmasının ən əsas və mühüm şərtlərindəndir. İnsanın yeməyi, qazancı, gəliri haram olarsa, mümkün deyil ki, həmin şəxsin duası qəbul olunsun. Qarında haram yemək olarsa, dualar qəbul edilməz. Bu barədə Peyğəmbər(s) və imamlardan bir çox hədislər var. Bütün bu hədislərdən açıq-aydın başa düşülür ki, haram qazanc, haram yeməklər insanın duasının qəbul olunmasının qarşısını kəsir.

Həzrət Musa Peyğəmbərin(ə) zamanında bir nəfər günlərlə ağlayıb Allaha yalvarırdı. Onun hansısa bir istəyi var idi. Əllərini göyə qaldırıb Allaha dua edirdi ki, onun bu istəyini inayət etsin. Lakin nə qədər dua edirdisə, duaları qəbul olunmurdu. Həzrət Musanın(ə) həmin şəxsə yazığı gəldi. Allahla minacat edərək dedi: “İlahi, o şəxsin

duasının qəbul olunmamasının səbəbi nədir? Allah-təala Musaya(ə) belə vəhy etdi: O, hər nə qədər dua etsə də belə onun dualarını qəbul etməyəcəyəm. Çünki onun qarnında da, evində də haram var".

Deməli, insanın qazancı, alveri haram olarsa və evində və qarnında haram yeməklər olarsa, həmin şəxsin duaları qəbul edilməyəcək. Buna görə də duaların qəbul olunması üçün insan mütləq qazancını, alverini, evini və qarnını haramlardan təmizləməlidir.

**4. Səmimi qəlbli və diqqətli olmaq**

İnsanın dualarının qəbul olunmasının şərtlərindən biri də budur ki, insan Allaha dua edərkən diqqətlə, ixlasla, saf ürək və səmimi qəlblə dua etməlidir. İnsan yuxulu-yuxulu, fikri özündə olmadığı hallarda dua etməməlidir. Böyük bir şəxsiyyətin hüzuruna gedərkən insan özünü necə hazırlayırsa və onun qarşısında necə diqqətlə dayanırsa, eləcə də Allahın qarşısında daha artıq diqqətlə və hazırlıqlı halda dayanıb dua etməlidir. İnsan əgər Allahla minacat edərkən onun qarşısında diqqətlə və səmimi qəlblə dayanıb dua edərsə, həmin şəxsin duası qəbul olunar.

قَالَ رَسُولُ اللهِ(ص): اِغْتَنِمُوا الدُّعاءَ عِنْدَ الرِّقَّة فَإِنَّهَا رَحْمَةٌ

Həzrət Peyğəmbər(s) buyurur: "Qəlblərinizin yumşalıb saflaşdığı və diqqətinizin cəmləşdiyi an dua etməyi qənimət bilin. Həqiqətən, bu (belə bir halda olmaq) Allahın rəhmətidir".

İnsanın halı dəyişkən olur. Bəzən insanın halı qəmgin, ürəyi yumşaq və gözləri həzinləşir. Belə bir vaxt insan bu halı qənimət saymalı və Allaha dua etməyi çox gözəl olar. Çünki belə bir halda insan dua edərkən dualar

geri qayıtmaz. Lakin qəflət halında dua etməyin heç bir mənası olmayacaq. Bu barədə də bir çox hədislər vardır.

قَالَ رَسُولُ اللهِ(ص): اِعْلَمُوا اَنَّ اللهَ لاَ يَسْتَجِيبُ دُعاءً مِن قَلْبٍ غَافِلٍ لاهٌ

Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, Allah qəlbi qəflətdə olan insanın duasını müstəcəb (qəbul) etməz."

Ümumiyyətlə, insan hər bir dəqiqəsini qənimət bilməlidir. Allahın rəhmət qapıları hər an insanların üzünə açıqdır. Hər hansı bəndə Allahın qapısına gəlsə, Allah onu naümid qaytarmaz. Xüsusilə orucluq günləri və Qədr gecələri insanın hər dəqiqəsini Allahla minacat edib dua etməsi çox gözəldir.

## Dua etməyin ədəb-ərkanı

Çox yaxşı olar ki, insan dua edərkən duanın ədəb-ərkanına riayət etsin. Çünki duaların qəbul olunmasında ədəb normalarına riayət etməyin çox böyük təsiri vardır. Dua etməyin ədəb-ərkanını qısaca da olsa əziz möminlərin nəzərinə çatdırıram:

1. Dua edərkən "Bismillahir-Rəhmanir-Rəhim" deyilməlidir;

2. Allahın adlarını dilə gətirib Onu çağırmaq. Yəni duanın əvvəlində Allahın rəhmətini, əzəmətini, kəramətini və s. adlarını yad edib duaya başlanılmalıdır;

3. Peyğəmbərə(s) və Əhli-beytinə(ə) salam və salavat göndərmək. Həzrət Əli(ə) buyurur: "Dua edərkən duaların əvvəlində və axırında Peyğəmbər(s) və onun Əhli-beytinə(ə) salavat göndərdikdə Allah-təala həmin duaları mütləq qəbul edər. Çünki hər kim Peyğəmbər(s) və onun

Əhli-beytinə(ə) salavat göndərsə, mümkün deyil ki, Allah-təala o salavatı və duaları qəbul etməsin. Ola bilməz ki, Allah duaların əvvəlini və axırını qəbul edib ortalarını qəbul etməsin;”

4. Dualarda Allaha «şəfi» gətirmək. Yəni Allaha vasitə ilə yaxınlaşmaq, Peyğəmbər(s) və Əhli-beytinə(ə) and verib dua edilməlidir;

5. Dua edərkən insan öz günahlarını Allah qarşısında dilinə gətirib bağışlanmasını diləməlidir. İnsanın Allah qarşısında günahını dilinə gətirməsindən onun xoşu gəlir. Belə olduqda həmin şəxsi bağışlayır;

6. Dua etməyə başlamazdan öncə insan heç olmasa iki rükət namaz qılmalıdır;

7. Sızıltı ilə və yalvara-yalvara dua etmək. Çox yaxşı olar ki, insan Allah qarşısında sızıltı ilə acizanə dua etsin. İmam Hüseyn(ə) buyurur: “Cəddim Peyğəmbər(s) dua edərkən ac dilənçinin kimdənsə yalvara-yalvara çörək istədiyi kimi, Allah qarşısında dua edib yalvarırdı”;

8. Hamıya dua etmək. Dua etməyin ədəblərindən biri budur ki, insan dua edərkən hamıya dua etsin. Təkcə özünə dua etməklə kifayətlənməsin. Çox yaxşı olar ki, insan bütün müsəlmanlara, valideynlərinə, qonşularına, rəhmətə gedənlərə və qohum-əqrəbasına da dua etsin;

9. Gizlicə dua etmək. Yəni insan duanı yanındakıların eşidəcəyi qədər ucadan deməməlidir. Allahdan nə istədiyini kimsə eşitməməli, istəklərini dilinə gətirib elə deməlidir ki, yanında əyləşənlər eşitməsinlər;

10. Dua etməyin ədəblərindən biri budur ki, cəmiyyətdə dua edilsin. Yəni bir yerə cəmləşib dua etmək çox yaxşıdır. İmam Sadiq(ə) buyurur: “Atam hər hansı bir çətinliklə qarşılaşdıqda, ailə üzvlərini çağırardı və bir

yerdə əyləşib dua etdikdən sonra buyurardı: Allahın xoşu gəlir ki, insan cəmiyyət arasında dua etsin”;

11. Duaya xoş münasibət bəslənilməlidir. Dua edərkən insan bədbin olmamalıdır. Yəni, insan dua edərkən duasının qəbul olacağına arxayınlıq hiss etməlidir. Ümid etməlidir ki, inşallah duaları qəbul olar. Belə bir hissin duaların qəbul olunmasında çox böyük təsiri vardır. Həzrət Peyğəmbər(s) buyurur: “Allahı çağırın və dualarınızın qəbul olunmasına yəqinlik hasil edin”;

12. Dua edərkən israrlı olmaq. Yəni insan bir dəfə dua etməklə kifayətlənməməlidir;

13. Gözəl və müqəddəs məkanda və zamanda dua etmək. Çox yaxşı olar ki, insan dua edərkən yaxşı məkanlarda və zamanlarda dua etsin. Məscidlərdə, hüseyniyyələrdə, bir sözlə, müqəddəs və pak məkanlarda, həmçinin gecəyarı, Qədr gecələri, bayram günlərində, cümə axşamları, cümə günlərində dua etməyin çox böyük təsiri vardır;

14. Hamını bağışlamaq. Çox yaxşı olar ki, insan duaya başlamazdan öncə boynunda kimin haqqı varsa, onları bağışlasın. Əgər kimsə sənə bir pislik edibsə, incidib və ya narahat edibsə, onu bağışlayıb dua etməyə başla. Belə olduqda Allah da səni bağışlayıb dualarını qəbul edər.

Bütün bu şərtlər və ədəblərlə hər kəs dua edərsə, “Allah-təala” inşallah həmin şəxsin dualarını qəbul edər.

## Duaların qəbul olunmasının qarşısını kəsən amillər

Ötən bəhslərdə duanın fəzilətləri, şərtləri və ədəbləri barədə söhbət açdıq. Qeyd olundu ki, insan dua edərkən

duanın şərtlərinə əməl etməlidir və çox yaxşı olar ki, duanın ədəblərinə də riayət etsin. Bu bəhsdə istərdim ki, insanın dualarının qəbul olunmasına mane yaradan amilləri əziz möminlərin nəzərinə çatdırım. Ümumiyyətlə, duada iki şey çox mühüm yer tutur. Onlardan biri budur ki, insan duanın qəbul olunması üçün şərait yaratmalı, ikincisi isə duaların qəbul olmasının qarşısını alan maneələri mütləq aradan qaldırmalıdır. Bu məsələnin daha aydın olunması üçün iki misalı nəzərinizə çatdırıram. Biri budur ki, məsələn, bir subay oğlan əllərini göyə qaldırıb deyir: "İlahi, mənə övlad bəxş et". Həmin oğlanın duasının qəbul olması üçün o, iki şərtə mütləq əməl etməlidir. Birincisi budur ki, həmin subay oğlan özünə şərait qurub evlənməli, ikincisi isə evləndikdən sonra qarşısına çıxan maneələri aradan qaldırmalıdır. Yəni evlənib ailə qurduqdan sonra əgər xəstəlik varsa, həmin xəstəliyi müalicə edib onu aradan qaldırmalıdır. Əgər bu iki məsələni həll etmiş olsa, Allah həmin oğlana övlad nəsib edər. Burada incə bir mətləbi də qeyd etmək lazımdır ki, Allahın öz məsləhəti vardır. Çünki bəzən Allah Öz məsləhəti əsasında kiməsə gec övlad nəsib edir. Məsələn, peyğəmbərlərin bir neçəsinə ahıl vaxtlarında övlad bəxş etmişdir. Həzrət İbrahim Peyğəmbərə(ə) doxsan yaşında və Zəkəriyya Peyğəmbərə(ə) səksən yaşından sonra övlad verdi. Bu, Allahın hikməti və məsləhətidir. Lakin zahiri hesab və ölçülərlə hesabladıqda mütləq bu iki əsas məsələyə riayət olunmalıdır. Birincisi şərait yaratmalı, ikincisi maneələr aradan qaldırılmalıdır. Nə qədər ki, insan dua üçün şərait yaratmayıb və maneələri aradan qaldırmayıb, duaları qəbul olunmayacaq.

İkinci misal budur ki, həccə getmək istəyən bir şəxsin ilk növbədə maddi imkanı olmalıdır. Əgər həmin

şəxs üçün maddi imkan düzəldisə, deməli, artıq şərait hazırdır. İkinci şərt budur ki, yolda olan maneələri aradan qaldırmalıdır. Əgər yollar bağlıdırsa, onun həccə getməsi mümkün deyil.

Deməli, duada iki şey çox mühüm yer tutur. İlk növbədə duanın şəraitini yaratmaq, sonra isə duaların qəbul olunmasında maneələri aradan qaldırmaq lazımdır. Ötən bəhslərdə duanın fəzilətləri və şəraitləri barədə söhbət etdik. Lakin bu bəhsdə duaların qəbul olunmasına maneə yaradan amillər barədə söhbət edəcəyik. Nə qədər ki, insan bu maneələri aradan qaldırmayıb, duaları qəbul olunmayacaq.

**1. Günah**

Quran ayələri, peyğəmbərlər və imamların buyurduqlarına əsasən insanın duasının qəbul olunmasına maneə olan ən mühüm və əsas amil günahdır. Günah ən böyük amillərdəndir ki, insanın duasının yerinə yetməsinə imkan vermir.

Həzrət Əli(ə) "Kumeyl" duasında belə minacat edir: "Ey mənim Allahım, duaları həbs edən günahlarımı bağışla".

Günah elə bir əməldir ki, insanın dualarının qəbul olunmasının qarşısını kəsir. İnsanlar günah etməklə dualarının yerinə yetməsinin yollarını bağlayırlar. Bu barədə bir neçə hədisi nəzərinizə çatdırıram:

قَالَ الْبَاقِرُ(ع): اِنَّ العَبْدَ يَسْأَلُ اللهَ الحَاجَة فَيَكُونُ مِنْ شَأْنِهِ قَضاؤُها اِلَى أَجَلٍ قَرِيبٍ اَوْ اِلَى وَقْتٍ بَطِيءٍ فَيُذْنِبُ الْعَبْدَ ذَنْباً فَيَقُولُ الله

تَبارَكَ وَ تَعَالَى لِلْمَلَك: لاَ تَقْضِ حَاجَتَهُ وَاحْرِمْهُ اِيَّاهَا فَإِنَّهُ تَعَرَّضَ لِسخَطى وَاسْتوجبَ الْحرمان منى

İmam Baqir(ə) buyurur: «Bəndə Allahdan bir hacət diləyən zaman Allah-təala öz şəninə görə yaxın gələcəkdə, ya bir qədər təxirə salaraq onun duasını qəbul edər. Amma bəndə sonradan günah edər. Belə olan halda Allah-təala mələyə deyər: Onun diləyini yerinə yetirmə və onu (nemətdən) məhrum et. Çünki o, özünü Mənim qəzəbimə düçar etdi və Mənim tərəfimdən məhrumiyyətə layiq oldu.»

Bu hədisdən məlum olur ki, insanın günah etməsi dua ilə Allahın həmin duanı qəbul etməsi arasında pərdə salır. Yəni günah imkan vermir ki, insanın duaları qəbul olunsun.

Bir ustanın şagirdi var idi. Çox zirək və məharətli şagird idi. Deməк olar ki, o, ustanın bütün işlərini görürdü. Bir gün usta həmin şagirdinə yaxşı bir hədiyyə verməк qərarına gəlir. İşlədiyi yerə yaxınlaşdıqda şagirdinin nalayiq işlə məşğul olduğunu görür. Lakin şagird ustanın onu gördüyünü hiss etmir. Usta qayıdıb gedir və şagirdin nalayiq hərəkətini gördükdən sonra nəzərdə tutduğu hədiyyədən vaz keçir.

Hansı iş həmin şagirdin bu hədiyyədən məhrum edilməsinə səbəb oldu? Əlbəttə, şagirdin ki öz nalayiq hərəkəti ustanın onun üçün nəzərdə tutduğu hədiyyədən vaz keçməsinə gətirib çıxardı. Bu sadə bir misaldır. Lakin insanlar xəbərləri olmadan öz günahları ucbatından böyük və mühüm müvəffəqiyyətləri əldən verirlər. Həmin müvəffəqiyyətlərdən biri də öz tələbatımızdır ki, günahlarımız bu qayğıların qəbul edilməsinə maneə

yaradır. Çünki günah insanın dualarının qəbul olunmasına imkan vermir.

Bir gün Musa Peyğəmbər(ə) hansısa bir iş üçün harasa gedirdi. Yolda bir nəfərlə rastlaşdı. Həmin şəxs əyləşib Allaha dua etməklə məşğul idi. Musa Peyğəmbər(ə) gedib öz işlərini gördükdən sonra geri qayıdanda gördü ki, həmin şəxs yenə də yalvara-yalvara dua etməyindədir. Ona yazığı gəlir və öz-özünə deyir: "Əgər bunun ehtiyacı mənim əlimdə olsaydı, həll edərdim. Elə bu andaca Allah-təala Musaya(ə) vəhy edərək buyurdu: Ya Musa, əgər bu insan boynunun damarı qırılana qədər səcdə edib, Mənə dua etsə də belə, onun duasını qəbul etməyəcəyəm. Çünki onun bütün hərəkətlərindən mənim acığım gəlir. Onun dualarını o vaxt qəbul edərəm ki, öz halını dəyişsin və Mənim istədiyim kimi olsun. Bütün çirkin əməllərdən və günahlardan əl götürsün və Mənim buyurduqlarımı yerinə yetirəndən sonra onun dualarını qəbul edəcəyəm".

Bu rəvayətdən də məlum olur ki, günah insanın duasının qəbul olunmasının qarşısını alır. Gözəl və eşitməli bir hadisəni əziz möminlərin nəzərinə çatdırmaq istərdim. Böyük ustadlardan biri Məkkədə mənim üçün bir hadisəni belə nəql etdi: "Mən gənc yaşlarımda dərs oxuduğum illərdə başağrısına mübtəla olmuşdum. Rəhmətlik atam məni həkimlərin yanına aparır. Lakin başımın ağrısı dayanmaq bilmirdi. Ayətulla Vəhid Xorasani atama dedi: Nə əcəb bu uşağı Xorasana Şeyx Həbibullanın yanına aparmırsan? Atam dedi: Heç fikrimə gəlmirdi ki, uşağı onun yanına aparım. Vəhid Xorasaninin sözlərindən sonra atam məni Şeyx Həbibullanın yanına apardı. Mərhum Şeyx Həbibulla Qolpayeqani böyük və dahi şəxsiyyətlərdən biri idi. Təqribən otuz il bundan

əvvəl dünyasını dəyişib. O, çox zahid, arif, alim və abid bir insan idi. Çox imkanlı və maddi cəhətdən vəziyyəti yaxşı olmasına baxmayaraq, bu imkandan özü üçün istifadə etməmişdir. Ömrünün axırına qədər bir otaqda gününü keçirirmiş. Hətta yeməyi də həmişə soyuq yeməklərdən ibarət olardı. Həftə ərzində yalnız bircə dəfə isti yeməklə kifayətlənərdi. O yeməyi də hər cümə axşamı yaxın bir dostu onun üçün hazırlayıb gətirərdi. O da yalnız həmin dostunun gətirdiyi yeməyi qəbul edirdi. Bundan başqa heç bir kəsə razı olmurdu ki, onun üçün yemək gətirsin. Özü də qırx il İmam Rzanın(ə) hər gün ilk zəvvarı olmuşdu. Hamıdan qabaq gələr, İmamın(ə) hərəmi açılan kimi ilk ziyarətçisi olardı. Qırx il gecə namazını İmam Rzanın(ə) hərəmində qılmışdı. Günlərin birində bərk xəstələndi. Onu götürüb xəstəxanada otaqların birində yerləşdirdilər. Qollarına sistem taxdılar, qanından analiz götürdülər. Xəstəxanadakı həkimlər və tibb bacıları onu müayinə edirdilər. Şeyx Həbibulla bu halı gördükdə çox narahat oldu. Çünki tibb bacılarının qoluna iynə vurması və müayinə etmələri onun ürəyindən deyildi. Həmin otağın pəncərəsindən İmam Rzanın(ə) hərəminin minarələri görünürdü. Şeyx Həbibulla başını qaldırıb üzünü pəncərədən İmam Rzanın(ə) hərəminə tutub dedi: "Ya İmam Rza(ə), qırx il hər gün birinci zəvvarın mən olmuşam. İndi bu nə haldı mən düşdüm? (Mən gözləməzdim ki, belə bir vəziyyətdə naməhrəmlər qollarıma iynə vurub müayinə edərlər.) Elə bu sözləri deyən kimi səhnə dəyişildi. Orada işləyənlər, həkimlər və ümumiyyətlə bir anın içində hər şey dəyişilib böyük bir bağa çevrildi. Gördüm ki, böyük və gözəl bir bağdır. Güllər, çiçəklər insanı valeh edirdi. Həmin güllərin yanında da İmam Rza(ə) əyləşmişdi. İmam(ə) mənə baxıb

buyurdu: Şeyx Həbibulla, gəl, əyləş mənim yanımda. Mən İmamın(ə) yanına gəlib əyləşdim. İmam Rza(ə) bir gül dərib mənə uzatdı. Mən həmin gülü sağ əlimlə ondan aldım. Gülü aldıqdan sonra səhnə yenə dəyişildi və xəstəxananın əvvəlki görkəmi yenidən bərpa oldu. Amma hiss etdim ki, tamamilə sağalmışam. Həkimləri çağırıb dedim: Mən gedirəm. Həkimlər dedilər: Qətiyyən səni bu xəstəliklə heç yerə buraxmaq olmaz. Biz sənin qanını analiz etmişik və xəstəliyin çox ağırdır. Şeyx dedi: Xeyr, mən gedirəm. Həkimlər onu belə israrlı görüb dedilər: Onda gərək sən qol çəkəsən ki, öz istəyinlə xəstəxananı tərk edirsən. Şeyx razılaşıb müəyyən sənədlərə qol çəkdi. Həkimlər dedilər: Axı sənin xəstəliyin çox ağırdır. Belə halda sənə heç yerə getmək olmaz. Şeyx dedi: Mən artıq sağalmışam. Həkimlər yenidən ondan qan analizi götürüb müayinə etdilər. Gördülər ki, bir neçə saat bundan qabaq bura gələn xəstəliyindən heç bir əsər- əlamət yoxdur. Onu evə buraxdılar. Şeyx Həbibulla deyir: Ömrümün axırına qədər İmam Rzadan(ə) gül aldığım əlimi hansı xəstəyə çəkirdimsə, həmin xəstə sağalırdı.

Həmin ustad deyir: Biz Şeyx Həbibullanın yanına gəldik. O, atamı tanıyırdı. Salam-kəlamdan sonra atam vəziyyəti ona danışdı. Məni Şeyxə göstərib dedi: Bu, mənim oğlumdur və dərs oxumaqla məşğuldur. Bir-iki ay olar ki, onda baş ağrıları yaranıb. Bir çox həkimin yanına aparmışam, amma faydası olmayıb. Şeyx Həbibulla məni öz yanına çağırıb yanında əyləşdirdi. Əlini başıma qoyub bir neçə kəlmə də dua oxuyub üzümə üflədi. Sonra atama dedi: Hacı, İmam Rzadan(ə) gül aldığım ilk vaxtlar hansı xəstəyə əlimi bir dəfə çəkirdimsə sağalırdı. Amma indi əlimi vurduqdan sonra gərək bir dua da oxuyum.

Bilirsənmi nə üçün? Çünki o qədər günahkar insan mənimlə görüşüb ki, əlimdəki xüsusiyyət azalıb.

Bu rəvayəti söyləməkdə məqsədim odur ki, günahın bax bu cür xüsusiyyətləri vardır. Günah insanın nuraniyyətini aradan aparır. Günah insanın Allah yanında fəzilət və şərafətini azaldır. Günah insanı sındırır. Günah insanı məhv edir. Günah insanın qiymətini aşağı salır. Odur ki, Şeyx Həbibulla deyir: "Günahkar insanlar mənimlə görüşdükcə, əlimdəki xüsusiyyət azalıb".

Odur ki, insanın dualarının qəbul olmasının qarşısını alan birinci maneə günahdır. Buna görə də hər kəs duasının Allah məhzərində qəbul olmasını istəyirsə, mütləq günahdan çəkinməlidir. Dua təkcə o demək deyil ki, insan Allahdan özü üçün maddi ehtiyaclarını istəsin. Dua eşqdir. Dua ibadətdir. Dua Allahla insan arasında bir bağlılıqdır. Dua Allahla həmsöhbət olmaq deməkdir. Dua Allahla müzakirə etmək deməkdir. Həmçinin ehtiyacları diləmək də bir növ duadır.

**2. Zülm**

İnsanın dualarının qəbul olunmasının qarşısını alan maneələrdən biri də zülmdür. Zülm edən insanın duası qəbul olmaz. Fərq etməz ki, istər insan özü zülm etmiş olsun, istərsə də başqasının etdiyi zülmü dəstəkləsin. Hər ikisi eynidir. Hər kəs zülm edən insanı dəstəkləsə, həmin zalımla heç bir fərqi yoxdur. Saleh Peyğəmbərin(ə) qövmü onun dəvəsinin ayaqlarını kəsdi. Onlardan bir nəfər bu işi görmüşdü, lakin Allah-təala onların hamısını məhv etdi. Hətta Quranda Allah-təala bu kimi hadisələri bizə açıq-aydan nümunə ilə göstərmişdir. "Şüəra" surəsində Saleh Peyğəmbərin(ə) qövmü barədə belə buyurur:

فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ  فَأَخَذَهُمُ الْعَذَابُ إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

" Amma onlar (dəvəni) tutub kəsdilər, sonra da (əzab qorxusu ilə) peşman oldular."

"Artıq əzab onları yaxaladı (hamı məhv oldu). Şübhəsiz ki, bunda (Salehin bu hekayətində) bir ibrət vardır. Halbuki onların əksəriyyəti iman gətirmədi."[1]

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də bu barədə belə buyurur:

قَالَ عَلِيٌّ(ع): اَيُّهَا النَّاس إِنَّمَا يَجْمَعُ النَّاسَ الرِّضَا وَ السَّخَطُ وَ اِنَّمَا عَقَرَ نَاقَةَ ثَمُودَ رَجُلٌ وَاحِد فَعَمَّهُمُ اللهُ بِالْعَذَابِ لَمَّا عَمُّوهُ بِالرِّضَا

- Camaat! Həqiqətən günaha razı olmaq və Allaha ibadət etməkdən acığı gəlmək camaatı bir yerə toplamışdır. Səmud tayfasından yalnız bir nəfər dəvənin ayaqlarını kəsib onu öldürmüşdü. Lakin Allah onların hamısını əzaba düçar etdi. Çünki onlar bu işə (dəvəni öldürməyə) razı idilər.

Deməli, hər kəs zülm etsə və ya zülmkarın əməlinə razı olsa, onu dəstəkləsə, bu işdə kömək etsə, zülm etməkdə şərikdir.

İmam Hüseynin(ə) ziyarətnaməsini oxuyarkən bu mövzuya rast gəlmək olur:

لَعَنَ اللهُ اُمَّةً قَتَلَتكَ لَعَنَ اللهُ اُمَّةً ظَلَمَتكَ لَعَنَ اللهُ اُمَّةً سَمِعَت بِذلِكَ فَرَضِيَت بِهِ

---

[1]. Şüəra surəsinin 157, 158-ci ayələrində.

- Allah səni öldürənlərə lənət etsin. Allah sənə zülm edənlərə lənət etsin. Allah o kəslərə lənət etsin ki, sənə edilən bu zülmü eşidib, bu işə razı olublar.

Kərbəlada Şimr(l) İmam Hüseynin(ə) başının üzərində dayanıb Həzrətin başını kəsmək istəyir. Hər kəs bu hadisəni görür, eşidir və ya eşidib, amma səsini çıxarıb etiraz etmirsə və ya dinmirsə, Şimrlə eyni dərəcədədir. Çünki Şimrin bu hərəkətinə razı olanlar onunla eynidirlər.

Kərbəla hadisəsinin şahidi olan bir nəfər sonradan belə deyir: "Mən Şimr və İbn Ziyadın qoşununda idim. Döyüşə bir az tamaşa edib belə fikrə gəldim ki, nə bu dəstənin tərəfində, nə də o biri dəstənin tərəfində iştirak etməyəcəyəm. Bir az baxdıqdan sonra ayrılıb evimə qayıtdım. Gecə yatıb yuxuda gördüm ki, bir nəfər yanıma gəlib dedi: Qalx ayağa. Soruşdum: Nə üçün? Həmin şəxs dedi: İslam Peyğəmbəri(s) səni çağırır. Dedim: Görəsən Peyğəmbərin(s) mənimlə nə işi var? O, cavab vermədən əlimdən tutub məni Həzrətin(s) məhzərinə apardı. Gördüm ki, Peyğəmbər(s) əyləşib və qarşısında içi qanla dolu bir teşt var. Bütün bədənim lərzəyə gəlmişdi.Mən ixtiyarsız halda gəlib Peyğəmbərin(s) qarşısında əyləşərək salam verdim. Peyğəmbər(s) mənə heç bir söz deməyib başını aşağı saldı. Sonra mənə buyurdu: Teştin içində olan bu qan mənim Hüseynimin qanıdır. Həzrət(s) barmağını həmin qana batırıb sürmə kimi mənim gözlərimə çəkdi. Elə bu andaca yuxudan ayıldım. Hiss etdim ki, gözlərim ağrıyır. Ətrafa nəzər salmaq istədim. Lakin gözlərim kor olmuşdu. Ömrümün axırına qədər də gözlərim açılmadı".

Buna görə də hər kəs zülm etsə və zülm edəni dəstəkləyib etirazını bildirməsə, həmin zülmə şərikdir.

قَالَ الصَّادِق(ع): اِنَّ اللهَ عَزَّوَجَلّ يَقُول: وَ عِزَّتِى وَ جَلالِى لاَ اُجِيبُ دَعوَة مَظْلُومٍ دَعانِى فِى مَظْلَمةٍ ظُلِمها وَ لأَحَدٍ عِنْدَهُ مِثلُ تِلكَ الْمَظْلِمة

İmam Sadiq(ə) buyurur: “Allah-təala buyurmuşdur: And olsun izzət və calalıma, əgər məzlum özünə olan zülm kimi bir zülmü başqasına qarşı edibsə, onun zalım barəsində etdiyi dua və qarğışı qəbul etmərəm”.

Yəni bir məzlum bir zalıma qarğış edirsə və özü də həmin zalım kimi kiməsə zülm etmiş olarsa, Allah həmin şəxsin qarğışını qəbul etməz. Əgər qəbul etsə, gərək həmin məzlumun zülm etdiyi şəxsin onun barəsində qarğışını da qəbul etsin. Çünki onun özü də kiməsə zülm etmişdir. Bunun üçün də Allah heç bir zülm edənin duasını qəbul etmir.

### 3. Boynunda haram mal və ya evdə haram əşyaların olması

İnsanın Allah dərgahında dualarının qəbul olunmasına maneə törədən amillərdən üçüncüsü onun qarnında haram yeməklər, evində haram əşya və alətlərin olmasıdır. Nə qədər ki, insan öz qarnını, malını və evində olan haram əşyaları təmizləməyib, o şəxsin duaları qəbul olunmayacaq.

قَالَ عَلِىّ (ع): اِنَّ اللهَ عَزَّوَجَلّ اَوحَى اِلَىَ عِسَى بن مَريَم: قُل لِلْمَلاءِ مِن بَنِى اِسرائِل...

اِنِّى غيرُ مستَجيب لأَحَدٍ مِنْكُم دَعوةً وَلأَحدٍ مِن خَلْقِى قِبَلَه مَظْلِمَة

İmam Əli(ə) buyurur:”Allah-təala Məryəm oğlu İsaya vəhy etdi: Bəni- İsrailin zadəganlarına de ki.... Mən sizin heç birinizin və boynunda mənim məxluqlarımın haqqı olan kəslərdən heç birinin duasını qəbul etmərəm.”

Bu hədisə oxşar başqa bir hədisdə belə buyurulur: “Allah-təala İsa Peyğəmbərə(ə) moizə edərək xitab edir: Ya İsa, onlara de ki, onların dualarını qəbul etməyəcəyəm. Çünki onların qarınlarında və evlərində haram alətlər (bütlər) var. Mən söz vermişəm ki, hər kəs Mənə yalvarsa, onun duasını qəbul edəcəyəm. Nə qədər ki, onların evlərində haram alətlər var, onların dualarını qəbul etmərəm. Sonda Mənim onlar barədə qərarım lənətim olacaq. Yəni onların duaları nəinki qəbul olinmayacaq, əksinə onlara lənət edərəm”.

**4. Əmr be-məruf və nəhy əz-münkəri tərk etmək**

İnsanın dualarının Allah yanında qəbul olunmasına maneə yaradan amillərdən dördüncüsü əmr be-məruf və nəhy əz-münkəri tərk etməkdir. Yəni hər kəs bu əməli yerinə yetirməsə, Allah həmin şəxsin dualarını qəbul etməz. Məsələn, bir kəs başqasını Allahın vacib etdiyi əməllərə dəvət etməsə və Allahın haram buyurduqlarından çəkindirməsə, duaları qəbul olunmaz. Bu barədə də bir çox hədislər vardır. Nümunə üçün birini qeyd edirəm.

قَال رَسُولُ اللهِ(ص): لَتَأمُرُنَّ بِالْمَعْرُوفٍ وَ لَتَنْهُنَّ عَنْ مُنْكَرٍ او لَيُسَلِّطَنَ اللهُ شِرَارَكُم عَلَى خِيَاركم فَيَدْعُوخِيَارُكُمْ فَلا يُسْتَجَابُ لَهُمْ

Həzrət Peyğəmbər(s) buyurur: “Mütləq əmr be-məruf və nəhy əz-münkər edin. Yoxsa Allah şər insanları sizin

üstünüzə göndərər. Belə olduqda o cəmiyyətin möminləri dua etsələr belə, Allah onların dualarını qəbul etməz.”

**5. İnsanın dualarının Allahın hikməti ilə üst-üstə düşmədiyi hal**

Bəzən insanın dualarının qəbul olunmamasının səbəbi Allahın hikməti ilə üst-üstə düşməməsidir. Yəni bu, Allahın hikmətidir ki, bəzən insanın duaları qəbul olmur. Çünki Allahın Öz hikməti var. Bizim vəzifəmiz Allaha yalvarıb dua etməkdir. Əgər hansısa duamız Allahın hikməti ilə üst-üstə düşməzsə, Allah həmin duanı insana verməz. Lakin həmin duanın əvəzində həmin şəxsə çoxlu əcr inayət edər. Həm bu dünyada onun əvəzində həmin şəxsi ağılagəlməyən bəlalardan saxlayar, həm də Qiyamətin günü ona savab verər. Hədislərdə vardır ki, Allah qiyamətin günündə insana qəbul etmədiyi duaların əvəzində o qədər əcr verəcəkdir ki, insan dünyada qəbul olduğu dualara görə peşman olaraq deyəcək. Kaş mənim o dualarım da qəbul olmayaydı, Allah onların əvəzində belə bir əcr inayət edərdi.

**6. Dua edənin məsləhətinin yersizliyi**

İnsanın dualarının qəbul olmamasının altıncı amili odur ki, etdiyi dua onun məsləhəti ilə yerinə yetirilmir. Allahın hikməti öz yerində, lakin bəzən Allah insanın duasını qəbul etmir, çünki qəbul edərsə, həmin şəxsin dindən çıxmasına səbəb olar. Həmin duanın qəbul olunması insanın nuraniyyətini itirməsinə gətirib çıxardığı üçün Allah həmin duanı qəbul etmir. Yaxud həmin dua qəbul olarsa, insan ziyana uğrayar. Bunun üçün də bəzən Allah həmin duaların qəbul olunmasını məsləhət görmür.

Lakin bizim vəzifəmiz yenə də dua etməkdir. Allah Özü bilər ki, hansı duanı qəbul edər, hansını qəbul etməz.

### 7.Allahın insanın duasından xoşu gəldiyi an

Bəzən Allah insanın duasını qəbul etmir və onun ehtiyacını ödəmir. Bu ona görədir ki, Allahın həmin şəxsin dua etməsindən və səsindən xoşu gəlir.

قَالَ الصَّادِقُ (ع): قَالَ اللهَ تَعَالى: وَ عِزَّتِى وَ جَلالِى...

اِنِّ لَأَحْمِى وَلِيِّ اَنْ اَعْطِيَهُ فِى دَارِ الدُّنْيَا شَيْئاً يَشْغَلهُ عَنْ ذِكْرِى حَتّى يَدْعُوَنِى فَاَسْمَعَ صَوتَهُ

وَ اِنِّ لَأُعْطِى الكافِرَ مُنْيَتَهُ حَتّى لا يَدْعُوَنِى فَاَسْمَعَ صَوتَهُ بُغضاً لَّه

İmam Sadiq(ə) buyurur: «Allah-təala buyurmuşdur: «And olsun izzəti və calalıma, əzəmətimə və böyüklüyümə ki, dünyada Öz dostuma Məni yad etməyi ona unutduran bir şey vermərəm. Çünki istəyirəm ki, o, Məni çağırsın və Mən onun səsini eşidim. Kafiri isə arzusuna çatdıraram. Çünki ona nifrət edirəm və istəmirəm ki, Məni çağırsın və onun səsini eşidim.»

Əlbəttə, həmişə belə olmur. Allahın insanın səsindən xoşu gəldiyi üçün onun dualarını qəbul etməməsi davamlı olmur. Bəzi insanlardan acığı gəldiyinə görə onların istəklərini tez verir ki, səslərini eşitməsin. Elə insanlar da vardır ki, haram və günahın içində, namaz və orucdan əsər-əlamət olmadığı halda deyirlər: Mən Allahımdan çox razıyam. Çünki hər nə istəmişəmsə, mənə verib. Daha başa düşmür ki, bu qədər günah etməklə, Allahın vacib buyurduqlarına məhəl qoymamaqla Allahdan uzaq düşmüşlər. Lakin bəzən Allah möhtərəm, ibadət edən,

günahdan çəkinən möminlərin dualarını qəbul etmir. Çünki onların səslərini eşitməkdən xoşu gəlir.

Burada incə bir mətləbi əziz möminlərin nəzərinə çatdırıram. Allah-təala bizə bu barədə hökm etməyə icazə vermir. Yəni bir insanın duası qəbul olduqda onun yaxşı, qəbul olmadıqda isə pis insan olduğu barədə hökm çıxarmağı rəva bilmir. Yəni bizə icazə verilmir ki, birisinin duası qəbul olub-olmadıqda, həmin şəxsin pis və ya yaxşı insan olması barədə fikir söyləyək. Çünki bütün bunlar Allahın Özünə məxsusdur. Kimin yaxşı və ya kimin pis olmasını O, hamıdan gözəl bilir. Hətta hədislərdə vardır ki, bir nəfər dünyasını dəyişərkən onun cənnətlik və ya cəhənnəmlik olması barədə müzakirə aparılmasına ixtiyar verilmir. Yəni kiminsə onun cənnətə və ya cəhənnəmə gedəcəyini söyləməyə ixtiyar verilməyib. Müəyyən insanlar var ki, onlar istisnadır. Yəni Əbu Ləhəb və ya Əbu Cəhl kimi insanların cəhənnəmə getməsi mütləq olduğundan onu bilmək asandır. Çünki Allah Quranda Əbu Ləhəbin necə bir kafir olmasını bizə tanıtdırır. Həmçinin Peyğəmbər(s) Əbu Cəhli lənətləyir. Əgər Peyğəmbər(s) bir kəsi lənətləyirsə, məlum məsələdir ki, onun yeri haradır. Yaxud bir şəxs məsum İmama(s) qarşı qılınc çəkirsə, döyüşürsə, həmin şəxsin aqibətinin necə olması hamıya aydındır. Əgər bir kəs məsum İmama(s) qarşı qılınc çəkirsə, həmin şəxsin hara gedəcəyinə şübhə etmək düzgün deyil. Çünki məsum imamlara qarşı müharibə edən şəxs Allaha və Peyğəmbərə(s) qarşı müharibə etmişdir. Lakin möminlər bir-biri barədə bu məsələdə hökm verə bilməzlər. Çünki möminlərin hamısı Allaha yalvarır, Ona dua və ibadət edirlər. Hədislərdə vardır ki, bəzən Allah bilərəkdən mömini müəyyən bəlalara mübtəla edir ki, həmin şəxs

Ona dua edib yalvarsın. Yəni Allah onun sızıltısını eşitmək üçün ona bir narahatlıq göndərir. Heç kəs kiminsə duasının qəbul olub-olmaması ucbatından onun pis və ya yaxşı olması barədə hökm verməməlidir. Lakin hər bir kəs dualarının qarşısını kəsən maneələri aradan qaldırmağa çalışmalıdır. Bu maneələri aradan qaldırdıqdan sonra tövbə etməyin şərti yoxdur. Tövbə üçün şərt yoxdur. İstər bir günah etmiş olsun, istərsə də minlərlə günahı olmuş olsa da belə insan bircə kəlmə ürəkdən Allahı çağırıb bağışlanmaq diləməklə bütün günahlar bağışlanar. Ancaq insan öz peşmançılığını ürəkdən bildirib tövbə etməlidir. Əgər insan ürəkdən peşman olub tövbə edirsə, gərək bir daha həmin günaha qayıtmasın. Çünki Allah kimin həqiqətən tövbə etdiyini və kimin yalandan peşman olduğunu çox yaxşı bilir. Məsələn, bir nəfər kimisə incidir. Sonradan peşman olub həmin şəxsin qapısına üzrxahlığa gedərək deyir: “Filankəs, mən səni incitdiyim üçün peşman olmuşam. Məni bağışla. Həmin şəxs də deyir: Allah bağışlasın. Mən səni bağışladım”. Əgər o görsə ki, yalandan üzrxahlıq edir, onu bağışlamaz. Hər kəs olsa belə yalançı üzrü bağışlamaz. Buna görə də tövbə etməkdə şərt yoxdur. Həmçinin Qədr gecəsinin fəzilətli əməllərindən biri tövbə etməkdir. İnsan Allahı ürəkdən səsləyib bağışlanmasını diləyərsə, Allah mütləq onun günahlarını bağışlayar.

Nəmrud Həzrət İbrahimi(ə) cəzalandırmaq üçün tonqal qalatdırıb onu odun içinə atmağı əmr etdi. Bu hadisəyə Allah-təala Quranda da toxunub.

Həzrət İbrahim Peyğəmbəri(ə) odun içinə atanda Allah-təala atəşə İbrahimi(ə) yandırmamasını əmr etdi:

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

“Biz də : Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol! – deyə buyurduq.”[1]

Tarixi mənbələrdə yazılıb ki, o zaman Nəmrudun qulamlarından birini oğurluqda ittiham edərək cəzalandırmaq istədilər. Bir nəfərin qiymətli cəvahiri itmişdi. Çox axtardılar, amma tapa bilmədilər. Nəhayət, bu işi qulamın üstünə ataraq, onu ittiham etdilər. Halbuki o, bu işi görməmişdi. Qulam bütlərə nə qədər and içib həmin cəvahiri götürmədiyini bildirdisə də xeyri olmadı. Çünki hamı bütpərəst və kafir olduğundan bütlərə and içirdilər. Yalnız bircə İbrahim(ə) idi ki, insanları tövhidə dəvət edirdi. Ona görə də onu tonqala atmışdılar. Nəmrud həmin qulamı da tonqalın içinə atmağı əmr etdi. Qulamı odun içinə atarkən o, çarəsiz qaldığını görüb bir andaca ürəkdən Allahı çağırdı. Allah-təala Cəbrayıla əmr verdi ki, qulama kömək etsin. Cəbrayıl dedi: “İlahi, bu qulam kafirdir. Allah-təala buyurdu: O, kafir də olsa, Məni sələdi. Məndən kömək dilədiyi üçün onun əlindən yapış”.

Odur ki, insan Allaha qarşı hər hansı bir günahı etmiş olsa, hətta kafir də olsa belə Onu çağırarsa, Allah cavab verər və həmin adamı əliboş yola salmaz. Bir şərtlə ki, sidq-ürəklə Allahı çağırmış olsun. Yalnız bircə dəfə insan Allahı ürəkdən səsləsə, Allah həmin şəxsə cavab verər.

Allah-təala Musa Peyğəmbərə(ə) zəkat qanununu göndərdi. Musa Peyğəmbər(ə) bu qanunu camaata oxudu və bildirdi ki, insan öz malının zəkatını verməlidir. Qarun Musanın(ə) zamanında ən imkanlı və varlı bir insan idi. Allah-təala Qaruna çoxlu mal-dövlət və sərvət vermişdi. Musa(ə) ona malının zəkatını verməyi Allahın qanunu

---

[1] Ənbiya, 69.

olduğunu başa saldı. Qarun zəkat verməkdən boyun qaçırdı. Musa Peyğəmbər(ə) ona dedi: “Heç olmasa malının mində bir hissəsini ver. Qarun yenə razılaşmadı. Bu söhbətdən sonra Allahın zəkat qanununun əleyhinə plan qurub bir neçə şəxsi başına toplayaraq dedi: Musa(ə) sizin bütlərinizə qarşı çıxdı, amma siz danışmadınız. Hər bir qanunu icra etdi, yenə də səsiniz çıxmadı. İndi də istəyir ki, mal-dövlətinizi əlinizdən alsın. Qarun bu kimi sözlərlə camaatı Musanın(ə) əleyhinə qızışdırdı. Bunun qarşısını almaq üçün bir iş görmək lazımdır. Onlar dedilər: Bunun üçün nə edə bilərik? Qarun azacıq fikirləşib dedi: Siz gedin pozğun bir qadın tapıb bura gətirin. Gedib belə bir qadın tapıb gətirdilər. Qarun qadına dedi: Mənim səninlə bir işim olacaq. Bu işin müqabilində sənə min dinar pul verəcəyəm. İstəyirəm ki, səni nə vaxt çağırsam, gəlib Musanın üzünə şahid dayanacaq və onunla zina etdiyini etiraf edəcəksən. Qadın onunla razılaşdı. Bu hadisənin üstündən bir neçə gün keçmişdi. Musa Peyğəmbər(ə) camaata Allahın ayələrini oxuyub başa salırdı. Zina hökmünə gəlib çatdıqda buyurdu: Camaat, hər kəs zina günahını etmiş olsa, həmin şəxsə səksən şallaq vurulmalıdır. Əgər zina edən şəxs evli olarsa, onun cəzası ölümdür. Qarun bu sözləri eşitdikdə ayağa qalxıb dedi: Ey Musa, Allahın bu hökmü hamıya aiddir? Musa(ə) dedi: Bəli, hamıya aiddir. Qarun dedi: Sənin özünə də şamil olurmu? Musa(ə) dedi: Fərqi yoxdur. Hər kəs zina etsə, Allahın hökmü icra olunmalıdır. Qarun dedi: Bəni-Israildə bir qadın sənin onunla bu işi gördüyünü etiraf edir. Musa(ə) dedi: Həmin qadını bura çağırın. Qarun planlaşdırdığı kimi qadını ora dəvət etdi və dedi: Musa ilə aranızda olanı danış. Qadın öz-özünə düşündü ki, mənim kifayət qədər günahım var. İndi də böyük bir günahı

etməklə Allahın Peyğəmbərinə(ə) necə şər atım? Fikrindən daşınıb dedi: Ey Musa, bunlar mənə pul verib dedilər ki, sənə şər atmaq üçün durub daynıb yalandan şəhadət verim. Sonra o, əllərini göyə qaldırıb dedi: İlahi, mən Sənin peyğəmbərin barədə bu günahı etməyəcəyəm. Həzrət Musa(ə) səcdəyə düşüb dedi: İlahi, bu qadının fikrini dəyişdirib, camaatın içində mənim abrımı saxladığın üçün sənə şükr edirəm. İlahi, sənin bu düşmənlərin mənə şər atmaqla qələbə çalacaqdılar. Lakin Sən buna imkan vermədin. İlahi, bunları bəlaya düçar et. Allah-təala Musaya belə vəhy etdi: Ey Musa, yerin ixtiyarını sənə verdim. Onlar barədə istədiyini edə bilərsən. Musa Peyğəmbər(ə) orada camaata dedi: Kim Qarunla qalmaq istəyirsə, qalsın. Hər kəs ayrılırsa, ayrılıb getsin. İki nəfərdən başqa hamı Qarundan ayrıldı. Çünki onlar bilirdilər ki, Musa Allahdan bəla istədikdə Allah onun duasını yerinə yetirir. Onlar Fironun qərq olunmasını və başqa möcüzələrin canlı şahidi olmuşdular. Buna görə də hamı Qarundan ayrıldı. Musa(ə) yerə Qarunu və onun tərəfdarı olan həmin iki nəfəri özünə çəkmək üçün əmr verdi. Yer onları dizlərinə qədər çəkdi. Onlar bu halı gördükdə Musaya(ə) yalvarmağa başladılar. Musa Peyğəmbər(ə) yerə əmr etdi ki, yenə də onları çəksin. Yer yavaş-yavaş onları sinələrinə qədər özünə çəkdi. Amma onlar «Ya Musa» deyə çağırıb yalvarırdılar. Nə qədər yavardılarsa, xeyri olmadı. Nəhayət, Musa yerə onları udmağı əmr etdi. Yer onları tamamilə özünə çəkib uddu. Onlar gedəndən sonra Allah-təala Musaya(ə) buyurdu: Ey Musa, onlar yetmiş dəfə səni çağırdılar, amma sən onların səslərinə cavab vermədin. Əgər onlar bircə dəfə Məni çağırsaydılar, mən onları eşidib nicat verərdim”.

Odur ki, əgər hər kəs bircə dəfə Allahın adını saf niyyətlə və sidq-ürəklə dilinə gətirib Onu çağırsa, Allah həmin şəxsin səsini eşidər. Qədr gecəsinin ən gözəl əməllərindən biri də budur ki, insan Allahın adını çəkib Ona yalvararaq dua etsin.

Allah-təala Qədr gecəsində bütün dua edən möminlərin dualarını qəbul edib, bu gecənin feyzini hamıya nəsib etsin. İnşallah.

***2004, 19, 21, 23 ramazan***

## HƏZRƏT ƏLİNİN(Ə) VƏSİYYƏTİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ السَّلامُ عَلى رَسُولِ الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِهِ الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداءِ الله اِلى يَوْمِ لِقاءِ الله

Qədr gecəsi müstəsna bir gecədir. Ramazan ayının 21-ci gecəsinin Qədr gecəsi olması ehtimal olunur. Həm də bu gecə Həzrət Əlinin(ə) şəhadət gecəsidir. Bu gecə Həzrət Əli(ə) dünyasını dəyişəcəyini bilirdi. İmam Həsən(ə), İmam Hüseyn(ə), Əlinin(ə) qızları və oğlanları Həzrətin(ə) yanında əyləşib ağlayırdılar. Həzrət Əli(ə) hərdən onlarla söhbət edib haldan gedir və yenidən özünə gəlib gözlərini açır və onlara baxaraq bir neçə kəlmə deyirdi. Həzrət(ə) gözlərini açıb İmam Həsənin(ə) göz yaşlarına baxaraq buyurdu: Oğlum Həsən, nə üçün narahatsan? Nə üçün ağlayırsan? İmam Həsən(ə) dedi: Atacan, ona görə narahatam ki, bu gecə Peyğəmbərdən(s) sonra ən böyük müsibətlə üzləşirik. Həzrət Əli(ə) buyurdu: Mənim üçün bu evdə həmişə namaz qıldığım yerdə yer düzəldin. Məni orada yatırın.[1] İmam Həsən(ə)

---

[1] Müstəhəbdir ki, insan canını tapşırdığı zaman onu evdə həmişə namaz qıldığı yerdə üzü qibləyə(ayaqlarının alt tərəfi qibləyə düşdüyü halda) yatırsınlar. Lakin evdən kənarda insan namaz qıldığı məkanları (Kəbədə, Mədinə məscidində və bir sözlə bütün məscidlərdə) tez-tez dəyişməsi

Həzrətin(ə) buyurduğu kimi evdə həmişə namaz qıldığı yerdə yer düzəldib, onu ora apardılar. Həzrət Əli(ə) bir neçə dəqiqə gözlərini yumdu. Sonra gözlərini açıb İmam Həsənə(ə) buyurdu: Oğlum, gözlərimi yummuşdum. Cəddin Peyğəmbər(s), Həzrət Həmzə, Cəfəri Təyyar, ananız Fatimə əyləşib məni gözləyirlər. Onlar mənə belə deyirdilər: Əli, tez gəl, sənin üçün darıxırıq.

Həzrət Əli(ə) yanında əyləşənlərə, xüsusilə oğlu Həsən(ə) və Hüseynə(ə) vəsiyyət etdikdən sonra dünyasını dəyişdi. Ümumiyyətlə, Həzrətin(ə) müxtəlif hallarda bir çox vəsiyyətləri olmuşdur. Böyük şəxsiyyətlərin tanınmış insanlarla söhbət zamanı və həmçinin yazdıqları məktublarda da bir sıra vəsiyyətləri olmuşdur. Malik Əştərə yazdığı məktub və vəsiyyətnaməni, oğlu İmam Həsənə(ə) bir neçə səhifədən ibarət olan vəsiyyətnaməni misal çəkmək olar. İstərdim ki, bu söhbətimizdə Həzrət Əlinin(ə) ramazan ayının 21-ci gecəsi, ömrünün son anlarında etdiyi qısa vəsiyyəti əziz möminlərin nəzərinə çatdırım. Həzrətin(ə) bu vəsiyyəti iki hissədən ibarətdir. Birinci hissədə oğlu Həsən(ə) və Hüseynə(ə) xitab edərək dörd mətləbi vəsiyyət edir. İkinci hissədə isə həm oğlanlarına, həm də bütün insanlara vəsiyyət edərək on mətləbi bəyan edir. Həzrətin(ə) bu vəsiyyəti cəmi on dörd mətləb və incəlikdən ibarətdir. On mətləb hamıya, üç mətləb olğanlarına və bir mətləb isə iki dəfə bəyan olunmaqla həm birinci hissədə, həm də ikinci

---

müstəhəbdir. Çünki namaz qıldığı yerlər qiyamət günü həmin şəxs üçün şahid dayanacaq. Lakin evdə bir yeri təyin edib həmişə orada namaz qılması müstəhəbdir. Çünki can verən insanı namaz qıldığı yerə qoysalar, canını rahat tanşırar. Həzrət Əli(ə) bu göstərişi oğluna verməklə, bütün müsəlmanlara da həmin əməli öyrədir.

hissədə vəsiyyət olunur. Bu bəhsdə səkkiz mətləbi diqqətinizə çatdırıram. Qalan altı mətləbi isə Allahın köməkliyi ilə gələn bəhsimizdə əziz möminlər üçün ərz edərəm.

Öncə Həzrətin(ə) bu vəsiyyətini nəzərinizə çatdırıb, sonra hissə-hissə şərh edərik. Həzrət Əlinin(ə) bu vəsiyyəti "Nəhcül-bəlağə"də 47-ci məktubdur.

## İmam Əlini(ə) məlun İbn Mülcəm qılıncla vurduqdan sonra Həzrətin(ə) Həsən və Hüseynə(ə) vəsiyyətlərindən

أُوصِيْكُما بِتَقْوَى اللهِ, وَ أَنْ لا تَبْغِيا الْدُّنْيا وَ إِنْ بَغتْكُما, وَلا تَأْسَفا عَلى شَىءٍ مِنْهَا زُوِىَ عَنْكُمَا. وَقُوْلا بِالْحَقِّ, وَاعْمَلا لِلأَجْرِ, وَكُونا لِلْظّالِمِ خَصْمًا, لِلْمَظْلُومِ عَوْنًا. أُصِيْكُما وَ جَمِيْعَ وَلَدِى وَ أَهْلِى وَ مَنْ بَلَغَهُ كِتابِى, بِتَقْوَاللهِ وَ نَظْمِ أَمْرِكُمْ وَ صَلاحِ ذاتِ بَيْنِكُمْ, فَإِنِّى سَمِعْتُ جَدَّكُما صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ يَقُولُ: صَلاحُ ذاتِ الْبَيْنِ أَفْضَلُ مِنْ عامَةِ الصَّلاةِ وَالصَّيامِ. اللهَ اللهَ فِى الْأَيْتام فَلا تُغِبُّوا أَفْواهَهُمْ وَلا يَضِيعُوا بِحَضْرَتِكُمْ. وَ اللهَ اللهَ فِى جِيرانِكُمْ, فَإِنَّهُمْ وَصِيَّةُ نَبِيِّكُمْ ما زالَ يُوصِى بِهِمْ حَتّى ظَنَنّا أَنَّهُ سَيُوَرِّثُهُمْ. وَ اللهَ اللهَ فِى الْقُرْآنِ, لا يَسْبَقُكُمْ بِالْعَمَلِ بِهِ غَيْرُكُم. وَ اللهَ اللهَ فِى الصَّلاةِ, فَإِنَّهَا عَمُودُ دِيْنِكُمْ. وَ اللهَ اللهَ فِى بِيْتِ رِبِّكُمْ, لا تُخَلُّوهُ ما بَقِيْتُمْ, فَإِنَّهُ إِنْ تُرِكَ لَمْ تُناظَرُوا. وَ اللهَ اللهَ فِى الْجِهادِ بِأَمْوالِكُمْ وَ أَنْفُسِكُمْ وَ أَلْسِنَتِكُمْ فِى سَبِيلِ اللهِ وَ

عَلَيْكُمْ بِالتَّواصُلِ وَ التَّباذُلِ, وَ إِيّاكُمْ وَ التَّدابُرَ وَ الْتَّقاطُعَ لا تَتْرُكُوا الْأَمْرَ بْالْمَعْرُوفِ وَ النَّهى عَنِ الْمُنْكَرِ فَيُوَلَّى عَلَيْكُمْ أَشْرارُكُمْ ثُمَّ تَدْعُونَ فَلا يُسْتَجابُ لَكُمْ...

"Sizi təqvalı olmağa və Allahdan qorxmağa çağırıram. Dünya sizə üz tutsa da, siz dünyapərəst olmayın. Əlinizdən çıxan dünya malı üçün təəssüflənməyin. Haqqı deyin, Allah savabına və əcrinə xatir iş görün. Zalımın qatı düşməni, məzlumun isə tərəfdarı olun. Mən sizi və bütün övladlarımı, ailəmi və bu vəsiyyətimi oxuyan hər bir kəsi təqvalı olmağa, Allahdan qorxmağa, işlərində nizamlı olmağa və insanlar arasında sülh yaratmağa çağırıram. Çünki mən sizin cəddiniz Rəsulallahdan(s) belə eşitmişəm: “İnsanlar arasında sülh və mehribanlıq yaratmaq (bütün nafilə) namaz və orucdan üstündür.” Allah, Allah xatirinə yetimləri qoruyun. Elə etməyin ki, onlar bəzən ac, bəzən də tox qalsınlar. Elə etməyin ki, onlar sizin biganəliyiniz üzündən qarşınızda məhv olub puça çıxsınlar. Allah, Allah xatirinə qonşularınızı yaddan çıxarmayın. Çünki Peyğəmbəriniz(s) qonşulara yaxşılıq etməyi dəfələrlə tövsiyə etmişdir. O, dəfələrlə qonşular haqda elə tövsiyələr etdi ki, onların da mirasa daxil olacağını düşündük. Allah, Allah xatirinə Qurana riayət edin. Elə etməyin ki, ona əməl etməkdə başqaları sizi qabaqlasın. Allah, Allah xatirinə namazı unutmayın. Çünki namaz dininizin sütunudur. Allah, Allah xatirinə Rəbbinizin evini ziyarət etməyi unutmayın. Nə qədər ki, varsız, onu boş qoymayın. Çünki onu boş qoysanız, sizə möhlət verilməz. (Allahın bəlası sizə nazil olar.) Allah, Allah xatirinə canınızla, malınızla, dilinizlə

Allah yolunda mübarizə aparın. (Çünki bütün bunları gərək bu yolda sərf edəsiniz.) Siz gərək həmişə dostluq əlaqələrini genişləndirəsiniz. Bağışlamağı, əta etməyi unutmayın. Bir-birinizdən üz çevirməyin, bir-birinizlə əlaqələrinizi kəsməkdən çəkinin. Əmr be-məruf və nəhy əz-münkəri tərk etməyin ki, pislər sizə hakim kəsilərlər. Sonra nə qədər dua etsəniz də, xeyri olmaz.”

**1.Təqva**

Həzrət Əlinin(ə) bu vəsiyyətnaməsində olan birinci mətləb təqvadır. Bu mətləb həm birinci hissədə, həm də ikinci hissədə təkrar olunur. Birinci hissədə bu barədə olan ibarə belədir. Həzrət(ə) belə buyurur:

أُوصِيْكُما بِتَقْوَى اللهِ وَ أَنْ لا تَبْغِيا الْدُّنْيا وَ إِنْ بَغتْكُما, وَلا تَأْسَفا عَلى شَىءٍ مِنْهَا زُوِىَ عَنْكُمَا.

- Siz (siz iki qardaş (Həsən(ə) və Hüseyn(ə) təqvalı olmağı vəsiyyət edirəm. Dünya sizə üz tutsa da, siz dünyapərəst olmayın. Əlinizdən çıxan dünya malı üçün təəssüflənməyin.

Həzrət(ə) ilk öncə təqvalı olmağı və dünyapərəst olmamağı vəsiyyət edir. Yəni vəsiyyətnamənin birinci mətləbi təqvadır. Həzrət Əmirəlmömininin hər iki oğluna təqvanı belə təkidlə vəsiyyət etməsindən məlum olur ki, təqva insan üçün çox mühüm və ümdə məsələlərdəndir. Təqva elə mühüm bir amildir ki, Allah-təala insanlara bu əməli təkid və tövsiyə edir. “Nisa” surəsinin 131-ci ayəsində belə buyurur:

وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ

- Həqiqətən, Biz sizdən əvvəl (səmavi) kitab verilmiş kəslərə, eləcə də sizə tövsiyə etdik ki, təqvalı olun (Allahdan qorxun).

Allah-təala həm İslam ümmətinə, həm də əvvəlki peyğəmbərlərin ümmətlərinə təqvalı olmağı tövsiyə edir. Arif insanlardan biri təqva barədə belə yazır:

اِنَّ خَيْرَ الدُّنْيا وَالآخِرَة جُمِعَت تَحْتَ كَلِمَةٍ واحِدَة وَ هِيَ: التَّقْوَى

- Dünya və axirətin xeyri bir kəlmənin altında cəmləşərək qərar tutmuşdur. Həmin kəlmə isə təqvadır.

İnsan dünyanı da istəsə, bu kəlmənin içindədir, axirəti də istəsə, bu kəlmənin içindədir. "Təqva" ərəb sözüdür. Onun kökü «vəqa» «vəqi» dir. Mənası saxlamaq və qorumaq deməkdir. Odur ki, əgər insan təqvalı olarsa, bu təqva insanı günahlardan qoruyub saxlayar. Təqva insanı izzətə yetirər. Maşın sürərkən hər hansı bir təhlükə ilə üzləşərkən əyləci basmaqla maşını saxlamaq mümkündür. Əgər əyləc olmasa və ya əyləc xarab olarsa, istənilən vaxt təhlükəyə düşmək ehtimalı var. Təqva da insanın əyləcidir. Əgər bu əyləc insanda olmasa, insan məhv olar. Süfrə kənarında əyləşərkən göz görür və əl yeməklərə tərəf uzanır. Təqva insanın əlinin haram yeməklərə qarşı uzadılmasının qarşısını alır. Təqva olmasa, insan qarşısına çıxan hər hansı bir yeməyin halal və ya haram olmasına fikir verməz. Təqva insanı haramlardan və günahlardan saxlayır. Seçim qarşısında qalarkən təqva insana kömək edir. Bütün hərəkət və əməllərdə təqva insanın ehtiyatıdır.

3-4 yaşlı kiçik bir uşaq valideyni ilə gəzməyə çıxarkən ona diqqət yetirin. Valideyni onun bir əlindən tutur. Uşağın bir əli valideynin əlində, digər əli isə gözü hara baxırsa oradadır. Gözü hər nə görürsə, onu istəyir.

Cürbəcür şirniyyatlar, cürbəcür oyuncaqlara baxır və ona sarı getməyə can atır. Əgər valideyn onun əlini buraxsa, tez həmin gözü gördüyü şeylərə sarı yüyürəcək. Yol boyu ağzı açıq halda ora-bura baxır. Bəzən də ağzının suyu axır. Ərəb dilində uşağa «səbi» deyilir. Mənası budur ki, hər kəsin ağzının suyu axırsa, ona «səbi» deyilir. Uşağın ağzının suyu tez-tez axdığına görə ona «səbi» deyilir. Əgər böyük bir adam hər nəyə baxdıqda ağzının suyu axırsa, o adama nə deyərlər? Odur ki, insan hər nəyi görürsə, ona sarı axır. Hədislərdə vardır ki, gözlər hər nəyi görürsə, ürək onun ardınca gedir. Əgər insanın əyləci olmasa, dərələrə yuvarlanar. İnsanın hər bir halda qarşısını alan və günahdan qoruyan amil təqvadır. Təqva insanın kənar meyllərinin qarşısını alır. Təqva insanı günaha tərəf getməyə qoymur.

قَالَ عَلِيٌّ(ع): اَلتَّقْوى اِجْتِنَابٌ

Həzrət Əli(ə) buyurur: “Təqva (günahlardan, Allahın haram etdiyi əməllərdən) çəkinməkdir”.

Məsələn, tikanlı və daş-kəsəkli yerdə ayaqyalın gəzən insan tikanların, daşların ayağına batmaması üçün diqqətlə və ehtiyatla gəzdiyi kimi, təqva da insana bütün əməllərində diqqətli və ehtiyatlı olmaqda kömək edir. Ərəb dilində diqqətlə ayağının altına baxıb yol gedən insana «təqva ilə yol gedən» deyilir. Hər bir insan yaşadığı cəmiyyətdə ehtiyat və diqqətlə yaşayarsa, həmin şəxsə təqvalı insan deyilər. Yəni yeməyində, geyimində, hərəkətində, baxışlarında, danışığında və bir sözlə, bütün hərəkətlərində diqqətli olan insan təqvalı insandır. Məsələn, əgər bir süfrədə qarşısına cürbəcür sular gətirirlərsə və o, hansının haram olduğunu bilib ondan çəkinirsə, buna təqva deyilir. İnsanda elə bir qüvvə var ki,

həmin qüvvənin köməyi ilə özünü qadağan olunmuş şeylərdən saxlaya bilər. Həmin qüvvə təqvadır ki, insanı haramlardan çəkindirir. Lakin heyvanlarda bu yoxdur. Heyvan üçün fərq etmir ki, yediyi nədir və ya kimindir. Heyvan üçün fərqi yoxdur ki, kimin həyətinə girib otlayır. Amma insan belə deyil, insan bir işi gördükdə fikirləşməlidir. Məsələn, əgər bir şeyi yemək istəyirsə, əvvəl baxıb düşünməli, halaldırsa yeməli, haramdırsa özünü saxlamalıdır. Ümumiyyətlə, insan bütün hərəkətlərində belə olmalıdır.

İmam Sadiqdən(ə) təqvanın mənasını soruşduqda Həzrət(ə) belə cavab verir:

قَالَ الصّادِقُ(ع): اَنْ لاَ يَفْقُدَكَ اللهُ حِيثُ اَمَرَكَ وَ لاَ يَراكَ حِيثُ نَهَاكَ

- Təqva odur ki, Allah hansı yerdə sənin olmağını əmr edibsə, orada görsün və hansı yerdə olmamağı buyurursa, orada görməsin.

İnsana vacib olan əməllərin nəticəsi də təqvadır. Namazın, orucun və digər ibadətlərin nəticəsi elə həmin bu təqvadır. Məsələn, Quranda oruc barədə nazil olan ayələrin birinə nəzər salaq. Allah-təala “Bəqərə” surəsinin 183-cü ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

- Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi, sizə (də) oruc yazıldı və qərara alındı, (ki,) bəlkə təqvalı olasınız.

Deməli, vacib əməlləri yerinə yetirmək və günahlardan çəkinməyin nəticəsi təqvadır.

**2.Haqq söz demək**

Həzrət Əlinin(ə) vəsiyyətində olan ikinci mətləb haqq söz danışmaqdan ibarətdir. Həzrət(ə) belə buyurur:

وَقُوْلا بِالْحَقِّ

- (Oğlum Həsən və Hüseyn), haqqı deyin.

Harada və hansı zamanda olduğunuzdan asılı olmayaraq, haqqı deyin. Bu, Həzrətin(ə) ikinci vəsiyyətidir.

Allah-təala "Nisa" surəsinin 135-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ

- Ey iman gətirənlər, (bütün işlərinizdə) hətta özünüzün, ya ata-ananızın, yaxud yaxınlarınızın ziyanına olsa da belə, həmişə və tam şəkildə ədalətə əsaslananlardan və Allaha görə şahidlik edənlərdən (haqqı deyənlərdən) olun.

Haqq söz söyləmək o qədər mühüm məsələdir ki, Həzrət Əli(ə) iki imam oğluna bunu vəsiyyət edir. Tarixi mənbələrdə yazırlar ki, aşura günü İmam Hüseyn(ə) Kərbəlada yeddi dəfə döyüş meydanına gedib çadıra qayıtmışdı. Sonuncu dəfə döyüş meydanına gedəndə geri qayıtmayacağını bildiyi üçün oğlu İmam Səccadla(ə) bir çadırda ikilikdə söhbət etdilər. İmam Hüseyn(ə) orada oğlu İmam Səccada(ə) öz vəsiyyətlərini etdi. Həmin vəsiyyətlərdən biri də belədir: "Acı da olsa belə haqq söz söylə".

Deməli, haqqı söyləmək və haqq söz danışmaq çox mühüm və önəmli məsələlərdəndir ki, həm Quranda, həm

də Peyğəmbər(s) və imamların vəsiyyətlərində bizə belə təkid olunur.

### 3. Allah savabına və əcrinə xatir əməl etmək

Həzrət Əlinin(ə) oğlu İmam Həsənə(ə) və İmam Hüseynə(ə) etdiyi vəsiyyətində üçüncü mətləb belədir:

وَاعْمَلا لِلأَجْرِ

- Allah savabına və əcrinə xatir iş görün.

Əgər müsbət əməldirsə əcri, mənfi əməldirsə cəzası var. Allah-təala "Ali-İmran" surəsinin 195-ci ayəsində belə buyurur:

أَنِّي لاَ أُضِيعُ عَمَلَ عَامِلٍ مِّنكُم مِّن ذَكَرٍ أَوْ أُنثَى...

- Həqiqətən, Mən sizlərdən heç bir əməl sahibinin (istər kişi olsun, istərsə də qadın, hamınız bir-birinizdənsiniz və bir-birinizlə bağlısınız) əməlini zay etməyəcəyəm...

Digər bir ayədə belə buyurur:

قُلْ بِفَضْلِ اللّهِ وَبِرَحْمَتِهِ فَبِذَلِكَ فَلْيَفْرَحُواْ هُوَ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ

- De: «Allahın lütf və rəhmətinə, (bəli) həmin lütf və rəhmətə sevinsinlər ki, onların yığdıqlarından daha yaxşıdır».

Allahın lütfü və mərhəməti insanın bu dünyada yığdığı mal-dövlətdən daha yaxşı və daha xeyirlidir. Insan yığdığı mal-dövlətə yox, Allahın ona bəslədiyi lütf və mərhəmətə sevinməlidir. Əlbəttə, əgər bu lütf və mərhəmət həmin şəxsin halına şamil olarsa. Allahın lütf və mərhəmətini qazanmaq üçün insan qabiliyyətlə çalışmalıdır. Bu dünyada insan hər nə iş görürsə, axirətdə

zərrəsinə qədər xeyrini və cəzasını görəcəkdir. "Zəlzələ" surəsinin axırıncı ayələrində belə buyurulur:

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

- Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eyni ilə təcəssümünü) görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir.

**4. Zalımın düşməni, məzlumun tərəfdarı olmaq**

Həzrət Əlinin(ə) vəsiyyətində dördüncü mətləb belədir:

وَكُونا لِلْظّالِمِ خَصْمًا, لِلْمَظْلُومِ عَوْنًا

- Zalımın qatı düşməni, məzlumun isə tərəfdarı olun.

Əgər bir insana zülm olunursa, həmin məzlumun tərəfdarı olmaq lazımdır. Insan bacardığı qədər məzlumu müdafiə etməli və bu yolda əlindən gələni əsirgəməməlidir. Əgər bir şəxsə zülm olunursa və kimsə fiziki cəhətdən həmin zülm olunanı müdafiə edə bilmirsə, ən azından bu zülmə qarşı ürəyində öz etirazını bildirməlidir. Əgər bir yerdə zülm olunursa, insan orada zülm əleyhinə üzrlü səbəbə görə iştirak edə bilmirsə, lakin ürəyi məzlumlarla olarsa, elə bil zalıma qarşı etiraz etmiş olur. Çünki niyyətində zalıma qarşı etiraz var və məzlumun tərəfdarıdır.

Bu barədə "Nəhcül-bəlağə"nin 12-ci xütbəsində belə buyurulur:

لَمَّا اَظْفَرَهُ اللّهُ بِاَصْحابِ الْجَمَلِ، وَ قَدْ قالَ لَهُ بَعْضُ اَصْحابِهِ: وَدِدْتُ اَنَّ اَخى فُلاناً كانَ شاهِدَنا لِيَرى ما نَصَرَكَ اللّهُ بِهِ عَلى

اَعْدائِكَ. فَقالَ لَهُ عَلَيْهِ السَّلامُ: اَهَوى اَخيكَ مَعَنا؟ فَقالَ: نَعَمْ، قالَ: فَقَدْ شَهِدَنا، وَ لَقَدْ شَهِدَنا فى عَسْكَرِنا هذا اَقْوامٌ فى اَصْلابِ الرِّجالِ وَ اَرْحامِ النِّساءِ، سَيَرْعَفُ بِهِمُ الزَّمانُ، وَ يَقْوى بِهِمُ الاْيمانُ .

- Cəməl döyüşündə Allah o Həzrətə(ə) qələbə nəsib etdikdən sonra Həzrətin(ə) yoldaşlarından biri dedi: «İstəyərdim qardaşım filankəs də bu döyüşdə bizimlə olaydı və Allahın sənə düşmənlərin üzərində necə qələbə çaldırdığını görəydi». Həzrət(ə) buyurdu: «Sənin qardaşının meyli və istəyi də bizimlədirmi?» Dedi: «Bəli». Həzrət(ə) buyurdu: «O da bu döyüşdə bizimlə olmuşdur». Sonra Həzrət(ə) belə buyurdu:*(Bizi istəyənlərdən hətta)* kişilərin belində və qadınların bətnində olanlar da bizimlə birgə qoşunumuzda olmuşlar *(yəni olmuş kimidirlər).* Tezliklə ruzigar onları insanın burnundan qəfil axan qan kimi meydana gətirib zahir edəcəkdir. Onların *(xidmət və yayılmalarının)* səbəbinə iman güclənəcəkdir. *(Bizim düşmənlərimiz onlar tərəfindən məğlub ediləcəklər).*

İllər keçsə belə hər kəs Əlinin(ə) qələbə çaldığını eşitdikdə şad olacaqsa, onda Əli(ə) ilə birgədir. Həmçinin bütün tarix boyu düşmənin Əliyə(ə) qələbə çaldığını eşidib şad olacaqlarsa, həmin kəslər qiyamətə qədər düşmənlərlə birgə və onların siyahısında olacaqlar. Hər kəs ürəyində nəyə razıdırsa, Allah həmin şeyin cəzasını və ya mükafatını həmin şəxsə verəcək. Hədislərdə yazılıb ki, qiyamət günü bir şəxsə cəza verildikdə o deyəcək: İlahi, bu gün mənə etmədiyim bir günaha görə cəza verirlər. Nə üçün mənə etmədiyim günahın cəzasını verirlər? Ola bilsin hansısa anlaşılmazlıq və ya səhvə yol verilib. Ona belə nida olunacaq: Burada heç vaxt səhvə yol verilə

bilməz. Bura elə bir yerdir ki, heç kəs heç kəsi qorxuda bilməz. Bura elə bir yerdir ki, heç kəs rüşvət alıb verə bilməz. Bura ədalət məhkəməsidir və sənə verilən cəzaya gəldikdə isə sənin günaha razı olmağın idi. Yəni sənin yanında günah və cinayət edildikdə sən ürəyində bu əmələ razılıq verdiyin üçün cəza alırsan.

Məsələn, ramazan ayında bir evdə həddi-büluğa çatmış bir uşaq orucunu pozur. Valideyn oruc tutmuş olsa da, bu işə razılıq verdiyi üçün həmin uşaqla eyni cəzanı daşımalıdır. Yaxud övlad namaz qılmırsa, valideyn namaz qılmış olsa belə övladının bu əməlinə (namaz qılmamasına) ürəyində razı olarsa, qiyamət günü övlada verilən cəza ona da veriləcək.

Saleh Peyğəmbərin(ə) qövmü onun dəvəsinin ayaqlarını kəsdi. Onlardan bir nəfər bu işi görmüşdü, lakin Allah-təala onların hamısını məhv etdi. Quranda bu barədə belə buyurulur:

فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ فَأَخَذَهُمُ الْعَذَابُ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً وَمَا

كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

“Amma onlar (dəvəni) tutub kəsdilər, sonra da (əzab qorxusu ilə) peşman oldular.”[1] “Artıq əzab onları yaxaladı (hamı məhv oldu). Şübhəsiz ki, bunda (Salehin bu hekayətində) bir ibrət vardır. Halbuki onların əksəriyyəti iman gətirmədi.”

Həzrət Əli(ə) bu ayə barədə “Nəhcül-bəlağə”də buyurur:

---

[1] Şüəra, 157-158.

قَالَ عَلِيٌّ(ع): اَيُّهَا النَّاس إِنَّمَا يَجْمَعُ النَّاسَ الرِّضَا وَ السَّخَطُ وَ اِنَّمَا عَقَرَ نَاقَةَ ثَمُودَ رَجُلٌ وَاحِد فَعَمَّهُمُ اللهُ بِالْعَذَابِ لَمَّا عَمُّوهُ بِالرِّضَا

“Camaat! Həqiqətən, günaha razı olmaq və Allaha ibadət etməkdən acığı gəlmək insanları bir yerə toplamışdır. Səmud tayfasından yalnız bir nəfər dəvənin ayaqlarını kəsib onu öldürmüşdü. Lakin Allah onların hamısını əzaba düçar etdi. Çünki onlar (dəvəni öldürən, bu iş üçün plan quranlar, dayanıb baxanlar və bu işdən xəbər tutub səsini çıxarmayanlar) bu işə (dəvəni öldürməyə) razı idilər.

İmam Hüseynin(ə) ziyarətnaməsini oxuyarkən bu mövzuya rast gəlmək olur.

لَعَنَ اللهُ اُمَّةً قَتَلَتكَ لَعَنَ اللهُ اُمَّةً ظَلَمَتكَ لَعَنَ اللهُ اُمَّةً سَمِعَت بِذلِكَ فَرَضِيَت بِهِ

- Ya Əba Əbdillah, Allah səni öldürənlərə lənət etsin. Allah sənə zülm edənlərə lənət etsin. Allah o kəslərə lənət etsin ki, sənə olunan zülmü eşidib, bu işə razı olublar.

Kərbəlada Şimr(l) İmam Hüseynin(ə) başının üzərində dayanıb Həzrətin(ə) başını kəsmək istəyir. Hər kəs bu hadisəni görür, eşidir və ya illər keçdikdən sonra belə həmin hadisəni eşidib, amma səsini çıxarıb etiraz etmirsə, dinmirsə və ən azından ürəyində bu işə razıdırsa, Şimrlə eyni dərəcədədir. Çünki Şimrin həmin hərəkətinə razı olanlar onunla eynidirlər. Əlinə qılınc alıb İmam Hüseynin(ə) başını kəsən insanla, bu hadisəyə dayanıb baxan və razı olan kəslərə min dörd yüz il ötsə də belə hamısına birlikdə lənət oxuyuruq. Qiyamət günü də onlar eyni cəzanı çəkəcəklər.

Odur ki, Həzrət Əli(ə) oğlu İmam Həsən(ə) və İmam Hüseynə(ə) vəsiyyət edərək buyurur: “Zalımlara qarşı düşmən və məzlumların tərəfdarı olun”.

**5.Nizam-intizamlı olmaq**

Həzrət Əli(ə) bu dörd vəsiyyəti etdikdən sonra həm öz ailəsinə, həm yaxınlarına, həm də bütün müsəlmanlara belə vəsiyyət edir:

أُصِيْكُما وَ جَمِيْعَ وَلَدِى وَ أَهْلِى وَ مَنْ بَلَغَهُ كِتابِى, بِتَقْوَاللهِ وَ نَظْمِ أَمْرِكُمْ

- Mən sizi və bütün övladlarımı, ailəmi və bu vəsiyyətimi oxuyan hər bir kəsi təqvalı olmağa, Allahdan qorxmağa, işlərində nizamlı olmağa çağırıram.

Həzrət(ə) vəsiyyətinin bu hissəsində bir daha təqvalı olmağı tövsiyə etdikdən sonra buyurur: “İşlərinizdə nizam-intizamlı olun. Hər bir işi gördükdə nizam-intizama riayət etmək lazımdır. İslam dininə nəzər saldıqda görürük ki, hər bir qayda-qanunu nizam-intizamladır. İslam qaydalarının içərisində elə bir əməl yoxdur ki, onda nizam-intizam olmasın. İbadətlərə diqqət yetirdikdə görürük ki, bütün ibadətlərin hamısının günü və saatı müəyyən olunmuşdur. Elə bir ibadət yoxdur ki, onda nizam-intizam olmasın. Misal üçün, namazın qaydalarına diqqət yetirək. Əgər bir uşaq günorta namazından qabaq həddi-büluğa yetişsə, həmin günün sübh namazı ona vacib deyil. Lakin günorta namazı ona vacib olur. Əgər ramazan ayında günorta namazına on dəqiqə qalmış həddi-büluğa çatarsa, həddi- büluğa çatdığı an orucunu yesə, boynuna kəffarə gələr. Odur ki, hər bir ibadətin öz vaxtı və nizamı var. Sübh, günorta və axşam namazlarının hamısının vaxtı

var. Əgər şaban ayının axırıdırsa, oruc vacib deyil. Ramazan ayının ilk günü daxil olursa, deməli, oruc da vacib olur. Şaban ayında oruc tutmaq savabdır. Ramazan ayında üzrsüz (şəri üzrü olmadan) oruc tutmamaq kəffarə ilə nəticələnir. Ramazan ayının axırıncı günü orucu yemək, şəvval ayının birinci günü isə oruc tutmaq haramdır. Həcc əməllərinin biri də Ərəfatdır. Sübh camaat Ərəfata çıxacaq. Əgər kimsə günortaya qədər Ərəfata çatmasa, həmin ilin bütün həcci batildir. Gərək gələn il o, həccə gedib yenidən bütün əməlləri yerinə yetirsin. Məsələn, əgər saat birdə günorta namazının vaxtıdırsa, bir nəfər azandan sonra Ərəfata yetişsə, həcci batildir. Müzdəlifədən Minaya gün çıxdıqdan sonra hərəkət etmək lazımdır. Əgər bir kəs gün çıxmamış Müzdəlifədən çıxarsa, boynuna kəffarə gələr. Bütün əməllərin hamısında nizam-intizam var. Hətta camaat namazının cərgələrində dayanarkən belə diqqətli olmaq lazımdır. Bir gün Həzrət Peyğəmbər(s) camaatla namaza başlamazdan öncə cərgələrə nəzər saldı. Bir nəfərin sinəsi o birilərdən irəlidə idi. Həzrət(s) əli ilə onu geri çəkib cərgəni düzəltdikdən sonra buyurdu: “Camaat namazında cərgələrinizə diqqət yetirin. Elə dayanın ki, bir nəfər ox atdıqda, heç kəsə dəymədən cərgənin bu başından o başına keçə bilsin”.

Odur ki, Həzrət Əli(ə) öz vəsiyyətində hamını işlərində və ibadətlərində nizam-intizamlı olmağa dəvət edir.

## 6. İnsanlar arasında sülh və mehribanlıq yaratmaq

Həzrət Əli(ə) vəsiyyətində insanlar arasında sülh və mehribanlıq yaratmağı təkid edərək belə buyurur:

وَ صَلاحِ ذاتِ بَيْنِكُمْ, فَإِنِّ سَمِعْتُ جَدَّكُما صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ يَقُولُ: صَلاحُ ذاتِ الْبَيْنِ أَفْضَلُ مِنْ عامَةِ الصَّلاةِ وَالصِّيامِ.

- Sizi insanlar arasında sülh yaratmağa çağırıram. Çünki mən sizin cəddiniz Rəsulallahdan(s) belə eşitmişəm: “İnsanlar arasında sülh və mehribanlıq yaratmaq (bütün nafilə) namaz və orucdan üstündür.”

Əgər möminlərin, iki qardaşın, iki ailənin arasında və bir ailənin, bir məhəllənin içərisində fikir ayrılığı və ixtilaf varsa, onların arasında sülh və mehribanlıq yaratmaq lazımdır. Bu əməlin savabı müstəhəb oruc və namazların savabından daha çoxdur.

Qurani-Kərimdə də bu məsələyə təkid olunmuşdur. Allah-təala “Hucərat” surəsinin 10-cu ayəsində buyurur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

- Həqiqətən bütün möminlər bir-biriləri ilə qardaşdırlar. Buna görə də (bütün ixtilaflarda) qardaşınız olan iki şəxs və ya iki dəstənin arasını düzəldin. Allahdan qorxun, bəlkə rəhm olundunuz.

İnsan gərək camaat arasında olan dava-dalaşı sakitləşdirib küsənləri barışdırsın. Kimsə ixtilafa səbəb olan sözlər danışmamalı, söz aparıb gətirməklə camaatın arasını vurmamalıdır.

Musa Peyğəmbərin(ə) zamanında neçə vaxt idi ki, yağış yağmırdı. İnsanlar  qıtlıq və aclıq olacağından qorxub Musa Peyğəmbərin(ə) məhzərinə gəlib dedilər: “Ya Musa, yağış namazı qılaq, Allah bizə yağış göndərsin. Belə getsə, aclıq bütün məmləkəti bürüyəcək. Həzrət Musa(ə) buyurdu: Bütün qocalara, cavanlara, qadın və uşaqların hamısına xəbər edin, yığışıb şəhərdən kənara

gedək və namaz qılıb Allahdan yağış göndərməsini diləyək. Hamı yığışıb namaz qılmaq üçün şəhərdən kənarda bir yerə toplaşdılar. Allah tərəfindən nida gəldi: Ya Musa, duanız qəbul olunmayacaq. Çünki sizin aranızda bir nəfər xəbərçi və sözgəzdirən var. Musa Peyğəmbər(ə) üzünü camaata tutub buyurdu: Camaat sizin aranızda bir nəfər xəbərçi və sözgəzdirən var. Namaza başlamazdan öncə hamı tövbə etsin. Çünki həmin günahkara görə heç kəsin duası qəbul olunmayacaq. Bir nəfər soruşdu: Ya Musa(ə), aramızda olan həmin sözgəzdirən və xəbərçi kimdir? Musa(ə) dedi: "Allah-təala bir sözgəzdirənə görə duaları qəbul etmir. Siz istəyirsiniz ki, mən də xəbərçilik edib həmin şəxsin adını sizə deyim?"

Odur ki, camaat arasında olan ixtilafı mümkün qədər aradan qaldırıb, sülh və mehribanlıq yaratmaq lazımdır. Camaatın arasını düzəltmək çox mühüm və təkid olunmuş məsələlərdəndir. Həm də bu əmələ görə Allah insana çox savab inayət edər.

Həzrət Peyğəmbər(s) buyurur: "Cəbrayıl(ə) yeddi əmələ görə Adəm övladı olmağı arzulayaraq deyir: Kaş mən də insan olaydım və həmin əməlləri etməklə savaba nail olaydım:

1.Camaat namazında iştirak etmək;

2.Xəstə yanına gedib ona baş çəkmək;

3.Alimlərlə oturub-durmaq;

4.Cənazənin arxasınca gedib dəfnində iştirak etmək;

5.Yetimə nəvaziş göstərmək;

6.Həcc ziyarətində olan hacılara su paylamaq;

7.Camaat arasında sülh, əmin-amanlıq və mehribanlıq yaratmaq"

İnsanlar arasında mehibanlıq, sülh yaratmaq o qədər böyük və savab əməldir ki, Cəbrayıl(ə) kimi mələk bu əməlin savabına nail olmaq üçün insan olmağı arzu edir.

**7. Yetimlərə yardım və nəvaziş**

Həzrət Əli(ə) yetimlərlə xoş davranıb onların qayğısına qalmağı vəsiyyət edərək buyurur:

اللهَ اللهَ فِي الْأَيْتامِ فَلا تُغِبُّوا أَفْواهَهُمْ وَلا يَضِيعُوا بِحَضْرَتِكُمْ.

- Allah, Allah xatirinə yetimləri qoruyun. Elə etməyin ki, onlar bəzən ac, bəzən də tox qalsınlar. Elə etməyin ki, onlar sizin biganəliyiniz üzündən qarşınızda məhv olub puça çıxsınlar.

Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü bir dəstə insanın ağzıından od çıxacaq. Soruşdular: Ya Rəsulallah, onlar kimlərdir? Həzrət(s) buyurdu: Yetimlərin malını yeyənlər".

Hədis və rəvayətlərə əsasən yetimin malını yeyənlərin aqibəti çox pis olacaqdır. Fərq etməz ki, hansısa yetimin malını əlindən alıb yesinlər, yaxud yetimlərin onlara tapşırılmış malını yemiş olsunlar, ya da millətin malının (beytül-malın) içərisində olan yetm malını yemiş olsunlar.

Hədislərdə deyilir ki, hər kəs yetimə nəvaziş göstərərsə, Allah-təala həmin şəxsə Öz rəhmətini nazil edər.

Həzrət Peyğəmbər(s) buyurur: "Yetim ağlayarkən Allahın ərşi titrəyib lərzəyə gələr. Allah-təala buyurar: Ey mələklərim, şahid olun, hər kəs onu sakitləşdirsə, həmin şəxsi şad edər və cənnəti ona vacib edərəm".

Hədislərdə yazılıır ki, yetimlərə baş çəkib onlara nəvaziş göstərmək və onların başını sığallamaq insanın qəlbinin paslığını aradan qaldırar.

**8. Qonşularla xoş davranış**

Həzrət Əlinin(ə) vəsiyyətində səkkizinci mətləb qonşular barədədir. Həzrət(ə) belə buyurur:

وَ اللهَ اللهَ فِي جِيرانِكُمْ, فَإِنَّهُمْ وَصِيَّةُ نَبِيِّكُمْ ما زالَ يُوصِى بِهِمْ حَتّى ظَنَنّا أَنَّهُ سَيُوَرِّثُهُمْ.

- Allah, Allah xatirinə qonşularınızı yaddan çıxarmayın. Çünki Peyğəmbəriniz(s) qonşulara yaxşılıq etməyi dəfələrlə tövsiyə etmişdir. O, dəfələrlə qonşular haqda elə tövsiyələr edir ki, onların da mirasa daxil olacağını düşündük.

İnsan elə başa düşməməlidir ki, ibadət yalnız namaz qılıb oruc tutmaqdan ibarətdir. Qonşu ilə xoş davranmaq və onun haqqına riayət etməkdə ibadətdir. Həmçinin qonşunun hörmətini qorumaq da vacibidir.

قَالَ رَسُولُ اللهِ(ص): حُرْمَةُ الجار عَلى الإِنْسَانِ كَحُرْمَةِ اُمِّهِ

Həzrət Peyğəmbər(s) buyurur: «Qonşuya hörmət, anaya hörmət kimidir.»

اَلإِمام الكَاظِم(ع): لَيْس حُسنُ الجِوار كَفُّ الأَذى وَ لكِن حُسنُ الجِوار الصَّبْرُ عَلَى الأَذَى

İmam Musa Kazim(ə) buyurur: «Yaxşı qonşuluq, qonşuya əziyyət verməmək deyil. Əslində, yaxşı qonşuluq qonşunun verdiyi əziyyətin müqabilində səbr etməkdir.»

قَالَ الرِّضا(ص): لَيْسَ مِنَّا مَنْ لَمْ يَأمَن جارُهُ بَوائِقَه

İmam Rza (ə) buyurur:«Qonşusunun şərindən özünü amanda hiss etməyən kimsə bizdən deyil.»

İnsan bunu başa düşməlidir  ki, qonşunun boynunda, hətta kafir də olsa belə öz qonşusunun haqqı var. Bu barədə Peyğəmbər(s) və imamlardan bir çox hədislər vardır. Qonşunun hörmətini saxlamaq lazımdır. Qonşunun qonşu boynunda olan haqqı barədə iki hədisi əziz möminlərin nəzərinə çatdırıram:

قَالَ رَسُولُ اللهِ(ص): أَتَدْرُونَ مَا حَقّ الجَار؟ قَالُوا لا،

قال(ص):  إِن اِسْتَغَاثَكَ أَغَثْتَه، وَإِن اِسْتَقْرَضَكَ أَقْرَضتَهُ، وَإِن اِفْتَقَرَ عُدتَ عَلَيهِ ، وِإِن أَصَابَتهُ مُصِيبَةٌ عَزَّيْتَهُ، وَإِن أَصَابَهُ خيرٌ هَنّأَتهُ، وَإِن مَرِضَ عُدتَهُ، وَإِن مَاتَ اتّبعت جَنازَتُه، وَلا تَسْتَطِيل عَلَيْهِ بِالبِناء فَتَحجُبَ عَنْهُ الرِّيحَ إِلاّ بِإِذْنِه، وَإِذا اِشْتَرَيْتَ فَاكِهَةً فَاَهْدهَا لَه، فَإِنْ لَمْ تَفْعَل فَأَدْخِلها سِراً، وَلا تُخْرِج بِها وَلَدَك تَغِيظُ بِهاَ وُلْدَهُ، وَلا تُؤذِهِ بِرِيحِ قِدْرِكَ. إِلاّ أن تَغرف لَهُ مِنهَا

Allahın Peyğəmbərinin(s) qonşunun haqqı barədə buyurduqlarından: «Əgər qonşu səndən kömək istəsə kömək et, borc istəsə borc ver, sənə ehtiyacı olsa, ehtiyacını aradan qaldır. Başına bir müsibət gəlibsə, ona ürək-dirək ver, könlünü al, bir xeyir işi olanda onu təbrik edib, gözaydınlığı ver, xəstələnsə ona baş çək, halı ilə maraqlan, dünyadan köçəndə dəfnində iştirak et. Evini onun evindən hündür tikmə ki, ona tərəf gələn hava axınının qarşısını alasan,amma özü icazə verərsə, eybi yoxdur. Meyvə alanda onun üçün hədiyyə göndər, əgər bunu etməsən, meyvəni evinə gizli apar. Öz övladının

əlinə meyvə verib bayıra çıxarma ki, qonşunun övladı onun əlində meyvəni görüb narahat olar. Qazanda bişirdiyin xörəyin iyi və tüstüsü ilə qonşunu narahat etmə, əgər bunu bacarmasan, onda yeməkdən bir qədər ona göndər.»

اَلإمام السَجَّاد(ع): أَمَّا حَقّ جّارِك: فَحِفْظُهُ غَائِباً، وَإِكرامُهُ شَاهِدًا، وَنُصرتُهُ اِذَا كانَ مَظْلُومًا، وَلا تَتَّبع لَهُ عورَةً، فَاِنْ عَلِمْتَ عَلَيْهِ سُوءاً سَتَرتَهُ عَلَيهِ، وَإِن عَلِمْتَ أَنَّهُ يَقْبَل نَصِيحَتَكَ نَصَحْتَهُ فِيمَا بَيْنَكَ وَبَيْنَهُ، وَلا تُسْلِمْهُ عِنْدَ شَدِيدَة، وَتُقِيل عَثْرَتَهُ وَتَغْفِر ذَنْبَهُ، وَتُعاشِرَهُ مُعاشِرَةً كَرِيمَة

İmam Səccad(ə) buyurur: “Qonşunun qonşu boynunda olan haqqı budur ki, özü yanında olmadıqda hörmətini saxla. Yanında olduğu zaman ona ehtiram et. Ona zülm olunduğu zaman dadına yetiş və kömək et. Onun eyblərini axtarma. Onun eyblərini bilirsənsə, gizli saxla (onun eyblərini gördükdə açıb ona-buna danışma). Sənin nəsihətini qəbul edəcəyini bildikdə ona özünlə onun arasında (ikilikdə) nəsihət et (camaatın arasında yox). Ona çətinlik üz verdikdə kömək et. Üzrünü qəbul et. Sənə qarşı olan günahlarını bağışla. Onunla xeyirxahlıqla rəftar et”.

Odur ki, Həzrət Əli(ə) bizlərə qonşu ilə xoş rəftar etməyi və onları yaddan çıxarmamağı vəsiyyət edir.

### 9. Quran

Həzrət Əlinin(ə) bu vəsiyyətində olan doqquzuncu mətləb Quran barədədir. Həzrət(ə) bu barədə buyurur:

وَ اللهَ اللهَ فِي الْقُرْآنِ, لا يَسْبَقُكُمْ بِالْعَمَلِ بِهِ غَيْرُكُم

- Allah, Allah xatirinə Qurana riayət edin. Elə etməyin ki, ona əməl etməkdə başqaları sizi qabaqlasın.

Burada bir incəliyi nəzərinizə çatdırmaq istərdim ki, ərəb dilində cümlənin əvvəlində iki dəfə Allah, Allah demək qeyd olunan mətləbin çox mühüm və təkidli bir məsələ olduğunu bildirir.

Odur ki, Həzrət Əli(ə) təkidlə vəsiyyət edərək Qurana riayət edib, ona hamıdan əvvəl əməl etməyi bizlərə tapşırır. Hər bir müsəlman Quranın vərəqlərinə, cildinə, yazısına ehtiram göstərdiyi kimi, əməldə də onun hər bir ayəsinə hörmət etməlidir. Allah-təala Loğmana hikmət bəxş etmişdi. Onun ləqəbi həkim idi. Onun bu dərəcəyə gəlib çatması bir əməlinin nəticəsində olmuşdu. Bir gün Loğman yol gedərkən gözü yerdə toz-torpağa bulaşmış və üzərində «Bismillah» yazılmış bir parçaya və ya dərinə sataşdı. Əyilib onu götürdü və evə apardı. Onun toz-torpağını yuyub təmizlədikdən sonra hörmət əlaməti olaraq öpüb gözlərinin üzərinə qoydu. Rəvayətlərdə yazırlar ki, ehtiram əlaməti olaraq həmin yazını yuduğu suyu da təbərrük üçün içdi. Allah-təala ona bu əməlinə görə hikmət bəxş etdi. Loğman öz oğluna etdiyi moizə və nəsihətləri Allah-təala Quranda ayə kimi nazil etdi. Bircə hərəkəti ilə belə bir izzətə nail oldu və Allah-təala onun adına “Loğman” surəsi nazil etdi. Onun sözləri Quranın ayəsi oldu. Loğmanın sözlərini və moizələrini Allah-təala bizə Quranda onun dili ilə bəyan edir. Loğmanın Quranda yazılmış sözlərinə dəstəmazsız əl vurmaq günahdır. Bircə əməlinə görə Allah-təala ona hikmət inayət etdi və onun adını qiyamətə qədər yaşadacaq. Biz də Quranın kitabına, yazısına və ayələrinə hörmət bəsləyirik. Qurana hörmət etmək hər bir müsəlmanın borcudur. Lakin Həzrət Əli(ə) öz vəsiyyətində bütün bunlarla yanaşı Quran barədə əsas

bir məsələni vəsiyyət edərək buyurur: “Elə etməyin ki, ona əməl etməkdə başqaları sizi qabaqlasın”.

Allah-təala Qurani-Kərimin “Yunis” surəsinin 57-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

"Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət *(başdan-başa öyüd-nəsihət olan bir kitab)*, sinələrdə olan *(xarab əqidələr və rəzil sifətlər)* üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اَلقُرانُ مَأْدُبَةُ اللهِ فَتَعلَّمُوا مَأدبتَه مَااسْتَطَعْتُم

Həzrət Peyğəmbər(s) buyurur: “Quran Allahın (neməti bol olan) süfrəsidir. Bacardığınız qədər bu süfrədən istifadə edin”.

Quran müsəlmanlar üçün böyük bir nemətdir. Quran müsəlmanların inkişafı üçün ən gözəl vasitədir. Hətta düşmənlər də bilirlər ki, müsəlmanlar Quran vasitəsilə bütün dünyada nüfuz qazana bilərlər. Özləri də İslamın zühur etməsindən sonrakı iki yüz il ərzində onların necə inkişaf edib yayıldığının şahidi olmuşlar. İslamın tərbiyə etdiyi professorlar, alimlər, filosoflar və başqa sahələr üzrə mütəxəssislərin dünyada misli-bərabəri yoxdur. Kimya elminin təməlçisi Cabir ibn Həyyan olub. O, bu elmi İmam Sadiqdən(ə) öyrənmişdi. Tarixdə bu kimi alimləri çox görmək olar. Hətta qeyri-müsəlmanlar belə İslamın inkişaf etməsi barədə kifayət qədər söhbətlər

---

[1] Yunis, 57.

etmişlər. Vildorand Amerika alimlərindən biridir. O, İslam və mədəniyyət sahəsində 22 cilddən ibarət kitab yazmışdır. O, kitabın 11-ci cildində İslamın nə qədər sürətlə inkişaf etməsi barədə söhbətlər açmış və geniş izahlar vermişdir. Alim həmçinin yazır ki, İslam bu sürətlə irəliləsə, xristianlar aradan gedəcək. Buna görə də tarix boyu bacardıqları qədər bunun qarşısını almağa çalışır. Əllərindən gələn qədər və hansı yolla olursa-olsun bunu etməyə çalışırdılar. Fərid Vəcdi ensiklopediyasının 3-cü cildinin əvvəllərində belə yazır: “Viktoryanın dövründə Qladiston adlı bir nəfər parlamentdə ayağının altına bir stul qoyub üstünə çıxdı. Cibindən kiçik bir Quran çıxarıb parlament üzvlərinə göstərərək geniş bir çıxış etdi. Onun çıxışındakı əsas məsələ bundan ibarər idi: Nə qədər ki, Quran müsəlmanların arasında oxunur, nə qədər ki, Peyğəmbərin adı onların minarələrində səslənir və nə qədər ki, Kəbə evi ziyarət olunur, xristianlar böyük xətərdə və zillət içində olacaqlar. Çünki nə qədər Quranı oxuyub əməl etsələr, inkişaf edəcəklər. İldə bir dəfə dünyanın hər yerindən Kəbə evinə gedib hamısı bir nəfər kimi ziyarət etsələr, vəhdətləri artacaq, inkişaf edəcəklər və biz geridə qalacağıq. Məscidlərin minarələrində Peyğəmbərin adını eşitdikdə salavat göndərib ora yığışacaq və inkişaf edəcəklər. Belə olduqda bütün xristianlıq təhlükə altında olacaq.  Buna görə də başımıza çarə qılmalıyıq. Nə iş görək ki, müsəlmanlar inkişaf və tərəqqi edə bilməsinlər?

Parlamentdə hərə bir söz dedi. Lakin sözləri tutarlı olmadı. Bir nəfər ayağa qalxıb dedi: Gəlin Quranı müsəlmanların əlindən alaq. Qladiston dedi: Müsəlmanlardan Quranı almaq olmaz. Çünki qan tökülər. Müsəlmanlar Quranı heç kəsə verməzlər. Amma mən

deyərdim ki, Quran onların əllərində qalsın. İstədikləri kimi çap edib bəzək-düzək versinlər. Quranın özü ilə işimiz yoxdur. Quranın ruhunu, əməlini onların əlindən almaq lazımdır. Qoyun onlar Quranı öpüb gözlərinin üstünə qoysunlar. Lakin onlara Quranın içindən xəbərdar olmağa imkan verməməliyik. Buna görə də onların arasında günah əməlləri yaymaq lazımdır. Hara baxsalar, nə etsələr, yenə də günahla rastlaşsınlar. Beşcə dəqiqə Quran oxuduqdan sonra günahlarından təmizlənəcəklər. Lakin onların arasında günahı o qədər yaymaq lazımdır ki, hər hərəkətdə, hər baxışda günahla rastlaşsınlar. Hətta evlərini televizor, radio, jurnal və qəzetlər vasitəsilə günahla doldurmaq lazımdır ki, Quranı açıb oxumağa həvəsləri qalmasın. Belə olduqda günah onlara imkan verməyəcək ki, Quranı açıb oxusunlar və ona əməl etsinlər. Yalnız bu yolla müsəlmanları Qurandan ayırmaq olar.

Bir gün Napoleon uzun bir səfərə çıxdı. Bir neçə gün Misirdə qalmalı oldu. Oranın kitabxanası ilə tanış olmaq istədi. Kitabxanaya daxil olduqda gördü ki, çox böyük və əzəmətli bir kitabxanadır. Əlini atıb rəflərin birindən bir kitab çıxartdı. Həmin kitabı vərəqləyib gördü ki, ərəb dilində nəsə yazılıb. Tərcüməçini çağırıb əlindəki kitab haqqında soruşdu. Tərcüməçi dedi: Bu, ərəb dilində yazılıb. Napoleon soruşdu: Nə barədə yazılıb? Tərcüməçi dedi: Bu, müsəlmanların müqəddəs kitabı olan Qurandır. Napoleon dedi: Bir-iki cümlə oxu, görüm orada nə yazılıb? Tərcüməçi Quranı açdıqda təsadüfən “İsra” surəsinin 9-cu ayəsini oxuyub tərcümə etdi.

إِنَّ هَـٰذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ

- Həqiqətən, bu Quran (insan cəmiyyətini) ən möhkəm və sabit yola və dinə hidayət edir (Quranın hidayət etdiyi kəs ən mütərəqqi insan olar).

Napoleon diqqətlə qulaq asıb getdi və gecəni səhərə qədər bu ayə barədə fikirləşdi. Səhərisi gün yenə də gəlib dedi: O kitabdan mənim üçün bir cümlə də oxuyun. Bu minvalla üç dəfə Qurandan bir ayə oxuyub onun üçün tərcümə etdilər. O, üç gün düşünüb fikirləşdikdən sonra dedi: Həqiqətən, hər kəsin əlində bu kitab olsa, həmin cəmiyyət inkişaf edib tərəqqi tapar və onun qarşısında heç kəs dayana bilməz. Biz gərək bir şey fikirləşib, bu kitabı müsəlmanlardan kənarlaşdıraq. Bu sözləri deyib getdi və bu barədə fikirləşib hərəkətə başladılar. Müxtəlif yollarla müsəlmanları Qurandan ayırmağa səy göstərdilər və istəklərinə nail oldular. İndi Quranı altmış yaşlı bir müsəlmana verdikdə heç bilmir ki, Quranı necə tutub oxumaq lazımdır. Quranın əlifbasını bilmir. Ömründə bircə dəfə də olsun Quranı açıb baxmayıb. Müsəlmanlar üçün bundan ağır dərd ola bilərmi? Quranı müsəlmanlardan elə ayırıblar ki, bir müsəlman "Qurana qurban olum" – deyir, amma onun içində nə yazıldığından xəbərsizdir. Dildə "Qurana qurban olum" – deyir, amma onun içindəki ayələrin hamısının əksinə hərəkət edir. Gəlin evdən çıxarkən Quranı onun başı üzərində tuturlar, amma insanlar toyun əvvəlindən axırına qədər haram işlər görürlər. Düşmənlər öz mənafelərinə görə və müsəlmanları Qurandan ayırmaq üçün çox yaxşı planlar qurub həyata keçirdilər. Quranın kağızını və kitabını müsəlmanların öz əlində saxlamaqla, onun ruhunu və əməlini müsəlmanlardan ayırdılar. Yəni Quranın istəkləri ilə müsəlmanların istəklərinin üst-üstə düşməsinin qarşısını aldılar. Elə etdilər ki, müsəlmanlar Quranı

qorxmamaq üçün uşaqların qoluna bağlayıb, körpələrin yastığının altına qoymaqla kifayətləndilər. Hətta Quranı pəhləvanlar yaxşı nümayiş göstərmək üçün qollarına bağladılar, amma içərisindən xəbərləri olmadı. Bağlarda yaxşı məhsul götürmək üçün Quranın ayələrini ağaclara bağladılar, amma ayələrdən xəbərləri olmadı. Görün müsəlmanların öz əlləri ilə Quranı haralara aparıb çıxartdılar. Qədr gecəsində Quran insanlar üçün nazil olub. Amma müsəlmanlar onu aparıb bağlara çıxartdılar. Quran həddi-büluğa çatmış insanlar üçün nazil olub, amma onu aparıb körpə uşaqların beşiyinə çıxartdılar. Onlar fikirləşib Quranı tamamilə müsəlmanlardan ayırdılar. Belə ki, bir müsəlman Quranı açdıqda bilmir ki, orada nə yazılıb. Quranı müsəlmanlardan belə ayırdılar ki, elə bil yalnız qəbiristanlıqda ölülərə oxumaq üçündür. Bir neçə ayəyə nəzər salaq. Allah-təala məstedici və haram içkilər barədə belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ

- Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları murdardır və şeytanın ixtiralarındandır.

Bu ayə ölülər üçün deyil. Ölmüş insan bunların heç birini edə bilməz. Həqiqətdə, bütün insanlara nazil olub ki, bütün bu murdar əməllərdən çəkinsinlər. Amma çox təəssüflər olsun ki, müsəlmanlar arasında elə bir fikir yaratdılar ki, bu ayələri yalnız qəbiristanlıqda ölülərə oxumaq lazımdır. Çox müsəlmanlar var ki, bu ayələri eşidir, amma tam əksinə olaraq əməl edirlər. Allahın

şərabı, qumarı haram etdiyini bildiyi halda, şərab da içir, qumar da oynayır. Digər bir ayədə belə buyurur:

وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ...

- Mömin qadınlara de ki,... öz zinət və bəzəklərini və onların yerlərini (boyun, sinə, saç, biləklər, baldırlar və s) görünən yerlər (üst paltarları, əl və üz) istisna olmaqla, çölə çıxarmasınlar. Gərək (boyun və sinələrinin örtülməsi üçün) baş örtüklərini (çəkib) yaxalarına salsınlar...[1]

Bu ayədə Allah-təala müsəlman və mömin qadınlara başlarını, bədənlərini, zinət və zinət yerlərini naməhrəmdən örtməyi əmr edir. Lakin müsəlmanlar arasında bu ayəyə əhəmiyyət verən qadınlar çox azdır. İslamın düşmənləri bilirlər ki, əgər müsəlmanlar Quran ayələrinə əməl etsələr, inkişaf edəcək və onların qarşısını heç bir qüvvə ala bilməyəcək. Buna görə də müxtəlif hiylələrə əl atmaqla Quranın buyurduğu əməlləri müsəlmanlardan aldılar. Hər bir müsəlman başa düşməlidir ki, qiyamət günü Qurana əməl etmədiyinə görə cavab verəcək.

İbn Tulun keçmiş zamanlarda Misirin hakimlərindən biri idi. O, dünyasını dəyişəndən və dəfn olunduqdan sonra bir Quran oxuyana pul verirlər ki, bir neçə gün onun qəbrinin üstündə Quran oxusun. Bir neçə gündən sonra görürlər ki, Quran oxuyan daha qəbir üstünə gəlmir. Onu axtarıb tapdıqdan sonra soruşdular: “Bəs nə üçün Quranı yarımçıq qoyub getmisən? Həmin şəxs dedi: Xahiş edirəm, mənimlə işiniz olmasın. Mən bundan sonra İbn Tulunun qəbrinin üstündə Quran oxumayacağam. Gedin,

[1] Nur.31

başqa Quran oxuyan tapın. Ona dedilər ki, bunun səbəbini bizə deməsən, əlimizdən rahatlıqla canını qurtara bilməyəcəksən. O dedi: Gecə yuxuda İbn Tulunu gördüm. Mənə dedi ki, xahiş edirəm, daha mənim üçün Quran oxuma. Çünki hər ayəni oxuduqda burada məni vurub soruşurlar ki, bu ayəyə nə üçün əməl etmirdin? Oxuduğun hər bir ayə barədə məndən sorğu-sual edirlər və əzabım artır".

قَالَ رَسُولُ اللهِ(ص): رُبَّ تالِ القُران وَ القُرانُ يَلْعَنُهُ

Həzrət Peyğəmbər(s) buyurur: "Nə çox Quran oxuyanlar var ki, Quran onlara lənət oxuyur".

Əgər insan Quranı oxuyursa, mütləq onun ayələrinə əməl etməlidir. Hər bir müsəlmanın borcudur ki, Quranın ayələrinə əməl etsin və düşmənin zəhərli oxlarına tuş gəlməsin. Yəni məbada Quran müsəlmanların əlində düşmənin istədiyi kimi olsun. Düşmən həmişə Quranın buyurduğu əməlləri müsəlmanlardan ayırmağa çalışır. Odur ki, Həzrət Əli(ə) bütün müsəlmanlara Qurana əməl etməyi vəsiyyət edərək buyurur:

اللهَ اللهَ فِى الْقُرْآنِ, لا يَسْبَقُكُمْ بِالْعَمَلِ بِهِ غَيْرُكُم

- Allah, Allah xatirinə Qurana riayət edin. Elə etməyin ki, ona əməl etməkdə başqaları sizi qabaqlasın.

Hər bir müsəlman bacardığı qədər Quran oxumağı öyrənib ona əməl etməli, öz yaxınlarına və övladlarına da öyrətməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ عَلَّمَ وَلَداً لَه القُران قَلَّدَهُ الله قِلادَةً يُعجِبُ مِنْهاَ اَلأَوَّلُونَ وَالآخَرُونَ يَوْمَ القِيامَة

Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs öz övladına Quran öyrətsə, Allah-təala qiyamət günü həmin şəxsin

boynuna (qızıldan və ya qiymətli daş-qaşlardan ibarət) elə bir boyunbağı taxar ki, əvvəldən axıradək bütün insanlar ona təəccüb edərlər”.

Allah-təala öz övladına Quran öyrədən insana izzət bəxş edər. Hədislərdə deyilir ki, övladın ata boynunda olan haqlarından və vəzifələrindən biri də budur ki, öz övladına Quran oxumağı öyrətsin. Hədislərdə Quran öyrənib-öyrətmək barədə çoxlu təkidlər olunmuşdur. Belə ki, müsəlmanlar bir-birinə Quran oxumağı öyrətsinlər, onun ayələri və mənası ilə tanış olub ona əməl etsinlər. Qədr gecəsi Quranın nazil olduğu gecədir. Möminlər Qədr gecəsi Quranı qarşılamaq üçün bir yerə toplaşırlar. Qədr gecəsində hər bir adam ömrünün axırına qədər bu müqəddəs kitabı oxuyub, bacardığı qədər ona əməl edəcəyi barədə Allahla əhd-peyman bağlamalıdır.

### 10. Namaz

Həzrət Əlinin(ə) vəsiyyətində olan mətləblərdən biri də namaz barədədir. Həzrət(ə) təkidlə namazı bütün müsəlmanlara vəsiyyət edərək buyurur:

اللہ اللہ فِی الصَّلاۃِ, فَإِنَّھَا عَمُودُ دِیْنِکُمْ

- Allah, Allah xatirinə namazı unutmayın. Çünki namaz dininizin sütunudur.

Namaz dinin ən ümdə və əsas məsələlərindəndir. Hər bir müsəlman öz namazında diqqətli olmalıdır. Qurani-Kərimdə namaz barədə bir çox ayələr nazil olmuşdur. Bəqərə surəsinin 238-ci ayəsində buyurur:

حَافِظُواْ عَلَى الصَّلَوَاتِ والصَّلاَةِ الْوُسْطَى وَقُومُواْ لِلّهِ قَانِتِينَ

- Bütün namazları və (xüsusilə) orta namazı (zöhr, əsr namazını) qoruyun və (namazda, həmçinin hər bir işdə) Allaha xatir itaətkar halda ayağa qalxın.

Peyğəmbərin(s) zamanında havaların isti olması ilə əlaqədar bəzi möminlər camaat namazına gedə bilmirdilər. İşlərinin çoxluğundan yorğun gəlib evdə istirahət edirdilər. Günorta işdən gəlib yemək yedikdən sonra yatırdılar və yuxudan gec oyanırdılar. Günorta namazlarını qılmağa çətinlik çəkirdilər. Hazırkı dövrdə də bir sıra müsəlmanlar üçün günorta namazını qılmaq çətin olduğundan axşamlar gəlib evlərində qılırlar. Allah-təala bu ayəni göndərməklə müsəlmanlara öz namazlarında (xüsusilə günorta namazında) diqqətli olmağı tövsiyə edir:

وَأْمُرْ أَهْلَكَ بِالصَّلَاةِ وَاصْطَبِرْ عَلَيْهَا

- Və öz ailənə namazı (ümmətini) əmr et və özün (də) var gücünlə ona (riayət etməyə) səbr et.

Namaz o qədər mühüm məsələlərdəndir ki, Allah-təala Quranda bu barədə altmış yeddi dəfə söhbət açır. Bu o deməkdir ki, insan öz namazlarında diqqətli olmalı və vaxtlı-vaxtında bu vacib əməli yerinə yetirməlidir.

Həzrət Peyğəmbər(s) Müaz ibn Cəbəli Yəmənə göndərərkən ona belə tövsiyə etdi: “İslamın bütün hökmlərini böyük-kiçikliyindən asılı olmayaraq, hamısını izhar edib əməl et. Amma namazda daha diqqətli ol və ən çox namaz barədə düşün. Həqiqətən, namaz İslamın başıdır”.

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) belə buyurur: “Hər bir şeyin üzü olduğu kimi, dininizin üzü də namazdır”.

Həzrət Peyğəmbərin(s) bu hədisindən başa düşülür ki, hər bir müsəlman namaz qılmasa, onun müsəlman

olmasını hansı əməli ilə tanımaq olar? Əgər bir müsəlman namaz qılmırsa, onun qeyri-müsəlmanla fərqi nədir? Hazırkı dövrdə şükürlər olsun Allaha ki, namaz qılmaqda insanların qarşısında heç bir maneə yoxdur. Əgər bir müsəlman dünyanın istənilən hər hansı bir ölkəsində namaz qılmaq istəsə, heç bir problemlə üzləşmir. Hətta qeyri-müsəlman ölkələrində də bir müsəlman namaz qılırsa həmin şəxsə heç kəs bir söz demir.

Bir gün mən Almaniyaya səfər etmişdim. Orada mənə Almaniyanın demokratik bir ölkə olması barədə çox danışmışdılar. Demişdilər ki, bura elə bir yerdir ki, hər kəs ürəyi istədiyi kimi hərəkət edir. Kim günah etmək istəyirsə, etsin. Kim şənlənmək istəyirsə, şənlənsin. Heç kəs onun qarşısını kəsmir. Bir sözlə, azad bir ölkədir. Şəhərlərin birində bir sıra işlərlə əlaqədar dostlarla evdən çıxdıq. Günlərin qısa olduğundan bildim ki, günorta namazına geri qayıda bilməyəcəyik. Buna görə də günorta namazı üçün hazır vəziyyətdə evdən çıxdıq. Küçələrin biri ilə gedərkən günorta namazının vaxtı çatdı. Dostlara dedim: Namazın vaxtıdır, gəlin bir yerdə dayanıb namazımızı qılaq. Mənə dedilər: Burada necə namaz qılaq? Küçənin ortası və camaatın get-gəl olan yeridir. Həmin küçənin kənarında səliqəli bir park salınmışdı. Dedim: Gözəl yaşıllıq yerdir. Dayanıb orada qılarıq. Dedilər: istəyirsən burada dayanıb namaz qılaq? Dedim: Bəs siz mənə deyirdiniz ki, bura demokratik bir ölkədir. Kimin ürəyi nə istəsə, edə bilər. Əgər azad bir ölkədirsə və hər bir şeyi etmək olarsa, nə üçün də namazımızı qılmamalıyıq? Gördüm ki, onlardan bir-iki nəfərin burada namaz qılmağa ürəyi yoxdur. Həmin ölkənin zadlığından danışan şəxs də etiraz etmədi. Çünki günlərlə bizim üçün bu ölkənin demokratik bir ölkə olması barədə söhbətlər

etmişdi. Uzun sözün qısası, orada böyük bir ağacın altında qibləni müəyyənləşdirib namazımızı qıldıq.

Bu əhvalatı danışmaqda məqsədim odur ki, hər bir müsəlman namazını harada qılmaq istəyirsə, heç bir maneə yoxdur. Hər yerdə namaz vaxtı yetişəndə müsəlmanın borcudur ki, durub namazını qılsın. Çünki müsəlman öz namazı ilə tanınar.

Həzrət Peyğəmbər(s) buyurur: «Qiyamət günü bəndədən soruşulacaq ilk şey namazdır.»

Əgər bir kişi yetmiş beş yaşında dünyadan gedibsə, həmin şəxsdən altmış ilin namazı tələb olunacaq. On beş yaşında həddi-büluğa çatdığına görə altmış ilin hesabatını verəcək. Əgər altmış ilin namazını təqdim edə bilsə, xoş onun halına. Yox, əgər namazı olmasa, daha başqa əməllər barədə soruşulmayacaq. Bu o deməkdir ki, namazsız heç bir əməl qəbul olunmur. Çünki həmin şəxs dinin əsas məsələsi olan namaza əməl etməmişdir. Buna görə də namaz qılmayanın aqibəti pis olacaq. Elə insanlar da var ki, həddi-büluğa çatandan sonra neçə il yaşayıblarsa, yaşadıqları ömrün namazlarını vaxtlı-vaxtında qılıblar. Müsəlmanın əsas vəzifəsi namaz qılmaqdır. Qəbul olub-olmaması Allahın əlindədir.

Mən bir nəfər ticarətçini tanıyırdım və onunla yaxşı münasibətimiz var idi. Bu insanın çoxlu mal-dövləti, bağları, evləri, dükanları və maşınları var idi. O, bu mal-dövləti halal yolla qazanmışdı. Özü də mömin bir insan idi. Onun səksənə yaxın yaşı var idi. Ömründə üç dəfə namazını təzələmişdi. Yəni ömür boyu qıldığı namazlarını üç dəfə ehtiyat üçün yenidən qılmışdı. Hər gün sübh namazından sonra gündə bir saat namaz qılmaqla məşğul olardı.

Odur ki, heç bir şey namaz qılmaqda insana maneə ola bilməz. Bəzi insanlar "işimin çoxluğundan namaz qılmağa imkan tapa bilmirəm," deyə bəhanə edib namaz qılmırlar. Bütün bu bəhanələrin hamısı boş sözlərdir. Çünki iyirmi dörd saat ərzində on beş-iyirmi dəqiqə namaz qılmaq insanı heç bir işindən saxlamır. Insan gün ərzində öz vaxtını cürbəcür yerlərə və şeylərə sərf edir. Gün ərzində bu vaxtın heç olmasa yarım saatını namaza sərf edə bilməzmi? Buna görə də insan namaza bəhanə gətirməməlidir. Çünki saatlarla itirdiyi vaxt üçün heç təəssüflənmir. Amma namaza gəldikdə, cürbəcür bəhanələr gətirir.

Bir gün iki nəfər bizə qonaq gəlmişdi. Qonaqlar bir-birini tanıyırdı. Onlardan biri namaz qılırdı, digəri isə qılmırdı. Namaz qılan o birinə namaz barədə nəsihət edərək soruşdu: “Nə üçün namaz qılmırsan? O dedi: İşim çox olur və namaz qılmağa vaxt tapa bilmirəm. Soruşdu: Vaxtın nələrə sərf olunur? Dedi: Bazarda səhərdən-axşama qədər ora-bura qaçmaqla, alverlə məşğul oluram. Namaz qılan dedi: Vaxtını onun-bunun üçün hədərə verirsən. Heç olmasa on yeddi dəqiqə də özünə sərf et. Özünü niyə yaddan çıxarmısan? Vaxtını başqalarına sərf etdiyin kimi, özünə də vaxt ayır”.

Odur ki, Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü insandan ilk növbədə namaz barədə haqq-hesab çəkiləcək. Əgər namazlarının hesabı düz olsa, digər əməllərə də baxılacaq. Yox, əgər namaz yerində olmasa, digər əməllərə baxılmayacaq. Çünki namaz olmadıqda, digər savab əməllərin heç biri qəbul olunmayacaq”.

Həzrət Peyğəmbər(s) buyurur: “Əgər bir kəsin Əbu Qübeys dağı boyda qızılı olsa və həmin qızılın hamısını Allah yolunda yetimlərə və yoxsullara paylasa, bununla

yanaşı namazı olmasa, onun həmin əməli Allah yanında qəbul olunmayacaq. Allah insanı namaz qılmaq üçün yaradıb. Yetimlərə və yoxsullara yardım etmək o vaxt insanın dərdinə dəyər ki, o, namaz qılan olsun. Hər bir əməldən öncə namazdır. İnsan gündəlik vacib namazlarına diqqət yetirib qıldıqdan sonra savab işlərlə məşğul ola bilər. Namaz qılmadan savab işləri görməyin insana faydası olmayacaq. Buna görə də insan çalışmalıdır ki, namazı əldən buraxmasın. Hətta günaha da belə düşmüş olsa, yenə də namazdan əl çəkməməlidir. Həzrət Peyğəmbərin(s) zamanında bir nəfər cavan oğlan həm namaz qılırdı, həm də hərdən günah işlər görürdü. Peyğəmbərə(s) dedilər: "Ya Rəsulallah, bu cavan oğlan sənin arxanda dayanıb namaz qılmağına baxmayaraq, gedib günah işlərlə də məşğul olur. Həzrət(s) buyurdu: Onun qıldığı namaz (əvvəl- axır) bir gün onu pis işlərdən çəkindirəcək".

Buna görə də insan mütləq namazlarında diqqətli olmalı, azan verildikdə bütün işlərini kənara qoyub, namazını qılmalıdır. Namaz hər bir işdən mühümdür.

### 11. Allah evinin (Kəbənin) ziyarəti

Həzrət Əlinin(ə) vəsiyyətində olan mətləblərdən biri də Allahın evi olan Kəbə barədədir. Həzrət təkidlə Allah evini bütün müsəlmanlara tapşıraraq belə vəsiyyət edir:

وَ اللهَ اللهَ فِي بَيْتِ رَبِّكُمْ, لا تُخَلُّوهُ ما بَقِيْتُمْ, فَإِنَّهُ إِنْ تُرِكَ لَمْ تُناظَرُوا

- Allah, Allah xatirinə Rəbbinizin evini ziyarət etməyi unutmayın. Nə qədər ki, varsız, onu boş qoymayın. Çünki onu boş qoysanız, sizə möhlət verilməz. (Allahın bəlası sizə nazil olar.)

Kəbənin ziyarəti və Həcc əməlləri barədə həm Quranda, həm də hədislərdə təkid olunmuşdur.

قَالَ عَلِى(ع): اَلحاجّ وَ الْمُعْتَمِر وِفْدُاللهِ وَ يَحبُوهُ بِالْمَغْفِرَة

Həzrət Əli(ə) buyurur: “Həcc və ümrə zəvvarı Allahın qonağıdır və Allah ona bağışlanmağı hədiyyə edər”.

Hər bir müsəlmana Allahın evini ziyarət etmək vacibdir. Əlbəttə, Həccin öz hökmləri və qaydaları vardır ki, fiqh kitablarında geniş şəkildə bəyan olunmuşdur. İmkan düşən kimi insan çalışmalıdır ki, Allahın evini ziyarət etsin. Hər kəs Allaha xatir ora gedirsə, Allahın qonağıdır. Allah-təala Öz qonağına necə ehtiram etməyi yaxşı bilir. Buna görə də müsəlmanlar çalışıb Allahın evinin ziyarətinə getməli və oranı boş qoymamalıdırlar.

Hədislərdə vardır ki, hər kəs Allahın evini ziyarət edərsə, Allah-təala qiyamət günü həmin şəxsə icazə verəcək ki, övladlarına, əhlinə (qohum- əqrəbasına) və qonşularına şəfaət etsin. Digər bir hədisdə vardır ki, hər kəs Məscidül-həramda (Kəbədə) iki rükət namaz qılsa, qıldığı bu iki rükət namazın hörmətinə ömrü boyu qıldığı namazlar Allah dərgahında qəbul olar. Həmçinin Kəbəyə baxmağın özü insan üçün ibadətdir. Hədislərdə Həcərül-əsvədi ziyarət etmək barədə belə buyurur: “Həcərül-əsvəd Allahın yer üzərində əlidir. Hər kəs ona əl vurarsa, elə bil Allahla görüşmüşdür. Hər kəs Allahla görüşürsə, bu o deməkdir ki, Ona söz verir ki, qayıtdıqdan sonra bir daha günah etməyəcək.

Ümumiyyətlə, Həccin savabı barədə günlərlə söhbət etmək olar. Əlbəttə, bütün bunların iki mühüm şərti var. Hər kəs bu şərtlərə riayət etməsə, Həcci qəbul olmaz. Birinci şərt budur ki, Həccə getmək üçün sərf etdiyi pul

halal olmalıdır. Hədislərdə vardır ki, haram mal ilə Həcc və Ümrəyə gedən şəxsin ziyarətini Allah qəbul etməz. İkinci şərt isə budur ki, Həcc ziyarətinə gedən şəxsin niyyəti yalnız və yalnız Allaha görə olmalıdır. Hamı ona hacı desin məqsədilə Həccə getmək düzgün deyil. İnsan bu mübarək ziyarətə Allaha itaət məqsədilə getməlidir.

قَالَ الصَّادِقُ(ع): اَلحَجُّ حَجَّان حَجّ لله وّحَج لِلنّاسِ فَمَن حَجّ للهِ كَانَ ثَوابُهُ عَلى الله الجَنّة وَمَن حَجّ لِلنّاسِ كَانَ ثَوابُهُ عَلى النّاسِ يَومَ القِيامَة

İmam Sadiq(ə) buyurur: “Həcc iki cürdir. Allaha görə Həccə getmək və camaata görə Həccə getmək. Hər kəs Allaha görə Həccə gedərsə, savabı Allah verəcək. Hər kəs camaata görə Həccə gedərsə, qiyamət günü savabını camaatdan alsın. (Yəni hər kəs camaata görə Həccə gedibsə, qiyamət günü Allah ona əcr və savab verməz. Həmin şəxsə deyilər ki, kimə görə Həccə getmisənsə, savabını da ondan istə.)”

Həzrət Peyğəmbərdən(s) belə bir hədis var ki, hər kəs ehram halında dünyadan getsə, mən cənnətdə ona zamin dayanaram.

İmam Sadiq(ə) buyurur: “Ehram halında ölən şəxsi Allah-təala «ləbbeyk» deyən halda dirildər və günahlarını bağışlayar”.

قَالَ الصّادِقُ(ع): مَن مَاتَ فِي أَحَد الحَرَمَين بَعَثَهُ الله مِن الآمِنِين، وَمَن مَاتَ بَيْنَ الحَرَمَين لَمَ يُنْشَر لَهُ دِيوَانٌ

İmam Sadiq(ə) buyurur: “Hər kəs iki hərəmin birində (Məkkədə və ya Mədinədə) dünyadan getsə, Allah-təala qiyamət günü həmin şəxsi əmin-amanlıqla məhşərə

gətirər. Həmçinin əgər bir insan bu iki hərəm (Məkkə ilə Mədinə) arasında dünyadan getsə, həmin şəxs hesab-kitabsız cənnətə daxil olacaq”.

Əlbəttə, burada incə bir məqam var ki, Həccə gedən hər bir şəxs onun əməllərini dəqiqliklə yerinə yetirməlidir. Özü istədiyi kimi yox, Allahın buyurduğu kimi, bütün əməllərdə diqqətli olmalıdır. Ziyarət edərkən, təvaf zamanı, Ərəfatda, Müzdəlifdə, Minada qalmağı və bir sözlə, bütün əməlləri dəqiqliklə başa düşüb onlara əməl etməlidir. Hədislərdə var ki, hər kəs Həcc ziyarətinin əməllərini dəqiqliklə yerinə yetirsə, Allah-təala həmin şəxsə elə bir nur bəxş edər ki, bu nur qiyamətə qədər həmin şəxslə olar. Bir şərtlə ki, insan günah etməsin. Günah etdikdə həmin nur insandan ayrılar.

Elə insanlar var ki, Allahın evini ziyarət etdikdən sonra günah etməyib həmin nuru özləri ilə saxlayırlar. Lakin bəzi insanlar isə günah edərək həmin nuru özlərindən uzaqlaşdırırlar.

### 12. Cihad

Həzrət Əlinin(ə) vəsiyyətində olan mətləblərdən biri də cihad barədədir. Həzrət(ə) buyurur:

وَ اللهَ اللهَ فِي الْجِهادِ بِأَمْوالِكُمْ وَ أَنْفُسِكُمْ وَ أَلْسِنَتِكُمْ فِي سَبِيلِ اللهِ

- Allah, Allah xatirinə canınızla, malınızla, dilinizlə Allah yolunda mübarizə aparın. (Çünki bütün bunları gərək bu yolda sərf edəsiniz.)

Hər bir müsəlman canı, malı, dili ilə Allah yolunda mübarizə aparıb cihad etməlidir. Cihad etmək İslamda mühüm əməllərdən biridir. Bu barədə həm Quran ayələri, həm də bir çox hədislər mövcuddur. Nümunə üçün bir neçəsini nəzərinizə çatdırıram.

Hədislərdə deyilir ki, bir mücahid dinini müdafiə etmək üçün düşmənlə döyüşüb şəhid olarsa, qiyamət günü həmin şəxsi nurdan olan bir ata mindirib hesab-kitabsız cənnətə daxil edəcəklər. Allah yolunda şəhid olanlar həmin atla peyğəmbərlərin qarşısından keçərək cənnətə gedəcəklər.

Digər bir hədisdə İmam Sadiq(ə) buyurur: “Sənin dilinin vasitəsilə bir insan hidayət olub haqq yoluna gələrsə, bu əməlin savabı döyüş meydanında cihad edənin savabından çoxdur”.

Başqa hədisdə isə nəfslə mübarizə aparmaq barədə İmam Əli(ə) buyurur: «Peyğəmbər(s) qoşunu müharibəyə göndərir. Qoşun müharibədən qayıdanda Həzrət(s) deyir: “Xoş gəldin deyirəm, cihadi-əsğəri (kiçik cihadı) yerinə yetirənlərə. Ancaq böyük cihad hələ də onların öhdəsində qalmaqdadır.” Təəccüblə ərz edirlər: “Ey Allahın Rəsulu, böyük cihad nədir?» Həzrət(s) buyurdu:«Nəfsə qarşı cihaddır.”

Hamı yemək yemək istəyir. Lakin Allaha görə oruc tutanlar da çoxdur. Hamı istəyir sübh tezdən şirin yuxuda olsun. Lakin şeytanın belini sındırıb, bu şirin yuxunu kənara qoymaqla ayağa qalxıb Allahla minacat edərək sübh namazını qılmaq, əlbəttə, nəfslə cihad etmək deməkdir. İbadətlə bir neçə müddət məşğul olduqda yavaş-yavaş həmin ibadətin ləzzətini insan duyur. İlk vaxtlar insan bu ləzzəti hiss etmir və çətinlik çəkir. Lakin ibadətlə ünsiyyət yaratdıqca, bütün çətinliklər aradan gedir və insan ibadətin şirinliyini dadır. Allah-təala Öz ibadətinin ləzzətini hamıya nəsib etsin, inşallah.

**13. Səmimiyyət və bir-biri ilə əlaqə yaratmaq**

Həzrət Əlinin(ə) vəsiyyətlərindən biri də budur ki, müsəlmanlar bir-biri ilə səmimi olmalı və bir-biri ilə əlaqəni kəsməməlidirlər.

وَ عَلَيْكُمْ بِالتَّواصُلِ وَ التَّباذُلِ, وَ إِيّاكُمْ وَ التَّدابُرَ وَ الْتَّقاطُعَ

-Siz gərək həmişə dostluq əlaqələrini genişləndirə-siniz. Bağışlamağı, hədiyyə etməyi unutmayın. Bir-birinizdən üz çevirməyin, bir-birinizlə əlaqələrinizi kəsməkdən çəkinin.

Müsəlmanlar gərək bir-birinə qarşı mehriban olsunlar. Bir-birinin qeybətini etməsin və böhtan atmasınlar. Əgər birində bir eyb görsələr, onu açıb camaat arasında danışmasınlar. Hədislərdə var ki, qiyamət günü mələklər səslənib deyəcəklər: “Allahın qonşuları (Allahın rəhmətinin kənarında olanlar) gəlsin!” Baxıb görəcəklər ki, bir dəstə insan gəlir. Mələklər onlardan soruşacaqlar: Siz dünyada hansı işlərin sahibi olmusunuz? Deyəcəklər: Biz dünyada yalnız Allaha görə bir-birimizi sevib, bir-birimizə qarşı səmimi və mehriban olmuşuq”.

**14.Əmr be-məruf və nəhy əz-münkər**

Həzrət Əlinin(ə) vəsiyyətində olan sonuncu mətləb yaxşılığa dəvət və pisliklərdən çəkindirməkdir.

لا تَتْرُكُوا الْأَمْرَ بْالْمَعْرُوفِ وَ النَّهى عَنِ الْمُنْكَرِ فَيُوَلَّى عَلَيْكُمْ أَشْرارُكُمْ ثُمَّ تَدْعُونَ فَلا يُسْتَجابُ لَكُمْ...

- Əmr be-məruf və nəhy əz-münkəri tərk etməyin ki, pislər sizə hakim kəsilərlər. Sonra nə qədər dua etsəniz də, müstəcab (xeyri) olmaz.

Ümumiyyətlə, əmr be-məruf və nəhy əz-münkər çox böyük əhəmiyyət kəsb edir. Əgər bir cəmiyyətdə insanlar arasında əmr be-məruf və nəhy əz-münkər olarsa, yəni insanlar bir-birini pis işlərdən çəkindirib, yaxşı işlərə dəvət edərsə, o, cəmiyyət idarə və islah ola bilər və heç bir çətinliklərlə qarşılaşmaz. İslam dini əmr be-məruf və nəhy əz-münkərə çox böyük əhəmiyyət verir və bu əməldən boyun qaçıranları tənqid edir. Allah-təala Quranın müxtəlif ayələrində əmr be-məruf və nəhy əz-münkəri insanlara təkid və tövsiyə edir. Onlardan bir neçəsini nümunə üçün qeyd edirəm.

Allah-təala "Tövbə" surəsinin 71-ci ayəsində möminlərin xüsusiyyətləri barədə belə buyurur:

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ...

"Mömin kişi və qadınlar bir-birinin tərəfdarı və dostudurlar. Yaxşılığa əmr edib, pisliklərdən çəkindirərlər".

"Ali-İmran" surəsinin 104-cü ayəsində belə buyurur:

وَلْتَكُن مِّنكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağa edən bir camaat olsun. Bunlar (bu camaat) həqiqətən nicat tapmış şəxslərdir!"

Əgər insanlar bir-birini yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməsə, bunun axırı çox pis qurtaracaq. Bu barədə də Peyğəmbər(s) və imamlardan bir çox hədislər mövcuddur.

قَال رَسُولُ اللهُ(ص): اِذا لَمْ يَأْمُرُوا بِمَعْرُوفٍ وَ لَمْ يَنْهَوا عَنْ مُنْكَرٍ وَ لَمْ يَتَّبِعُوا الْأَخْيَارُ مِنْ أَهْلِ بَيْتِى, سَلَّطَ اللهُ عَلَيْهِم شِرَارَهُمْ فَيَدْعُوا عِنْدَ ذَالِكَ خِيَارَهُمْ فَلا يُسْتَجَابُ لَهُمْ

Həzrət Peyğəmbər(s) buyurur: “Əgər (bir cəmiyyətdə) insanlar bir-birilərini yaxşı işlərə dəvət etməyib, pis işlərdən çəkindirməsələr və mənim əhli-beytimə itaət etməsələr, Allah ən pis və şər insanları onlara hakim edər. Belə olduqda həmin cəmiyyətin möminləri dua etsələr belə, Allah onların dualarını qəbul etməz.”

Odur ki, hər bir cəmiyyətdə insanlar mütləq bir-birini əmr be-məruf və nəhy əz-münkər etməlidirlər.

Yuxarıda qeyd etdiyimiz on dörd mətləb Həzrət Əlinin(ə) bizlərə olan vəsiyyətidir. Həzrətin(ə) vəsiyyətləri bizim qəlbimizdə qərar tutsun və onlara əməl etməkdə Allah-təala bizi müvəffəq etsin. Inşallah.

***2005, 21, 23 ramazan***

# İMAM ƏLİNİN(Ə) ŞƏXSİYYƏTİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلمُتَّقِين وَالجَنَّةُ لِلمُطِعِينَ وَالنّارُ لِلعَاصِين وَالْمُلْحِدِين وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلَى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَللَّعْنُ الدَّائِم عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. وَالشَّمْسُ تَجْرِي لِمُسْتَقَرٍّ لَّهَا ذَلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ. وَالْقَمَرَ قَدَّرْنَاهُ مَنَازِلَ حَتَّى عَادَ كَالْعُرْجُونِ الْقَدِيمِ

Mübarək ramazan ayının 20-dən 21-nə keçən gecənin Qədr gecəsi olması ehtimal edilir. Bu gecə Qədr gecəsinin ehtimal olunduğu həmin üç gecədən biridir. Həm də ramazan ayının 21-ci gecəsi Peyğəmbərimizin(s) vəsisi, bütün müsəlmanların imamı Həzrət Əlinin(ə) şəhadətə yetişdiyi gecəyə təsadüf edir. Belə bir gecədə Həzrət Əli(ə) dünyasını dəyişərək əbədiyyətə qovuşur. İstərdim ki, bu bəhsimizdə İmam Əlinin(ə) fəzilət və şərafətləri barədə müəyyən qədər söhbət açıb mövzumuza Həzrətin(ə) adı ilə zinət verək. Bu mövzu barədə danışmazdan öncə bir müqəddiməni nəzərinizə çatdırıram.

## Yerin (kürəsinin) üç hərəkəti

İslamdan öncə xristianlıq aləmi Yer kürəsinin sabit və hərəkətsiz olmasına etiqad edirdi. Ptolemey adlı bir alim Yer kürəsinin sabit və hərəkətsiz olması barədə

nəzəriyyə irəli sürmüşdü. Onun bu fikri o zamanlar bir qanun kimi qəbul edilmişdi. Bir sıra alimlər isə bu fikrin əleyhinə öz nəzəriyyələrini irəli sürdülər. Lakin bu alimlərə qarşı qeyri-insani münasibət bəsləyirdilər. Hər hansı bir alim Yer kürəsinin hərəkətdə olması barədə nəzəriyyə söyləyirdisə, ağır işgəncələrə məruz qalırdı. Bruney adlı bir alim Yer kürəsinin hərəkətdə olması barədə nəzəriyyəni açıqlayanda onu öldürüb yandırdılar. Həmin alimlərdən biri də Qaliley idi. O da Yer kürəsinin hərəkətdə olması barədə fikir irəli sürmüşdü. Lakin elə bir iş gördülər ki, Qaliley məcburiyyət qarşısında qalıb sözünü geri götürdü və tövbə etdi. O, zahirən də olsa irəli sürdüyü fikrini geri götürdü. Beləliklə, o zamanlar Ptolemeyin nəzəriyyəsi bir qanun kimi bütün dünyaya çatdırıldı. İllər keçdikdən sonra Islam zühur etdi və alimləri bu barədə tədqiqat aparmağa dəvət etdi. İslam insanları gözlərini açıb göyün, göy cisimlərinin və yerin barəsində düşünməyə dəvət etdi. Beləliklə, İslamın bu dəvəti nəticəsində az bir zamanda çox böyük və görkəmli alimlər yetişdi. Astronomiya, fizika, kimya, riyaziyyat, tibb və digər elmlər sahəsində böyük alimlər ortaya çıxdı. Nümunə üçün onlardan bir neçəsinin adını nəzərinizə çatdırıram: Əbu Əbdillah Məhəmməd ibn Musa Əlxarəzmi, Şeyx Bəhaəddin Amuli, Xacə Nəsirəddin Tusi, Cabir ibn Həyyan, Əbu Əli Həsən ibn Teysəm, Məhəmməd ibn Zəkəriyya Razi, Əbu Reyhan Biruni, Şeyxur-rəis, Hüseyn ibn Əbdillah ibn Sina. Bəli, İslam yüzlərlə bu cür şəxsiyyətləri tərbiyə edib yetişdirdi. Bütün bunlardan əlavə, ən əsası budur ki, İslam zühur etdikdən sonra Ptolemeyin nəzəriyyəsinə etina etmədən birbaşa açıq şəkildə Quran ayələrində Yer kürəsinin hərəkətdə olduğu bütün insanlara bəyan edildi.

Yer kürəsinin hərəkətdə olduğu barədə “Nəbə” surəsinin 6-cı ayəsində buyurulur:

أَلَمْ نَجْعَلِ الْأَرْضَ مِهَادًا

- Məgər Biz yeri rahatlıq beşiyi etmədikmi?

Bu ayədə bəyan edir ki, Yer kürəsi nəinki hərəkət edir, hətta beşik tərpəndiyi kimi tərpənir. “Nəml” surəsinin 88-ci ayəsində belə buyurulur:

وَتَرَى الْجِبَالَ تَحْسَبُهَا جَامِدَةً وَهِيَ تَمُرُّ مَرَّ السَّحَابِ

- (O gün) dağları görüb, onları hərəkətsiz və donmuş zənn edərsən. Halbuki onlar buludun keçdiyi kimi hərəkət edərlər.

Qurani-Kərimdə Yer kürəsinin hərəkət etməsindən əlavə, Günəşin hərəkəti barədə də belə bəyan edildi:

وَالشَّمْسُ تَجْرِي لِمُسْتَقَرٍّ لَّهَا

- Günəş də özü üçün müəyyən olunmuş qərargahına yetişməkdən ötrü daim hərəkətdədir.

Ayın hərəkəti barədə belə buyurulur:

وَالْقَمَرَ قَدَّرْنَاهُ مَنَازِلَ حَتَّى عَادَ كَالْعُرْجُونِ الْقَدِيمِ

- Və bütöv halda olan Ay üçün də mənzillər təyin etdik.

Deməli, hər bir göy cisminin özünəməxsus şəkildə müəyyən hərəkət trayektoriyası var. Hər biri təyin olunmuş ox üzrə hərəkət edir. Hər biri öz oxu ətrafında hərəkət edir və digərinə maneə yaratmır. Digər ayədə belə buyurulur:

لَا الشَّمْسُ يَنبَغِي لَهَا أَن تُدْرِكَ الْقَمَرَ وَلَا اللَّيْلُ سَابِقُ النَّهَارِ وَكُلٌّ فِي فَلَكٍ يَسْبَحُونَ

- Nə günəş (öz təbii hərəkət sistemində bu) Aya (və özünün başqa aylarına, yəni başqa peyklərə) çatmaz, nə də gecə gündüzdən irəli keçməz. Onların (Günəş, Ay və ulduzların) hər biri müəyyən bir dairədə üzürlər.

Beləliklə, İslam bütün aləmə başa saldı ki, hər bir göy cismi Yer kürəsi də bunların içində olmaqla, daim hərəkətdədir. Lakin İslamın tərbiyə edib yetişdirdiyi alimlər Yer kürəsinin hərəkətini üç hissəyə ayırmışlar. Yerin birinci hərəkəti öz oxu ətrafında fırlanmasıdır. Hər 23 saat 59 dəqiqədən bir bir dəfə öz oxu ətrafında hərəkət edir. Bu hərəkətin nəticəsində gecə və gündüz yaranır. Bu hərəkətlə yanaşı, ikinci hərəkəti isə digər kürələrlə birgə Günəşin ətrafına dövr etməsidir. Yerin Günəşin ətrafında hərəkət etməsi bir il ərzində baş verir. Yəni bir il ərzində Yer kürəsi bir dəfə Günəşin ətrafında hərəkət edir. Bu hərəkət nəticəsində də fəsillər meydana gəlir. Yerin üçüncü hərəkəti isə bütün göy cisimləri ilə bərabər hərəkət etməsidir. Yəni Yer kürəsi həm öz oxu ətrafında, həm digər kürələrlə birgə Günəşin ətrafında hərəkət etməklə yanaşı, bütün digər  göy cisimləri ilə birgə naməlum istiqamətə doğru hərəkət edirlər. Bu hərəkətin hansı istiqamətə doğru getməsini və harada dayanacağını yalnız Allah bilir. Çünki bu hərəkət hələ də elmə sirr olaraq qalır. Hər halda alimlər Yer kürəsinin üç növ hərəkəti barədə tədqiqatlar aparmışlar. Buna misal olaraq, arı pətəyini misal çəkmək olar. Təsəvvür edin ki, bir pətək balı arabanın üstünə qoyub aparırsınız. Həmin pətəkdəki arılar araba hərəkət etdikdə belə öz ballarından yeyib istfadə edirlər. Bu istifadə etmə onların öz hərəkətləridir. Elə bil ki, öz ətrafında dövr edirlər. Eyni halda digər arılarla birgə öz pətəklərinin ətrafında hərəkət edirlər. Bütün bunlarla birgə həm arılar, həm də pətək araba ilə birgə hərəkət

edirlər. Arıların araba ilə birgə, eyni halda, pətəyin ətrafında, həmçinin öz şanlarının ətrafında hərəkət etdikləri kimi, Yer kürəsi də həm öz oxu ətrafında, həm digər kürələrlə birgə Günəşin ətrafında, həm də bütün qalaktika ilə birgə hərəkət edir.

## İnsanın üç hərəkəti

Yuxarıda biz Yer hərəkəti barədə söhbət açdıq. Bu müqəddiməni ona görə nəzərinizə çatdırdım ki, insan özü də yerin balasıdır. Yer və torpaq insanın anasıdır. “Taha” surəsinin 55-ci ayəsində belə buyurur:

مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَى

- Sizi ondan (torpaqdan) yaratdıq (öləndən sonra) ona qaytaracaq və bir daha (qiyamətdə) ondan çıxaracağıq.

Həm əxlaq alimləri, həm də insan barədə tədqiqat aparan digər alimlər belə deyirlər: əgər insan kamilləşmək istəyirsə, əgər insan insaniyyətin zirvəsinə yüksəlmək istəyirsə Yer kürəsinin hərəkəti kimi üç növ hərəkət etməlidir. İnsanın birinci hərəkəti öz ətrafına dolanıb hərəkət etməsidir. Yəni insan öz başını dolandırmalı və həyatda yaşamalıdır. Hər bir insanın yeməyə, geyməyə, ailə qurmağa, artmağa, evə malik olmağa və yaşamağa haqqı var. Bütün bunlar o deməkdir ki, insan öz ətrafında hərəkət edərək özünü dolandırır. Bu, insanın birinci hərəkətidir.

Lakin insan üçün ən mühüm olan ikinci və üçüncü hərəkətləridir. Çünki birinci hərəkətdə insanlarla heyvanlar şərikdir. Heyvanların da yeməyi, içməyi, yuvası və artımı var. Belə bir yaşayış təkcə insana məxsus deyil. Belə bir hərəkətdə insanlar heyvanlarla şərikdirlər. Amma

insanın ikinci hərəkəti ondan ibarətdir ki, o, cəmiyyətin ətrafında hərəkət etməlidir. Həzrət Əlinin(ə) həyatına nəzər saldıqda görürük ki, Həzrət(ə) bir gün dörd yüz min dirhəm qazanır və hamısını da həmin gün Allah yolunda paylayır. Bəs, Həzrət(ə) nə üçün belə edir?  Həzrət Əli(ə) bu hərəkəti ilə insanları başa salırdı ki, heç bir müsəlman deməməlidir ki, əgər mən yeyirəmsə və başqası yemirsə, mənə nə? Həmçinin mən yaxşı yaşayıramsa, başqaları yaxşı dolana bilmirsə, mənə nə? Əgər mən yaxşı geyimlərdən istifadə edirəmsə və başqaları geyinə bilmirsə, mənə nə dəxli var? Mənim ən yaxşı minik vasitəm varsa və başqasında yoxdursa, mənə nə dəxli var? İslamda «mənə nə?» ifadəsi yoxdur. Yəni Həzrət Əli(ə) sübut edir ki,  İslamda «mən» anlamı yoxdur. Hər nə varsa, bizik. Yəni biz bir cəmiyyətik. Hər bir müsəlman cəmiyyətdə yaşamalı və özünü cəmiyyətdən ayırmamalıdır. İslam dininin ibadətlərinə nəzər saldıqda görürük ki, hər bir ibadət ictimai xarakter daşıyır. Məsələn, bir insan  otaqda təkcə namaz qılırsa və dediyi sözlərinə fikir versə, görər ki, tək namaz qıldığı halda yenə də cəmiyyətlə birgədir. Namazda “Həmd” surəsini oxuyarkən deyir: "İyyakə nəbudu və iyyakə nəstəin" - "Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik." Hər kəs namazda "İyyakə əbudu" - "Yalnız Sənə ibadət edirəm" - desə, həmin şəxsin namazı batildir. Həmçinin insan namaz qılarkən namazın salamlarında belə deyir: “Salam olsun bizə və Allahın saleh bəndələrinə”. "Salam olsun bizə" o deməkdir ki, İslam əqidəsi altında birləşən bütün müsəlmanlara salam olsun. Salam olsun biz Allaha səcdə edənlərə. Salam olsun biz Peyğəmbərə(s) itaət edənlərə. Salam olsun biz Quranı

qəbul edənlərə. Salam olsun biz qiyamət gününə inananlara. Salam olsun Allahın saleh bəndələrinə.

Deməli, hər bir müsəlman evində tək namaz qılsa da belə, yenə də cəmiyyətlə birgə olmalıdır. Məşriqdə namaz qılanlar məğribdə namaz qılanlara, məğribdə namaz qılanlar da məşriqdə namaz qılanlara salam göndərir. Deməli, insanın ikinci hərəkəti öz cəmiyyətinin ətrafında hərəkət etməsidir. Hər bir işdə öz cəmiyyətini düşünməsidir.

İnsanın üçüncü hərəkəti isə Allaha tərəf olan hərəkətidir. İnsan Allaha səcdə edərkən ruhu göylərə pərvaz edir. Hədislərdə var ki, Xanım Fatimeyi Zəhra(s.ə) namazda rüku halında yüz dəfə "Subhanə Rəbbiyəl Əzimi və bihəmdihi" - deyə zikr edirdi. Allah-təala göyün örtüyünü kənara çəkib mələklərə ona baxmağı əmr edərək buyurur: “Mən insanı yaradarkən deyirdiniz ki, insanı yaratma. O, gəlib yer üzündə qan tökəcək. Mən bu aləmləri həmin bəndəmə görə xəlq etmişəm”.

Kafirlər elə düşünürlər ki, dünyada hər nə varsa, onlar üçün xəlq olunub. Daha başa düşmürlər ki, əgər onlar bu dünyadan doyunca istifadə edirlərsə, həmin bəndənin sayəsində yaşayırlar. Allah bütün aləmi Xanım Zəhraya(s.ə) xatir yaratmışdır. Bütün canlılar da onun sayəsində bu aləmdə yaşayırlar. Bunu başa düşmək üçün bir bağı və bağbanı misal çəkmək olar. Bağban bağda bir neçə gözəl gül əkir və onlara su verərək bəsləyir. Bağda yetişən tikanlar və alaqlar da həmin güllərin sayəsində su içib yetişirlər. Həqiqətdə bağban güllərə su verir və onları bəsləyir. Alaqlar isə güllərə verilən sudan istifadə edib kök atırlar. Hədislərdə vardır ki, əgər dünyanın Allah yanında qiyməti olsaydı, qoymazdı ki, kafirlər dünyadan bir qurtum belə su içsinlər. Dünyanın Allah yanında

qiyməti olmadığına görə bütün məxluqlar ondan istifadə edə bilirlər. Buna görə də Allahı tanımayanlar bu dünyadan bacardıqları qədər istifadə etməyə can atırlar. Lakin qiyamət günü belə insanların hesabı tamam başqa olacaq. Qiyamət günü onlara əmin-amanlıq olmayacaq. Çünki dünyada istədiklərini edib Allahdan uzaq düşdüklərinə görə Allahın salamı onların halına şamil olmayacaq. Lakin möminlər qiyamət günü nicat tapacaq və əmin-amanlıqla cənnətə daxil olacaqlar. Dünyada səbr edib günahlardan və haramlardan çəkinənlərə qiyamət günü Allahın salamı (əmin-amanlığı) olacaq. Ramazan ayında oruc tutub səbr edənləri, namaz qılarkən səbr edənləri, haramlarla üzləşdikdə səbr edib ondan çəkinənləri, vacib olan əməlləri çətinliklə də olsa yerinə yetirənləri, camaat haram pulların içində qərq olduqları zaman az və halala qane olan möminləri qiyamət günü cənnətdə mələklər qarşılayacaq. Möminlər cənnətə daxil olarkən onlara belə xitab olunacaq:

ادْخُلُوهَا بِسَلاَمٍ آمِنِينَ

- (Daxil olan zaman onlara) «(Allah və mələklər tərəfindən olan) salamla oraya daxil olun ki, (hər hansı bir zərər-ziyandan, xüsusilə fani olmaqdan və müddətin sona çatmasından) amanda olacaqsınız».

Beləliklə, insanın üçüncü hərəkəti Allaha səcdə etməklə pərvaz etməsidir. Yəni insanın ruhunun pərvaz etməsidir. Ruhun pərvazı da yalnız ibadət halında ola bilər. İnsan Allaha səcdə edərkən səcdənin şirinliyindən göylərə pərvaz edir. Odur ki, hər kəs Allaha etdiyi ibadətdən ləzzət alırsa, xoşbəxt insandır. Ola bilsin ki, bu hal insanda həmişə olmasın. Lakin hərdən belə bir hal insanda yarandıqda, bu ləzzəti dada bilsə, deməli, Allahın

neməti həmin şəxsə nazil olmuşdur. Çünki hər insan bu ləzzəti həmişə dada bilmir. Buna görə də Məkkədə, Mədinədə, digər ziyarətlərdə, yaxud evdə Allahla xəlvət edib ibadət edərkən belə bir hal və ləzzət tapa bilsə, deməli Allahın neməti həmin şəxsin halına şamil olmuşdur. İbadətin özünəməxsus bir ləzzəti var ki, hər insana bu ləzzəti dadmaq qismət olmur. Elə insanlar var ki, Allah onlardan ibadətin ləzzətini almışdır. Əgər bir insan ibadətindən ləzzət ala bilmirsə, deməli, həmin şəxs ziyandadır. Ən gözəl və yaxşı hal odur ki, insan Allaha etdiyi ibadətindən ləzzət alsın.

## Həzrət Əli(ə) ən mükəmməl insandır

Həzrət Əlinin(ə) həyatına nəzər saldıqda görürük ki, onun bütün hərəkətləri insana məxsus olan və qeyd etdiyimiz hərəkətlər daxilindədir. Yəni Həzrət(ə) hər hansı bir işi görürdüsə, bu üç hərəkətin daxilində idi. Nümunə üçün  Həzrətin(ə) bir neçə hərəkətinə nəzər salaq.

Bir gün Həzrət Əli(ə) evə gəlib Qənbərdən evdə yemək üçün nə olduğunu soruşdu. Qənbər dedi: “Duz və çörəyimiz var. Həzrət(ə) buyurdu: Gətir, bir tikə yeyək. Qənbər duz-çörəyi gətirdi. Həzrət(ə) bir az duzla çörək yeyib ayağa qalxdı. Camaatın yaşadığı bir yerdə suyun olmadığı barədə Həzrətə(ə) xəbər vermişdilər. Həzrət(ə) həmin yerdə bir quyu qazıb su çıxartdı və yazılı surətdə həmin quyunu camaata ehsan etdi. Sonra orada iki rükət namaz qılıb qurtardıqdan sonra dedi: İlahi, Sənə xatir yeyib öz ehtiyacımı ödədim, Sənə xatir bu quyunu qazıb camaatın ehtiyacını ödəyərək işlərinə yaradım və bu iki rükət namazı da Sənə xatir qılıb ibadət etdim”.

Həzrət Əli(ə) eyni zamanda həmin üç hərəkəti yerinə yetirdi. Əvvəl öz ehtiyacını ödəyib yemək yedi. Bu o

deməkdir ki, insan öz ətrafında hərəkət edərək özünü dolandırmalıdır. Sonra Həzrət Əli(ə) ayağa qalxıb camaatın su ehtiyacını təmin edir. Bu da insanın ikinci hərəkətidir ki, cəmiyyətin ətrafında hərəkət edərək insanların ehtiyacını ödəyir. Həzrət Əli(ə) yeri qazıb su çıxartdıqdan sonra həmin suyun kənarında iki rükət namaz qılır. Həzrətin(ə) bu hərəkəti də Allahla minacat və ruhunun pərvazı idi. Deməli, eyni halda Həzrət Əli(ə) insana məxsus olan üç hərəkətin üçünü də yerinə yetirdi. Həzrətin(ə) bu hərəkəti onun dahiliyini və mükəmməl insan olduğunu bir daha sübut edir.

Həzrət Əli(ə) cəmiyyətin qayğısına qalır və insanların tələbatını ödəyirdi. O, İslamda gözəl əməllərdən biri olan isarın bariz nümunəsi idi. İsar odur ki, insan başqalarını özündən üstün tutsun. Bir gün.Həzrət Əlinin(ə) dörd dirhəm pulu var idi. Həzrət(ə) həmin pulu camaata ehsan etdi. Bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini gizlicə və qalan bir dirhəmini isə aşkarda Allah yolunda ehsan etdi. Allah-təala Peyğəmbərə(s) bu ayəni nazil etdi:

الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُم بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلاَنِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ

- Öz mallarını gecə və gündüz, gizlin və aşkar (şəkildə Allah yolunda) xərcləyənlərin öz Rəbbi yanında məqamlarına layiq mükafatları vardır.

- Hər bir kəs İmam Əlinin(ə) yanına gəlib ehtiyac və istəyini dedikdə Həzrət onların ehtiyaclarını ödəyərək çətinliklərini həll edərdi. Hətta bəzi insanlar var idi ki, öz ehtiyaclarını deməyə utanırdılar. Həzrət Əli(ə) onlara narahat olmamağı tövsiyə edərək göstəriş verərdi ki, öz

ehtiyaclarını yazılı şəkildə ona göndərsinlər. Əli(ə) hətta çətinliklərini deməyə utananları belə nəzərə alırdı.

## Həzrət Əlinin(ə) şücaəti

Əgər camaatın çətinliyini həll etmək lazım gəlirdisə, Həzrət(ə) bu işə can-başla hazır idi. Əgər bir zamanlar Peyğəmbəri(s), dini və müsəlmanları müdafiə etmək lazım gəlirdisə Həzrət Əli(ə) bu işi görməyə hazır idi. Bütün bu işlərdə hamıdan öndə özü hərəkət edirdi. İbn Əbil Hədid əhli-sünnə alimlərindən biridir. O, “Nəhcül-bəlağə”yə böyük, dərin məzmunlu bir təfsir və şərh yazmışdır. Həzrət Əlinin(ə) döyüşü barədə belə yazır: “Əli(ə) döyüş meydanında hər kəsə bir qılınc zərbəsi endirsəydi, ikinci zərbəyə ehtiyac olmazdı”. Leylətül-Hərir İslam tarixində ən ağır müharibələrdən biri idi. İbn Əbil Hədid yazır ki, Əli(ə) bu müharibədə döyüşərkən beş yüz iyirmi üç dəfə təkbir (Allahu Əkbər) səsini eşitdilər. Müharibə qurtardıqdan sonra gördülər ki, Əlinin(ə) qılıncı vasitəsilə düz beş yüz iyirmi üç nəfər cəhənnəmə vasil olub.

Əgər cəmiyyətdə insanların çətinliyini həll etmək lazım gəlirdisə, İmam Əli(ə) orada olardı. Əgər döyüşmək lazım olurdusa, Həzrət(ə) ilk növbədə qorxu- hürkü olmadan və çəkinmədən  orada hazır dayanırdı. “Nəhcül-bəlağə”də belə buyurur:

وَاللهِ لَو تَظاهَرتِ العَرَب عَلى قِتَالِي لَمَا وَلَّيْتُ عَنْهَا

- And olsun Allaha, əgər ərəblərin hamısı mənimlə döyüşə gəlsələr, onlara arxa çevirmərəm.

Həzrət Əli(ə) döyüş meydanına gedərkən əyninə geyindiyi zirehin arxa hissəsi olmazdı. Çünki düşmən heç vaxt onun kürəyini görməzdi. Yəni Həzrət Əli(ə) düşmənə heç vaxt arxa çevirməyib.

## Həzrət Əlinin(ə) ədaləti

Əgər bir cəmiyyətdə harada ədaləti icra etmək lazım olurdusa, Həzrət(ə) onu çəkinmədən icra edirdi. Həzrət Əli(ə) ədalət simvoludur. Həm dost, həm də düşmən ədalətdən söz açarkən ilk növbədə Həzrət Əlinin(ə) adını dilinə gətirir. Hamı onun necə ədalətli insan olduğunu çox gözəl bilirdi.

“Nəhcül-bəlağə”də Həzrət Əli(ə) bu barədə belə buyurur:

- And olsun Allaha, *(qardaşım)* Əqili çox yoxsul və pərişan halda gördüm və məndən sizin buğdanızdan *(beytülmaldan)* bir batman istədi. Həmçinin onun uşaqlarını qəm-qüssədən tutqun rəngdə, toz-torpaqlı saçlarla gördüm, sanki üzləri mavi rənglə *(indiqo ilə)* qaraldılmışdı. Əqil öz istəyində təkid edərək sözünü təkrar edirdi və mən onun söhbətinə qulaq asırdım. Güman edirdi ki, mən dinimi ona sataraq öz yolumdan əl götürəcək və onun arxasınca gedəcəyəm *(hər nə desə yerinə yetirəcəyəm)*. Buna görə də onun üçün bir dəmir parçası qızdırıb bədəninə yaxınlaşdırdım ki, ibrət götürsün. O, qızarmış dəmir parçasının ağrısından xəstənin nalə etməsi kimi nalə edib fəryad qopardı və az qalmışdı ki, yansın. Ona dedim: Ey Əqil, insanın oynamaq üçün qızdırdığı dəmir parçasından nalə qoparırsan, amma məni qüdrətli Allahın qəzəbindən yandırdığı oda tərəf çəkirsən? Sən bu *(az)* əziyyətə görə nalə qoparırsan, amma mən cəhənnəm odundan fəryad qoparmayım?!

Həzrət Əli(ə) üçün ədaləti icra etməkdə heç bir kəs fərq etmirdi. İstər fəhlə olsun, istərsə də tanınmış bir insan. Təlhə və Zübeyr belə insanlar idilər ki, həmişə Peyğəmbərin(s) ətrafında olmuşdular. Həzrət Əlinin(ə)

hakimiyyəti dövründə Həzrətin(ə) məhzərinə gəlib dedilər: “Ya Əli, ona görə gəlmişik ki, bizim maaşımızı bir az artırasan. Həzrət(ə) buyurdu: Nə üçün? Dedilər: Ya Əli, səndən əvvəlki xəlifələr bizə çox maaş verərdilər. Həzrət Əli(ə) buyurdu: Peyğəmbər(s) sizə nə qədər maaş verərdi? Onlar başlarını aşağı salıb bir söz demədilər. Həzrət(ə) buyurdu: Mən Peyğəmbər(s) kimi etsəm yaxşıdır, yoxsa başqaları edən kimi etsəm yaxşıdır? Dedilər: Axı, bizim İslamda çox xidmətlərimiz olub. İllər boyu İslamın yolunda əziyyət çəkmişik. Həm də axı biz Peyğəmbərin(s) yaxınlarındanıq. Buna görə də bizə daha çox maaş versən, yaxşı olardı. Həzrət Əli(ə) buyurdu: İslam yolunda xidmətiniz məndən çoxmu olub? Dedilər: Xeyr. Həzrət(ə) soruşdu: İslamda sizin əziyyətiniz məndən çoxmu olub? Dedilər: Xeyr. Həzrət(ə) buyurdu: Siz Peyğəmbərə(s) məndən də yaxınsınızmı? Dedilər: Xeyr. Həzrət(ə) orada işləyən fəhləni göstərib buyurdu: O, fəhləni görürsünüzmü? Dedilər: Bəli. Həzrət(ə) buyurdu: Mən özümə də həmin fəhlənin maaşı qədər götürürəm”.

Həzrət Əlinin(ə) ədaləti barədə hamının çox yaxşı məlumatı var. Hətta qeyri- müsəlmanlar belə Həzrətin(ə) ədaləti barədə söhbət açmış və kitablar yazmışlar. Corc Cordak adlı xaçpərəst yazıçı beşcildlik “İnsan ədalətinin səsi” kitabında İmam Əli(ə) barədə belə yazır: “Əli ibn Əbi Talibi ədalətinin çoxluğundan ibadət mehrabında öldürdülər.”

## Həzrət Əlinin(ə) ibadəti

Həzrət Əli(ə) camaatın ehtiyac və çətinliklərini həll etdiyi kimi və xalq arasında ədaləti icra etdiyi kimi eləcə də Allaha ibadət edərək minacat edirdi. Həzrət(ə) Allah qarşısında dayanıb ibadət edərkən heç təsəvvür belə etmək

olmazdı ki, müharibələrdə o şücaəti göstərib minlərlə düşməni zülfüqardan keçirən şəxs həmin bu Əlidir. Allah qarşısında acizanə dayanıb ibadət edərək, ilan vuran adamlar kimi qıvrılıb ağlayırdı.

Əbu Dərda adlı bir şəxs deyir: "Bir gün xurma bağlarının kənarından keçirdim. Ağacların arasından səs eşidib ayaq saxladım. Bağa girib diqqətlə baxdıqda gördüm ki, Həzrət Əli(ə) Allahla minacat edərək ağlayır. Elə minacat edirdi ki, göz yaşları saqqalından süzülüb sinəsinə tökülürdü. Elə ibadət edirdi ki, bədəni lərzəyə gəlirdi. Bir az dayanıb ona tamaşa etdim. Birdən gördüm ki, Əli(ə) huşunu itirib yerə yıxıldı. Elə güman etdim ki, dünyasını dəyişdi. Tez evlərinə sarı yüyürüb Xanım Zəhraya(s.ə) xəbər verdim ki, Əli(ə) xurma bağlarında ibadət edərkən dünyasını dəyişdi. Həzrət Zəhra(s.ə) buyurdu: Xeyr, o, dünyasını dəyişməyib. Sadəcə ibadətin və minacatın şiddətindən özündən gedib".

Allahla ibadət edib minacat etmək insanın üçüncü hərəkətidir. İnsan üçün bu hərəkət çox mühümdür. Bu hərəkət möminləri başqa insanlardan ayırır. İkinci hərəkət belədir ki, çox insanlar olub ki, cəmiyyətə xatir çox şeylərdən keçmişlər. Elə insanlar olub ki, öz xalqına görə malından, canından, hətta balasından belə keçiblər. Lakin möminlərə üstünlük verən hərəkət üçüncü hərəkətdir. Möminlərin bütün bu hərəkətlərinin hamısı Allaha xatir olmalıdır. Həm özlərinə baxmaları, həm camaatın dərdinə yetişmələri, həm də Allaha ibadətləri yalnız və yalnız Allaha xatir olmalıdır. Həzrət Əli(ə) Allahla minacat edərkən belə deyərdi: "İlahi, mən Sənə cənnətə getməyə və ya cəhənnəm qorxusuna görə ibadət etmirəm. Mən Səni ibadətə layiq bildiyim üçün ibadət edirəm".

Həzrət Əli(ə) namaz qılarkən fikir-zikri yalnız və yalnız Allahın məhzərində olardı. İbadət zamanı ruhu göylərə pərvaz edərdi. Bədənində olan ağrıları belə hiss etməzdi. Döyüşlərin birində Həzrətin(ə) ayağına ox batmışdı. Nə qədər çalışdılarsa, oxu çıxara bilmədilər. Çünki ox Həzrətin(ə) ayağına elə batmışdı ki, çıxarmaq istədikdə ağrının dəhşəti bütün bədəninə təsir edirdi. Həzrət Peyğəmbər(s) buyurdu: "Oxu onun ayağından yalnız namaz qılarkən çırxara bilərsiniz". Həzrət Əli(ə) namaz qılan zaman oxu çəkib onun ayağından çıxartdılar. Lakin zərrə qədər də olsun Həzrətin(ə) xəbəri olmadı ki, ayağından oxu çıxarırlar. Çünki Həzrət(ə) namaz qılarkən göylərə pərvaz edirdi. İbadətin şirinliyindən heç bir ağrı onun bədəninə təsir etmirdi.

Nə üçün Həzrət Əli(ə) belə idi? Ona görə ki, insana məxsus olan hərəkətlərin üçünü də öz yerində və qaydasında edirdi.

## Həzrət Əlinin(ə) fəzilətləri

Həzrət Əlinin(ə) hərəkətlərinə görə Allah-təala ona fəzilətlər bəxş etmişdir. Həzrət Əlinin(ə) Allah yanında məqamı o qədər böyükdür ki, onun adını çəkmək və mübarək camalına baxmağı insan üçün ibadət sayır. Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Əlinin adını çəkmək və onun üzünə baxmaq zikrdir və ibadətdir". Digər hədisdə buyurur: "Öz məclislərinizi Əlinin(ə) adını zikr etməklə zinətləndirin". Əbu Hüreyrə deyir: "Bir gün Məaz ibn Cəbəl Əlinin(ə) üzünə diqqətlə baxırdı. Təəccüblə ondan soruşdum: Ey Məaz, Əliyə(ə) elə baxırsan ki, heç elə bil indiyə qədər onu görməmisən. Məaz dedi: Əbu Hüreyrə, and olsun Allaha, öz qulaqlarımla Həzrət

Peyğəmbərdən(s) eşitdim ki, Əlinin(ə) üzünə baxmaq ibadətdir. Ona görə Əlinin(ə) camalına baxıram".

Ümmi Sələmə deyir: "Bir gün Həzrət Peyğəmbər(s) buyurdu: Bir dəstə mələk yer üzərinə enir və qayıtdıqdan sonra ərşdə olan mələklər onlardan soruşurlar: "Sizdən necə də gözəl ətir iyi gəlir. Haradan gəlirsiz belə? Onlar cavab verirlər: Yerdə Peyğəmbərin(s) ümmətindən bir neçə nəfər yığışıb Əli(ə) barədə söhbət edirdilər. Biz də onların kənarında əyləşdiyimizə görə Allah bizi də belə ətirli etmişdir. Bizdən gələn həmin gözəl iy onların ətridir. Ərşdə olan mələklər onlara deyirlər: bizi də aparın, gedib həmin şəxsləri ziyarət edək və onların ətirli iyləri ilə özümüzü müəttər edək. Həmin mələklər deyirlər: Onlar dağılışıb öz evlərinə getdilər. Onlar deyirlər: Elə isə bizi də aparın, onların əyləşdiyi yerləri ziyarət edək. Həmin mələklər onları yer üzünə gətirir və oranı ziyarət edib ətirlənəndən sonra yenidən ərşə qayıdırlar".

Həmmad adlı bir şəxs İmam Sadiqin(ə) hüzuruna gəlib ərz etdi: "Ey Peyğəmbərin(s) balası, mən xarici ölkələrdən birində yaşayıram. Oranın əhalisi müsəlman deyil. Mən orada ticarətlə məşğulam. Həmin ölkə küfr ölkəsidir. Camaatı da kafirdir. Dostlarım mənə deyir ki, əgər sən o halda dünyadan getsən, qiyamət günü kafirlərlə birgə məhşərə gələcəksən. Bu söz doğrudurmu? Həzrət İmam Sadiq(ə) buyurdu: Sənin qəlbində Əlinin(ə) məhəbbəti varmı? Əlinin(ə) vilayətini qəbul etmirsənmi? Həmmad dedi: Ağa, sənə qurban olum, Əlinin(ə) məhəbbəti mənim ürəyimdədir və onun vilayətini qəbul etmişəm. Həzrət(ə) buyurdu: Sən orada camaata Əlinin(ə) vilayəti barədə söhbət edir və təbliğat aparırsanmı? Həmmad dedi: Əlbəttə, edirəm. Həzrət(ə) buyurdu: Belə olduqda əgər sən orada dünyadan getsən, qiyamət günü

təkbaşına bir ümmət kimi məhşərə gələcəksən. Həzrət Əlinin(ə) vilayəti bir nur olacaq və səni məhşərdə hidayət edəcək”.

Həzrət Əli(ə) elə bir şəxsiyyətdir ki, həm dost, həm də düşmən onun kəramət və ədalətindən söhbət açır. Corc Cordak xaçpərəst bir yazıçıdır. O, Həzrət Əli(ə) barədə belə yazır:

مَاذَا عَليكِ يَادُنْيا لَو حَشَدّتِ قُواك فَأَعْطَيْتِ فِي كُلِّ زَمَن علياً بِعَقْلِهِ وَقَلْبِهِ وَلِسَانِهِ وَذِي فقاره

- Ey dünya, nə olardı ki, bütün qüdrət və gücünü işə salıb, həmin ağılla, həmin qəlblə, həmin dillə, həmin zülfüqarla aləmə yeni bir Əli bağışlayaydın!

Allah-təala Yer kürəsinə Əli(ə) kimi elə bir şəxsiyyət bəxş etdi ki, biz onunla fəxr edirik. Xoş o kəslərin halına ki, Əlinin(ə) vilayət və məhəbbəti onların qəlbində qərar tutub. Allah-təala Həzrət Əliyə(ə) Qədr gecəsində böyük bir muzd və mükafat inayət etdi. Onun mükafatı məsciddə namaz qılarkən şəhadətə yetməsi oldu. Kəbədə dünyaya gəlib, məsciddə də şəhid olmağı Allah-təala yalnız Əli kimi insana inayət edər.

Məhəmməd Füzuli belə deyir:

Xidmət əhlinə simu-zər vermək şahe mülke məcazi adətdir,

Hasili xidməti Nəbiyyu Vəli şərəfe rütbeyi şəhadətdir.

Şerin mənası belədir: Şahlara xidmət göstərənlərin muzdu simu-zərdir, Peyğəmbər və Əli kimi insanların xidmətinin mükafatı şəhadətdir.

Həzrət Əli(ə) ramazan ayının 19-cu gecəsi məsciddə sübh namazını qılarkən Ibn Mülcəm tərəfindən qılıncla vuruldu və 21-ci gecə dünyasını dəyişib şəhadətə yetişdi.

*Əli şəqqül-qəmər mehrab tilitqan,*
*Qulaq ver, məscid oxşar, minbər ağlar.*
*Yazanda Ali Taha nohəsin mən,*
*Qələm gördüm sızıldar, dəftər ağlar.*
*Əlidən Şəhriyar, sən bir işarə,*
*Qucaqlar qəbrin Malik Əştər ağlar.*

***2006, 21 ramazan***

## GÜNAH VƏ ONUN TƏSİRİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلمُتَّقِين وَالجَنَّةُ لِلمُطِعِينَ وَالنّارُ لِلعَاصِين وَالْمُلْحِدِين وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلَى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلاَ سِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَلَّعْنُ الدَّائِم عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. إِن تَجْتَنِبُواْ كَبَآئِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُم مُّدْخَلاً كَرِيمًا

Bu bəhsimizdə “Nisa” surəsinin 31-ci ayəsi barədə kiçik bir müqəddiməni əziz möminlərin nəzərinə çatdırdıqdan sonra ayənin özü haqda söhbət etmək istərdim. Allah-təala bu ayədə bizim üçün böyük və kiçik günahlar haqqında söhbət açaraq buyurur:

إِن تَجْتَنِبُواْ كَبَآئِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُم مُّدْخَلاً كَرِيمًا

- Əgər siz qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızı silər və sizi şərəfli bir yerə daxil edərik. (Günahların böyük və kiçik adlandırılmaları onların fərdi və ya ictimai fəsadlarına görədir. Amma əslində Allaha itaətsizlik olması baxımından götürüldükdə bütün günahlar böyükdür.)

Ümumiyyətlə, bu mövzu dərin və geniş bir mövzudur. Lakin qısaca da olsa bu barədə bir neçə mətləbi

nəzərinizə çatdırıram. Böyük və kiçik günahlar barədə danışmazdan öncə ilk növbədə günahın özünün nə olduğu haqda söhbət edək.

Aləmdə olan bütün canlılar təkamül və inkişafa doğru hərəkət edirlər. Lakin onların hərəkət etdikləri bu yolda iki amil dayanır. Birinci amil budur ki, həmin canlının inkişaf və təkamülünü gücləndirir. İkinci amil isə əksinə olaraq onun təkamülünün qarşısını alır və inkişafına maneə yaradaraq onu zəiflədir. Bu iki amil bütün canlıların yolunun üstündə dayanır. Misal üçün, gözəl bir gülə nəzər salaq. Bağban bağda müxtəlif qəşəng güllər əkir. Bu güllərin böyüməsinin iki amili var. Birinci amil odur ki, güllərin inkişaf etməsi və böyüməsi üçün şərait yaradılır və ona qulluq göstərilir. Digər tərəfdən də ola bilsin kiçik həşəratlar və s. amillər həmin güllərin yarpaqlarına və budaqlarına yapışaraq onları inkişafdan saxlayıb zəiflətsin. Əgər bağban həmin gülləri böyütmək istəyirsə, mütləq güllərin inkişafında rol oynayan amilləri gücləndirib, inkişafdan saxlayan zəiflədici amillərə qarşı mübarizə aparmalıdır.

İnsan da eynilə belədir. Dünyaya təzə gəlmiş uşağa diqqət yetirin. Onun da inkişafının yolunun üstündə iki amil dayanır. Bir amil onu gücləndirir, digər amil isə zəiflədir. Hər bir valideynə vacibdir ki, həmin gücləndirici amilləri tapıb çoxaldaraq uşağın inkişafı üçün tətbiq etsin. Bir tərəfdən də zəiflədici amillərlə mübarizə aparmalıdır. Yəni uşağı zəiflədən mikrop və ya digər xəstəliklər kimi amilləri müəyyənləşdirib tapmalı və onlarla mübarizə aparmalıdır. Ancaq bunun üçün ilk növbədə uşağı zəiflədən amilləri tanımalı, sonra isə onlarla mübarizə aparmaq lazımdır. Uşağı böyüdən kəs bu amilləri öyrənib vaxtlı-vaxtında lazımi tədbirlər görərsə o zaman nəticə ala

biləcək. Yox, əgər uşağın xəstəliyinin səbəbini tapa bilməsə və ya tapdıqdan sonra onunla mübarizə aparmasa, uşaq xəstələnib əldən gedəcək. Valideyn uşağın boynuna qızıl taxmaqla və ya beşiyini gümüşdən düzəltməklə heç bir nəticəyə gəlib çıxa bilməz. Buna görə də valideyn uşağı öldürücü və zəiflədici amilləri tanıya və onlarla mübarizə apara bilməsə, müxtəlif mikrop və xəstəliklər onun həyatına son qoyacaq.

Bütün bunları bildikdən sonra indi insanı formalaşdıran tərkib hissələrinə nəzər salaq. Hər bir insan üç tərkib hissədən formalaşmışdır. Onlardan biri əbədi olan ruh, biri ağlı və fikir mərkəzi, digəri isə insanın cismi və bədənidir. İnsanın cismi barədə hamının məlumatı var. Yəni çox insanların cismi gücləndirən, yaxud zəiflədən amillər barədə məlumatları yetərincədir. Biz bədənimizi zəifləşdirən və inkişaf etdirən amilləri bilirik. Həkimlərin, evdə və ya qonşuda olan təcrübəli insanların köməyi ilə hər hansı bir uşağın inkişafı üçün şərait yaradılır və həmin uşaqlar sağlam şəkildə böyüyüb boya-başa çatırlar. Bu, insanın cisminə aid olan məsələlərdir. Amma bilmək lazımdır ki, insanın ruhu da belə bir təhlükəyə məruz qalır. Yəni insanın ruhunun inkişaf yolunun üstündə də iki amil dayanır. Bütün insanlara bu iki amili öyrənmək çox vacib və mühümdür. Həmin bu amilləri bilmək üçün Allah-təala insanlara peyğəmbərlər göndərmişdir. Xüsusilə İslam Peyğəmbərini(s) göndərmiş və müqəddəs Quranı Həzrətin(s) vasitəsilə ümmətinə təqdim edir. Qurani-Kərim bu məsələni insanlara çox gözəl şəkildə açıqlayır. İnsanlara iki siyahı təqdim edir. Onlardan biri ağ, digəri isə qara siyahıdır. Ağ siyahıda insana vacib olan əməllər qeyd olunmuşdur. Bu siyahıda yazılan (namaz, oruc, xüms, zəkat, həcc, cihad və digər vacib) əməllər insanın

ruhunu gücləndirən amillərdir. Həmin əməllər həm də insanın ağlını və həyatını gücləndirən amillərdir. Quranın təqdim etdiyi ikinci siyahı isə qara siyahıdır. Qara siyahıda yazılanlar insanın ruhunu, ağlını, təfəkkürünü, onun yaşadığı cəmiyyəti, maddi və mənəvi baxımdan zəiflədən amillərdir. Həmin qara siyahıda yazılan amillərə günah deyilir. Bütün günahların hamısı bir-bir orada qeyd olunmuşdur. Allah- təala bütün bunları tanımağı insanın daxilində olan qeyri-iradi qüvvələrin vasitəsilə başa salır. "Şəms" surəsində bu məsələyə belə işarə olunmuşdur:

فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

- Sonra da günahlarını və təqvalı olmasını ona ilham vermiş və iş görməyə qadir etmişdir.

Yəni insan hansı şeylərin ona xeyirli və ziyanlı olmasını fitrətən başa düşür. Lakin bununla kifayətlənməyib Quranda insana təqdim edilən qara siyahıda günahlar bir-bir sadalanır. Yalan danışıqlar, haram yeməklər, haram içkilər, qeybət etmək, böhtan atmaq və digər günahların hamısı bu siyahıda qeyd olunmuşdur. Dünya alimləri və fikir sahibləri insan barədə müxtəlif mövzularda seminarlar və konfranslar keçirirlər. Hər bir mövzu haqda müxtəlif fikirlər və təkliflər irəli sürülür. Çox yaxşı olardı ki, psixologiya, tibb, ictimaiyyət və s. kimi müxtəlif sahələrin alimləri və mütəxəssisləri bir araya gəlib günahlar barədə tədqiqatlar və təhlillər aparsınlar. Belə olduqda hər bir mütəxəssis öz sahəsinə uyğun olaraq günahların ziyanlarını başa düşüb, yaşadığı cəmiyyəti də günahın fərdi və ictimai zərərləri barədə xəbərdar edə bilər.

## Günahın vəzi(mənəvi) və təklifi təsiri

Burada məlumat üçün günahın təsirləri barədə qısaca olaraq söhbət açmaq istəyirəm. Ümumiyyətlə, hər bir günah insana iki cür təsir edir. Onlardan biri vəzi, digəri isə təklifi təsirdir. Vəzi təsir odur ki, bilərəkdən və ya bilməyərəkdən  görülən hər hansı bir günah öz təsirini göstərir. İstər Allah o günahı etmiş insanı bağışlamış olsun istərsə də bağışlamamış olsun. Yəni, bu elə bir şeydir ki, istər- istəməz onun maddi və mənəvi təsiri qalacaq. Hər bir hadisənin hər bir maddə və mayenin özünəməxsus xüsusiyyəti var. Bütün bunlar insanın fərdi və ya ictimai halında öz təsirini mütləq göstərir.

Amma günahın xüsusiyyəti budur ki, insanı əzaba düçar edir. Yəni, məsələn, əgər bir kəs canına qəsd edib intihar edirsə, hədislərdə vardır ki, Allah-təala bu cür insanı qiyamət günü bağışlamayacaq. Çünki intihar haram və böyük günahlardandır. Belə bir halda dünyadan gedən insan tövbəsiz getmişdir. Günah halında dünyadan gedən insan üçün tövbə etmək artıq gecdir. Ona görə ki, öləndən sonra tövbə qəbul olunmur. Bu, günahın təklifi xasiyyətidir ki, Allah təala belə bir insanı Cəhənnəmə atacağına söz verib. Ona görə ki, günah halında da dünyadan gedən insanın aqibəti cəhənnəmdir.

Məsələn, bir nəfər haram içkilər içdiyi halda ölsə, Allah-təala həmin şəxsi cəzalandıraraq cəhənnəmə atacaq. Təkcə intihar edən və ya haram içki içənlərə aid deyil. Ümumiyyətlə, bütün haram əməllər belədir. Hər kəs haram iş gördüyü halda ölsə, qiyamət günü cəzası cəhənnəmdir. Çünki günahın təklifi təsiri belədir. Amma günahın vəzi təsiri belədir ki, tövbə etməklə Allah həmin günahı bağışlayır. Lakin həmin günahın bağışlanmasına baxmayaraq, öz təsirini mütləq göstərməlidir. Yəni mümkündür ki, bir insan illərlə içki içmiş olsun, sonradan

başa düşüb tövbə edir və Allah da onu bağışlayır. Qiyamət günü həmin şəxsə heç bir cəza verilməyəcək. Çünki Allah bu dünyada onun tövbəsini qəbul edib bağışlamışdır.

Lakin hər bir günahın təsir etmə xüsusiyyəti olduğu üçün insanın ruhunda, cismində və cəmiyyətdə öz təsirini göstərməlidir. Bu təsir və xüsusiyyət tövbə ilə aradan getmir? Məsələn, susuz bir insan masanın üstündə içərisində maye dolu stəkanı görür. Onu su zənn edərək stəkanı götürüb başına çəkir. İçdikdən sonra şərab, yaxud hansısa haram içki olduğunu hiss edir. Allah-təala bunu insan üçün günah yazmır. Çünki həqiqətən də həmin şəxs onu içki niyyəti ilə içməyib. Elə güman edib ki, stəkandakı adi sudur və su niyyəti ilə içib. İçdikdən sonra onun araq və ya başqa məstedici maye olduğunu başa düşür. Həmin şəxsə günah yazılmır. Lakin həmin maye öz xasiyyətini və təsirini mütləq göstərəcək. Daha ona demək olmaz ki, ey araq, mən səni bilməyərəkdən içmişəm, sən məni kefləndirmə. Həmin mayenin xüsusiyyəti kefləndirməkdirsə, mütləq öz təsirini göstərməlidir.

Yəni insan bilməyərəkdən də belə günah etmiş olsa, həmçinin bilərəkdən günah edib tövbə etmiş də olsa, günahın təsiri və xüsusiyyəti görünəcək. Məsələn, bir insan on və ya on beş il içki içən olub. Sonradan tövbə edib Allah yoluna qayıdır. Allah-təala onun günahlarını bağışlayır və qiyamət günündə də onun heç bir əzabı olmayacaq. Lakin bu içki artıq həmin şəxsin ciyərini, ürəyini, dişlərini sıradan çıxarmış, onun yaşadığı cəmiyyətdə nütfəsində, uşağında və s. öz təsirini qoymuşdur.

Əgər bir insan haram yeməklər yeyirsə, naməhrəmlə haram əlaqələr yaradırsa və başqa haram əməlləri edirsə, onun təsiri cəmiyyətdə mütləq görünəcək. İyirmi il zina

etdikdən sonra tövbə edir və Allah da onun tövbəsini qəbul edib bağışlayır. Bununla həmin şəxs özünün qiyamət məsələsini həll edir, lakin onun etdiyi günahların cəmiyyətdə qoyduğu izləri və təsiri aradan getmir. Etdiyi günah artıq öz işini görmüş, ruhunu, cismini, övladını və yaşadığı cəmiyyəti korlamışdır.

Bunu daha aydın başa düşmək üçün yol hərəkəti qaydasını pozmuş sürücüyə diqqət yetirək. Sürücü yüksək sürətlə maşın sürür, işıqforun qırmızı işığına məhəl qoymadan yolu keçir və dəhşətli qəza şəraiti yaradır. Tutaq ki, o, yol polisindən bağışlanmağı xahiş edir və polis də bağışlayır. Amma törətdiyi bu qəza nəticəsində maşında olanlar zədə alır, sürücünün özünün əl-ayağı sınır. Hətta bu qəzada kimsə dünyasını dəyişir. Bu qəzada əl-ayağın sınığı və digər fəsadlar yol polisinin bağışlaması ilə düzəlmir. Artıq olan olmuşdur. Bütün bu fəsadlar artıq cəmiyyətdə öz təsirini göstərmişdir. Günah da belədir. Hərçənd Allah həmin günahları bağışlayır, lakin həmin günahların fəsad və təsiri cəmiyyətdə öz izini buraxır. Günahkar insan zülm etmişdir. Əgər bir günah cəmiyyətdə öz təsirini qoyursa, deməli ən azından insan özünə və cəmiyyətə zülm etmişdir. Allahın qayda-qanununu pozan insan zülmkardır. Bu barədə “Bəqərə” surəsinin 229-cu ayəsində buyurulur:

وَمَن يَتَعَدَّ حُدُودَ اللّهِ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

- Allahın sərhədlərini pozanlar, həqiqətən, zalımdırlar.

İnsan günah etməklə Allahın sərhədlərini pozur. Günah vasitəsilə həm özünə, həm də cəmiyyətə mənfi təsir edərək ətrafdakılara zülm edir. Əgər tövbə edərsə,

Allah həmin şəxsin günahlarını bağışlayar. Lakin günahların təsiri cəmiyyətdə artıq öz işini görmüşdür.

## Günahın mənəvi təsirləri

İndi isə günahın mənəvi təsirləri barədə söhbət açaq. Bu mövzu geniş və uzun bir mövzudur. Hər bir günah özünəməxsus xüsusiyyəti və cəmiyyətə təsir qüvvəsi ilə fərqlənir. Bu barədə bir çox hədis və rəvayətlər vardır. Lakin qısaca da olsa bir neçəsini nəzərinizə çatdırıram:

1. Günahın xüsusiyyətlərindən biri budur ki, insanın Allaha qarşı olan həya pərdəsini aradan götürür. Əgər insan xəcalət çəkən idisə, günah onun xəcalətini əlindən alıb abırsız edir. Günah insanı ədəbsizləşdirir. Belə olduqda insan Allaha qarşı günah etməyə daha da cəsarətlənir.

قَالَ رَسُولُ اللهِ(ص): لاَ تَنْظُرُوا اِلى صِغَرِ الذَّنْب وَ لكِن اُنْظُرُوا اِلى مَن اجْتَرَءْ تُم

Həzrət Peyğəmbər(s) buyurur: "Günahın kiçikliyinə baxmayın. Ancaq baxın görün, kimə qarşı ədəbsizlik (cürət) etmisiniz".

İnsan diqqət etməlidir ki, Allahın qoyduğu həddi az da olsa belə keçməsin. Yəni günah edən insan Allahın müəyyən etdiyi hədd və sərhədi pozur. İstər kiçik günahla, istərs də böyük günahla. Fərq etməz ki, insan hansı günahı edir. Bütün günahlar Allahın sərhədini və qayda-qanununu pozmaqdır. Bu da Allaha qarşı cürət və ədəbsizlikdir. Allaha qarşı ədəbsizlik etməyin özü böyük günahdır.

İbn Abbas deyir: "Allaha qarşı cəsarət və ədəbsizlik böyük günahdır. Allah məhzərində edilən günahların hamısı böyük günahdır. Günahın kiçiyi-böyüyü olmaz.

Allaha qarşı olan bütün ədəbsizliklər və qayda pozuntularının hamısı böyük günahdır. Amma günahların bir-birinə nisbətən böyüyü və kiçiyi vardır. Məsələn, naməhrəmə baxmaq və ya zina etmək hər ikisi günahdır. Lakin naməhrəmə baxmaq zina etməkdən kiçik günah olmasına baxmayaraq, Allahın məhzərində günahdır. Sadəcə günahların bir-birinə nisbətən kiçikliyi və böyüklüyü vardır. Bir sözlə desək, günah elə günahdır və Allaha qarşı edilən ədəbsizliklərin hamısı böyük günahdır. Çünki günah insanda Allaha qarşı cürət, cəsarət və ədəbsizlik yaradır.

Həzrət Peyğəmbər(s) İbn Məsuda buyurur:

يَا بنَ مَسْعُود، لاَ تُحَقِّرَنَّ ذَنْباً وَلاَ تُصَغِّرَنَّهُ، وَاجْتَنِبِ الكَبائِر، فَإِنَّ العَبْدَ إِذا نَظَرَ يَومَ القِيامَةِ إِلى ذُنُوبِهِ دَمَعَت عِيناهُ قِيحاً وَدَماً

- Ey Məsudun oğlu, heç bir günahı yüngül xəyal edib, kiçik sanma. Böyük günahlardan çəkin. İnsan qiyamət günü etdiyi günahlarına baxdıqda gözlərindən irin, çirk və qan axıb töküləcək.

Sonra Həzrət Peyğəmbər(s) bu ayəni oxudu:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ مِنْ خَيْرٍ مُّحْضَرًا وَمَا عَمِلَتْ مِن سُوَءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا

- Hər bir kəs (dünyada) yerinə yetirdiyi xeyir və etdiyi pis əməlləri hazır görəcəyi (həmin əməllərin eynilə qiyamətə uyğun şəkildə mücəssəm olunacağı) gün arzu edəcək ki, kaş onunla pis əməlləri arasında uzun bir zaman fasiləsi olaydı.[1]

---

[1] Ali-İmran,30.

Odur ki, insan günah etdikcə Allaha qarşı həya pərdəsini yırtır və Onun qarşısında günah etməyə daha da cəsarətlənir. Bu, günahın insanda yaratdığı əsas təsirlərdən biridir.

2. Günahın ikinci xüsusiyyəti, təsir və ziyanı budur ki, günah insanın qəlbini ləkələyir və ruhun nuraniyyətini aparır. Allah-təala "Mütəffifin" surəsinin 14-cü ayəsində buyurur:

كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

"Xeyr (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür."

قَالَ الْبَاقِرُ(ع): ما عَبْدٌ إِلا فِي قَلْبِهِ نُكْتَةٌ بَيْضَاءٌ فَإِذا أَذْنَبَ ذَنْبًا خَرَجَ فِي النُّكْتَةِ نُكْتَةٌ سَوْداءٌ فَإِنْ تَابَ ذَهَبَ ذَلِكَ السِّوادُ وَ إِنْ تَمَادَى فِي الذُّنُوبِ زَادَ ذَالِكَ السَّوَادُ حَتّى يغطى الْبَيَاضُ فَإِذا غُطَّى الْبَيَاضُ لَمْ يَرْجِعْ صَاحِبُهُ إِلَى خَيْرٍ أَبَدًا وَ هُوَ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ: كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

İmam Baqir(ə) buyurur: "Hər insanın qəlbində ağ bir nöqtə vardır. İnsan günah etdikdə nöqtədən bir qara nöqtə əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə pozulur. Əgər günaha davam edərsə, qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün ağlığını örtər və qəlbi tamamilə qaralar. Qəlbin ağlığı aradan getdikdən və qəlb tamamilə qaraldıqdan sonra, həmin qəlbin sahibi bir daha xeyir və səadətə çatmaz." Bu, Allahın sözüdür: "Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür."

Odur ki, günah insanın qəlbinin nuraniyyətini aparır. Nuraniyyət əldən getdikdən sonra insan namaz qılmağa müvəffəq ola bilməz. Məhz həmin nuraniyyət insanı namaza müvəffəq edir. Nuraniyyət insanı oruc tutmağa dəvət edir. İnsanın qarşısına haram çıxdıqda nuraniyyət insanı həmin haramdan çəkindirir. Həmin bu nuraniyyət imanın nurudur ki, insanı doğru yola hidayət edir.

إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ

- Şübhəsiz, iman gətirib yaxşı işlər görən kəsləri Rəbbi imanlarına görə (Öz yanına) hidayət edər...

Nuraniyyət insana yol göstərib onu hidayət edir. Gecə vaxtı yol gedərkən yolu görmək üçün çıraq götürərlər. Həmin çıraq yolu göstərdiyi kimi, nuraniyyət də insana yol göstərib onu hidayət edir. Deməli, harada nuraniyyət varsa, insan orada haramlardan çəkinir və Allaha səcdə, itaət və ibadət edir. Günah insanın nuraniyyətinin aradan getməsinə səbəb olur. Hər kəs günah iş görürsə, qəlbi paslanır və nuraniyyəti əldən gedir.

3. Günahın üçüncü xüsusiyyəti budur ki, insanın əlində olan nemətlərin əldən çıxmasına səbəb olur. Yəni Allah-təala Öz bəndəsinə nemət bəxş edir. Bəndə günah etdikdə həmin nemət əlindən çıxacaq.

قَالَ الصَّادِق(ع): مَا أَنْعَمَ اللهُ عَلى عَبْدٍ نعمَة فَسَلَبَها إِيَّاهُ حَتّى يُذْنبَ ذَنْباً يَسْتَحَقُّ بِذلِكَ السَّلب

İmam Sadiq(ə) buyurur: «Allah-təala bəndəyə verdiyi hər bir neməti yalnız onu həmin nemətdən məhrum etməyə səbəb olan günaha görə geri almışdır.»

Allah itaət və ibadətin vasitəsilə insanlara Öz nemətini lütf edir. Lakin günah səbəb olur ki, Allah

verdiyi neməti insandan alsın. Insan günah etdikdə ya nemət əlindən çıxır, yə da Allah-təala həmin şəxsi özbaşına buraxır. Bu, insan üçün ən ağır dərddir ki, Allah-təala onu özbaşına buraxsın. Bu dərd nemətin əldən çıxmasından daha pisdir. Buna səbəb yenə də günahdır. İnsan elə bir günah iş görər ki, Allah-təala həmin şəxsi öz ixtiyarına buraxar və lütf nəzərini ondan çəkər.

Züleyxa qocalıb əldən düşmüş, gözlərinin nurunu itirmişdi. Elə bir vəziyyətə gəlib düşmüşdü ki, küçələrdə dilənçilik edirdi. Şah sarayının xanımı indi küçələrdə əl açıb dilənirdi. Günlərin birində küçədə əyləşib dilənirdi. Hiss etdi ki, həmin küçədə izdiham və hay-küy var. Bir nəfərdən soruşdu ki, bu nə səs-küydür belə? Ona dedilər ki, Yusif bu küçədən keçəcək. Yusif Misirin padşahı olmuşdu. Bütün səltənət onun ixtiyarında idi. Züleyxa dedi: O, keçəndə mənə də xəbər edin. Yusif saray adamları ilə həmin küçədən keçərkən Züleyxaya xəbər verdilər. Züleyxanın gözləri görmürdü, ayağa qalxıb nə qədər əlini yellədisə, Yusif onu görmədi. Bir neçə müddətdən sonra başqa küçədə dilənərkən səs-küy eşitdi. Soruşdu: Burada nə baş verib belə? Dedilər ki, bu gün Yusif buradan keçəcək. Züleyxa dedi: Xahiş edirəm, bizim qarşımızdan keçəndə mənə də xəbər edin. Yusif oradan keçərkən Züleyxaya xəbər verdilər. Züleyxa yenə də ayağa qalxdı və əlini qaldırıb havada yellədi. Lakin bu dəfə də Yusif onu görmədən ötüb getdi. Gecələrin birində Züleyxa yaşadığı çadırda xəyala dalmışdı. Züleyxa bütpərəst bir qadın idi.  Onun Sənəm adlı bir bütü var idi. Bir xeyli düşündükdən sonra həmin bütü götürüb qarşısına qoydu, əli ilə axtarıb yerdən bir daş parçası tapdı və bütü sındırmağa başladı. Sənəmi sındıra-sındıra gözəl bir söz dedi. Onun bu cümləsini İmam Sadiq(ə) təsdiqləyərək

bizlər üçün nəql edir. Züleyxa bütü sındırdıqdan sonra dedi:

سُبْحَانَ الَّذِى جَعَلَ العَبِيدَ مُلُوكاً لِطَاعَتِهِم وَ جَعَلَ الْمُلُوكَ عَبِيداً لِمَعْصِيَتِهِم

- Pak və qüsursuzdur o Allah ki, qulları itaət və bəndəliklərinə görə padşah etdi və padşahları da günahlarına görə qul.

Bu sözlərdən sonra həqiqi Allahı tapıb, ona ibadət etməyə başladı. Bütpərəstikdən əl çəkib Allaha səcdə edirdi. Günlərin birində bir küçədə əyləşib dilənirdi. Birdən səs-küy eşitdi. Bir nəfərdən soruşdu: Burada nə olub? Dedilər ki, bu gün Yusif bu küçədən keçəcək. Züleyxa heç kəsə bir söz demədi. Öz-özünə fikirləşdi ki, Yusifin tanıdığı Allahı mən də tanımışam. Daha Yusif mənə lazım deyil. Yusif böyük izdihamla həmin küçədən keçərkən Züleyxa ayağa qalxmadı və ona fikir vermədi. Lakin Yusif onu gördü, amma Züleyxa olduğunu bilmədi. Xidmətçilərini çağırıb dedi: Orada əyləşən dilənçi qadına istədiyini verib onu razı salın. Xidmətçilər Züleyxanın yanına gəlib dedilər: Sən kimsən və nəyə ehtiyacın var? Züleyxa dedi: Siz kimsiniz? Dedilər: Biz şahın xidmətçiləriyik. Bizi o göndərib ki, ehtiyacını ödəyib səni razı salaq. Istəyini de. Züleyxa dedi: Şahla görüşmək istəyirəm. Xidmətçilər dedilər: Bu mümkün deyil. Əgər ehtiyacın varsa, sikkədən, dirhəmdən sənə verə bilərik. Amma şahla görüşmək olmaz. Züleyxa dedi: Mən sizi çağırmamışam. Özünüz gəlmisiniz və deyirsiniz ki, şah məni razı salmağınızı sizə tapşırıb. Mən də buna razı olaram ki, şahla görüşüm. Əgər mümkün deyilsə, gedə bilərsiniz. Sizə ehtiyacım yoxdur. Xidmətçilər gəlib

Yüsifə dedilər: Bir qoca arvaddır, dilənçilik edir. Onun istəyi səninlə görüşməkdir. Bundan başqa heç nəyə razı olmadı. Yusif dedi: Bəli, mən onu razı salmağa söz vermişəm. Əgər mənimlə görüşüb razı qalacaqsa, çağırın gəlsin. Görüş vaxtını təyin etdilər. Yusif taxtda əyləşmişdi. Züleyxanı onun məhzərinə gətirdilər. Yusif diqqətlə ona baxıb Züleyxa olduğunu gördü. Züleyxa, bu sənsən? Züleyxa dedi: Bəli, mənəm. Yusif dedi: Sən hələ yaşayırsan? Züleyxa dedi: Yusif, nə üçün mənim ölməyimi arzu edirsən? Yusif dedi: Xeyr, mən sənin ölməyini arzu etmirəm. Sadəcə təəccübləndim ki, nə əcəb bu vaxta qədər ölməmisən. Bu hadisənin uzun bir hekayəsi vardır ki, müxtəlif kitablarda qeyd olunmuşdur. Züleyxa Yusifdən öz istəklərini aldı.

Züleyxa artıq başa düşmüşdü ki, insan şah da olsa axırda günahlarının nəticəsində qula çevrilərək zəlil olacaq. Əgər bir qul Allaha ibadət etsə, Allah- təala ona izzət bəxş edər. Ona görə də öz bütünü sındırıb bu cümləni dedi: “Pak və qüsursuzdur o Allah ki, qulları itaət və bəndəliklərinə görə padşah etdi və padşahları da günahlarına görə qul”.

Günah elə bir şeydir ki, insanın əlində olan nemətlərinin aradan getməsinə səbəb olar. Günah hətta insanın ruzisinin azalmasına səbəb olar. Bir sözlə desək, insanın başına gələn bəlaların çoxu onun günahlarının ucbatındandır.

4. Günahın xüsusiyyətlərindən biri də budur ki, o, bəlanın nazil olmasına gətirib çıxarır. Hədislərdə deyilir ki, hətta insanın ayağına dəyən bir daş belə onun etdiyi günahın nəticəsidir. Bu barədə Allah-təala “Şura” surəsinin 30-cu ayəsində belə buyurur:

وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَن كَثِيرٍ

- Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir və O, (hələ) onların çoxundan keçir.

Beləliklə, aydın olur ki, günahın insana çox böyük və mənəvi təsirlər vardır. Hər bir insan günahdan çəkinməklə bu xəstəliklərdən nicat tapıb, Allahın yaxın bəndəsinə çevrilə bilər.

## Allahın rəhmətindən məyus olmaq böyük günahdır

İnsan nə qədər günah etmiş olsa da belə, gərək Allahın rəhmətindən məyus olmasın. Çünki Allahın rəhmətindən naümid olmaq ən böyük günahlardandır. İnsan nə qədər günah etmiş olsa da, Allahın müəyyən etdiyi sərhədləri pozmuş olsa da, Allahın xoşu gəlir ki, həmin şəxs tövbə edib Ona sarı gəlsin. Hədislərdə yazılır ki, Allah-təala mələklərə ərşi bəzəməyi əmr edir. Mələklər soruşurlar: “İlahi, hansı münasibətə görə ərş bəzədilir? Allah-təala buyurur: Yer üzündə bir günahkar cavan Məndən uzaq gəzirdi. Mənim əmrimə itaət etmirdi. Lakin bu gün o, tövbə edib Mənə sarı üz gətirib. Buna görə də onun şərəfinə ərşi bəzətdirirəm. Deməli, hər bir günahkar bəndə tövbə edib Allaha sarı gəlirsə, Allah-təala onun şərəfinə və naminə ərşi bəzədir. Allah-təala Öz bəndələrinə qarşı o qədər mehriban və rəhmlidir ki, hər kəs günahının böyüklüyündən asılı olmayaraq, Ona sarı əllərini qaldırıb tövbə etsə, Allah onu bağışlayıb qəbul edər”.

Qarun Musa Peyğəmbəri(ə) çox incitmişdi. Hətta bir pozğun qadının vasitəsilə onu şərləmək istəyirdi. Lakin həmin qadın axırda Musaya(ə) dedi: “Ey Musa, bunlar

mənə pul verib dedilər ki, sənə şər atmaq üçün üzünə durum və yalandan şəhadət verim. Sonra əllərini göyə qaldırıb dedi: İlahi, mən Sənin peyğəmbərin barədə bu günahı etməyəcəyəm. Həzrət Musa(ə) səcdəyə düşüb dedi: İlahi, bu qadının fikrini dəyişdirib camaatın içində mənim abrımı saxladığın üçün  sənə şükr edirəm. İlahi, sənin bu düşmənlərin mənə şər atmaqla qələbə çalacaqdılar. Lakin Sən buna imkan vermədin. İlahi, bunları bəlaya düçar et”. Allah-təala Musaya(ə) belə vəhy etdi: “Ey Musa, yerin ixtiyarını sənə verdim. Onların barəsində istədiyini edə bilərsən”. Musa Peyğəmbər(ə) orada camaata dedi: “Kim Qarunla qalmaq istəyirsə, qalsın. Hər kəs ayrılırsa, ayrılıb getsin”. İki nəfərdən başqa hamı Qarundan ayrıldı. Çünki onlar bilirdilər ki, Musa(ə) Allahdan bəla istədikdə Allah onun duasını yerinə yetirir. Fironun qərq olunmasının və başqa möcüzələrin canlı şahidi olmuşdular. Buna görə də hamı Qarundan ayrıldı. Musa(ə) yerə Qarunu və onun tərəfdarı olan iki nəfəri özünə çəkmək əmri verdi. Yer onları dizlərinə qədər çəkdi. Onlar bu halı gördükdə Musaya(ə) yalvarmağa başladılar. Musa Peyğəmbər(ə) yerə əmr etdi ki, yenə də çək bunları. Yer yavaş- yavaş onları sinələrinə qədər özünə çəkdi. Amma onlar «Ya Musa» - deyə çağırıb yalvarırdılar. Nə qədər yavardılarsa, xeyri olmadı. Nəhayət, Musa(ə) yerə onları udmağı əmr verdi. Yer onları tamamilə özünə çəkib uddu. Onlar gedəndən sonra Allah-təala Musaya(ə) buyurdu: “Ey Musa, onlar yetmiş dəfə səni çağırdılar, amma sən onların səslərinə cavab vermədin. Əgər onlar bircə dəfə Məni çağırsaydılar, mən onları eşidib nicat verərdim”.

Hər kəs etdiyi günahlara görə ürəkdən peşman olub bircə dəfə Allahı çağırsa və tövbə etsə, Allah həmin şəxsi bağışlayar. Tarix boyu belə insanların şahidi olmuşuq ki,

bircə dəfə əllərini açıb Allahı çağırmaqla xoşbəxt insanların cərgəsinə qoşulmuşlar. İnsan heç vaxt Allahın rəhmətindən, mərhəmətindən ümidsiz qalmamalıdır.

Musa Peyğəmbərin(ə) zamanında bir cavan oğlan var idi. Çox günahkar və mərdimazar idi. Camaat da onun əlindən zara gəlmişdi. Nəhayət, yığışıb Musanın(ə) yanına gəldilər və həmin günahkardan şikayət etdilər. Musa Peyğəmbər(ə) Allahla minacat edib dedi: "İlahi, bu cavan oğlanla nə edək?" Allah-təala Musaya vəhy etdi ki, onu şəhərdən qovsunlar. Camaat yığışıb onu şəhərdən qovdu. Həmin cavan başını götürüb çöllərə düşdü. Nəhayət, dağda bir mağara tapıb orada yaşamağa başladı. Bir müddətdən sonra xəstələnib ölümcül vəziyyətə düşdü. Son nəfəslərində üzünü göyə tutub dedi: "Ey mənim Allahım, Sən bilirsən ki, mən nə qədər günah etmişəm. Günahlarıma görə məni şəhərdən qovdular. Ata-anamdan, qohum-əqrəbamdan və el-obamdan ayrı düşüb tək qalmışam. İndi də ölüm ayağında son nəfəslərimdir. İlahi, mən etdiyim günahlarımı etiraf edirəm və Səndən bağışlanmağımı diləyib tövbə edirəm. Ey məni yaradan Allah, Sənə sarı üz tutub bağışlanmağımı istəyirəm.

Bu sözləri deyə-deyə o, üzünü torpağa qoyub dünyasını dəyişdi. Allah-təala Musaya(ə) vəhy etdi ki, filan dağda bir cavan oğlan dünyasını dəyişib. Gedin, onu şəhərə gətirin, qüsl verib izzət və hörmətlə dəfn edin. Musa Peyğəmbər(ə) öz- özünə dedi: "Görəsən bu kimdir ki, Allah-təala onu dəfn etmək üçün belə təkidlə göstəriş verir?" Bir neçə nəfərlə həmin dağı tapıb mağaraya daxil oldular. Gördülər ki, həmin cavan oğlan üzünü torpağa qoyaraq dünyasını dəyişib. Əllərini açıb dedi: "İlahi, bu ki həmin pozğun, mərdimazar və günahkar oğlandır. Bunu şəhərdən qovmağı Sən bizə əmr etmişdin. Allah-təala

buyurdu: Ya Musa, bu insan son anlarında üzünü torpağa qoyub günahlarını etiraf etdi və Məndən üzr istədi. Mən də onu bağışladım".

Odur ki, hər bir insan Allaha sarı üz çevirsə, Allah onu qəbul edib bağışlayar. Allah-təala İslam Peyğəmbərinin(s) ümmətinə bir gecə ayırıb ki, onun adına Qədr gecəsi deyilir. Hər bir bəndə bu gecə gəlib alnını torpağa qoyaraq günahlarını etiraf etməklə tövbə etsə, Allah-təala həmin şəxsin günahlarından keçər. Qədr gecəsində insan tövbə edərsə, bütün il ərzində etdiyi günahlarının hamısı bağışlanacaq.

***2006, 23 ramazan***

# İNSANIN VƏDLƏRİ VƏ CƏMİYYƏTDƏ BİR-BİRİ İLƏ ƏLAQƏ YARATMAQ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلمُتَّقِين وَالجَنَّةُ لِلمُطِعِينَ وَالنّارُ لِلعَاصِين وَالْمُلْحِدِين وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلَى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَللَّعْنُ الدَّائِمِ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. وَلاَ تَشْتَرُواْ بِعَهْدِ اللّهِ ثَمَنًا قَلِيلاً إِنَّمَا عِندَ اللّهِ هُوَ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ. مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللّهِ بَاقٍ وَلَنَجْزِيَنَّ الَّذِينَ صَبَرُواْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ.

Bu bəhsimizdə “Nəhl” surəsindən iki ayənin şərhini Peyğəmbər(s) və imamların hədislərinə əsasən nəzərinizə çatdırmaq istəyirəm. Bu ayələrin nazil olma səbəbi belədir: İbn Abbas deyir: “Bir nəfər Həzrət Peyğəmbərin(s) məhzərinə gəlib dedi: Ya Rəsulallah, mənim İmrəül-Qeys adlı bir qonşum var. O, mənim torpaqlarımdan bir miqdarını qəsb etmişdir. Digər qonşularım, dost-tanışlarım onun qəsb etdiyi həmin torpaq sahəsinin mənə məxsus olduğunu bilirlər. Lakin İmrəül-Qeysdən qorxub çəkindiklərinə görə sənin yanına gəlib bu məsələni təsdiq etməyə çəkinirlər. Həzrət Peyğəmbər(s) bir nəfəri göndərib İmrəül-Qeysi məhzərinə çağırtdırdı. O, Həzrətin(s) məhzərinə gəlib əyləşdi. Həzrət(s) bu məsələ haqda söhbət açdıqda İmrəül-Qeys belə bir şeyin

olmadığını söylədi və torpağı qəsb etməsini danıb dedi: Həmin torpaqlar mənim özümə məxsusdur. Bu qonşu isə mənə şər atır. Həzrət(s) buyurdu: Elə isə and içməlisən. Torpaqları qəsb olunan şəxs İmrəül-Qeysin and içəcəyindən qorxub dedi:[1] Ya Rəsulallah, onun imanı yoxdur. Bu insan nə müsəlmandır, nə də mömin. Torpaqları qəsb edib və özü üçün istifadə edir. Buna görə də hər nəyə desən and içər. Onun andının etibarı da yoxdur. Həzrət(s) buyurdu: Ya gərək sən gedib şahidlərini gətirəsən, ya da bu, and içməlidir. İmrəül-Qeys and içməyə hazırlaşırdı ki, Həzrət Peyğəmbər(s) ona buyurdu: And içmək elə də asan bir iş deyil. Bir az bu barədə fikirləş. Mən sənə düşünmək üçün vaxt verirəm. Get fikirləş, sonra gəlib and içərsən. And içəndən sonra da torpaqlar sənin özündə qalacaq. Onlar ayağa qalxıb getmək istəyərkən bu ayələr nazil oldu:

وَلاَ تَشْتَرُواْ بِعَهْدِ اللّهِ ثَمَنًا قَلِيلاً إِنَّمَا عِندَ اللّهِ هُوَ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ
تَعْلَمُونَ

- Allahın əhdini ucuz qiymətə satmayın. *(Onun əhdlərini pozmaqla dünya malı əldə etməyin.)* Həqiqətən, əgər bilsəniz, Allah yanında olan sizin üçün daha yaxşıdır.[2]

مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللّهِ بَاقٍ وَلَنَجْزِيَنَّ الَّذِينَ صَبَرُواْ أَجْرَهُم
بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ

---

[1] Çünki bilirdi ki, İmrəül-Qeys and isçə də, içməsə də torпaqlarını qaytarmayacaq.

[2] Nəhl,95

- Sizin yanınızda olan tükənir və puç olur. Allahın yanında olan isə daimi və əbədidir. Və *(dini vəzifələri yerinə yetirməkdə)* səbr etmiş kəslərin çox gözəl əməlləri müqabilində mükafatlarını verəcəyik.[1]

Bu ayələr nazil olduqdan sonra İmrəül-Qeys dayanıb dedi: Ya Rəsulallah, bu kişi düz deyir. Mən yalan danışırdım. Onun torpaqlarını mən qəsb etmişəm. Indi onun torpaqlarının hamısını qaytarmağa hazıram. Gəlib ölçsün və onun nə qədər torpağı varsa, hamısını qaytarıram. Üstəlik onun torpaqlarından neçə il istifadə etdiyimə görə bir o qədər də öz torpağımdan ona verməyə hazıram. İmrəül-Qeys bu sözləri deyəndən sonra Allahın əziz mələyi Həzrət Cəbrayıl(ə) bu ayəni də nazil etdi:

مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ

- Hər kim – kişi, yaxud qadın – imanı olan halda yaxşı iş görsə (saleh əməl etsə), onu şübhəsiz, *(dünyada)* pak bir həyatla yaşadacaq və *(axirətdə)* çox gözəl olan əməllərinin müqabilində mükafatlarını verəcəyik.[2]

Qeyd olunan bu ayələrdə bir neçə mətləb vardır. Öncə nazil olmuş iki ayə barədə mətləbləri ərz etdikdən sonra bu ayə ilə bağlı mətləbi əziz möminlərin nəzərinə çatdırıram.

## Allahla bağladığınız əhd-peymanı ucuz tutmayın

[1] Nəhl,96.
[2] Nəhl,97.

Birinci mətləb budur ki, Allah-təala buyurur: «Allahın əhdini ucuz qiymətə satmayın.» Bu ayədə insanların əhd-peyman bağlamasından söhbət açılır. İnsan həm Allahın Özü ilə, həm də Peyğəmbərə(s) vəd verməklə Allahla əhd-peyman bağlayıb. Əlbəttə, bu barədə ötən bəhslərdə geniş söhbətimiz olmuşdur. Bu ayə insanlara başa salır ki, insan gərək verdiyi sözləri və bağladığı əhd-peymanı ucuz qiyamətə satmasın. Həm xatırlamaq üçün, həm də bəhsimizə aid olduğundan müəyyən qədər bu mətləbi ərz edirəm.

Məlum məsələdir ki, insan ictimai bir varlıqdır. İnsan mütləq cəmiyyət arasında yaşamalıdır. Çünki insan fərdi yaşasa, məhv olub gedər. Buna görə də insana ictimai şəkildə yaşamaq lazımdır. İctimai həyatda da insanların bir-biri ilə əlaqə saxlaması ən ümdə məsələlərdəndir. Bir-biri ilə danışıb söhbət etmək, bir-biri ilə alver etmək ,bir sözlə desək, bir-biri ilə əlaqə saxlamaq cəmiyyətdə böyük önəm kəsb edir. Əlaqə olduğu yerdə isə əhd-peyman da olar. Burada həmin cəmiyyətdə yaşayan insanların müsəlman və ya qeyri-müsəlman olmalarının fərqi yoxdur. Cəmiyyət halında yaşayırsa deməli həmin yerdə əhd-peyman da olur. Yəni cəmiyyətdə yaşamaq üçün insanlar bir-biri ilə əlaqə saxlayır və bu əlaqələr nəticəsində məcbur olub bir-biri ilə əhd-peyman, kiçik və ya böyük müqavilələr bağlayırlar.

İslam dini bu barədə ən gözəl və ən dəqiq açıqlamalar verir. Bizim əqidəmiz budur ki, ən yaxşı qanunlar İslam qanunlarıdır. Həmçinin bu qanunlar bütün dünya alimlərinə çatdırılmışdır. Qeyri-müsəlmanlar da kitab yazmışlar, fikirlər irəli sürmüşlər, öz məntiqlərinə əsaslanmışlar. Müsəlmanların da öz əqidəsi, kitabı, fikri və məntiqi var. Müsəlmanların əqidəsi budur ki, İslamın

məntiqi həm elmi, həm tarixi, həm fəlsəfi, həm də ictimai nöqteyi-nəzərdən bütün məntiqlərin hamısından güclüdür. Ən gözəl və ən yaxşı qanunlar İslamda olduğuna görə, insanın ictimai şəkildə yaşaması və əhd-peyman bağlaması barədə də çox təkidlər vardır. Məsələn, “Maidə” surəsinin 1-ci ayəsində oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَوْفُواْ بِالْعُقُودِ

- Ey iman gətirənlər, əhd-peymanlarınıza *(nəzir, əhd və and içmək kimi özünüzlə olan peymanlara, müqavilə və digər sazişlər kimi camaatla bağladığınız peymanlara və dinin hökmlərinə riayət etməyi boyuna götürmək kimi Allahla olan peymanlara ki, bəzi şeylərin halallığına və haramlığına riayət etmək də bu qəbildəndir)* vəfa edin.

“Nəhl” surəsinin 91-ci ayəsində belə buyurulur:

وَأَوْفُواْ بِعَهْدِ اللّهِ إِذَا عَاهَدتُّمْ وَلاَ تَنقُضُواْ الأَيْمَانَ بَعْدَ تَوْكِيدِهَا

- Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun və öz andlarınızı onları möhkəmlətdikdən sonra *(Allahın adını çəkməklə)* Allahı özünüzə zamin götürdüyünüz halda pozmayın.

Deməli, insan hər hansı bir əhd-peyman bağlayırsa, mütləq həmin əhdinə əməl etməlidir. Ümumiyyətlə, əhd-peyman bağlamaq iki cürdür. Biri insanın Allahla bağladığı, o biri isə insanların bir-biri ilə bağladığı əhd-peymandır. Sual oluna bilər ki, insan Allahla nə vaxt və hansı əhd-peymanları bağlamışdır? Bu sualın cavabı Qurandadır. Quran bizə buyurur ki, Allah insanı yaratmamışdan öncə onunla əhd-peyman bağlayıb, sonra yaratmışdır. İnsan elə düşünməməlidir ki, boş-boşuna dünyaya gəlib və bu dünyada ürəyi istədiyini edə bilər. Yer, göy, dünyada olan nemətlərin hamısı insan üçün

yaranmışdır. Ola bilməz ki, insan da elə belə-sadəcə yaşayıb öz istədiyini etmək üçün yaransın. Çünki insanın yaradılmasında məqsəd vardır. Məqsəd olduğuna görə də ola bilməz ki, insan boş-boşuna yaradılsın. Buna görə də Allah insandan söz aldıqdan sonra onu xəlq etmişdir. İnsanın Allaha harada və hansı vədləri verməsi haqda Quran buyurur:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ

- O zaman sənin Rəbbin Adəm övladlarından – onların bellərindən övladlarını çıxartdı (dünyaya gətirməzdən öncə) və onları özlərinə şahid tutdu ki: «Mən sizin Rəbbiniz deyiləmmi?» onların hamısı: «Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik» dedilər.[1]

İnsan bu dünyaya gələndən və dünyanın bəzəklərini, naz-nemətlərini görəndən sonra Onun bağladığı əhd-peymanlar yadından çıxır. Allah-təala peyğəmbərləri ona görə göndərmişdir ki, Onunla bağladığı əhd-peymanlarını insanların yadlarına salsınlar.

Tövhid barədə söz aldıqdan sonra Allah insandan bu dünyaya gələrkən şeytana ibadət etməyəcəyi barədə vəd alıb, onunla əhd-peyman bağlamışdır. Bu günyaya gəlməmişdən əvvəl burada nələr olacağını və nə baş verəcəyini heç kəs bilmirdi. Allah-təala bütün bunları yaratmazdan öncə insana başa saldı ki, dünyada şeytan sizi aldatmağa və özünə tabe etməyə çalışacaq. Siz gərək

[1] Əraf,172.

ona tabe olmayasınız. “Yasin” surəsində bu məsələyə belə işarə edərək buyurulur:

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ

إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

- Ey Adəm övladı, məgər Mən sizinlə əhd bağlamadımmı «Şeytana ibadət etməyin! Şübhəsiz, o, sizin açıq-aşkar düşməninizdir?!»[2]

İnsan dünyaya gəlməzdən öncə Allah-təala bu vədləri ondan alıb, onunla əhd-peyman bağladıqdan sonra dünyaya gətirmişdir. Həm tövhidi, həm də şeytana ibadət etməmək barədə insandan söz almışdır. Allahın insandan aldığı üçüncü söz Həzrət Peyğəmbərin(s) nübüvvəti və İmam Əlinin(ə) vilayəti barədədir. Insan dünyaya gəlməmişdən öncə Allahla Peyğəmbərin(s) nübüvvəti və Əlinin(ə) vilayəti barədə əhd-peyman bağlayıb. “Rəd” surəsinin 25-ci ayəsində belə buyurulur:

وَالَّذِينَ يَنقُضُونَ عَهْدَ اللّهِ مِن بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَآ أَمَرَ اللّهُ بِهِ أَن

يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُوْلَئِكَ لَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

- Allahın əhd-peymanını möhkəmləndirdikdən sonra pozan, Allahın birləşilməsinə əmr etdiyi şeyi qıran və yer üzündə fəsad törədən kəslər üçün lənət və onların pis sonu vardır.[3]

Hədisdə Həzrət(s) bu ayənin açıqlamasında belə buyurur:

---

[2] Yasin,60.

[3] Rəd,25.

اى عَهْدُاللهِ اَلْمَأْخُوزِ عَلَيْهِم لِلّه بِالرّبُوبِيَّة وَلِمُحَمَّدٍ(ص) بِالنُّبُوَّة وَ لِعَلِيٍّ(ع) بِالْإِمامَة وَلِشِيعَتِهِم بِالمحَبَّةِ وَالْكَرامَة

- Bu, Allahın insandan aldığı həmin vəddir ki, Onun rübubiyyətinə və vəhdaniyyətinə söz almışdır. Bu, həmin vəddir ki, Allah Məhəmmədin(s) nübüvvətini insanlardan vəd almışdır. Bu, Allahın insanlardan Əlinin(ə) imaməti barədə aldığı vəddir. Əlinin şiələrinə məhəbbət və kəramət verilmişdir.

## İnsanların Peyğəmbərlə(s) bağladığı əhd-peyman

Buna görə də Allah-təala Quranda insanlara verdikləri vədlərə əməl etməyi vacib buyurmuşdur. Yuxarıda qeyd etdiyimiz mətləb insanın Allahla bağladığı əhd-peymandır. Bundan əlavə, insanlar Peyğəmbərlə(s) də əhd-peyman bağlayıblar və Həzrətə(s) söz veriblər. Peyğəmbərin(s) zamanında Həzrətin(s) əlini sıxaraq onunla əhd bağlamışdılar. Onlar Həzrətin(s) zamanında yaşayan müsəlmanlar və səhabələr idi. Düşmən ordusunun çoxaldığı və müsəlmanların sayının az olduğunu gördükdə bəziləri şəkk-şübhəyə düşərək tərəddüd edirdilər. İmanlarının zəif olduğunu görən şeytan onları yoldan çıxararaq Peyğəmbərdən(s) uzaqlaşdırmağa çalışırdı. Onlar da Peyğəmbərlə(s) bağladıqları əhd-peymanları pozurdular. Allah-təala bu ayəni nazil etdi:

وَأَوْفُواْ بِعَهْدِ اللّهِ إِذَا عَاهَدتُّمْ وَلاَ تَنقُضُواْ الأَيْمَانَ بَعْدَ تَوْكِيدِهَا

- Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun və öz andlarınızı onları

möhkəmlətdikdən sonra *(Allahın adını çəkməklə)* Allahı özünüzə zamin götürdüyünüz halda pozmayın.

Bu ayədən də məlum olur ki, əgər bir insan Peyğəmbərlə(s) əhd-peyman bağlayırsa, deməli Allahla əhd-peyman bağlamış olur.

## İnsanların bir-biri ilə bağladıqları əhd-peyman

Əhd bağlamağın üçüncü qismi də insanların öz aralarında bağladıqlatı əhd-peymandır. Əlbəttə, bu əhd-peyman iki növdür. Bir insanların bir-biri ilə şəxsi, digəri isə ictimai məsələlərdə bir-biri ilə bağladıqları əhd-peymandır. Bütün bu hallarda vacibdir ki, möminlər bağladıqları bütün əhd-peymanlara əməl etsinlər.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلاثٌ مَن كُنَّ فِيهِ كَانَ مُنافِقاً وَ اِن صَامَ وَ صَلّى وَ زَعَمَ اَنَّهُ مُسْلِم.

١. مَن ائتُمِنَ خَانَ. ٢. وَ اِذا حَدَّثَ كَذَبَ. ٣. وَ اِذا وَعَدَ اَخْلَفَ

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəsdə namaz qılan və oruc tutan olsa da belə, aşağıdakı üç xüsusiyyət olarsa, münafiqdir:

1.Əmanət tapşırıldıqda xəyanət edən;

2.Yalan danışan;

3.Söz verib (üzrsüz) əməl etməyən kəs.

Onlar özlərini müsəlman zənn edirlər. Belə insanlar həqiqətdə müsəlman yox, münafiqdirlər.

Hədislərdə deyilir ki, bir neçə əməldə kafirlə müsəlman arasında fərq yoxdur. Onlardan biri budur ki, möminə əmanət tapşıran şəxs kafir də olsa belə, həmin

əmanətə xəyanət etmək olmaz. İkincisi budur ki, əgər bir kəs kafirə də söz vermiş olsa, mütləq həmin sözün üstündə durmalı və əhdini pozmamalıdır. Üçüncüsü isə valideynin haqqıdır. Valideyn kafir də olsa belə, heç bir övladın ona qarşı hörmətsizlik etməyə ixtiyarı yoxdur.

Əmmar Yasir deyir: “Məhəmməd peyğəmbərliyə çatmamışdan öncə qoyun otarırdı. Mənim də qoyunlarım var idi. Çox vaxt heyvanları birlikdə otarardıq. Günlərin birində mən Məhəmmədə(s) dedim: Qoyunları otarmaq üçün yaxşı bir otlaq yeri görmüşəm. Gəl sabah qoyunları otarmaq üçün ora aparaq. Məhəmməd(s) mənimlə razılaşdı. Sabah müəyyən bir yerdə görüşmək üçün vədələşdik. Səhərisi gün mən qoyunlarımı həmin yerə gətirdikdə gördüm ki, Məhəmməd(s) məndən qabaq gəlib. Ona yaxınlaşıb dedim: Bəs nə üçün qoyunları həmin otlağa aparmamısan? O, buyurdu: Mən səninlə əhd bağlamışdım ki, qoyunları səninlə birgə həmin yerə aparıb otaraq. Mənim istəməzdim ki, səndən qabaq heyvanlarımı ora aparım. Buna görə də sənin gəlməyini gözlədim”

Həzrət Peyğəmbərin(s) tarixinə nəzər saldıqda görürük ki, həm peyğəmbərliyindən qabaq, həm də sonra həmişə verdiyi sözə əməl edib, əhdinə vəfalı olmuşdu.

## İnsanlar nə üçün vədlərini pozurlar?

İkinci mətləb budur ki, hansı səbəbə görə insanlar verdikləri sözlərə əməl etmir və bağladıqları əhd-peymanı sındırırlar? Quranda bu sualın cavabı açıq- aşkar bəyan olunmuşdur. Bəzən insanlar canlarının qorxusundan verdikləri sözləri geri götürürlər. Bəziləri isə maddi mənafelərinə görə bağladıqları əhd-peymanı sındırırlar. Məsələn, bir malı müəyyən bir qiymətə kiməsə satmağı vəd edir. Lakin iki gündən sonra həmin malın qiymətinin

artdığını gördükdə onu həmin şəxsə satmaqdan boyun qaçırır və baha qiymətə başqasına satır. Buna görə də Allah-təala belə insanlara xitab edərək buyurur:

إِنَّمَا عِندَ اللّهِ هُوَ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ... مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللّهِ بَاقٍ

- Həqiqətən, Allah yanında olan sizin üçün daha yaxşıdır (mənfəətlidir)... Sizin yanınızda olan tükənir və puç olur, Allahın yanında olan isə daimi və əbədidir.[1]

شَتّانَ مَا بَيْنَ عَمَلَين: عَمَلٌ تَذْهَب لَذَّتُهُ وَ تَبْقى تَبِعَتُهُ وَ عَمَلٌ تَذهَب مَؤُنَتُهُ وَ يَبْقَى اَجرُه

İmam Əli(ə) buyurur: "İki əməl - ləzzəti keçib gedən və ziyanı *(cəzası)* qalan əməl *(itaətsizlik)* ilə zəhməti ötüb gedən və savab və mükafatı qalan əməl *(itaət və bəndəlik)* arasında nə qədər də uzaq fasilə var!"

Bəzən insan bir əməlin neçə saatlıq ləzzətinə görə sonradan onun həm əziyyətini çəkir, həm də axirətini əldən verir. Məsələn, orucluq vaxtı bəzi insanlar oruc tutmurlar. Lakin saatlar ötüb keçdikdən sonra həm oruc tutanlar, həm də tutmayanlar üçün axşam olur. Oruc tutanlar iftar vaxtı yemək yeyirlər. Oruc tutanların zəhməti artıq sona yetdi və əbədi ləzzət onlara qaldı. Oruc tutmayanlar üçün isə ləzzət sona yetdi və əbədi cəza onlara qaldı. Orucluq ayı qurtardıqdan sonra da belədir. Hər kəs bu ayda zəhmət çəkib oruc tutursa, ayın sonuna qədər zəhmət çəkib əbədi ləzzətə nail olurlar. Oruc tutmayanlar isə bu ay istədiklərini edib əbədi ləzzətdən məhrum olurlar. Gecə və gündüzlər namaz qılmaq, Həcc

---

[1] Nəhl,96.

ziyarətində olan çətinliklər də belədir. Bütün ibadətlərin hamısı belədir. İbadət edənlər çətinlikdən sonra əbədi ləzzətə nail olurlar. İbadət etməyənlərin isə ləzzətləri qurtardıqdan sonra əbədi əziyyətə düşürlər. O insanlar ki, şəhvətlərinin qarşısını alıb səbr edirlər və böyük pulların qarşısında səbr edib şeytana aldanmırlar, müəyyən bir zaman ötdükdən sonra hər şey qurtarır. Yəni bu dünyaya aldananlar və aldanmayanlar üçün bir zaman hər şey sona çatacaq. Dünyaya aldananlar ziyan çəkəcək, aldanmayanlar isə səadətə qovuşacaq.

Allah-təala "Yunis" surəsinin 58-ci ayəsində buyurur:

قُلْ بِفَضْلِ اللّهِ وَبِرَحْمَتِهِ فَبِذَلِكَ فَلْيَفْرَحُواْ هُوَ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ

- (Ya Peyğəmbər) De: «Allahın lütf və rəhmətinə, *(bəli)* həmin lütf və rəhmətə (Quranın nemətlərinə) sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır».

İnsan başa düşməlidir ki, axirət üçün yığılan azuqə bu dünyanın bütün naz-nemətlərindən daha yaxşıdır. Çünki insan bu dünyada hər nə yığsa, elə bu dünyada qalacaq. Lakin xeyir əməllərin və ibadətlərin nəticəsində yığılan xeyir və bərəkət insanın özünə qaytarılacaq. Dünyada özləri üçün mülk, mal-dövlət yığanların şahidi oluruq. Bütün bunların hamısından daha xeyirli Allahın fəzl və mərhəmətidir. Buna görə də insan Allahın mərhəmətini qazanmaq üçün səy göstərməlidir. Bəzi insanlar bunun həqiqətini başa düşüb əməl etdilər və səadətə qovuşdular. Belə ki, Allah-təala onlara Öz rəhmətini və mərhəmətini inayət etdi.

Fironun həyat yoldaşının adı Asya xanım, onun atasının adı isə Müzahim idi. Musa Peyğəmbərin(ə) nübüvvəti Asyanın qəlbinə təsir göstərdi və o, Allahın

vəhdaniyyətinə iman gətirdi. Firon ona dəfələrlə nəsihət etdi ki, bu işdən əl çəksin. Lakin Asya Fironun sözlərinə əhəmiyyət vermədi. Firon Asyanın anasını çağırtdırıb qızını başa salmağı tapşırıb dedi: “Sənin qızın Musaya(ə) iman gətirib və evimin içində mənim əleyhimə çıxıb”. Bütün bunlara baxmayaraq, Asya öz imanından dönmədi. Firon ona çoxlu hədə-qorxu gəlməsinə baxmayaraq, Asyanı yolundan döndərə bilmədi. Nəhayət, Firon göstəriş verdi ki, onu çarmıxa çəksinlər. Asyanı çarmıxa çəkib əllərini və ayaqlarını mismarladılar. Bəzi mənbələrdə yazırlar ki, hətta gözlərinə də mismar vurmuşdular. Bütün bunlara baxmayaraq, gördülər ki, Asya gülümsəyir. Bəziləri onun dəli olduğunu güman edirdilər. Asya orada bir cümlə deyəndən sonra Allaha qovuşdu. Allah-təala onun bu cümləsini Quranın ayələrinin arasına salıb Asyanı nümunəvi bir qadın kimi bütün bəşəriyyətə tanıtdırır. Asya elə bir cümlə deyib ki, Allah-təala onun bu cümləsinə çox böyük qiymət verərək Quranın ayələri sırasına qoymuşdur. Hər kəs onun bu sözlərinə dəstəmazsız əl vurarsa, günah iş görmüşdür. Çünki o kəlmələr Quranın ayələrindən biridir. “Təhrim” surəsinin 11-ci ayəsində belə buyurulur:

وَضَرَبَ اللَّهُ مَثَلًا لِّلَّذِينَ آمَنُوا امْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِندَكَ بَيْتًا فِي الْجَنَّةِ

- Və Allah iman gətirən kəslər üçün Fironun zövcəsini məsəl çəkdi; o zaman o demişdi: «Ey Rəbbim, mənim üçün Öz yanında *(Öz calal və rəhmətinin yaxınlığında)* – cənnətdə – bir ev tik!

Asya xanım Allahdan təkcə cənnətin özünü deyil, orada Allahın Öz rəhməti yanında olan bir ev istədi.

Odur ki, insan başa düşməlidir ki, Allahın rəhməti, mərhəməti bu dünyada yığdıqlarının hamısından daha üstün və daha xeyirlidir. Digər ayədə belə buyurur:

وَلَئِن قُتِلْتُمْ فِي سَبِيلِ اللّهِ أَوْ مُتُّمْ لَمَغْفِرَةٌ مِّنَ اللّهِ وَرَحْمَةٌ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ

- Əgər Allah yolunda öldürülsəniz, yaxud ölsəniz, şübhəsiz ki, Allah tərəfindən olan bağışlanmaq və rəhmət onların yığdıqlarından *(dünya sərvətindən)* daha yaxşıdır.[1]

İnsan bu dünyaya mal-dövlət yığmaq üçün deyil, Allahını tanıyıb Ona ibadət etmək üçün gəlmişdir. Tarix boyu şahidi olmuşuq ki, mal-dövlət toplayanların aqibəti necə olmuşdur. İnsan bu dünyanın malını hər nə qədər yığsa da belə dünyadan əliboş gedəcək. İnsanın özü ilə o dünyaya apardığı şey yalnız onun əməlləridir. Əzrayıl(ə) mal-dövlət toplayan şəxslərin canını aldıqda onlar həsrətlə yığdıqlarına baxıb gedəcəklər. Bir ömür çalışıb cavanlığını və ömrünü verməklə yığdığı dünya malını elə burada qoyub getdiyi üçün həsrət çəkəcək.

İmam Əli (ə) buyurur: «Qiyamət günü ən dərin təəssüf rəva bilinməyən (haram) yolla mal toplayıb başqasına miras qoyub gedən və varisin də həmin malı sübhan olan Allahın yolunda məsrəf etdiyinə görə cənnətə daxil olan, özü isə cəhənnəmə düşən kişinin təəssüfüdür.»

Amma elə insanlar var ki, həqiqətən Allah yanında olanların əbədi olduğunu başa düşüb Allahdan mərhəmət və rəhmət istəmək üçün səy göstərmişlər.

Bureyr İmam Hüseynin(ə) şərafətli səhabələrindən biri idi. O, Kərbəlada İmam Hüseynin(ə) məhzərində

---

[1] Ali-İmran, 157.

şəhid oldu. Əbdür-Rəhman Ənsari deyir: “Aşura gecəsi gördüm ki, Bureyr səhabələrlə zarafat edib gülür. Öz-özümə təəccüb etdim ki, axı Bureyr zarafatcıl insan deyil. Necə ola bilər ki, bu gecə onu belə bir halda görürəm? Yaxınlaşıb dedim: Bureyr, mən səni indiyə qədər zarafat edib gülən görməmişdim. Bu gecə şən olmağının səbəbi nədir belə? Bureyr dedi: And olsun Allaha ki, mən heç cavanlığımda belə zarafat etməzdim. Bunu mənim qohum-əqrəbam yaxşı bilir. Amma bu gecə zarafat gecəsidir. Çünki bizimlə cənnətin nemətləri və hurilər arasında bircə ölüm pərdəsidir. Bir neçə saatdan sonra cənnətdə həmin nemətlərə qovuşacağıq. Bureyr gördü ki, Həbib ibn Məzahir də gülə-gülə onlara sarı gəlir. Soruşdu: Həbib, sən nə üçün gülürsən? Həbib dedi: Bizimlə cənnətin nemətləri arasında yalnız bircə o bədbəxt düşmənlərin hücumu qalıb. Onlar nə vaxt hücum etsələr, biz cənnətdə həmin nemətlərin içərisində olacağıq”.

Onlar bu ayənin mənasını tamamilə dərk edib başa düşən insanlar idi.

قُلْ بِفَضْلِ اللّهِ وَبِرَحْمَتِهِ فَبِذَلِكَ فَلْيَفْرَحُواْ هُوَ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ

- (Ya Peyğəmbər) De: «Allahın lütf və rəhmətinə, *(bəli)* həmin lütf və rəhmətə (Quranın nemətlərinə) sevinsinlər ki, o, onların yığdıqlarından daha yaxşıdır».

Çox təəssüflər olsun ki, hamı bunu dərk edə bilmir. Elə güman edirlər ki, hər nə varsa bu dünyadadır və bacardıqları qədər də mal-dövlət toplasalar, səadətə nail olacaqlar.

Həccac ibn Yusif ən cinayətkar və qantökən insanlardan biri idi. Hamı onun necə qəddar və zalım olduğunu bilirdi. Günlərin birində səfərə çıxmışdı. Bir yerdə çadırları qurub nahar etmək üçün istirahət etdilər.

Hava dəhşətli dərəcədə isti idi. Qulluqçular qazanları qoyub yemək hazırlamağa başladılar. Həccac ətrafa baxıb gördü ki, havanın dəhşətli istisindən bir nəfər çoban qoyunları bir yerə yığıb, hərdən sərinləmək üçün başını qoyunların qarnının altında saxlayır. Həccac kimi qantökən bir insan onun bu halına ürəyi yandı və onu yanına çağırtdırdı. Çoban gəlib Həccacın qarşısında dayandı. Həccac dedi: "İstəyirəm bizimlə nahar edəsən. Çoban dedi: Mən yemək istəmirəm. Həccac dedi: Yəqin ki, özünə buradan daha yağlı bir yer tapmısan? Çoban dedi: Bəli. Həccac dedi: Buradan yağlı bir yer tapmağın mümkün deyil. Çoban dedi: Mən bu gün oruc tutmuşam və iftara Allaha qonağam. Allahın qonaqlığı buradan daha yağlıdır. O bilirdi ki, Allahın yanında olan nemətlər həmişəlik və əbədidir. Həccac dedi: Gəl bu gün mənim qonağım ol, sabah yenə də oruc tutub Allahın qonağı olarsan. Çoban dedi: Xeyr, razı olmaram. Həccac dedi: Nə üçün? Çoban dedi: Sən sabah mənim sağ qalacağıma yazılı bir kağız verə bilərsənmi? Bəlkə sabaha mən sağ çıxmadım, onda necə olacaq?"

Həmin bu insan ürəkdən bilirdi ki, Allahın yanında olan nemətlər əbədidir. Ona görə də Allahla olan müqaviləni heç bir şeyə dəyişməyə razı olmadı. Odur ki, bəzi insanlar Allahın yanında olan nemətlərə tam arxayındırlar. Bu əbədi neməti heç nəyə dəyişməyə razı olmurlar. Yəqin bilirlər ki, Allahın yanında olan nemətlər heç vaxt hədər getməz.

Yusiflə Züleyxanın dastanına nəzər saldıqda görürük ki, heç bir şey Yusifi yolundan azdıra bilmədi. Züleyxanın şirin dili, evinin bəzək-düzəyi, hətta hədə- qorxusu belə Yusifi Allahdan ayıra bilmədi. Züleyxa Yusifə vurulmuşdu. Hər hansı vasitə ilə olursa-olsun Yusifi öz

istədiyi tərəfə çəkməyə çalışırdı. Lakin Yusif Allaha sığınaraq onun bu təkliflərinin heç birini qəbul etmirdi. Misir qadınları Züleyxanı məzəmmət edərək dedilər: “Sən bir köləyə aşiq olmusanmı? Züleyxa dedi: Axı siz heç Yusifi görməmisiniz. Əgər onun camalını bircə dəfə görsəydiniz, mənim dərdimdən xəbərdar olardınız. Züleyxa həmin qadınları evinə dəvət edib onlara bıçaq və meyvə verdi. Qadınlar meyvələri kəsərkən Züleyxa Yusifə dedi: Bu qapıdan içəri daxil ol və o biri qapıdan çıx. Yusif bir qapıdan girib digər qapıdan çıxana qədər qadınlar onun gözəlliyinə heyran qalıb əllərindəki meyvəni kəsmək əvəzinə öz barmaqlarını kəsdilər. Züleyxa qadınlara dedi: Siz məni bir qula aşiq olduğuma görə danlayırdınız. Amma belə bir insan dünyanın heç bir yerində tapa bilməzsiniz. Züleyxanı məzəmmət edib danlayan qadınlar gəlib Yusifi danlamağa başladılar. Biri dedi: Axı bu qədər də təqvalı olmaq nəyə lazımdır? Görürsən ki, Züleyxa səndən ötrü hər şeyə hazırdır. Gəl, sən onun ürəyini qırma və onunla razılaş. Başqa bir qadın dedi: Sən eşqin nə olduğunu bilmirsən. Züleyxa sənə aşiq olub. Sən də onunla razılaşmırsan. Amma bunu da bil ki, Züleyxa Misirin Əzizinin həyat yoldaşıdır. Misirdə hər bir şey onun əlindədir. Sən onunla razılaşsan, bütün bu var-dövlət sənin ixtiyarına keçəcək. Digəri isə belə dedi: Eşqin nə olduğunu başa düşmürsən. Həmçinin mal- dövlətdən də imtina edirsən. Amma bunu da bil ki, Züleyxanın əlində çox böyük imkanlar var. Bundan istifadə edib sənə qarşı olan kin-küdurəti cuşa gələr və sənin başına olmazın oyunları açar”.

Həzrət Yusif müxtəlif hücumlara məruz qaldı. Bir tərəfdən var-dövlət, bir tərəfdən şəhvət hissi, bir tərəfdən də hədə-qorxu onu əhatəyə almışdı. Lakin Yusif bütün

bunlara məhəl qoymadı və əllərini açıb Allahla belə minacat etdi:

قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ وَإِلاَّ تَصْرِفْ عَنِّي كَيْدَهُنَّ أَصْبُ إِلَيْهِنَّ وَأَكُن مِّنَ الْجَاهِلِينَ

«Ey Rəbbim, mənim üçün zindan bunların məni dəvət etdiklərindən daha xoşdur və əgər bu qadınların məkr və hiyləsini məndən dəf etməsən, onlara meyl edər və nadanlardan olaram.»[1]

## Həzrət Əli(ə) dünya və axirətin fatehidir

Ümumiyyətlə, tarix boyu belə insanlar çox olmuşdur. Onlar Allahın yanında olan əbədi nemətləri heç bir şeyə dəyişmədilər. Bütün bunların hamısı bir tərəfə, Həzrət Əli(ə) bir tərəfə. Əli(ə) həm dünyanın fatehidir, həm də axirətin. Əgər o insanlar cənnətin eşqinə və ya cəhənnəmin qorxusundan Allaha sığınırdılarsa, Həzrət Əli(ə) yalnız və yalnız Allahın Özünə xatir ibadət edirdi. Minacat edərkən belə deyərdi: "İlahi, mən Sənə cənnətə getməyə və ya cəhənnəm qorxusuna görə ibadət etmirəm. Mən Səni ibadətə layiq bildiyim üçün ibadət edirəm".

قَالَ رَسُولُ اللهِ(ص): اَلدُّنْيا حَرامٌ عَلى أَهْلِ الآخِرَة، وَالآخِرَةُ حَرامٌ عَلَى أَهْلِ الدُّنْيا، وَالدُّنْيا وَالآخِرَة حَرامٌ عَلى أَهْلِ الله

Həzrət Peyğəmbər(s) buyurur: "Dünya axirət əhlinə haramdır. Axirət də dünya əhlinə haramdır. Həm dünya, həm də axirət Allah əhlinə haramdır".

Xacə Abdulla Ənsari əhli-sünnə alimlərindən biridir. O, Peyğəmbərin(s) bu hədisini nəzmə çəkərək belə deyir:

---

[1] Yusif surəsi,33.

دنیا طلبا تو در جهان رنجوری     عقبی طلبا تو از حقیقت دوری

مولی طالبا که داغ مولی داری     اندر دو جهان مظفر و منصوری

- Ey dünyanı sevən və dünyaya məhəbbət bəsləyən, sən bu dünyada əziyyət içindəsən. Ey axirətə məhəbbət bağlayan insan, sən həqiqətdən uzaq düşmüsən. Ey Mövlanı (Allahı) sevən və ürəyində Onun məhəbbəti və eşqi olan insan, sən hər iki dünyada müzəffər və xoşbəxtsən.

Həzrət Əli(ə) elə bir insan idi ki, Allaha cənnətə getməyə və ya cəhənnəmin qorxusundan ibadət etmirdi. Yalnız Allahın Özünə görə səcdə edib ibadət edirdi. Allahla münacat edərkən belə deyir: “Ey mənim Mövlam, ey mənim Ağam, ey mənim Rəbbim, Sənin (cəhənnəminin) əzabına səbr edərəm, amma Səndən ayrı düşməyə necə dözərəm?”

Corc Cordak Həzrət Əli(ə) barədə belə yazır:

مَاذَا عَليكِ يَادُنْيا لَو حَشَدّتِ قُواك فَأَعْطَيْتِ فِي كُلِّ زَمَن علياً بِعَقْلِهِ وَقَلْبِهِ وَلِسَانِهِ وَذِي فقاره

- Ey dünya, nə olardı ki, bütün qüdrət və gücünü işə salıb, həmin ağılla, həmin qəlblə, həmin dillə, həmin zülfüqarla aləmə yeni bir Əli bağışlayaydın!

Allah-təala belə bir şəxsiyyəti yalnız İslam Peyğəmbərinə(s) canişin və vəsi təyin etdi. Həzrət Əli(ə) Kəbə evində dünyaya gəldi və məsciddə də şəhid oldu. Ramazan ayının 21-ci gecəsi müsəlmanlar çox acınacaqlı bir faciə ilə üzləşdi, Həzrət Əli(ə) kimi bir şəxsiyyəti itirmək hər bir müsəlman üçün ağır dərddir. Allah-təala dünya və axirətdə bizi Həzrət Əlinin(ə) vilayət nurundan ayrı salmasın, inşallah.

*2007, 21 ramazan*

# İMAN VƏ SALEH ƏMƏL

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلمُتَّقِين وَالجَنَّةُ لِلمُطِعِينَ وَالنّارُ لِلعَاصِين وَالْمُلْحِدِين وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيب اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلَى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَللَّعْنُ الدَّائِم عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ

Ötən bəhsdə “Nəhl” surəsinin 95-96-cı ayələri barədə söhbət etdik. Bu bəhsdə də həmin surənin 97-ci ayəsi barədə söhbət açmaq istərdim. Allah-təala bu mübarək ayədə belə buyurur:

- Hər kim – kişi, yaxud qadın – imanı olan halda yaxşı iş görsə, onu şübhəsiz, *(dünyada)* pak bir həyatla yaşadacaq və *(axirətdə)* çox gözəl əməllərinin müqabilində mükafatlarını verəcəyik.

Bu ayə bizə iki əsas mətləbi bəyan edir. Onlardan birini əziz möminlər üçün ərz edirəm. Həmin mətləb belədir ki, iman və saleh, təmiz, pak əməllər bir-birinə bağlıdır. Əgər imanla əməl bir-birindən ayrı olsa, təklikdə heç birinin insana faydası olmayacaq. İman və əməlin o zaman faydası olar ki, insanda hər ikisi mövcud olsun. İman odur ki, insanın əqidəsi düz olsun. Allahın vəhdaniyyətinə və ədlinə, Peyğəmbərin(s) nübüvvətinə,

imamlarin imamətinə və qiyamət gününə əqidəli olmağa iman deyilir. Belə bir əqidəsi olan insana imanlı insan deyilir. Lakin insanın insaniyyətə çatması üçün iman təklikdə kifayət etmir. Bununla yanaşı, əməl lazımdır. Tövhidin o zaman insana xeyri olar ki, insanın əməlləri saleh olsun. Həmçinin əksinə olaraq, bir insanın əqidəsi düzgün deyilsə, əməlinin də heç bir xeyri olmayacaq. Buna görə də nicat tapmaq istəyib səadətə qovuşmaq niyyətində olan şəxs mütləq imanla əməlin hər ikisinə sahib olmalıdır. Allah-təala Quranda belə buyurur:

فَأَمَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَعَسَى أَن يَكُونَ مِنَ الْمُفْلِحِينَ

- Lakin tövbə edib, iman gətirən və saleh əməli olan (saleh işlər görən) kəsə gəlincə onun nicat tapanlardan olmasına ümid vardır.[1]

Bu ayə bizə açıq-aydın bəyan edir ki, imanla yanaşı, əməlləri təmiz və saleh olan insanlar nicat tapıb xoşbəxt olarlar. Hədislərdə vardır ki, əgər iman insanın ürəyinə daxil olsa, onun nuru əməldə və bədən üzvlərində izhar olunacaq. Yəni əgər imanın kökü insanın ürəyində və ruhunda olsa, onun şuası həmin şəxsin əməllərində görünəcək. Məsələn, bir otaqda çıraq yandırdıqda həmin otağın işığı pəncərələrdən çölə düşür. Əgər insanın qəlbində iman çırağı yanarsa, onun nuru və işığı bədənin pəncərələrindən görünər. İnsan bədəninin pəncərələri də göz, qulaq, ağız, əl-ayaq və digər üzvlərdir. Yəni əgər bir insanın qəlbində iman varsa, heç vaxt o şəxsin gözləri xəyanət etməz, dili haram sözlər danışmaz, ayaqları günah yerlərə getməz. Qəlb imanla dolu olduqda qulaq heç vaxt haram söz eşitməz və digər üzvlər günah iş görməz.

[1] Qəsəs, 67,

Bunun üçün evlərə gələn içməli suyun anbarını misal çəkirlər. Ümumi su anbarından müxtəlif borular vasitəsilə evlərin kranlarına çəkilir. Həmin anbardan bütün evlərə su paylanılır. Əgər anbarın suyu şirin su olarsa, evlərdə istifadə olunan kranlardan gələn su da şirin olacaq. Yox, əgər anbarın suyu şor olsa, evlərə də şor su gələcək. Odur ki, əgər insanın ürəyində iman olarsa, onun əlamətləri bütün bədən üzvlərindən görünəcək. Təsəvvür edin ki, insanın imanı bir kök və əsas, əməli isə şirin meyvələrdir. Hər bir ağacın kökü vardır. Bar verən ağacın meyvəsinin gözəlliyi, dadı və şirinliyi həmin ağacın kökünün sağlamlığına əsas verir. Ağacda ətirli, şirin və gözəl meyvələr olduqda məlum olur ki, bu ağacın kökü sağlamdır. Ağacın kökü sağlam olduqda torpağın şirəsini yaxşı çəkərək meyvələrə ötürür. Əgər bir ağacın kökü xarab olarsa, meyvələri də dadsız və yararsız olacaq. Deməli, meyvənin şirinliyi və sağlamlığı ağacın kökünün sağlam olmasına dəlalət edir. Eləcə də iman kök, əməllər isə şirin meyvələrdir. Bir insanın ürəyi saf, sağlam və imanla dolu olarsa, həmin şəxsin əməllərinin hamısı gözəl və təmiz olar. Bəzən bir sıra insanlar güman edirlər ki, hər nə günah etsələr də qəlbləri təmizdir. Bütün bunlar yalan və boş düşüncələrdir. Əgər bir insan içki içirsə, yalan danışırsa, oğurluq edirsə, həmçinin digər günahlara əl atırsa, bu insanın qəlbi təmiz ola bilməz.

Zübeyri deyir: “Bir gün Həzrət İmam Sadiqin(ə) məhzərinə getmişdim. Həzrətdən(ə) imanın fəziləti barədə soruşdum: Həzrət(ə) buyurdu: Allah-təala insandan hər şeyi onun imanına görə qəbul edir. Dedim: Ey Allahın höccəti, o nədir elə? Həzrət(ə) buyurdu: Allaha olan iman. Soruşdum: İman sözdə, əməldədir, yoxsa sadəcə əməlsiz dildə iman gətirməkdir? Həzrət(ə) buyurdu:

İmanın hamısı əməldir. Dildə iman gətirmək isə əməlin bir hissəsidir.

İmam Sadiq(ə) buyurur: “Bir gün atamla Mədinə məscidinə getmişdik. Gördüm ki, bir dəstə mömin Rövzədə (Peyğəmbərin(s) minbər və qəbri arasında olan yerdə əyləşiblər.[1] Atam onlara baxıb buyurdu: And olsun Allaha ki, sizdən gələn xoş ətir iyini hiss edirəm. Siz bizim dostlarımsınız. Sizin bizə (əhli-beytə) məhəbbətiniz var. Mən də sizi sevirəm. Lakin bu məhəbbətə kömək edin. Soruşdular: Ey Allahın höccəti, biz bu barədə necə kömək etməliyik? Atam buyurdu: Bu qarşılıqlı məhəbbətə öz əməlinizlə yardımçı olmasanız, bunun sizə heç bir faydası olmayacaq. Pak, təmiz əməllər və ibadətlərlə çalışıb bu məhəbbətə yardımçı olun”.

Odur ki, insan dildə iman gətirməklə və quru məhəbbətlə axirəti qazana bilməz. Bu imanın və məhəbbətin yanında mütləq saleh əməllər olmalıdır. Dildə sevirəm, qurban olum, çox istəyirəm deməyin şərti əməl etməkdir.

Allah-təala Həzrət Süleyman Peyğəmbərə(ə) elə bir qüdrət vermişdi ki, heyvanların dilini də bilirdi. Günlərin birində Həzrət Süleyman(ə) bir cüt sərçənin söhbət etdiyini gördü. Erkək sərçə dişi sərçəyə belə deyirdi: “Sən nə üçün mənin sözümə baxmırsan? Sən bilirsən, mən kiməm? Mən Süleymanın sarayının günbəzini dimdiyimlə götürüb dənizə ataram. Sərçənin bu sözləri Həzrət Süleymana(ə) çox təəccüblü gəldi. Buna görə də həmin

---

[1] Hazırkı dövrdə Peyğəmbərin(s) minbərinin özü orada yoxdur, lakin yeri hamıya məlumdur və hamı bunu bilir. Həmin məsafədə Həzrət Peyğəmbərin(s) hədisini divarda yazıblar. Həzrət(s) buyurmuşdur: “Rövzə cənnət bağlarından biridir. “Bu hədisə əsasən hamı orada ən azından iki rükət namaz qılmaq istəyir. Buna görə də ora həmişə camaatla dolu olur.

sərçəni çağırıb soruşdu: Sən mənim sarayımın günbəzini necə götürə bilərsən? Sərçə dedi: Ey Allahın Peyğəmbəri(ə), mən kiçik bir quşcuğazam. Yerdən kiçik bir daşı götürməyə gücüm çatmır. Sənin sarayının günbəzini necə götürüb dənizə ata bilərəm? Söhbət etdiyim sərçə mənim arvadımdır. O, mənim sözümə baxmadığı üçün onun üstünə əsəbiləşib bu kimi sözlər deyirəm ki, məndən qorxsun. Həzrət Süleyman(ə) dişi sərçəni çağırıb soruşdu: Nə üçün sən öz ərinin sözünə qulaq asmırsan? Sərçə dedi: Ey Allahın Peyğəmbəri(ə), o sərçə mənə yalan danışır. Yalan danışmağına sübut budur ki, düzdür, o, dildə mənə "səni çox sevirəm" deyir, amma hərdən gedib başqa sərçələrlə də gəzir. Onun mənə olan məhəbbəti yalançı məhəbbətdir. Buna görə də mən ona inanmıram. Həzrət Süleyman(ə) sərçənin bu sözlərini eşidib halı dəyişdi. Sərçənin sözləri onda çox böyük təsir qoydu və saraya gedib öz otağına daxil oldu. Qırx gecə alnını səcdəyə qoyub ağladı və Allahla minacat edərək dedi: İlahi, mən də Sənə sevməyimi iddia edirəm. Amma bilmirəm ki, əməlimlə bu sözü təsdiq edə bilmişəm, ya yox”.

Buna görə də insan əgər Allahı sevməyi iddia edirsə, mütləq əməldə də bu sevgini izhar etməlidir. Həzrət Əli(ə) buyurur: “Həzrət Peyğəmbər(s) mübarək ramazan ayının gəlişi ilə əlaqədar bir xütbə oxudu. Xütbənin sonunda ayağa qalxıb soruşdum: Ya Rəsulallah, bu ayda ən gözəl əməl hansıdır? Həzrət(s) cavabımda buyurdu: «Ey Əbəl-Həsən, bu ayda ən gözəl əməl Allah-təalanın haram buyurduğu işlərdən uzaq olmaqdır».

Ən üstün ibadət haramlardan çəkinməkdir. Haram əməllərdən qorunmaq bütün müstəhəb əməllərdən və ibadətlərdən üstündür. Haram nə qədər böyük olursa-olsun

insan mütləq ondan uzaqlaşmalıdır. Böyük haramlardan çəkinməyin savabı da böyükdür. Hər kəs bütün günahlardan özünü qoruya bilsə, o, çox qüdrətli bir insandır. Xüsusilə iki əməldir ki, digər əməllər də bu iki əmələ bağlıdır. Əgər insan bu iki əməldən çəkinə bilsə, o birilərdən də qoruna bilər. Onlardan biri haram yemək, digəri isə şəhvətdir.

## Haram yeməklərdən qorunmaq

Əgər insan öz boğazını və qarnını haram yeməklərdən saxlasa, yüksək məqamlara nail ola bilər. Hədislərdə vardır ki, hər kəs bir tikə haram yesə, Allah-təala qırx gün həmin insanın ibadətlərini qəbul etməz. İnsan süfrə kənarında əyləşdikdə ilk növbədə yeyəcəyi yeməklərə baxmalıdır. Əgər haramdırsa, çəkinməli, halaldırsa yeyə bilər.

Bir gün Bəhlul Danəndə Harunun sarayına daxil olmaq istəyirdi. Amma qapıçı onu içəri buraxmırdı. Bir təhər onu razı salaraq içəri keçib Harunun otağına daxil oldu. Harun soruşdu: “Gəlişinin məqsədi nədir? Bəhlul dedi: Səndən bir söz soruşmağa gəlmişəm. Harun dedi: Soruş. Bəhlul dedi: Harun, yeməyin şərti nədir? Harun dedi: Elə bunu soruşmağa gəlmisən? Bəhlul dedi: Məgər bu kiçik sualdır? Cavabını bilirsənsə de. Harun dedi: Yeməyə başlayarkən “Bismillah” demək. Bəhlul dedi: Xeyr. Harun dedi: Yeməzdən əvvəl əlləri yumaq. Bəhlul dedi: Xeyr. Harun dedi: Duzla başlayıb duzla da qurtarmaq. Bəhlul dedi: Xeyr. Beləcə Harun iyirmi yeddi müstəhəb əməl saydı. Bəhlul heç birini qəbul etmədi və dedi: Harun, yeməyin bir şərti var. O da budur ki, yeməyi əlinə götürüb yediyin zaman bax gör, əgər sənindirsə və halaldırsa ye. Amma sənin deyilsə və haram yeməkdirsə,

at kənara və ondan çəkin. Yeməyin əsas şərti onun halal olmasıdır. Əgər halal olmasa, nə qədər "Bismillah" desən də xeyri yoxdur.

Haram yeməklər yeyən və haram içkilər içən insanın qəlbində nuraniyyət olmaz. Hər kəs qəlbinin nurani olmasını istəyirsə, mütləq haramlardan çəkinməlidir. Hədislərdə vardır ki, hətta halal yeməyi də doyunca yeməsən yaxşıdır. Çünki çox yemək insanın qəlbinin nuraniyyətini aparır.

قَالَ رَسُولُ اللهِ(ص): لاَ يَدْخُلُ مَلَكُوتَ السَّمَوَاتِ وَ الأَرض مَنْ مَلاءَ بَطنَه

Həzrət Peyğəmbər(s) buyurur: "İnsan tox qarına göylərin və yerin nuraniyyətinə daxil ola bilməz".

Bu hədisdə haram yeməklərdən qorunmaqdan əlavə göstəriş verilir ki, hətta halal yeməkləri də doyana qədər yeməyin. Digər bir hədisdə belə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): اَجِيعُوا اَكْبَادَكُم...لَعَلَّ قُلُوبَكُم تَرى الله

- Qarınlarınızı boş saxlayın ki, bəlkə ürəkləriniz Allahın nuraniyyətini hiss etsin.

## Şəhvətdən qorunmaq

İnsanın nuraniyyətini əlindən alan və günahlara sövq edən əməllərdən biri də şəhvətdir. Əgər bir insan şəhvətinin qarşısını ala bilsə, həmin şəxsin qəlbinə nuraniyyət daxil olar. Amma əgər şəhvətinin qarşısını almasa, heç vaxt qəlbinə nuraniyyət daxil olmaz. Şəhvətin əsası da baxışlardan başlanır. Haram mənzərələrə və naməhrəmlərə baxdıqda insanın şəhvəti tüğyan edir. Hədislərdə deyilir ki, bir insan naməhrəmlə üzləşdikdə

başını aşağı salıb ona baxmadan ötüb keçsə, Allah-təala həmin şəxsə yerin mələklərinin sayı qədər savab verər. Yox, əgər başını göyə qaldırıb naməhrəmə baxmadan ötüb keçsə, Allah-təala ona göyün mələklərinin sayı qədər savab verər. Lakin əgər naməhrəmə baxdıqdan sonra, bir də dönüb ona baxsa, həmin şəxs öz nəfsinin və şəhvətinin quludur.

Həzrət Peyğəmbərin(s) zamanında Ənsarlardan olan cavan bir oğlan küçədə bir qadınla rastlaşdı. Qadının gözəlliyi onu heyran etdi. Başını qaldırıb bir də ona baxdı. Ondan xoşu gəldi və ona baxa-baxa yoluna davam etdi. Elə bu halda gedərkən başı qarşıdakı divara dəyib partladı. Həmin qadın bu oğlanın ona baxmağından acığı gəldi. Gedib Peyğəmbərə(s) həmin oğlandan şikayət etdi. Camaat təzə iman gətirdiklərinə görə qarşılarına çıxan hər bir məsələni Peyğəmbərlə(s) məsləhətləşirdilər. Həzrət Peyğəmbər(s) qadının şikayətinə qulaq asdıqdan sonra həmin cavanı yanına çağırdı. Cavan etdiyi əmələ görə peşman olmuşdu. Peyğəmbər(s) onunla söhbət edərkən Allah-təala "Nur" surəsinin 30-31-ci ayələrini nazil etdi.

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ

- Mömin kişilərə de ki, *(başqalarının ayıb yerləri və yad qadının bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda)* gözlərini yumsunlar və ayıb yerlərini *(görünməkdən)* qorusunlar. Bu onlar üçün daha pakdır. Həqiqətən, Allah onların etdiklərindən xəbərdardır.

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ

- Mömin qadınlara de ki, *(başqalarının ayıb yerləri və yad kişinin bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda)* gözlərini yumsunlar və öz ayıb yerlərini *(üz və əllərindən başqa bədənlərinin hər yerini yadların görməsindən)* qorusunlar. Həmçinin öz zinət və bəzəklərini və onların yerlərini *(boyun, sinə, saç, biləklər, baldırlar və sairəni, naçarlıqdan öz-özlüyündə)* görünən *(üst paltarları, əl və üz kimi şeylər)* istisna olmaqla, üzə çıxarmasınlar.[1]

Bu ayələr insanı başa salır ki, həm kişilər, həm də qadınlar naməhrəmə baxmasınlar. Naməhrəmlə əlaqə saxlayıb, hər cür söhbət və çirkin işlər görənin qəlbində nuraniyyət olmaz. Naməhrəmlə əlaqə saxlayan insan gecə namazına müvəffəq ola bilməz. Özünü naməhrəmə göstərmək üçün bəzəyən şəxs elə güman etməsin ki, Allahın rəhməti ona nazil olacaq. Allahın naməhrəmlə müxtəlif münasibət yaradan insandan acığı gəlir. Hədislərdə yazılır ki, naməhrəm kişi ilə qadın əl-ələ görüşdükdə qiyamət günü əlləri bir-birinə yapışıq halda Peyğəmbərin(s) hüzuruna gəlib şəfaət istəyəcəklər. Həzrət Peyğəmbər(s) onlara belə buyuracaq: “Geri qayıdın, çünki mən bu əmələ icazə verməmişdim”.

Şəhvətin başlanğıcı baxışlardan başlandığı üçün insan mütləq gözlərini haram baxışlardan qorumalıdır. Belə olduqda Allah-təala Öz rəhmət və nuraniyyətini həmin şəxsə inayət edər.

قَالَ رَسُولُ اللهِ(ص): غَضُّوا اَبْصَارَكُم تَرون العَجَائِب

---

[1] Nur, 30,31.

- Gözlərinizi (haram baxışlardan) yumsanız, qəribəlikləri (bəsirət gözünüz açılar və başqalarının görmədiklərini) görərsiniz.

Böyük və şərafətli insanlara nəzər saldıqda görürük ki, belə hallardan keçdikləri üçün Allah-təala onların məqamlarını ucaltmışdır. Mərhum Ayətulla Şeyx Əbdün-nəbi Əraki böyük ariflərdən və alimlərdən biri idi. Mənim ustadım deyir: "Allah-təala ona yuxu yozmağı inayət etmişdi. O, yuxunu necə lazımdırsa yozmağı bacarırdı. Bir gün ona dedim: Allah belə bir məqamı kimə verirsə, həmin şəxs hansısa mərhələdən keçdiyinə görə bu məqama nail olur. Bəs həyatınızda hansı hadisəyə görə Allah bu qüdrəti sizə inayət edib? Ayətulla Əraki dedi: Bəli, gənc və subay vaxtlarımda bir hadisə oldu və ondan sonra Allah-təala mənə bunu lütf etdi. Tələbə olduğum zaman gecələrin birində hava çox soyuq idi. Evdə əyləşib dərslərimlə məşğul idim. Bircə otağım var idi. Bayırda bərk qar yağırdı. Birdən qapı döyüldü. Qapını açanda gördüm ki, gözəl bir qadın qapıda dayanıb. Nə istədiyini soruşduqda dedi: Mən yolu azmışam və qalmağa yerim də yoxdur. Gecənin bu vaxtında heyvanların qorxusundan küçədə qala bilmirəm. O qadına ürəyim yandı və evə gəlməyə icazə verdim. Qadın bir küncdə əyləşdi və mən də öz işlərimlə məşğul olmağa başladım. Gecədən bir az keçmişdi ki, şeytan məni yoldan çıxarmağa başladı. Elə bu anda öz-özümü danlayıb evdən bayıra çıxdım. Həyətdə bir hovuz var idi. Onun suyu ilə dəstəmaz alıb səhərə qədər ibadət etdim. Düz səhərə qədər evə girməyib soyuq havada Allahla minacat etdim və qəlbimdə olan həvəsi güclənməyə yol vermədim. Allaha yalvarırdım ki, İlahi, əgər Sən mənə kömək etməsən, şeytan məni yoldan çıxaracaq. Səhər açıldı, həmin qadını yola salıb Allaha

şükür səcdəsi edib dedim: İlahi, şükürlər olsun Sənə, məni günaha batmağa qoymadın. Ondan sonra Allah-təala mənə belə bir məqamı nəsib etdi”.

Ayətulla Əbdün-Nəbi Əraki özü deyir ki, ürəyimdən İmam Zamanı(ə.c) ziyarət etmək keçirdi. Çox təvəssül edib Həzrəti(ə.c) axtarmışdım. Bir gün şəhərdən kənara çıxmışdım. Çöldə təvəssül edib ibadət edirdim. Elə bu halda məni yuxu apardı. Yuxuda gördüm ki, cavan bir oğlan mənə yaxınlaşıb nəsə demək istəyirdi. Başımı qaldırmadan ona dedim ki, mən başqa haldayam, indi səninlə danışa bilmərəm. Həmin şəxs üzünü döndərib getdi. Birdən öz-özümə dedim ki, görəsən mənə yaxınlaşan bu cavan kimdir belə? Bəlkə axtardığım insan elə budur? Başımı qaldıranda gördüm ki, gözəl və nurani bir cavandır. Ayağa qalxıb onun ardınca getdim. Gördüm ki, evlərin birinin qapısını açıb içəri daxil oldu. Mən də ora yaxınlaşıb qapını döydüm. Qapını açdılar və mənə içəri daxil olmağa icazə verdilər. İçəri girəndə gördüm ki, həmin cavan əyləşib. Mən də ədəb-ərkanla gəlib onun yanında əyləşdim. Bir neçə sual soruşacaqdım. Amma onun camalı və əzəməti məni elə tutmuşdu ki, sualları soruşmaq yadımdan çıxmışdı. Bir az əyləşib ayağa qalxdım və icazə istəyib mürəxxəs oldum. Evdən çıxanda birdən yadıma düşdü ki, sualları soruşmamışam. Geri qayıdıb qapını bir də döydüm. Qapını açanda dedim ki, mən yenə də Həzrəti ziyarət etmək istəyirəm. Dedilər: Həzrət özü yoxdur, lakin naibi buradadır. Dedim: Eybi yox, suallarımı ondan soruşaram. Məni otağa apardılar. Baxıb gördüm ki, Ayətulla Seyid Əbülhəsən ağa əyləşib. Ayətulla Bürucerdidən qabaq mərhum Seyid Əbülhəsən ağa Nəcəfdə mərcəi-təqlid idi. Mən onu tanıyırdım. Amma onunla çox da açıq münasibətimiz yox idi. Orada

suallarımı verib cavablarını aldım. Elə bu anda yuxudan ayıldım və birbaşa Nəcəfdə Seyid Əbülhəsən ağanın evinə yollandım. Onun yanına girmək üçün mənə icazə verdilər. Otağa keçəndə Seyid Əbülhəsən ağa məni görüb gülümsədi. Onun bu təbəssümündən hiss etdim ki, mənim yuxumdan xəbərdardır. Yenə də suallarımı verdim və o da cavabları dedi. Cavabları deyib qurtardıqdan sonra mənə dedi: "Ağa Əraki, gördüyün şəxsin İmam Zaman(ə.c) olduğuna inandınmı?"

Odur ki, insanın qəlbi pak olsa, axtarıb həqiqəti tapar. Əgər insan günah etməsə, mələklər aləminə səyahət edər. Günah elə bir şeydir ki, insanın əl-qolunu bağlayır və həqiqətdən uzaqlaşdırır. Xüsusilə haram yeməklər və şəhvət demək olar ki, günahların önündə qərar tutur. Çox təəssüflər olsun ki, bir çox insanlar bu günahlara aludə olub, özlərini Allahdan uzaq etmişlər. Amma tarix boyu elə insanlar da vardır ki, Allah yolunda, İmamın(ə) eşqinin yolunda öz şəhvətlərindən, nəfslərindən, hətta canlarından belə keçməyi əsirgəməmişlər.

Həzrət Əlinin(ə) zamanında Müslüm adlı bir cavan var idi. O, Mədaindən idi. Hüzeyfə Mədinədə vali olarkən Müslüm Həzrət Əlinin(ə) dəstəsinə qoşuldu. İmanı çoxaldıqca Həzrət Əli(ə) ilə yaxın dost oldu. Cəməl müharibəsində Həzrət Əli(ə) Quranı əlində tutub öz qoşununa buyurdu: "Aranızda elə bir gənc varmı ki, bu Quranı aparıb Bəsrə camaatına göstərsin və onları Quranın hökmünə əməl etməyə dəvət etsin? Müslüm əlini qaldırıb dedi: Ya Əmirəlmöminin, mən bu işi görməyə hazıram. Həzrət Əli(ə) Quranı ona verib meydana yola saldıqdan sonra buyurdu: Müslüm elə bir cavandır ki, Allah onun qəlbini imanla doldurub nurani etmişdir. O, Allahın ziyarətinə gedəcək. (Şəhid olacaq.) Mən bu cavanı

imanına görə çox sevirəm. Bəsrə camaatı onu öldürdükdən sonra xeyir görməyəcək”.

Müslüm Quranı əlində tutub düşmən qoşununun qarşısında dayanıb uca səslə onlara dedi: Mən sizi Quranın hökmünə əməl etməyə dəvət edirəm. Bu müharibədən əl çəkin. Amma onlar Müslümün üstünə hücum çəkib sağ əlini kəsdilər. O, Quranı sol əlilə götürdü. Sonra vurub sol əlini də kəsdilər. Müslüm kəsilmiş qolları ilə Quranı götürüb sinəsinə sıxıb saxladı. Düşmənlər hücum edib onu tikə-tikə doğradı.

Müslüm kimi iman sahibi olmaq heç də asan iş deyil. Ümumiyyətlə, Allah yolunda canından keçməyi hər insan bacarmaz. Buna nail olmaq üçün insan gərək əvvəl şəhvətindən və nəfsani istəklərindən keçməyi bacarsın. Haram yeməklərdən çəkinməklə, şəhvani istəklərdən uzaqlaşmaqla insanın qəlbi nuraniyyət tapdıqca imanı da artar. Belə olduqda İmamın(ə) məhzərində lazım gələrsə bu imanı izhar edə bilər.

Beləliklə, bu bəhsimizdən – Quran ayələrindən, hədislərdən və qeyd olunan rəvayətlərdən belə nəticəyə gəlirik ki, imanla əməl bir-birinin yanında olmalıdır. İmansız əməl və əməlsiz imanla insan heç bir məqama nail ola bilməz. Əgər bir insan Allahın sevimli bəndəsi olmaq istəyirsə, imanla yanaşı mütləq əməli saleh olmalıdır.

***2007, 23 ramazan***

# ALLAHA YAXIN OLMAQ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلّهِ السَّلامُ عَلى رَسُولِ الله اَمِينِ اللهِ
عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ
عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ
الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ
التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ
الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. فَأَمَّا إِن
كَانَ مِنَ الْمُقَرَّبِينَ. فَرَوْحٌ وَرَيْحَانٌ وَجَنَّةُ نَعِيمٍ.

Qədr gecəsi elə bir gecədir ki, möminlər bu gecəni səhərə qədər oyaq qalıb Quranı qarşılayırlar. Həmçinin bu gecə oyaq qalmaqla və Quranı qarşılamaqla yanaşı, Allahla öz rabitə və əlaqələrini möhkəmləndirirlər. İnsan bu gecəni səhərə qədər oyaq qalıb ibadət etməklə Allaha nə qədər yaxın olub-olmamasını müəyyən edir. Çünki insanın fəzilət və qiyməti Allaha yaxın olub-olmamasından asılıdır. Hər insan Allaha nə qədər yaxındırsa, bir o qədər də qiyməti çox olacaq. Əksinə, insan Allahdan nə qədər uzaqdırsa, bir o qədər də qiymət və şərafəti azdır. Bütün peyğəmbərlər insanları Allaha yaxınlaşdırmaq üçün gəlmişlər. Yəni onların gəlişlərinin məqsədi budur ki, həm özlərini, həm də insanları Allaha yaxın etsinlər.

Allah-təala “Vaqiə” surəsində böyük bir hadisənin baş verəcəyi haqda geniş söhbət açır. Bu surə 96 ayədən ibarətdir. Surənin 83-85-ci ayələrində belə buyurulur:

فَلَوْلَا إِذَا بَلَغَتِ الْحُلْقُومَ وَأَنتُمْ حِينَئِذٍ تَنظُرُونَ وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنكُمْ وَلَكِن لَّا تُبْصِرُونَ

- Belə isə nə üçün canınız boğaza çatan zaman. Siz həmin halda (özünüzün və ya can verməkdə olanın vəziyyətinə) baxırsınız. Biz (və mələklərimiz) həmin can verən şəxsə sizdən daha yaxınıq, lakin siz görmürsünüz.

Sonra 88 və 89-cu ayələrdə Allaha yaxın olan insanların dünyalarını dəyişdiyi zaman nə hadisə baş verəcəyini bəyan edir.

فَأَمَّا إِن كَانَ مِنَ الْمُقَرَّبِينَ. فَرَوْحٌ وَرَيْحَانٌ وَجَنَّةُ نَعِيمٍ.

- Beləliklə, əgər (can verən həmin şəxs) (Allaha) yaxınlardan olsa, onda (onun üçün) asayiş, pak ruzi və nemət dolu cənnət vardır.

Belə insanlar üçün cənnətdə rahatlıq, asayiş olacaqdır. Elə bir rahatlıq ki, dünyada onun tayı-bərabəri olmayıb. Çünki dünya həyatının hamısı əziyyətdir. Hətta dünyanın keyf və ləzzətində də zəhmət vardır. Lakin axirətdə heç bir zəhmət olmayacaq. Hər kəs Allaha yaxındırsa, bütün bu nemətlər ona nəsib olacaq. Digər bir surədə Allaha yaxın insanlar və cənnətin nemətləri haqda belə bəyan edir:

إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ. عَلَى الْأَرَائِكِ يَنظُرُونَ. تَعْرِفُ فِي وُجُوهِهِمْ نَضْرَةَ النَّعِيمِ. يُسْقَوْنَ مِن رَّحِيقٍ مَّخْتُومٍ. خِتَامُهُ مِسْكٌ وَفِي ذَلِكَ

فَلْيَتَنَافَسِ الْمُتَنَافِسُونَ. وَمِزَاجُهُ مِن تَسْنِيمٍ. عَيْنًا يَشْرَبُ بِهَا الْمُقَرَّبُونَ

- Şübhəsiz, nurani, səmimi, möhtərəm insanlar, yaxşı əməl sahibləri bolluca nemət içindədirlər.

Zinətlənmiş fəxri kürsülər üzərində əyləşib (Cənnətin nemətlərinə və Haqqın camalına) tamaşa edərlər.

Sən onların üzlərində bolluca nemət sevinci və təravəti görərsən.

Onlara saf və xalis, möhürlənmiş şərabdan içirdilər.

Onun möhrü müşkdəndir və son qurtumları müşk ətri verər. Qoy yarışanlar bu nemətlər üçün yarışsınlar! (Dünyada xeyir əməllərdə bir – birini ötsünlər).

Və o şərabın qarışığı (yuxarıdan aşağıya axan) «təsnim» (çeşməsin)dəndir.

O, elə bir çeşmədir ki, ondan (Allah) dərgahına yaxın olanlar içərlər.[1]

Bütün bu ayələrdə sadalanan nemətlər yalnız Allahın yaxın bəndələrinə veriləcək. Allaha yaxın olan insanlara Müqərrəb deyilir. Bu bəndələr çox əzəmətli insanlardır. Hər kəs Allaha nə qədər çox yaxınlaşırsa, Allah da həmin şəxsi bir o qədər çox sevir. Həzrət Peyğəmbər(s) avam insanları başa salmaq üçün belə bir hədis buyurur:

يَقُولُ الله تَعَالى:

...مَن اِقْتَرَبَ إِلَيَّ شِبْرًا اِقْتَرَبْتُ إِليهِ ذِرَاعاً، وَمَن اِقْتَرَبَ إِلَيَّ ذِراعاً اِقْتَرَبْتُ إِلَيْهِ بَاعاً، وَمَن أَتانِي يَمْشِي أَتَيْتُهُ هَروَلَةً.

---

[1] Mutəffifin, 22-28.

- Allah-təala buyurur: Hər kəs Mənə sarı bir qarış gəlsə, mən ona sarı bir zira[1] yaxın gələrəm. Hər kəs mənə bir zira yaxınlaşsa, Mən ona bir ba'[2] yaxınlaşaram. Hər kəs mənə sarı yeriyə yeriyə gələrsə, Mən ona sarı qaça-qaça gələrəm.

Belə olduqda insan nə üçün Allahdan uzaq düşür? Nəyə görə Allaha sarı getmir? Allah-təala mələklərə buyurur: "İnsanlara deyin, nə üçün Mənə sarı gəlmək istəmirsiniz?"

## "Müqərrəb" sözünün mənası

"Müqərrəb" ərəb sözü olub, kökü "Qurb" sözünə qayıdır. "Qurb" - yaxın deməkdir. Onun əksi "Bud" - uzaq deməkdir. Bəzən yaxın və uzaq olmaq məkan cəhətindən hesab olunur. Məkan cəhətdən olan yaxınlığa Quranda belə işarə olunur. Misal üçün, müşriklər barədə nazil olmuş ayədə buyurulur:

فَلاَ يَقْرَبُواْ الْمَسْجِدَ الْحَرَامَ

- Məscidül-Hərama yaxınlaşmamalıdırlar.[3]

Bəzən yaxınlıq zaman baxımından işlənir. Quran belə buyurur:

أَلَيْسَ الصُّبْحُ بِقَرِيبٍ

- Məgər səhər yaxın deyilmi?![1]

---

[1] Zira- dirsəkdən barmaqların ucuna qədər olan məsafəyə deyilir.
[2] Ba' – İnsan qollarının ikisini də yana açdıqda, bir əlin barmaq uclarından digər əlin barmaq uclarına qədər olan məsafəyə deyilir.
[3] Tövbə,28.

Yaxınlıq bəzən nisbət və nəsəb cəhətdən hesab olunur. Buna Quranda belə işarə olunmuşdur:

وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ

- Və (əvvəlcə) yaxın qohumlarını qorxut və xəbərdarlıq et.[2]

Bəzən yaxın və uzaq olmaq sifətdə və xüsusiyyətdə işlənmişdir. Quranda bu yaxınlığa da işarə olunur. Kafirlər barədə Allah-təala buyurur:

هُمْ لِلْكُفْرِ يَوْمَئِذٍ أَقْرَبُ مِنْهُمْ لِلإِيمَانِ

- Onlar həmin gün imandansa küfrə daha yaxın idilər.[3]

Bu yaxınlıqların hər biri öz yerində işlənir və sözdə də ifadə olunur. Lakin Allahın yaxın olması bu yaxınlıqlara bənzəmir. Çünki bu yaxınlıq mənəvi yaxınlıqdan ibarətdir. Burada heç bir zaman, məkan, əsil nəsəb və sifət yaxınlıqlarından söhbət getmir. Allah-təala bu yaxınlıq barədə Quranda belə buyurur:

إِنَّ رَبِّي قَرِيبٌ مُّجِيبٌ

- Şübəsiz, mənim Rəbbim (Öz bəndələrinə) yaxın və (onların dualarını) qəbul edəndir.[4]

نَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

---

[1] Hud,81

[2] Şüəra,214.

[3] Ali-İmran,167

[4] Hud,61

- Biz ona şah damarından da yaxınıq.[1]

Burada qeyd etmək lazımdır ki, yaxın olmaq iki cürdür. Onlardan biri maddi, digəri isə mənəvi yaxınlıqdır. Maddi yaxınlıq odur ki, hər bir maddə digərinə yaxındırsa, o biri də ona yaxındır. Məsələn, əgər bir əşya digərinə yaxındırsa, həmin əşya da o birinə yaxın olmalıdır. Bir sözlə desək, maddi yaxınlıq ikitərəfli olur. Ola bilməz ki, bir əşya digərinə yaxın olsun, amma o biri yaxın olmasın. Lakin mənəvi yaxınlıq belə deyil. Mənəvi yaxınlıqda mümkündür ki, bir tərəf yaxın olsun, amma digər tərəf yaxın olmasın. Misal üçün, bir qıza aşiq olmuş oğlana nəzər salın. Oğlan bir qızı sevir və ürəyi həmişə onun yanındadır. Lakin qızın bu sevgidən xəbəri yoxdur. Deməli, oğlan mənəvi cəhətdən qıza yaxındır, lakin qız ondan uzaqdadır. Yəni qızın heç bu məsələdən xəbəri yoxdur. Mənəvi yaxınlıq maddi yaxınlıq kimi deyil. Allahın da insanlara yaxın olması mənəvi yaxınlıqdır. Odur ki, Allah-təala buyurur ki, Mən sizə yaxınam, amma siz Məndən uzaq gəzirsiniz. Sizi Mən yaratmışam, sizi sevirəm lakin siz Məndən uzaqlaşırsınız.

İnsan Allahın ona necə yaxın olduğunu görə bilmir. Lakin Allah-təala “Vaqiə” surəsinin 85-ci ayəsində insana yaxın olması barədə belə buyurur:

وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنكُمْ وَلَكِن لَّا تُبْصِرُونَ

- Biz (və mələklərimiz) həmin can verən şəxsə sizdən daha yaxınıq, lakin siz görmürsünüz.

Bəqərə surəsinin 186-ci ayəsində belə buyurur:

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ

[1] Qaf,16

- Mənim bəndələrim səndən Mənim barəmdə soruşanda (de ki,) Mən həqiqətən, (hamıya) yaxınam.

“Fussilət” surəsinin 44-cü ayəsində Allahdan uzaq gəzən insanlar barədə belə buyurur:

أُوْلَئِكَ يُنَادَوْنَ مِن مَّكَانٍ بَعِيدٍ

...Onlar (Allahı) uzaq bir yerdən çağırırlar.

## Təkvini və ixtiyari hərəkət

Bəhsimizdən müəyyən bir nəticəyə gəlmək üçün burada bir mətləbi də nəzərinizə yetirirəm. Yuxarıda yaxınlığın ümumi mənasının iki cür olduğunu ərz etdim. Lakin Allaha yaxın olmağın özü də iki növdür. Bu yaxınlığın biri odur ki, varlıq aləminin ixtiyarsız hərəkətdir ki, elmi terminlərdə buna təkvini yaxınlıq deyilir. Yəni bütün yaradılışın hamısı istər-istəməz qeyri-iradi olaraq Allaha doğru hərəkətdədir. Bu barədə Quranda “Şura” surəsinin axırıncı ayəsində belə buyurulur:

أَلَا إِلَى اللَّهِ تَصِيرُ الأمُورُ

- Bil! (Dünyanın və bəndələrin) bütün işləri Allaha tərəf (hərəkət edir) axır.

Bütün aləm və yaradılış ixtiyarsız olaraq Allaha sarı hərəkət edir və sonu orada qurtaracaqdır. Göyün bütün cisimlərinin hər biri öz oxu ətrafında hərəkət etməklə yanaşı, digər cisimlərin ətrafında da hərəkət edir. Məsələn Yer kürəsi öz oxu ətrafında hərəkət etməklə yanaşı, bütün kürələrlə bərabər Günəşin ətrafında da hərəkət edir. Yerin öz oxu ətrafında hərəkət etməsi nəticəsində gecə və gündüz yaranır. Yerin Günəşin ətrafına hərəkət etməsi isə bir il ərzində baş verir və bu hərəkət nəticəsində də fəsillər

meydana gəlir. Beləliklə, Yer kürəsi həm öz oxu ətrafında, həm digər kürələrlə birgə Günəşin ətrafında hərəkət etməklə yanaşı, bütün bu qalaktikanın hamısı bir tərəfdən gəlib digər istiqamətə doğru hərəkət edir. Heç kəsə məlum deyil ki, bütün bu göy sistemi haradan gəlib, hara hərəkət edir.

Rəhmətlik alimlərdən biri göy cisimlərinin hərəkətini arı pətəyinə bənzədərək belə demişdir: “Təsəvvür edin ki, bir arı pətəyini arabanın üstünə qoyub aparırsınız. Həmin pətəyin arıları baldan yeyib öz başlarına hərəkət edirlər. Eyni halda digər arılarla birgə öz pətəklərinin ətrafına hərəkət edirlər. Bütün bunlarla birgə həm arılar, həm də pətək araba ilə birgə hərəkət edir. Arıların araba ilə birgə, eyni halda, pətəyin ətrafında, həmçinin öz şanlarının ətrafında hərəkət etdikləri kimi, Yer kürəsi də həm öz oxu ətrafında, həm digər kürələrlə birgə Günəşin ətrafında, həm də bütün qalaktikanın hərəkəti ilə birgə hərəkət edir. Buna görə də Yer kürəsində hər nə varsa hamısı ixtiyarsız olaraq hərəkətdədir. Yer kürəsi böyük olduğundan insan onun bu hərəkətini hiss etmir. Lakin həm yerin ozü, həm yerdə olan hər nə varsa hamısı hərəkətdədir. “Nəml” surəsinin 88-ci ayəsində belə buyurulur:

وَتَرَى الْجِبَالَ تَحْسَبُهَا جَامِدَةً وَهِيَ تَمُرُّ مَرَّ السَّحَابِ

- Dağları görüb, onları hərəkətsiz və donmuş zənn edərsən. Halbuki onlar buludun keçdiyi kimi hərəkət edərlər.

İslamdan öncə xristianlıq aləmində hər kəs yerin hərəkət etməsini dilinə gətirsəydi, ağır işgəncələrə məruz qalırdı. Çünki Ptolemey Yer kürəsinin sabit və hərəkətsiz olması barədə nəzəriyyə irəli sürmüşdü və onun bu fikri o zamanlar bir qanun kimi qəbul edilmişdi. Bir sıra alimlər

isə bu fikrin əleyhinə öz nəzəriyyələrini irəli sürdülər. Lakin həmin alimlərə qarşı pis rəftar etdilər. Hər hansı alim Yer kürəsinin hərəkətdə olması barədə nəzəriyyəsini irəli sürürdüsə ağır işgəncələrə məruz qalırdı. Bruney adlı bir alim Yer kürəsinin hərəkəti barədə nəzəriyyəsini ortaya qoyduqda onu öldürüb yandırdılar. Qaliley də Yer kürəsinin hərəkəti barədə fikir irəli sürmüşdü. Lakin odda yanacağından, cahil insanların və Ptolemey kimi cahil insanların qorxusundan tövbə etdi. Tövbəsinin əvvəlində belə bir cümlə yazmışdı: Mən etiraf edirəm ki, Yer kürəsi hərəkət etmir. Tövbə etməyinə baxmayaraq, o, öz ürəyində yəqin bilirdi ki, Yer kürəsi hərəkət edir.

Allah-təala "İnşiqaq" surəsinin 6-cı ayəsində belə buyurur:

يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَى رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ

- Ey insan, şübhəsiz, sən öz Rəbbinə doğru böyük bir səylə (yaradılışla və təbii yol ilə) çalışıb çabalayırsan. Beləliklə, sən Ona qovuşacaqsan.

İnsan özündən asılı olmayaraq, ixtiyarsız halda hərəkət edir. Dünyaya gəldiyi gündən hər dəqiqə keçdikcə həmin gündən uzaqlaşır və dünyadan gedəcəyi günə doğru hərəkət edir. Sanki bütün bu aləm bir gəminin içində hərəkət edir. Hər bir məxluqun hərəkəti var. Günəşin özü nur saçdıqca da hərəkət edir. Alimlər sübut etmişlər ki, Günəşin çəkisi hər gün azalır. Amma bütün bu hərəkət cəbri hərəkətdir. Cəbr odur ki, istər-istəməz məcbur olaraq hərəkət etməkdir. İnsan istər-istəməz dünyaya gəlir, istər istəməz böyüyür, qocalır və istər-istəməz də dünyadan gedir. İnsan bu hərəkəti məcbur olaraq qəbul edir. Çünki bu hərəkət onun özündən asılı olan bir iş deyil. Əvvəl başında bir neçə tük ağarır, sonra bütün saç-saqqalı

ağarmağa başlayır. Cavan vaxtında bədəni güclü və qüvvətli idi. Lakin qocaldıqca həmin güc-qüvvət yavaş-yavaş azalır. Beləliklə, bu insanın təkvini hərəkətidir.

İnsanın ikinci hərəkəti isə ixtiyari hərəkətdir. Həm təkvini, həm də ixtiyari hərəkətin hər ikisində insan Allahla görüşüb Ona qovuşacaq. Lakin bu görüş fərqli görüş olacaq. Ariflər belə buyururlar: "Təkvini hərəkətdə qiyamət günü insan Allahın Cəlaliyyə sifətləri ilə görüşəcək. Lakin ixtiyari hərəkətdə Allahın Cəmaliyyə sifətləri ilə görüşəcək. Yəni təkvini hərəkət insanın özündən asılı olmayan bir hərəkətdir və buna görə insana cənnəti-nəim (bolluca nemətləri olan cənnət) verilmir. Bu hərəkət hamıya aiddir və insan istər-istəməz Allahın məhzərinə qovuşacaq. Cənnəti-nəimi insan iradə edib qazanmalıdır. Əgər insan iradə edib öz ixiyarı ilə Allaha yaxınlaşarsa, bu yaxınlığın adına "Qurb" (Allaha yaxınlıq) deyilir. Bu yaxınlığın nəticəsində insan yaxın (əziz) bəndə olur. Həmin bu yaxın insanlara Allah-təala buyurur:

عَيْنًا يَشْرَبُ بِهَا الْمُقَرَّبُونَ

(Cənnətdə) O elə bir çeşmədir ki, ondan (Allah) dərgahına yaxın olanlar içərlər.

Həzrət İbrahim(ə) Allahın yaxın (əziz) bəndələrindən biridir. "Saffat" surəsinin 99-cu ayəsində belə buyurur:

وَقَالَ إِنِّي ذَاهِبٌ إِلَى رَبِّي

- (İbrahim) dedi: Mən mütləq öz Rəbbimə tərəf gedirəm.

Peyğəmbərlər insanları Allaha öz iradələri ilə yaxınlaşmağı başa salmaq üçün göndərilmişlər. Hər kəs iradə edib Allaha yaxınlaşsa, o, bəyənilmiş və yaxşı

insandır. Allahın rəhməti həmin insanın halına şamil olacaq.

"Əraf" surəsinin 56-cı ayəsində buyurulur:

إِنَّ رَحْمَتَ اللّهِ قَرِيبٌ مِّنَ الْمُحْسِنِينَ

- Həqiqətən, Allahın rəhməti yaxşılara və yaxşılıq edənlərə yaxındır.

# İnsanı Allaha yaxın edən səbəblər

Yuxarıda Allaha yaxın olmağın mənaları ilə tanış olduq. Lakin əsas bəhsimiz budur ki, hansı amillər insanın Allaha yaxın olmasına səbəb olur? Quran bu sualın cavabnı açıqlayır və insanı yaxınlaşdıran əməlləri bir-bir bəyan edir.

**1. Qədr gecəsi**

İnsanı Allaha yaxın edən amillərdən biri Qədr gecəsidir. Qədr gecəsi həm insanın Allaha yaxınlaşmasına səbəb olur, həm də insan Qədr gecəsində Allaha yaxınlaşa bilir. Bir gün Musa Peyğəmbər(ə) Allaha belə ərz etdi: "İlahi, Sənə yaxınlaşmaq istəyirəm. Allah-təala buyurdu: Qədr gecəsi oyaq qalıb aşiqanə səcdə və ibadət edənlər Mənə yaxınlaşa bilər. Musa(ə) ərz etdi: İlahi, Sənin rizayətini qazanmaq istəyirəm. Allah-təala buyurdu: Mənim rizayətimi qazanmaq istəyən kəs Qədr gecəsində (ən azından) iki rükət namaz qılsın. Musa(ə) ərz etdi: İlahi, cəhənnəm odundan nicat tapmaq istəyirəm. Allah-təala buyurdu: Hər kəs cəhənnəm odundan nicat tapmaq istəyirsə, Qədr gecəsi tövbə edib günahlarını etiraf etsin."

**2.Tövbə və peşmançılıq**

İnsan etdikləri günahlarına görə Allaha yalvarıb tövbə etməlidir. Hər nə qədər günah etmiş olsa da, Allahın rəhmətindən məyus olmamalıdır. Başa düşməlidir ki, Allah onun bütün günahlarını bağışlayar. Bu barədə Quranda belə buyurulur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ  إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

وَأَنِيبُوا إِلَى رَبِّكُمْ وَأَسْلِمُوا لَهُ مِن قَبْلِ أَن يَأْتِيَكُمُ الْعَذَابُ ثُمَّ لَا تُنصَرُونَ

وَاتَّبِعُوا أَحْسَنَ مَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُم مِّن قَبْلِ أَن يَأْتِيَكُمُ العَذَابُ بَغْتَةً وَأَنتُمْ لَا تَشْعُرُونَ

"[Ya Peyğəmbər! Mənim adımdan qullarıma] de: Ey mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddini aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir."

"Və Sizə (qəfil dünya və ya axirət) əzab(ı) gəlməmişdən və daha sonraköməksiz qalmamışdan qabaq Rəbbinizə tərəf dönün və Ona təslim olun".

"Özünüzün də xəbəriniz olmadan qəfil əzab sizə yetişməmişdən öncə Rəbbiniz tərəfindən sizə nazil edilən ən gözəl şeylərə (əqidə və əməl barəsindəki vacibata və mənəvi fəzilətlərə) tabe olun". [1]

Buna görə də heç kəs Allahın rəhmətindən naümid olmamalıdır. Allah-təala yaratdığı bəndələrinə qarşı çox rəhmli və mehribandır. Hədislərin birində belə buyurulur: "Qiyamət günü bir şəxsi cəhənnəmə atacaqlar. O, atəşin şölələri altında ümidini Allahdan kəsməyərək nalə edib, Ya Hənnan, Ya Mənnan deyərək Allahı səsləyir. Allah-təala Cəbrayıla(ə) əmr verir ki, onu cəhənnəmdən çıxarıb qiyamətin səhnəsinə gətirsin. Onu qiyamət səhnəsinə gətirib soruşurlar: Cəhənnəmdə yerin necə idi? Deyər: Çox pis. Amma mən yenə də Allahın rəhmətindən ümidimi kəsməmişdim. Onun adlarını çəkib fəryad

---

[1] Zümər, 53.

edirdim. Əmr gəlir ki, onu yenidən cəhənnəmə aparsınlar. Öz yerinə gedə-gedə tez-tez dönüb arxaya baxır. Soruşurlar: Nə üçün tez-tez arxaya baxırsan? Heç inanmaq istəmirəm ki, Allah-təala məni yenidən ora aparmağa razı olar. Çünki ümidimi Ondan kəsməmişəm. Ona görə də tez-tez dönüb arxaya baxıram ki, bəlkə məni qaytardı. Elə bu an Allah mələklərə buyurur: Mənim mələklərim, o, ümidini məndən kəsməyib. Onu cənnətə aparın".

Odur ki, insan hər nə qədər günah etmişsə, Allahın rəhmətindən əlini üzməməlidir. Allah-təala heç bir bəndəni naümid yola salmaz. Hər kəs sidq ürəklə Ona sarı əl uzatsa, əlini boş qartarmaz. Firon ən pis insanlardan biri idi. Belə bir insan idi ki, allahlıq iddiası edirdi. Hər kəs onun allahlığını qəbul etməsəydi, cəzalandırıb öldürürdü. Bir gün insanlar yığışıb onun yanına gələrək dedilər: "Nil çayı quruyub. Səndən xahiş edirik ki, Nilə su gətirəsən. Firon dedi: Mən sizin əməlinizdən razı olmadığım üçün çaya su gətirməyəcəyəm. Camaat bir neçə dəfə onun yanına getdi, lakin o, çaya su gətirmək qüdrəti olmadığını bildiyi üçün hər dəfə bir bəhanə ilə camaatı geri qaytarırdı. İş o yerə çatdı ki, heyvanlar susuzluqdan tələf olurdu. Camaat yığışıb bir də onun yanına gəlib dedilər: Artıq heyvanlarımız, əkin-biçinlərimiz susuzluqdan tələf olur. Əmr ver, çaya su gəlsin. Firon çarəsiz qalıb dedi: Siz gedin, mən əmr edərəm, çaya su gəlsin. Hamı dağılışıb getdi. Gecənin bir aləmi Firon evdən çıxıb xəlvət bir yerə getdi. Üzünü torpağa qoyub dedi: Ey Allah, mən bilirəm ki, Sən xaliqsən. Amma mən artıq bu yolu tutub getmişəm. Amma mənim xahişimi yerinə yetirməyinə ümidsiz deyiləm. Məni yaradan Sənsən. Bu camaatın qarşısında məni sındırıb xar etmə. Allah-təala buyurur: Mən suyun çaya gəlməsinə icazə verdim. Ona görə ki,

əgər kafir insanların da belə yaxşı əməlləri olsa, Mən onları savabsız qoymaram. Amma onların savablarını bu dünyada verəcəyəm. Qoymaram onların savabı axirətə qalsın. Suyun gəlməsi Fironun dünyada olan savabıdır. Qiyamətdə heç bir savabı və əcri olmayacaq".

Allah-təala o qədər mehriban, rəhmlidir ki, hətta Firon kimi bir kafir Ondan diləyir və istədiyini alır. Mömin bəndələr ehtiyaclarının ödənilməsini istəsələr və günahlarının bağışlanmasını diləsələr Allah inayət etməzmi?

Allah-təala hər an bəndəsini qəbul edir və bağışlayır. Xüsusilə Qədr gecəsi rəhmət qapılarını bütün bəndələrinin üzünə açır. Hər kəs bu qapılara üz tutsa, Allah onu qəbul edər. Qədr gecəsi elə bir gecədir ki, insanlar bu gecə Allaha yaxınlaşırlar. Hər nə qədər günah etmişsələr də, ayağının altına atıb peşman halda tövbə edərək Allaha sarı üz tuturlar.

### 3. Həzrət Əlinin(ə) vilayət və məhəbbəti

Xüsusilə möminlərin qəlbində Həzrət Əlinin(ə) vilayət və məhəbbəti onların Allaha yaxın olmalarına səbəb olur. Hər kəs Həzrətin(ə) vilayətini qəbul edib ona məhəbbət bəsləyirsə, Allaha yaxınlaşır.

Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala üç dəstə insana cənnətdə ədn məqamını vəd edib: peyğəmbərlərə, siddiqlərə (doğru insanlara) və şəhidlərə. Sonra Peyğəmbər(s) belə buyurur:

مَنْ سَرَّهُ اَنْ يَحْيا حَياتِی و يَمُوتُ مَمَاتِی ويَسكنَ جَنَّةَ عَدْنٍ... فَلِيُوالِ عَلِيَّ ابنَ اَبِی طَالِب وَ ذُرِّيَتَهُ مِن بَعْدِی

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs mənim kimi yaşamaq, mənim kimi dünyadan getmək və Ədni-cənnətdə sakin olmaq istəyirsə, məndən sonra Əlini sevib vilayətini qəbul etməli və məndən sonra gələn (Əlinin övladlarından olan) imamları sevib vilayətlərini qəbul etməlidir.

Bu hədisi bizə İslamın əziz Peyğəmbəri(s) nəql edir. Peyğəmbər(s) ki, Allah-təala onun barəsində bizə belə əmr edir:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

- Bizim Rəsulumuz sizə nə verirsə (hökmlər, maarif və malları) götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun ki, Allah şiddətli cəza verəndir.[1]

Buna görə də hər bir müsəlman Peyğəmbərin(s) sözlərini qəbul edib itaət etməlidir. Çünki onun sözləri Allahın sözləridir. Həzrət Peyğəmbər(s) Qədir- Xumda xütbəni söylədikdən sonra camaata buyurdu:

فَقُولُوا بِأَجْمَعِكُمْ: «بِأَنّا سامِعُونَ مُطيعُونَ راضُونَ لِما بَلَّغْتَ عَنْ رَبِّنا وَرَبِّكَ في أَمْرِ إِمامِنا عَلِي أَميرِالْمُؤْمِنينَ وَ مَنْ وُلِدَ مِنْ صُلْبِهِ مِنَ الْأَئِمَّةِ. نُبايِعُكَ عَلي ذالِكَ بِقُلوُبِنا وَأَنْفُسِنا وَأَلْسِنَتِنا وَأَيْدينا.

- Hamılıqla deyin: (Ey Peyğəmbər,) Biz Allahımız və sənin Allahın tərəfindən imamımız əmirəlmöminin Əlinin və onun sülbündən olan imamların imaməti haqda çatdırdığın sözləri eşitdik, itaət edirik və buyurduğun sözlərə razıyıq. Biz hamılıqla bu məsələdə qəlbimiz, canımız, dilimiz və əllərimizlə sənə beyət edirik.

---

[1] Həşr,7.

Həzrət Əlinin(ə) vilayətinin insanın həm dünyası, həm də axirəti üçün çox faydaları vardır və nümunə üçün birini ərz edirəm.

قَالَ رَسُولُ اللهِ(ص): خَلَقَ اللهُ مِن نُورِ وَجْهَ عَلِيٍ بن اَبِی طَالِب سَبْعِينَ اَلْف مَلَكٍ يَسْتَغْفِرُونَ لَهُ وَ لِمُحِبِّيهِ اِلی يَومِ القِيَامَة

Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala Əlinin üzünün nurundan yetmiş min mələk xəlq etmişdir. O mələklər qiyamətə qədər Əli və onu sevənlər üçün tövbə edərlər.

Allah-təala dünyada Həzrət Əlinin(ə) ziyarətini, axirətdə isə şəfaətini bizə nəsib etsin. Inşallah.

## Allaha yaxın insanların sifət və xüsusiyyətləri İnsanı Allaha yaxınlaşdıran əməllər

Allaha yaxın olmaq üçün müəyyən əməllər vardır ki, insan yalnız həmin əməllər vasitəsilə Onun yaxın bəndəsi ola bilər. Quran və hədislərə əsasən təqribən iyirmi əməl vardır ki, hər kəs bu əməlləri yerinə yetirsə, Allaha yaxın olar. Həmin əməllərdən dördünü əziz möminlərin nəzərinə çatdırmaq istəyirəm:

### 1. Allaha, Peyğəmbərə(s) və imamlara itaət etmək

Məhəmməd ibn Fuzeyl deyir ki, bir gün Həzrət İmam Baqirdən(ə) soruşdum: “İnsanı Allaha yaxınlaşdıran əməl hansıdır? Həzrət(ə) belə cavab verdi: İnsanı Allaha yaxınlaşdıran ən fəzilətli əməl Allaha, Onun Rəsuluna və əmr sahiblərinə (Peyğəmbərin(s) Allah tərəfindən təyin olunmuş canişininə) itaət etməkdir”.

Allah-təala bu məsələni Quranda “Nisa” surəsinin 59-cu ayəsində belə bəyan edir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"

Bir qrup müsəlman Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, Allaha və sənə itaət etməyi bilirik. Bəs əmr sahibləri kimlərdir ki, Allah bizə onlara itaət etməyi vacib edib?"

Həzrət Peyğəmbər(s) onlara 12 imamın adını saydı: İmam Əli(ə), İmam Həsən(ə), İmam Hüseyn(ə), İmam Səccad(ə), İmam Baqir(ə), İmam Sadiq(ə), İmam Musa ibn Cəfər(ə), İmam Rza(ə), İmam Cavad(ə), İmam Hadi(ə), İmam Həsən Əskəri(ə), İmam Zaman(ə.c).

Kimsə belə düşünməməlidir ki, Həzrət Əli(ə) bir səhabə olaraq namaz qılıb, oruc tutub və cənnətə gedib. Biz də namaz qılıb, oruc tutub cənnətə gedə bilərik. Bizim onunla nə işimiz var?

Əsl həqiqətdə bizim Həzrət Əli (ə)və digər imamlarla heç bir işimiz yoxdur. Biz onları heç görməmişik. Lakin onlara məhəbbət bəsləməyi Allah bizə vacib etmişdir. "Şura" surəsinin 23-cü ayəsində belə buyurur:

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

"De: Mən sizdən bunun (peyğəmbərliyimin) müqabilində heç bir şey istəmirəm. Lakin mənə yaxşılıq etmək istəyirsinizsə, onda Əhli-beytimə məhəbbət bəsləyin."

Əhməd ibn Hənbəl "Fəzilətüs-səhabə" adlı kitabında bu barədə belə bir rəvayət nəql etmişdir:

لَمّا نَزَلَتْ قُل لَّا أَسْأَلُكُمْ ...

قَالُوا يَا رَسُولُ اللهِ مَنْ قَرابَتُكَ؟ مَنْ هَؤُلاءِ الَّذِينَ وَجَبَتْ عَلَيْنا مَوَدَّتُهُمْ؟

قَالَ رَسُولُ اللهِ(ص): عَلِيٌ وَ فَاطِمَةُ وَ أَبْنَاهُمَا عَلَيْهِمُ السَّلامُ قَالَهَا ثَلاثًا

"Şura surəsinin 23-cü ayəsi nazil olanda müsəlmanlar Həzrət Peyğəmbərin(s) yanına gəlib dedilər: Ya Rəsulallah, sənin yaxınların kimlərdir ki, Allah-təala onlara məhəbbət bəsləməyi bizlərə vacib etdi? Peyğəmbər(s) onlara üç dəfə bu sözü buyurdu: "Əli(ə), Fatimə(ə) və onlardan dünyaya gələn iki övlad (Həsən(ə) və Hüseyn(ə)".

Deməli, Peyğəmbərin(s) Əhli-beytinə məhəbbət bəsləmək bütün müsəlmanlara vacibdir. Bu barədə minlərlə kitab yazılmışdır. Heç bir kitabda Əlinin(ə) Peyğəmbərin(s) Əhli-beytindən olması inkar olunmur. Hamı yekdilliklə qəbul edir ki, Əli(ə) Peyğəmbərin(s) Əhli-beytindəndir. Həmçinin Xanım Fatimeyi Zəhra(s.ə), Həsən(ə) və Hüseyn(ə) Peyğəmbərin(s) Əhli-beytidir. Allah- təala onların məhəbbətini bizə vacib edib. Onları sevib məhəbbət bəsləmək bir məsələ, ən mühüm olanı onlara itaət etməkdir. Yəni onlara həm məhəbbət bəsləmək, həm də itaət etmək lazımdır. Çünki Allah-təala onlara məhəbbət bəsləyib, itaət etməyi bizə vacib buyurmuşdur.

Fəxri Razi əhli-sünnənin böyük təfsirçilərindən biridir. O, belə yazır: "O kəs ki, Allah onun itaətini vacib buyurub, həmin şəxs mütləq məsum olmalıdır. Qeyri məsum insandan əmr sahibi olmaz. Çünki əgər həmin şəxs səhvə yol verən insan olsa, deməli, mənası belə çıxır ki,

Allah onun səhvlərini də bizə vacib edib. Heç vaxt ola bilməz ki, Allah-təala bir tərəfdən insanı hansısa günahdan çəkindirsin, digər tərəfdən də həmin günahı insana vacib etmiş olsun. Bu elə bir məsələdir ki, insan öz ağlı ilə də bunu başa düşə bilər”.

Əbu Bəkr ibn Mömin əhli-sünnənin tanınmış və böyük bir alimidir. O, "Etiqad" adlı kitabında İbn Abbasdan “Nisa” surəsinin 59-cu ayəsinin Əli(ə) barədə nazil olduğunu belə rəvayət edir: “Həzrət Peyğəmbər(s) Təbuk döyüşündə Əlini(ə) Mədinədə öz yerinə təyin edərək döyüşə yola düşdü. Həzrət Əli(ə) dedi: “Ya Rəsulallah, niyə məni şəhərdə qadın və uşaqların yanında qoyursan, lakin başqalarını özünlə döyüşə aparırsan?” Həzrət Peyğəmbər(s) buyurdu: “Ya Əli, Musa Peyğəmbər(ə) qardaşı Harunu öz yerinə şəhərdə qoyub gedərdi, mən də səni öz yerimə təyin edib gedirəm. Ya Əli, sən mənim yerimə Mədinədə qal, mənim işlərimi yerinə yetir və ümməti islah et.” Sonra Peyğəmbər(s) “Nisa” surəsinin 59-cu ayəsini oxudu: “Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!” Peyğəmbər(s) ayəni oxuduqdan sonra buyurdu: “Ya Əli, əmr sahibi sənsən.”

Digər bir rəvayətdə Cabir belə nəql edir: “Bir gün İmam Baqir(ə) möminlərin xüsusiyyət və sifətləri barədə bizə belə buyurdu:

فَوَاللهِ مَا شِيعتُنَا إِلاَّ مَن اتَّقَى اللهَ وَأَطاعَه، وَماَ كَانُوا يُعرَفُون إِلاّ بِالتَّواضُع وَالتخشُّع وَأَداءَ الأَمَانَة وَكِثرة ذِكر الله وَالصَّوم وَالصَّلاة وَالبرِّ بِالوَالِدين وَالتعهُّد لِلجِيران مِن الفُقَراء وَأَهل المسكنة والغارمين وَالأَيتَام وَصِدق الحَدِيث...

- And olsun Allaha, bizim şiələrimiz təqvalı və itaətkar, təvazökar, ibadətkar və əmanətdardırlar. Allaha çox zikr edərlər. Namazlarında və oruclarında diqqətli, valideynə qarşı mehriban və xeyirxah olarlar. Qonşularla xoş rəftar edər, fəqirlərə əl tutar və yetimlərin qayğısına qalarlar. Danışıqları düzgün və doğru olar (heç vaxt yalan danışmazlar)...

قَالَ جَابِر: يَا ابنَ رَسُول الله! مَا نَعْرِفُ اليومَ أَحداً بِهذهِ الصِّفَة!

- Cabir deyir: "Həzrət(ə) möminlərin xüsusiyyətlərini sadaladıqdan sonra dedim: Ağa, bütün bu sifətlərə və xüsusiyyətlərə malik olan bir şəxsi tanımırıq (belə insanlar çox az tapılar)".

فقال لي: يا جابر! لا تَذهَبَنَّ بِك الْمَذاهِب حَسْبُ الرَّجل أَن يَقُولَ أُحِبُّ عَلياً وَأَتولاّهُ, ثُمَّ لا يَكُون مَعَ ذَالِك فعالاً؟ فَلو قَال إِنِّي أُحِبُّ رَسُول الله (صَلَّى اللهُ عَلَيه وَآلِهِ) فَرَسُول الله خيرٌ مِن عليٍّ(ع) ثُمَّ لاَ يَتَّبِعُ سيرَته وَلا يعمل بِسُنَّتِهِ مَا نَفعَه حُبُّه إِيّاه شيئاً، فَاتَّقُوا الله وَاعمَلُوا لِمَا عِندَ الله لَيْسَ بينَ الله وَبينَ أَحَدٍ قَرابةٌ، أَحبُّ العِباد إِلى الله عَزّوَجَلّ أتقاهم وَأَعْمَلُهُم بِطاعَتِه. يا جابر! وَالله مَا يَتقرَّبُ إِلَى الله تَعالى إِلاّ بِالطّاعَة...

Həzrət(ə) mənə buyurdu: "Ey Cabir, fikrin başqa məzhəblərə getməsin. Heç kəs elə düşünməsin ki, (dinin hökmlərinə) əməl etmədən Əlini(ə) sevib, vilayətini qəbul etmək insana kifayət edər. (Yəni Əlini(ə) sevib əməl etməyən insanlar elə güman etməsinlər ki, qiyamət günü həmin şəxsdən əməl tələb olunmayacaq.) Ey Cabir, hər

kəs "Mən Peyğəmbəri(s) sevirəm" (halbuki Peyğəmbər(s) Əlidən(ə) daha fəzilətlidir) desə və onun buyurduqlarına əməl etməsə, dildə sevirəm deməsinin həmin şəxsə heç bir faydası olmayacaq. Təqvalı olun və Allahın məhzərində əcr qazanmaq üçün əməl edin. Çünki əməlsiz məhəbbət heç bir dərdə yaramır. Allahın heç bir kəslə qohumluq münasibəti yoxdur. Allah yanında ən sevimli bəndə təqvalı və Ona itaətkar olan bəndədir. Allah yanında ən yaxın insan Allaha itaət edən kəsdir".

Həzrət Peyğəmbər(s) buyurur:

مَا تَقَرَّبَ إِلَيَّ عَبدٌ بِشيءٍ أَحَبَّ إِلَيَّ مِمَّا افْتَرَضتُ عَلَيهِ

- Allah-təala buyurur: "Mənə hamıdan daha yaxın bəndə Mənim vacib etdiyim əməlləri yerinə yetirən kəsdir".

Deməli, Allahın yaxın bəndəsinin birinci əlamət və xüsusiyyəti budur ki, Allaha, Peyğəmbərə(s) və məsum imamlara itaət etsin.

**2. Günahdan çəkinmək**

İnsanı Allaha yaxın edən əməllərdən biri günahlardan çəkinməkdir. İnsan nə qədər günah edirsə, bir o qədər də Allahdan uzaqlaşır. İnsanı bədbəxt edən ən böyük əməl günahdır. Günah elə bir şeydir ki, insanın əl-qolunu bağlayıb yaxşı əməllərdən uzaqlaşdırır. Hər kəs tövbə edib bir daha günah etməsə, Allah həmin şəxsin düasını və ibadətlərini qəbul edər. Mərhum Ayətulla Şahabadi böyük alimlərdən və ariflərdən biri idi. Rəhmətlik İmam Xomeyni onun şagirdi olmuşdu. O deyir: "Mən yeddi il Ayətulla Şahabadinin yanında xüsusi dərs almışdım. Əgər yetmiş il də dərs desəydi, yenə də onun elmindən faydalanardım. Çünki hər dəfə dərs dedikdə yeni

söz deyərdi. O, bizə xüsusi bir namaz öyrədib demişdi ki, hər kəs bu namazı qıldıqdan sonra Allahdan nə istəsə, Allah inayət edər. Çünki insanın dualarının qarşısını kəsən ən böyük amil günahdır. Bu namaz Cəfər Təyyar namazı kimi bir namazdır. Lakin bu namaz iki rükətdən ibarətdir ki, namazda yüz əlli dəfə tövbə edilir. İnsan bu qədər tövbə etdikdə (günahlarının bağışlanmasını dilədikdə) ola bilsin ki, Allah həmin şəxsin günahlarını bağışlasın. Buna görə də həmin namazı qılıb qurtardıqdan sonra dua edərkən dualar yerinə yetirilir.

Günah elə bir şeydir ki, insanı Allaha yaxın olmağa qoymur. Allaha yaxın olmaq istəyən kəs mütləq günahlardan çəkinməlidir. Allah-təala Musa Peyğəmbərə(ə) belə buyurdu:

يَا مُوسَى! مَا تَقَرَّبَ إِلَيَّ الْمُتَقَرِّبُون بِمِثل الوَرَع عَن مَحارِمِي فَإِنِّي أُبِيحُهُم جَنَّات عَدْنٍ لاَ أُشارِكُ مَعَهُم اَحَدًا

- Ey Musa, Mənə yaxın olan insanlar o bəndələrdir ki, haram etdiyim şeylərlə öz aralarında pərdə salmış olsunlar. (Günahla öz aralarında pərdə yaratsınlar.) Mən onları ədn cənnətlərində sakin edərəm və heç bir kəsi onların məqamına şərik etmərəm.

İnsan başa düşməlidir ki, Allah onun bütün əməllərinə nəzarət edir. Hər nə iş görsə, Allah onu görür. Buna görə də Allahın hörmətini saxlamalı və günah etməməlidir. Əgər insan kiçik bir uşağın yanında günah etməkdən çəkinirsə, bəs nə üçün əzəmətli olan Allahın hüzurunda günah edir?

Şeyx Əli adlı cavan bir oğlan günlərin birində Nəcəf şəhərinə yola düşür. O zamanlar Axund Həmədani böyük müctəhidlərdən idi. Şeyx Əli öz-özünə deyir ki, bura

gəlmişkən gedib Axund Həmədanini də ziyarət edim. Onun evinə gedib sakitcə bir küncdə əyləşir. Baxıb görür ki, alimlər, müctəhidlər gəlib onu ziyarət edib gedirlər. O deyir: "Hamı dağılışandan sonra Axund Həmədani gördü ki, mən orada əyləşmişəm. Məndən adımı soruşduqda dedim ki, adım Əlidir. Nəcəfə təzə gəlmişəm. Axund əyilib pəncərədən Həzrət Əlinin(ə) məqbərəsinin günbəzini göstərərək buyurdu: O günbəzin sahibinin də adı Əlidir(ə). Sənin onunla nə qədər uyğunluğun var? Axundun bu sözü mənə çox təsir etdi və taleyimi dəyişdi".

Şeyx Əli elə bir səviyyəyə nail olmuşdu ki, Qum şəhərinə qayıdandan sonra bütün müctəhidlərin ustadı Ayətulla Bürucerdi kimi bir şəxsiyyət ondan bir saat vaxt alıb ziyarətinə getmişdi. Sadəcə, əyləşib heç bir söz demədən onun üzünə baxıb qayıdırdı. Özünə onun yanında söz deməyə icazə verməmişdi.

Şeyx Əli elə bir iş gördü ki, nəticədə Allahın ən yaxın bəndələrindən oldu. Bircə kəlmə "Bismillahir-Rəhmanir-Rəhim" - deyib şeytanın belini sındıraraq bütün bağlı qapıları üzünə açdı və bütün günahları ayağının altına qoydu. Allah-təala ona belə bir məqam inayət etdi. Odur ki, insan günahlarını ayağının altına qoyub, bir daha günah etməsə, Allahın əziz bəndəsinə çevrilər.

### 3. Xərc çəkmə və camaata xidmət etmək

İnsanı Allaha yaxınlaşdıran əməllərdən biri də ehtiyacı olanlara əl tutmaq və camaata xidmət etməkdir. Əlbəttə, bir şərtlə ki, insan bu işi yalnız Allaha xatir görsün. Özünü kiminsə yanında yaxşı göstərmək və ya nə vaxtsa hansısa işin ona maddi xeyri olacağı ümidilə etsə, Allah belə əməlləri qəbul etməz.

Peyğəmbərin(s) dövründə bəzi insanlar sədəqə verməyi və yaxşılıq etməyi özlərinə ehtiram əlaməti kimi qəbul etdirdilər. Onlar puldan və ya əşyadan camaata verməklə özlərini onların gözündə yaxşı göstərmək istəyirdilər. Lakin bəzi möminlər isə fəqirlərə, miskinlərə, yetimlərə, yurdsuz-yuvasızlara, əsir və yoxsullara yardım edib onlara sədəqə verirdilər. Və etdikləri bu yaxşılıqları da yalnız Allaha yaxın olmaq üçün "qürbətən iləllah" deməklə edirdilər. Allah-təala onlar barədə buyurur:

وَمِنَ الأَعْرَابِ مَن يُؤْمِنُ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَيَتَّخِذُ مَا يُنفِقُ قُرُبَاتٍ عِندَ اللّهِ وَصَلَوَاتِ الرَّسُولِ أَلا إِنَّهَا قُرْبَةٌ لَّهُمْ سَيُدْخِلُهُمُ اللّهُ فِي رَحْمَتِهِ

- Həmçinin köçəri ərəblərdən Allaha və axirət gününə imanı olanlar və xərclədiklərini Allaha yaxınlaşmaq amili və Onun Peyğəmbərinin duaları(nın onlara şamil edilməsi vasitəsi) hesab edənlər vardır. [Yaxud: Onlar xərclədiklərini və Peyğəmbərin (onların haqqında etdiyi) dualarını Allaha yaxınlaşmaq amili hesab edirlər.] Bilin ki, bunlar (xərclədikləri şeylər və Peyğəmbərin duaları) onların (Allaha) yaxınlaşma amilidir. Allah tezliklə onları Öz mərhəmətinə (mərhəmətinin pənahına) daxil edəcəkdir.[1]

Musa Peyğəmbər(s) Allahla minacat edərkən dedi: “İlahi Sənin rəhmətini qazanmaq istəyirəm”.

Allah-təala buyurdu: “Hər kəs Qədr gecəsi yoxsullara ehsan versə və yaxşılıq etsə, rəhmətim o şəxsə şamil olacaq”.

Musa(ə) dedi: “İlahi, sirat körpüsündən rahat keçmək üçün nə edim?”

---

[1] Tövbə,99.

Allah-təala buyurdu: “Hər kəs Qədr gecəsi sədəqə versə, sirat körpüsündən rahat keçəcək”.

**4. Allaha xəlvətdə ibadət etmək**

İnsanı Allaha yaxınlaşdıran əməllərdən dördüncüsü də Allaha səcdə etməkdir. Xüsusilə Allahla xəlvəti minacat etmək insanı Allaha yaxın edər. Hər kəs Allahla dost olursa, hərdənbir xəlvəti olaraq onunla minacat etsin. Çünki dost öz dostu ilə hərdən xəlvətdə-ikilikdə söhbət edib dərdini bölüşür.

قَالَ الصَّادِقُ(ع): عَلَيكُم بِالدُّعاءِ فَإِنَّكُم لاَ تُقَرَّبُونَ بِمِثْلِهِ

Həzrət İmam Sadiq(ə) buyurur: “Sizə dua etməyi tövsiyə edirəm. Çünki heç bir şey sizi dua qədər Allaha yaxın etməz”.

İnsan əllərini Allahın dərgahına açıb dua və minacat edərkən Ona yaxınlaşır. Xüsusilə səcdə etmək və səcdə halında dua etmək insanı Allaha daha yaxınlaşdırır. İnsanla Allah arasında ən yaxın hal səcdədə olmaqdır. Xüsusilə uzun-uzadı səcdə etmək insanı yaxın bəndə edər. Allahın da çox səcdə edən bəndəsindən xoşu gəlir.

Bir gün Həzrət Peyğəmbər(s) işləyirdi. Bir nəfər oradan keçəndə Peyğəmbərə(s) salam verdi və dedi: “Ya Rəsulallah, icazə ver sənə kömək edim. Həzrət Peyğəmbər(s) hamı ilə səmimi olduğu üçün həmin şəxsə də icazə verdi. O da gəlib Həzrətə(s) kömək etdi. İşlərini qurtardıqdan sonra Peyğəmbər(s) ona buyurdu: Nəyə ehtiyacın var? Həmin şəxs dedi: Ya Rəsulallah, səndən cənnəti istəyirəm. Peyğəmbər(s) buyurdu: Inşallah, mən dua edərəm, Allah da cənnəti sənə nəsib edər. Amma sən də cənnətə getməyinə görə mənə kömək et. Həmin şəxs dedi: Ya Rəsulallah, nə etməliyəm? Həzrət(s) buyurdu:

Uzun səcdələr. Əgər uzun səcdələr etsən, sənin etdiyin bu səcdələr mənim dualarıma kömək edər və sən də cənnətə gedərsən”.

Həzrət Peyğəmbər(s) meracda olarkən Allah-təala buyurdu: “Ey Mənim Rəsulum, hansı vasitəylə istəyirsən ki, şərafətini daha da çoxaldım? Həzrət Peyğəmbər(s) dedi: İlahi, məni Özünə qul və bəndə qərar ver (şərafətləndir)”.

Allah-təala İslam Peyğəmbərinə(s) elə şərafət verib ki, bütün müsəlmanlar namaz qılarkən belə deyir: “Şəhadət verirəm ki, həqiqətən, Məhəmməd Allahın qulu (bəndəsi) və rəsuludur”.

Allaha bəndə olmaq insan üçün çox şərafətlidir. Qul olmaq peyğəmbər olmaqdan daha şərafətlidir ki, hamı namazda Peyğəmbərə(s) şəhadət verdikdə ilk öncə onun qul və sonra rəsul olmasına şəhadət verir.

Odur ki, insan Allaha yaxın olmaq üçün mütləq səcdə etməlidir. Xüsusilə gecələr ibadət və minacat edən insan Allaha daha yaxın olar. Allah-təala bizim üçün il ərzində bir gecə təyin etmişdir ki, onun adı Qədr gecəsidir. Bu gecənin ibadəti, duası, minacatı min ayın ibadətindən üstündür. Odur ki, insan bu gecəni özünə qənimət bilib istifadə etsin və Allaha yaxınlaşmağa çalışsın. Allah-təala bizi əziz bəndələrindən qərar versin, inşallah.

***2008, 21, 23 ramazan***

## TİCARƏT

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلّهِ السَّلامُ عَلى رَسُولِ الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ.

Bu bəhsdə “Səff” surəsinin iki ayəsi barədə əziz möminlər üçün müəyyən qədər söhbət açmaq istəyirəm. Allah-təala bu ayələrdə ticarət barədə söhbət açır və mömin insanları da xüsusi bir ticarətə dəvət edir. Quranda bu barədə bir neçə yerdə söhbət açılmış, ticarətin şərtləri və əsasları zikr olunmuşdur. Xütbənin əvvəlində qeyd etdiyim ayədə Allah-təala möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ

- Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın?

Allah-təala bu mübarək ayədə möminləri ticarətə dəvət edir. Möminlərdən hər kəs bu ticarətə qoşulmaq istəyirsə, yolu açıqdır. İnsan bu dünyada müxtəlif alverlərlə məşğul olur. Kimisi xeyir götürür, kimisi isə ziyan edir. Allah da bu dünyada möminləri Onunla ticarət

etməyə dəvət edir. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də dünya barədə belə buyurur:

إِنَّ الدُّنيا دَارُ صِدقٍ لِمَن صَدَقَها، وَدَارُ عَافِيةٍ لِمَن فَهِمَ عَنْهَا، وَدَارُ غِنى لِمَن تَزَوَّدَ مِنْهَا، وَدَارُ مَوعِظةٍ لِمَن اِتَّعَظَ بِهَا. مَسجِدُ أَحِبَّاءِ اللهِ، وَمُصَلّى مَلائِكَة اللهِ، وَمهبط وَحي اللهِ، وَمَتْجَرُ أَوْلِياءِ اللهِ.. اكتَسَبوا فِيها الرَّحمة، وَرَبِحُوا فِيهَا الجَنَّة.

- Həqiqətən, dünya (sədaqətli insanlar) üçün düzlük diyarıdır; başa düşən və onun xəbər verdiklərini dərk edənlər üçün *(ilahi əzabdan)* aman və xatircəmlik evidir; ondan azuqə götürən *(Allah və Peyğəmbərə tabe olan)* kəs üçün varlılıq diyarıdır; ondan nəticə çıxaranlar üçün öyüd və moizə yeridir. Allah dostlarının *(pəhrizkarların)* ibadət, bəndəlik və səcdə yeri, Allahın mələklərinin namazgahı, ilahi vəhyin nazil olma məkanı və Allahın dostlarının ticarət yeridir ki, onda (dünyada) Allahın rəhmət və mərhəmətini əldə edərlər, qazancları isə cənnət olar.

Həzrətin(ə) bu kəlamlarından başa düşülür ki, bu dünya düzgün və dünyanı başa düşən insanlar üçün sağlamlıq və düzgünlük evidir. Axirət qazanmaq istəyənlər üçün dünya zəngin bir evdir. Başa düşən insanlar bu dünyadan istifadə etməklə öz əbədiyyətlərini əldə edib qazanırlar. Çünki bu dünyada axirəti qazanmaq üçün hər cür imkan və şərait vardır. Məsələn, bəzi bazarlara yolumuz düşdükdə oranı boş görürük. İstənilən şeyi tapmaq olmur. Amma elə bazarlar da vardır ki, orada hər növ mal tapmaq olur. Bazarda dükanların birinə daxil olub məsələn, bir köynək soruşduqda satıcı həmin köynəyin on növünü gətirir. Onun ölçüsünü soruşduqda deyir: Bu köynəyin hər ölçüsü və hər rəngi varımızdır.

Hansını istəsəniz, təşkil edə bilərəm. Satıcı çalışır ki, gələn müştərini əliboş yola salmasın. Buna görə də bir malı satmaq üçün həmin malın hər cürəsini dükana doldurur. Elə düşünmək lazım deyil ki, dünya boş bir yerdir. Dünyada qazanmaq istəyənlər üçün hər cür mal var. Hər bir yerdən qazanmaq mümkündür. Ağıllı insanlar heç zaman öz vaxtının bircə dəqiqəsini belə boş keçirməyə imkan vermir. Çalışır ki, vaxtının hər dəqiqəsindən istifadə edib nəsə qazansın. İnsanlar öz ömürlərinin boş keçməsinə razı olmurlar. Pis və ya yaxşı əməllərlə öz ömürlərini doldururlar. Lakin ağıllı insanlar həmişə yaxşı əməllərlə ömürlərini və vaxtlarını doldururlar. Bu dünya öyüd-nəsihət və moizə evidir. Hər kəs öyüd-nəsihət axtarmaq istəsə, dünyanın özü böyük bir moizə evidir. Dünya Allahın sevimli insanlarının məscididir. İnsan harada səcdə edib Allahın məhəbbətini qazanmalıdır? Bu dünya onun üçündür ki, insanlar gəlib burada səcdə etməklə Allaha yaxın olsunlar. İnsan səcdənin fəzilətini və şərafətini bu dünyada qazanır.

Həzrət Əlinin (ə) gözəl bir fikri var. Həzrət(ə) buyurur:

قَالَ عَلِى(ع): ما يَسِرُّنِى لَو مِتُّ طِفْلاً وَاُدْخِلْتُ الْجَنَّة وَلَمْ اَكْبُر فَاَعْرِف رَبِّى عزوجل

-Əgər məndən soruşsalar, ya Əli, istərdinmi uşaq olan vaxtlarında dünyanı dəyişib cənnətə gedəsən?[1] Əgər mənə bu sualı versələr, belə cavab verərəm: “Xeyr, mən istəyərəm ki, böyüyüm, bu dünyada Allahımı tanıyım, ondan sonra cənnətə gedim.”

---

[1] Hədislərdə var ki, insan uşaq vaxtlarında dünyadan gedərsə, sorğu-sualsız cənnətə gedər.

Bu hədisdə Həzrət(ə) bildirir ki, uşaq vaxtı dünyadan getmək istəmir. Mən istəyirəm ki, böyüyəm, Allahı tanıyam, ondan sonra O, məni hara aparır, aparsın. Ən əsası budur ki, mən Onu tanıyım, onun qarşısında səcdə edim və bu vasitə ilə öz izzət və kamalımı tapım, ondan sonra Allah məni hara aparır, aparsın.

Həmçinin bu dünya Allahın dostlarının mətcəridir. "Mətcər" ərəb dilində ticarət olunan yerə deyilir. Buna görə də Həzrət Əli(ə) buyurur:

وَمَتْجَرُ أَوْلِياءِ اللهِ.. اكتَسَبوا فِيها الرَّحمة، وَرَبِحُوا فِيهَا الجَنَّة.

- (Dünya) Allahın dostlarının ticarət yeridir ki, onda Allahın rəhmət və mərhəmətini əldə edərlər və qazancları cənnət olar.

Bu ticarətxanada (dünyada) Allah-təala möminləri ticarətə dəvət edərək buyurur: "Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın?"

Müsnəd ibn Hənbəl Ənəsdən belə bir rəvayət nəql edir: "Bir gün bir nəfər Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, mənim bir bağım var. Həmin bağda filankəsin də bir ağacı var. Mən o bağa çəpər çəkmək istəyirəm. Lakin bir ağaca görə əlacsız qalmışam. Xahiş edirəm ki, ona deyəsən öz ağacını mənə satsın. Əgər mən desəm məndən qəbul etməyəcək. Həzrət Peyğəmbər(s) həmin şəxsi yanına çağırıb buyurdu: İstəyirəm səninlə bir alver edək. Razısanmı həmin ağacı mənə verəsən və mən də bunun müqabilində sənə cənnətdə bir ağac verərəm. Ağac yiyəsi dedi: Xeyr, mən öz ağacımı istəyirəm. Həzrət Peyğəmbər(s) daha ona heç bir söz demədi. Əbu Dəhdah adlı bir mömin bu söhbəti eşitdi. Ağac yiyəsinin yanına gəlib dedi: Sən öz ağacını

neçəyə satırsan? Mənim bir bağım var, gəl həmin bağı sənə verim, sən də öz ağacını mənə ver. Həmin şəxs razılaşdı. Əbu Dəhdah dedi: Mən bağı sənə verdim. O da öz ağacını verdi. Əbu Dəhdah ağac yiyəsinin Peyğəmbərin(s) sözünü yerə saldığı üçün Həzrətin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, mən öz bağımı verib həmin ağacı ondan aldım. Indi də həmin ağacı sənə bağışladım. Həmin şəxslə etdiyin alveri mənimlə də edərsənmi? Həzrət Peyğəmbər(s) onunla razılaşıb buyurdu: Bu ağacın müqabilində cənnətdə Əbu Dəhdah üçün gözəl ağaclar yetişəcək.

Əbu Dəhdah Peyğəmbərlə(s) bu alveri etdikdən sonra öz bağına yollandı. Onun arvadı bağda işləyirdi. Ona dedi: Yığış gedək evə. Qadın soruşdu: Nə üçün? Əbu Dəhdah dedi: Alver edib bağı satmışam. Mən bağı satıb bir ağac aldım və həmin ağacı da Peyğəmbərə(s) bağışladım. Peyğəmbər(s) də mənə cənnətdə ağaclar verəcək. Arvad bir söz deməyib bağda olan səbət, ip və s. kimi əmək alətlərini götürüb çıxdı. O, bağdan çıxa-çıxa bu sözləri deyirdi: Necə də gözəl və mənfəətli alverdir".

Həzrət Əlinin(ə) dünya barədə olan kəlamını və bu hekayəti danışmaqda məqsədim odur ki, azacıq da olsa ticarətin nə olduğu aydınlaşsın. Lakin bir neçə mətləbi də nəzərinizə çatdırdıqdan sonra yenə də bu məsələyə qayıdacağam. İndi ki, biz dünyanın ticarətxana olduğunu bildik, burada ticarətin şərtləri və qaydaları ilə tanış olmağımız çox yaxşı olardı. Ümumiyyətlə, hər bir ticarətin və alverin dörd əsası, iki mühüm şərti və bir nəticəsi vardır. İndi isə gəlin bunlara diqqət yetirək.

## Ticarətin əsasları və şərtləri

Ticarət və alverin dörd əsası var. Əgər bu dörd əsasdan biri olmasa, alver batildir. 1. Muştəri; 2. Bayi (Satıcı, satan); 3. Məbi (Satılan) (əşya və ya mal); 4. Qiymət.

Bu dörd məsələ alverin əsasını təşkil edir. Əgər müştəri olmasa, necə alver etmək olar? Həmçinin bir şeyi satan olmasa, müştəri onu kimdən ala biləcək? Yaxud satılan bir şey yoxdursa, nə ilə alver olunacaq? Həmçinin hər üçü varsa, müəyyən bir qiymət müqabilində alınıb satılmalıdır. Bütün bunlardan əlavə, ticarətin iki mühüm şərti var. Şərtlərdən biri budur ki, satılan mal yalnız bir nəfərə satılmalıdır. Yəni bir mal iki dəfə ayrı-ayrı şəxslərə satıla bilməz. Məsələn, bir nəfər maşın satmaq istəyir. Həmin maşını o, bir müştəriyə sata bilər. Maşını bir nəfərə satdıqdan sonra digəri gəlib mən bu maşını dünən almışam deməməlidir. Bir malı eyni halda iki nəfərə satmaq düzgün deyil. Bu, alverin şərtini pozmaq deməkdir. Alverin ikinci şərti isə ödənilən məbləğin nəğd və ya nisyə olmasıdır. Əgər nəğd satırsa, malı verib pulu aldıqdan sonra alver tamamlanır. Yox, əgər malı müəyyən müddətə nisyə götürmüş olsa, bunun üçün möhkəm bir sənəd və ya müqavilə lazımdır. Əgər mal satan nisyə mal verirsə, malı alan da hansısa bir sənədi və ya etibarnaməni təqdim etməlidir ki, filan vaxt onun pulunu qaytaracaq. Sənəd olmasa, müəyyən edilmiş vaxt satıcı alıcıdan pulunu tələb etsə və alıcı da boyun qaçırtsa nə ilə sübut etmək olar ki, onun satıcıya borcu var? Bu alverin şərtinə uyğun deyil. Alverdə mütləq bu iki şərtə riayət olunmalıdır. Alverin nəticəsi də budur ki, axırda kimin qazanc əldə etdiyi və kimin ziyan çəkdiyi müəyyən olur.

## Allahın insanlarla ticarəti

Ticarətin əsasları, şərtləri və nəticəsi ilə tanış olduq. İndi baxaq görək Allah-təalanın bizi dəvət etdiyi bu ticarətdə alan kimdir, satan kim? Bu alverdə satılan nədir və hansı qiymət olacaq? Əgər bu ticarətdirsə, mütləq sadaladığımız əsas və şərtlər olmalıdır. Allah-təala bütün bu şərtlər əsasında bizi ticarətə çağırır. Bu ticarətdə müştəri Allah Özüdür. Çünki bu ticarəti Özü qurur və insanı dəvət edir.

هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ

...Sizə bir ticarət göstərimmi?

Hər kəs ticarət etmək istəyirsə, yolu açıqdır. Deməli, insanı bu ticarətə Allah dəvət edir və müştəri də Özüdür. “Tövbə” surəsinin 111-ci ayəsində daha açıq bəyan edərək buyurur:

إِنَّ اللّهَ اشْتَرَى

- Həqiqətən, Allah müştəridir...

Deməli, məlum olur ki, bu ticarətdə alıcı Allahdır. Bəs satıcı kimdir? Görəsən, Allah-təala hər bir insanı bu ticarətə dəvət edirmi? Quranın ayələrinə əsasən Allah-təala bu ticarətə yalnız möminləri dəvət edir. Hər yoldan ötüb keçənlə bu alveri etmir. Allah-təala belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ

- Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın?

Bu ayədə Allah-təala bütün insanlara xitab etmir. Yalnız və yalnız möminləri bu işə dəvət edir.

Digər ayədə belə buyurur:

إِنَّ اللّهَ اشْتَرَى مِنَ الْمُؤْمِنِينَ

- Allah-təala yalnız möminlərdən alır.

Deməli, Allahın dəvət etdiyi bu ticarətin tərəf müqabili yalnız mömin kişilər və mömin qadınlardır.

Bu ticarətdə müştəri və satıcı aydın oldu. Görəsən, bu alverdə satılan nədir? Allah-təala möminlərdən nəyi almaq istəyir? Möminlərdə nə var ki, Allah onun müştərisidir? Bu məsələyə qısaca toxunub bəhsimizi davam etdirirəm. Həm də gələcəkdə bu barədə geniş söhbət açacağıq. Allah-təala möminlərin saleh və təmiz əməllərinin müştərisidir. Yəni Allahın dəvət etdiyi bu ticarətdə satılan şey saleh əməllərdir.

قَالَ عَلِيٌّ(ع): لاَ تِجَارَةَ كَالعَمَلِ الصَّالِحِ وَ لاَ رِبْحَ كَالثَّوابِ

Həzrət Əli(ə) buyurur: “Saleh əməl kimi ticarət, savab kimi (qiymət)  qazanc yoxdur”.

Yəni bu ticarətdə satılan malın ən gözəli saleh və təmiz əməllər, ən yaxşı qiymət də Allahın verdiyi savablardır.

Digər bir hədisdə Həzrət(ə) belə buyurur:

اَلأَعْمَالُ فِى الدُّنْيا تِجَارَةٌ

- Dünyada ticarət insanın əməlləridir.

Deməli, Allahın qurduğu bu ticarətdə alınan və satılan şey saleh əməllərdir. Bu əməllər hansı qiymətə alınıb satılır? Görəsən, bir mömin saleh əməllər edirsə, Allah-təala həmin əməlləri hansı qiymətə alır? Axı, ticarətin əsaslarından biri də budur ki, satılan və alınan malın qiyməti olmalıdır. Allah-təala saleh əməlləri dörd böyük qiymətə alır:

1. Günahları bağışlayır.

يَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ

- Allah günahlarınızı bağışlayar.[1]

2. Cəhənnəm əzabından nicat verir.

تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ

- Sizi ağrılı əzabdan qurtarar[2]

3. Cənnəti bəxş edir.

بِأَنَّ لَهُمُ الجَنَّةَ

- Cənnətin onların olması bahasına alar.[3]

4. Cənnətin ən yüksək mərtəbələrini (ədn cənnətlərini) verir.

وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ

Əbədi (ədn) cənnətlərindəki pak və xoşagələn məskənlərə daxil edər.

Allah-təala bu qiymətlərlə möminlərdən saleh əməlləri alaraq onlarla ticarət edir. Hər kəs Allahla alver etmək istəyirsə, buyura bilər. Ticarətin əsaslarını qeyd etdik və Allah-təala da bu əsaslara uyğun olaraq möminlərlə alver edir. Lakin qeyd etdiyimiz kimi, ticarətin iki əsas şərti var. Həmin şərtlər Allahın möminləri dəvət etdiyi ticarətə də şamildir. Birinci şərt odur ki, bir mal yalnız bir nəfərə satılsın. Ticarətdə bir malı eyni zamanda iki nəfərə satmaq alverin şərtlərinə uyğun deyil və bu ticarət batildir. Yəni əgər bir insan bir malı üç-dörd adama satıb aradan çıxırsa, bu artıq ticarət deyil. Allah-təala da buyurur: "Əgər sən malı yalnız və

---

[1] Səff,12.
[2] Səff,10.
[3] Tövbə,111.

yalnız Mənə satacaqsansa, müştəriyəm. Yox, əgər malın 99%-ni mənə, qalan 1%-ni isə başqasına satırsansa, Mən Öz payımı həmin şəxsə verirəm. Mən belə bir alveri etmirəm. Əgər malın hamısını yalnız Mənə satırsansa, dediyim qiymətlərə alıram. Allah-təala Quranda belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ

- Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın?[1]

تُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ وَتُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ

- Allah və Onun Rəsuluna iman gətirin Allah yolunda mallarınız və canlarınızla cihad edin.[2]

Allah-təala bu ticarətdən açıq-aydın söhbət edərək möminləri alverin bütün əsaslarına və şərtlərinə riayət etməyə çağırır. Bura qədər ticarətlə bağlı bütün məsələlər insana asan və çox şirin gəlir. Çünki Allah-təala bu ticarət sayəsində insana cəhənnəm əzabından nicat verir və onu cənnətlə müjdələyir. Lakin bu ticarətin birinci şərtinə gəldikdə, məsələ çətinləşir. Çünki ticarətin iki mühüm şərtlərindən birincisi budur ki, insan bir şeyi yalnız bir nəfərə sata bilər. Allah təkidlə bildirir ki, hər kəs Onunla alver etmək istəyirsə, satılan şeyin hamısı yalnız Onun Özünə satılmalıdır. Əgər həmin malın cüzi hissəsi Ondan başqasına satılsa, daha onu qəbul etmir. Ayədə buyurulur ki, yalnız Allah yolunda çalışın. Bu o deməkdir ki, insan ticarətdə heç kimi Allaha şərik qoşmamalıdır. İnsan yalnız Allaha görə az da əməl etsə, Allah onun bu az əməlini çox qəbul edər. Çünki bu əməl sırf Allaha görə edilmişdir. Bu

[1] Səff-10
[2] Səff-11

işdə çox əməl edib azacıq da olsa kimisə Allaha şərik qoşsa, Allah onun əməlini qəbul etməyəcək. Öz payını isə şərikinə ötürəcək. Qiyamət günü də həmin şəxsə heç bir qiymət və savab verməyəcək.

İmam Səccad(ə) buyurur: “İki nəfər (öz dinini, namusunu, vətənini və torpağını) qorumaq üçün cəbhəyə yola düşür. Onlardan biri sırf Allaha xatir, Onun əmrini yerinə yetirmək üçün niyyət edir. Digəri isə niyyət edir ki, döyüşdə şöhrət qazansın və adını tarixə qəhrəman kimi yazdırsın. Onlar eyni cəbhədə döyüşür və təsadüfən ikisi də müharibədə həlak olurlar. Biri cənnətə, o biri isə cəhənnəmə daxil olur. Cəhənnəmə gedən deyir: İlahi, axı biz ikimiz də bir yerdə evdən çıxıb döyüşə getmişdik. Hər ikimiz eyni cəbhədə həlak olmuşuq. Nə üçün onu cənnətə, məni isə cəhənnəmə atırsan? Allah-təala buyurur: Çünki o, yalnız mənə xatir niyyət edib döyüşə getdi. Amma sən qəhrəmanlıq naminə, adın camaat arasında dillər əzbəri olması üçün getdin. Hər ikiniz arzu və istəyinizə çatdınız. Sən həlak oldun, adın tarixə qəhrəman kimi yazıldı və camaat səni bir döyüşçü kimi tanıdı. Sən özünü o qiymətə satdın və həmin qiyməti də qazandın. Amma o, yalnız Mənimlə alver etdi və yalnız Mənə xatir döyüşüb şəhid oldu. Buna görə də onun qiymətini Mən Özüm verəcəyəm”.

Deməli, insanın əməli yalnız Allaha xatir olsa və ixlasla əməllərini yerinə yetirsə, o, bu ticarətin şərtinə əməl etmişdir.

Müslüm ibn Əqil Kufəyə gəlib İmam Hüseynin(ə) məktubunu camaata oxudu. Abis adlı bir şəxs ayağa qalxıb öz fikrini bildirdi. Kərbəlada İmam Hüseynin(ə) hüzurunda dediyi sözlərə də əməl etdi. Müslüm İmamın(ə) məktubunu oxuduqdan sonra Abis dedi:

وَاللهِ لَأُجِيبَنَّكُم اِذا دَعَوتُم وَ لَأُقاتِلَنَّ مَعَكُم عَدُوَّكُم... حَتَّى أَلقَى اللهَ أَنَا لاَ أُرِيدُ بِذَلِكَ اِلاّ مَا عِنْدَ اللهِ

- And olsun Allaha, mən sizin dəvətinizi qəbul edirəm. Bu, mənim səmimi sözlərimdir. Allaha qovuşana qədər (son nəfəsimə qədər) sizin düşmənlərinizlə döyüşməyə hazıram. Bunun müqabilində Allahın mənə verəcəyi əcirdən başqa heç bir şey ummuram.

Abis düşmənlərlə müharibə etməyin və Allahın dinini qorumaq uğrunda ölməyin müqabilində Allahın əcrindən başqa heç bir şey istəmirdi. O, Allahla alver etdi və ticarətin şərtlərini lazımınca yerinə yetirdi. Kufədə dediyi sözlərinin üstündə möhkəm dayandı və Kərbəlada şəhid oldu. Həzrət İmam Hüseyn(ə) onun başı üzərində dayandı və onu cənnətə yola salıb buyurdu: "Cəddim Rəsulallaha məndən salam de".

Bu ticarətin ağır bir şərti var. Hər bir insan bu şərti yerinə yetirməyi bacarmır. Əgər bir şəxs kiçik bir əməli belə sırf Allaha xatir yerinə yetirsə, deməli, bu ticarətin şərtinə əməl etmişdir.

Həzrət Musa(ə) Misirdən çıxıb Mədyən şəhərinə yollandı. Günlərlə yol getdikdən sonra Mədyənə yetişdi. Şəhərin girəcəyində bir bulaq var idi. Camaat öz qoyunlarını suvarmaq üçün həmin bulağa gəlirdi. Bəziləri də su aparmaq üçün özləri ilə qab gətirmişdilər. Orada iki qız dayanmışdı. Onlar da öz qoyunlarını suvarmaq üçün ora gəlmişdilər. Lakin bulaq başında çox adam olduğundan qızlar qoyunlarını suvara bilmirdilər. Musa Peyğəmbər(ə) gəlib qızlara qoyunları suvarmaqda kömək etdi. Qızlar ona təşəkkürlərini bildirib getdilər.

Onlar Şüeyb Peyğəmbərin(ə) qızları idi. Lakin Musa Peyğəmbər(ə) onun qızlarını tanımırdı. Onlar yolda başlarına gələn əhvalatı evdə öz atalarına danışdılar. Şüeyb Peyğəmbər(ə) qızlara dedi: “Gedin, onu bizə qonaq çağırın.” Qızlar gəlib Musaya(ə) dedilər ki, atamız səni evə dəvət edir. Musa(ə) Şüeyb Peyğəmbərin(ə) evinə daxil olanda gördü ki, süfrə açıblar. Şüeyb(ə) ona dedi: “Ey cavan, əyləş, bizimlə şam et”. Musa(ə) süfrə kənarında əyləşmədi. Şüeyb Peyğəmbər(ə) dedi: “Nəyə görə süfrəyə əyləşmirsən?” Musa Peyğəmbər(ə) dedi: “Qorxuram bu şam yeməyi qızlara etdiyim köməyin əvəzində verilmiş olsun”.

اِنّا مِنْ اَهْلِ بَيْتٍ لا نَبِيعُ شَيْأً مِن عَمَلِ الآخِرَةِ بِمِلاءِ الأَرْضِ ذَهَباً

“Biz elə bir ailədənik ki, axirətə görə etdiyimiz bir əməli heç bir şeyə, hətta Yer kürəsini qızılla doldursalar belə, onunla dəyişmərik.”

Etdiyim yaxşılığa görə mənə muzd vermək istəyirsiniz? Mən axirətə görə etdiyim işlər üçün muzd almıram. Şüeyb Peyğəmbər(ə) dedi: “Biz də elə bir ailədənik ki, həmişə qonağa hörmət edərik. Mən bu qonaqlığı sənin etdiyin o yaxşılığa görə vermirəm. Mən bu süfrəni Allaha xatir sənin üçün açmışam.”

## Həzrət Əli(ə) ixlas meydanının qəhrəmanıdır

Həzrət Əlinin(ə) həyatına nəzər saldıqda görürük ki, onun hər bir əməli yalnız Allaha xatir olub. Allahla ticarət etməyin şərtinə əməl etməkdə o, Peyğəmbərdən(s) sonra birinci yeri tutur. Həzrət Əlinin(ə) ixlası barədə günlərlə danışmaq olar. Nümunə üçün birini nəzərinizə çatdırıram.

Əhzab (Xəndək) müharibəsi İslamın ən ağır və çətin müharibələrindən biri idi. Mədinə şəhərində üç min nəfər müsəlman var idi. Lakin müşriklərin hamısı və müxalif qüvvələr müsəlmanların əleyhinə əlbir olmuşdular. Əmr ibn Əbdəvid çox tanınmış bir pəhləvan idi. Adı gələndə hamının bədəni lərzəyə gəlirdi. O, dörd-beş pəhləvanla şəhərə daxil olub müsəlmanların qarşısında durub döyüşçü istədi.

Həzrət Əli(ə) atına minib Əmr ibn Əbdəvidin qarşısına çıxdı. Döyüş başladı və bütün aləmi toz-torpaq bürüdü. Döyüşənlər tozun içində görünmürdülər. Bütün müsəlmanlar həyəcan içində döyüşün nəticəsini gözləyirdilər. Lakin Əli(ə) Əmri yerə yıxdıqdan sonra döyüş uzandı. Müsəlmanlar Peyğəmbərdən(s) soruşdular: "Ya Rəsulallah, nə üçün Əli(ə) işi bu qədər uzadır? Həzrət(s) buyurdu: Səbr edin, gəlsin özündən soruşarıq". Bir az keçdikdən sonra tozun içində Əlinin(ə) "Allahu Əkbər" səsi eşidildi. Hamı bildi ki, Əli(ə) Əmr ibn Əbdəvidin başını kəsib. O, işi bitirib qayıtdıqdan sonra Peyğəmbər(s) soruşdu: "Ya Əli, onu yerə yıxdıqdan sonra niyə görə başını kəsməyi bu qədər yubatdın?" Əli(ə) dedi: "Ya Rəsulallah, mən onu atdan yerə saldıqdan sonra başını kəsmək istəyəndə o, əlacının hər yerdən kəsildiyini görüb məni söydü və üzümə tüpürdü. Mən onun bu hərəkətindən çox qəzəbləndim. Əgər o anda onun başını kəssəydim, öz qəzəbimə görə kəsəcəkdim. Ona görə də gözlədim ki, qəzəbim soyusun, sonra onun başını kəsim. Qəzəbim soyuyandan sonra niyyət edib onun başını "qürbətən iləllah" kəsdim."

İxlas meydanının qəhrəmanı Həzrət Əlidir(ə). Həmin ixlasın nəticəsidir ki, bu gün İslam Peyğəmbərinin(s) adı minbər və minarələrdə zikr olunur. Firqəsindən asılı

olmayaraq hamı İslam Peyğəmbərinin(s) adını zikr edir və hər gün namaz vaxtı minarələrdən onun adı eşidilir. Ola bilsin ki, hansısa firqədə bir nəfər çıxıb digər firqənin əleyhinə söz desin. Amma bu sözü deyən kəs anlamır ki, etdiyi ittiham bütün İslamın adı ilə bağlıdır. Amma bir anlamazın sözü ilə insan öz istiqamətini dəyişməməlidir. Çox söz danışa bilərlər, lakin bu sözlər İslam vəhdətini pozmamalıdır. Kim nə deyir desin, amma Peyğəmbərin(s) adı qiyamətə qədər zikr olunacaq. Bu adı saxlayan Həzrət Əlinin(ə) ixlası və İmam Hüseynin(ə) kərbəlasıdır.

İmam Hüseyn(ə) Kərbəlada Allahla böyük bir ticarət etdi. Həm əməllərini, həm övladlarını, həm də canını yalnız Allaha satdı. Altıaylıq körpəsini Allah yolunda qurban verdi.

*Güldən də gözəl güllərimin rəngi saralsın,*
*Olsun güli İslam şükufan əvəzində.*
*Bülbüllərimin yansa da kaşanəsi yansın,*
*Yatsınlar tikanlıqda gülüstan əvəzində.*
*Əkbər başı münşəqq olur-olsun nə sözüm var?*
*Dilsiz balam əmsin oxu püstan əvəzində.*

Allahla insanın ticarətində ən mühüm və birinci şərt ixlasdır. İkinci şərt isə alıcının nəğd və ya nisyə almasıdır. Əgər nəğd alırsa, dəyəri elə həmin an ödənilməlidir. Yox, əgər nisyə alırsa, bunun üçün möhkəm bir sənəd lazımdır. İndi baxaq görək Allah İmam Hüseyndən(ə), Həzrət Əlidən(ə) və digər möminlərdən əməllərini, mallarını və canlarını nəğd alır, yoxsa nisyə? Cavab belədir ki, Allah əksər hallarda nisyə alver edir. Əgər nisyə alırsa, bunun üçün möhkəm sənəd verməlidir. Sənəd Quranın ayələridir ki, Allah-təala bu ticarətdə nisyə aldıqlarına sənəd olaraq belə buyurur:

وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالإِنجِيلِ وَالْقُرْآنِ وَمَنْ أَوْفَى بِعَهْدِهِ مِنَ اللّهِ فَاسْتَبْشِرُواْ بِبَيْعِكُمُ الَّذِي بَايَعْتُم بِهِ وَذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

- (Bu alver) Onun öhdəsində olan – (Onun əzəli elmindən başqa, həm də Lövhi-Məhfuzda qeyd olunmuş və alver sənədi kimi) Tövrat, İncil və Quranda (yazılmış) haqq bir vəddir. Allahdan başqa kim öz əhdinə daha vəfalıdır?! Buna görə də etdiyiniz bu alverə şad olun. Budur böyük uğur və qurtuluş![1]

Allah-təala bu alverin müqabilində möminlərə verəcəyi qiyməti üç səmavi kitabda sənəd sayır. Və Onun verdiyi vədəsinin haqq olmasını bəyan edir. Sonra belə buyurur: "Allahdan başqa kim öz əhdinə daha vəfalıdır?!"

Adətən vədinə əməl etməyənlər ya imkansızlıqdan əməl etmir, ya imansızlıqdan verdiyi vədini danır, ya da yadından çıxdığına görə vədinə əməl etmir. Allahda bu nöqsanların heç biri yoxdur. Allah bütün nöqsanlardan pak və təmizdir.

Cabir deyir: "Tövbə" surəsinin 111-ci ayəsi nazil olduqda Həzrət Peyğəmbər(s) onu Mədinə məscidində camaat üçün oxudu. Bir nəfər ayağa qalxıb soruşdu: Ya Rəsulallah, söylədiyin bu kəlamlar sənin sözlərindir, yoxsa Allahın nazil etdiyi ayədir? Həzrət(s) buyurdu: Bu sözlər Allahın nazil etdiyi ayədir. Həmin şəxs dedi: Çox mənfəətli və dəyərli bir alverdir. Bu elə bir alverdir ki, nə bunu geri qaytararıq, nə də qaytarsanız, geri götürmərik".

Burada bir məsələni nəzərinizə çatdırmaq istəyirəm. O da budur ki, Allahla olan ticarət üç növdür. Bəziləri cənnəti qazanmaq üçün alver edər, bəzisi cəhənnəmin

---

[1] Tövbə,111.

qorxusundan, bəzisi isə sırf Allahın Özü ilə aver edərlər. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də belə buyurur: “Bir dəstə adam Allaha *(savab və mükafata) cənnətə* rəğbət üçün ibadət edir. Bu, *(alverin xeyir-ziyanını nəzərdə saxlayan)* tacirlərin ibadətidir. Bir dəstə isə Allaha qorxudan ibadət edir. Bu da qul və kölələrin ibadətidir *(ki, onlar ağalarının göstərişlərini qorxudan yerinə yetirirlər)*. Digər bir dəstə isə Allaha şükr etmək üçün ibadət edir və bu, azad insanların ibadətidir *(ki, onlar agahlıq və niyyət paklığı ilə Allaha ibadət edirlər və Onu ibadət və bəndəlik etməyə layiq bilməkdən başqa, digər bir məqsədləri yoxdur)*.”

Peyğəmbərin(s) zamanında Harisə adlı bir cavan var idi. Bir gün Peyğəmbər(s) məsciddə sübh namazını qılıb qurtardıqdan sonra üzünü camaata tərəf tutdu. Gördü ki, Harisə yorğun, qəmgin və rəngi saralmış halda əyləşib. Soruşdu: “Sənə nə olub belə? Harisə dedi: Ya Rəsulallah, mən imanın yəqin məphələsinə çatmışam. Həzrət(s) buyurdu: Hər bir şeyin əlaməti var. Sənin yəqinə çatmağının əlaməti nədir? Harisə dedi: Ya Rəsulallah, bunun əlaməti belədir ki, məni dünyaya qarşı rəğbətsiz edib. Gecələr yuxumu ərşə çəkib. Mənə belə qorxu gəlir ki, elə bil Allahın ərşini görürəm. Elə bil cənnət əhlini gözlərimlə görürəm. Sanki cəhənnəm əhlinin ah-naləsini eşidirəm. Həzrət(s) buyurdu: Bu elə bir bəndədir ki, Allah onun qəlbini nurani edib. Sonra üzünü Harisəyə tutub buyurdu: Allah sənə imanı nəsib edib. Bu imanı qoruyub saxlamağa çalış. Harisə dedi: Ya Rəsulallah, Allaha dua et ki, şəhadət dərəcəsini mənə nəsib etsin. Həzrət(s) əllərini qaldırıb belə dua etdi: İlahi, Harisəyə şəhadət nəsib et. Yazırlar ki, bu hadisənin üstündən çox keçmədi ki, müharibələrin birində Harisə bir neçə nəfəri öldürdükdən sonra özü də şəhadətə yetişdi”.

İstər cənnətin şövqünə görə olsun, istərsə də cəhənnəm qorxusundan ibadət etməyin heç bir eybi yoxdur. Bu da Allahın mömünlərlə olan alveridir ki, Özü vədə vermişdir. Həm cəhənnəm odundan qoruyacaq, həm də cənnət bəxş edəcək. Amma cənnət və cəhənnəmə görə yox, sırf Allahın Özünə görə ibadət və alver edən axtarsaq, yenə də Həzrət Əli(ə) başda dayanır. Allahla minacat edərkən o, belə deyərdi: "İlahi, mən Sənə cənnətin tamahına görə və ya cəhənnəm qorxusuna görə ibadət etmirəm. Mən Səni ibadətə layiq bildiyim üçün ibadət edirəm".

Həzrət Əli(ə) bu sözü deyir və sözünün üstündə də dayanır. Hər imtahandan layiqincə çıxır və dediyi sözü də təsdiqləyir. Leylətül-məbit hadisəsinə nəzər saldıqda Həzrət Əlinin(ə) Allahla etdiyi bu ticarəti daha aydın başa düşmək olur. Müşriklər yığışıb Peyğəmbəri(s) öldürmək qərarına gəlmişdilər. Onlar hər tayfadan bir nəfər olmaqla gecə vaxtı Peyğəmbərin(s) evinə hücum edib onu öldürməyi planlaşdırmışdılar. Həzrət Cəbrayıl(ə) Peyğəmbərə(s) bu məsələ haqda xəbər verdi. Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: "Bu gecə sən mənim yerimdə yatarsan və üstümə çəkdiyim yaşıl parçanı da öz üstünə çəkərsən". Həzrət Əli(ə) Peyğəmbərin(s) yerində uzanıb yaşıl parçanı da üstünə çəkdi. Peyğəmbər(s) həmin gecə şəhərdən çıxıb Mədinəyə hicrət etdi. O gecə Allah-təala Cəbrayıl(ə) və Mikayıla(ə) buyurdu: Belə qərara gəlmişəm ki, ikinizdən birinizin ömrü çox olsun. Hansınız ömrünüzü digərinə verməyə razısınız? Mələklər susdular və heç biri ömrünü digərinə verməyə razı olmadı. Allah-təala buyurdu: İndi ki, bu işə razı olmadınız, enin yer üzünə. Mən yer üzündə Peyğəmbərlə(s) Əlini(ə) bir-birinə qardaş etmişəm. Bir

qardaş öz ömrünü digərinə qurban verib. Həzrət Əli(ə) Peyğəmbərin(s) yerində uzanıb yatmışdı. Cəbrayıl(ə) yerə nazil olub Həzrət Əlinin(ə) başı üzərinə gəldi və dedi: Ey Əli, mübarək olsun sənə. Allah sənin vücudunla fəxr edir”. Allah-təala “Bəqərə” surəsinin 207-ci ayəsini nazil etdi:

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ

- İnsanlardan eləsi də var ki, Allahın razılığı üçün öz canını satır.

Həzrət Əli(ə) öz canını cənnət tamahına və ya cəhənnəm qorxusuna görə deyil, yalnız Allahın razılığına görə satır.

## Ticarət edərkən Allah insandan nələri alır?

İndi isə gəlin görək Allah dəvət etdiyi bu ticarətdə möminlərin hansı əməllərinin müştərisidir? Allah aldığı bu əməllərin müqabilində möminlərə bir çox vədlər verir və bu vədlərin haqq olması üçün möhkəm sənədlər sayır. Əlbəttə, öncə bu barədə geniş söhbət etmişik. Allah-təala hər yoldan ötəni bu ticarətə dəvət etmir. Yalnız möminlərə xitab edərək buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ

- Ey iman gətirənlər, sizə elə bir ticarət (yolu) göstərimmi ki, sizi ağrılı əzabdan qurtarsın?[1]

Allah-təala bu ticarətdə insanın hər hansı əməlinə müştəri deyil. Quranda möminlərdən almaq istədiyi əməlləri Özü bəyan edir və bu əməllərin sahiblərini alverə

[1] Səff,10.

dəvət edir. Həmin əməllərin birincisi imandır. Yəni Allah möminlərin imanlarını sadaladıqları qiymətə almaq istəyir.

“Səff” surəsinin 10-cu ayəsində Allah-təala möminləri ticarətə dəvət etdikdən sonra 11-ci ayədə belə buyurur:

تُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ

- Allah və Onun Rəsuluna iman gətirin.

Deməli, bu ayədən məlum olur ki, Allahın möminlərdən almaq istədiyi şey Ona və Rəsuluna iman gətirməkdir. Allaha, Peyğəmbərə(s), qeyb aləminə, qiyamətə iman gətirmək bu ticarətin ilk alınan əməlidir. Əlbəttə, iman o demək deyil ki, insan sadəcə dildə Allahı və Peyğəmbəri(s) qəbul etsin. Bütün bunlara qəlbin dərinlikləri və bədənin bütün hüceyrələri ilə inanmaq lazımdır.

**1.İman**

İman nədir? Baxaq görək bu ticarətdə Allahın möminlərdən almaq istədiyi iman nədir? Bunu daha aydın başa düşmək üçün yaxşı olar ki, hədislərə müraciət edək:

اَلإيمانُ اَصلُ الحَقّ   وَالْحَقُّ سَبِيلِ الهُدَى

Həzrət Əli(ə) buyurur: “İman haqqın (həqiqətin) əsli və kökündür. Haqq isə hidayət yoludur”.

Bu hədisin aydın olması üçün azacıq şərh verirəm. Haqq və həqiqətin kökünə iman deyilir. Bu elə bir həqiqətdir ki, ona heç bir şey qarışmayıb. Onda həqiqətdən başqa zərrə qədər də olsun batil bir şey yoxdur. Haqq və həqiqətin bir cümləsi budur ki, hidayət yolunu düz gedən insan (haqqa) Allaha yetişər. Bir şərtlə ki, bu yolu gedən insan o tərəf-bu tərəfə yönəlməsin. Əgər

azacıq da olsa hidayət yolunu səhv getsə, haqqa yetişə bilməyəcək. Hər hansı bir şey insanı Allahdan başqa tərəfə yönəldirsə, heç vaxt haqq ola bilməz. Deməli, hər hansı şey ki, insanı düz Allahın məhzərinə aparıb çıxarırsa, ona haqq-həqiqət deyilir. Odur ki, Həzrət Əli(ə) buyurur: “Bu haqqın kökünə iman deyilir”.

Həzrət Peyğəmbər(s) başqa bir ibarə ilə ümmətə imanın nə olduğunu başa salmaq üçün buyurur:

لَيْسَ الإِيمان بِالتَّحَلِّى وَلا بِالتَّمَنِّى وَ لكِن اَلإيمان مَا خَلصَ فِى القَلبِ وَ صَدَّقَهُ الأَعْمَال

- İman iddia və arzu ilə deyildir. O, qəlbdə xalis olan və əməlin təsdiqlədiyi bir şeydir.

Yəni iddia və arzu etməklə iman əmələ gəlmir. Mən belə olmuşam, mənim ata-babam həcc ziyarətində, məşhəd ziyarətində olub - demək imanlı olmaq deyil. İnsanın ürəyində xalis olan və heç bir şeylə qarışığı olmayan imana əsl iman deyilir. Buna görə də hədislərdə mömin yağışın suyuna bənzədilir. Yağışın suyu nə qədər ki, yerə düşməyib təmiz, saf olar. Mömininin ürəyinə iman dolduqda daha ona (paxıllıq, təkəbbür, yalan və s. kimi) pis xüsusiyyətlər qarışmaz. İmanı olan kəs ürəyində xalis və əməli ilə onu təsdiqləyən kəsdir. Yəni insanın ürəyində olan imanı onun əməlləri təsdiqləməlidir. Bunun daha aydın olması üçün bir misalı nəzərinizə çatdırıram. Müxtəlif ölkələrin pullarına nəzər salın. Hər bir ölkənin öz pulu çap olunur. Həmin pullar çap olunarkən etibarsızdır. Sadəcə kağızdan ibarətdir. Bəlkə də belə kağızın 1 tonunu heç yüz manata da almazlar. Amma dövlət xəzinəsində həmin kağızların etibarı təsdiqlənib, ona möhür vurularsa, pul hesab olunacaq. Yox, əgər onun etibarı təsdiq

edilməzsə, saxta pullardan başqa bir şey olmayacaq. Etibarsız pulları çap edənlərə isə cəza tətbiq olunur.

Odur ki, iman həmin möhürsüz pul kimidir. Əgər insanın imanını onun öz əməlləri təsdiqləyib möhürləyirsə, deməli, bu, həqiqi imandır. Yox, əgər bir insanın əməlləri imanını təsdiq etmirsə, imanı olması barədə danışdığı bütün sözlər boş sözlərdir. Bəzi insanlar dildə "Allaha qurban olum, ata-anam Ona qurban olsun, balalarım Allaha fəda olsunlar" və s. bu kimi ifadələr işlədirlər. Lakin namaz vaxtı olduqda heç yerindən belə tərpənmək istəmir. Azan səsi gəldikdə Allahı tanımayan da əyləşir, "Allaha qurban olum" - deyən də əyləşir. Heç biri qalxıb namaz qılmır. Allahı tanımayan aydındır ki, onu tanımadığı üçün namaz da qılmır. Bəs Allahı tanıyan əgər namaza əhəmiyyət vermirsə, onların bir-birindən nə fərqi var?  Əgər insanın dildə Allah barədə işlətdiyi kəlamları əməlləri təsdiqləyirsə, deməli, həmin şəxs imanlı insandır. Əgər əməldə heç bir şey yoxdursa, belə bir iman dərdə dəyməyəcək. Bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur: "İmanla əməl iki qardaşdırlar". Qiyamət günündə bu iki qardaşı bir yerdə qəbul edəcəklər. Hər kəs bu iki qardaşı ayrı-ayrılıqda (qiyamət səhnəsinə) gətirsə, heç biri qəbul olunmayacaq.

Nə əməlsiz iman qəbul olunar, nə də imansız əməl. Məsələn, bir kəsin xeyir işlərinin çox olmasına baxmayaraq, əgər imanı olmasa, etdiyi xeyirxah əməllər qəbul olunmayacaq. Həmçinin əməlsiz imanı da Allah dərgahında qəbul etməzlər.

Həzrət Əli(ə) buyurur: "Bir gün Peyğəmbər(s) mənə buyurdu:

يَا عَلِي أُكْتُب: بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيم اَلاِيْمَانُ مَا وَقَرَ فِي القُلُوب وَصَدَّقَهُ الأَعْمَال ، وَالإِسْلامُ مَا جَرَى عَلَى اللِّسان ، وَحَلت بِهِ الْمُناكِحَة

- Ya Əli, sənə söylədiklərimi yaz. Bağışlayan və Mehriban Allahın adı ilə. İman odur ki, ürəkdə qərar tutsun və əməllər də onu təsdiqləsin. Islam isə odur ki, insan dilində Allahı qəbul etmiş olsun.

Dildə müsəlmanlığı qəbul etməyin bir neçə faydası vardır ki, hədislərdə də buyurulur: “Dildə Allahı qəbul edib müsəlman olan insan atadan irs apara bilər. İslam ailəsi qura bilər. Ona toyuq, qoyun və s. əti halal olan heyvanların başını kəsməyə icazə verilir. Əgər İslamı dildə qəbul edən kəs əti halal olan heyvanın başını üzü qibləyə və “bismillah”la kəsərsə həmin heyvanın əti halaldır. Amma bu işi kafir görsə, həmin heyvanın əti pak deyil və yeyilməsi də haramdır.

Dildə İslamı qəbul edən, lakin dinin hökmlərinə riayət etməyən insana yalnız bu kimi əməllərin ona faydası olacaq. İslamı qəbul etmək o deməkdir ki, insan dildə Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə şəhadət versin. İman isə odur ki, insan İslamı qəbul etməklə yanaşı, əməldə də dinin bütün hökmlərini dəqiqliklə yerinə yetirsin.

قَالَ رَسُول اللّه(ص): ثَلاثٌ مَن كُنَّ فِيهِ ذَاقَ طَعمَ الإِيمان؛

مَنْ كانَ لاَ شَيءَ أَحَبُّ إِليه مِن اللّهِ وَرَسُوله،

وَمَن كَان لَأَن يُحْرِقَ بِالنّارِ أَحَبَّ إِليهِ من أَن يرتدَّ عَن دِينهِ،

وَمَن كَانَ يُحِبُّ لِلّهِ وَيُبْغَضُ لِلّهِ.

Həzrət Peyğəmbər(s) buyurur: “İmanın tamını üç keyfiyyətə malik olan şəxs dadıb:

1. Heç bir şeyi Allahdan və onun Peyğəmbərindən çox sevməmək;

2. Odda yandırılmağı dinindən əl çəkməkdən daha yaxşı saymaq;

3. Allaha görə dostluq və Ona görə düşmənçilik etmək;

Hədisdən belə nəticəyə gəlirir ki, İmanın dadını hiss etmək və onun ilk pilləsinə qədəm qoymaq üçün Allahı və Peyğəmbəri(s) hər şeydən çox sevmək lazımdır. Həqiqi mömin olan kəs Allaha məhəbbətini heç bir şeylə əvəz etməz. Mömininin qəlbində Allah və Peyğəmbərdən(s) mühüm və sevimli bir şey olmamalıdır.

Bir gün Həzrət Peyğəmbər(s) yolda bir cavanla rastlaşdı. Həmin cavan oğlan Peyğəmbərə(s) salam verdi və gülümsədi. O, hələ həddi-buluğa çatmamışdı. Həzrət Peyğəmbər(s) ondan soruşdu: “Ey cavan, məni sevirsənmi?

Cavan dedi: Əlbəttə, ya Rəsulallah.

Peyğəmbər(s) onu sınağa çəkmək üçün soruşdu: Məni gözlərindən də çox sevirsən?

Cavan dedi: Gözlərim sənə qurban, səni gözlərimdən çox sevirəm.

Peyğəmbər(s) soruşdu: Atanı sevdiyin qədər?

Cavan dedi: Atam sənə qurban olsun, səni ondan daha çox sevirəm.

Peyğəmbər(s) soruşdu: Ananı sevdiyin qədər?

Cavan dedi: Anam də sənə qurban olsun, səni daha çox sevirəm

Peyğəmbər(s) soruşdu: Özündən çox sevirsən?

Cavan dedi: Canım sənə fəda olsun, səni özümdən də çox sevirəm.

Peyğəmbər(s) soruşdu: Məni Allahı sevdiyin qədər sevirsən?

Cavan üç dəfə Allahın adını çəkdikdən sonra dedi: Ya Rəsulallah, mən səni Allaha xatir sevirəm".

Həzrət Peyğəmbərin(s) onun sözlərindən xoşu gəldi və üzünü səhabələrə tutaraq buyurdu: "Allahı bu cavan oğlan kimi sevin. Allahı sevin, çünki sizə yaxşılıqlar nəsib edir və Öz nemətlərini sizlərə bəxş edir. Məni də Allaha olan məhəbbətinizə görə (Ona xatir) sevin".

Həmçinin Allaha qəlbən iman gətirən insanı odda yandırsalar belə, öz imanından dönməməlidir. Tarix boyu həqiqi möminlərin əzab-əziyyət çəkdiklərini və imanlarından dönmədiklərinin şahidi olmuşuq. Bilal Həbəşi qara dərili bir insan idi. Peyğəmbər(s) zühur etdikdən sonra Bilal Həzrətə(s) qəlbən iman gətirdi. Müşriklər Bilalın Peyğəmbərə(s) iman gətirdiyini bilib, ona işgəncələr verməyə başladılar. İsti qum və daşların üzərində onu sinəsi üstə süründürdülər. Üstünə ağır daşlar qoyub əzab-əziyyət verirdilər. Balı bədəninə yaxıb arıları onun üstünə buraxırdılar. Arılar da onun bədəninə daraşıb sancırdılar. Onlar istəyirdilər ki, Bilal Allahı və Peyğəmbəri(s) inkar etsin. Bütün bu işgəncələrə baxmayaraq, görürdülər ki, Bilal Allahın adını zikr edir. Bilalın bu imanı onu elə bir dərəcəyə çatdırdı ki, Peyğəmbərin(s) azançısı oldu. Hər dəfə namaz vaxtı olarkən Peyğəmbər(s) Bilala azan verməyi tapşırırdı. Bilalın dili qüsurlu idi. Pəltək olduğundan "ş" hərfini "s" hərfi kimi tələffüz edirdi. Dərisinin qara və dilinin pəltək olmasına baxmayaraq, Allah-təala ona belə bir şərafəti

nəsib etdi. Çünki Bilal bütün işgəncələrə dözüb Allaha və Peyğəmbərə(s) olan imanından dönmədi.

Allah-təala belə bir imanın müştərisidir. Hər kəs Onunla ticarət etmək istəyirsə, ilk növbədə belə bir imana malik olmalıdır. Həzrət Peyğəmbər(s) bir gün səhabələrinə buyurdu:

مَتى أَلْقَى اِخْوَانِى؟ قَالُوا أَلَسْنا اِخْوَانُك؟ قَالَ: بَلْ اَنْتُم أَصْحَابِى وَ اِخوانِىَ الَّذِين امَنُوا بِى وَلَم يَرونِى وَ اَنَا اِلَيْهِم بِالإِشْواق

- Görəsən, qardaşlarımı nə vaxt ziyarət edəcəyəm? Soruşdular: Ya Rəsulallah, biz sənin qardaşların deyilikmi? Həzrət(s) buyurdu: Siz mənim səhabələrimsiniz. Amma mənim qardaşlarım o kəslərdir ki, (gələcəkdə) məni görmədən mənə iman gətirsinlər. Ürəyim onlar üçün yaman darıxır.

Allah-təala belə bir imanın müştərisidir. Hər kəsdə həqiqi iman varsa, Allah-təala həmin şəxsi ticarətə dəvət edir. Əlbəttə, bir şərtlə ki, bu imanda qarışıq olmasın. Yəni Allah xalis imanın müştərisidir. Buna görə də Allahla ticarət edən kəs öz imanına Allaha olan məhəbbətindən başqa heç bir şey qatmamalıdır. Belə olduqda bu imanı həm Allah, həm də Peyğəmbər(s) alır.

**2.Quran**

Allahla ticarətdə alınıb satılan şeylərdən biri də Qurandır. Yəni Quranı qəbul etmək, Ona iman gətirmək, Quranı oxumaq və öyrənib öyrətmək Allahla ticarət etməkdir.

Allah-təala "Bəqərə" surəsinin 63-cü ayəsində buyurur:

خُذُواْ مَا آتَيْنَاكُم بِقُوَّةٍ وَاذْكُرُواْ مَا فِيهِ لَعَلَّكُمْ تَتَّقُونَ

- Sizə verdiklərimizi əzmlə, möhkəm iradə ilə qəbul edin və orada olanları (əməl etmək üçün) xatırlayın, bəlkə təqvalı olasınız.

Allah-təala insanlara Quran nazil edib. İnsanlar gərək Allahın göndərdiyi bu müqəddəs kitabı açıb oxusun və oxuduqdan sonra ona əməl etsinlər. Quran ona görə nazil olmayıb ki, onun cildini bəzəyib taxçalara qoysunlar. Quran ona görə nazil olmayıb ki, onu bəzək kimi rəflərdə saxlasınlar. Hər kəs təqvalı olmaq istəyirsə, mütləq onu açıb oxumalı və əməl etməlidir. Təqvasız əməl heç vaxt Allah dərgahında qəbul olmaz.

Bu barədə "Fatir" surəsinin 29-cu ayəsində daha açıq-aydın deyilir.

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ

- Şübhəsiz, Allahın kitabını daim oxuyan və namaz qılan, ruzi olaraq onlara verdiklərimizdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər əsla kasadlığı və ziyanı olmayan bir ticarətə ümidvardırlar.

Həzrət Peyğəmbər(s) buyurur: "Quran oxuyun, onu öyrənib əməl edin. Çünki qiyamət günü Quran gözəl bir cavan oğlan simasında onu oxuyanın yanına gəlib deyəcək: Məni tanıyırsanmı? O, deyəcək: Xeyr. Sonra Quran əsl simasında görünəcək. Elə ki, Quran öz surətinə düşdü, onu oxuyan kəs dərhal deyəcək: İndi səni tanıdım. Sən Allahın kitabısan. Sonra yenidən gözəl cavan oğlan surətinə qayıdıb, onu oxuyan kəslə belə söhbət edəcək:

أَنَا الَّذِي كُنْتُ أَسْهَرتُ لَيْلَكَ وَأَطمَأْتُ هَواجِرَك وَأَجفَفْتُ رِيقَكَ وَأَسَلْتُ دَمعَتَك أَؤُولُ مَعَك حِيثمَا اُلتَ وَكُلُّ تَاجِرٍ مِن وَراءِ تِجَارَتِه وَأَنا اليَوم لَكَ مِن وَرَاءِ تِجَارَةِ كُلُّ تَاجِر وَسَيَأْتِيك كَرامَة مِن الله عَزَّوَجَلّ فَأَبشر، فَيُؤتى بِتاج فَيوضع عَلى رَأسِه وَيعطى الاَمَان بِيَمِينِه وَالْخَلد فِي الجِنَان...

- Mən o kəsəm ki, səni gecələr səhərə qədər yatmağa qoymurdum. (Gecələr əyləşib səhərə qədər məni oxuyurdun.) Mən həmin kəsəm ki, sən mənə görə oruc tuturdun və məni o qədər oxuyurdun ki, ağzının suyu quruyurdu. Məni oxuyarkən gözlərindən yaş axırdı. (Quran oxuyan şəxs görəcək ki, onun dediklərinin hamısı düzdür.).

Quran deyəcək: Elə isə mən səninlə birgə qalacağam. Çünki burada bütün tacirlər öz ticarətlərinin arxasında dayanıblar. Mən də sənin ticarətinin arxasında (ətrafında) dayanacağam. Sənin ticarətdə ziyan çəkməyinə imkan verməyəcəyəm. İndi Allah tərəfindən sənə elə bir kəramət nəsib olacaq ki, ürəyin şad olacaq”.

Quran oxuyanın başına tac qoyulacaq, əməl dəftəri onun sağ əlinə veriləcək və əbədi cənnətə gedəcəyini ona xəbər verəcəklər. Həmin şəxsə behişt libası geyindirib cənnətə yola salacaqlar.

Həzrət Peyğəmbər(s) buyurur: “Bu insanı cənnətə yola saldıqdan sonra soruşacaqlar: Onun ata-anasını gətirin. Əgər Quran oxuyanın ata-anası mömin olsalar, onlara da behişt libası geyindirib cənnətə yola salaraq deyəcəklər: Bu (cənnət) sizin öz övladınıza öyrətdiyiniz Quranın mükafatıdır”.

Quran oxumaq Allahla elə bir ticarətdir ki, insanın bu alveri heç vaxt kasad olmaz. Həmişə öz sahibinə xeyir və mənfəət gətirər. Quran oxuyub ona əməl edənlər qiyamət günü izzət və şərafətə çatar.

**3.Təqvaya riayət etmək və günahdan çəkinmək**

Hər kəs təqvaya riayət edib günahlardan çəkinirsə, deməli, bu ticarətdə Allahla alver etmiş olur. Nəyə görə insan nəğd günahı nisyə qiymətə görə tərk edir? Çünki bu insanın Allaha imanı var. Bilir ki, əgər günah etsə, bu alverdə ziyan görəcək. Günahdan çəkinməklə yaxşı qiymətə ticarət edir. Həzrət Peyğəmbər(s) İbn Məsuda buyurdu:

يَا ابنَ مَسْعُود: كُلّ مَا أَبْصرتَهُ بعَيْنِك واستَخْلاه قلبُك فَاجْعَلهُ لله فَذَلِكَ تِجَارَةُ الآخِرَة، لانَّ الله يَقُول: "مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللّهِ بَاقٍ"

- İbn Məsud, gözünlə gördüyün hər bir şeyi və ürəyindən keçəni yalnız Allaha xatir et. Çünki bu, axirətin ticarətidir. Allah-təala buyurur: "Sizin yanınızda olan tükənir və puç olur. Allahın yanında olan isə daimi və əbədidir."[1]

Qeyd etdiyimiz bu üç amil Allahla ticarətdə çox mühüm yer tutur. İman, Quran və günahdan çəkinmə bu ticarətdə ən zəruri amillərdir. Əgər bu üç amil düzəlsə, digər işlərin hamısı demək olar ki, öz yerini tutmuş olur. Bir neçə nümunəni nəzərinizə çatdırıram.

---

[1] Nəhl,96.

**4.Namaz**

Namaz elə bir əməldir ki, insanın imanını sübuta yetirir. Yəni mömin insanla kafiri bir-birindən fərqləndirən əməllərdən biri və mühüm olanı namazdır. Əgər insan Allaha iman gətirib Quran oxuyursa, mütləq namaz da qılmalıdır. Allah-təala "Fatir" surəsinin 29-cu ayəsində buyurur:

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ

- Şübhəsiz, Allahın kitabını daim oxuyan və namaz qılan, ruzi olaraq onlara verdiklərimizdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər əsla kasadlığı və ziyanı olmayan bir ticarətə ümidvardırlar.

Deməli, Allahın kitabını oxuyub əməl etdikdən və namaz qıldıqdan sonra insan öz ticarətindən nəticə əldə edir. Buradan başa düşürük ki, bu ticarət namazsız mümkün deyil.

Həzrət Əli(ə) buyurur: "Allah-təala möminləri tərif edərkən belə buyurur:

رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

- Heç bir ticarət və alış-verişin Allahı yad etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmadığı kişilər. Onlar ürəklərin və gözlərin pərişan və fərqli olacağı gündən qorxurlar.[1]

Mərhum Müqəddəs Əhməd Ərdəbili İslam dünyasında çox tanınmış alimlərdən biri olmuşdur. O,

[1] Nur surəsi,37.

Ərdəbilin Niyar kəndində dünyaya göz açmışdı. Təqribən 500 il bundan əvvəl yaşamışdır. Müqəddəs Ərdəbili o şəxsiyyətlərdəndir ki, müctəhid, alim olmasına və kitablar yazmasına baxmayaraq, hər hansı məsələdə çətinliyi olsaydı, gedib Kufə məscidində Həzrət Əlinin(ə) özündən soruşarmış. Belə bir kəramət və fəzilətə malik insan idi. Hansı səbəbə görə Allah-təala ona bu şərafəti inayət etmişdi? Onun rəhmətlik anası deyir: "O, dünyaya gələndə iki il ona süd vermişəm. Amma yadıma gəlmir ki, bircə dəfə də olsa ona dəstəmazsız süd verim. Heç vaxt mən Əhmədə dəstəmazsız süd verməmişəm".

Gənc yaşlarında o, təhsil almaq üçün Nəcəfə yollanır. Mədrəsədə bir nəfərlə dostlaşıb otaq yoldaşı olurlar. Bir yerdə dərsə gedib gələr və bir yerdə də yemək yeyərdilər. Lakin o zamanlar çox çətinliklə dərs oxuyurdular. Çünki maddi durumları çox acınacaqlı vəziyyətdə idi. Günlərin birində Müqəddəs Ərdəbili öz dostuna deyir: Səndən bir xahişim var. Vəziyyətimiz nə qədər ağır da olsa gəl bundan sonra heç kəsə öz dərdimizi danışmayaq. Dostu onunla razılaşır. Bu söhbətin üstündən bir neçə gün keçir və bütün pulları qurtarır. Belə olur ki, günlərlə yeməyə bir şey tapmırlar. Bir gün Müqəddəs Ərdəbili dərsə gedir və dostu mədrəsədə qalır. Bir nəfər mədrəsədə onun rənginin saraldığını və halsız olduğunu görür. Soruşur ki, sənə nə olub belə? Dostu deyir: Heç nə. Həmin şəxs soruşur: Axı sənin halın çox pisdir. De görüm, sənə nə olub? Dostu cavab verməkdən imtina edir. Həmin şəxs o qədər israr edir ki, axırda o, vəziyyəti ona danışır. Həmin şəxs gedir və yaxşı bazarlıq edib onlara gətirir. Üstündə də iki baglama pul verib deyir: Biri sənin olsun, o birini də dostuna verərsən. Əhməd dərsdən gəlib otağa girir. Görür ki, müxtəlif ərzaq məhsulları var. Dostundan soruşur: Bu

nədir belə? Dostu deyir: Bir nəfər mədrəsəyə gəlmişdi. Mənim halımı görüb nə olduğunu soruşdu. Mən ona cavab vermədim. O, çox israr etdi və məndən əl çəkmədi. Mən də ona vəziyyəti danışdım. O da gedib bizim üçün bazarlıq etdi və iki bağlama  pul verdi. Hər kəs öz payını götürüb yemək yeyir və yenidən öz dərsləri ilə məşğul olurlar. Gecə yarısı sübh azanına bir saat qalmış Əhməd yuxudan ayılıb görür ki, boynuna qüsl gəlib. Ayağa qalxıb qaça-qaça hamama gedir. Görür ki, hamamçı gəlib, amma hələ açmayıb. Hamamçıya deyir: Olarmı hamamı açasan, mən içəri keçim? Hamamçı deyir: Xeyr, biz həmişə hamamı sübh azanında açırıq. Əhməd deyir: Bilirəm ki, hamam sübh namazı vaxtı açılır, amma xahiş edirəm, mənə içəri keçməyə icazə verəsən. Hamamçı deyir: Olmaz, çünki hamamın yiyəsi mənə namazdan tez hamamı açmağa icazə vermir. Əhməd deyir: Səhər mən özüm də hamamın yiyəsi ilə danışaram və sənə iki-üç dəfə artıq pul verərəm. Hamamçı yenə də razı olmur. Əhməd deyir: Mən sənə bir bağlama pul verməyə razıyam, amma xahiş edirəm hamamı açasan. Çünki sübh namazından qabaq mənim gecə müstəhəb namazım var. İstəmirəm ki, gecə namazını əldən buraxım. Hamamçı pulu ondan alıb içəri buraxır. Əhməd bağlamada nə qədər pul olduğunu saymamışdı. Çünki onun üçün pul maraqlı deyildi. Ən əsası odur ki, gecə namazı əlindən çıxmasın. Buna görə də pulun hamısını hamamçıya verib içəri keçdi və qüslünü verib gecə namazını qıldı.

Müqəddəs Ərdəbili deyir: “Allah mənə hər nə inayət etdisə, həmin gecədən başlandı”.

O, gənc yaşlarında Allahla belə bir alver edib bəhrəsini də gördü. Onun üçün bağlamadakı pulların heç

bir əhəmiyyəti yox idi. Bir gecə Allaha ibadəti əldən verməmək üçün pulun hamısını hamamçıya verir.

**5.Oruc**

Oruc elə bir əməldir ki, Allah insanlardan bu əməli alır. Allah-təala oruc tutan möminlərin müştərisidir. Allah-təala Ona xatir oruc tutan möminin ağzından gələn iyə belə müştəridir.

قَالَ رَسُولُ اللهِ(ص): لَيْسَ شَيئٌ أَطيَبَ عِنْدَ اللهِ مِن رِيح فَم صَائِمٍ تَرَكَ الطَّعَام وَ الشَّرَاب لِلّهِ رَبِّ العَالَمِين وَآثَرَ اللهَ عَلى مَا سِواه وَابْتَاعَ آخِرَتَهُ بِدُنْياه فَإن اسْتَطَعْتَ اَن يَأتِيك الْمَوت وَ اَنْتَ جَائِع وَ كبدُك ظمْانُ فَافعَل فَاِنَّكَ تَنَالُ بِذلِكَ أَشرَفَ الْمَنازِل وَ تَحِلَّ مَعَ الأَبْرار وَ الشُّهَداء وَالصَّالِحِين

Həzrət Peyğəmbər(s) buyurur: “Ərşdə (Allahın yanında) aləmlərin Rəbbi olan Allaha xatir yemək-içməkdən əl çəkib oruc tutan insanın ağzından gələn iy kimi ətirli bir şey yoxdur. Oruc tutub Allahı hər bir şeydən üstün tutan insan axirətini dünyasına satin almişdır. Ölümün yetişənə qədər bu hali (Allaha xatir oruc tutaraq ac və susuz qalmaği) özündə qoruyub saxlaya bilsən, Cənnətdə ən şərafətli mənzillərə nail olub, möhtərəm bəndələr, şəhidlər və saleh insanlarla birgə olacaqsan.

Həccac ibn Yusif tarixdə ən cinayətkar və qantökən insanlardan biri idi. Hamı onun necə qəddar və zalım olduğunu bilirdi. Günlərin birində səfərə çıxmışdı. Bir yerdə çadırları qurub nahar etmək üçün istirahət edirdilər. Hava dəhşətli dərəcədə isti idi. Qulluqçular qazanları qoyub yemək hazırlamağa başlamışdılar. Həccac ətrafa

baxıb gördü ki, havanın dəhşətli istisindən bir çoban qoyunları bir yerə yığıb hərdən sərinləmək üçün başını qoyunlarının qarnının altında saxlayır. Həccac kimi qan tökən bir insanın onun bu halına ürəyi yandı və yanına çağırtdırdı. Çoban gəlib Həccacın qarşısında dayandı. Həccac dedi: "İstəyirəm bizimlə nahar edəsən. Çoban dedi: Mən yemək istəmirəm. Həccac dedi: Yəqin ki, buradan başqa özünə yağlı bir yer tapmısan? Çoban dedi: Bəli. Həccac dedi: Buradan yağlı yer tapmağın mümkün deyil. Çoban dedi: Mən bu gün oruc tutmuşam və iftara Allaha qonağam. Allahın qonaqlığı və cənnəti buradan daha yağlıdır. (O bilirdi ki, Allahın yanında olan nemətlər həmişəlik və əbədidir) Həccac dedi: Gəl, bu gün mənim qonağım ol, sabah yenə də oruc tutub Allahın qonağı olarsan. Çoban dedi: Xeyr, razı olmaram. Həccac dedi: Nə üçün? Çoban dedi: Sən sabah mənim sağ qalacağıma yazılı bir kağız verə bilərsənmi? Bəlkə sabaha mən sağ çıxmadım, onda necə olacaq?"

### 5. Cihad

Möminin əməllərindən biri də cihaddır ki, Allah-təala bu əmələ müştəridir. Lazım gəldikdə mal ilə, yeri gəldikdə isə can ilə cihad etmək möminin Allahla olan ticarətidir. Allah-təala "Səff" surəsinin 11-ci ayəsində buyurur:

تُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ وَتُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ
ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

- Allah və Onun Rəsuluna iman gətirin və Allah yolunda mallarınız və canlarınızla cihad edin. Əgər bilsəniz, (iman və cihad) sizin üçün daha xeyirlidir.

Allah-təala bu ayədə möminlərə cihad etməyin nə qədər xeyirli olduğunu bəyan edir. Həmçinin möminləri belə bir ticarətə dəvət edir. Əgər insan bu alverin nə qədər faydalı olduğunu başa düşüb dərk etsə, çalışar ki, hamıdan birinci bu əməli yerinə yetirsin. Tarixə nəzər saldıqda görürük ki, Bədr və Ühüd kimi döyüşlərdə Peyğəmbərin(s) səhabələri bu yolda öndə getmək üçün bir-biri ilə yarışırdılar. İslam döyüşlərində ata-bala arasında mübahisə düşürdü ki, kim döyüşə getməlidir. Bir ailədə ata öz oğluna dedi: Oğlum, sən qal evdə, mən gedim Peyğəmbərə(s) kömək edim. Oğlu isə deyirdi: Atacan, sən evdə qal, ailəni dolandır və icazə ver mən gedim. Beləcə mübahisə yarandı və onlar püşk atmalı oldular. Püşk atdıqda oğlanın xeyrinə düşdü. Ata öz oğlunu döyüş meydanına yola salır. Oğlan döyüşə gedib şəhid olur. Şəhid olduqdan sonra gecələrin birində atası onu yuxuda görür. Oğlu atasına deyir: Atacan, burada Allahın bizə verdiyi vədlərin hamısının həqiqət olduğunu gördüm. Atası yuxudan ayılıb ağlayır. Səhərisi gün Peyğəmbərin(s) hüzuruna gedib deyir: “Ya Rəsulallah, xahiş edirəm mənə dua et, Allah mənə şəhadət nəsib etsin”. Həzrət Peyğəmbər(s) gördü ki, kişi çox səbrsiz halda onun yanına gəlib. Peyğəmbər(s) ona dua etdi. Bir il keçmədi ki, o, Ühüd müharibəsində şəhid oldu.

Allah-təala möminlərdən həm mallarını, həm də canlarını alaraq, onları böyük və çox mənfəətli bir ticarətə dəvət edir.

**5. Allah yolunda yoxsullara əl tutma**

Allah yolunda infaq etmək bu ticarətdə alınan gözəl əməllərdən biridir. Allah-təala bu əməlin də müştərisidir. “Fatir” surəsinin 29-cu ayəsində buyurur:

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ

- Şübhəsiz, Allahın kitabını daim oxuyan və namaz qılan, ruzi olaraq onlara verdiklərimizdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər əsla kasadlığı və ziyanı olmayan bir ticarətə ümidvardırlar.

Çox yaxşı olar ki, insan imkan daxilində yoxsullara əl tutsun. Əlbəttə, bunu da yada salmaq lazımdır ki, belə bir işi görən yalnız Allaha xatir görməlidir. İnsan bir yoxsula və ya çarəsizə köməklik edərkən camaatın onu tərifləməsi niyyətində olmamalıdır. Belə olduqda bu, ticarətin şərtinə uyğun gəlməyəcək və Allah həmin əməli qəbul etməyəcək. İnsan bu işi yalnız və yalnız Allaha görə etməlidir.

**Nəticə**

Beləliklə, Allahın möminlərə təklif etdiyi bu ticarətin nəticəsində nə əldə olunur? Möminlər bu ticarətin sonunda hansı mənfəəti kəsb edirlər? Bu ticarətin nəticəsi ən böyük səadət və xoşbəxtlikdir. Allah-təala buyurur:

وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالإِنجِيلِ وَالْقُرْآنِ وَمَنْ أَوْفَى بِعَهْدِهِ مِنَ اللّهِ فَاسْتَبْشِرُواْ بِبَيْعِكُمُ الَّذِي بَايَعْتُم بِهِ وَذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

- (Bu alver) Onun öhdəsində olan – (Onun əzəli elmindən başqa, həm də Lövhi-Məhfuzda qeyd olunmuş və alver sənədi kimi) Tövrat, İncil və Quranda (yazılmış) haqq bir vəddir. Allahdan başqa kim öz əhdinə daha

vəfalıdır?! Buna görə də etdiyiniz bu alverə şad olun. Budur böyük uğur və qurtuluş![1]

Hədislərdə deyilir ki, Allah cənnətdə olanlardan soruşar: Dünyada neçə gün yaşayıb ömür sürdünüz? Həmin şəxs (dünyada 60-70 il yaşamasına baxmayaraq) belə cavab verər: Bir gün. Bəlkə də yarım gün. Allah-təala buyurar: Nə gözəl alver etmisiniz. (Yarım gün dünyada yaşamaqla əbədi cənnət qazandınız.) Sonra Allah cəhənnəm əhlindən soruşar. Dünyada neçə gün yaşadınız? Onlar da həmin cavabı verərək deyərlər: Bir və ya yarım gün. Allah-təala buyurar: Nə pis və ziyanlı alver etmisiniz. (Yarım günə görə əbədiyyəti (cənnəti) əlinizdən çıxardınız.)

Allah-təala dünya və axirətimizi abad etsin, İnşallah.

Allahın sizlərə rəhməti və bərəkəti olsun!

***2009, 21,23 ramazan***

[1] Tövbə-111

# MÜNDƏRİCAT

**Mübarək Ramazan rəhmət ayı, məğfirət və bərəkət ayıdır**
Qədr gecəsi nədir?.............................................................
Quran baxımından Qədr gecəsinin fəziləti..........................
Qədr gecəsi hədislərdə ......................................................
Qədr gecəsinin əməlləri ....................................................
Qədr gecəsi və İmam Əlinin(ə) şəhadəti.............................
İmam Əlinin(ə) fəziləti.......................................................
İmam Əlinin(ə) vəsiyyətləri ...............................................
**Qədr gecəsi ibadət və dua gecəsidir.................................**
Kin-küdurət .........................................................................
Şərab....................................................................................
Validеyn üzünə ağ olmaq...................................................
**Quran və Əhli-beyt (ə).......................................................**
Quran haqqında buyurduğu hədislər .................................
Peyğəmbərin(s) Əhli-beyt(ə) haqqında buyurduğu hədislər
Peyğəmbərin(s) Əli(ə) barədə buyurduğu hədislər .............
**Tövbə...................................................................................**
İslam baxımından insanın xüsusiyyətləri ............................
Günahların nəticəsi ............................................................
**Əhli-beyt(ə) .........................................................................**
**Əmr sahibləri.......................................................................**
İnsan və əbədiyyət...............................................................
İnsanın qiyməti....................................................................
Tövbə ..................................................................................
Təqva...................................................................................
**İman....................................................................................**
Dildə Allaha iman gətirmək...............................................
Əqli dəlillərin vasitəsilə Allaha iman gətirmək .................
Qəlbən Allaha iman gətirmək ............................................
Qəlbdə iman yaradan amillər .............................................
Tövbə ..................................................................................
İbadət...................................................................................

Ölümü yada salmaq............................................................
Quran oxumaq.....................................................................
Camaata xidmət etmək.........................................................
İxlas.........................................................................................
Əhli-beytə(ə) təvəssül və məhəbbət....................................
**Əhdə vəfa və duaların qəbul olunması**.............................
İnsanların Allahla bağladığı əhd-peyman ............................
İnsanların Peyğəmbərlə(s) bağladığı əhd-peyman...............
Əhd-peyman.........................................................................
Həzrət Əli(ə) Quranın danışan dilidir .................................
**Xoşbəxt insan**......................................................................
Əməllərin ölçülməsi.............................................................
Qiyamət günü tərəzinin ağır gəlməsinə səbəb olan əməllər
Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə şəhadət vermək..................................................................................
İnsanın batini (daxili) təmiz olmalıdır ................................
Quran oxumaq.....................................................................
Böhtan atılan və qeybəti danışılan şəxs ..............................
Peyğəmbər(s) və Əhli-beytinin(ə) məhəbbəti......................
Xanım Fatimeyi Zəhraya(s.ə) xüsusi məhəbbət..................
Peyğəmbər(s) və Peyğəmbərin(s) ailəsinə salavat göndərmək
**İbadət**.......................................................................................
Qədr gecəsi ibadət gecəsidir ...............................................
Qədr gecəsi necə qeyd olunmalıdır? ...................................
İbadət.....................................................................................
İbadətin mənası ....................................................................
İbadətin lüğəvi mənası .........................................................
İbadətin ümumi mənası........................................................
İbadətin şəriətdə mənası.......................................................
İbadətin qəbul olunmasının əsas şərti .................................
Həzrət Əli(ə) ixlasın bariz nümunəsidir..............................
Quran və vilayət...................................................................
İbadət (İslamın buyurduğu kimi ibadət etmək)....................
İbadət edən insanlar üç qismdir ..........................................

Hacı Zeynalabdın Tağıyevin hekayəti ................................
Vasitə və hədəf..........................................................................
İbadət və cəmiyyət ......................................................................
Namaz ...........................................................................................
Oruc..............................................................................................
Zəkat.............................................................................................
Cihad .............................................................................................
Zahidlik ........................................................................................
**Dua**.............................................................................................
Duanın növləri..............................................................................
Qədr gecəsi dua etməli bir gecədir.....................................
Duanın şərtləri .............................................................................
Mərifətlə dua etmək ...................................................................
Mərifətin tələblərinə uyğun əməl etmək .............................
Halal qazanc və halal yemək..............................................
Dua edərkən qəlb .........................................................................
Dua etməyin ədəb-ərkanı ...........................................................
Duaların qəbul olunmasının qarşısını kəsən amillər...........
Günah ...........................................................................................
Zülm .............................................................................................
Boynunda haram mal və ya evində haram alətlərin olması .
Əmr be-məruf və nəhy əz-münkəri tərk etmək...................
İnsanın duaları Allahın hikməti ilə üst-üstə düşmədiyi halda
Dua edənin məsləhətinin yersiz olduğu yer ........................
İnsanın duasından Allahın xoşu gəldiyi yer........................
Qədr gecəsi ibadət və dua gecəsidir....................................
**Həzrət Əlinin(ə) vəsiyyəti ...............................................**
Təqva.............................................................................................
Haqq söz demək............................................................................
Allah savabına və əcrinə əməl etmək.................................
Zalımın düşməni, məzlumun tərəfdarı olmaq.....................
Nizam-intizamlı olmaq ...............................................................
İnsanlar arasında sülh və mehribanlıq yaratmaq.................
Yetimlərə yardım və nəvaziş..................................................

Qonşularla xoş davranış ....................................................
Quran ..........................................................................
Namaz .........................................................................
Allah evinin (Kəbənin) ziyarəti ..........................................
Cihad ..........................................................................
Səmimiyyət və bir-biri ilə əlaqə yaratmaq ..........................
Əmr be-məruf və nəhy əz-münkər .....................................
**İmam Əlinin(ə) şəxsiyyəti ................................................**
Yer kürəsinin üç hərəkəti ..................................................
İnsanın üç hərəkəti ...........................................................
Həzrət Əli(ə) ən mükəmməl insandır .................................
Həzrət Əlinin(ə) şücaəti ....................................................
Həzrət Əlinin(ə) ədaləti .....................................................
Həzrət Əlinin(ə) ibadəti ....................................................
Həzrət Əlinin(ə) fəzilətləri ................................................
**Günah və onun təsiri**
Günahın vəzi və təklifi təsiri ...............................................
Günahın mənəvi təsiri .......................................................
Allahın rəhmətindən məyus olmaq böyük günahdır ...........
**İnsanın vədələri və cəmiyyətdə bir-biri ilə əlaqə yaratmaq**
Allahla bağladığınız əhd-peymanı ucuz tutmayın ..............
İnsanların Peyğəmbərlə(s) bağladığı əhd-peyman ..............
İnsanlar nə üçün vədlərini pozurlar? ..................................
Həzrət Əli(ə) dünya və axirətin fatehidir ............................
**İman və saleh əməl .........................................................**
Haram yeməklərdən qorunmaq ..........................................
Şəhvətdən qorunmaq ..........................................................
**Allaha yaxın olmaq .........................................................**
Müqərrəbin mənası ...........................................................
Təkvini və ixtiyari hərəkət .................................................
İnsanı Allaha yaxın edən səbəblər .......................................
Qədr gecəsi .......................................................................
Tövbə və peşmançılıq .......................................................
Həzrət Əlinin(ə) vilayət və məhəbbəti ................................

Allaha yaxın insanların sifət və xüsusiyyətləri ....................
İnsanı Allaha yaxınlaşdıran əməllər.....................................
Allaha, Peyğəmbərə(s) və imamlara itaət etmək .................
Günahdan çəkinmək...........................................................
Xərc çəkmə və camaata xidmət etmək.................................
Allaha xəlvətdə ibadət etmək..............................................
**Ticarət ..........................................................................**
Ticarətin əsasları və şərtləri .................................................
Allahın insanlarla ticarəti.....................................................
Bu ticarətdə alınan mallar ....................................................
İman ....................................................................................
Quran...................................................................................
Günahdan çəkinmək...........................................................
Namaz qılmaq .....................................................................
Oruc.....................................................................................
Mal və can ilə cihad ............................................................
Allah yolunda sərf etmə.......................................................
Nəticə ..................................................................................